Nərgiz AXUNDOVA

# ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİNİN ORTA ƏSRLƏR TARİXİ

*Dərslik*

Azərbaycan Respublikası
Təhsil Nazirinin 14.10.2010-cu il
tarixli 1345 saylı əmri ilə dərslik
kimi təsdiq edilmişdir.

"ADİLOĞLU"
Bakı - 2010

**Nərgiz Çingiz qızı Axundova**
*BDU-nun Asiya və Afrika ölkələri tarixi kafedrasının professoru, tarix elmləri doktoru*

*Elmi redaktor*
***tarix elmləri namizədi, dosent*** **R.İ. İsmayıl**

**Rəyçilər:** *Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasının rektoru, tarix kafedrasının müdiri, t.e.d., prof.* **S.M. Qəndilov**; *AMEA-nın müxbir üzvü, ADPU-nin ümumi tarix kafedrasının müdiri* **V.H.Əliyev**; *BDU-nun Asiya və Afrika ölkələri tarixi kafedrasının əməkdaşları – t.e.n., dos.* **R.B.Aslanov**, *t.e.n., dos.* **Q.Ş.Davudov**, *t.e.n., dos.* **A.R.Bağırova**, *t.e.n., dos.* **G.İ.Qarayeva**, *t.e.n., dos.* **A.A.Məmmədli**

**Axundova N.Ç.** Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. *Dərslik.* Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2010, 327 səh.

«Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi» dərsliyi region ölkələrinin orta əsrlər dövrünü əhatə edir. Burada şərq cəmiyyətinin xüsusiyyətləri açıqlanır, orta əsrlərdə Asiya və Afrika ölkələri tarixində baş verən ən vacib hadisə və problemlər işıqlandırılır, həmin ölkələrin ictimai-siyasi, iqtisadi inkişafının əsas istiqamətləri haqqında məlumat verilir.

Dərslik ali məktəb tələbələri, müəllimlər və tarixlə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

4722110018 / 121 - 2010 qrifli nəşr

©«Bakı Universiteti» nəşriyyatı, 2010

# GİRİŞ

Asiya və Afrika ölkələri tarixi kursu universitetlərdə dünya tarixinin tərkib hissəsi kimi tədris edilir. Qeyd edək ki, Asiya və Afrika ölkələri xalqlarının qədim tarixi «Qədim dünya tarixi» kursunda tədris olunduğundan biz həmin ölkələrin tarixinin müstəqil şəkildə öyrənilməsinə orta əsrlər dövründən başlayırıq.

Asiya və Afrika ölkələrinin orta əsrlər tarixinin öyrənilməsinin çox böyük siyasi və elmi əhəmiyyəti vardır. Bu da öz ifadəsini bəşər tarixinin gedişində həmin bölgə xalqlarının oynadığı rolun müəyyənləşdirilməsində tapır. Bununla yanaşı, Asiya və Afrika ölkələri xalqlarının keçmişinin hərtərəfli öyrənilməsi yüksək qədim mədəniyyəti olan ölkələrin geri qalması, asılı və müstəmləkə ölkələrinə çevrilməsi səbəblərini, həmçinin həmin xalqların azadlıq mübarizəsinin spesifik xüsusiyyətlərini aydınlaşdırmağa kömək edir. Ümumiyyətlə, bu kurs çox aktualdır və Asiya və Afrika ölkələrində mövcud olan müasir problemləri daha tam anlamaq baxımından olduqca gərəklidir.

Orta əsrlər dedikdə, feodal ictimai-iqtisadi və siyasi münasibətlər sisteminin meydana gəlməsi, təşəkkülü və məhvi, eləcə də onun dağılması zəminində yeni-kapitalist münasibətlərinin yaranması dövrü nəzərdə tutulur. Məlum olduğu kimi, hər iki qitədə feodal münasibətləri çox uzun müddət davam etmişdir. Bu regionda siyasi, sosial-iqtisadi və mədəni həyatın yüksək inkişafı məhz orta əsrlərdə olmuşdur. Maraqlı haldır ki, feodal münasibətlərinin qalıqları hal-hazırda bu ölkələrdə, az da olsa, saxlanılmaqdadır.

Deyilənlərdən aydın olur ki, Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi kursu çox böyük tarixi dövrü və bölgəni əhatə edir. Bunun müqabilində az vaxtda tələbələrə elə qısa, yığcam və eyni zamanda dövrün bütün xüsusiyyətlərini əks etdirən material vermək lazımdır ki, onlar ümumiyyətlə həm bu bölgədə, həm də onun hər hansı bir ölkəsində feodal cəmiyyətinin ümumi qanunauyğunluqları və özünəməxsus fərqli cəhətləri haqqında təsəvvürə malik olsunlar, hər bir şərq xalqının yaratdığı mədəniyyəti bütün böyüklüyü ilə təsəvvürlərində canlandırsınlar, ümumilikdə isə bəşər tarixinin inkişafı prosesində şərq xalqlarının yerini və rolunu müəyyən edə bilsinlər.

Dərslik tarix, ümumiyyətlə isə humanitar ixtisas tələbələri üçün nəzərdə tutulmuşdur. Dərslikdəki materiallar bakalavr təhsili proqramlarına uyğundur və Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi haqqında tam təsəvvür yaratmağa xidmət edir.

# YAPONİYA ORTA ƏSRLƏRDƏ

**İbtidai icma münasibətlərinin dağılması**

Yaponiyada feodalizm cəmiyyətinin təşəkkülü III-VIII əsrlərə təsadüf edir. Əmək alətlərinin təkmilləşməsi əkinçiliyin inkişafına və əmək məhsuldarlığının artmasına səbəb oldu ki, bu da qəbilə icmasının dağılması ilə nəticələndi. Sosial təbəqələşmə və əmlak bərabərsizliyi kəskinləşdi və qəbilənin (*udzi*) daxilində imtiyazlılara və qeyri-bərabər hüquqlu olanlara bölünmə baş verdi. Digər qəbilə üzvlərinin və sənətkarların əmək məhsullarını mənimsəyən qəbilə əyanları meydana gəldi. Eyni zamanda, qəbilələrarası ziddiyyətlər və mübarizə də kəskinləşdi. Öncə ayrı-ayrı qəbilələrin sıradan çıxarılmasına gətirən bu mübarizə, sonradan məğlub qəbilələrin qalib qəbilələrə xərac verməsi ilə başa çatdı. Qəbilələrarası mübarizə cəmiyyətin sosial strukturunun dəyişilməsini sürətləndirdi. Bundan belə qəbiləyə ağsaqqal və onun qohumlarından başqa, yarı azad, tamhüquqlu olmayan (*be*) və əsasən qullardan (*yatsuko*) və sənətkarlardan ibarət təbəqə də daxil oldu. Bu təbəqənin əsas artım mənbəyi III-V əsrlərdə yaponların Koreya yarımadasına basqınları vaxtı əsir alınan koreyalılar idi.

İbtidai icma quruluşunun təkamülündə yeni mərhələ IV-V əsrlərdə Yaponiyada *tayfa birliklərinin yaranması* oldu. Çin tarixçilərinin məlumatlarına əsasən, V əsrdə ölkənin şərqində 55, qərbində 66, dəniz boyu şimal ərazilərində isə 95 «ölkənin» (qəbilə-tayfa birlikləri) birləşməsi baş vermişdi. Bu birliyin başında güclü Yamato nəsli dururdu və onların arasından tayfa birliklərinin irsi başçıları seçilirdi.

İbtidai icma quruluşunun dağılma prosesi, yeni sosial qüvvələrin yaranması və dövlətin formalaşması torpaq mülkiyyət formalarının təkamülü prosesində də müşahidə olunurdu.

Əkinçiliyin inkişafı icma torpaq mülkiyyətinin dağılması, icma üzvlərinin zəngin və adlı-sanlı yuxarı təbəqələrdən iqtisadi asılılığının güclənməsi, xüsusi torpaq mülkiyyətinin yaranması, ictimai əmək bölgüsü və icmalararası mübadilənin inkişafı ilə bilavasitə

bağlı proses geniş miqyas alırdı. Torpaq mülkiyyətinin əsas forması olan «hökmdar tarlaları» tayfa başçısına və onun ailəsinə aid idi və müflisləşmiş icma üzvləri tərəfindən becərilirdi. «Hökmdar tarlaları»ndan başqa azad olmayanlar tərəfindən becərilən qəbilə-tayfa əyanlarının şəxsi torpaqları da var idi. Feodal münasibətlərinin yaranması və təşəkkül tapması dövrünə xas olan üç vergi tətbiq olunurdu: taxıl töycüsü, sənətkarlıq məhsulları töycüsü və tikinti, irriqasiya və qurutma işlərinin aparılması üçün yerinə yetirilən biyar.

VI-VII əsrlərdə qohumluq münasibətləri əsasında qurulan icma, ərazi və təsərrüfat prinsiplərinə söykənən kənd (qonşu) tipli əkinçilik icmasına çevrildi.

Kənd icması daxilində torpaqların vaxtaşırı yenidən bölüşdürülməsi baş verirdi. Fərdi ailələr adambaşına düşən torpaq mülklərini həmişəlik deyil, müvəqqəti istifadə üçün alırdılar. Bununla belə, ən yaxşı icma torpaqları qəbilə-tayfa əyanları tərəfindən mənimsənilirdi və onların xüsusi mülkiyyətinə çevrilirdi. Bu torpaqlarda müflisləşmiş icma üzvləri olan yarı-azad əkinçilər (tabe) işləyirdilər.

Sosial təbəqələrin və dövlətin formalaşması prosesi qəbilələrin tayfa birliyində başçılıq uğrunda apardığı kəskin və uzunsürən mübarizə şəraitində baş verirdi. V əsrin ortalarından 587-ci ilə qədər bu mübarizə Kabura, Xequri, Otomo, Mononobe və Soqa evləri-ailələri arasında getmişdi. Onlar bir-birinin ardınca tayfa birliyinin başına keçirdilər.

**Tayka çevrilişi və islahatlar, onların nəticəsi**

Bu mübarizənin son mərhələsində Soqa evi-ailəsi və «hökmdar nəsli» olan Sumeraqi evi-ailəsi toqquşdular. VII əsrdə tayfa birliyinin «göyün oğlu» – hökmdar başda olmaqla güclü, mərkəzləşmiş dövlətlə əvəz edilməsi cəhdi baş verdi. Soqa evindən tayfa birliyinin başçısının vəliəhdi, VI əsrdə Yaponiyaya gələn buddizm və konfusiçiliklə tanış olan, dövrün ən təhsilli adamlarından «şahzadə» Syotoku-tayşi (572-621) 603-cü ildə əyanlar üçün iyerarxik «Rütbələr Haqqında 12 Cədvəl» tərtib etdi, 604-cü ildə isə «17 Maddə Qanun»u qəbul olundu. Buddizm,

əsasən də dövlət quruculuğu və monarxın suverenliyi haqqında konfusiaçılıq ideyalarını ehtiva edən «Qanun»da aşağı təbəqələrin yuxarı təbəqələrə tabe olması və qeyri-məhdud (mütləq) səlahiyyətlərə malik monarx – müdrik hakim tərəfindən idarə olunacaq mərkəzləşmiş dövlətin yaranması bəyan olunurdu. Syotokutayşinin qanunvericiliyi sonrakı «Tayka çevrilişi»nin (böyük dəyişiklik) sələfi oldu.

«Tayka çevrilişi» qəbilə-tayfa əyanlarının iki evinin ittifaqı: Sumeraqi və Nakatomi (669-cu ildə Fudzivara soyadını aldılar) tərəfindən hazırlanmışdı. Çevrilişə «şahzadə» Naka-no Oe, Nakatomi Kamatari və Abe Kuraxasimaro başçılıq edirdilər. 645-ci ildə Soqa evinin hakimiyyəti dağıdıldı və hakimiyyətə Sumeraqi evi gəldi.

Bundan sonra 645-646-cı illərdə çevrilişin məqsədilə bilavasitə bağlı bir sıra islahatlar həyata keçirildi. Qəbilə-tayfa əyanlarının irsi titulları və onların torpaqlara sahiblik haqları ləğv edildi. Bütün torpaqlar imperatorun təcəssüm etdirdiyi dövlətin mülkiyyəti elan olundu. Bundan başqa, Tan Çinindən, demək olar ki, dəyişilmədən götürülmüş «torpaqların bölüşdürülməsi» («*kubinden*») sisteminə görə torpaqların ayrı-ayrı ailələr arasında 6 ildən bir bölünməsi nəzərdə tutulurdu. Beləliklə, torpağın tamamilə dövlət mülkiyyəti olması prinsipi yapon cəmiyyətinin iqtisadi prinsipini təşkil etdi. Tayka çevrilişi nəticəsində Yaponiyada pay torpaq sistemi bərqərar oldu. Əhali isə dövlət paylarının mülkiyyətçisinə çevrildi. Pay Torpaq mülkiyyəti alan kəndlilər o torpağı tərk edə bilməzdilər. Formal olaraq asılı əkinçilərə və yarımasılı sənətkarlara azadlıq verilsə də, əslində bu, azad icma üzvlərinin torpağa təhkim olunmasının ilk mərhələsi idi.

Bütün köhnə vergilər ləğv olundu və əvəzində torpağın keyfiyyətinə uyğun vahid torpaq vergisi tətbiq olundu. Ev sənətkarlığı məhsulları ilə verilən geyim və ipək parçadan ibarət töycü saxlanıldı. İş qabiliyyətinə malik bütün kişilər biyara getməli idilər. Bu məcburi əmək istənilən sənətkarlıq məhsulu ilə də əvəzlənə bilərdi.

Əsasında ərazi prinsipi duran yeni inzibati dövlət idarəetmə

forması tətbiq olundu. Mərkəzi hökumət tərəfindən köhnə qəbilə-tayfa əyanlarının arasından təyin olunmuş qubernatorlar və qəza başçılarının rəhbərliyi altında əyalətlər və qəzalar yaradıldı.

VII əsrin ikinci yarısı – VIII əsrin ortalarında Yaponiyanın dövlət aparatı daha da inkişaf etdi. Birinci nazirin rəhbərliyi altında olan Dövlət (böyük) şurası mərkəzi hökumət orqanına çevrildi. Şuranın tabeçiliyində səkkiz icra departamenti var idi. Bunların arasında ən əsasları hərbi, ədliyyə və maliyyə (sərvət idarəsi) departamentləri idi.

Tayka çevrilişi və islahatları əsasında ibtidai icma quruluşunun xarabalıqları üzərində qurulmuş, irsi imperator tərəfindən idarə olunan, nizami ordu tərəfindən qorunan güclü mərkəzləşmiş dövlətin əsasları yaradıldı. Sonrakı qanunvericiliklə yeni sosial münasibətlər, məxsusi torpaq mülkiyyəti və sinfi iyerarxiyaya əsaslanan erkən feodal monarxiya üsul-idarəsinə söykənən dövlətin yaranması, imperatorun irsi hakimiyyəti, feodallaşan zümrənin siyasi nüfuzu təsbit edildi. Bu dövrdə yapon xalqının formalaşma prosesi başa çatdı.

Tayka islahatları, dövlət aparatı strukturlarının formalaşması və torpaq haqqında qanunların qəbulu, Yaponiyadan daha öncə feodalizmə keçən qonşu Çin feodalizmi nümunəsində aparılırdı.

**Aqrar quruluşun təkamülü, pay torpaq sisteminin dağılması**

Qeyd edək ki, Yaponiyanın feodallaşma prosesinin çıxış nöqtəsi kimi yalnız Çinin götürülməsi yanlış olardı. Bu proses həm də daxili təməllər əsasında inkişaf edirdi və yapon cəmiyyətinin daxili quruluşu ilə ayrılmaz surətdə bağlı idi, xarici təsir isə bu prosesi yalnız bir qədər tezləşdirdi. Çindən götürülmüş ayrı-ayrı təsisatlar bu təməllərə zidd olanda onlar başqaları, Yaponiyanın daxili inkişafına daha uyğun olanı ilə əvəz edilirdi. Məsələn, Yaponiyada torpaqların tam dövlət mülkiyyətində olması prinsipi mövcud tarixi şəraitdə uzun sürmədi, xüsusi feodal torpaq mülkiyyətinin formaları isə yaşamağa qabil olduğunu sübut etdi. Mürəkkəb Çin inzibati sistemi də son nəticədə yaramadı və yapon kəndlilərinin əməyinin nəticəsinin qanunla təsbit edilmiş hissəsinin feodallar tərəfindən mənimsənilməsi üçün da-

ha effektiv və sadə sistemlə əvəz olundu.

Erkən feodal dövlətinin aqrar qanunvericiliyini təsbit edən ən vacib sənəd isə – Tayxo («Tayxoryo») məsəlləsi oldu. Onun əsasını aqrar qanun təşkil edirdi və orada dövlət torpaq mülkiyyəti və onun vaxtaşırı yenidən bölünməsi prinsipi təsbit edilirdi. Bu qanuna görə, torpağın pay formasında kəndlilərə müvəqqəti verilməsi nəzərdə tutulurdu. Bu dövrdə Yaponiyada «beş həyət» adını almış və beş qonşu kəndli həyətini birləşdirən bir sistem yarandı.

Torpaqların yenidən bölünməsi altı ildən bir, mütəmadi olaraq keçirilməli idi. Torpaq payı hər bir ailəyə verilməli idi. Onun böyüklüyü isə ailə üzvlərinin sayından və onların cinsindən asılı idi. Kişilərin (6 yaşından) adambaşına aldıqları pay («kubunden») 2 *tan*[1] (0,24 ha), qadınların aldığı pay isə kişi payının 2/3-nü təşkil edirdi. Bundan başqa, qullara da pay torpaq verilirdi və hər bir qul 0,08 ha torpaq sahəsi alırdı. Lakin bu pay torpaq qulun sahibinə məxsus olurdu.

Torpaq paylarından istifadə üçün dövlətə ödənilən vergilər sistemi də təkmilləşdirildi. Vergilər ənənəvi olaraq üç növdən ibarət idi: məhsul rentası əsasən taxıl ilə, sənətkarlıq məhsulları ilə (kətan və ipək parçalar ilə) və ildə 100 və daha çox gün ərzində biyarın (yolların, körpülərin təmiri, süni suvarma sistemlərinin tikilməsi və s.)

Amma Yaponiyadakı feodallaşma prosesinin sonrakı gedişi torpaq üzərində dövlət mülkiyyəti prinsipinin və kəndlilərə verilən pay torpaq sisteminin iflasına gətirirdi. Faktiki olaraq, torpağın pay şəklində verilməsi və becərilməsi hər yerdə yayılmadı, bu sistemdən istifadə isə yalnız paytaxta yaxın əyalətlərin əraziləri ilə məhdudlaşdı. Qanun tərəfindən təsbit olunmuş torpaqların yenidən bölüşdürülməsi prinsipi tez-tez pozulur, bəzən torpaqdan istifadə dövrü uzadılırdı və bu son nəticədə yenidən bölüşdürülmələrin tam dayandırılmasına səbəb olur və torpaqlar xüsusi mülkiyyətə çevrilməyə başlayırdı.

Torpaqların yenidən bölüşdürülməsi sisteminin iflası səbəblə-

---

[1]1 tan=0,12 ha

rindən başlıcası isə torpaqların tez-tez alınıb-satılması ilə bağlı idi.

Pay torpaq sistemi xam torpaqların nisbətən bolluğu şəraitində mövcud ola bilərdi. Hökumət boş torpaqların becərilməsini hərtərəfli dəstəkləyirdi və buna görə də, 743-cü ildə xam torpaqların onları ilk becərən azad kəndlilərin xüsusi mülkiyyətinə çevrilməsi ilə bağlı fərman verdi. Amma məhsuldar qüvvələrin artması və kənd təsərrüfatı istehsalının inkişafı pay torpaq sisteminin istifadə bazasını məhdudlaşdırdı və nəticədə onun iflasını qaçılmaz etdi. Bu, həm də Tayxoryo məcəlləsi tərəfindən təsbit edilmiş torpaq mülkiyyət formalarının yayılması ilə bağlı idi. Həmin mülkiyyət formaları aşağıdakılar idi: rütbə torpaqları, vəzifə torpaqları, xidmətə görə verilən torpaqlar və imperatorun xüsusi fərmanı ilə hədiyyə edilən torpaqlar. Bu torpaqların ölçüləri 0,7 hektardan 300 hektara qədər idi. Əsasən ən münbit olan bu torpaqlar feodal zadəganların əllərində cəmləşirdi.

Dünyəvi torpaq sahibkarlığından başqa, sintoist və buddist məbədlərinə məxsus və onların əbədi mülkiyyətində olan torpaqlar da var idi. Qaynaqlarda məbədlərə məxsus torpaq mülkiyyətinin də ümumi çəkisinin çox böyük olduğu göstərilir. Feodal və imtiyazlı saray əyanlarının, məbəd və monastırların mülkiyyəti olan, amma kəndlilər tərəfindən becərilən torpaqlar da geniş yayılmışdı. İri torpaq sahibləri dövlət aparatından daha çox torpaq mülkiyyəti və sərvət toplamaq və dövlətdə yüksək vəzifələr tutmaq üçün istifadə edirdilər.

Beləliklə, VII-X əsrlərdə Yaponiyada feodal istehsal üsulunun daha da inkişaf etməsi üçün münbit şərait yarandı.

X əsrin ikinci rübündən etibarən Yaponiyada əsas torpaq mülkiyyəti forması xüsusi mülkiyyətdə olan ortamiqyaslı malikanələr (syöen) idi. Malikanələr xüsusi imtiyazlara malik idi: onlar mərkəzi hökumətin tabeliyindən çıxarılmış və bütün vergi və mükəlləfiyyətlərdən tam azad olunmuşdular. Çox sayda kəndli hökumətin özbaşınalığından və ağır vergilərdən xilas olacaqlarına sadəlövhcəsinə inanıb pay torpaqlarını tərk edir və malikanələrə köçürdülər. Onların malikanələrə köçməsinə daha bir səbəb isə hökumətin kömək pərdəsi altında verdiyi və sonradan 30-50 və

hətta 100 faiz artım ilə geri aldığı düyü borcları idi.

Amma kəndlilərin malikanələrə köçmələri onların vəziyyətini heç də yüngülləşdirmirdi. Onlar feodal təhkimlisi olurdular və tam yeni bir köləliyə düşürdülər.

Kəndlilərin soyğunçu istismarı, icbari düyü borcları, pay torpaqlarına sahib feodallardan asılı hala salınması və sonradan təhkimlilərə çevrilməsi onların müqavimətinin artmasına gətirib çıxardı.

Sosial mübarizənin ilk əlamətləri olaraq dövlət torpaqlarından genişmiqyaslı qaçma və köçmələr geniş vüsət aldı. Buna Yaponiyanın feodal pərakəndəliyi də yol açırdı.

Etirazın daha bir forması isə kəndlilərin onlarla kobud rəftar edən, öz vəzifələrindən sui-istifadə edən məmurlara qarşı göndərdikləri petisiyalar (ərizə-müraciət) idi. Onlar qəza və əyalət idarəçiliyinə elçilər vasitəsi ilə göndərilirdilər. Bəzən bu petisiyalar mərkəzi hökumətə ünvanlanırdı.

Tədricən mübarizənin daha fəal üsullarından istifadə olunmağa başlandı. IX-XI əsrlərdə genişmiqyaslı iğtişaşlar baş verdi. Kəndlilər zəngin və adlı-sanlı şəxslərə tez-tez hücum etməyə başladılar. IX əsrin ikinci yarısında, XI əsrin sonu – XII əsrin əvvəllərində kəndli dəstələri hətta paytaxt Xeyyana hücum edib bir sıra hökumət idarələrini və feodal əyanların saraylarını dağıtmış və yandırmışdılar.

Amma erkən feodalizm dövründə baş verən kəndli çıxışları lokal və pərakəndə olduqları üçün daima məğlubiyyətə düçar olurdular. Buna baxmayaraq, onların əhəmiyyəti böyük idi. Belə ki, artan feodal istismarına qarşı kəndlilərin hərbi dəstələrdə birləşməsi ənənəsi zərurət oldu.

**X-XII əsr feodal pərakəndəliyi**

Ümumiyyətlə, X-XII əsrlər erkən feodal Yaponiyası tarixində mühüm bir mərhələ təşkil edir. Bu dövrdən etibarən mərkəzdənqaçma meylləri, ayrı-ayrı vilayətlərin separatizmi, əyalətlərdə feodalların güclənməsi ilə bağlı yaranan siyasi pərakəndəlik daha da artdı. İri və güclü feodal ailələri arasında gedən mübarizənin nəticəsində feodal ara müharibələri genişləndi. Birinci hərbi çıxış 937-cü ildə

Tayra ailəsindən olan Masakadonun başçılığı altında baş verdi. Sonralar, 1056-1064-cü illərdə Tayra ailəsi hakimiyyətdə olan Fudzivara ailəsini məğlub etməyi bacardı. XII əsrin 50-60-cı illərində «*Xoqen*» və «*Xeydzi*» (imperatorların hakimiyyətdə olduğu illərin adı) ara müharibələri aparılırdı. Mutsu və Deva əyalətlərində (Şimali Honsyu) isə Abe və Kievara feodallarının hərbi çıxışları baş verdi. Güclənməkdə olan mərkəzdənqaçma meylləri və bununla bağlı əyalətlərdən gələn vergilərin xeyli azalması mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxardı.

**Şoqunluq sisteminin qurulması**

XII əsrin ortalarından o dövrün ən güclü feodal ailələri olan Tayra və Minamoto arasında kəskin mübarizə başladı. Bu mübarizənin həlledici mərhələsi 1180-1185-ci illərə təsadüf edir. Ümumiyyətlə, həmin dövrdə Yaponiya inkişaf etmiş feodalizm mərhələsinə qədəm qoymuşdu.

Qeyd etmək lazımdır ki, həmin dövrə qədər Yaponiyada feodal münasibətlərin formalaşması yetərli sürətlə getmirdi. Yapon feodal dövlətinin siyasi cəhətdən tam formalaşması prosesi şoqunluq sisteminin meydana gəlməsi, yəni siyasi hakimiyyətin həm mərkəzdə, həm də əyalətlərdə güclü feodal ailələrinin əlinə keçməsindən sonra baş verdi. Bu sistemin bərqərar edilməsi 1192-ci ildə imperator tərəfindən Minamoto feodal ailəsinin başçısı Yoritomonun «barbarları məğlub edən böyük sərkərdə» («*seyi tay şoqun*» və ya qısaca «*şoqun*») vəzifəsinə təyin etməsi ilə sona çatdı.

Şoqunluq sistemi hərbi xidmətdə olan əyanlara – samuraylara arxalanan və iqtisadi, siyasi və hərbi cəhətdən ən güclü feodal ailəsinin hərbi-feodal diktaturası idi. Bu sistemin yaranması ölkədəki ali hakimiyyətin Minamoto ailəsində olmasını rəsmən təsbit və təsdiq edirdi. Onlar ölkənin bütün hərbi qüvvələri üzərində qeyri-məhdud nəzarətə yiyələndilər.

Yeni hökumətin («*bakufu*» – tərcümədə «səhra qərargahı» deməkdir) paytaxtı, Honsyu adasının şərq hissəsində yerləşən Kamakura şəhəri oldu. Bu şoqunluğu tarixi mənbələrdə birinci şoqunluq – Kamakura şoqunluğu da adlandırırlar. Paytaxtın Kamakuraya köçürülməsinə səbəb Minamotonun imperator sarayı-

nın siyasi nüfuzunu azaltmağa və imperatordan azad bir hökumətin təşkil olunmasına can atması idi. Bununla belə, Minamoto imperatorun nominal hakimiyyətini saxlamışdı. Çünki, bu, ölkədəki bütün siyasi qruplaşmaların ideoloji birliyini təmin edirdi.

Yoritomo hələ Tayra ilə mübarizə zamanı yeni hökumət aparatını qurmağa başlamışdı. Şoquna tabe olan hökumətin mərkəzi orqanları samuraylarla iş üzrə idarə, ali qanunvericilik orqanı və ali məhkəmədən ibarət idi. Ölkənin bütün əyalətlərinə Minamotonun yaxın silahdaşlarından qubernatorlar və ya protektorlar (*«syuqo»*) təyin olunurdular. Onların əsas vəzifəsi Kamakura rejiminə qarşı bütün çıxışların qarşısını almaq və onları yatırmaq idi. Onlar tabeçiliklərində olan ərazilərdə əhalinin hərbi mükəlləfiyyətləri yerinə yetirməsinə nəzarət, polis və məhkəmə hakimiyyətinə, qarnizonlara başçılıq etməli idilər. Bundan başqa, feodalların mülkiyyəti olan bütün malikanələrdə daima hökumətin xüsusi təyin olunmuş nümayəndələri – malikanə başçıları (*«dzito»*) olmalı idilər. Onların xidməti vəzifəsi feodal malikanələri sahiblərinin fəaliyyətinə, hərbi verginin verilməsinə nəzarət etməkdən və əhalinin ərzaqla təmin olunması üçün düyü toplanmasından ibarət idi.

Bu mürəkkəb yerli idarəetmə sistemi hökumətin feodallar və kəndlilər üzərində siyasi və hərbi nəzarətini təmin edir, onların hərbi və maliyyə mükəlləfiyyətlərini yerinə yetirilməsinin keşiyində durmaqla Minamoto hərbi-siyasi diktaturasını gücləndirirdi.

Minamoto ailəsinin başçısı Yoritomonun 1199-cu ildə ölümündən sonra onun dul qadını Masako və özünü hökmdar (*«sikken»*) adlandıran atası Xodzyo Tokimasa ölkəni idarə etməyə başladılar. Minamoto ailəsindən olan sonuncu şoqun Sanetomonun 1219-cu ildə öldürülməsindən sonra bütün əsas hökumət vəzifələri Minamoto ailəsinə qohum olan Xodzyo ailəsinin nümayəndələrinə keçdi. Xodzyo ailəsinin hakimiyyəti XIV əsrin üçüncü rübünə qədər davam etdi.

**Xubilayın Yaponiyaya yürüşləri**

XIII əsrin ikinci yarısında Yaponiya üçün ciddi xarici təhlükə – monqolların müdaxiləsi təhlükəsi yarandı. Çingiz xanın nəvəsi, monqol (Yuan) sülaləsinin banisi Xubilay Yaponiyanı öz imperiy-

asına birləşdirməyə çalışırdı. 1266-1273-cü illərdə o, Yaponiyaya bir neçə səfirlik göndərdi və məktublarda Yaponiyanın Yuan imperiyasının vassalı olmasını qəti şəkildə tələb etdi, əks təqdirdə müharibə edəcəyini yazırdı. Amma sikken Xodzyo Tokimune (1251-1284) bu tələbləri qəbul etmədi və Kyusyu adasının qərb sahillərində və Honsyu adasının cənub-qərb sahillərində müdafiə istehkamlarının inşasına başladı və ordunu səfərbər etdi.

1274-cü il noyabrın ortalarında Xubilayın orduları Koreya ərazisindən yürüşə başladı. Hərbi əməliyyatların başlanğıcında Xubilayın orduları yapon qarnizonlarının inadlı müqavimətini qıraraq Tsusima və İkki adalarını zəbt etdilər. Monqollar Xakodzaki körfəzinə soxuldular, İmadzuya qoşun çıxartdılar və Xakata şəhərinə hücum etdilər. Amansız döyüşlər başladı. Kyusyunun cənub əyalətlərindən gələn əlavə qoşunların yardımı ilə yapon ordusu böyük çətinliklə birləşmiş monqol-koreya ordu və donanmasının basqınını dəf edə bildi. Düşmən böyük itkilərə məruz qaldı.

Birinci ekspedisiyanın uğursuzluğu Xubilayı fikrindən daşındırmadı. 1275-ci ildən etibarən o, Yaponiyanı işğal etmək üçün yeni cəhdlər etdi. Amma yenə də Xodzyo Tokimune hökuməti Xubilayın tələblərinə rədd cavabı verdi və hətta göndərdiyi səfirləri edam etdirdi.

1279-cu ildə Cənubi Çini ələ keçirən Xubilay 1281-ci ilin iyununda Yaponiyaya ikinci böyük ekspedisiya göndərdi. Tsusima adası, Munakata və Xakodzaki körfəzi arasındakı bölgələr və Xakata körfəzi uğrunda yenidən amansız mübarizə başladı. Ən amansız döyüşlər 1281-ci ilin 23 iyunundan 14 avqustuna qədər davam etdi. Güclü müdafiə xəttinə arxalanan yapon qüvvələri düşmənə həm quruda, həm də dənizdə ciddi müqavimət göstərdilər.

Sonrakı iki gün Xubilayın yürüşü üçün fəlakətli oldu. Kyusyu sahilləri boyu yapon tarixi ədəbiyyatında «ilahi külək» («kamikadze») kimi tanınan güclü tufan başladı. Yürüşə çıxmış monqol ordusunun yalnız yarısı sağ qaldı, çoxları batdı, əsir götürüldü və ya öldürüldü. O dövrdə 3500 gəmi və qayıqdan ibarət olan monqol donanmasının böyük hissəsi su altında qaldı, yalnız 200 gəmi

qurtula bildi. Yaponlar qələbə çaldılar. Yaponların monqollar üzərində qələbə çalmasının əsas səbəbi – monqol basqını, ölkənin müstəqilliyinin itirilməsi və onun viranə qoyulması təhlükəsi qarşısında xalqın inanılmaz birliyi və ruh yüksəkliyi oldu. Feodal Yaponiyası Yuan (monqol) imperiyası tərəfindən işğal olunmadı və müstəqilliyini saxlamağa müvəffəq oldu.

Lakin monqollara qarşı aparılan hərbi əməliyyatlar Yaponiyanı ciddi çətinliklərlə üz-üzə qoydu. Böyük ordunun saxlanması və müdafiə istehkamlarının inşası Yaponiyanın iqtisadi və maliyyə ehtiyatlarının tükənməsinə gətirib çıxardı. Əlavə vergilərin ağırlığını daşıyan kəndlilərin vəziyyəti daha da pisləşdi. Torpaq sahibi olan kiçik samuraylara da böyük ziyan dəydi. Onlar öz torpaqlarını sələmçilərə girov verməyə və satmağa məcbur oldular. Xubilayın yürüşlərinin əsas nəticələrindən biri də mərkəzi hakimiyyətin epidemiyalara və məhsulun məhvinə gətirən quraqlığa qarşı mübarizə apara bilməməsi, döyüşlərdə şücaət göstərmiş döyüşçülərə vəd edilən mükafatların verilməməsi ilə bağlı olaraq artan narazılıq idi.

Nəhayət, monqol yürüşlərinin daha bir nəticəsi cənub və cənub-qərb feodallarının hökumətdən öz ərazilərində müdafiə tikililəri qurmaq üçün aldıqları təxsisatlar hesabına güclənməsi oldu.

Mərkəzi hakimiyyət («*bakufu*») artıq yalnız nominal olaraq mövcud idi, əyalətlərdəki feodallar üzərində nəzarəti tam itirmişdi.

Artıq XIV əsrin birinci rübündə hakimiyyətə iddia edən ayrı-ayrı iri feodal ailələrinin ölkənin müxtəlif hissələrində (Mutsu, Yamato və Satsuma əyalətləri) üsyanları başladı. 1324-cü ildə Kiotoda Kamakura rejiminə qarşı gizli cəmiyyət yaradıldı. Onun üzvləri çevriliş etmək niyyətində idilər. Lakin bu planın üstü açıldı və qarşısı alındı.

Bu şəraitdə keçmiş imperator Qodayqo öz hakimiyyətini bərpa etməyə cəhd göstərdi və Xodzyo ailəsinə qarşı qüdrətli feodal ailələri və məbədlər ilə gizli ittifaq yaratdı. Bu qüvvələrin birliyi müəyyən müddət ərzində antişoqun hərəkatının mərkəzinə çevrildi. Onun da məqsədi real siyasi hakimiyyətin imperator sarayına qaytarılması idi. Lakin bu planın da üstü açıldı, Qodayqo əsir

alındı və uzaq İkki adasına sürgünə göndərildi.

Həmin vaxt Qodayqonu dəstəkləyən cənub-qərb feodallarının hərbi qüvvələri (Kusunoki Masasiqe, Nitta Esitida) Xodzyo qoşunları üzərində bir necə dəfə qələbə qazandılar. İmperator ailəsinin hakimiyyəti bərpa olundu.

Amma Qodayqonun hakimiyyətinin bərpası uzun sürmədi. İmperator və Xodzyo ailəsinin süqutunu təmin etmiş qoşunların başçıları arasında münasibətlər kəskinləşdi. Əvvəllər Xodzyo sərkərdələrindən biri olmuş və mübarizə zamanı Qodayqonun tərəfinə keçmiş Takaudzi, imperatorun bayrağı altında şəxsi diktaturasını qurmağa çalışırdı. Qodayqo isə söz verdiyi torpaq sahələrini və rütbələri onu dəstəkləyən feodallara verə bilmədi. Eyni zamanda onun əmri ilə tətbiq olunan yeni vergilər və Xodzyoya qarşı müharibədə sərf edilən xərclərin ödənməsi üçün heç bir təminatı olmayan kağız pulların çap edilməsi müttəfiq feodalların böyük narazılığına səbəb oldu.

**Asikaqa şoqunluğunun yaranması**

Xodzyo ailəsi qaliblərin düşərgəsində olan daxili çəkişmələrdən istifadə edərək məğlubiyyətin əvəzini çıxmağa cəhd etdi. Amma Aşikaqa Takaudze onları həlledici döyüşdə məğlubiyyətə uğratdı. O, Kiotonu fəth etdi və Kamakuranı özünün iqamətgahı seçib, 1335-ci ildə özünü şoqun elan etdi. Beləliklə, 1573-cu ilə qədər davam edən ikinci şoqunluq – Aşikaqa şoqunluğu dövrü başladı. Amma Aşikaqa şoqunluğunun bərqərar olması heç də feodal pərakəndəliyinin aradan qaldırılması demək deyildi: belə ki, yeni şoqunluğun aqrar siyasəti, onun tətbiq etdiyi qanunlar və XIV əsrin sonuna doğru daha tez-tez baş verən daxili çəkişmələr yapon kəndlilərinin etirazına səbəb oldu. XIV əsrdə (1333-1392) Yaponiyada 6 kəndli çıxışı, o cümlədən 4 üsyan baş verdi. Bunlardan üçü Yamaşiro əyalətində baş vermişdi.

Uzun sürən «Şimal və Cənub sülalələrinin müharibəsi» Yaponiyanın iqtisadi və maliyyə ehtiyatlarının tükənməsinə gətirib çıxartdı. XV əsrin əvvəllərində isə ara müharibələri yenidən güclənməyə başladı. Ölkənin müxtəlif bölgələrindəki feodal ailələri 70 il ərzində Aşikaqa şoqunluğuna qarşı çıxırdılar. Bu çıxışlardan ən

mühümü 1467-1468-ci ildə baş vermiş «Onin illəri müharibəsi» idi. Buna da bəhanə Xatakeyama feodal ailəsinin iki nümayəndəsi arasında rəhbərlik uğrunda gedən mübahisə olmuşdu. İştirakçıların güclərini sarsıdan bu ara müharibəsi 1477-ci ildə başa çatdı. Bu çəkişmənin nəticələrindən biri – Aşikaqa şoqunluğunun gücünün azalması oldu. Ölkədəki feodal pərakəndəliyi və separatçılıq ənənələri geniş vüsət aldı. Müxtəlif feodal ailələrinin çıxışları oldu və onların sayı 260-a çatmışdı.

Əyalətlərdə feodal ailələrinin yüksəlməsinin əsas sosial-iqtisadi səbəbi feodal torpaq mülkiyyətinin təkamül yolu ilə malikanə və xidmət müqabilində verilmiş torpaq mülkiyyəti formasından böyük feodal knyazlıq formasına keçməsi idi. Bu knyazlıqlara «*daymyolar*» (tərcümədə – «böyük ad») başçılıq edirdilər.

Knyazlar öz torpaqlarında ətrafında qəsəbələr yerləşən qalalar tikirdilər. Onların ətrafında isə yerli bazarlar, ticarət və sənətkarlıq şəhərləri yaranırdı. Topdan satışla məşğul olan tacirlərin və sələmçilərin iqtisadi qüdrəti artırdı. Hətta pula ehtiyacı olan feodallar öz torpaqlarında vergi toplanmasını onlara iltizama verirdilər.

XIV-XV əsrlərdəki daxili çəkişmələr bilavasitə istehsalla məşğul olan kəndlilərə də təsir etdi və böyük sosial partlayışlar oldu. Ümumiyyətlə, bu çəkişmələr kəndlilərə saysız müsibətlər gətirdi. Onlar xərclərin bütün ağırlığını daşıyırdılar və həm feodallar, həm də sələmçilərin istismarı altında yaşayırdılar.

Artıq XV əsrdə kəndlilərin vəziyyətinin ağırlaşması ölkədə geniş antifeodal kəndli hərəkatına təkan verdi. Onlar feodal və sələmçi özbaşınalığına müxtəlif formalarda öz etirazlarını bildirirdilər. 1418-1499-cu illərdə Yaponiyada 44-ü kəndlilərin borclarının ləğvi tələbi ilə, 37-si müxtəlif torpaq mübahisələri zəminində, 9-u digər müxtəlif səbəblərdən, 3-ü isə İkko buddist təriqətinin dini pərdəsi altında olmaqla cəmi 98 kəndli üsyanı baş vermişdi.

XV əsrdə baş verən üsyanların əlamətlərindən biri kəndlilərin «Tokuseyre» fərmanlarının verilməsini tələb etmələri idi. Bu fərmanların əsasında samurayların borclarının ləğv olunması deyil, kəndlilərin sələmçilərə olan borclarının ləğv olunması dururdu.

Belə kəndli üsyanları «tokusey üsyanları» («*tokusey ikko*») adlanırdı.

Kəndlilər tez-tez «rifah bərabərliyi» şüarından da istifadə edirdilər. Onlar torpaqların yenidən bölünməsini, beləliklə yapon kəndində yaşayan bütün sosial təbəqələrin əmlaklarının bərabərləşdirilməsini tələb edirdilər.

Bir sıra üsyanlarda kəndlilər biyarın ləğv olunması, mövcud olan vergilərin azaldılması və əlavə vergilərin ləğv edilməsi tələblərini irəli sürürdülər. Kəndlilər onların torpaqlarının əlindən alınmasına, feodal və məmur özbaşınalığına qarşı da etiraz edirdilər.

İqa, İse, Setsu, Tamba və Xarima əyalətlərində 1429-cu ildə baş vermiş bir neçə üsyan isə samuraylara qarşı yönəlmişdi. Xarima üsyanlarının iştirakçıları samurayları əyalətdən qovmuşdular.

Kəndli mübarizəsinin formalarından biri də XV əsrin sonunda geniş vüsət almış «dini qiyamlar» («*ikko iki*») idi. Bu, dini pərdə altında baş verən antifeodal kəndli çıxışları idi. Onlar bidətçi buddist «*ikko*» təriqəti bayrağı altında birləşirdi.

**XV-XVI əsrlərdə kəndli mübarizəsi**

Yapon kəndlilərinin antifeodal mübarizəsinin ən yüksək nöqtəsi, şübhəsiz ki, 1485-1493-cü illərdə Yamaşiroda (Kioto prefekturasının cənubu) baş vermiş üsyandır. Bu üsyan feodallardan və əyalət hakimiyyətindən narazı olanların hamısını birləşdirmişdi. İştirakçıların şüuru və mütəşəkkilliyinin dərəcəsinə görə bu üsyan Yaponiyanın orta əsr kəndli çıxışları arasında ən əhəmiyyətlisi olmuşdur.

Üsyan 1485-ci ildə Yamaşiro vilayətində çağırılmış kəndli qurultayı ilə başladı. Başçıların iclasında kəndlilərin tələbləri elan olundu: Xatakeyamaların hər ikisi ordunu geri çəkməli idilər, onların zəbt etdiyi malikanələr qanuni sahiblərinə qaytarılmalı idi, əyalətin Nara şəhəri ilə rabitə və ticarət əlaqələrinə çətinlik yaradan bütün məntəqələr dağıdılmalı idi. Ultimatumun elanından bir həftə sonra Xatakeyamaların hər ikisinin ordusunun təxliyəsi başladı. Bu uğurun ardınca Yamaşiro üsyanının başçıları olan 36 «hörmətli adam» – kənd varlıları 1486-cı il fevralın ortasında Udzi yaxınlığında olan Bedoin məbədinə iclasa toplandılar. Orada əyalətin

icra hakimiyyətinin funksiyalarını daimi əsaslarda yerinə yetirəcək «xalq toplantısı» («kokumin kayqi») təsis edildi və onun ayda bir dəfə iclas keçirəcəyi elan olundu. Bu, faktiki olaraq yeni əyalət hökuməti idi; o, dərhal aşağı təbəqələrdən ədalətli vergi toplanması haqqında qərar verdi.

Yamaşirodakı kəndli özünüidarəsi 8 il, yəni 1493-cü ilə qədər mövcud oldu. Onun yaranması feodallararası daxili çəkişmələrin kəskinləşməsi şəraitində baş vermişdi. Çünki başı çəkişmələrə qarışan feodallar kəndli çıxışlarını yatırmaq üçün birgə mübarizə aparmaq iqtidarında deyildilər. Kəndlilərin müqaviməti yalnız hökumət qüvvələri tərəfindən əzildi.

XV əsrlə müqayisədə XVI əsrdə (1502-1582) kəndli üsyanlarının sayı üç dəfə azaldı: bu dövrdə ancaq 31 kəndli üsyanı baş vermişdi. Onlardan 15-də kəndlilərin borclarının ləğvi tələbi irəli sürülmüşdü, qalanları isə əsasən torpaq mülkiyyəti ətrafında mübahisələrlə bağlı idi.

XVI əsrdə də baş verən bütün kəndli çıxışları və üsyanları XV əsrdə olduğu kimi daxili birliyin olmaması səbəbindən məğlubiyyətlə nəticələndi.

Məğlubiyyətlərinə baxmayaraq, XV-XVI əsrlərdə baş vermiş üsyanlar yapon kəndlilərinin mübarizə tarixində böyük iz qoydu. İlk dəfə olaraq kəndlilər özünüidarə formasında hökumət yaratmağa ciddi cəhd göstərdilər. Bir sıra hallarda üsyançılar yerli feodallar və sələmçilər arasında ən amansız və mənfurlarını cəzalandırdır, bəzən isə məhsul töycüsünü azaltmağa nail olurdular. XV əsrdən öncə heç bir zaman dini pərdə altında («ikko» bidətci təriqəti) kəndlilərin çıxışları bu qədər geniş vüsət almamışdı.

### Yaponiyanın birləşməsi uğrunda mübarizə

Qeyd edilməlidir ki, «Onin illərinin müharibəsinin» bitməsi feodal ara müharibələrinin dayanmasına gətirib çıxarmadı. Kanto vilayətinin şimal bölgələrində xeyli müddət davam edən yeni daxili çəkişmə başladı. Bu çəkişmədə Aşikaqa ailəsinə düşmən olan İmaqava, Outi və Uesuqi ailələri iştirak edirdilər.

XVI əsrin əvvəllərində Yaponiya faktiki olaraq bir sıra iri

müstəqil knyazlığa parçalandı. Hakim ailənin ən böyük rəqibləri cənub-qərb knyazları Otomo, Outi və Simadzu idilər. Onlar mərkəzi hökumətdən get-gedə daha çox müstəqillik qazanırdılar.

1507-ci ildə Yaponiyanın orta əsrlər tarixində «döyüşən əyalətlər dövrü» adlanan hərc-mərclik dövrü başladı. Ara müharibələri dövrü 1573-cü ildə Aşikaqa şoqun sülaləsinin devrilməsi ilə başa çatdı.

Ölkənin siyasi birliyi naminə mübarizəni birinci olaraq çox nüfuzlu knyaz Oda Nobunaqa (1534-1582) başladı. Tokuqava və Takeda kimi iri feodal ailələri ilə ittifaq bağlayan Oda Nobunaqa 1559-1573-cü illərdə bir sıra feodal ailəsini məğlub etdi və İse, Kai, Mino və Avari əyalətlərini ələ keçirdi. 1573-cü ildə o, şoqun Aşikaqa Yeşiakini vəzifəsindən uzaqlaşdırdı, onun iqamətgahı olan Nidze qalasını ələ keçirdi, özünü isə sürgün etdirdi. Odanın vəziyyəti o qədər möhkəmləndi ki, 1578-ci ilin əvvəlində 11 əyalətin feodalları ona loyallığını bildirdi.

180 minlik orduya başçılıq edən Oda 1581-1582-ci illərdə keçmiş müttəfiqi Takeda feodal ailəsini məğlub etdi və artıq bu zaman o, Yaponiyanın 66 əyalətindən 30-nu özünə tabe edə bilmişdi.

XVI əsrin 70-ci illərindən etibarən Oda Nobunaqa genişmiqyaslı islahatlara başladı. O, yerli vergiləri və yol və əyalət sərhədləri üzərində olan gömrük məntəqələrini ləğv etdi. Sənətkar və ticarət gildiyalarının əmtəə istehsalı və satışına olan imtiyazlarını aradan qaldırdı, böyük şəhərlərdə sərbəst surətdə bazarların açılmasına icazə verdi. Oda xarici ticarətin genişlənməsi ilə sıx bağlı olan şəhərlərin inkişafını (Xakata, Naqasaki) təşviq edirdi. Eyni zamanda o, bu şəhərləri özünə tabe etməyə çalışırdı.

Odanın pul sisteminin tənzimlənməsi cəhdləri çox böyük əhəmiyyətə malik idi. Düyünün mübadilə vahidi olduğu bütün əməliyyatlara qadağa qoyuldu. Hökumətin əmri ilə kəsilmiş qızıl və gümüş pullar dövriyyəyə buraxıldı.

Məhkəmə sisteminin yenidən qurulması və nizama salınması üçün Oda çox səy göstərirdi.

Oda Nobunaqanın bütün islahatçılıq fəaliyyəti obyektiv olaraq

Yaponiyanın siyasi cəhətdən birləşməsinə və iqtisadi vəhdətinin təmin edilməsinə çox böyük müsbət təsir göstərirdi.

XVI əsrin 40-cı illəri Yaponiyaya avropalıların gəldiyi dövr oldu. Oda Nobunaqa bu hadisədən öz düşmənlərinə qarşı istifadə etdi. Bu səbəbdən Oda Nobunaqa ölümünə qədər xristian dininin Yaponiyada yayılmasına himayədarlıq edirdi. İri torpaq sahələrinə və güclü hərbi dəstələrə malik müxtəlif buddist məbədləri Odaya qarşı olan bütün qüvvələri dəstəkləyirdilər və onun ölkəni vahid hala gətirmək səylərinə müqavimət göstərirdilər. Oda isə Avropa ölkələri ilə xarici ticarətin genişlənməsində və ordusunun tez bir zamanda odlu silahla təmin edilməsində maraqlı idi. Odlu silah Yaponiyanı birləşdirmək uğrunda edilən yürüşlərdə böyük üstünlüyə çevrildi. 1582-ci ildə Oda Nobunaqa ən yaxın vassallarından olan, şöhrətpərəst Aketi Mitsuxide tərəfindən namərdcəsinə qətlə yetirildi.

Oda Nobunaqanın öldürülməsi Yaponiyanın siyasi birliyi uğrunda mübarizəni dayandırmadı. Bu mübarizəni Odanın ən yaxın silahdaşı Toyotomi Xideyoşi davam etdirdi. Öz ağasının ölümü haqqında xəbəri alan Xideyoşi dərhal öz qoşunları ilə yürüşə çıxdı və döyüşdə Aketi Mitsuxidenin dəstələrini darmadağın etdi, özünü isə öldürdü.

1583-1590-cı illərdə Toyotomi Xideyoşi mərkəzi hakimiyyətə iddia edən bir sıra rəqibinə, o cümlədən Sibata və Xodzyo knyazlarına və onun düşmənlərinə şoqun taxtı uğrunda mübarizədə kömək edən Neqoro və Koqava (Kii əyaləti, Honsyu adası) məbədlərinin monaxlarına qarşı yürüşlər etdi: Toyotomi Xideyoşi «imperiyanın içində imperiya» adlandırılan və Şikoku və Kyusyu adalarında yerləşən Satsuma knyazlığını işğal etdi. Şimala yürüş zamanı o, Kanto bölgəsinin 8 əyalətini də zəbt etdi.

Toyotomi Xideyoşi silah gücünə Yaponiyanın nisbi birləşməsinə nail oldu. Yaponiyanın siyasi birliyi uğrunda ağır mübarizə aparan Xideyoşi anlayırdı ki, bu birlik üçün hərbi gücdən başqa bir sıra daxili islahatların keçirilməsi də vacibdir. Bu, Asiya qitəsində işğallar həyata keçirmək üçün də yararlı ola bilərdi. O, islahatlara başladı. Qızıl, gümüş və mis hasilatında artım, pul siste-

minin unifikasiyası, yeni pulların kəsilməsi onun adı ilə bağlıdır. Oda Nobunaqa kimi Xideyoşi də nəqliyyat yollarının inkişafına, orta əsr qalaları ətrafında yaranan şəhərlərin böyüməsinə, bunlarla bağlı daxili və xarici ticarətin, sənətkarlığın inkişafına himayədarlıq edirdi. Eyni zamanda o, xarici ölkələrlə olan ticari əməliyyatlara da ciddi nəzarət edirdi. Bu məqsədlə xarici ölkələrə gedən ticarət gəmiləri üçün xüsusi dövlət lisenziyası sistemi quruldu və o, «açıq-qırmızı möhürlü gəmilər» kimi tanınmağa başlandı.

1589-1596-cı ildə Xideyoşi «Bunroku erasının siyahıya alınması» («*bunroku-no kenti*») adı ilə tanınan aqrar islahat həyata keçirdi. İslahat hər bir feodalın və hər bir kəndli ailəsinin istifadəsində olan torpaqların dəqiq təftişi və siyahıya alınmasını nəzərdə tuturdu. Kəndliləri öz torpağına təhkim edən ümumyaponiya miqyaslı torpaq kadastrı tərtib edildi. Həmçinin, yeni vergi sistemi tətbiq olundu. Vergilərin sayının artması yalnız bir sinfə – feodal sinfinə sərfəli idi. Kəndlilərdən alınan vergi («*nenqu*» – tərcümədə «illik gəlir») illik məhsulun 2/3-ni təşkil etməyə başladı.

Formal olaraq bu torpaq islahatı ilə Yaponiyada vahid aqrar strukturun yaranması təsbit edildi. Gerçəklikdə isə o, feodal qaydalarını və iri knyazlıq mülkiyyətinin iqtisadi əsaslarının gücləndirməsi, vergilərin artırılması məqsədini güdürdü. İslahat aqrar sahədəki narazılıqların və üsyanların qarşısını almağa yönəlmişdi. Kəndlilər torpağa təhkimli olduğundan torpaqdan qaça bilmirdilər. Müstəqil təsərrüfat aparan kəndlilərin sayının artması isə vergiləri verə biləcək kəndlilərin sayının artması demək idi.

Xideyoşi islahatların ilk illərində «Qılınclara qarşı ov» fərmanı da vermişdi. Fərmana görə, XV-XVI əsrlər üsyanları zamanı kəndlilərdən toplanmış silahlar (qılınclar, nizələr, karabinlər) onlardan alınmalı idi. Kəndlilərə soyuq və odlu silahdan istifadə etmək qadağan edilirdi, onlar ancaq əkinçiliklə məşğul ola bilərdilər. Bu, kəndlilərin silahsızlaşdırılması və gələcəkdə mümkün olacaq üsyanların qarşısının alınmasına cəhd idi.

1591-ci ildə kəndlilər və samuraylar arasında dəqiq sərhədi təsbit edən yeni «İctimai quruluşun möhkəmlənməsi haqqında fərman» verildi. Fərmana görə, kəndlilərə təhkim olduqları torpaq-

ları tərk etmək və kənd təsərrüfatından başqa digər işlə məşğul olmaq qadağan olunurdu.

XVI əsrin sonlarına doğru – Xideyoşinin ölümündən və Koreyaya yürüşlərin bitməsindən sonra mərkəzi hakimiyyət uğrunda mübarizə yenidən qızışdı. Onun gedişində feodal Yaponiyasının siyasi birliyinin tamamlanması məsələsi də həll olunurdu.

Həmin dövrdə ən güclü feodal knyazlardan biri olan Tokuqava İeyasu ölkənin faktiki başçısı vəzifəsinə (şoqun) ən real namizəd idi. Xideyoşi onun təkhakimiyyətə can atacağını güman edərək, hələ ölümündən qabaq İeyasunun başçılığı altında ən nüfuzlu beş knyazın daxil olduğu regent şurası təşkil etmişdi. Xideyoşi onlardan vəliəhd təyin etdiyi oğlu Xideyoriyə sədaqət andı içməyi tələb etmişdi.

Lakin Xideyoşinin ölümündən bir qədər sonra İeyasunu siyasi səhnədən uzaqlaşdırmaq məqsədi ilə İşida Minutsirinin başçılıq etdiyi koalisiya formalaşdı. Bu sui-qəsddən xəbər tutan İeyasu qılınc, nizə, ox və tüfənglərlə silahlanmış 140-minlik ordunu səfərbər etdi və 1600-cu il oktyabrın 21-də Sekiqaxara (Mino əyaləti) yaxınlığında İşidanın 95-minlik qoşununu darmadağın etdi. Sonuncu döyüşdə öldürüldü.

Sekiqaxara yaxınlığındakı qələbədən sonra İeyasu İşidanı dəstəkləyən feodallara divan tutdu.

**Tokuqava şoqunluğu: daxili və xarici siyasəti**

1603-cü ildə İmperatorun icazəsini alan İeyasu özünü şoqun elan etdi. Bundan sonra, 1868-ci ilə qədər hakimiyyətdə olan üçüncü şoqun sülaləsinin – Tokuqava ailəsinin dövrü başlayır. Amma 1605-ci ildə İeyasu şoqun vəzifəsindən oğlu Xidetadanın xeyrinə imtina edir. Şoqun taxtından imtina nominal xarakter daşıyırdı; bununla o, Tokuqava ailəsinin hakimiyyətinin irsi olduğunu göstərdi. Əslində isə İeyasu ölümünə qədər (1616) diktatura xarakterli hakimiyyətini öz əlindən vermək fikrindən uzaq idi.

1614-1615-ci illətdə İeyasu Xideyorinın Osakada yerləşən qalasını mühasirəyə aldı və ələ keçirdi, ona qarşı olan qüvvələrin qalıqlarını da məhv etdi. Siyasi və hərbi cəhətdən çox vacib olan

bu əməliyyat feodal Yaponiyasında 30 il boyu gedən siyasi birlik uğrunda müharibəyə son qoydu.

Ölkənin üç birləşdirici şəxsinin – Oda Nobunaqa, Toyotomi Xideyoşi və Tokuqava İeyasunun rolunu tarixçilər adətən bu formul ilə ifadə edirlər – *«başladı, davam etdirdi və bitirdi»*.

Şoqun hakimiyyətinin güclənməsi ilə bərabər gedən birləşdirmə prosesinin əsas səbəbi və təməli Yaponiyanın sosial-iqtisadi strukturunda baş vermiş keyfiyyət dəyişikləri idi. Ümumiyyətlə isə, Yaponiyanın birləşdirilməsi ölkədə iqtisadi və siyasi separatizm doğuran, istehsal qüvvələrinin inkişafını ləngidən, ümumyapon bazarının yaranmasına əngəl olan aramsız daxili çəkişmələrin və feodal pərakəndəliyin dayandırılması üçün çox vacib idi. O, ölkə iqtisadiyyatında şəhərlərin ümumi çəkisinin artması, sənətkarlığın inkişafı, müxtəlif bölgələr arasında bazar əlaqələrinin genişlənməsi, məhəlli bazarların vahid ümumyapon bazarına çevrilməsini stimullaşdırırdı. Ölkənin siyasi birləşməsinin əsas məqsədlərindən biri də kəndli çıxışları və üsyanlarının qarşısını ala bilən və nəticə etibarilə feodal quruluşunu daha da möhkəmləndirmək imkanında olan güclü mərkəzləşdirilmiş hakimiyyətin bərqərar olmasından ibarət idi.

İeyasu faktiki olaraq Yaponiyanın hakiminə çevriləndən sonra, o və şoqun vəzifəsində onun varisləri olan Xidetada (1616-1632) və İemitsu (1631-1651) töycü vergisinin alınmasını maksimallaşdıra bilən, feodal münasibətlərinin möhkəmliyini və Tokuqava ailəsinin despotik hakimiyyətini təmin edə biləcək güclü mərkəzi hakimiyyət yaratmağı öz qarşılarında məqsəd qoydular.

İqtisadi qüdrətlərinə arxalanan Tokuqava sülaləsindən olan bu ilk üç şoqun daxili və xarici siyasət sahələrində də qəbul etdikləri bir silsilə qanun aktları ilə mülkədarların hərbi-feodal monarxiyası formasında, son feodalizm dövrünə məxsus hərbi bürokratik aparata malik olan mütləq diktatura rejimi yaratdılar.

Ən vacib tədbirlərdən biri feodal knyazların arasındakı bölgü idi.

İri mülkiyyət sahibləri olan knyazların ali qrupuna Tokuqava ailəsinə qohum olan üç ailə daxil idi: Ki, Mito və Avari. Bu ailələr

şoqun hakimiyyətinin əsas dayağı idilər və onların arasından şoqunluğa varislər təyin olunurdular.

İkinci, «irsi daymyalar» adlanan qrupa («*fudai*») Tokuqava ailəsinin ən yaxın silahdaşları, İeyasunu Sekiqaxara döyüşü və Osaka qalasının mühasirəsi zamanı dəstəkləyənlər daxil idi.

Üçüncü, «özgə daymyalar» adlanan qrupa («*todzama*») mərkəzi hakimiyyət uğrunda məğlubiyyətə düçar olmuş, Tokuqava ailəsinə düşmən olan feodal ailələri daxil idi.

Tokuqava mütləqiyyətinin əsas hərbi dayağı samuraylar, yəni hərbi qulluqda olan hərbi-feodal zümrəsi idi. Knyaz drujinalarında etdiyi vassal xidmət müqabilində samuraylar düyü payı və nadir hallarda (torpaqların qıt olmasına görə) torpaq payları alırdılar.

«Qılınc əyanları» sayılan samuraylar öz aralarında şoqunun bilavasitə şəxsi silahdaşları və vassallarına («*xatamoto*» – tərcümədə «bayraqdaşıyan» və ya «bayraq altında döyüşən») və daha xırda feodalların vassallarına bölünürdülər. Bundan başqa, ən aşağı, sinfi simasını itirmiş samuraylar – roninlər var idi. XVII əsrdə samuray zümrəsinin ümumi sayı 400 min, ailə üzvləri ilə bir yerdə 2 milyona yaxın, rəiyyətlə bir yerdə isə 3 milyona qədər idi.

Siyasi rejimin hərbi dayağını itirməmək məqsədi ilə Tokuqava şoqunları samuraylara ticarət və hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı qadağan edən bir sıra qanun qəbul etdilər. Hərbi drujinaların zabit heyətinin və məmur aparatının təşkilində samuraylar müstəsna hüquqlara malik idilər.

Tokuqava tərəfindən yaradılmış siyasi rejim özünəməxsusluğu ilə səciyyələnirdi. Ölkədə nominal olaraq şoqun və imperatorun ikihakimiyyətliliyi mövcud idi və sonuncusu hüquqi olaraq dövlət başçısı idi. Faktiki olaraq isə şoqun ölkənin mütləq hakimi idi. Nominal ikihakimiyyətlilik hakim feodal dairələrində mövcud olan qruplaşmalarda, əsasən də saray zadəganları arasında öz əksini tapırdı. İmperatorun hakimiyyətdən tamam kənar edilməsi Tokuqava üçün təhlükəli ola bilərdi, belə ki, nəsildən-nəslə əhaliyə imperatorun «tanrıların övladı» olması aşılanırdı. Ölkənin imperatorun adından idarə olunması daha rahat və effektiv idi. İmperator isə hakim ailədən iqtisadi cəhətdən asılı olduğundan, heç

bir real hakimiyyəti olmayan, nominal hakim olmağa məcbur idi.

Tokuqavanın yürütdüyü xarici siyasət də rejimin möhkəmlənməsinə xidmət edirdi.

Yaponiyanın xarici ölkələrlə ticarətinin genişlənməsində ilk növbədə Tokuqava şoqunları maraqlı idilər. 1604-cü ildə ipək və ipək məmulatlar ticarətinin xarici tacirlərdən alınması və daxili bazarda satışı məqsədilə yarırəsmi gildiya quruldu. Alınan gəlir hökumət və gildiya üzvləri olan tacirlər arasında bölünürdü.

Bununla yanaşı, hökumət yapon və xarici gəmilərə xarici ticarət əməliyyatları keçirmək üçün lisenziya satışı praktikasını davam etdirirdi. 30 il ərzində (1604-1635) bu ticarət əməliyyatlarında 360-dan artıq gəmi iştirak etmişdi.

Yaponiyanın Avropa və Cənub-Şərqi Asiya ilə genişlənən xarici ticarəti pul sisteminin genişlənməsini stimullaşdırırdı və məhsul vergisinin pul vergisinə çevrilməsinə zəmin yaradırdı.

Yaponiyanın Avropa dövlətləri ilə xarici ticarət əlaqələrini himayə edən Tokuqava rejimi Xudeyoşinin anti-xristian siyasətini davam etdirirdi. Belə bir ardıcıllıq ilk növbədə ondan irəli gəlirdi ki, yeni hökumət xristianlığı buddizm və hakim konfusiyaçılıq ideologiyası üçün təhdid sayırdı. Çünki, xristian dininin bərabərləşdirici ideyaları mövcud sosial-iqtisadi quruluş üçün təhlükəli idi. Üstəlik, xristian kilsələri hakimiyyətin nəzarətindən kənar idi.

1614-cü ilin yanvarında hökumət xristianlığı «şeytani və dağıdıcı din, imperiyanın düşməni» olmaqda ittiham edən fərman verdi. Buddizm dininə lazımı ehtiramı göstərməyən bütün şəxslərə isə Yaponiyanı tərk etmək göstərişi verilirdi.

İeyasu və Xidetadanın xristianlıq əleyhinə siyasəti Yaponiyanın Avropa dövlətləri ilə olan xarici ticarət əlaqələrinin zəifləməsinə gətirib çıxardı. Bir qədər sonra isə bu siyasət xaricilərə qarşı siyasətə çevrildi.

1623-1624-cü illərdə ingilislər və ispanlar Yaponiyanı tərk etməli oldular. 1630-cu ildə verilən fərmana görə, Avropa ölkələrindən xristianlığın adı rast gəlinən bütün kitabların gətirilməsi qadağan olundu. 1633-1639-cu illərdə qəbul olunmuş bir sıra qanunlara görə, portuqallar ölkəni tərk etdilər, yaponların xarici ölkə-

lərə özbaşına getməsi və tonnajı 500 kokudan (380 ton) çox olan gəmilərin inşası qadağan olundu. Beləliklə, Avropa müstəmləkəçiləri Yaponiyadan qovuldular, ölkə isə dünyadan təcrid olundu.

Eyni zamanda, xristian dinini qəbul etmiş yaponların zor gücünə əvvəlki dinlərə qaytarılması baş verdi.

Xristian missionerlərinə və xristianlığı qəbul etmiş əhaliyə qarşı repressiyaların genişlənməsi 1637-ci ildə Simabara və Amakasudan (Kyusyu adasında, Naqasakinin yanında) olan 37 min kəndlinin üsyanına səbəb oldu.

Üsyanı yatıran şoqun hökuməti ondan xarici təbəələri Yaponiyadan tam qovmaq üçün bəhanə kimi istifadə etdi. Kiçik Deşima adasına (Naqasaki körfəzi) köçürülən protestant hollandlar və qeyri-xristian çinlilərdən başqa ölkədən bütün xaricilər çıxarıldılar. 1639-cu ildə Yaponiya 1854-cü ilə qədər davam edəcək dünyadan tam olaraq təcrid siyasətinə keçdi.

Tokuqava şoqunları özünütəcrid siyasətinin köməyi ilə Yaponiyanın siyasi birliyini möhkəmlətmək və onun mərkəzləşdirilmiş dövlətə çevrilməsini sona çatdırmağa çalışırdılar. Onlar siyasi rejimin dəyişilməsinin qarşısını almağa, feodal quruluşunun əsaslarını qorumağa və kəndlilərin müqavimətini qırmaq üçün feodal knyazlarının güclərinin birləşdirilməsinə çalışırdılar. Tokuqava rejimi özünütəcrid siyasəti vasitəsilə Yaponiyanın Avropa dövlətləri ilə olan xarici ticarət əlaqələrini inhisara almış əsas rəqibləri olan cənub-qərb feodallarını zəiflətməyə çalışırdılar. Bu siyasət ölkənin cənub-şərqindəki ticarət-sələmçi burjuaziyasının iqtisadi qüdrətinin artmasının qarşısını alırdı.

Yaponiyanın xarici əlaqələrdən təcridi həm də şoqunluğun Avropa dövlətləri tərəfindən müstəmləkəçilik təhlükəsinin aradan qaldırılması niyyəti ilə də bağlı idi. Hökumət Avropa ölkələrinin Yaponiyanın daxili işlərinə qarışmasına imkan vermək istəmirdi. Bu yolla onlar Hindistan, İndoneziya və digər Cənub-Şərqi Asiya ölkələrinin aqibətindən xilas olmağa, Yaponiya dövlətinin müstəqilliyini qorumağa çalışırdılar.

Yaponiyanın özünütəcrid siyasətinin müstəmləkəçilik təhlükəsindən qorunma vasitəsi olduğuna baxmayaraq, bu siyasət

obyektiv olaraq ölkəyə mənfi təsir etdi. Bu siyasət feodal münasibətlərin ən durğun formalarının qalmasına, ölkənin iqtisadi inkişafına mənfi təsir edən qaydaların möhkəmlənməsinə gətirdi. Yapon iqtisadiyyatı feodal avtarkiya, natural və yarınatural təsərrüfatın çərçivəsində qaldı. O, yaranan dünya bazarından süni şəkildə təcrid olundu. Bu səbəblərdən Yaponiyada yeni, kapitalist münasibətlərinin yaranması və ölkənin kapitalist cəmiyyətinə keçməsi prosesi ləngidi. Avropa mütləqiyyətindən fərqli olaraq, yapon mütləqiyyəti kapital toplanmasını tezləşdirmədi, əksinə onun qarşısını alırdı.

Yapon xalqı Avropanın öncül dövlətlərinin mədəni, texniki, elmi nailiyyətlərindən təcrid olundu, onlara yiyələnə bilmədi. Beləliklə, Yaponiyanın Avropa ölkələrindən uzunmüddətli iqtisadi, texniki və mədəni geriliyi qaçılmaz oldu.

# ÇİN ORTA ƏSRLƏRDƏ

## Çin II-VIII əsrlərdə

**Çində feodal münasibətlərinin yaranması. Tsin imperiyası**

Çin orta əsrlər dövrünə inkişaf etmiş maddi və mənəvi mədəniyyət irsi və formalaşmış dövlətçilik ənənəsi ilə qədəm qoymuşdu. Yeni eranın II əsrində Çin dörd yüzillik boyu (e.ə. 206-cı ildən b.e. 220-ci ilinə qədər) hakimiyyət sürən Xan sülaləsi idarəçiliyi altında idi. II əsrdə Xan imperiyasında dərin iqtisadi tənəzzül, hakimiyyət və xarici siyasət böhranı başladı.

I əsrdən II əsrin sonlarına qədər Xan imperiyasının taxtında sülalənin azyaşlı nümayəndələri otururdular. Bu, imperatorun ətrafının və əsasən, sarayda hərəmxana xidmətçilərinin güclənməsinə gətirirdi. Ənənələrə zidd olaraq, hərəmağaları qruplaşması geniş torpaq sahələri əldə edir və ən vacib dövlət vəzifələrinə yiyələnirdilər. Yüz il ərzində imperator sarayında intriqa və fitnələr törədilir, çevrilişlər və sui-qəsdlər baş verirdi. Saray qruplaşmalarının mübarizəsi xalqın daha çox istismar edilməsinə və əhalinin etirazına səbəb olurdu.

II əsr ərzində Xan imperiyasında müxtəlif miqyaslı 67 kəndli çıxışı baş vermişdi. Hökumət qoşunları tərəfindən hədsiz qəddarlıqla yatırılan bu üsyanlar böyük imperiyanın ayrı-ayrı bölgələrində daha da alovlanırdı. Üsyanların bir başqa səbəbi də, tez-tez baş verən aclıq və epidemiyalar idi. Bir sıra bölgələrdə gizli kəndli təşkilatları və müxtəlif dao təriqətləri yaranırdı. İlk dövrlərdə bəzi təriqətlər feodallarının hakimiyyətini dəstəklədiyinə və onlara itaəti təbliğ etdiyinə görə imperator sarayı onların genişlənməsinə müsbət baxırdı. Bir müddət sonra Çjan Tsyaonun başçılığı altında yeni təriqət yarandı və bu təriqət itaət deyil, «ümumi rifah yolu» təbliğ edirdi.

İlk dövrlərdə imperator hakimiyyəti bu təbliğatda özünə qarşı təhlükə görmürdü. Çjan Tsyao öz qardaşları və oğulları ilə xəstələrə kömək etməyə çalışırdı və şəfa tapan xəstələr onların ardıcıl-

larına çevrilirdilər. Bu iş 10 il davam etdi və Çinin 8 mahalında 100 mindən çox insan bu təriqətə qoşuldu. Əhali Çjan Tsyaonun nəsihətlərində ümumi bərabərlik ideyaları görür və özünə isə son dərəcə böyük maraq göstərirdi. Bir məmur Çjan Tsyao haqqında yazırdı ki, o, Dao vasitəsi ilə ölülərə yenidən həyat bəxş edə bilir. Sonda hökumət bu hərəkatı qadağa etməyə qərar verdi.

Çjan Tsyao tərəfdarlarını 36 mahala böldü və ən böyük mahala 100 mindən artıq insan, ən kiçiyinə isə 7 minə yaxın insan daxil idi. Hər bir mahalın başında onun təyin etdiyi sərkərdə dururdu.

Çjan Tsyao artıq üsyana hazırlaşırdı və öz tərəfinə bir neçə saray əyanını da cəlb etmişdi. Üsyan 184-cü ilin 5 martına təyin olunmuşdu. Üsyandan öncə Çjan Tsyao bütün mahallara bu xəbəri göndərdi: «Mavi səma (Xan sülaləsi) artıq ölüb, sarı səma (o özünü belə adlandırırdı) qurulacaq. Bu il Səmaaltı dövlətə böyük xoşbəxtlik baş verəcək».

Ən böyük mahalın sərkərdəsi olan Ma Yuan-i paytaxt Loyana göndərilmişdi. O, paytaxtla yanaşı qonşu bölgələrdə bir neçə min insanın üsyanda iştirakını təmin etməli idi. Ma Yuan-i üsyançıları Yeuende cəmləşdirməli və paytaxt Loyanı ələ keçirməli idi. Lakin üsyançılar arasında satqın peyda oldu və üsyan planları haqqında hökumətə xəbər verdi. Nəticədə, Ma Yuan-i və minə yaxın üsyançı ələ keçirildi və edam edildi. İmperator hökuməti Çjan Tsyaonun həbs olunması əmrini verdi. Bu hadisə Çjan Tsyaonu üsyana təyin edilmiş vaxtdan öncə başlamağa vadar etdi. Üsyanın başlanması haqqında xəbərlər bütün ölkəyə yayıldı. Hər yerdə üsyançı dəstələr qurulurdu. Onlar özlərini hökumət qoşunlarından fərqləndirmək üçün başlarına sarı sarıqlar bağlayırdılar. Üsyançılar şəhərləri və mahalları ələ keçirir, məmurları edam edir və mülkədar malikanələrini dağıdırdılar. Dini pərdə altında olmasına baxmayaraq «sarı sarıqlılar» üsyanı kəndlilər tərəfindən başlanılmış və mülkədar-feodallara və monarxiyaya qarşı çevrilmişdi.

Sonradan malikanələrdən qacan qullar və rəiyyət də üsyana qoşuldu. Üsyançı orduların qələbələri, imperiyanın hakim elitasına olan təhlükə saraydaxili çəkişmələri bir qədər zəiflətdi. Feodallar,

saray qruplaşmaları və imperator hökuməti üsyançılara qarşı birgə çıxış etdilər.

184-cü ildə güclü və çoxsaylı nizami imperator orduları üsyançıların hərbi dəstələrinə bir neçə ağır zərbə endirdilər. Çjan qardaşları döyüşlərdə öldürüldülər. «Sarısarıqlılar»ın orduları ciddi məğlubiyyətə uğradılar. Buna baxmayaraq, üsyan səngimədi. Çjan Tsyao və onun tərəfdarları mübarizəni davam etdirdilər.

Xan sülaləsinə qarşı üsyana başqa bölgələrin əhalisi də qalxırdı. Bütün üsyanlar yatırılsa da, Xan hakimiyyətinin tənəzzülü sürətləndi. 220-ci ildə Xan sülaləsi güclənməkdə olan Hun ittifaqının zərbələri qarşısında tab gətirmədi və süquta uğradı.

Xan sülaləsinin dövründə vahid olan Çin yenidən bir necə dövlətə parçalandı. Üsyanları yatıran imperator ordusunun sərkərdələri Tsao Tsao, Lyu Bey və Sun Tsyuan imperiyanın ərazilərini öz aralarında bölüşdürdülər. Beləliklə, imperiya üç dövlətə bölündü: əsası Tsao Tsao tərəfindən qoyulmuş şimalda – Xuanxe vadisində yerləşən Vey dövləti, cənub-qərbdə Sun Tsyuan tərəfindən Yantszının aşağı axarında yaradılmış U dövləti və Lyu Bey tərəfindən cənub-qərbdə – Yantszının orta və yuxarı axarlarında yaradılmış Şu dövləti. Beləliklə, Çində 220-265-ci illəri əhatə edən «Üç dövlət dövrü» başladı. Bu dövrün tam 45 ili hər üç dövlətin sosial-iqtisadi sisteminin xarakterindən irəli gələn və onların iqtisadi həyatına təsir edən davamlı hərbi hadisələrlə zəngin idi.

Üç dövlət arasında əsas mübarizə Vey və Şu arasında gedirdi. U dövləti həm siyasi, həm də iqtisadi cəhətdən ikinci dərəcəli durumda idi. Daha güclü iki dövlət öz qüvvəsinin böyük hissəsini bir-biri ilə mübarizəyə sərf etdiyindən, U dövləti kifayət qədər uzun müddət mövcud ola bildi. U dövləti quldarlıq münasibətlərinin ən ifrat formada bərpasına çalışan despotik monarxiya idi. Bütün təbəələr hərbi düşərgələrdə yaşayırdılar. Kəndlilər həm əkinçi, həm də döyüşçü kimi dövlət qarşısında mükəlləfiyyət daşıyırdılar.

Ölkədəki siyasi hakimiyyət ali hərbi təbəqənin əlində cəmləşmişdi. Bütün əhali hərbi dəstələrə bölünmüşdü. Yürüşlərdən qayıdan döyüşçülər hərbi əyanların torpaqlarını becərməli idilər.

Döyüşçülərin heç bir hüququ yox idi.

Hərbi əyanlar və onlarla bağlı olan feodallar iri torpaq paylarının sahiblərinə çevrilirdilər.

Vey dövlətində də eyni vəziyyət mövcud idi. Vey dövlətinin banisi olan Tsao Tsao kəndlilərin vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra islahatlar həyata keçirdi. O, can vergisini və vergi borclarını ləğv etdi. İşçi qüvvəsinin azlığını hakim rejim Vey dövlətinin sosial-iqtisadi əsasını təşkil edən hərbi qəsəbələr sisteminin hesabına aradan qaldırmağa çalışırdı. Vergilər kənd təsərrüfatı məhsulları ilə alınırdı. Dövlətə məxsus mal-qara ilə torpağı becərən kəndlilər, öz mal-qarası ilə torpağını becərən kəndlilərdən daha çox vergi verirdilər.

265-ci ildə Vey dövlətində qüdrətli «Sıma» ailəsinin nümayəndəsi olan Sıma Yan hakimiyyəti ələ aldı. O, özünü yeni – Tszin sülaləsinin imperatoru elan etdi. 280-ci ildə Tszin imperiyası U dövlətini öz tərkibinə qatdı. Çin yenidən bir sülalənin hakimiyyəti altında birləşdi. Yeni sülalənin tarixinin ilk illərini Qərbi Tszin dövrü (265-316) adlandırırlar.

Sıma Yanın ilk tədbirlərindən biri kəndlilərin hərbi mükəlləfiyyətinin ləğvi oldu. Bu, kənd təsərrüfatının dirçəlməsinə və inkişafına müsbət təsir göstərdi. Ardınca hərbi qəsəbələr sistemi aradan qaldırıldı. Torpaq dövlətin mülkiyyəti elan edildi və pay torpaq sistemi («*xanden*») tətbiq edildi.

Dövlət kəndlilərə iki növ torpaq verirdi: öz tələbatlarını ödəmək üçün və dövlətin xeyrinə becərilən torpaq payı. Şəxsi torpaq payından icarə haqqı və həyət vergisi alınırdı. Həyət vergisi məhsul ilə verilirdi. Ailənin başçısı qadın və yaxud ikinci yaş qrupuna aid olan şəxs idisə, vergi iki dəfə az verilirdi. Torpaq payları adətən 120 mudan ibarət idi (1 mu – 0,06 ha-ya bərabər idi), kəndli 70 munu özü üçün, 50 munu isə dövlət üçün becərirdi. Bundan başqa 16 yaşdan 60 yaşa qədər olan kəndlilər hər il 20 gün ərzində dövlət xeyrinə əmək mükəlləfiyyəti (biyar) yerinə yetirilməli idilər.

Bütün torpaqlar dövlət mülkiyyəti elan edilmişdi. Dövlət «güclü ailələrin» torpaqlarının get-gedə artmasının qarşısını almağa

çalışırdı. Bu məqsədlə ali feodal əyanların və müxtəlif rütbələrə malik məmurların torpaq paylarının ölçüsü dəqiq müəyyənləşdirildi.

Miqyasına görə məhdud olmasına baxmayaraq, Sıma Yanın islahatları pərakəndəlik dövründə tənəzzülə uğramış Çin iqtisadiyyatının dirçəlməsinə müsbət təsir etdi.

Ölkədə yaranmış siyasi və iqtisadi sabitlik əhalinin say artımına da müsbət təsir göstərdi. Etnik cəhətdən çinli olmayan tayfalar və qəbilələr ölkəyə köçürülürdülər. Bu etnik qruplar kənd təsərrüfatı ilə məşğul olmağa başladılar. Bu, onların sosial və mədəni simasına ciddi dəyişikliklər gətirdi. Bununla belə, pərakəndəlik dövründən öncə Çin dövlətinin vassalı olmuş həmin köçərilər böyük təhlükəyə çevrilməyə başladılar.

IV əsrdə Tszin imperiyası tarixində yeni dövr başladı. Bu dövrə tarixçilər Şərqi Tszin dövrü (317-420) deyirlər. Tszin sülaləsinin son imperatorları çox qısa müddət ərzində hakimiyyətdə qala bilirdilər, hökmdarlar tez-tez dəyişirdi. Paytaxt tez-tez Çanandan Loyana və yenidən Çanana köçürülürdü. 316-cı ildə isə hunların süvari qoşunu hər iki şəhəri ələ keçirdi. Tszin imperatoru əsir alındı. Onun əyanlarının bir qismi, ordu və əhalinin böyük hissəsi cənuba – Yantszı çayının qarşı tərəfinə qaçdı.

Möhkəm iqtisadi bazaya malik olmayan Şərqi Tszin hakimiyyəti burada uzun müddətə möhkəmlənə bildi.

İdarəetmə aparatı tam şəkildə iri şimal və cənub feodallarının əlində idi. Bu iki qruplaşma arasında didişmələr və çəkişmələr daimi xarakter aldı. Çox keçmədi ki, feodal ara müharibələri başladı və onlar kütləvi kəndli çıxışları ilə müşayiət olunurdular. Şərqi Tszin dövründə kəndlilər qəddarcasına istismar edilirdi, vergilər daima artırdı, minlərlə əkinçini torpaqdan ayırıb müxtəlif mükəlləfiyyətlərə və biyara vadar edirdilər. 399-cu ildə hökumət kəndliləri icbari olaraq orduya yığmağa cəhd edəndə, Tszyansu vilayətinin kəndliləri etiraz etdilər. Qeyd etmək lazımdır ki, Sun ailəsi bu vilayətdə əmlak bərabərliyini təbliğ edən təlimi yaymağa çalışırdı. Əlverişli məqamdan istifadə etməyə çalışan bu ailənin üzvü Sun En üsyana başlamaq qərarı verdi. Lakin baş verən döyüşlərdə

imperator ordusu üsyançı dəstələrini darmadağın etdi və Sun En öldürüldü. İmperator sarayında bununla bağlı bayram edildiyi bir zamanda Tszyansu vilayətinin kəndliləri yenidən üsyana qalxdılar. Üsyanın başında Sun Enin silahdaşı Ly Syun dururdu. Son nəticədə bu üsyan da imperator qoşunları tərəfindən yatırıldı.

Sun Enin və Lu Syunun üsyanları 19 il davam etdi. Üsyanların yatırılmasına baxmayaraq, onlar çin xalqının azadlıq istəyən qüvvələrinin böyüklüyünü, xalqın firavanlıq və xoşbəxtlik arzusunu bir daha sübut etdi. Üsyanlar nəticəsində həm də Şərqi Tszin imperiyası zəiflədi. Xalqın çıxışlarını amansızlıqla yatıran və bunun sayəsində Cənubi Çin feodalları arasında böyük nüfuz qazanmış sərkərdə Lyu Yuanın başçılıq etdiyi feodal qruplaşması ölkədə yaranmış vəziyyətdən istifadə etdi. Bu qruplaşma 420-ci ildə Tszin sülaləsinin (Sımanın nəsli) son nümayəndəsini taxtdan saldı və yeni sülalə hakimiyyətinin əsasını qoydu. Ümumiyyətlə, 589-cu ilə qədər Cənubi Çində Sun, Tszi, Lyan və Çen sülalələri hakimiyyətdə olmuşlar.

**Çinə xarici basqınlar, şimal və cənub dövlətlərinin yaranması**

Şimali Çində 439-cu ilə qədər türk-monqol-hunların, jujanların, syanbinlərin, tibetlilərin, dilərin, tsyanların tayfa birlikləri qısa müddət ərzində 15 sülalə yaratmışdılar. 439-cu ildə isə Şimali Çin qüdrətli syanbin nəsli Tobanın nümayəndələri tərəfindən vahid hala gətirilmişdi. Toba hökmdarları özlərini Vey sülaləsinin imperatorları elan etmişdilər. Dövlətin paytaxtı Loyan şəhəri idi. Toba-Vey sülaləsi 550-çi ilə qədər Şimali Çində hakimiyyətdə olmuşdu.

550-ci ildə Şərqi Çində Şimali Cjou sülaləsi hakimiyyəti ələ aldı. Bu zaman ərzində tobalılar artıq assimilyasiyaya uğramışdı. Şimali Cjou nəslindən olan feodallar Çini yendən vahid halda birləşdirdilər və Suy adlanan sülalənin əsasını qoydular.

581-ci ildə sərkərdə Yan Tszyan Şimali Cjouda hakimiyyəti ələ keçirtdi və bütün Şimali Çini özünə tabe etdi. Tezliklə o, bütün ölkəni vahid şəkildə birləşdirməyə nail oldu. Ölkədə Suy sülaləsinin hakimiyyəti (581-618) yarandı. Dövlət pay torpaq sistemi Çinin vahid dövlət şəklində birləşməsini daha da asanlaşdırırdı.

**Suy imperiyasının daxili və xarici siyasəti**

Dövlət torpağına təhkim olunmuş kəndlilər məhsul vergisi verirdilər və dövlət qarşısında mükəlləfiyyət daşıyırdılar. Torpaqlar nisbətən azad və bərabər şəkildə bölüşdürüldüyü dövrdə kəndlilər mərkəzi hakimiyyəti dəstəkləməyə davam edirdilər. Torpaqların dövlət tərəfindən paylandığı bir quruluşda kəndlilər ayrı-ayrı feodalların özbaşınalığından qorunurdular.

Amma bu sistem heç də iri torpaq sahiblərinin hüquqlarını pozmurdu. Əvvəllər də olduğu kimi, torpaqların feodalların əlində cəmləşməsi prosesi gedir, dövlət isə bəzən bu prosesin qarşısını almağa çalışırdı.

Suy imperiyasının iqtisadi inkişafının əsas səbəbi – kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafı ilə bağlı idi. Becərilən torpaq sahələri durmadan artırdı. 589-cu ildən etibarən keçən iki onillik ərzində becərilən torpaqların sahəsi üç dəfə çoxalmışdı.

Əhali arasında nüfuzunu artırmağa çalışan Suy hökuməti ilk dövrlərdə əhaliyə bəzi güzəştlər etdi. Dövlət xeyrinə biyar ildə 30 gündən 12-20 günə qədər endirildi, torpaq və həyət vergiləri bir neçə dəfə azaldıldı. Öncəki hökumətlərə olan vergi borcları ləğv edildi və eyni zamanda, hərbi xidmətin müddəti də azaldıldı. 598-ci ildən etibarən 50 yaşına çatan şəxslər icbari mükəlləfiyyətdən azad olunurdular. Sənətkarlığı və ticarəti təşviq etmək üçün bəzi addımlar atıldı. Duza və şəraba olan inhisar ləğv edildi, pul sisteminin və ölçü vahidlərinin unifikasiyası baş verdi. Köhnə yollar bərpa edildi və yeni yolların inşasına başlandı. Toxuculuq və gəmiqayırma sahələri xeyli inkişaf etdirildi.

Böyük gəmilərin inşası və silah istehsalı hökumətin əlində cəmləşdi. Loyan, Çanan, Quançjou, Çendu, Xancjou və digər şəhərlərdə və müxtəlif sərhədyanı məntəqələrdə daxili və xarici ticarət məsələlərini həll edən dövlət idarələri yaradıldı.

583-cü ildə Yan Tszyan dövlətin inzibati bölgüsü və yerlərdə məmur aparatının strukturunu tənzimləyən islahat həyata keçirdi. Bu, idarəetmədə mərkəzləşmə meyllərinin güclənməsinə səbəb oldu. Hərbi sahədə də islahat keçirildi – ordunun komandanlığı bilavasitə imperatorun əlinə keçdi, böyük, elit qoşunlardan ibarət

saray qvardiyası yaradıldı. Bölgələrdə toplanan yığma qoşunların sayı iki dəfə artırıldı.

Amma bütün bu tədbirlərə, habelə əhalinin sayının artmasına və dövlətin ümumi gəlirlərinin həcminin yüksəlməsinə baxmayaraq, xalqın həyat səviyyəsi bir o qədər də yaxşılaşmadı. VII əsrin birinci onilliyinin ortalarından etibarən hakimiyyətə Yan Tszyanın və zadəgan syanbin qadının oğlu Yan Quan gəldi. Onun hakimiyyəti illərində vergilər xeyli artdı, biyarın müddəti artırıldı, inşaat işlərində isə faktiki olaraq müddət məhdudiyyəti aradan qalxdı. Bu dövrdə Böyük Çin səddinin bəzi hissələri bərpa edildiyindən bura ölkənin hər bir yerindən yüz minlərlə kəndli gətirilirdi. Kişilərin sayı yetməyəndə, qadınları da bu tikintiyə cəlb edirdilər. Minlərlə insan aclıqdan, xəstəliklərdən və ağır əməkdən ölürdü. Bundan əlavə, əhali kütləvi şəkildə orduya cəlb olunur və ya ordu üçün qida və təchizat daşımağa məcbur edilirdi. Artıq dövlətin daxili ehtiyatları tükənməkdə idi. Suy sarayı və əyanlar isə dövlətin və xalqın var-dövlətini durmadan israfçılıqla dağıdırdılar.

İmperiyanın zəifliyi onun xarici siyasətinin uğursuzluqlarında daha da aydın görünməyə başladı. Suy sülaləsinin apardığı müharibələr onun tənəzzülünü sürətləndirdi. Suy imperiyası qonşu dövlətlər və köçəri tayfalar ilə daimi müharibələr aparırdı. İmperiyanın ən təhlükəli düşməni qüdrətli tayfa xaqanlığında birləşən türk tayfaları idi. Suy imperiyası yarandıqdan sonra 400 minlik qoşunun basqısına məruz qaldı. Türk xaqanlığı və ayrı-ayrı tayfalar ilə bundan sonra da aramsız müharibələr davam edirdi.

Eyni zamanda, Çin qoşunları indiki Tszinxay və Sintzyan əyalətlərinin ərazilərində yaşayan syanbin toqon (tuquxun) tayfaları ilə mübarizə aparırdılar. Bundan başqa, indiki Vyetnam ərazisində yerləşən Linyiyə (Campa) qarşı bir neçə hərbi yürüş təşkil edilmişdi.

Suy imperiyası dövründə Hind-Çin və Qanq üzərində yerləşən kiçik dövlətlər və Mərkəzi Asiyanın bir sıra dövləti ilə, o cümlədən, Yaponiya, Siam, Khmer və s. ilə iqtisadi-siyasi və mədəni münasibətlər qurulmağa başlandı. Çin bu ölkələrə ipək, kağız, dəmir və digər məhsullar ixrac edirdi.

Suy imperiyasının apardığı müharibələr və əsasən də, Koreya yarımadasında yerləşən Koquryo dövləti ilə müharibə xalq üsyanlarının yeni mərhələsinin başlamasına təkan verdi. 610-611-ci illərdə Çində yenidən xalq üsyanları başladı. 610-cu ildə Xenan və Quandun bölgələrində kəndlilər üsyan etdilər, bundan sonrakı il isə Şandun bölgəsinin 10 minlərlə əhalisi üsyan bayrağını qaldırdı. Kəndli hərəkatının qığılcımları digər əyalətlərə də keçdi. Xebey, Şensi, Cjentszyan, Tszyansu, Quansi və Qansu vilayətlərində də üsyanlar başladı. 614-cü ilin əvvəlində Çində irili-xırdalı 130-dan çox üsyançı dəstəsi mübarizə aparmış və onlar 4 milyondan çox döyüşçünü birləşdirmişdi.

Üsyanlar həm də hakim zümrənin daxilində olan ziddiyyətlərin artmasını göstərirdi. Hakimiyyətdaxili mübarizəyə türk tayfalarının başçıları müdaxilə etməyə başladılar.

Üsyançıların uğurları get-gedə artırdı, onlar bir neçə döyüşdə imperator ordusuna qalib gəldilər. Nəticədə, 617-ci ildə Suy hökumətinin nəzarəti altında yalnız Xenan və Tszyansu bölgələrinin çox az hissəsi qalmışdı.

İri feodallar yaranmış ağır vəziyyətdən istifadə etməyə cəhd göstərdilər. Onlar bir-biri ilə daha da kəskin mübarizəyə girişir, bölgələri ələ keçirib özlərini imperator elan edirdilər.

**Tan dövləti və onun aqrar tədbirləri**

Hələ 617-ci ildə Şansi feodalları Li Yuan və onun oğlu Li Şimin Tayyuan şəhərində üsyan qaldırmışdılar. 618-ci ilin ortalarında Li Yuan özünü yeni – Tan (618-907) sülaləsinin hökmdarı elan etdi. Yeni imperiyanın əsas paytaxtı Çanan şəhəri oldu, Loyan və Tayyuan şəhərləri də paytaxt hesab olunurdu.

Tan sülaləsi uzun müddət ərzində ölkənin vahid şəkildə birləşdirilməsi uğrunda mübarizə apardı və yalnız 628-ci ildə separatçı feodalların son dəstələrini darmadağın etdikdən sonra buna nail oldu. Çini 300 il ərzində idarə edən Tan sülaləsi dövründə ölkə yenidən vahid halda birləşdi.

Artıq VII əsrdən etibarən Tan imperiyası o dövrün ən qüdrətli dövlətlərindən birinə çevrildi. Onun ərazisi şərqdə Koreya yarımadasından qərbdə İssık-Qul gölünə qədər, şimalda Monqolu-

stana, cənubda isə Hind-Çinə qədər uzanırdı.

Tan sülaləsinin hakimiyyət dövrünü, adətən iki dövrə bölürlər:

1. VII əsrin 20-ci illərindən – VIII əsrin ortalarına qədər. Bu dövr Tan imperiyasında məhsuldar qüvvələrin inkişafı və xarici qüdrətin yüksəlişi ilə səciyyələnir;

2. VII əsrin ortalarından – X əsrin əvvəllərinə qədərki dövr isə tədricən baş verən siyasi tənəzzül və artan pərakəndəlik, köçərilərin dayanmayan hücumları və kəndlilərin mübarizəsinin daha da kəskinləşməsi ilə müşayiət olunur.

Birinci dövrdə, əsasən də VII əsrdə kənd təsərrüfatının, ticarətin və sənətkarlığın inkişafı müşahidə olunurdu. Torpağın becərilməsi metodları təkmilləşdirilir, suvarma əkinçiliyi genişlənir, əkilən torpaqların dincə qoyulmasından istifadə edilirdi. Tarla əkinçiliyi (çin palçıq-düyü əkinçiliyi) daha da inkişaf etdi. Sənətkarlığın müxtəlif sahələrində çiçəklənmə dövrü yaşanırdı.

Ümumi inkişaf və iqtisadi yüksəliş sayəsində şəhərlər yenidən canlandı, ölkənin ucqar hissələrində şəhər tipli qəsəbələr yaranmağa başladı. Bu qəsəbələr sonradan bölgələrin inzibati mərkəzlərinə çevrilirdilər.

Şəhərlərin sənətkarlıq və ticarətlə məşğul olan əhalisi özünün nizamnaməsi və seçkili başçıları olan şuralarda (xanlarda) birləşdi. Bu birliklər faktiki olaraq gildiya və sexlərə bənzəyən və daxili məsələlərin həllində müəyyən özünüidarəyə malik qurumlar idilər.

Daxili ticarət sürətlə genişlənirdi. Bu dövrdə yeni poçt məntəqələri tikilirdi ki, onların ümumi sayı 1600-dən çox idi.

İqtisadiyyatın inkişafı əhalinin də artmasına səbəb oldu. 618-ci ildə Çində 2 milyondan bir qədər çox həyət var idisə, 754-cü ildə əhalinin siyahıya alınması zamanı bu həyətlərin sayı artıq 9,5 milyonu keçmişdi və bu da faktiki olaraq, 53 milyon əhaliyə bərabər idi.

İqtisadi çiçəklənmə pay torpaq sisteminin möhkəmlənməsi və inkişafı ilə sıx bağlı idi. Bu sistemin əsas xüsusiyyətlərindən biri dövlət torpaqlarının xırda təsərrüfatlar şəklində kəndlilər tərəfindən becərilməsi idi. Aqrar münasibətlərin bu forması o dövr

üçün mütərəqqi sayılsa da, bu sistem özünün öncəki formasını itirmişdi.

624-cü ildə pay torpaq sisteminin təsbiti haqqında fərman verilmişdi. Sonrakı illərdə Tan sülaləsindən olan imperatorlar bu fərmana bir sıra əlavələr etmişdilər.

Hər bir kəndlinin orta torpaq payı 100 munu keçmirdi və faktiki olaraq Suy sülaləsinin hakimiyyəti dövründə kəndlilərə verilən torpaq sahələrindən bir qədər az idi.

619-cu ildə yeni vergi sistemi tətbiq edildi. Bu sistemə əsasən toplanan vergilər:

1. *Tsu* – buğdayla ödənilən torpaq vergisi;
2. *Dyao* – ipək və giş (qalın kətan) ilə ödənilən sənətkarlıq;
3. *Yun* – hər kəndlinin ildə 20 gün (uzun ildə 22 gün) ərzində yerinə yetirdiyi icbari əmək mükəlləfiyyəti (biyar). Əgər kəndli biyarı ildə 25 gün yerinə yetirirdisə, bu zaman o, sənətkarlıq vergisindən azad olurdu. Biyar 30 gün olardısa, kəndli həm torpaq, həm də sənətkarlıq vergilərini vermirdi.

«*Tsu, dyao, yun*» sistemi müəyyən vaxt ərzində dövlət xəzinəsinə vergilərin sabit daxil olmasını təmin edirdi.

Qeyd etməliyik ki, erkən feodalizm dövründə Çinin dövlət quruluşunun əsas cəhətləri Suy imperiyası hakimiyyəti illərində formalaşsa da, VII əsrdə bu proses tam başa çatmışdı.

Tan imperiyası dövründə Çinin siyasi quruluşunda qədim Çin despotiyasının əsas xüsusiyyətləri saxlanılmışdı. İmperatorun – «səma oğlunun» hakimiyyəti tam və mütləq idi. İmperator və onun tabeçiliyində olan və nüfuzlu əyanlardan təşkil olunmuş Şura şaxələnmiş dövlət aparatına birgə rəhbərlik edirdilər. Bir qayda olaraq, dövlətin idarə edilməsi birinci nazirə həvalə olunurdu. Bundan əlavə müxtəlif sahələri əhatə edən 6 idarə (nazirlik anlamına gəlir): maliyyə-vergi, hərbi, məhkəmə, ictimai işlər, mərasimlər və mülki rütbələr üzrə idarə mövcud idi.

Dövlətin bütün hərbi gücü imperatorun əlində cəmləşmişdi.

Orta əsrlərdə Çin xalqı qədim ənənələrə arxalanaraq dövlətin mənəvi varlığını daha da yüksəltdi. Orta əsrlərin başlanğıcında Çində buddizmin geniş yayılması ilə əlaqədar ciddi ideoloji dəyi-

şikliklər baş verdi. Buddizm dövlət dini elan olundu və ölkənin iqtisadi və siyasi həyatında önəmli rol oynamağa başladı. O, Çin fəlsəfəsinə və ədəbiyyatına yeni nəfəs gətirdi, onun vasitəsi ilə Çin Hindistan və Orta Asiya mədəniyyətini əxz edə bildi.

Tan imperiyası dövründə ədəbiyyat, incəsənət, elmi-texniki biliklərdə – astronomiya, riyaziyyat, mexanika, tibb, coğrafiyada və s. sahələrdə böyük yüksəliş müşahidə olunurdu. Məsələn, VII əsrin I yarısında Çində 3250 nəfərdən çox riyaziyyatçı-alim var idi.

## Çin VIII əsrdən-XVII əsrin birinci yarısına qədərki dövrdə

**İqtisadiyyatın və kənd təsərrüfatının vəziyyəti**

Yuxarıda deyildiyi kimi, Tan sülaləsi Çini yenidən vahid dövlət şəklində birləşdirməyə nail oldu. Bu sülalə (618-907) 300 ildən artıq Çində hakimiyyətdə oldu. Onun hakimiyyətinin ilk yüz ilində Çin iqtisadiyyatı sürətlə inkişaf etdi. Bunun əsasında dövlət torpaq mülkiyyətinin genişlənməsi, pay torpaq sisteminin möhkəmlənməsi və inkişafı dururdu. Mövcud aqrar münasibətlər forması o dövr üçün çox mütərəqqi idi. İqtisadı inkişaf imperiyanın xarici ticarət və mədəni əlaqələrinin genişlənməsi ilə müşayiət olunurdu. Tan sülaləsinin idarə etdiyi Çin o dövrün ən qüdrətli dövlətinə, Şərqi Asiyanın ən böyük və yüksək mədəniyyətə malik mərkəzlərindən birinə çevrildi.

VIII əsrin ortalarından – X əsrin ortalarına qədər keçən dövrdə – Tan sülaləsinin hakimiyyətinin növbəti iki yüz ili ərzində Çin feodal cəmiyyətində güclü bir dönüş özünü göstərdi və erkən feodalizmdən inkişaf etmiş feodalizmə keçid baş verdi. Bu zaman erkən orta əsrlər dövründə yaranmış aqrar münasibətlər sistemi tənəzzül etməyə başladı, feodal və kəndli torpaq sahibkarlığının yeni formaları meydana gəldi və əvvəlki formaları əvəz etdi. Dərin sosial-iqtisadi dəyişikliklər ciddi siyasi çaxnaşmalar ilə müşayiət olunurdu. Bu baxımdan, VIII əsrdə baş vermiş hərbi-feodal ara müharibələrini, İX əsrin sonundakı kəndli müharibələrini və X əsrin birinci yarısında Tan imperiyasının bir neçə xırda dövlət birlik-

lərinə parçalanmasını göstərmək olar.

VIII-IX əsrlərdə istehsal qüvvələrinin artımı nəticəsində feodal quruluşunun yeni mərhələsinin əsası qoyuldu. Təsərrüfatın bir çox sahəsində dəmir daha tez-tez istifadə edilməyə başlandı. Müxtəlif metalların hasilatı artdı: VII əsrin əvvəli ilə müqayisədə IX əsrin əvvəlində dəmir istehsalı iki dəfə, mis istehsalı 2,5 dəfə, gümüş istehsalı isə 2 dəfə artdı. Duz hasilatı da əhəmiyyətli dərəcədə artdı. Torpağın becərilməsində istifadə olunan kənd təsərrüfatı alətləri, növbəti əsrlərdə də bəzi cüzi dəyişiklərlə istifadə olunmaqda idi. Suvarma texnikasında inkişaf baş verdi.

VIII əsrin ortalarına doğru əkin üçün yararlı olan torpaqların ümumi sahəsi artdı. VII əsrin əvvəli ilə müqayisədə vergi verən əhalinin sayı da 4 dəfə artdı və 53 milyon nəfərə çatdı.

Dövlət və xüsusi sənətkarlığın yayılması genişləndi. Sikkə pulların kəsilməsi, silahların və kənd təsərrüfatı alətlərinin istehsalı, metalların, çayın və duzun hasilatı və satılması tamamilə dövlətin əlində cəmləndi. Bu sahələr kəndlilərdən vergi şəklində alınan xammalın hesabına inkişaf etdirilirdi. Əsasən feodal asılılığı, mahiyyətcə əmək biyarı yerinə yetirən dövlət təhkimlilərindən istifadə olunurdu. Dövlətin himayəsində olan sənətkarlıq xüsusi istehsalı sıxışdırır, onu asılı vəziyyətə salmağa çalışır və inkişafını ləngidirdi. Lakin bütün maneələrə baxmayaraq, xüsusi istehsalın inkişafını dayandırmaq mümkün olmadı.

Bununla yanaşı, VIII əsrin ortalarına doğru Suy və Tan sülalələrinin yaratdığı vahid feodal imperiyalarının meydana gəlməsində və inkişaf etməsində müstəsna əməyi olan iqtisadi və ictimai-siyasi quruluşun tənəzzülə doğru getməsi əlamətləri özünü göstərməyə başladı. Bu prosesin əsasında bir feodal torpaq mülkiyyəti formasının yox olub getməsi və onun əvəzinə digər torpaq mülkiyyəti formasının möhkəmlənməsi dururdu. Dövlət pay torpaq sistemi tənəzzülə uğrayırdı və onun müqabilində feodal malikanələri sistemi inkişaf edirdi. Bütün bunların sonunda Çin inkişaf etmiş feodalizm dövrünə qədəm qoydu.

Yarandığı dövr üçün dövlət pay torpaq sistemi mütərəqqi sayıla bilərdi. Bu sistem kənddə məhsuldar qüvvələrin inkişafına

müsbət təsir edir və kəndlilərin ayrı-ayrı feodallar tərəfindən istismarının, az da olsa, qarşısını alırdı. Sonradan dövlətin kəndlilərə vermək üçün nəzərdə tutulan torpaq sahələrinin azalması ilə bağlı, hökumət yeni sistem tətbiq etdi. Torpaq paylarının ölçüsü kəndlilərin mülkiyyətində olan mal-qara və təsərrüfat alətlərinin və s. sayı ilə bağlı oldu. Dövlət torpaqlarının pay şəklində verilməsinin yeni qaydaları fərdi təşəbbüsü və təsərrüfatın genişlənməsi imkanlarını məhdudlaşdırır, iqtisadi inkişafın qarşısını alırdı. Kəndlilərin böyük bir qismi narazı qaldı və feodal torpaqlarına keçməyə başladı.

Pay torpağına sahib olan kəndlilərin sayının azalması xəzinənin gəlirlərinin əhəmiyyətli dərəcədə zəifləməsinə səbəb oldu. İtkilərin yerini doldurmaq üçün hökumət vergilərin həcmini artırdı. VIII əsrin ortalarından etibarən kəndlilərdən xüsusi həyət və torpaq vergiləri alınmağa başlandı. Dövlət vergilərinin ağırlığından, yerli hakimlərin hərc-mərcliyindən, icbari əmək və hərbi xidmətdən canlarını qurtarmağa çalışan kəndlilər feodallara sığınır və son nəticədə onlardan asılı hala düşürdülər. Dövlət torpaqlarının feodallar tərəfindən ələ keçirilməsi prosesi bu şəkildə gedirdi.

Tan sülaləsi bu prosesi dayandırmağa çalışırdı. Pay torpaqlarının qanunsuz alqı-satqısını, girov şəklində verilməsini, dövlət kəndlilərinin gizlədilməsini qadağan edən bir sıra fərmanlar verilmişdi. Hökumət torpaqlarından qaçmış kəndlilərə öz torpaqlarına qayıtdıqları halda geniş imtiyazlar vəd olunurdu. Qaçmışların yaxalanmasına iri mükafatlar verilirdi. Hətta ordunun 2/3 hissəsi buraxılmış və dövlət torpaqlarında yerləşdirilmişdi. 721-ci ildə kəndlilərə torpaq və toxum verilməsi yolu ilə 800 mindən artıq kəndli ailəsi dövlət torpaqlarına cəlb edildi. Amma hökumətin bütün addımları real effekt vermirdi və əvvəlki aqrar münasibətlər sisteminin saxlanılması mümkün olmurdu.

Beləliklə, pay torpaq sistemi öz yerini yeni yaranmış və inkişaf etməkdə olan feodal malikanələr sisteminə verməyə başladı.

Tan Çinində əmtəə-mal istehsalı və ticarət sürətlə inkişaf edirdi. Bu proses kəndlərdən də yan keçmədi. İcma daxilində əmlak bərabərsizliyi genişlənməkdə idi. Kasıb kəndlilər get-gedə

müflis olur və müstəqil şəkildə təsərrüfatla məşğul olmaq imkanını itirirdilər. Varlı icma üzvləri isə daha da varlanırdılar. Bütün bunlar dövlət pay torpaq sisteminin süqutunu sürətləndirirdi.

Torpaq üzərində dövlət mülkiyyəti mərkəzləşdirilmiş idarəetmənin əsas iqtisadi dayağı idi. Onun tənəzzülü, yeni torpaq mülkiyyəti formalarının yaranması və möhkəmlənməsi mərkəzləşdirmə prosesini zəiflətdi, ölkədaxili siyasi pərakəndəliyi gücləndirdi.

Tan dövründə geniş səlahiyyətlərə malik olan vilayət hakimləri vəzifəsi mövcud idi. Tan sülaləsindən olan imperatorların fikrinə görə, vilayət hakimləri kəndliləri pay torpaqlarında saxlamaqda, qaçmış kəndlilərin tutulması, dövlət torpaqlarına qaytarılması və vergi toplamaqda hökumətə hərtərəfli kömək etməli idilər.

Amma bu tədbir əks effekt verdi və yerli feodal hakimlərinin güclənməsinə gətirib çıxartdı.

Ucqar bölgələrin feodallarına müstəqil idarəetməyə və xüsusi qoşunlar yaratmağa icazə verilmişdi. Bu tədbirin səbəbi köçəri tayfaların Çin sərhədlərinə qarşı təhlükəsinin artması ilə bağlı idi. Sərhəd qoşunlarının komandanları öz dairələrində qeyri-məhdud hərbi, mülki və inzibati hakimiyyətə malik idilər.

Bütün torpaqların dövlət mülkiyyətində olmasına baxmayaraq, Tan sülaləsi dövründə Çinin müxtəlif bölgələrinin qeyri-bərabər iqtisadi inkişafı görünürdü. Sərhəd bölgələrində əvvəl mövcud olan irsi torpaq mülkiyyəti daha dayanıqlı oldu. Burada iri canişinliklər yaradılırdı. Sonradan bu canişinlər yerli malikanə sahibkarlarına arxalanaraq mərkəzi hakimiyyətə qarşı çıxan ciddi qüvvəyə çevrildilər. Bir qədər sonra isə belə canişinliklər ölkənin mərkəzi bölgələrində də yaranmağa başladı. Məhz bu canişinlər də Tan sülaləsinə güclü zərbə vururdular.

Tan imperiyasının xarici qüdrəti də azalmaqda idi. VIII əsrdən etibarən imperiyaya daxil olan ərazilər get-gedə Tan sülaləsinin hakimiyyəti altından çıxırdı. 751-ci ildə Talas cayı yaxınlığında baş vermiş döyüşdə çinlilər ərəblərin və Mərkəzi Asiya xalqlarının birləşmiş qoşunlarına məğlub oldular. Nəticədə, Çin Tyan-Şandan qərbdəki torpaqlarını və İpək yolu üzərində ağalığını itirdi. Tan sülaləsindən vassal asılılığında olan Koreya azad oldu. Cənubda

(indiki Yunnan əyaləti) Birmaya uzanan ticarət yolu da itirildi. Kidanilərin (qarakitayların), tibet tayfalarının və digərlərinin Tan ərazilərinə olan basqınları artdı. İmperiyanın ərazisi xeyli azaldı.

**Mərkəzi hakimiyyətin zəifləməsi, hərbi üsyanlar**

Bu böhran dövründə Tan sülaləsinin türk əsilli hərbi canişini An Luşanın başçılığı altında böyük bir üsyan başladı. An Luşan Tan sülaləsinin təyin etdiyi ən böyük canişinlərdən biri idi. Kidanilərlə (qarakitayların) müharibə vaxtı o önə çıxmış və imperatorun rəğbətini qazanmışdı. Tezliklə o, imperator tərəfindən üç sərhəd bölgəsinin (müasir Şansi, Xebey və Daxili Monqolustanın böyük hissəsi) hakimi vəzifəsinə təyin edilmişdi.

Üsyançıların çıxışı üçün bəhanə Çinin 754-cü ildə Nançjao krallığı ilə uğursuz müharibəsi oldu. 755-ci ildə 200 mindən artıq döyüşçünü birləşdirən An Luşanın qoşunu qərbə – Kayfın istiqamətinə irəlilədi və tezliklə bu şəhəri ələ keçirdi. Üsyanın başlanmasından bir ay sonra Loyan şəhəri də tutuldu. Üsyançılar paytaxt Çanana doğru yürüş etdilər. Paytaxt qarnizonu mənəvi düşkünlük keçirirdi və müdafiə olunmaq iqtidarında deyildi. İmperator xanədanı təşviş içində idi. İmperator və ailəsi Çendu şəhərinə qaçdı və bir qədər sonra oğlunun xeyrinə taxt-tacdan əl çəkdi. 756-cı il yayın sonunda An Luşan Çananı tutdu və özünü yeni sülalənin imperatoru elan etdi.

Üsyan artıq bütün Şimali Çin ərazilərini əhatə edirdi. Onun rəhbərləri şəxsi mənfəətlərini güdürdülər. Buna görə də, müəyyən sayda kəndlinin iştirakına baxmayaraq, üsyan kütləvi hərəkata çevrilmədi. Üsyançı qoşunun özəyinin kidanilər (qarakitaylar), türklər, silər, koreyalılar, tibetlilər və digər tayfaların nümayəndələri təşkil edirdi. Məhz buna görə, çinlilər An Luşanın ordularının irəliləməsini yadelli-barbarların basqını kimi qiymətləndirirdilər.

Tan hökuməti xaricdən kömək almağa cəhd etdi. Bunun üçün hökumət 13 tayfanın hakiminə müraciət etdi və həm çinlilərdən, həm də digər xalqlardan təşkil olunmuş 218 minlik birləşmiş qoşun yaradıldı. Bu qoşun Çananı və Loyanı azad edə bildi.

Tezliklə üsyançıların düşərgəsində amansız mübarizə başla-

dı. Yeni hakimə tabe olmaq istəməyən digər canişinlər An Luşana qarşı çıxdılar. 757-ci ilin əvvəlində An Luşan uyğurların əyanları ilə sövdələşməyə girən oğlu tərəfindən qətlə yetirildi. 4 min uyğur atlısı Loyana gəlsə də, An Lu-şanın oğlu Tan qoşunları ilə döyüşlərdə ağır məğlubiyyətlərə uğradı və üsyançıların digər rəhbəri Şi Si-minə müraciət etməli oldu. Şi Simin 759-cu ildə bir neçə döyüşdə qələbə qazandı, Loyanı ələ keçirdi. Lakin üsyançıların düşərgəsində baş verən çəkişmələr nəticəsində An Luşanın 5 oğlu qətlə yetirildi. İki il sonra Şi Simin də sui-qəsd nəticəsində öz oğlu tərəfindən öldürüldü.

Eyni zamanda, Çinin müxtəlif bölgələrində Tan sülaləsinə qarşı digər feodallar da üsyan qaldırdılar. Yalnız 763-cü ilin əvvəlində üsyançıların son dəstələri darmadağın edildi.

Bundan cəmi yeddi il sonra Tan ordusunun digər bir sərkərdəsinin başçılığı altında yeni üsyan qalxdı. 780-ci ildə isə daha bir necə canişin üsyan qaldırdı. Üsyançılar 5 il ərzində mərkəzi hökumətə tabe olmaqdan imtina edirdilər. Onlar yalnız Tibet döyüşçülərinin köməyi ilə məğlub edildilər.

Üsyanlar yatırıldı və Tan sülaləsi hakimiyyətdə qaldı, lakin əvvəlki qaydalar və imperiyanın özü ciddi zərbələrə məruz qalmışdı. Bu səbəbdən də o, durmadan süquta doğru gedirdi. Üsyanlar mərkəzi hakimiyyətin zəifliyini üzə çıxardı. Sonralar bir sıra canişinliklər də Tan sülaləsinin hakimiyyətinə itaətsizlik göstərdilər və mərkəzi hakimiyyətin bu canişinləri itaətə gətirmək cəhdləri puça çıxdı. Bir sıra sərhədyanı bölgə tamamilə canişinlərin hakimiyyəti altına keçdi. Canişin vəzifəsi bəzi hallarda irsən keçməyə başladı. Bu və ya digər feodal evi 50-60 və hətta 80 ilə yaxın canişinliyi öz əlində saxlayırdı.

VIII əsrin 50-80-ci illərində baş vermiş hadisələr Tan imperiyasının sonunun yaxınlaşdığını göstərirdi.

Hələ 755-ci ildə torpaqdan qacmış və yaxud vergi verməyən kəndliləri nəzərə almadan, dövlətə vergi verən və əmək mükəlləffiyyəti daşıyan təsərrüfatların sayı cəmi 60% təşkil edirdi. Üsyanlardan sonra isə bu rəqəm daha da azaldı və 4-5%-ə düşdü.

Ölkədə real hakimiyyət feodal malikanə sahiblərinə keçməyə

başladı. Tezliklə pay torpaq sisteminin ləğvi qanuniləşdi.

**Yan Yanın islahatları**

60-70-ci illərdə vergi toplama sistemində bir sıra islahatlar həyata keçirildi. 763-cü il fərmanına görə əvvəl mövcud olan torpaq vergisi, can vergisi, həyət-məhsul vergisi və digər mükəlləfiyyətlər vahid əmlak vergisi ilə əvəz olundu. Bu vergi əsasən, torpaq sahəsinə görə toplanırdı, vergi verənlərin yaşı və əmək qabiliyyəti nəzər alınmırdı. İslahata görə, bütün əhali 9 qrupa bölünürdü və vergi onların sahib olduğu torpaq sahələrinə görə təsbit edilirdi.

763-cü il qanunu və ondan sonra əsasən, maliyyə məqsədləri ilə verilmiş bir sıra fərmanlar 780-ci ildə başlamış Yan Yanın islahatlarına təkan verdi. Birinci nazir Yan Yanın təklifi ilə mülkiyyət vergisi ildə iki dəfə alınmağa başlandı. Məhz buna görə, mənbələrdə Yan Yanın maliyyə-vergi islahatı «İki dəfə toplama haqqında qanun» adlandırılır. Qanuna görə, natural vergi pul vergisi ilə əvəzlənə bilərdi. Bu, həm də iqtisadiyyatın yüksək səviyyəsinin və məhsuldar qüvvələrin inkişafının göstəricisi idi.

Torpağa sahib olan hər bir kəs, o cümlədən malikanə sahibləri, tacirlər və sənətkarlar bu vergini ödəməli idilər. Dövlət artıq torpaq mülkiyyətlərinin ölçülərini məhdudlaşdırmağa çalışmırdı.

Eyni zamanda, Çin kəndinin ümumi görünüşündə də dəyişikliklər baş verdi, bütövlükdə onun siması dəyişdi. Kəndin mərkəzində torpaq sahibinin tarlaları və kəndli daxmalarının əhatəyə aldığı malikanəsi yerləşirdi. Malikanədə ya torpaq sahibi, ya da onun nümayəndəsi yaşayırdı. Nümayəndənin vəzifəsi malikanəyə və kəndə nəzarət etmək və sahibkarın mülkiyyətini qorumaq idi. Mülkədarlar özləri təsərrüfatla məşğul olmurdular.

Budda məbədləri də iri torpaq sahibkarlarından sayılırdı. Monastırlardan birinin torpaq mülkiyyəti 5366 mu təşkil edirdi. Onun daxilində irili-xırdalı 7 malikanə var idi. Şandun vilayətində yerləşən digər monastır isə 15 malikanədən təşkil olunmuşdu. 846-cı ildə budda məbədlərinə məxsus torpaq mülkiyyətinin qismən müsadirəsi nəticəsində hakimiyyət 60 milyon hektardan çox torpağa sahib oldu.

İctimai əmək bölgüsünün dərinləşməsi, fəth edilmiş ərazilər-

dən gəlirlərin artması, sənətkarlıq məhsullarının, feodal malikanələrində və fərdi kəndli təsərrüfatlarında istehsal olunmuş malların satılması üçün yeni bazarların açılması nəticəsində şəhər əhalisi artdı. Şəhərlər, sənətkarlıq və ticarət daha da inkişaf etdi.

Tan sülaləsinin hakimiyyəti dövründə dəmir və gümüş istehsalı 2, mis istehsalı isə 2,5 dəfə artdı. Mədən hasilatı, metal tökmə tamamilə dövlətin inhisarında idi. Şəhərlərdə zinət əşyaları, ən zəruri məhsullar, habelə Çinin qonşu ölkələrə, Mərkəzi Asiyaya və Sibirə ixrac etdiyi məhsullar – kağız, ipək, metal əşyalar, çini qablar, silah, tuş, fırça, çətənə, yapışqan, bambuk, lak ağacı və fil sümüyündən düzəldilmiş məhsullar, ətirlər, mum və s. istehsal olunurdu. Tan sülaləsinin hakimiyyəti dövründə Çində şəkər qamışı yetişdirilməyə başlandı.

Sələmçi-tacir birlikləri xüsusi veksellər – «ucan pullar» çap etməyə başladı. Onlar dəmir pullara dəyişdirilirdi. «Uçan pullar» Çində X əsrin sonunda əmələ gəlmiş kağız pulların sələfi idilər.

Dövlət duzun, çayın və şərabın istehsalı və satışını inhisara almışdı. Elə dövlətə ən çox gəlir gətirən də duz inhisarı idi. VIII əsrin əvvəlində duzun satılması hesabına hökumətə gələn pul xəzinə gəlirlərinin yarısına qədərini təşkil edirdi.

Çində şəhərlər dövlət torpaqlarında yerləşirdi. Buna görə də, Avropa şəhərlərindən fərqli olaraq, ayrı-ayrı feodallardan asılı deyildilər. Yalnız sonrakı əsrlərdə feodallar şəhərlər üzərində tam ağalığa iddia etməyə başladılar.

Tan dövründə şəhərlər arasında ən böyüyü Çininin qərb paytaxtı Çanan idi. Bu şəhərin əhalisi 2 milyon nəfərə çatırdı. Şəhər həm də Tan imperiyasının ən iri mədəniyyət mərkəzi idi. Şərq paytaxtı Loyan şəhəri də iri ticarət, sənətkarlıq və mədəniyyət mərkəzi sayılırdı. Ölkənin cənub hissəsində yerləşən Quançjou, Tsyuançjou və Yançjou limanlarında əcnəbi tacirlərin koloniyaları vardı. Buraya ərəb, fars, yapon, koreyalı tacirlər, habelə Hindistandan, Vyetnamdan, Borneo və Sumatra adalarından, hətta Bizansdan tacirlər gəlirdilər.

Lakin bu yüksəliş heç də uzun müddət davam etmədi.

Erkən orta əsrlərdə yaranmış aqrar münasibətlərin dağılması

və onların yerinə yeni – yetkin feodalizm dövrünə xas olan aqrar münasibətlərin meydana gəlməsi kəndlilər üçün çox ağır keçirdi. Bundan əvvəl dövlət tərəfindən ayrılmış pay torpaqlarında yaşayan milyonlarla kəndli öz torpağından didərgin salınmışdı. Məhz onlar – cəmiyyətin ən aciz elementləri VIII-IX əsrlərdə Tan imperiyasının əsaslarını sarsıdan anti-feodal üsyanlarının və 874-901-ci illərdə baş vermiş kəndli müharibəsinin iştirakçılarının ən böyük hissəsini təşkil etdilər.

**Xuan Çaonun başçılığı ilə kəndli müharibəsi**

874-cü ildə imperiyanın şimal-şərqində baş verən üsyanlar bir axında birləşməyə başladı. Kəndli müharibəsi ocaqlarının həyati əhəmiyyətli Xenan, Xebey və Şandun vilayətlərinin yaxınlığında olması onlar üçün böyük təhlükə yaradırdı. Tezliklə Xebey vilayətinin üsyançıları arasında duz ticarəti ilə məşğul olan Van Syan-çji önə çıxdı. 874-cü ildə onun 3 minlik dəstəsi kəndliləri öz ətrafında birləşdirən mərkəzə çevrildi. Növbəti 875-ci ildə Şandun vilayətində başqa bir duz ticarətçisi Xuan Çao və onun 8 ən yaxın silahdaşı bir necə min döyüşçüdən ibarət dəstə yaratdılar və Van Syan-çjinin ordusuna qoşuldular.

Artıq 876-cı ildə Van Syan-çjinin və Xuan Çaonun qoşunları sırasında 100 min nəfər var idi. Onlar Xuanxe və Yantszı çayları arasında yerləşən beş vilayətdə hərbi əməliyyatlar aparır, imperiyanın ikinci paytaxtı Loyanı təhdid edirdilər. Bəzi bölgələrdə hökumət qoşunları üsyançıların tərəfinə keçirdi. Kəndli müharibəsinin başçıları öz çağırışlarında məmurların qəddarlığı və satqınlığını, qanunların ədalətsizliyini və vergilərin ağırlığını ifşa edirdilər. Üsyançılar dövlət qeydiyyat kitablarını və borc siyahılarını yandırır, feodallara vergi verməkdən və biyara getməkdən boyun qaçırırdılar. Dövlətə, mülkədarlara və monastırlara aid anbarları tutur, şəhərlərdəki malikanələri dağıdır, məmurları, iri feodalları və sələmçiləri öldürürdülər. Onlar taxılı, paltarları və əldə etdikləri digər əmlakı kəndlilər arasında bölüşdürürdülər.

Tan hökuməti üsyançıların rəhbərlərinə orduda yüksək vəzifə vəd edərək, onları ələ almağa çalışırdı. Van Syan-çji bu təkliflə razılaşmağa hazır idi. O, hesab edirdi ki, yüksək hərbi vəzifəyə

yiyələnsə və hakimiyyətin dəstəyi ilə kəndlilərə daha çox kömək edə biləcək. Bu səbəbdən Van Syan-çji və Xuan Çao arasında ixtilaf yarandı. Van Syan-çji son nəticədə hökumətilə sövdələşmədən imtina etsə də, üsyançıların rəhbərləri arasında yaranan ziddiyyət 877-ci ilin əvvəlində kəndli müharibəsində iştirak edən qüvvələrin parçalanmasına gətirib çıxardı. 878-ci ilin martında isə Van Syan-çjinin zəifləmiş ordusu hökumət qoşunları tərəfindən darmadağın edildi. Van Syan-çji əsir alındı və edam edildi. Onun dəstələrinin qalıqları Xuan Çaonun ordusuna qoşuldu. Xuan Çao artıq üsyançıların vahid başçısına çevrildi və kəndli müharibəsini tam olaraq özü idarə etməyə başladı. O, təmtəraqlı «Səmaya yardım edən Böyük sərkərdə» titulunu qəbul etdi. Kəndli hərəkatı get-gedə genişlənirdi. Xuan Çao bu hərəkata mütəşəkkillik gətirmək üçün ordusunda ciddi nizam-intizam yaratdı, digər üsyançı qruplarla əlaqəyə girdi və yerlərdə kəndli özünüidarə qurumlarının təşkilinə cəhdlər göstərdi.

880-ci ilin yayında üsyançılar Loyan şəhərinə yürüşə çıxdılar. Xuan Çao öz çağırışlarında Tan sülaləsi ilə bilavasitə bağlı olmayan əhalinin bütün zümrələrini öz tərəfinə keçməyə, hökumət qoşunlarını isə müqaviməti dayandırmağa çağırırdı.

Loyan 880-ci ilin noyabrında alındı, 881-ci ilin 10 yanvarında isə Xuan Çaonun 600 minlik qoşunu paytaxt Çananı ələ keçirdi. İmperator qaçdı və Sıçuanda məskunlaşdı. Tan sülaləsindən olan zadəganlar, saray əyanları, varlılar və məmurlar məhv edildilər. Ələ keçirilmiş qida, parçalar və qızıl kasıblara paylandı. Xuan Çao Böyük Tszi (Xuan Çaonun vətəni olan Şandunu vilayətində qədimdə mövcud olan dövlətin adı ilə) sülaləsinin yaranmasını elan etdi və «Qızıl hakimiyyət» şüarı altında imperator oldu. Xuan Çaonun ən yaxın silahdaşlarından təşkil edilmiş hakimiyyət orqanları formalaşdırıldı.

Bütün bunlara baxmayaraq, üsyançıların proqramı, mübarizənin istiqaməti və məqsədi haqqında dəqiq təsəvvür yox idi. Bu o dövr üçün tipik olan kortəbii, qeyri-mütəşəkkil kəndli hərəkatı idi.

881-ci ilin yazından – Tan imperiyasının hər iki paytaxtı alınandan sonra üsyançılar fəal hücum əməliyyatları kecirmirdilər.

Xuan Çao Tan imperatorunu təqib etmədi və bununla da ona güclərini yenidən səfərbər etməyə əlverişli imkan yaratdı. Sıçuanda imperatorun yanında toplanmış feodallar isə heç də vaxt itirmirdilər.

Tan imperiyasının hakim qüvvələri onlara qarşı olan təhlükənin mahiyyətini anladığından bütün köhnə nifaqları unutdu, Tan sülaləsi ətrafında birləşdi və əks hücuma keçdi. Tan hökuməti türk şato tayfasının Li Keyyunun başçılığı altında olan süvari dəstəsini öz tərəfinə çəkməyə nail oldu. Tanqut sərkərdəsi Toba Sıqun da öz ordusu ilə birgə Tan xanədanının köməyinə gəldi.

Üsyançılar isə daxili böhran yaşayırdılar.

881-ci ilin yayında üsyan əleyhdarlarının böyük bir ordusu paytaxt Çanana daxil oldu. 882-ci ilin oktyabrında iri üsyançı dəstələrindən birinin başçısı olan xırda məmur Çju Venin hökumət qoşunlarına təslim olması üsyançıların vəziyyətini daha da ağırlaşdırdı. 883-cü ilin mayında üsyançılar Çananı tam tərk etdilər və Li Keyyunun 40 minlik qoşunu paytaxta soxuldu. Süvarilərin vəhşiliyi dəhşət yaratdı. Xalq süvariləri «qara qarğalar», onların sərkərdəsi Li Keyyunu isə «təpəgöz əjdaha» adlandırmağa başladı.

884-cü ilin may-iyun aylarında Li Keyyunun və Çju Venin hökumət qoşunları Xenanda üsyançıların Şan Janın (Xuan Çaonun ən yaxın silahdaşı) və Xuan Enin (Xuan Çaonun kiçik qardaşı) başçılıq etdiyi ordularını ağır məğlubiyyətə uğratdılar. Xuan Çao və onun ordusunun qalıqları (dəstədə mindən az döyüşçü qalmışdı) onları təqib edənlərdən qurtularaq Şandun vilayətinə çəkildi. 884-cü ilin iyul ayında hökumət qoşunları onları burada haqladılar. Xuan Çaonun dəstəsi getdikcə kiçilirdi. Vəziyyətin çıxılmazlığını anlayan Xuan Çao özünü öldürdü.

Lakin Xuan Çaonun ölümü ilə üsyan bitmədi. Bir sıra bölgələrdə onun ordusundan ayrılmış dəstələr və ya hökumət qoşunlarının dağıtdığı üsyançı dəstələrin qalıqları müqaviməti davam etdirirdilər.

Xuan Çaonun başçılıq etdiyi kəndli müharibəsi məğlubiyyətə uğramasına baxmayaraq, o, Çində baş vermiş ən böyük kəndli hərakatlarından biri kimi ölkə tarixində böyük rol oynamışdı. Kənd-

lilərin uzun illər boyu davam edən inadlı mübarizəsi hakim qüvvələrə və Tan hakimiyyətinə ciddi zərbə vurdu. Çoxlu sayda iri feodal, məmur və sələmçi qətlə yetirildi. Tan sülaləsinin hakimiyyəti yalnız nominal olaraq qaldı.

Çin feodal qüvvələri və köçərilərin birləşmiş qüvvələri üsyana qalxmış xalq üzərində qələbə qazanmaqla imperiyanı ələ keçirdilər. Möhtəşəm kəndli müharibəsi nəticəsində Tan sülaləsi taqətdən düşmüş hala gəldi. 907-ci ildə isə Çju Ven saray çevrilişi etdi və sonuncu Tan imperatorunu taxtdan saldı.

**«5 sülalə və 10 dövlət»**

Ölkə tarixçilərin «5 sülalə və 10 dövlət» adlandırdıqları yeni dövrə qədəm qoydu. Ənənəvi xronologiyaya görə, bu dövr 907-960-cı illəri, başqa sözlə, Tan sülaləsinin süqutundan yeni Sun sülaləsinin hakimiyyətə gəlişinə qədərki tarixi əhatə edir.

60 il ərzində Şimali Çində 5 sülalə bir-birinin ardınca hakimiyyətə gəldi. Çinin mərkəzi və cənub bölgələrində isə bu dövrdə on müstəqil dövlət mövcud olmuşdur.

«5 sülalə və 10 dövlət» dövründə Çin feodal cəmiyyəti erkən feodalizmdən inkişaf etmiş feodalizmə keçid etdi. Həmin dövrdə bir tərəfdən, erkən orta əsrlər dövrünə xas olan pərakəndəlik, ara müharibələri və hərc-mərclik davam edir, digər tərəfdən isə, bu dövrün nisbətən qısamüddətli olması (Şimal və Cənub sülalələrinin 300 illik ağalığı dövrü ilə müqayisədə) onu göstərirdi ki, feodallar arasında gedən ara müharibələri Çini tam parçalamaq iqtidarında deyil, əvvəlki illərdə baş verən mərkəzləşdirmə prosesləri və Çinin dövlət aparatındakı dəyişikliklər pərakəndəliyin qarşısını ala biləcəkdir.

**Kidanilər və vahid hakimiyyətin bərpası. Sun sülaləsinin daxili və xarici siyasəti**

«5 sülalə və 10 dövlət» dövründə Çinin şimal-şərq sərhədlərində (Şərqi Monqolustan və onunla həmsərhəd olan Mancuriya bölgələrində) maldar-ovçu *kidanilər* (özlərini kitaylar adlandırırdılar) gücləndilər və müstəqil dövlət yaratmağa nail oldular. Kidanilər imperiyası bütün qonşuları ilə, əsasən də Çinlə aramsız müharibələr aparırdı. Kidanilərin basqınlarının ilk günlərindən Çin xalqı

işğalçılara qarşı inadlı mübarizə aparırdı. Buna ilk olaraq, sərhəd bölgələrinin qarnizonları və əhalisi başladı. Tezliklə ölkənin şimal hissəsinin əhalisi də bu mübarizəyə qoşuldu.

960-cı ildə kidanilərə qarşı yürüşə çıxan ordu öz sərkərdəsi Çjao Kuanini (960-979) imperator elan etdi. Bununla da Çində 300 ildən çox davam edən Sun (960-1279) sülaləsinin hakimiyyəti başladı. Sun imperiyasının birinci paytaxtı Kayfın, 1127-ci ildən etibarən isə Xançjou oldu. Amma imperiyanı əvvəlki hüdudlarda bərpa etmək mümkün olmadı: Tan sülaləsinin idarə etdiyi bir sıra bölgələr qonşu kidani və tanqut dövlətlərinin tərkibinə qatılmışdı.

Sun imperatorlarının ilk tədbirləri mərkəzi hakimiyyəti möhkəmlətmək məqsədi daşıyırdı. Bir vaxtlar ölkənin ucqar bölgələrində qeyri-məhdud hakimiyyətə malik olan «tzeduşilər» vəzifəsi faktiki olaraq aradan qaldırıldı. Tanların apardığı siyasətdən fərqli olaraq Sun sülaləsi dövründə hərbçilərin deyil, mülki məmurların rolu artdı. Hərbi hakimiyyət bilavasitə imperatorun əlində cəmləşdi. Əvvəllər mövcud olan hərbi mükəlləfiyyət sistemi tamamilə muzdlu ordu sistemi ilə əvəzləndi. Ordunun özəyini imperator qvardiyası təşkil edirdi. Qvardiyanın sayı bütün hərbi qüvvələrin 2/3-si qədər idi. Ölkədəki bütün maliyyə və məhkəmə sistemi ciddi şəkildə nizama salındı. Bu dövrdə yaşayan birisi belə sərt mərkəzləşdirməni «gövdənin gücləndirilməsi və budaqların zəifləndirilməsi» metaforası ilə təsvir etmişdi.

Çinin yenidən vahid hala gəlməsi, ümumçin hakimiyyətinin möhkəmlənməsi təsərrüfatın və mədəniyyətin inkişafına təkan verdi. Məhsuldar qüvvələrin artması özünü ilk növbədə kənd təsərrüfatı məhsullarının həcminin artmasında və becərilən torpaqların genişlənməsində göstərdi. Şəhərlərdə sənətkarlığın ən mürəkkəb sahələri tədricən təmərküzləşdi. Bundan başqa, şəhərlər həm daxili, həm də xarici ticarət mərkəzlərinə çevrildilər. Onların sayı və əhalisi artdı. XI-XII əsrlərdə Kayfında 1 milyon 500 mindən artıq, Xançjouda isə 1 milyon 500 mindən bir qədər az insan yaşayırdı.

X-XIII əsrlərdə Çin geniş miqyaslı xarici ticarət əlaqələri qurdu. Şimal-şərqdə, şimal-qərbdə və cənubda olan ənənəvi ticarət

yollarına çıxışı itirən Çin ticarət yollarının başlıca istiqamətini qurudan dənizlərə yönəltdi. Quançjou və Tsyuançjou limanları dəniz ticarətinin əsas mərkəzləri oldu. Sun imperiyası 50-dən artıq ölkə ilə ticarət əlaqələri saxlayırdı. İxrac və idxal mallarının sayı çoxaldı.

Sun dövründə dövlətə və sahibkarlara aid iri malikanə mülkiyyəti sistemi bərqərar oldu. Bu sistem əslində torpaqların hakim təbəqənin əlində cəmləşməsinə xidmət edirdi. Ən iri torpaq sahibi imperator sülaləsinin özü idi. Hakim sülalənin torpaq mülkiyyəti dövlət tarlaları fondu hesabına formalaşdırılmışdı.

Qeyd edək ki, Sun dövründə dövlət torpaqlarında işləyən kəndlilərin vəziyyəti xeyli ağırlaşdı. Bu səbəbdən, «dövlət tarlalarından» kəndlilərin qaçması o qədər artdı ki, XI-XIII əsrlərdə hökumət 4 dəfə «İcarədarların dövlət torpaqlarından qaçması haqqında» qanun qəbul etmişdi.

Feodallara və məmur-bürokratlara məxsus torpaqlar da aramsız olaraq artırdı. Bəzi hallarda ölkədə becərilən torpaqların 80%-nə qədəri onların mülkiyyətində olurdu. Bu müikiyyətin atma mənbəyi qanunsuz yollarla dövlət torpaqlarının ələ keçirilməsi idi. Digər hallarda isə hökumətin özü ağır maliyyə vəziyyəti yarananda (əsasən müharibələrlə bağlı) dövlət torpaqlarının bir qismini satmağa razılıq verirdi.

Budda məbədi də iri torpaq sahibi olaraq qalırdı.

İri dövlət və xüsusi torpaq mülkiyyətinin inkişafı və kəndlilərin torpaqlarını tədricən itirməsi zəminində icarə münasibətləri genişlənir, bilavasitə icarə və subicarə forması alırdı. XI əsrin birinci rübündə ölkənin kənd əhalisinin 1/3-i (bəzi bölgələrdə əhalinin 70-80 faizi), sonrakı onilliklərdə yarısına qədəri, XII əsrin ortasında isə 2/3-si torpaq icarə edirdi.

Kəndlilərin mütləq əksəriyyəti şəxsən asılı halda idilər. Xüsusi mülkiyyətdə olan malikanələrdə torpağı icarəyə alan kəndlilər sahiblərinin «icazə fərmanı» olmadan torpağı tərk edə bilməzdilər.

Vergilər insan həyatının, demək olar ki, bütün sahələrini əhatə edirdi. Torpağa, evlərə, mal-qaraya, əmək alətlərinə, paltara, qayıqlara və s. görə vergi toplanırdı.

«Təkrar toplama» üsulu əsas vergi yığma forması hesab olu-

nurdu. Vergilərin miqdarı durmadan artırdı. XII-XIII əsrlərdə isə o, daha böyük miqyas aldı. Əlavə vergilərin yığılması kəndlilərin vəziyyətini dəhşətli dərəcədə ağırlaşdırdı.

Kəndlilərin ağır vəziyyəti onları kütləvi və davamlı antifeodal çıxışlarına sövq edirdi. Saray tarixçilərinin məlumatlarına görə, Sun sülaləsi hakimiyyətinin son 150 ilində ölkədə irili-xırdalı 200-dən artıq üsyan qeydə alınmışdı.

X-XIII əsrlər boyu davam edən üsyanlarda əmlak və ictimai bərabərsizliyin aradan qaldırılması, ədalətin qorunması və s. əsas tələb kimi qoyulurdu. Bu dövrdə antifeodal mübarizə ideologiyasının formalaşmasının və üsyanların artmasının səbəblərindən biri də gizli dini-siyasi cəmiyyətlərin yaranması idi: onlar çox fəal çıxış edirdilər və kütlə arasında yüksək nüfuza malik idilər.

Antifeodal hərəkatının mərkəzi ölkənin cənub bölgələri idi. Bu da maraqlıdır ki, hətta monqol basqınları başladıqdan sonra xarici istilaçılar ilə mübarizə Cin əhalisinin həyatında aparıcı rol oynasa da, ölkənin cənubunda və cənub-şərqində kəndlilərin feodallara qarşı çıxışları kəsilməmişdi.

XI əsrin 30-40-cı illərində hakim zümrənin müxtəlif təbəqələri arasında rəqabətin artması, sosial mübarizənin kəskinləşməsi şəraitində və yadellilərin davamlı basqınları ilə bağlı olaraq, bir qrup məmur və alim silkinin nümayəndələri iqtisadi, siyasi, hərbi və mədəni islahatlar keçirilməsi uğrunda hərəkatda birləşmişdilər. İlk dövrlərdə bu hərəkat özünü imperatora ünvanlanan yazılı məruzələr və ərizələr şəklində göstərirdi.

XI əsrin 40-cı illərində islahatların keçirilməsi üçün ilk addımlar atılmağa başlandı. Hərəkatın tarixində ən yüksək nöqtə isə 1069-1076-cı illərə – onun başında Van Anşi durduğu dövrə təsadüf edir. Həmin illərdə Van Anşi ölkədə baş verən siyasi və iqtisadi böhranın qarşısının alınması və xarici düşmənlərə qarşı müqavimətin artırılması üçün islahatların zərurəti haqqında imperatora məruzələr təqdim etdi. Dövlət imtahanları və təhsil sistemi tamamilə yenidən quruldu. Yerlərdə məmurlara və əsasən, aşağı təbəqələrdən olanlara verilən məvacibin miqdarı dəqiqləşdirildi.

Mərkəzi hakimiyyətin iqtisadi-maliyyə bazasını möhkəmlən-

dirmək məqsədilə həyata keçirilən tədbirlər isə əsasən, torpaqların yenidən ölçülməsindən və vergi sisteminin nizama salınmasından ibarət idi. Bunun üçün islahatçılar torpaqların sahəsi və keyfiyyəti haqqında yeni siyahıya alınmadan istifadə etdilər. Şəxsin maddi vəziyyətinə əsasən əmək mükəlləfiyyətinin pul vergisi ilə əvəzlənməsinə icazə verildi.

Çinin hərbi qüdrətinin güclənməsi və yerlərdə feodal qayda-qanunlarının möhkəmlənməsi üçün Van Anşinin təklifi ilə muzdlu qoşunlar ləğv olundu və onların əvəzinə rekrut toplanması ilə dövlət ordusu yaradıldı, yeni hərbi təlim sistemi tətbiq edildi. Ordunun silahlandırılması və təchizatı qaydaları da dəyişdirildi.

Mədəniyyət və təhsil sahəsində də islahatlar keçirilməsi nəzərdə tutulmuşdu. Bunun əsasında yeni təhsil müəssisələrinin yaradılması dayanırdı. Dövlət imtahanlarında təcrübi biliklər tələb olunurdu.

«Yeni qanunlar» əsasən kənd əhalisinin üst təbəqəsinin – orta və xırda malikanə sahiblərinin və varlı kəndlilərin maraqlarına xidmət edirdi. Bunlara arxalanan islahatçılar mərkəzi hakimiyyəti möhkəmləndirməyə, ölkədə tüğyan edən siyasi və maliyyə böhranının qarşısını almağa və imperiyanın hərbi qüdrətini artırmağa çalışırdılar.

Hakim təbəqənin siyasi və iqtisadi imtiyazlarına toxunan «Yeni qanunlar» saray əyanlarının mühafizəkar çevrəsi tərəfindən sərt müqavimətlə qarşılandı. İslahatların əleyhdarları rəqibləri olan Van Anşini və onun tərəfdarlarını konfusiçilik əxlaqına zidd qaragüruhda ittiham etdilər.

«Yeni qanunlar» ideyası iflasa uğradı. Səbəbi də ondan ibarət idi ki, Van An-şi və onun tərəfdarları Çinin güclənməsini və inkişafını yuxarıdan aparılan islahatlarda görürdülər, onun çiçəklənməsi üçün yalnız imperator hakimiyyətinə arxalanırdılar.

Onu da qeyd edək ki, həmin dövr imperiyanın sərhədlərinə qonşu dövlətlər, xüsusilə də kidanilər tərəfindən edilən görülməmiş həmlələr ilə səciyyəvi idi. Torpaqları qorumaq uğrunda ardı-arası kəsilməyən mübarizə Sun hakimiyyətini zəiflədir, ölkədaxili ziddiyyətləri artırır və dərinləşdirirdi.

X əsrin sonu – XI əsrin əvvəllərində ölkənin şimal-qərb sərhədlərində kidanilərdən başqa yeni bir təhlükə meydana gəldi. Burada tanqut dövləti Si Sya (982-1227-ci illər, çinlilər bu dövləti Qərbi Sya adlandırırdılar) yarandı. Bu dövlət qədim köçəri tszyan tayfalarının xələfləri tərəfindən yaradılmışdı və onun əraziləri Tszinxay, Qansu əyalətlərini və Şensi əyalətinin bir hissəsini əhatə edirdi.

XI əsr boyu Qərbi Sya dövləti Sun imperiyası ilə aramsız müharibələr aparırdı və Şensi və Qansu əyalətlərinin bir hissəsini ələ keçirə bilmişdi. 1006-cı ildə tanqut hökmdarı Sun sülaləsi ilə sülh müqaviləsi imzalamağa nail oldu. Beləliklə, Tanqut dövlətini öz vassalı hesab edən Çin onun müstəqilliyini rəsmən tanıdı.

XII əsrdə isə Sun imperiyası üçün əsas təhlükəni cənubi tunqus-mancur tayfaları olan curcenlər təşkil edirdilər.

Kidanilərin, tanqutların və əsasən də curcenlərin basqınları Çin üçün böyük fəlakətlərlə müşayiət olunurdu. Yadelli basqınlar xüsusən, Şimali Çinin iqtisadiyyatına və mədəniyyətin ağır zərbə vurmuşdu. İşğalçıların əsarəti altında olan Şimali Çin və Sun sülaləsi tərəfindən idarə edilən Cənubi Çinin bir-birindən təcrid olması ölkənin ümumi sosial-iqtisadi inkişafını ləngitdi, Şimal və Cənub arasında mövcud olan təsərrüfat fərqlərini daha da qabartdı.

XIII əsrdə həm Sun imperiyasına, həm də curcenlərə, tanqutlara qarşı yeni təhlükə – monqol istilası təhlükəsi yarandıqda Şimali Çinin xarici düşmənlərə qarşı müqavimətinin zəifləməsi özünü göstərdi. Hər üç xalq arasında gedən müharibələr və daxili çəkişmələr onları zəiflətmiş, monqol istilası təhlükəsi qarşısında davam gətirmək və müqavimət göstərə bilməyəcək hala gətirmişdi.

**Monqol təcavüzü və nəticələri. Monqollara qarşı çıxışlır**

1205-ci (Temuçin hələ Çinqiz xan titulu almamışdı), 1207-ci və 1209-cu illərdə monqol ordusu tanqut dövləti Qərbi Syaya hücumlar etmişdi. Tanqutların hakimi özünü Çingiz xanın vassalı elan etmiş və hələ 1211-ci ildə curcenlərin Tszin imperiyasına qarşı apardığı müharibədə iştirak etməli olmuşdu. 1215-ci ildə monqollar Pekini tutdular. Daha sonra 90 şəhər də eyni aqibətə məruz qaldı və böyük bir ərazi mon-

qolların hakimiyyəti altına keçdi.

Ümumiyyətlə, Çində monqol hakimiyyətinin başlanğıc tarixi məhz 1215-ci il hesab olunur.

7 onillik boyu davam edən ağır hərbi yürüşlərdən sonra, nəhayət, Çində monqol hakimiyyəti bərqərar oldu. Yuan adı ilə tarixə düşmüş bu dövlət (1271-1368) cəmisi 90 ilə yaxın ömür sürdü. Bunun da əsas səbəbi Çin xalqının monqollara qarşı aramsız davam edən və müxtəlif formalar alan mübarizəsi idi. Kəndlilərin, hərbiçilərin, sənətkarların, qulların üsyanları ölkənin bütün əyalətlərində bir-birini əvəz edirdi.

XIV əsrdə Çin xalqının monqollara qarşı mübarizəsinin tarixi «Ağ Lotos» gizli cəmiyyəti ilə sıx bağlıdır. Monqol istilası şəraitində «Ağ Lotos» cəmiyyətinin rəhbərləri yadelli işğalına qarşı müxtəlif şüarlar irəli sürür və mübarizə aparırdılar. «Ağ Lotos» cəmiyyətinin rəhbərlik etdiyi ilk acıq üsyanlar XIV əsrin 20-ci illərində baş verdi və Şandun, Xenan və Xebey əyalətlərinin ərazilərini əhatə edirdi.

«Ağ Lotos» cəmiyyətinin gizli fəaliyyəti ildən ilə daha da geniş miqyas alırdı. XIV əsrin 30-40-cı illərində cəmiyyətin nüfuz dairəsinə şimal-şərqi Çinin əyalətlərindən Sıçuana qədər olan geniş ərazilər daxil idi. Yalnız Şandun vilayətində cəmiyyətin üzvləri 300-dən çox üsyanda iştirak etmişdilər.

Tezliklə «Ağ Lotos» cəmiyyətinin çağırışı ilə Yantszı çayının orta axarında böyük bir üsyan baş verdi. Bu üsyana səyyar duz satıcısı Syuy Şoy-xuey başçılıq edirdi.

1352-ci ilin əvvəlində Anxueyin cənubunda «Ağ Lotos» cəmiyyətinin yeni müstəqil mərkəzi yarandı. Burada «qırmızı ordu» adlandırılan üsyançı qrupu fəaliyyət göstərirdi. Gələcəkdə antimonqol mübarizəsinin ümumi başçısı və kasıb icarəçi kəndli ailəsində anadan olmuş Çju Yuan-çjan (1328-1398) məhz bu qrupdan çıxmışdı.

Uzunsürən və mürəkkəb mübarizə nəticəsində Çju Yuan-çjan və onun yaxın silahdaşları digər üsyançı qrupların başçılarını sıradan çıxardılar, yaxud məhv etdilər və antimonqol cəbhəsində mübarizə aparan dəstələrin böyük hissəsini birləşdirməyə nail

oldular. Çju Yuan-çjan antimonqol hərəkatının yeganə başçısına çevrildi. Onun ordusunda süvarilər, piyadalar, hətta donanma da var idi.

1367-ci ilin sonunda üsyançılar şimala – Pekin istiqamətində böyük bir yürüş təşkil etdilər. Növbəti ilin yanvarında Çju Yuan-çjan yeni Min sülaləsinin (1368-1644) başçısı kimi Çin imperatoru elan edildi. 1368-ci ilin sentyabrında üsyançı qoşunlar Pekinə daxil oldular.

Beləliklə, 20 il sürən və bütün ölkəni əhatə edən kütləvi üsyanlar Çində monqol ağalığına son qoydu. XIV əsrin 80-ci illərinin sonunda Yuan qoşunlarının sonuncu qalıqları Çin ərazisindən çıxmalı oldu.

1351-1368-cı illərdə baş vermiş xalq azadlıq hərəkatı dünyanın orta əsrlər tarixində üsyançıların qələbə qazandıqları nadir hadisələrdən biri idi. Amma son nəticədə bu üsyanın uğurlarından hakim təbəqələr daha çox bəhrələndi.

**Min sülaləsinin daxili və xarici siyasəti**

Bununla yanaşı, Çinin yeni hakimləri kəndli müharibəsi dalğasında hakimiyyətə gəlməsi faktını da nəzərə almaya bilməzdilər. Bu, ilk imperator Çju Yuan-çjanın (1368-1398) həyata keçirməyə başladığı iqtisadi tədbirlərdə özünü göstərdi. Onun ilk fərmanları monqol ağalığı dövründə geniş vüsət almış ən ağır istismar formalarını aradan qaldırmağa yönəlmişdi. Fərmanlara əsasən, müxtəlif kateqoriyalara aid qullar azad edildi, şəxsi qul alverinə isə ciddi qadağa qoyuldu.

Yeni sülalə ölkədəki torpaqların ənənəvi olaraq iki hissəyə – dövlət və şəxsi torpaqlara bölünməsini təsbit etdi. Qanunla ilk növbədə, dövlət torpaq fondunun yenidən qurulması üçün istifadə olundu. Tezliklə Min hökumətinin sərəncamına geniş torpaq sahələri keçdi. Bura əvvəlki sülalələrin, qovulmuş monqol əyanlarının, Yuan sülaləsi ilə sıx bağlı feodalların və Min sülaləsinin digər rəqiblərinin torpaqları, həmçinin atılmış və ya kəndlilər tərəfindən tərk edilmiş torpaqlar daxil idi.

Üsyan zamanı ələ keçirilmiş torpaqlar qanuni yolla onu becərən kəndlilərə verilirdi. Tərk edilmiş torpaqların da onu becərmək

istəyən şəxslərə keçməsinə icazə verildi. Dövlət torpaq mülkiyyətini qorumaq məqsədi ilə hökumət XIV əsrin sonlarına qədər iri xüsusi mülkiyyətlərin əlavə torpaqlar hesabına böyüməsinin qarşısını almağa çalışırdı.

Min sülaləsinin həyata keçirdiyi «kəndli istehsalının həvəsləndirilməsi» siyasəti aqrar həyatın canlanması üçün münbit şərait yaratdı. Əvvəllər becərilən torpaqların bərpasından sonra yeni xam torpaqlardan istifadəyə başlandı və bu, tez bir zamanda geniş sahələri əhatə etdi.

Şəhərlərdə ticarət və sənətkarlıq da dirçəlirdi. Çju Yuan-çjan antimonqol mübarizəsində fəal iştirak edən şəhər əhalisinin maraqlarını təmin edən bir sıra tədbirlər gördü. Qulların azad edilməsi, çox ağır vergilərin və mükəlləfiyyətlərin aradan qaldırılması sənətkarların vəziyyətini yaxşılaşdırdı, onların istehsala olan maraqlarını artırdı. Tacirlərdən alınan vergilər də azaldıldı. Onlar az miqdarda dövlət rüsumunu ödəməklə mallarını bütün ölkədə sata bilərdilər.

Min sülaləsi hakimiyyətinin ilk illərində müşahidə olunan iqtisadi yüksəliş uzun sürmədi. XV əsrin ortalarından etibarən kənd təsərrüfatının inkişafı dayandı, onun gələcək yüksəlişi üçün yaranmış münbit şərait tükəndi.

Təbiidir ki, bu da xalq kütlələrinin yaşayış səviyyəsinə mənfi təsir edirdi. Artıq XV əsrin birinci yarısında Çində sosial ziddiyyətlər kəskinləşməyə başladı.

O biri tərəfdən, XVI əsrdə torpaqların yenidən bölünməsi prosesi sürətləndi. Dövlət və kəndli torpaqları böyük sürətlə feodalların əlinə keçirdi. Torpaq mülklərinin zorla mənimsənilməsi kütləvi hal aldı. Bu proses durmadan davam edirdi.

Ən iri torpaq sahibləri olan Min imperatorları dövlət və kəndli torpaqları hesabına ölkənin müxtəlif bölgələrində çox böyük sahələr əldə edir və həmin ərazilərdə onlar üçün malikanələr tikilirdi. XVII əsrin başlanğıcında belə malikanələrin sayı 300-dən çox idi və onların ümumi sahəsi 100 minlərlə tsin ən münbit torpaqları təşkil edirdi. Torpaq sahələrinin ələ keçirilməsində sarayda böyük nüfuza malik və bəzən hətta favorit olan xadimlər də fəal iştirak edirdilər. İmperatorlarla yanaşı, başqa çoxsaylı məmurlar və ma-

likanə sahibləri, varlı tacirlər və sələmçilər, habelə kənd icmasının inzibati rəhbərləri torpaqları ələ keçirmək uğrunda mübarizədə iştirak edirdilər.

Torpağın feodalların əllərində cəmləşməsi nəticəsində iri malikanələrin sahələri daha da artırdı. Bir neçə yüz tsinlik xüsusi mülkiyyətlər normal hala çevrildi. Ayrı-ayrı malikanə sahiblərinin torpaqları min və on minlərlə tsin ilə ölçülürdü. Həmin torpaqlar xırda paylar şəklində kəndlilərə icarəyə verilirdi. Kəndlilər bu torpaqları müstəqil şəkildə becərir və məhsulun müəyyən hissəsini torpaq sahibinə verirdilər. Bu, adətən, məhsulun 50%-ni təşkil edirdi, amma bəzi hallarda daha çox ola bilərdi.

Zaman keçdikcə əmtəə-pul münasibətlərinin inkişafının təsiri altında vergi sistemində ciddi dəyişikliklər baş verdi. Dövlətə məhsul vergisindən və malikanə sahibinə icarə pulundan ibarət olan feodal rentası və biyar (əsasən dövlət üçün yerinə yetirilən əmək mükəlləfiyyəti) getdikcə öz yerini pul rentasına verməyə başladı.

Pul rentasının rolunun artması obyektiv olaraq mütərəqqi addım idi. O, natural təsərrüfatın əsaslarını sarsıdır, kənd təsərrüfatı məhsullarını ticarət mallarına çevirməklə iqtisadiyyatın inkişafına zəmin yaradırdı. Amma natural vergilərin pul vergisi ilə əvəzlənməsi kəndlilərin dövlət və feodallar tərəfindən istismarını da gücləndirirdi.

Bu zəmində sosial ziddiyyətlər artdı, Çin feodal cəmiyyətinin ən müxtəlif zümrələri və ictimai qrupları hərəkətə gəldilər. Bu hal özünü ilk növbədə kəndlilərin müflisləşməsi səbəbi ilə baş verən bir sıra iri kəndli üsyanında göstərirdi. XVI əsrin əvvəlində antifeodal kəndli çıxışları ölkənin müxtəlif bölgələrini bürüdü. Bu üsyanlardan ən irisi 1509-cu ildə paytaxt Pekin ətrafındakı bölgədə baş vermişdi. Üsyanın rəhbərləri Lyu qardaşları, Yan Xu və digərləri idilər.

1511-ci ildə Tszyansi əyalətində daha bir böyük xalq üsyanı baş verdi.

Kütləvi kəndli çıxışları Sıçuan əyalətində də baş verirdi. 1509-1514-cü illərdə burada iki iri üsyançı qruplaşması: Şimalda Lan

Tin-juyun dəstəsi, cənubda isə Fan Sının dəstəsi fəaliyyət göstərirdi.

Dövlət mədənlərində işləyənlərin mübarizəsi da ön plana çıxmağa başladı. Onlar 1522-1523-cü illərdə Xebey, Şandun və Xenan əyalətlərində kütləvi üsyana qalxdılar. 1566-cı ildə isə Tszyansi və Çjentsyan əyalətinin mədən işçıləri üsyan qaldırdılar. 1601-ci ildə iri sənətkarlıq mərkəzi olan Tszyannan əyalətinin Suçjou şəhərində toxucular üsyan etdilər.

Daha da genişlənən kəndli üsyanları dalğası ilə yanaşı, şəhər əhalisinin kütləvi çıxışları başlamışdı. Bunlar da ölkədəki feodal rejiminin əsaslarını zəiflədirdi. Miqyasca geniş və kəskin sosial mübarizə fonunda Min imperiyasının siyasi tənəzzülünün əlamətləri üzə çıxırdı. Feodalların və saray bürokratiyasının maraqlarından çıxış edən Min hökuməti ümümdövlət məsələlərinin həllindən get-gedə uzaqlaşırdı. Məmur aparatında özbaşınalıq, korrupsiya və yaltaqlıq baş alıb gedirdi. Vəzifə alveri geniş vüsət almışdı.

Dərinləşən daxili böhran Min imperiyasının xarici siyasətinə də ciddi təsir edirdi. Min sülaləsinin diplomatiyası və xarici siyasəti passiv, müdafiə xarakteri almışdı. XVI əsrdə – XVII əsrin əvvəllərində ölkənin xarici siyasi vəziyyəti durmadan pisləşirdi.

Qərbi Avropadan Hind okeanı hövzəsinə dəniz yolunun açılması avropalılar tərəfindən Çin ilə həmsərhəd olan Cənub-Şərqi Asiyanın ayrı-ayrı bölgələrinin zəbt edilməsinə səbəb oldu.

XVI əsrdə avropalılar bilavasitə Çinə müdaxilə etməyə və onu müstəmləkə işğalının obyektinə çevirməyə can atırdılar. İlk olaraq portuqallar Çinə daxil olmağa cəhd göstərdilər. Onların silahlı ticarət gəmiləri artıq 1516-cı ildə Çin sahillərinə yaxınlaşdı. Quandundakı yerli hakimiyyət orqanları portuqallara dövlət rüsumu ödədikdən sonra mallarını boşaltmağa və ticarət aparmağa icazə verdi.

Portuqallardan sonra ispanlar da Çin sahillərinə gəldilər.

XVI əsrin sonu – XVII əsrin əvvəllərində isə Çin holland müstəmləkəçiləri ilə qarşılaşmalı oldu. Portuqalları Makaodan çıxarmaq mümkün olmadı. Əksinə, onlar Min hökumətindən geniş ticarət imtiyazları tələb etməyə başladılar. 1622-ci ildə isə Çin də-

nizi limanı Syamına (Amoya) hücum etdilər, amma müqavimətə rast gəldilər.

XVI əsrin son illərində ingilislər də Çin ərazisinə daxil olmağa çalışırdılar. Çinin sahilboyu hüdudlarında onların törətdiyi əməllər əslində hərbi qarətçilik xarakteri daşıyırdı. Nəhayət, 1637-cü ildə ingilis eskadrası Quançjounu bombardman etdi. Bunun ardınca da Min hökumətinə «ticarət əlaqələri» qurulması haqqında ultimatum verildi.

Müstəmləkəçilərin XVI-XVII əsrin əvvəllərində Çin ərazilərini ələ keçirmək cəhdləri, Aomını çıxmaq şərti ilə, uğursuz nəticələndi. Onların Uzaq Şərqdəki gücü zəifləyən, amma nəhəng Min imperiyasının müqavimətini qıracaq səviyyədə deyildi. Öz ərazilərini yadellilərin basqınlarından qorumağa çalışan Min imperatorları Quançjoudan başqa, Avropa gəmilərinin digər limanlara girməsini qadağan etdilər.

XVI-XVII əsrin əvvəllərində Min imperiyası qonşu Asiya ölkələri ilə ənənəvi əlaqələrini saxlamaqda davam edirdi. Çin imperatorları əvvəlki kimi bu münasibətləri hakim konfusiyaçılıq fəlsəfəsi üzərində qururdular. Bu fəlsəfənin müddəalarına görə, Çin dövləti digər – «barbar» xalqlarından qat-qat üstün sayılırdı.

XVI əsrin əvvəllərindən etibarən Min imperiyasının şimal sərhədlərində vəziyyət yenidən pisləşdi. Monqolların Dayan xanın başçılığı altında birləşməsindən sonra onların Çinə silahlı basqınları sistemli xarakter aldı.

XVI əsrin 40-cı illərində isə yapon dəniz quldurlarının Çinə qarətçi basqınlarının yeni mərhələsi başladı. Basqınların təşkilatçıları Çin və Yaponiya arasında mövcud ticarətin məhdudluğundan narazı olan Yaponiyanın Cənub-Qərb bölgəsinin iri tacirləri və feodalları idilər.

Lyaodunun şimalında Çinə yaxın ərazidə yaşayan mancurların yüksəlişi (onlar Sun sülaləsi dövründə yaşayan curcenlərin xələfləri idilər) başlamışdı. Bu, onların başçısı Nurxasinin (1159-1626) adı ilə bağlı idi. XVI əsrin 80-ci illərində o, Cənubi və Mərkəzi Mancuriyada məskunlaşan onlarla qonşu və qohum tayfaları öz hakimiyyəti altında birləşdirməyə nail olmuş və bununla da,

mancur dövlətinin əsasını qoymuşdu.

1609-cu ildə Nurxasi Pekinə bac göndərməyi dayandırdı və bununla özünün müstəqil olmasını bəyan etdi. O, XII-XIII əsrlərdə mövcud olmuş curcen dövlətinin adı ilə öz sülaləsini Tszin (qızıl) adlandırdı və 1618-ci ildən etibarən Çinə qarşı hərbi əməliyyatlara başladı.

Mancurlarla mübarizə daxili ziddiyyətlərlə çarpışan Min imperiyasının hərbi zəifliyini bir daha göstərdi. Çoxsaylı, amma pis təşkil olunmuş Min qoşunları mancurlara müqavimət göstərmək iqtidarında olmadı. Min sarayı Çin torpaqlarının müdafiəsini təşkil etmək əvəzinə, hərbi əməliyyatlar zamanı özlərinə dəyən ziyanı ödəmək üçün xalqdan daha çox vergi toplamağa başladı. Bu siyasət hakimiyyəti daha da gözdən saldı, əhalinin etirazı və müqavimətinin artmasına gətirib çıxardı.

**Kəndli üsyanları, Çinin mançurlar tərəfindən tutulması**

XVII əsrin ikinci rübündə Çini sarsıdan xalq kütlələrinin möhtəşəm çıxışı ölkədə ziddiyyətlərin kəskinləşməsinin məntiqi nəticəsi idi. Bunun ilk göstəricisi olaraq Min imperiyanın müxtəlif yerlərində bir-birinin ardınca iri kəndli üsyanları baş verdi. Onlara hələ monqol ağalığı zamanı yaranmış və fəaliyyətini bərpa etmiş gizli «Ağ Lotos» cəmiyyətinin üzvləri başçılıq edirdilər.

Sonradan silahlı mübarizə daha da gücləndi. 1628-1629-cu illərin qışında üsyançılar Şensi əyalətinin bir çox kəndlərini nəzarətə aldılar. 1632-ci ilin mayında 200 minlik kəndli ordusu Xuanxe çayını keçərək Şansi əyalətinə daxil oldu.

1635-ci ilin yayına doğru kəndli müharibəsi daha da genişləndi və daha böyük əraziləri əhatə etdi. Üsyançı dəstələr eyni vaxtda Nantsin bölgəsində, Şensi, Xenan, Xubey əyalətlərində və Sıçuan əyalətinin uzaq şərqində fəaliyyət göstərirdilər. Kortəbii şəkildə davam edən üsyanda kəndlilər feodalları, məmurları, sələmçiləri öldürür, vergi siyahılarını yandırır və varlıların əmlakını öz aralarında bölüşdürürdülər.

Üsyançıların düşərgəsində ziddiyyət yaratmaq istəyən Min hökuməti əhaliyə güzəştlərə getməyə qərar verdi. 1636-cı ilin iyu-

nunda hökumət silahlarını yerə qoyan üsyançılara amnistiya elan etdi.

1636-cı ilin birinci yarısında Min hökuməti mancurlarla cəbhədə yaranmış sakitlikdən istifadə edərək ən hazırlıqlı ordu hissələrini üsyan bürümüş bölgələrə yönəltdi. 1638-cı ilin sonuna qədər Min sərkərdələri iri üsyançı dəstələrini pərən-pərən saldılar. Çinin şimal bölgələrini illər boyu sarsıdan üsyan çətinliklə də olsa yatırıldı. Lakin bəlli oldu ki, Min hökuməti və hakim feodal dairələri qələbəni vaxtından əvvəl bayram edirlər.

1636-1638-ci illərdə hökumət qoşunlarının hərbi uğurları müvəqqəti xarakter daşıyırdı və dayanıqlı olmadı. Üsyançı hərəkatın böhranı xalqın mübarizəsinin sonu demək deyildi. Ölkədəki vəziyyət hələ də gərgin olaraq qalırdı və üsyanın səbəbləri aradan qalxmamışdı.

Öz torpaqlarına qayıdan kəndlilər təsərrüfatlarını bərpa edə bilmir, yenidən sələmçilərin və varlıların əsarətinə düşürdülər. Onlar kasıbçılığa və müflisləşməyə məhkum qalırdılar. 1630-1640-cı illərdə məhsul qıtlığı baş verdi. Əkinlər quraqlıqdan və çəyirtkə basqınından məhv olmuşdu, aclıq və epidemiyalar baş alıb gedirdi. Hakim dairələr isə kəndliləri daha da amansız istismar edirdi və geri çəkilmək fikrində deyildi. Nəticədə, xalqın silahlı mübarizəsi yenidən başladı. Kəndlilər üsyan etdilər, şəhər yoxsulları, bəzi feodallar və məmurlar da onlara qoşuldular.

1643-cü ilin əvvəlindən etibarən üsyançıların daha fəal olduğu ərazi ölkənin şimal bölgələri idi.

Döyüşçülərinin sayı bir milyona çatan üsyançı dəstələri vahid nizami ordu halına salındı. Ordunun rəhbərliyi mərkəzləşdirildi. Onun ali orqanı Li Tsiçenin başçılıq etdiyi Hərbi Şura idi. Bu qurum eyni zamanda, mülki və inzibati məsələlərə də nəzarət edirdi.

Üsyanın başçıları mübarizənin məqsədləri və məramlarını təbliğ etməyə başladılar. Onlar çürümüş Min sülaləsinin devrilməsi və yeni hakimiyyətin qurulması, torpaqların qaytarılması, əmlak və sosial bərabərlik, ədalətli ticarət və digər məsələlərlə bağlı şüarlar səsləndirirdilər.

1643-cü ilin yayında üsyançıların Hərbi Şurası Min sülaləsini

devirmək üçün Pekin üzərinə yürüşə qərar verdi. 1644-cü ilin 25 aprelində üsyançılar Pekinə daxil oldular. Min sülaləsinin son imperatoru saray parklarının birində özünü asdı.

Pekini tutduqdan sonra üsyançılar öz hökumət strukturlarını və orqanlarını formalaşdırmağa başladılar. Li Tsiçenin başçılıq etdiyi və 20-25 nəfər tanınmış üsyan başçısını birləşdirən Şura həm inzibati, həm də hərbi hakimiyyətin ali orqanı kimi işləməyə davam etdi. Bu Şura ənənəvi olaraq hələ əsası Tan sülaləsinin hakimiyyəti dövründə qoyulmuş altı təsisatı nəzarət altında saxlayırdı.

Üsyançılar yeni hökumətin quruculuğuna başladıqda həll etmək iqtidarında olmadıqları problemlərlə qarşılaşdılar. Onlar vergi və mükəlləfiyyətlər sistemini ləğv etdilər, amma maliyyə vəsaitlərinə kəskin ehtiyacları olduğundan bir qədər sonra kəndlilərdən və sənətkarlardan vergi yığılmasını bərpa etdilər.

Üsyançı kəndlilər nə Pekinin tutulmasından əvvəl, nə də sonra elan etdikləri bərabərlik və ədalət prinsiplərini həyata keçirə bilmədilər. Onlar köklü sosial dəyişikliklər edə biləcək hökumət aparatı qurmağı bacarmadılar.

Hakim dairələrin isə yeganə real qüvvəsi ölkənin şimalında general U San-quyun tabeçiliyində olan hökumət qoşunları idi. Onlar Böyük Cin səddi boyunca mancurlara qarşı müharibə aparırdılar. Li Tsiçen və silahdaşları general U San-quyun ordusunun əhəmiyyətini çox gözəl başa düşürdülər və buna görə də danışıqlara girməyə cəhd etdilər. Lakin U San-quy kəndlilərin hakimiyyətini qəbul etməkdən imtina etdi. Böyük üsyançı ordusuna qarşı təkbaşına uğur qazanacağına ümid etməyən U San-quy mancur hakimlərinə vassal andı içərək onlardan üsyanı yatırmaq üçün yardım istədi. U San-quyun və onların tərəfinə keçən digər Min feodal və sərkərdələrin dəstəyindən istifadə edən mancur feodalları uzun zamandan bəri Çinin işğal planını həyata keçirməyi qərarlaşdırdılar.

1644-cü ilin 27 mayında Böyük Çin səddinin yaxınlığında – Şanxayquanda baş verən həlledici döyüşdə mancur süvarilərinin dəstəyini almış U San-quy üsyançıları məğlubiyyətə uğratdı.

Mancurlar U Say-quyu üsyançıları təqib etməyə göndərdilər

və heç bir müqavimət görmədən 1644-cü ilin 6 iyununda Pekinə daxil oldular. Burada möhkəmlənəndən sonra onlar əsilzadələrdən birinin azyaşlı oğlu Abaxayı Çin imperatoru elan etdilər. Bununla da Çində mancur Tszin (1644-1912) sülaləsinin hakimiyyəti bərqərar oldu.

# KOREYA ORTA ƏSRLƏRDƏ

Koreyanın erkən tarixinə yüksək inkişaf etmiş Çin mədəniyyətinin böyük təsiri olmuşdur. Çindən Koreyaya heroqlif yazısı, dövlət quruculuğu prinsipləri və dini-ideoloji sistemlər – *konfusiyaçılıq, buddizm* və *daosizm* gəlmişdir.

**Üç dövlət dövrü**

Yeni eranın ilk əsrlərində Koreya yarımadasında üç dövlət quruldu. Bunlar şimalda paytaxtı Pxenyan olan Koquryo, cənub-qərbdə paytaxtı Sabi olan Pekçe və yarımadanın mərkəz və şərq hissələrində paytaxtı Kımson olan Silla dövlətləri idi. Bu dövlətlər qohum icmaların («*bu*») birləşməsi və onlardan birinin hakim mövqe tutması ilə yaranmışdı. Onların başında qəbilə əyanları tərəfindən irəli sürülmüş və ali hakimiyyət funksiyaları ilə yanaşı kahin funksiyalarını da yerinə yetirən «vanlar» dururdular.

Koreya yarımadasında dövlətlərin yaranması arası kəsilməyən daxili çəkişmələr və xarici düşmənlər – onları əhatə edən xırda dövlət qurumları və yarımadanı fəth etməyə çalışan Yaponiya və Çin ilə mübarizə şəraitində baş verirdi. VII əsrin birinci yarısında Koquryo, Pekçe və Sillada dövlət aparatı formalaşdı, nizami ordu quruldu və hakimiyyətin irsən keçməsi prinsipi təsbit edildi.

Üç rəqib dövlətdən ən dayanıqlısı Silla ola bildi. Sillanın hakimi Txedjon-Murel (654-661) Tan imperiyası ilə ittifaqa girdi. 660-668-ci illərdə müttəfiqlərin birgə səyləri nəticəsində Pekçe və Koquryo dövlətləri darmadağın edildilər. Koqure Çin canişinliyinə çevrildi, Pekçe isə Çin tərəfindən təyin olunmuş Pue Yunanın idarəsinə keçdi.

**Birləşmiş Silla dövləti**

670-676-cı illərdə döyüş qabiliyyəti olan orduya malik Silla, Koquryo və Pekçe Koreya torpaqlarına nəzarət uğrunda Çin ilə müharibə aparırdı. Nəticədə, Silla Koreya yarımadasının Tedonqan çayından cənubdakı ərazilərinin sahibinə çevrildi və formal olaraq, Tan imperiyasının vassalı oldu. Bu rəsmi status VIII əsrdə Sillanın Çin ilə diplomatik münasibətlərinin inkişafına təkan verdi.

Txedjon-Murelin, oğlu və varisi Munmunun (661-681) haki-

miyyətləri dövründə Koreya yarımadasının birliyi uğrunda aparılan mübarizə onların hakimiyyətlərini xeyli möhkəmləndirdi. Sillada mərkəzləşdirilmiş dövlətin 681-780-ci illərə təsadüf edən ən güclü dövrü onların xələflərinin adı ilə bağlıdır.

Sillanın inzibati quruluşu və vergi sistemi Çin nümunəsi əsasında yenidən təşkil olundu. Dövlət idarəçiliyi və siyasətdə konfusiçilik ideyaları hakim idi. Təhsil və elm Çin mədəniyyətinin ciddi təsiri altında idi. Bu dövrdə Sillada koreyalı alimlər Kim Temun və Çxve Çxivon tərəfindən yazılmış tarixi-bioqrafik əsərlər Çin dilində qələmə alınmışdı. Sol Çxon koreya sözlərinin Çin heroqlifləri əsasında yazıla biləcəyi «*idu*» yazısını ixtira etmişdi.

Ölkədə buddizm geniş yayılmışdı: burada 200-dən çox budda məbədi var idi. Bunlardan ən məşhurları Saçxovansa, Pulkuqsa, Mirıksa və daş heykəllərlə bəzədilmiş Sokkuram məbədləri olmuşdu. Buddist rahiblərin arasından bir çox musiqiçi, rəssam və s. çıxdı.

780-ci ildə üsyanlar və van Xeqonun qətli zəminində ölkədə uzunsürən ara müharibələri dövrü başlandı. IX əsrin sonu – X əsrin əvvəllərində Koreya mərkəzi hakimiyyətdən ayrılmış hakimlərin mübarizə meydanına çevrildi. 927-ci ildə bu müstəqil hakimlərdən biri, Xubekçe dövlətindən olan Kenxvon Sillanın paytaxtı Kımsonu fəth etdi və öz əlaltısını taxta çıxartdı. Siyasi hakimiyyətdən başqa, az qala ərazilərinin hamısını itirən Sillanın sonuncu vanı Kensun 935-ci ildə taxtdan əl çəkdi və Koreya yarımadasında yeni yaranmış Koryo siyasi birliyinin himayəsinə sığındı.

**Kore dövləti**

Koryo (Koreya sözü Avropa və rus dillərində bu sözdən yaranıb) dövləti 918-ci ildə sərkərdə Van Qon tərəfindən qurulmuşdur. Silla vanının Van Qonun hakimiyyətini qəbul etməsindən bir il sonra Koryo qoşunları Xubekçe dövlətini məhv etdi və ölkəni növbəti dəfə birləşdirdi. Yeni dövlətin paytaxtı əvvəl Sonak adlandırılan Keqen şəhəri oldu (müasir Keson, Seuldan cənub-qərbdə).

993-cu ildən 1018-ci ilə qədər Koryo vanları dəfələrlə təkrar edilən kidani basqınlarının qarşısını almağa məcbur oldular. 1011-ci ildə kidanilər ölkənin daxilinə girərək Koryonun paytaxtını qarət

etdilər. Lakin Koreya yarımadasının şimalında yerləşən Kudju yaxınlığında ağır məğlubiyyətə uğrayan kidanilər Koryonu fəth etmək cəhdlərindən birdəfəlik əl çəkdilər.

Koryo dövlətinin çiçəklənməsi van Mundjonun (1047-1082) hakimiyyəti dövrünə təsadüf edir. Koryonun mərkəzi idarəetmə aparatında 150-dən çox təsisat var idi. O dövrün mənbələrinə görə, 500-ə qədər məmur vəzifəsi mövcud olmuşdur. Koryoda hakim zümrəni təşkil edən məmurlar (*«yanban»*) Çindəki kimi imtahan nəticəsində seçilirdilər.

Torpaq dövlətə məxsus idi və məmurlara onların xidməti vəzifəsinə görə şərti mülkiyyət (*«consikva»*) verilirdi. Bundan başqa, torpaq vanın qohumları və yaxınlarına, xidmətdə olan şəxslərə, budda məbədlərinə hədiyyə edilə bilərdi. Torpaq payının sahibi olan tamhüquqlu kəndlilər (*«yanin»* – tərcümədə «yaxşı adamlar») vergi verir, hərbi mükəlləfiyyət daşıyır və biyar yerinə yetirirdilər. Sosial iyerarxiyada onlardan aşağıda cəmiyyətdə həqarətlə baxılan işləri yerinə yetirən *«cxoninlər»* («rəzil insanlar») dururdu.

Daxili və xarici ticarət tam olaraq hökumətin nəzarətində idi. Koryonun əsas xarici ticarət tərəfdaşı Çin idi. Buradan koreyalılar ipək, çini qablar, qiymətli metallar, jenşen, kitablar və kağız idxal edirdilər.

XII əsrin əvvəllərində dövlətin tənəzzülünün əlamətləri görünməyə başladı. Curcenlərin hücumlarını dəf etməyə çalışan Koryo vanları tam uğur qazana bilmədilər və curcenlərin Tszin imperiyasından vassal asılılığını qəbul etməyə məcbur oldular. İri torpaq sahibkarlığının genişlənməsi əyanlar arasında separatçılıq meyllərini artırırdı. Əyanların böyük qismi öz silahlı dəstələrini yaratmışdılar. 1135-1136-cı illərdə Soqendə (indiki Pxenyan) əyanlarla yanaşı budda rahiblərinin də böyük rol oynadığı üsyan başladı. Onun əsas səbəbi dövlət torpaq ehtiyatının azalması və vergilərin ağırlaşması idi. 1170-ci ildə hərbi çevriliş nəticəsində van İydcon hakimiyyətdən salındı, real hakimiyyət hərbiçilərin əlinə keçdi. Vanlar isə dövlətdə dekorativ fiqurlara çevrildilər.

XIII əsrin birinci yarısında Koryo dövləti inadlı müqavimət göstərməsinə baxmayaraq, monqollar tərəfindən işğal olundu və

əraziləri Yaponiyaya hücum üçün əməliyyat meydanına çevrildi. Koryo əyanlarından bəzilərinin daxili çəkişmələrdə monqollara arxalanması koryo elitasını Yuan sülaləsini dəstəkləyən qrupa və Çində antimonqol hərəkatının genişlənməsinə ümidlə baxan, Çindən yardım istəyən iki qrupa parçaladı. Monqol qoşunlarının 1356-cı ildə Koreya yarımadasından çıxarılmasına baxmayaraq, bu iki qruplaşma arasında çəkişmə 1388-ci ilə qədər davam etdi və paytaxta Çinin Min sülaləsinin dəstəyini alan general Li Songenin qoşunlarının girməsi ilə başa çatdı. Li Songe monqol meylli hökuməti təslim olmağa məcbur etdi. O, 1392-cı ildə dövlət çevrilişi etdi və 1910-cu ilə qədər hakimiyyətdə qalan Li sülaləsinin əsasını qoydu.

**Koreya XIV əsrin sonu – XV əsrdə**

Li sülaləsindən olan hökmdarların dövründə Koreyanın paytaxtı Seula köçürüldü (1394), ölkə isə «Çoson» adlanmağa başladı.[1]

Çin ilə aparılan danışıqlar nəticəsində Koreya 1401-ci ildə Çindən vassal asılılığını qəbul etdi və əvəzində muxtariyyət statusu qazandı. Koreya daxili və xarici siyasətində tam müstəqil idi və Çin imperatoruna yalnız müəyyən ehtiram və diqqət əlamətlərini bildirməli idi.

XIV-XV əsrlərdə mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün Koreyada bir sıra islahatlar keçirildi: xüsusi torpaq sahibkarlığı məhdudlaşdırıldı, torpaqdan istifadə prinsipləri tənzimləndi, mərkəzi və yerli hakimiyyət orqanları yenidən quruldu, konfusiçiliyin çusiyan məzhəbi dövlət dini elan edildi.

Sözügedən tarixdə ölkənin iqtisadiyyatı yüksəliş dövrünü yaşayırdı. XV əsrdən etibarən Koreya əkinçiləri toxum yerinə düyü şitillərindən istifadə etməyə başladılar və bu, əkinçilikdə məhsuldarlığının xeyli artmasına səbəb oldu. Texniki bitkilərin, o cümlədən pambığın becərilməsinə əvvəlkindən daha çox diqqət yetirilməyə başlandı. Böyük hissəsi dövlətə məxsus qul («*nobi*») olan sənətkarlar, dövlət sifarişlərini yerinə yetirmədikləri vaxtlarda şəxsi sifarişləri yerinə yetirirdilər. Onlar sexlər və gildiyalarda

---

[1] Koreyalılar öz ölkələrini belə adlandırırlar.

(«*ke*») birləşirdilər. Böyük şəhərlərdə bazarlar yaranmağa başladı. Burada pul funksiyasını parçalar və taxıl yerinə yetirirdi.

İqtisadiyyatın inkişafı Koreyada texniki biliyin və elmin inkişafı ilə sıx bağlı idi. XV əsrin ortalarında çayların dərinliyini və quruda məsafəni ölçməyə yararlı «yağışölçənlər» yarandı. Kitab çapı və gəmiqayırmada yeniliklər istifadə olunmağa başladı. Tibb, coğrafiya, tarix, musiqi və əkinçilik haqqında kitablar yazılırdı.

1443-cü ildə van Sedçonun (1419-1450) fərmanına görə, koreya dilinin səslərini dəqiq ifadə edən milli yazı yaradıldı. Yazı qaydaları «Düzgün nitq haqqında xalqa nəsihət» adlanan xüsusi traktatda yer aldı. Amma Çin mədəniyyətinin təsiri o qədər dərin idi ki, bu yazı təhsilli koreyalılar arasında bayağı sayılırdı və XIX əsrə qədər məhdud istifadə olundu. Cənubi Koreyada hələ də köklərin Çin dilində, sonluqların isə xüsusi koreya işarələri ilə yazıldığı qarışıq sistem istifadə olunur.

XV əsrdə Koreya ədəbiyyatında yeni nəzm və nəsr janrları yarandı: «*kasa*» – qəhrəmanlıq və millətçilik haqqında şerlər, «*sidço*» – fəlsəfi-lirik məzmunlu üç sətirli şer və «*pxesol*» – novella. XV əsrin sonunda maska və kukla teatrları yarandı.

**Koreya XVI-XVII əsrlərd**

XV əsrin islahatları sayəsində əldə olunan iqtisadi və siyasi sabitlik XVI-XVII əsrlərdə hakim elitanın daxilində gedən kəskin mübarizə nəticəsində aradan qalxdı. XVI əsrin axırlarına doğru mübarizə aparan əyan qruplaşmaları siyasi partiyaya bənzər qurum – əvvəl Qərb (köhnə torpaq sahibi olan əyanların maraqlarını əks etdirən) və Şərq (məmurların və xırda əyalət əyanlarının maraqlarını əks etdirən), sonradan isə Cənub və Şimal birliklərini yaratdılar. Əyanlar get-gedə xüsusi mülkiyyət forması alan torpaqlarını əldə saxlamağa qərarlı idilər, məmurlar isə iri torpaq sahiblərinin hökmranlığına qarşı çıxırdılar, bu hökmranlığın hərc-mərcliyə, xəzinə gəlirinin azalmasına və mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxardığını deyirdilər.

Daxili çəkişmələrdən zəifləyən Koreya XVI əsrin sonlarında yapon təcavüzünə müqavimət göstərə bilmədi. Şoqun Toyotomi Xideyoşi Koreya vanını öz vassalına çevirmək məqsədi ilə 1592-ci

ildə 200 minlik qoşunla hücuma keçdi, Seul və Pxenyanı fəth etdi. Sonradan koreyalıların donanma başçısı Li Sun Sin işğalçılara qarşı müqavimət göstərdi. O, əvvəlcə dənizdə üstünlüyü ələ keçirdi və bir sıra yerləri geri aldı. 1593-cü ilin birinci yarısında isə Min imperatoruna arxalanaraq Seul və Pxenyanı azad etdi. 1597-ci ildə yapon qoşunlarının növbəti basqını daha bir məğlubiyyətlə bitdi və XVII əsrin əvvəllərində dövlətlər sülh müqaviləsi bağladılar.

Yaponlarla müharibədə qələbə calan Koreya 1627-1636-cı illərdə yarımadaya soxulan mancurların qarşısını ala bilmədi və 1637-ci ildə imzalanmış müqaviləyə görə Tszin imperiyasının vassalı oldu. Eyni zamanda, Koreya mancurlara xərac verməli və Çinin işğalında hərtərəfli yardım etməli idi.

# CƏNUB-ŞƏRQİ ASİYA ÖLKƏLƏRİ ORTA ƏSRLƏRDƏ

Cənub-Şərqi Asiyadakı ilk protodövlətlər yeni eranın ilk əsrlərində hind mədəniyyətinin ciddi təsiri altında yaranmağa başlamışdı. Seylon, Birma, Kampuçiya regionunda yayılan rəvayətlərə görə, yerli dövlətlərin yaranması Hindistandan buraya budda zəvvarların gəlişi ilə bağlı olmuşdur. Bu ölkələrin hakim sülalə nümayəndələri isə özlərinin Hindistan əsilli olmasını fəxarətlə vurğulayırdılar. Cənub-Şərqi Asiya ölkələrində dövlət dini buddizm idi, amma bununla yanaşı hinduizmin mövqeləri bölgənin, demək olar ki, bütün hissələrində güclü idi. Bundan başqa, bölgə xalqları üçün ənənəvi olan əcdadlara etiqad geniş yayılmışdı. Saysız-hesabsız budda monastır və məbədləri mədəniyyət və təhsil mərkəzləri idi, buddist rahiblər isə nüfuzlu ictimai təbəqə formalaşdırırdılar. Yeni dövrdə isə Cənub-Şərqi Asiyanın bəzi bölgələrində – İndoneziyada, Malayziyada, Bruneydə və Filippinin cənubunda islam hakim dinə çevrildi.

**Lanka.** Hind okeanındakı ticarət yollarının ayrıcında yerləşən Lanka adası çoxdan bəri Hindistan, Çin, Ərəbistan və Cənubi Avropadan olan dənizçilər üçün tranzit bazası idi. Lankanın əsas ixracat məhsulları müxtəlif ədviyyatlar, mirvari, ətirlər, qızıl və gümüş məmulatlar, qiymətli daşlar, dərman bitkiləri və düyü idi.

Ayrı-ayrı xalqlar adanı müxtəlif cür adlandırırdılar: «Lanka», «Tambapanni», «Sielidib» (Hindistanda), «Taprobana» (Yunanıstan və Romada), «Sarandib» (Ərəbistanda). Adanın və adada yerləşən dövlətin müasir adı olan «Şri-Lanka» sanskrit dilindən gələn «Şri» («şanlı, parlaq, şəfqətli») və «Lanka» («torpaq») sözlərindən yaranıb. 1972-ci ilə qədər istifadə olunan «Seylon» sözü isə adanın avtoxton əhalisini bildirən «sinqallar» etnonimdəndir və sanskrit dilində «sinqallar adası» deməkdir.

Lanka adasındakı ilk dövlət qurumları Hindistandan gələn buddist köçkünlərin təsiri altında yaranmışdı. Əfsanəyə görə, e.ə. III əsrdə adaya imperator Aşokanın səfirliyi gəlmişdi. Nümayəndə

heyətinə şahzadə və buddist rahibi olan Maxinda rəhbərlik etmişdi. O, ada əhalisini və yerli hökmdar Devanampiyatussunu buddist olmağa vadar etmişdi. Əfsanəyə görə, Hindistandan, kölgəsi altında Buddanın maarifləndiyi Bodxanın ağacının budağı, Buddanın dişi, sağ körpücük sümüyü və onun sədəqə topladığı qab Lankaya gətirildi. Buddizm əşyalarının Lankaya gətirilməsi onu buddizmin ibadətgahına çevirdi və adadakı buddist rahiblərinin nüfuzunu çox artırdı. E.ə. I əsrdə adada buddist müqəddəs kitabı «*Tripitaka*» (tərcümədə – «Üç səbət (qanun)») yaradıldı. O, sanskrit dilindəki mətnlərin Buddanın söhbətləri və nəsihətləri üçün istifadə etdiyi pali dilinə tərcüməsi nəticəsində yaranmışdı.

Hindistandan gəlmələrin və yerli əhalinin qarşılıqlı əlaqəsi sinqal etnosunun əsasını qoydu. Hindistandan gələn mühacirlərin ikinci dalğasını özləri ilə birgə hinduizmi gətirən tamillər təşkil edirlər. Sinqal və tamillər arasında ali hakimiyyət uğrunda mübarizəyə bəzən Lanka hakimlərinin xahişi ilə cənubi Hindistanda yerləşən dövlətlər də müdaxilə edirdilər. Bu mübarizə Lankanın XII əsrə qədər olan siyasi tarixinin ana xətti olmuşdur.

XI əsrə qədər Lankanın paytaxtı budda məbədləri və monastırları ilə məşhur olan Anuradxapura şəhəri idi. Buddanın dişinin saxlandığı və yeni eranın I əsrində tikilmiş Kandidəki məbəd ziyarətgah idi. Lankanın X əsrdə Cənubi Hindistandakı Çol dövləti tərəfindən 1073-cü ilə qədər davam edən işğalından sonra paytaxt hinduizm mərkəzi olan Polonnaruvaya keçirilmişdi.

XIII-XV əsrlər Lanka tarixində siyasi dağınıqlıq dövrü idi. Bu dövrdə Lankadaki ən güclü dövlət adanın cənub-şərqində yerləşən sinqalların dövləti olan Kotte idi. XV əsrdə Kotte dövləti tamillərin dövləti olan Cafnanı fəth edərək öz hakimiyyətini adanın şimal hissəsinə də yaymışdı. Böyük coğrafi kəşflər dövründə iqtisadiyyatının əsasını darçın ağacı və kokos palmasının becərilməsi təşkil edən Kotte dövləti portuqalların başlıca bazasına çevrildi. XVI əsrdə burada Kolombo hərbi istehkamı tikildi.

XVI əsrdə Lankadakı dövlətlər – Kotte, Cafna, Sitavaka və Kandiya hegemonluq uğrunda mübarizə aparırdılar. Onların hakimləri dəfələrlə portuqallardan kömək istəyirdilər ki, bu da Lan-

kanın müstəmləkəyə çevrilməsinə şərait yaradırdı. XVII əsrin əvvəllərinə doğru ada iki hissəyə bölündü: portuqalların ağalıq etdiyi sahil boyunda olan şimal və cənub-qərb əraziləri və sinqalların müstəqil Kandi dövlətinin yerləşdiyi mərkəzi və şimal-qərb bölgələri Lankanın XVII əsrdə Hollandiya tərəfindən zəbt olunmasından sonra da ölkə iki hissəyə bölünmüş qaldı. Son nəticədə, ada əhalisi arasında iki etnomədəni və təsərrüfat tipinin yarandı (düzən sinqalları və kandiyalı sinqallar).

**Birma.** Birma (indiki Myanma Federasiyası) ərazisində tarixdə məlum olan ən qədim dövlətlər ölkənin cənub-qərbində yerləşən Arakan, mərkəzi hissədə yaşayan pyu xalqının məskunlaşdığı Şrikşetra və cənubda mon tayfaları yaşayan şəhər-dövlətlərin birliyi olan Ramannadesa idi. İravadi çayı vadisində yaşayan pyular əsasən, çəltikçiliklə məşğul idilər. Bundan başqa, onlar darı, soya, pambıq və şəkər qamışı da yetişdirirdilər. Mon tayfalarının sahil boyunda yerləşən şəhər-dövlətlərində əkinçilik əsas rol oynamırdı. Onların əsas məşğuliyyəti beynəlxalq dəniz ticarəti idi.

Bütün bu erkən siyasi qurumlar daha güclü dövlətin – XI əsrdə müasir Birmanın bütün ərazisini ilk dəfə birləşdirən Paqan krallığının yaranmasına ciddi təkan verdi. Bu dövləti IX əsrdə Çinin cənub rayonlarından gəlib, İravadi vadisində məskən salan və 850-ci ildə Paqan şəhərinin əsasını qoymuş myanma xalqı yaratmışdı. Krallığın əfsanəvi banisi Aniruda (1044-1077) pali qrafikası və mon əlifbasına əsaslanan birma yazısını yaratmış, əzəmətli məbədlər inşa etdirmişdi.

Paqan krallığı XIII əsrdə monqolların zərbələri altında parçalandı və bundan sonra Birmada uzunmüddətli siyasi pərakəndəlik dövrü başladı. Onun ərazisində etnik tərkibi və sosial-iqtisadi səviyyəsinə görə fərqlənən Arakan, Ava, Taunqu kimi dövlətlər yarandı. Bundan başqa, monların, karenlərin və şanların (XIII əsrdə cənub-şərqi Çindən gələn və Birmada məskunlaşan tayfa) təşkil etdiyi monoetnik siyasi qurumlar da var idi.

1531-1539-cu illərdə Birmadakı dövlət qurumları Taunqu sülaləsinin hakimiyyəti altında vahid imperiya halında birləşdirildi. Bu imperiya fəal xarici siyasət yeridir, Ayutay və Laosa qarşı

hücumlar edirdi. XVI əsrin sonuna doğru monların və şanların üsyanları və ölkənin cənub-şərq hissəsinin siamlar tərəfindən zəbt edilməsi nəticəsində Birma imperiyası parçalandı. İravadinin deltasında qısamüddətli möhkəmlənən portuqallar Ava əyalətinin hökmdarı tərəfindən qovuldular. Birma xarici ticarətdə özünütəcrid siyasəti aparmağa başladı.

**Kamboca.** Kamboca ərazisində yaranmış ən erkən siyasi qurum Funan (Bapnom) dövləti olmuşdur. Onun tarixi haqqında məlumatlar dövründə Çin salnamələri vasitəsi ilə çatmışdır. Funan Okeo liman şəhəri vasitəsi ilə Şimali Hindistan və Yaxın Şərq ilə əlaqələr saxlayırdı.

VII əsrdə Funan Kambocanın əkinçilik bölgələrində yaranmış yeni knmer dövlətləri tərəfindən tutuldu. Bu dövlətlərin rəqabəti VIII əsrin sonunda Kambucadeş (Anqkor) dövlətinin yüksəlməsinə gətirdi. «*Devaraca*» («tanrı raca») titulu daşıyan Anqkor hökmdarları Şıvaya sitayiş formasında hinduizmi dövlət dini elan etdilər və monumental saray komplekslərinin tikintisinə başladılar. Bu tikililərdən ən məşhurları Anqkor məbədləridir ki, onların qüllələrinin böyük hissəsi hökmdarların şivaist simvolu olan «linq»lər halındadır.

Anqkor Kambocası özünün ən qüdrətli dövrünü XI-XII əsrlərdə yaşadı. Bu dövrdə onlar Hind-Çinin böyük hissəsini birləşdirməyə müvəffəq oldular. Lakin XIII əsrdə Anqkor Kambocası zəifləməyə başladı. Bunun səbəblərindən biri hinduizm və buddizm tərəfdarları arasındakı kəskin mübarizə idi. Daxili çəkişmələr və XV-XVII əsrlərdə baş vermiş xarici düşmənlərin – Siam və Vyetnamın hücumları ölkəni həddindən artıq zəiflətdi. Nəticədə, XV əsrdə siamlılar Anqkoru qarət etdilər və paytaxt Pnompenə köçürüldü.

**Tailand.** Yeni eranın başlanğıcında Tailand ərazisində şimaldan gəlmiş mon – khmer tayfaları yaşayırdılar. Onların yaratdığı Dvaravati dövləti uzun müddət ərzində müxtəlif Kamboca dövlətlərindən asılı vəziyyətdə olmuşdur. VIII-IX əsrlərdə Dvaravatidən şimalda monların daha bir dövləti – Xaripucaya yarandı. Bu dövlət öncə Dvaravati ilə, sonra isə Kamboca ilə müharibə aparırdı.

VII-VIII əsrlərdə Cənubi Çində mövcud olmuş Dali (Nançjao)

dövləti ilə qonşuluq Tailand tarixinə ciddi təsir etmişdir. Dalidə məskunlaşan tay tayfaları vaxtaşırı Tailanda köç edirdilər və özləri ilə Çin mədəniyyətinin elementlərini gətirirdilər. Bu köçlərin nəticəsində, XI-XII əsrlərdə taylar Tailand ərazisində çoxluq təşkil edən etnosa çevrildilər. XIII əsrin sonlarında onlar monqollar tərəfindən darmadağın edilən Dali dövlətindən köç edən taylar buddist Sukxotay dövlətini yaratdılar. Rama Kamxenqanın (1275-1317) hakimiyyəti illərinə təsadüf edən dövlətin qısamüddətli yüksəliş dövründən sonra Sukxotay ayrı-ayrı ərazilərə parçalandı.

Daxili çəkişmələr dövrü I Rama Tibodi (1350-1369) tərəfindən əsası qoyulan yeni sülalənin hakimiyyətə gəlməsi ilə bitdi. Paytaxt Ayutiya şəhəri oldu. Ayutiya dövləti tədricən taylar yaşayan bütün torpaqları və monların məskunlaşdığı qonşu əraziləri birləşdirməyə müvəffəq oldu. XV əsrdən etibarən Ayutiya (Siam) Hind-Çinin ən qüdrətli dövlətlərindən birinə çevrildi. Onlar qonşularının basqınlarını (XVI əsrlərdə birmalıların və khmerlərin) və XVII əsrdə avropalıların ölkədə möhkəmlənmək cəhdlərini dəf edə bildilər.

**Laos.** Laos ərazisində yaşayan mon-khmer və tay tayfaları XIV əsrə qədər qonşu Sukxotay və Kamboca dövlətlərindən asılı vəziyyətdə idilər. XIV əsrdə Laos vilayətləri Lansang adlanan dövlətdə birləşdilər. Onun ilk hökmdarı Fa Nqun (1353-1373) Tailandın şimal-şərq bölgələrini də Laosa birləşdirmişdi. XIV-XV əsrlərdə Laos Siam və Vyetnamla, XVI əsrdə isə Birma ilə uzunmüddətli müharibələr aparırdı. Lansanq XVII əsrin ikinci yarısında Suliqn Vonqsun (1637-1694) hakimiyyəti illərində öz tarixinin ən yüksək inkişaf dövrünü yaşamışdı.

**Vyetnam.** İndiki Vyetnamın şimal və qismən mərkəzi hissələrində yerləşən Vyet dövləti e.ə. I əsrdən yeni eranın X əsrinə qədər Çindən asılı vəziyyətdə idi. Bu şərait ölkədəki sosial-iqtisadi münasibətlərə, inzibati-siyasi quruluşa və mədəniyyətə ciddi təsir göstərmişdir. Çindən Şimali Vyetnama konfusiçilik, daosizm, buddizm və həmçinin, Çin heroqlif yazısı gəldi.

Tyamların (lakvyetlər) məskunlaşdığı Vyetnamın cənubunda hind mədəniyyətinin və əsasən də, buddizmin ciddi təsiri altında olan II əsrdə yaranmış Çampa dövləti var idi. Çampalar öz yerli

yazılarını cənubi-hind qrafikasına uyğun formalaşdırmışdılar.

Şimali Vyetnam Çin hakimiyyətindən yalnız Tan sülaləsinin süqutundan sonra azad ola bildi. Amma Çindən siyasi asılılığın bitməsi şimali Vyetnamın heç də onun mədəni irsindən və təsirindən imtina etməsi demək deyildi.

Vyetnamın hakim sülalələri – Kxuk (906-923), Nqo (939-965), Din (968-981) tez-tez bir-birini əvəzləyirdi. 968-ci ildə sərkərdə Din Bo Lin imperator («*xoand de*») elan edildi. O, dövlətin adını «Daykovyet» qoydu və paytaxtı Koloadan, istehkam şəklinə salınmış Le Xoala şəhərinə köçürdü. X-XI əsrlərdə Le (981-1009) sülaləsinin banisi sərkərdə Le Xoan Çin ordusunun hücumunu dəf etdi və Daykovyetin ərazilərini Çamp torpaqlarının hesabına genişləndirdi.

İri feodal ailələrinin («*sı-kuan*») müstəqillik iddialarını ciddi şəkildə məhdudlaşdıran mərkəzi hakimiyyətin tədricən güclənməsi Li sülaləsinin (1010-1225) hakimiyyətinin uzun müddət ərzində saxlanması ilə nəticələndi. «Vua» («*monarx*») titulunu daşıyan Li hökmdarları Çin nümunəsinə əsaslanan idarəetmə islahatı keçirdilər, ölkəni 26 vilayətə böldülər, onların valilərinin dəyişilməsini təşkil etdilər, bitkin məmur iyerarxiyasını qurdular və inzibati vəzifələrə imtahan vasitəsi ilə qəbulu təsbit etdilər. Nizami ordu yaradıldı. Bu kambocalıların basqınını dəf etməyə və ölkənin şimalındakı mübahisəli əraziləri birləşdirməyə imkan verdi. 1054-cü ildə ölkənin adı «*Dayvyet*»ə dəyişdirildi və paytaxt Txanqlaunqa (müasir Xanoy) köçürüldü.

1225-ci ildə saray çevrilişi nəticəsində hakimiyyətə 1400-cü ilə qədər hakimiyyətdə olmuş Çan sülaləsi gəldi. XIII əsr monqollarla amansız mübarizə şəraitində keçdi. 1289-cu ildə Vyetnam ordusunun ali baş komandanı Çan Xınq Dao monqollarla sülh bağladı. Sülhə görə, Vyetnam formal olaraq Yuan sülaləsinin vassal asılılığını qəbul edir, amma faktiki olaraq müstəqilliyini qoruyurdu. Vyetnamın Çindən vassal asılılığı Min sülaləsi dövründə də dəyişmədi.

XV əsrdə vyetlər Çin qoşunlarının basqınını dəf etməyi bacardılar. Son Le (1428-1788) sülaləsinin banisi olan sərkərdə Le

Loy bir sıra islahatlar həyata keçirdi. Nəticədə, Dayvyet gücləndi və qonşulara qarşı işğalçılıq siyasəti yeritməyə başladı. 1471-ci ildə Çamp torpaqları tamamilə Vyetnama birləşdirildi.

XVI əsrdə mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində ölkə faktiki olaraq üç hissəyə bölündü. Onlara Nquen, Mak və Çin ailələrindən olan nüfuzlu əyanlar başçılıq edirdilər. Onlar arasında gedən amansız mübarizə nəticəsində Mak ailəsi öz nüfuzunu itirdi. Vyetnamın cənubunda möhkəmlənmiş Nquenlər və ölkənin şimalında bərqərar olmuş Çinlər arasındakı rəqabət XVII əsrə qədər davam etdi. Çinlər və Nquenlər Vyetnama gələn katolik missionerlərinə mane olmurdular. Nəticədə, XVII əsrdə Vyetnamda 100 minlərlə insan katolikliyi qəbul etdi.

XIV-XV əsrlərdə milli yazının formalaşması başa çatdı. Bu Vyetnam ədəbiyyatının inkişafına və bu dildə elmi əsərlərin yazılmasına imkan yaratdı. Heroqlif yazı ilə yanaşı, XVII əsrdə latın qrafikası əsasında da vyetnam yazısı yarandı.

**Malayya.** Malakka körfəzindən keçən ticarət yollarının yaxınlığı zəminində yeni eranın başlanğıcında Malakka yarımadasının cənub hissəsində iri liman şəhərləri yarandı. İlk dövrlərdə Malayyada Hindistandan gəlmə tacirlər və buddist rahiblər mühüm rol oynayırdılar. Hind mədəniyyətinin Malayyanın sosial-siyasi və dini həyatına təsiri uzun əsrlər boyu davam etdi. Malayyanın şəhər-dövlətləri və vilayətləri uzun müddət ərzində Cənubi Hindistan, Hind-Çin, Sumatra və Yavada yerləşən qonşu dövlətlərdən asılı idilər. Bu dövlətlər Malakka körfəzindəki gəmiçiliyi nəzarətə almaq uğrunda rəqabət aparırdılar.

1414-cü ildə islamı qəbul etmiş yavalı şahzadə Parameşvara İsgəndər şah adı altında Malakka sultanlığının əsasını qoydu. Onun tərkibinə, demək olar ki, bütün Malayya, Sumatranın bir hissəsi və yaxınlıqdakı bir neçə ada daxil idi. XV əsr ərzində islam Malayyada buddizm və hinduizmin mövqelərini xeyli zəiflətdi: müsəlman tacirlər beynəlxalq ticarətdə üstün mövqe qazandılar, malay yazısı üçün hind qrafikası yerinə ərəb qrafikası istifadə olunmağa başladı. XVI əvvəllərinə doğru Malakka Cənub-Şərqi Asiyanın nüfuzlu şəhər-dövlətinə çevrildi və öz hakimiyyətini Sumatranın şərq hissəsi-

nə qədər genişləndirdi. Malakkalı tacirlər Hindistan, Çin, Siam və Birma ilə sıx ticarət əlaqələrinə malik idilər.

Sultan torpağın ali sahibkarı sayılırdı və bu torpağı hakim təbəqənin üzvlərinə pay şəklində verirdi. Ev təsərrüfatında qullardan istifadə olunurdu. Dövlətin ikinci adamı «bendaxara» adlanırdı və baş nazir, hakim və ordu başçısı funksiyalarını yerinə yetirirdi. Sultanın canişinləri Malakkadan şimaldakı və cənubdakı qəsəbələri nəzarətdə saxlayırdılar, sultanlığın digər əraziləri isə sultandan vassal asılılığında idi.

Malakka sultanlığı 1511-ci ilə qədər mövcud oldu. Bu zaman portuqallar Malakkanı ələ keçirdilər və XVII əsrə qədər oradan öz ticarət faktoriyası kimi istifadə etdilər. Malakkaya portuqal komendantı (1571-ci ildən qubernator) başçılıq edirdi. Müstəmləkə idarəçiliyi ölkədə yaşayan hər üç etnik icmanın (çin, tamil, yava) başçılarına arxalanırdı. Malakkanın portuqallar tərəfindən işğalı, əhalinin zor gücünə xristianlaşdırılması ilə birgə baş verirdi.

Malakkanın işğalından sonra onun hökmdarı yarımadanın cənubuna qaçdı və burada Çoxor sultanlığının əsasını qoydu. Çoxor portuqallarla Malakka uğrunda aramsız müharibələr aparırdı. Malakka körfəzinə nəzarət uğrunda rəqabətə yarımadanın şimalında yerləşən Açe sultanlığı da qoşuldu. Bu mübarizənin sonunda portuqallar qalib gəldilər və bölgədə özlərinin ticarət inhisarını qurdular.

XVI əsrdə Malakka uğrunda rəqabətə ingilislər və hollandlar da qoşuldular. 1606-cı ildə Çoxorla ittifaqda olan hollandlar Malakkanı mühasirəyə aldılar və portuqalları məğlubiyyətə uğratdılar. 1637-ci il hollandlarla Çoxor arasında daha bir anlaşma bağlandı, nəticədə Malakka hollandların ixtiyarına keçdi. Hollandlar buranı güclü istehkam halına gətirdilər. 1689-cu ildə hollandlar Çoxorla ticarət anlaşması bağladılar. Şərtlərə görə, onlar gömrük rüsumlarından azad ticarət hüququ əldə etdilər. Hind tacirlərinin kommersiya fəaliyyəti isə məhdudlaşdırıldı.

**Bruney.** Bruney dövləti Kalimantan adasının şimalına köçmüş etnik malaylar tərəfindən qurulmuşdu. XV əsrdə burada Malakka sultanlığının vassalı olan Bruney sultanları sülaləsi möhkəmlənmişdi. XVI əsrin ilk 30 illiyində Bruney sultanları öz haki-

miyyətlərini Filippin arxipelaqının cənub hissəsinə qədər genişləndirmişdilər.

Avropalıların Cənub-Şərqi Asiyaya genişlənən ekspansiyası Bruneyin əsas gəlir mənbəyi olan ticarəti zəiflətdi. Belə olan şəraitdə Bruney hökmdarları Kalimantan sahilləri boyu Avropa gəmilərinə hücum edən dəniz quldurlarını himayə etməyə başladılar.

**İndoneziya.** Malayya arxipelaqı ekvator boyu 4800 kilometrə qədər uzanır və 10 mindən artıq adadan ibarətdir. Onlardan ən böyükləri Sumatra, Kalimantan, Yeni Qvineya, Yava və Sulavesidir. İndoneziyada ilk olaraq IV əsrin sonu – V əsrin əvvəllərində Yava adasında – indusların Tarum (Taruma) və buddistlərin Kalinqa, Sumatra adasında buddistlərin Qein, Kalimantan adasında isə induistlərin Mulavarmana dövlətləri yaranmışdır. Onlar Hindistanın güclü təsiri altında formalaşmışdılar və öz sosial-iqtisadi və mədəni çalarlarına görə bir-birilərinə çox oxşayırdılar. Hakim dinlər induizm və buddizm idi. Sanskrit əsasındakı yazı üstünlük təşkil edirdi. Məbəd memarlığı və heykəltəraşlığı hind nümunəsinə əsaslanırdı.

Yavada yerləşən Mataram dövlətində VIII sonu – IX əsrin əvvəllərində inşa edilmiş Borobudur məbədi (Cakarta yaxınlığında) buddizmin görkəmli abidəsi hesab edilir. Bu tikilinin xüsusiyyətlərindən biri, buddizm memarlığının qəbir kurqanlarından mənimsədiyi «*caytya*» sistemindən istifadə etməsidir. Terras formasında qurulmuş «caytya»lar böyük ölçüləri (uzunluğu 110 m və eni 110 m, hündürlükləri isə 35 m-ə çatırdı) və dekor rəngarəngliyi ilə seçilirdilər. Yuxarı terraslarda 72 «*stupa*» – dini etiqad obyekti olan əşyaların saxlanması üçün tikililər yerləşirdi. Hər bir stupada Buddanın heykəli vardı. Buddanın ən böyük heykəllərindən biri mərkəzi stupada – məbədin yuxarı hissəsində yerləşdirilmişdi. Borobudurda Buddanın 500-ə yaxın heykəli vardı.

Sumatra adasındakı ilk iri siyasi-inzibati qurum VII əsrdən XIII əsrə qədər mövcud olmuş Şrivicaya dövləti idi. Onun hökmdarları öz hakimiyyətlərini adanın bütün ərazisi ilə yanaşı, qonşu adalara və Malayyanın bir hissəsinə qədər genişləndirmişdilər.

İndoneziya tarixində ən qüdrətli dövlət 1293-1520-ci illərdə

mövcud olmuş Macapaxit idi. Bu dövlətin banisi yavalı hökmdar (*maharaca*) Vicaya adaya basqın etmiş monqolları buradan qovmağa nail olmuşdu. Sonralar yavalılar özləri də xarici hərbi işğallara başlamışdılar. Onlar XI-XII əsrlərdə cənubi Hindistandakı Col dövləti ilə müharibədən və daxili çəkişmələrdən çox zəifləmiş Şrivicayanı, Sulavesi və Kalimantan adalarındakı əyalətləri və arxipelaqın bir sıra adalarını zəbt etmişdilər. Macapaxit dövlətinin çiçəklənmə dövrü XIV əsrin 20-60-cı illərinə təsadüf edir. Bu dövrdə dövlətin başında ali əyan («*mapatix*») Qacax Mada dururdu.

IX əsrdən etibarən Malayya arxipelaqı adalarında islam dini yayılmağa başladı və islamı tədricən buddizm və induizmi sıxışdırıb aradan çıxardı. Bu bölgəyə gəlmiş ilk müsəlmanlar Çin əsilli idilər. X əsrdə yaşamış ərəb ensiklopedisti al-Məsudinin məlumatına görə, IX əsrin ikinci yarısında cənubi Çində yerləşən Xanfu (Kanton) şəhərindəki müsəlman ticarət icmasının qırğınından can qurtaranlar Malakka sahillərinə üz tutdular, bəziləri isə körfəzləri keçib Malayya arxipelaqındakı adalara yerləşdilər. Daha sonra, Qucarat (Qərbi Hindistan) və Malabar sahillərindən köç başladı. Lakin müsəlmanların iri məskənləri haqqında ilk məlumatlar XIII əsrə aiddir: Sumatranın şimalındakı müsəlman qəbiristanlıqları da bu əsrə aiddir. İndoneziyanın müsəlmanlaşması nəticəsində XV əsrin əvvəllərində Malakka sultanlığı yarandı.

Yavada yayılan islamda iki əsas təriqət formalaşdı:

1. «*Abanqan*» – onun tərəfdarları islamın sinkretik formasına inanırdılar. Peyğəmbər və Qurandan başqa bütpərəst keçmişə aid ayinlər, ənənələr də qəbul olunurdu.

2. «*Santri*» – onun tərəfdarları daha az uyğunlaşan idilər və İlahi həqiqət və idrak, şərtsiz itaət və intellektual tolerantlıq arasında fərqləri qəbul etmək istəmirdilər.

XV əsrdən etibarən Çinlə münasibətlər mütəmadi xarakter almağa başladı. Çindən Yavaya, sonradan ciddi iqtisadi gücə çevrilmiş tacirlər və sənətkarlar («*xuatsao*»[1] adı ilə tanınırdılar)

---

[1]Çindən xarici ölkələrə işləməyə gedən və orada məskunlaşan çinliləri belə adlandırırdılar.

gəlməyə başladılar.

Macapaxit dövlətinin tənəzzülündən sonra Yava adasının ərazisi müsəlman hakimlər tərəfindən idarə olunan bir neçə dövlət arasında bölündü. Bunlardan 1568-ci ildə Zond körfəzi zonasında və ona yaxın olan Yava və Sumatra ərazilərində yaranmış Bantam sultanlığı və Yava adasının mərkəz və şərq hissəsində yerləşən Mataram sultanlığı daha çox fərqlənirdilər.

İndoneziyanın siyasi pərakəndəliyi XVI əsrdə arxipelaq adalarında portuqalların möhkəmlənməsinə imkan yaratdı. XVII əsrin əvvəllərindən etibarən ilk dəfə Yava adasına 1596-cı ildə gəlmiş hollandlar portuqalları buradan sıxışdırmağa başladılar. 1619-cu ildə hollandlar Cakartanı (Bataviya) ələ keçirdilər və bu şəhər sonradan onların İndoneziyadakı müstəmləkə ərazilərinin mərkəzinə çevrildi. Eyni zamanda, ingilis Ost-Hind şirkəti də Molukka, Sulavesi, Yava və Sumatra adalarında öz faktoriyalarını yaratdılar. Tezliklə hollandlar ingilisləri Molluka adalarından sıxışdırıb çıxardılar.

XVII əsrin ortalarında holland Ost-Hind şirkəti Mataram sultanlığını bütövlüklə öz nəzarəti altına aldı. 1674-cü ildə Mataramda xalq üsyanı baş verdi və bu üsyanın yatırılması hollandların mövqelərini daha da gücləndirdi. Belə ki, hakim sülaləni üsyançılardan qoruduğuna görə holland Ost-Hind şirkəti Mataramda qeyri-məhdud ticarət hüququna yiyələndi, tərsanə tikməyə icazə aldı və bir sıra ərazi güzəştinə nail oldu.

**Filippin.** Buddizm mədəniyyətinin mərkəzlərindən fərqli olaraq, bölgədə yerləşən Filippin Cənub-Şərqi Asiyanın qitə ölkələri ilə müqayisədə daha ləng inkişaf edirdi. Yeni eradan çox əvvəl başlamış Cənubi Çindən əhalinin bir necə köçü Filippinin tarixində çox ciddi rol oynamışdı.

Buradakı erkən dövlət qurumları yalnız XV əsr – XVI əsrin əvvəllərində yaranmışdı. Onların yaranması ölkəyə portuqallar tərəfindən avropalılar üçün Malakkadan qovulan sultan və onun yaxın ətrafının Filippinə gəlməsi ilə bağlı idi. Bu, həm də ada əhalisinin islamlaşmasına gətirdi. İslam mədəniyyətinin təsiri altında Filippindəki ilk siyasi qurumlar sultanlıq formasını aldılar.

1521-ci ildə Filippinin Seba adasına gələn Magellan ekspedi-

siyası tərəfindən avropalılar üçün kəşf edildi. Bundan sonra, adalara Müqəddəs Lazarın adını verən ispanlar ilkin olaraq arxipelaqı zəbt etməyə başladılar. Bu, eyni zamanda əhalinin xristianlaşdırılması ilə müşahidə olunurdu. İspanlar əvvəl Seba adasını, Visay adalarını və Şimali Mindanaonu işğal etdilər. 1542-ci ildə adalar ispan kralı II Filippin şərəfinə müasir adını aldı. 1570-ci ildə Luson adasında Manila limanının əsası qoyuldu və bu, ispanların mövqelərini daha da möhkəmləndirdi. XVI əsrin sonlarına doğru arxipelaqın şimal, şimal-şərq və mərkəz bölgələri də onların nəzarəti altına keçdi. Arxipelaqın cənub hissəsində Malayyadakı dini tərəfdaşların dəstəyinə arxalanan yerli müsəlmanlar ispanlara ciddi müqavimət göstərdilər.

# HİNDİSTAN ORTA ƏSRLƏRDƏ

## Hindistan V-XIII əsrlərdə

### Feodal münasibətlərinin yarandığı dövrdə sosial-iqtisadi vəziyyət

Herodot yazırdı: «Hind xalqı» digərlərindən daha çoxsaylıdır». Təbiidir ki, bu mülahizə şayiələrə əsaslanır. Lakin o, Qərbdəki insanların Şərqin böyük dövləti haqqında təəssüratlarını bizə çatdırır. Əhalinin sayı haqqında olan rəylər müasir tarixçi üçün bəlkə də maraq kəsb edə bilər, amma bu barədə o, heç də qədim müəlliflərdən çox bilmir. Təqribi hesablamalar və məlumatlara görə, yeni eranın başlanğıcında Hindistan əhalisinin sayı 50 milyondan çox ola bilməzdi.

Onu da bilmək lazımdır ki, sözü gedən dövrdə Hindistanın yalnız bir neçə bölgəsi əkinçi əhali tərəfindən məskunlaşmışdı. Buraya 629-645-ci illərdə səyahət edən çinli zəvvar Syuan Tsan yazırdı ki, Maqadxanın (müasir Cənubi Biharın bir hissəsi) əhalisi çoxsaylıdır, kəndləri isə böyükdür və bir-birinə yaxın yerləşir. Maqadxa ölkənin ən qədim mədəniyyət ocaqlarından biri idi. Maqadxanın çiçəklənməsində əkinçilik üçün yararlı olan təbii şərtlər də çox böyük rol oynamışdır. Maqadxadan başqa, Qanq vadisində digər inkişaf etmiş bölgələr də var idi. Bu bölgələrin hər birində Pataliputra, Vayşali, Varanasi, Prayaqa, Axicckatra, Matxuda və digər şəhərlər kimi iqtisadi, siyasi və mədəni mərkəzlər yaranırdı. Təbii təsərrüfat və siyasi komplekslər təşkil edən, amma bir-biri ilə iqtisadi bağlılığı çox zəif olan bu inkişaf etmiş bölgələr iri dövlətlərin tərkibinə daxil idilər. Mərkəzdənqaçma qüvvələri müntəzəm olaraq qədim Hindistandakı imperiyaların dağılmasına və bu bölgələrin muxtariyyətinə və ya tam siyasi müstəqilliyinə gətirirdi.

Belə bir mənzərə Hindistanın digər bölgələri üçün də xas idi. Pəncabda iqtisadi mərkəzlər olan Takşaşila, Şakala və Puruşapura daha çox seçilirdilər. Sind bölgəsi və Racputana bölgəsinin böyük hissəsində isə köçəri maldarlıq təsərrüfatı üstünlük təşkil edirdi.

Sauraştra inkişaf etmiş əkinçilik bölgəsi idi. Sauraştra, Konkrena, Malobara-Bxriqukaçça, Suratxa, Şurparaka, Muziris və digər şəhərlər dəniz ticarətinin sayəsində varlanırdılar.

Çxota-Naqpur yaylasında, Orissada, Mərkəzi Hindistanda, Vindxya dağlarındakı geniş ərazilərdə, həmçinin Dekanın böyük hissəsində az inkişaf etmiş tayfalar məskunlaşmışdı. Benqal körfəzi sahillərindəki inkişaf etmiş bölgələr əsasən, iri çayların deltaları ətrafında yerləşirdilər. Əkin üçün yararlı olan geniş torpaq massivlərində yaşayan əhali seyrək və bir-birindən aralı idi.

Yeni eranın əvvəllərində Hindistanın siyasi tarixi haqqında məlumat azdır. I əsrdə Hindistanın şimal-qərbi və Qanq vadisinin böyük hissəsi Şimali Hindistan, Əfqanıstan və Mərkəzi Asiya ərazilərini əhatə edən Kuşanlar tərəfindən fəth olundu. Bu hadisə regiondakı ticarət və mədəni əlaqələrin genişlənməsinə təkan verdi. II əsrin sonu – III əsrin başlanğıcında Kuşanların hakimiyyəti zəiflədi. Kuşan imperiyasının ərazisində xırda və zəif dövlətlər yarandı.

**IV-XII əsrlərdə siyasi durum**

Hindistan tarixində yeni səhifə IV əsrin əvvəlində Maqadxada böyük Qupta imperiyasının əsasının qoyulması ilə başladı. Xırda Maqadxa hökmdarının oğlu I Çandraqupta (320-340) Qanq vadisinin böyük qismini öz hakimiyyəti altına aldı və oranın imperatoru («maxaracadxiraca») oldu. Onun oğlu Samudraqupta (340-380) Hindistanın ən böyük padşahına çevrildi. Lakin V əsrin sonlarına doğru Qupta imperiyasında daxili parçalanma və hərbi qüdrətin zəifləməsi əlamətləri aydın şəkildə göründü. Əvvəlcə ucqar hissələr Qupta dövlətindən ayrıldı, VI əsrdə isə imperiya tamamilə süqut etdi.

Hind tarixi salnamələrində 515-ci ildə ağ hunların (eftalitlərin) hökmdarı olmuş fateh Mihiraqula xan haqqında xatirələr saxlanılır. 530-cu ildə onun torpaqları Şimal-Qərbi Hindistandan başqa Camna-Qanq vadisinin Qvaliur bölgəsinə qədər uzanırdı. 533-cü ildə Mihiraqula xanın qoşunları hindlilər tərəfindən darmadağın edildilər və eftalitlər yalnız Hind çayı vadisindəki əraziləri özlərində saxlaya bildilər. Eftalitlər öz siyasi birliyini bərpa edə bilməsə-

lər də, onların basqın təhlükəsi aradan qalxmamışdı.

Eyni zamanda, Şimal-Qərbi Hindistana və daha sonra Racputana hind-avropa mənşəli qurcar tayfaları gəldilər. Onların Hindistana eftalitlərlə bir vaxtda gəlməsi ehtimal oluna bilər. Hər halda, qurcarların Pəncabda, Sinddə və Şimali Racputanda məskunlaşdığı ərazilər eftalitlərinki ilə üst-üstə düşürdü. V əsrin ikinci yarısında qurcarlar Racputanın böyük hissəsini tutdular. O zaman mərkəzi Racputan Qurcarat adını aldı. Bura qurcarların ən böyük əyalətinə çevrildi.

Şimal-qərbi və qərbi Hindistanın yerli əhalisinin qurcar və eftalit etnik elementleri ilə qaynayıb-qarışmasından racput adını almış tayfalar yarandı. VII əsrdə racputlar göstərilən ərazilərdə qalırdılar və feodal tipli erkən dövlət qurumunda birləşirdilər. Onların böyük qismi feodalizmə qədərki münasibətlər mərhələsində idilər. Racput tayfaları daxilində baş verən sosial proseslər onların zəngin əkinçilik bölgələri olan Qanq vadisi, Malva vadisi və mərkəzi Hindistana müdaxilələrinə təkan verdi. Bununla da, racputlar VIII əsrdən etibarən Şimali Hindistan tarixinin həlledici amilinə çevrildilər.

Qeyd edək ki, eftalitlərin basqınları Qupta imperiyasının süqutuna səbəb olmaqla yanaşı, həm də Hindistanın müqəddəratına uzun illər boyu təsir edəcək proseslərə təkan verdi. Artıq VI əsrin ortalarından – VIII əsrin ortalarına kimi Racxəstan bölgəsi və şimal-qərb bölgələri Şimali Hindistanın siyasi həyatında mühüm rol oynamırdı.

Ümumiyyətlə isə, VI əsrdən başlayaraq Şimali Hindistanın siyasi birliyi dağıldı. Onun ərazisində, habelə Dekan yarımadasında sosial-iqtisadi özülünü feodal münasibətləri təşkil edən yeni dövlət qurumları yarandı.

Qeyd edilməlidir ki, qədim Hindistan cəmiyyətində feodalizm quruluşuna keçid üçün şərait uzun əsrlər boyu yaranıb, inkişaf edirdi. Qədimdə yaranmış feodal istehsal üsulunun əhəmiyyəti get-gedə artırdı və yeni eranın VI-VII əsrlərində o, Hindistanda hakim münasibətlər sisteminə çevrildi.

Qupta imperiyasının süqutundan sonra yaranmış çoxsaylı

hind dövlətləri bir neçə əsr ərzində bir-birləri ilə ədavət aparırdılar. Gah biri, gah da digəri ön plana çıxır, qonşularını məğlub edib böyük ərazilərə yiyələnirdi. Lakin az sonra fəth etdikləri torpaqları itirir, ya da asılı hala düşürdü. VI əsrin sonlarında Qanq vadisindəki ən böyük dövlətlər Qauda (Benqaliya), Maukxari və Puşpabxuti idi. Qaudanın yüksəlişi Şaşankanın (VI əsrin sonu – VII əsrin 30-cu illəri) adı ilə bağlıdır. O, öz dövlətinin sərhədlərini cənuba və qərbə doğru genişləndirdi.

Kanaucadakı Maukxarilər və Stxaneşvardakı Puşbapxutilər Şaşanka tərəfindən hücum təhlükəsi altında olduqlarından ittifaq yaratdılar. Amma Şaşanka onları məğlub edə bildi və bu döyüşdə hər iki rəqib hökmdar öldürüldü.

Hər iki dövlətin hakimiyyəti 606-cı ildə Stxaneşvara hakiminin kiçik qardaşı Xarşavardxana (Xarşa) Puşpabxutiyə keçdi. O, demək olar ki, bütün şimali Hindistanı, Malvanı, Benqaliyanı (Şaşankanın ölümündən sonra) və Orissanı öz hakimiyyəti altında birləşdirdi. Beləliklə, 606-648-ci illərdə mövcud olmuş Xarşa dövlətinin əsası qoyuldu.

Şimali Hindistanın bir çox xırda əyalətləri onun müttəfiqləri idilər.

Xarşa qüdrətli hökmdar idi və hətta Çinlə səfir mübadiləsi aparırdı.

Xarşa imperiyası 42 il mövcud oldu. 646-cu ildə Xarşanın ölümü ilə dövlətin tənəzzülü başladı və dövlət 648-ci ildə süqut etdi. Şimali Hindistanda yenidən siyasi pərakəndəlik dövrü başladı.

VI-VII əsrlərdə Dekanda və Cənubi Hindistanda da kifayət qədər iri dövlət qurumları formalaşmağa başladı. Bunlar Çaluklar, Pal və Pandi dövlətləri idi. Onların arasında uzunmüddətli mübarizə gedirdi.

VIII əsrin ortalarından etibarən Hindistandakı siyasi vəziyyət yenidən dəyişdi. Racputandakı Racput tayfalarının hərbi yürüşləri başladı. Onlar Hindistanın şimali və mərkəzi hissələrini fəth etdilər. Bu hücumun başında Qurcara-Pratixar nəsli dururdu. Onlar Malvada və Qurcaratın bir hissəsində güclü dövlət yaratmağa

müvəffəq oldular. Lakin onların işğallarını VIII əsrin ortasında Dekanda Çalukları və Benqaliyadakı Palları əvəzləmiş qüdrətli dövlət olan Raştrakut dövləti dayandırdı. Qurcara-Pratixarların Raştraxutlarla mübarizəsi Şimali Hindistanın və Dekan ərazilərinin əsas siyasi faktoruna çevrildi. Mübarizə əsasən, Camna-Qanq çaylararası ərazilər – Doab uğrunda aparılırdı. Mübarizə dəyişkən uğurla gedirdi. Belə ki, Vatsaraca Qurcara-Pratixar (778-784) Pal sülaləsindən Dxarmpaleni (770-810) məğlubiyyətə uğratdı, 785-ci ildə isə özü Dxruva Raştrakut (780-793) tərəfindən məğlub edildi. Dxruva Raştrakut həm Dekanın, həm də Şimali Hindistanın ali hakiminə çevrildi, imperator titulu aldı. Lakin onun zəfəri uzun sürmədi. 790-cı ildə Dxruva Dekana geri çəkilməli oldu və Doab Palların hakimiyyəti altına keçdi. IX əsrin əvvəlində II Naqabxata Qurcara-Pratixar (805-833) yenidən Palları məğlubiyyətə uğratdı, lakin təkrarən Raştrakut hakimi, bu dəfə Dxravanın oğlu II Qovipda (793-814) zəfərdən bəhrələnməyə ona imkan vermədi və Kanaucu zəbt etdi. Amma onun ölümündən sonra oğlu və qohumları arasında 25 il davam edən ara müharibəsi başladı və Raştrakutlar dövləti zəiflədi. 810-850-ci illərdə – Devapalın dövründə Pallar yenidən Doabda ən güclü təsirə malik oldularsa da, IX əsrin ikinci yarısında hegemonluq Qurcara-Pratixarların əlinə keçdi. Bu dövrdə Raştrakutlar dövləti siyasi böhrandan çıxdı və yenidən Hindistanda aparıcı qüvvə olmağa iddia etdi. II Krişna (880-914) Şərqi Çolukyalarla uzunsürən mübarizədən sonra, bu əyaləti öz torpaqlarına qatdı. Daha sonra, Qurcara-Pratixarlar məğlub edildi və Qurcarat da imperiyanın tərkibinə qatıldı.

Onun xələfi III İndranın (914-928) dövründə Raştrakutlar Kanaucı ələ keçirdilər, Allahabada və Varapasiyə yaxınlaşdılar. Raştrakut imperiyası Hindistanın böyük hissəsini birləşdirməyə nail oldu.

X əsrdə bu üç iri dövlət tənəzzülə uğradı. Xırda vassal əyalətlər güclənir və müstəqillik əldə edirdilər. Onlar köhnə vassalların əllərindən aldıqları torpaqlar hesabına öz ərazilərini genişləndirirdilər. 973-cu ildə Raştrakutların Çalukya sülaləsindən olan vassalı Raştrakut sülaləsinin son nümayəndəsini taxtdan saldı və

öz paytaxtı olaraq Kalyani şəhərini seçdi. Qurcara-Pratixarlar imperiyası ərazilərində Paramarların, Çandellərin, Kalaçurilərin, Quxilatların, Çauxanların və Çaulukilərin müstəqil dövlətləri yarandı.

Pallar dövləti X əsrin ortalarında zəiflədi. O, artıq Şimali Hindistanda baş verən siyasi mübarizədə iştirak etmirdi. XII əsrin ortalarında isə bu dövlət bir sıra xırda dövlət qurumlarına parçalandı. Bunların arasında ən əhəmiyyətlisi Sen vilayəti idi.

Bu dövrdə Şimali Hindistanda hakim mövqeyə yiyələnə biləcək güclü dövlət yox idi. Raştrakutların tənəzzülü Çol dövlətinin yüksəlməsinə imkan verdi. Onlar iki onillik ərzində Cənubi Hindistanda üstün mövqelərə yiyələndilər.

Dövlətin yüksəliş dövrü XI əsrə təsadüf edir. I Racarac (985-1015) və I Racendrin (1015-1044) hakimiyyəti illərində Çollar Tamilnadda möhkəmləndilər, Seylon və Maldiv adalarını fəth etdilər, Sumatra, Yava və Malakka yarımadasına malik olan Şrivicaya dövlətini tabe etdilər, müasir Maysor ərazilərini imperiyalarının tərkibinə qatdılar, Veqadan olan Şərqi Çalukyaları vassal etdilər, Kalyanidakı Çaluyları bir neçə dəfə məğlubiyyətə uğratdılar və Qanq çayının sahillərinə qədər gedib çatan möhtəşəm yürüş təşkil etdilər. Çolların hərbi gücü nəinki quru qoşunlarına, həm də güclü donanmaya əsaslanırdı. Çolların İndoneziya və Ərəbistan dənizinin sahillərində yerləşən dövlətlər ilə ticarəti cəmiyyətin yuxarı təbəqələrinin var-dövlətini artırırdı. Bu möhtəşəm məbədlərin tikintisində və bürünc heykəltaraşlığın geniş inkişafında özünü bilavasitə göstərdi.

1070-ci ildə Çol və Şərqi Çalukya sülalələri birləşdilər. XII əsrin əvvəllərində Çol dövləti Krişna və Tunqabdaxara çaylarından cənubda olan bütün əraziləri əhatə edirdi. Şərq sahilindəki sərhədlər isə şimalda Qodovari çayına qədər uzanırdı.

Bu dövrdə Şimali Hindistan sərhədlərində güclü düşmən peyda oldu. Qəznəvilər dövlətinin hökmdarı Sultan Mahmud (998-1030) indiki İranın və Mərkəzi Asiyanın böyük hissəsini, habelə Əfqanıstan, Pəncab və Sindi özündə birləşdirən böyük imperiya yaratmışdı. Sultan Mahmud ona böyük qənimət gətirən Şimali Hindistana mütəmadi dağıdıcı basqınlar edirdi. Sultan Mahmud

Qəznəvi 1002-1026-cı illərdə Hindistana 17 yürüş etmişdi. Hər basqından sonra dağılmış şəhərlər, viran qoyulmuş bölgələr qalırdı. Əhali isə ya qırılırdı, ya da ki, onları tərk etməyə məcbur olurdu.

Bu basqınlar XII əsrin sonu – XIII əsrin əvvəllərində Şimali Hindistanın böyük hissəsini işğal edən Şəhabəddin Məhəmməd Quriyə yol acmışdı. Racputlar ona ciddi müqavimət göstərirdilər. Racput eposlarında şanlı döyüşçülərin şimaldan gələn işğalçılara qarşı uzunsürən mübarizəsindən bəhs olunur. Lakin Racputlar öz aralarında mübarizəni dayandırmamışdılar və qurilərin hücumlarından ayrı-ayrılıqda müdafiə olunurdular. Nəticədə, Məhəmməd Quri 1180-ci ildə Kanaucu fəth etdi, 1193-cü ildə isə Acmirdə Çauxanları məğlubiyyətə uğratdı. Qurilər şərqi Doabda yerləşən Qaxadavallar dövlətini dağıtdılar. Yerli hökmdarların müqavimətini qıran Məhəmməd Quri və onun xələfləri artıq hərbi qənimətlə kifayətlənmirdilər. Onlar Şimali Hindistanı öz ərazilərinə qatdılar və ayrı-ayrı bölgələri idarə etmək üçün canişinlər göndərdilər.

Amma Məhəmmədin və onun oğlunun ölümündən sonra Qurilərin dövləti zəifləməyə başladı. Xorasandakı üsyan və müharibələr Quri hökmdarlarının diqqətini yayındırdı və 1206-cı ildə qulam (saray qulları) nəslindən olan canişinlər müstəqilliklərini elan etdilər və Şimali Hindistanda müsəlman hakimlərinin idarə etdiyi və Dehli sultanlığı adını almış iri dövlət qurdular.

### Erkən orta əsrlərdə Hindistanda sosial-iqtisadi münasibətlərin inkişafı

Bir sıra tarixçilər Hindistanda bu dövrdə mövcud olan quruluşu erkən feodal quruluşu kimi dəyərləndirirlər. Son illərdə bir çox hind tarixçiləri də bu quruluşun feodal xarakterini qəbul edirlər, lakin hind feodalizminin Avropa feodalizmindən böyük fərqləri olduğunu söyləyirlər. Onlardan bəziləri hesab edirlər ki, Hindistan yeni eranın ilk əsrlərindən XII əsrə qədər feodalizmin yaranması, çiçəklənməsi və tənəzzülü dövrünü yaşamışdır.

Erkən orta əsrlər dövründə Hindistanda hakim ictimai quruluşun xarakterinin necə olduğu sualına cavab vermək üçün biz geniş əkinçi kütləsinin hansı istismara məruz qaldığını bilməliyik.

Formal olaraq, dövlət hesabına torpaq vergisi alınırdı. Bu verginin hansı dövrdən feodal töycüsünə çevrilməsini təyin etmək o qədər asan deyil. Torpaq vergisinin xüsusiyyətinin yeni eranın I minilliyində prinsipial olaraq dəyişməsini təyin etmək üçün əlimizdə yetərincə məlumat yoxdur. Qədim zamanlarda olduğu kimi, erkən orta əsrlərdə də töycü izafi məhsulun hamısına aid edilmirdi və yalnız torpağa kifayət qədər geniş hüquqlara malik şəxsdən – azad icma üzvlərindən toplanırdı. Bu baxımdan, Y.M.Medvedyevin belə bir mülahizəsini xatırlatmaq istərdik ki, feodal quruluşu Hindistanda qədim zamanlardan mövcud idi, lakin yeni eranın ilk əsrlərindən hakim quruluşa çevrildi. Bu, dövlət vergilərinin toplanmasının tədricən feodalların əlinə keçməsindən sonra baş verdi. Feodal kəndlini asılı vəziyyətə saldı və ondan öz hesabına töycü almağa başladı.

Qədimdə və erkən orta əsrlərdə Hindistanın iqtisadi quruluşunun əsas xüsusiyyəti o idi ki, torpaq həm dövlətin, həm də icma üzvünün (icmanın) mülkiyyəti idi. Amma, qeyd edək ki, bu mülkiyyətlərin formaları fərqli idi. İcma üzvünün torpağa olan hüquqları ondan ibarət idi ki, o, torpaqdan qovula bilməzdi, öz sahəsindən istədiyi təsərrüfat növü üçün istifadə edə bilərdi, torpaq sahəsini sata və yaxud girov qoya bilərdi. Dövlətin hüququ isə bu torpaqdan vergi-renta toplamaq və vergi-renta toplanmasını və bu torpaq üzərindəki vergi hüququnu feodala verməkdən ibarət idi. Hər iki mülkiyyət forması xüsusi mülkiyyət kimi dəyərləndirilə bilər, amma hökmdarın mülkiyyəti ali idi, icma üzvünün mülkiyyəti isə asılı idi.

Onu da qeyd edək ki, iri torpaq sahibləri güclündikcə torpaq mülkiyyətinin hər iki formasını ələ keçirməyə can atırdılar. Əyanlar dövlətdən bu və ya digər bölgədən, kənddən və ya kənd qrupundan vergi toplamaq hüququ qazanmaqla həm də ali torpaq mülkiyyətini də ələ keçirirdilər.

Dünyəvi şəxslərə edilən torpaq hədiyyələri də o şərtlərə uyğun idi və heç də az deyildi.

Həm dünyəvi, həm də dini əyanlar vergi toplamaq hüququ qazanırdılar və bundan əlavə, həm də icma üzvlərindən biyar tə-

ləb edə bilərdilər. Torpağı əldə edənlər inzibati və məhkəmə toxunulmazlığına malik olurdular, dövlət məmurları onların işinə müdaxilə edə bilməzdilər. Bəzən hədiyyə edilmiş kənd, onun aid olduğu bölgənin canişinlərinin inzibati tabeçiliyindən çıxarılırdı. Dövlət yalnız ağır cinayətlərin mühakiməsi hüququnu əlində saxlayırdı, bütün digər mühakimə funksiyaları feodala keçirdi.

Əksər hallarda torpaq hədiyyələri «ömürlük» hesab edilirdi, yəni torpaq payı irsən keçirdi. Bununla belə, digər torpaq mülkiyyəti formaları – ancaq ömürlük və ya xidməti müddətə verilən torpaq sahələri də mövcud idi.

Feodal torpaq sahibkarlığının forması digər yolla – aşağıdan yuxarıya doğru da yaranırdı. İcmanın varlanmış üzvləri və əsasən onun inzibati təbəqəsinə aid olanlar ələ keçirmək, satın almaq və digər yollarla geniş torpaq sahələrinə yiyələnə bilirdilər. Qısa müddət ərzində onlar «kəndli» hüququ əsasında torpağa sahib olurdular, yəni torpağa görə vergi verməyə davam edirdilər. Sonradan isə mükəlləfiyyətlərdən azad olmaq və xüsusi imtiyazlar qazanmaq haqqında dövlət fərmanı əldə edirdilər.

Bəzən eyni feodal bir torpaqda ali sahibkar, digər torpaqda isə asılı sahibkar idi, yəni torpaq onun tam sərəncamında idi, amma o torpaq mülkiyyətinə görə vassalına vergi verməli idi.

Torpaq paylarından ibarət hədiyyələrin sayını nəzərə alsaq, VI-XII əsrlərdə dövlət torpaqları və xüsusi mülklər arasındakı nisbətin sonuncuların xeyrinə dəyişdiyini görərik.

Erkən orta əsrlərin sonlarına doğru induist məbədlərinə məxsus torpaqların da xüsusi çəkisi artdı. Bunu əsasən, Cənubi Hindistana aid etmək olar. Məbədlər torpaqlara həm hökmdarların və mömin feodal və kəndlilərin hədiyyəsi yolu ilə, həm də satın almaq, girov götürmək vasitəsi ilə əldə edirdilər. Məbəd təsərrüfatını adətən brahmanlar və başqa kastaların ağsaqqallarından ibarət şura idarə edirdi. Bəzən torpaq sahibləri, bəzən isə tacirlər və sənətkarlar da bu şuralara cəlb edilirdilər.

Bu dövrdə torpaq artıq alqı-satqı obyektinə çevrilirdi. Torpağı cəmiyyətin bütün təbəqələri – hökmdarlar, torpaq sahibləri, kənd icmaları, sənətkarlar və tacir birlikləri alır və satırdı.

**Kasta quruluşunda dəyişikliklər**

Bildiyimiz kimi, orta əsrlər dövründə Hindistanın sosial strukturunun əsas xüsusiyyəti kasta sisteminin hökmranlığı idi. Qədimdən cəmiyyətin dörd kastaya («*varna*») bölünməsi təsbit olunmuşdu: brahmanlar (kahinlər), kşatrilər (döyüşçülər), vayşilər (sənətkarlar, əkinçilər, tacirlər) və şudralar (nökərlər). Amma yeni eranın əvvəllərindən cəmiyyətin dördvarnalı sistemə bölünməsi müxtəlif kastaların təsnifatı formasına çevrildi.

Kastaya daxil olanlar istənilən əmək növünü və ya sosial fəaliyyəti öz «kasta məşğuliyyətləri» hesab edirdilər. Onlar özlərinin digər qruplardan necə fərqli olduqlarını aydın şəkildə dərk edirdilər. Ticarət və sənətkarlıqla məşğul olan kastalar meydana gəlməsinə görə, ictimai əmək bölgüsünə borclu idilər. Digər kastalar mahiyyətinə görə kasta sisteminə daxil edilmiş və onun daxilində müəyyən əmək və yaxud sosial funksiyalar yerinə yetirən tayfalar idi. Nəhayət, kahin və əkinçi kastaları sosial təbəqələşmə, xüsusilə də torpaq mülkiyyətinin təmərküzləşməsi nəticəsində meydana gəlmişdilər. Hər bir kasta müəyyən qədər «paklıq» və yaxud «çirkab» ayini daşıyıcısı hesab olunurdu.

Müxtəlif varnaları ifadə edən terminlərin mənaları da dəyişilmişdi. Brahmanlar arasında kahinlərdən başqa xırda və iri torpaq sahibləri, məmurlar və hətta sərkərdələr də var idi. Qədim kşatrilər artıq yox olmuşdular və onları Şimali Hindistanda yaşayan tayfalar – ənənəvi sosial məşğuliyyətləri həm müharibə, həm də torpaq sahibkarlığı olan müxtəlif racput kastaları əvəz etdi. «Şudra» terminini şəxsi azadlığa malik əkinçilərə və sənətkarların bir hissəsinə aid etməyə başladılar. Orta əsrlərdə yalnız tacirlər və varlı sənətkarlar vayşi sayılırdılar. Cənubi Hindistanda kşatri kastaları kifayət qədər inkişaf etmədi və buradakı hərbi-torpaq sahibkarları kastaları «şudra» sayılırdılar.

«Toxunulmazlar» kastasına aid olanların sayı çox artdı. Buraya kənd əhlinin ən kasıb, asılı hissəsi və fəth olunmuş geridə qalmış tayfalar daxil idilər.

Bütövlükdə, kasta sistemi cəmiyyətin sosial bölgüsünə müvafiq idi.

Ümumiyyətlə, mövcud sosial quruluşu qoruyan və Hindistanın sosial-iqtisadi inkişafını ləngidən kasta sistemi, eyni zamanda bu inkişafı nəzərə alırdı və ona uyğunlaşırdı.

**İcmalar haqqında**

Orta əsrlər dövründə icma Hindistanda böyük sosial-iqtisadi, həm də siyasi rol oynayırdı. İcma böyük həcmi və mürəkkəb strukturu ilə seçilirdi. Ağsaqqallara və icma şurasına malik olan kənd, tam bir bölgəni əhatə edən daha iri icmanın tərkibinə daxil idi, o isə daha böyük inzibati əraziyə daxil idi (vilayət miqyasında) və s. Həm iri, həm də kiçik icmalar idarəetmə orqanlarına malik idi. Bu orqanlar daha aşağı icma şuralarının ağsaqqallarından təşkil olunurdular və konkret kəndə, mahala və ya əyalətin ərazisinə daxil olan torpaqlar onların sərəncamında idi.

Bütöv bir əyaləti birləşdirən iri icmalar Cənubi Hindistan üçün daha xarakterik idi. Tamilandda onlara «nadu» deyirdilər. Karnatakda iri icmanı təyin etmək üçün onun coğrafi adı və yanından müəyyən rəqəm yazılırdı, məsələn Belvalo-300, Çirapi-12 və s. Bu rəqəmlərin nə məna kəsb etməsi alimlər arasında hələ də mübahisələr doğurur. Ən ağlabatan versiya odur ki, kiçik rəqəmlər icma şurasının üzvlərinin sayını (ola bilsin ki, icmadakı müstəqil təsərrüfatların sayına bərabər rəqəm), böyük rəqəmlərin isə konkret icma təşkilatına tabe olan xırda şuraların üzvlərinin sayını göstərirdi.

Şimali Hindistanda belə mürəkkəb icma strukturu yox idi. Amma orada da icma bir neçə yaşayış məntəqəsindən ibarət idi. Bu yaşayış məntəqələri kəndlər («*qrama*») və ya hissələr, parçalar («*pataka*», «*kona*», «*pallika*») və s. adlanırdılar.

İcmalar özünüidarə və özünüqorumanı, xırda işlər üzrə məhkəməni, əkinçilər arasında qarşılıqlı köməyi, suvarma sistemlərinin inşasını təşkil edirdilər. Onlar həmçinin feodalların çəkişmələrində iştirak edirdilər. Bütün bunlarla yanaşı, icmanın inzibati orqanlarını maliyyələşdirmək üçün vəsait icmalardan toplanan vəsait hesabına yaranırdı. Bəzən bu vəsaitlərin miqdarı, heç də dövlət vergilərindən az olmurdu.

Erkən feodal dövlətlərinin güclənməsi ilə icmalar (ilk növbədə

iri icmalar) muxtariyyətlərini itirir və təyin olunmuş məmurlar tərəfindən idarə olunan inzibati vahidlərə çevrilirdilər. Faktiki hakimiyyəti itirdiklərinə baxmayaraq, mahal və vilayət şuralarının torpaq paylarının bağışlanması haqqında adlarının fərmanlarda qeyd olunması XII-XIV əsrlərə qədər davam etdi (bu proses Cənubi Hindistanda sonrakı əsrlərdə də davam etmişdi). Bu fərmanlara görə, torpaqların əldən ələ keçməsi haqqında şuralara xəbər verilməli idi.

Tarixi məlumatlarda icmanın inzibati idarəetməsində iştirak edən deşaqramukutalar, raştraqrama maxattaralar, raştrakuta və s. vəzifələrin adları çəkilir. Öz xidmətləri müqabilində xüsusi torpaq payları və icmadan toplanan vergilərdən pay alan bu məmurlar, bəzən nəinki varlanırdılar, həm də dövlətdə mühüm fiqurlara çevrilirdilər. Cənubi Hindistandakı ən qüdrətli sülalələrdən olan Raştrakutlar məhz bu zümrədən çıxmışdılar. Hakimiyyətə gələndən sonra onlar öz icma vəzifəsini nəsil adı kimi istifadə edirdilər və göründüyü kimi, bu addan heç də utanmırdılar.

İcmanın iqtisadiyyatı fərdi əkinçi təsərrüfatı üzərində qurulmuşdu. Bu təsərrüfat kiçik və ya böyük olan bir patriarxal ailə tərəfindən aparılırdı. Ailə başçıları olan icma üzvləri («*kutumbin*») öz torpaq sahəsində geniş hüquqlara malik idilər. Bu asılı sahibkarlıq forması idi, çünki bu torpaq payı torpaqdan vergi alan dövlətə və icma üzvündən geri ala bilmək hüququna malik icmaya məxsus idi.

XI-XII əsrlərdən başlayaraq, Cənubi Hindistan tarixinə aid sənədlərdə torpaqların pay əsasında yenidən bölünməsi haqqında məlumatlara rast gəlinir. Belə torpaq bölgüsündə torpaq sahəsinin ölçüsü dəyişdirilmirdi. Əkinçilərin sahibkarlıq hüquqlarına az təsir edən bu bölgülər əlverişli və münbit torpaqların çatışmaması hiss olunanda həyata keçirilməyə başlandı.

Kutumbinlər kənd əhalisinin hamısını təşkil etmirdilər. Onlardan başqa kənddə sənətkarlar və tamhüquqlu torpaq sahibləri də yaşayırdılar. Torpaq sahibləri və sənətkarlar arasındakı əmək bölgüsü və sənətkarların icmanın təminatında olmaları XI-XII əsrə aid mənbələrdə qeyd olunur. Bu sistemin öncəki əsrlərdə mövcud

olub-olmaması haqda məlumatlar yoxdur.

Bəs icma üzvlərinin əməyinin nəticəsi necə mənimsənilirdi? Şəxsən azad olan icma əkinçiləri get-gedə feodallardan daha asılı vəziyyətə düşürdülər. Asılılığa salınmanın əsas vasitəsi dövlət vergiləri idi. Bir sıra hind alimlərinin rəylərinə görə, X əsrin sonunda Çol dövlətində vergilər ümumi məhsulun 1/5-ini təşkil edirdi. Sonralar dövlətə verilən məhsulun payı artır. Yeni vergilər və töycülər – toylar, uşağı olmayanlar və bayramlarla bağlı vergilər, hökmdarın fərmanının gətirilməsi ilə bağlı töycülər, qəsəbəyə gələn məmurların təminatı üçün töycülər, məhkəmə rüsumları və cərimələri və s. əhalinin vəziyyətini çətinləşdirirdi. Bəzi mahallarda dövlət vergi və töycülərinin növlərinin sayı yüzü keçirdi. Dəfələrlə «tənzimlənmə», yəni xırda vergilərin bir «əsas» vergidə birləşdirilməsi baş verirdi. Daha sonra bu əsas vergidən başqa yeni «əlavə» vergilər də toplanılırdı. XII-XIII əsrlərdəki mənbələrdən məlum olur ki, ağır vergilərə görə kəndlilərin müflisləşməsi, vergi qalıqlarının yığılması, yeni vergilərin ağırlığına qarşı fəal etirazların nəticəsində köhnə vergi tariflərinə qayıdılması halları artırdı.

Bütün bunlar icma əkinçilərinin sahibkarlıq hüquqlarını sarsıdırdı. İcma üzvləri get-gedə dövlət və ya şəxsi torpaq sahələrinin hüquqsuz sahiblərinə çevrilirdilər.

Kəndlərin tam toxunulmazlığa malik xüsusi sahibkarların ixtiyarına verilməsinin də kəndlilərin vəziyyətinə ciddi təsiri vardı. Faktiki olaraq, feodal heç bir məsuliyyət daşımadan vergiləri artıra bilir, icmanın özünü idarə etməsinə müdaxilə edirdi və s. Bəzi icmalarda, hətta icma töycülərinin bölüşdürülməsi də feodalların əlində idi.

Amma erkən orta əsrlərdə bu proseslər tamamilə başa çatmadı. İcma kəndliləri bir sıra ictimai və iqtisadi imtiyazlarını xeyli müddət itirmədilər.

Qeyd olunmalıdır ki, o dövrdə müflisləşən və bununla bağlı icmada öz üzvlüyünü itirən kəndlilərin sayı artmaqda idi. X-XII əsrlərdəki mənbələrdə torpaq sahiblərinin imtiyazları arasında «*uparikara*», yəni uparilərdən alınan vergi də göstərilirdi. Hər halda bu termin erkən orta əsrlərdə də XIX əsrdə istifadə olunan

mənanı verirdi və tamhüquqlu olmayan torpaq sahibini göstərirdi. Başqalarının torpaqlarında işləyən icarədarların sayı həm Şimali Hindistanda, həm də Dekanda çox idi. Cənubi Hindistanda torpaqdan alınan məhsulun yarısını icarə haqqı kimi ödəyənlərə «addxika» deyirdilər. Onlar torpaqla bir yerdə hədiyyə edilə bilərdilər. Torpaq sahiblərinin digər qrupu (*«kudigal»* və ya *«kudimakkal»*) isə torpaq yeni sahibə keçəndə ondan qovula bilərdilər. 1048-cı ilə aid yazılara görə, kudiqallardan alınan vergi adi vergi tarifindən (onun 2/3-i qədər) çox idi. Yazılarda sahibin əmlakı olan qullar və xidmətçilərin də adı çəkilir.

Qeyri-müstəqil olan bu şəxslərdən məbəd təsərrüfatlarında, monastırlarda, brahman icmalarında, habelə hökmdar təsərrüfatlarında («kamiata və ya panna») istifadə olunurdu. Amma Hindistanda malikanə təsərrüfatları geniş yayılmadı. Bir qayda olaraq, torpaqdan məhrum olanlar və hətta qullar feodal sahibkarları tərəfindən onlara verilən torpaqlarda xırda təsərrüfatla məşğul olurdular.

**Hindistanın siyasi quruluşu**

VI-XII əsrlərdə yaranmış saysız-hesabsız hind dövlətlərinin mərkəzləşmə və inkişaf dərəcələri müxtəlif idi. Bütün bu dövlətlər monarxiya quruluşuna malik idi. Hökmdarın hakimiyyəti ənənələr, dini təlimatlar, icmanın və zadəganların gücü ilə məhdudlaşdırılırdı. Dövlət quruluşlarında ciddi fərq ancaq böyük imperiyaların və xırda dövlətlərin müqayisəsində görünür. Hər iki siyasi birliyin ahəngi Hindistanın erkən orta əsrlər tarixinin əsas xüsusiyyətlərindən biridir. Kadamblar, Banlar, Qanqlar, Anaxilapatidən olan Çalukyalar, Tomarlar və bir çox digər xırda dövlətlər müstəqil və ya vassal olmalarına baxmayaraq həmişə siyasi səhnədə arxa planda idilər, Hindistanda və ya Hindistanın hər hansı bir hissəsində ağalığa iddia etmirdilər. Onların idarəçiliyi daha patriarxal idi və şəxsi münasibətlərə – əksər hallarda racilər və vassallarının qohumluq əlaqələrinə əsaslanırdı, orduları kiçik idi, hökmdarın və onun vassallarının şəxsi dəstələrindən təşkil olunurdu. Məmur təbəqəsi mövcud deyildi. Feodalların bir ailəyə aid olduğu Racput şahlıqlarında hakim zümrə daxilindəki münasibətlər xüsusilə öz patriarxal

xarakteri ilə seçilirdi.

Bu dövlətlər siyasi cəhətdən zəif olduqlarına baxmayaraq, asılı hala düşəndə və yaxud hər hansı imperiyanın tərkib hissəsinə çevriləndə tam sıradan çıxmırdılar, muxtariyyətlərini və bəzi hallarda hətta daxili işlərdəki müstəqilliklərini qoruyub saxlayırdılar. Qaliblər adətən, dövlətin bütün idarəçiliyini dəyişdirmirdilər və onun hökmdarından formal itaət bildirişi ilə kifayətlənirdilər. Xırda dövlət halına düşən bəzi sülalələr arasında əvvəllər bütün ölkə üzərində hegemonluğa can atanlar da var idi.

Siyasi quruluşun digər forması imperiya idi. İmperiyalar arasında *Çaluk, Xarşi, Pratixar, Pal, Raştrakut, Çol* və digər sülalələrinin adları çəkilə bilər.

Bu imperiyaların qüdrətləri qısamüddətli və nisbi idi. Onların mövcud sərhədlərinin genişlənməsi hakimiyyətləri bir-birinə irsən keçən bir necə hökmdarın xidmətləri ilə bağlı idi. Bu imperiyalar fəth olunmuş xırda dövlətlərin əsasında qurulurdu və bünövrəsi çox zəif olurdu. Bəzən vassalların üsyanı bir qədər əvvəl bütün Hindistan üzərində siyasi hegemonluğa iddia edən imperiyanı yer üzündən silməyə kifayət edirdi. İmperiyalarda ordunun və onun sərkərdələrinin, habelə məmur təbəqəsinin xırda dövlətlərə nisbətən rolları daha böyük idi. Hərbi gücə və bürokratik aparata arxalanan belə imperiyalar iri kənd icmalarının muxtariyyətinə qarşı çıxa bilərdilər. Məhz iri dövlət qurumlarında baş verən quruculuq hesabına Hindistanda, ləng olsa da, mərkəzləşmiş hərbi dövlətin yaranması və icmaların feodallara tabe olması prosesi gedirdi. Erkən orta əsrlər dövründə bürokratiyanın ən güclü inkişafı Çollar (XI-XII əsrlər) və Xoysallar (XII-XIII əsrlər) dövlətlərində baş vermişdir.

Möhkəmlənən dövlətin təsiri ən güclü şəkildə şəhərlərdə hiss olunmasına baxmayaraq (şəhərlər mərkəzi hakimiyyətin, mahal və əyalət rəhbərlərinin yerləşdiyi və yaşadığı yerlər idi və s.), şəhərlər erkən orta əsrlərdə, kənd yerlərindəki icmalar kimi, öz daxili idarəetmələrini qoruya bilirdilər (bu, əsasən Cənubi Hindistana xasdır). Kənd icmaları ilə müqayisədə şəhərlər arasındakı əlaqələr daha geniş idi. Buna görə də, şəhərlərin yerli idarəetmə for-

maları bir-birinə çox oxşar idi. Yalnız yerli əkinçi kastasına aid şura üzvlərindən ibarət icma orqanlarından fərqli olaraq, şəhər şuraları bir neçə ticarət-sənətkarlıq, hətta əkinçi kastasından olan ağsaqqallardan ibarət idi.

Şəhərin əmlakını, o cümlədən yiyəsiz və boş torpaqları idarə edən, şəhər əhalisi arasındakı münaqişələri həll edən şəhər şuralarının adları X-XIV əsrlərə aid bütün mənbələrdə çəkilir. Onlar Cənubi Hindistanın, demək olar ki, bütün böyük şəhərlərində mövcud idilər. Ticarət və sənətkarlıqla məşğul olan təbəqələr tədricən birliklərdə (gildiyalarda) birləşirdilər. Onlardan bəzilərinin fəaliyyəti bütün Hindistanı və bir sıra xarici ölkələri də əhatə edirdi. Bu gildiyalardan ən tanınanlarının (*«ayavole»* və yaxud *«maniqramam»*) Ərəbistan körfəzi, Qırmızı dəniz və onlara məlum olan bütün dünya limanlarında «şöbələri» var idi. Bəzi gildiyalar məhkəmə toxunulmazlığı hüququna və öz hərbi qüvvələrinə malik idilər. Onlar öz maraqlarını qorumaq üçün hakimiyyət orqanlarına müraciətlərdən başqa, digər metodlardan da istifadə edə bilərdilər. Bəzən tacir birlikləri onlara zülm edən vergi toplayan məmurları öldürməkdən belə çəkinmirdilər. Ticarət rüsumlarının bir hissəsi dövlət məmurları tərəfindən, digər bir hissəsi gildiyalarının vasitəsilə tacirlər tərəfindən yığılırdı və məmurlara ötürülürdü. Rüsumların üçüncü hissəsi isə bilavasitə birliyin büdcəsinə daxil olurdu.

Tacir birlikləri çox varlı idi və onların iri torpaq sahələri də olurdu. Bunu onların məbədlərə verdikləri səxavətli hədiyyələr (pul və qiymətli əşyalar, hətta torpaq sahələri) acıq-aydın göstərir.

Erkən orta əsrlər dövrünün sonlarına doğru feodalların qüdrətinin artması nəticəsində şəhər şuralarının və tacir birliklərinin rolu azalırdı. XIV əsrdə şəhərlərdəki hakimiyyət hərbi-feodal əyanların əlinə keçdi.

**Dinin rolu**

Qədimdən bəri mövcud olan buddizm dini tənəzzülə uğramışdı. Bunun səbəbləri alimlərə tam aydın deyil. Buddizm dini e. ə. VI əsrdə – Hindistan tarixində birinci imperiya olan Maqadxa imperiyasının yaranması nəticəsində baş vermiş sosial dəyişikliklər dövründə yaranmışdı. Dinin banisi

Şakya nəslindən olan Qautama idi. Tərəfdarları onu Budda, yəni «aydınlığa qovuşmuş» adlandırırdılar. O, öz təlimində brahmanizmə xas olan ideyaları təbliğ edirdi.

Budda təliminə görə, həyat əzabdır, əzabların yeganə səbəbi istəklərdir. Əzablardan qurtulmağın yeganə yolu nirvanaya yetişməkdən, yəni bütün istəklərdən imtina etməkdən ibarətdir. Buna nail olmaq üçün insan «orta yolla» hərəkət etməli, həmişə təmiz inam, fikir, nitq, hərəkət, yaşam vasitələrinə, niyyət, xatirələr və dalğınlıq hisslərinə malik olmalı idi. Buddizm təliminə görə, daimi əzablardan qurtulmaq üçün kahinlərə müraciət etmək və səxavətli ianələr vermək yox, saf həyat tərzi keçirmək lazımdır. Aşağı kastaya aid olanlar həmişə acizanə yaşamalı deyildi: o öz hərəkətləri sayəsində növbəti dəfə dünyaya gəldikdə ən yüksək mövqe də tuta bilərdi. Buddizm sanki kasta sərhədlərini aradan qaldırırdı və eyni zamanda, onları qoruyurdu. Belə ki, kasta, vəziyyətinə uyğun hərəkətlər – şudralar üçün mütilik, kşatrilər üçün hərbi şücaət və s. etməli idi. Buddizmdə əxlaqi ehkamlar, yumşaq xasiyyət, mərhəmət, təmtəraqdan imtina və s. vacib rol oynayırdı. Buddanın və onun davamçılarının öz nəsihətlərini sanskritdə deyil, yerli xalqların dillərində yaymaları və qısa zaman kəsiyində buddist təliminin daha da təkmilləşməsinə şərait yaradan məbədlərin tikilməsi buddizmin sürətli yayılmasında mühüm rol oynadı.

Hələ qədim zamanlarda buddistlər iki əsas təriqətə bölündülər. Onlardan biri *«maxayanalar»* və ya *«böyük arabalar»*, digəri isə *«xinayanalar»* və ya *«kiçik arabalar»* adlanırdı. Xinayana təriqətinin tərəfdarları ali həqiqətə yalnız tərkidünya ruhlu rahiblərin az hissəsinin yetişə biləcəyinə inanırdılar. Maxayana təriqətinin tərəfdarları isə düşünürdülər ki, nəzəri olaraq hər bir canlı varlıq nirvanaya qovuşa bilər. Eyni zamanda, Maxayana tərəfdarları yerli dinlərin də elementlərini öz inanclarına qatırdılar. Orta əsrlərdə tədricən Buddaya tanrı kimi baxılmağa başlandı, onun yanında bodxisatvalar peyda oldular. Bodxisatvalar Budda olmağa çox yaxın varlıqlar idi. Onlar tədricən nümunə olmaqdan çıxdılar və etiqad simalarına çevrildilər, müstəqil tanrılar oldular. Beləliklə, buddist panteonu formalaşdı və ona etiqad ali həqiqətə qovuş-

maq üçün birinci pillə idi. Müxtəlif asketik (tərkidünya) yoqa məşğələləri vasitəsilə onlar daxili düşüncə və xəyalın dərinləşməsinə təkamül yolu ilə nail olurdular.

VII əsrdə Xarşanın dövründə buddizmin inkişafı məhz maxayana təriqəti formasında gedirdi. Nalanddakı məşhur monastıra Hindistanın müxtəlif yerlərindən və digər buddist ölkələrindən xeyli sayda təhsil almaq istəyən insanlar gəlirdi. Buddizmi Benqalıyadakı Pal sülaləsi də dəstəkləyirdi. Amma tədricən buddizm yerli inanclarla qovuşdu və Budda yerli əhali arasında tanrı Vişnanın avatarlarından (dəyişdirilmiş simalarından) biri kimi tanınmağa başladı. Nəticədə, Cənubi Hindistanda VII əsrdə, Şimali Hindistanda XII əsrdə buddizm induizm ilə əvəz olundu. Asiyanın bir sıra ölkəsində əks proses baş verdi, buddizm yerli inancları birləşdirərək aparıcı dinə çevrildi.

İnduizm vahid bir din deyildir. O, etiqad etdiyi tanrılar, etiqad formaları ilə bir-birindən fərqlənən və s. təriqətlərdən ibarət idi. Amma bütün bu təriqətlər bir-biriləri ilə dinc yanaşı yaşayırdılar. Bu da onları birləşdirən bir çox məqamların mövcudluğundan irəli gəlirdi.

Bu birləşdirici məqamlar arasında ən əsasları *draxma*, *karma* və *aximsa* idi. İnduizm təliminə görə, hər bir şəxs öz vəzifəsini, borcunu (draxmasını) yerinə yetirməli idi. Bu vəzifələr hər bir kasta üçün fərqli idi. İnsanın öz vəzifələrini nə dərəcədə saf yerinə yetirməsinə əsasən və etdiyi hərəkətlərə (*karma*) görə o, öləndən sonra yenidən daha yuxarı və yaxud aşağı kastada doğulur, ən əxlaqsızlar isə ən iyrənc heyvanlar şəklində yenidən dünyaya gəlirlər. Beləliklə, brahman doğulmaq ləyaqətlə keçən həyata görə hədiyyə idi, toxunulmaz doğulmaq isə keçmiş həyatda edilmiş günahların göstəricisi idi. Aximsa prinsiplərinə görə, canlılara zərər vermək qadağan edilirdi, çünki onlarda ölmüş insanların ruhları ola bilərdi. Bu prinsipə görə, hər kəsə cəmiyyətdəki rolunu zor gücünə dəyişmək qadağan olunurdu.

Beləliklə, induizm bütün təriqətlər üçün ümumi kasta sisteminin və ümumiyyətlə isə, mövcud ictimai quruluşun təqdis olunması demək idi. İnduizm etiqadının daha bir oxşar tərəfi heyvanlara,

ilk növbədə, inəklərə sitayiş idi.

İnduizmdə ən çox etiqad edilən iki tanrı *Vişna* və *Şiva* idilər. Müvafiq olaraq induizm əsas iki qola ayrılırdı: *vişnaizm* və *şivaizmə*. İnduizm panteonunun üçüncü əsas tanrısı – dünyanın yaradıcısı sayılan Brahmaya etiqad nisbətən az yayılmışdı.

## Hindistan XIII-XVII əsrin ortalarında

XIII əsrin əvvəllərində Hindistanda feodal istehsal münasibətlərinin formalaşması prosesi əsasən, sona çatdı. Hindistan kəndlilərinin böyük bir hissəsi feodaldan asılı oldu. Bu dövrə qədər saxlanılmış istismarın erkən feodal elementləri və malikanə torpaq sahibkarlığı, demək olar ki, aradan qalxmışdı. Kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafı ictimai əmək bölgüsü prosesini sürətləndirmiş və şəhərlərin inkişafına təkan vermişdi.

Racput və bir sıra xırda digər dövlətlərin yerində yaranmış Dehli sultanlığı Hindistan tarixində müsəlman feodalların ağalıq etdiyi ilk iri dövlət qurumu idi. XIII əsrdə Şimali Hindistanda Dehli sultanlığının yaranması Orta Şərqin bir sıra ölkələrində baş verən proseslərlə, ilk növbədə müxtəlif feodal qruplaşmaları arasında gedən mübarizə ilə sıx bağlı idi. Döyüşkən tayfalardan təşkil olunmuş könüllülər və muzdlu qulam (qvardiyaçı-qullar) dəstələrinə arxalanan türk hərbi-feodal əyanları X-XI əsrlərdə Mərkəzi Asiyanın bir sıra dövlətlərində və Yaxın Şərqdə öz nüfuzlarını artırdılar.

Hələ XI əsrin əvvəllərində Şimali Hindistan şəhərləri və bölgələri Qəznəvilər dövlətinin hökmdarı Sultan Mahmud Qəznəvinin (998-1030) davamlı basqınlarının obyektinə çevrildi. Sultan Mahmudun xələfləri dövründə daxili çəkişmələr və səlcuqlar tərəfindən olan təhlükəyə görə Qəznəvi dövlətinin paytaxtı Lahora köçürüldü. XII əsrin 70-ci illərində Qəznəvilərin səlcuqlarla kəskinləşən mübarizəsi dövründə Mahmud Qəznəvi tərəfindən zəbt olunmuş xırda Quri əmrliyi hökmdarları gücləndilər. 1175-ci ildə onlar Qəznəni, 1186-cı ildə isə Lahoru ələ keçirdilər və beləliklə, Qəznəvilərin Hindistandakı hakimiyyətinə son qoyuldu.

Məhəmməd Qurinin və onun sərkərdələrinin yürüşləri nəticə-

sində Şimali Hindistanda yadelli hərbi-feodal əyanların hakimiyyəti bərqərar oldu. Onlar şimal-qərbdə Lahor, Multan, Uç və Sistanı (Saxvana), şimalda Samananı, Qanq və Camna çayları vadisini, Qanq və Qoqra arasındakı əraziləri, Kanauc, Aud və Benqaliyanı fəth etdilər.

**Dehli sultanlığının qurulması: daxili və xarici siyasəti**

Fəth olunmuş torpaqların böyük hissəsi Məhəmməd Qurinin sərkərdələrindən biri olan Qütbəddin Aybəkin əlində cəmləşdi. Onun ilk iqamətgahı «hind islamının mərkəzi» sayılan Lahor şəhəri idi. 1206-cı ildə Məhəmməd Qurinin Hind çayı sahillərində xoxar tayfaları tərəfindən qətlə yetirilməsindən sonra Qütbəddin Aybək özünü Qurilərin Hindistandakı ərazilərinin sultanı elan etdi (1206-1210). Racputların əlindən alınmış Dehli onun paytaxtı oldu. Aybəkin vəfatından sonra türk əyanları Badaunun keçmiş hakimi və Aybəkin qulamı olan Şəmsəddin Eltutmuşu (1211-1236) sultan elan etdilər. Onun hakimiyyəti illərində – 1229-cu ildə Dehli sultanlığı Bağdad xəlifəsi tərəfindən tanındı.

Dehli sultanlığının ilk onilliklərində onun hərbi əyanlar əsasən Mərkəzi Asiya türklərindən, məmur və dini zümrə isə taciklərdən və xopasanlılardan təşkil olunmuşdu. İslamın sünni təriqəti dövlət dini oldu, fars dili isə dəftərxana, saray tarixşünaslığı və nəzm dilinə çevrildi.

Eltutmuşun ölümündən sonra onun sərkərdələri – qulamları arasında daxili çəkişmələr başladı. On il ərzində Dehli sultanlıq taxtında 4 hökmdar əyləşdi. Onlardan üçü, o cümlədən qızı Raziya, əyanların sui-qəsdinin qurbanı oldu.

1246-cı ildə türk əyanları İltutmuşun kiçik oğlu – Nəsrəddin Mahmudu taxta əyləşdirdilər. Lakin 1246-1265-ci illərdə hakimiyyət faktiki olaraq onun qulamlarından biri olan Qiyasəddin Balabanın əlində idi. O, sonradan taxtı ələ keçirdi.

Qiyasəddin Balaban özünün regentliyi və hakimiyyəti illərində (1265-1287) sultan hakimiyyətinin möhkəmlənməsi və qüdrətli türk feodallarının mərkəzi hakimiyyətə tabe edilməsi uğrunda mübarizə aparırdı. Onun vəfatından sonra feodal qruplaşmaları arasında gedən mübarizə yenidən kəskinləşdi.

Türk əmirləri arasında gedən rəqabət və müharibələrin qalibi Cəlaləddinin başçılıq etdiyi türk əsilli hilci tayfasının sərkərdələri oldular. 1290-cı ilin yazında Cəlaləddin sultan taxtına yiyələndi, lakin Dehlidə müxtəlif qruplaşmalar arasında gedən qızğın mübarizədən çəkinərək, bir neçə ay ərzində bu şəhərə daxil olmadı. 1296-cı ildə qoca Cəlaləddin xilci əyanlarının sui-qəsdi nəticəsində öldürüldü və hakimiyyətə onun kürəkəni Əlaəddin Hilci gəldi.

Əlaəddin (1296-1316) görkəmli hökmdar, istedadlı və cəsarətli idarəçi, bacarıqlı sərkərdə idi. Onun qarşısında duran vəzifələr, əslində onun sələflərinin problemləri ilə eyni idi: Hindistanda türk feodal əyanlarının mövqelərinin möhkəmləndirilməsi və monqol basqınlarının qarşısının alınması. Amma öz sələflərindən fərqli olaraq, Əlaəddin yeni ərazilərin və sərvətlərin ələ keçirilməsini də vacib sayırdı: XIII əsrin sonu – XIV əsrin əvvəllərində qiyamçı feodalları mərkəzi hakimiyyətə dəstək verməyə həvəsləndirmək üçün, feodal qüvvələrinin mərkəzləşməsinə kömək edən tədbirlərə ehtiyac var idi. Bu məqsədlə XIV əsrin əvvəllərində Əlaəddinin qoşunları Qucaratı tutdular və əsas Racput hakimliklərini və qalalarını ələ keçirdilər.

Bütün bunlara baxmayaraq, Əlaəddin tərəfindən yaradılmış böyük imperiya mərkəzləşdirilmiş feodal dövləti deyildi. Məsələn, Qucarat sultanın təyin etdiyi adamlar tərəfindən idarə olunmasına baxmayaraq, Əlaəddinin hakimiyyətinin son illərində burada qiyamlar baş verirdi. Racastaxan tam olaraq fəth olunmamışdı. Racput hakimlərindən yalnız bir neçəsi Dehli sultanlığına xərac verirdi. Benqaliya parçalanmış halda idi və Dehli sultanlığından asılı olmayan hökmdarlar tərəfindən idarə olunurdu. Yalnız Devaqirdəki (Dekan) Yadavlar dövlətini sultan tərəfindən təyin olunmuş adamlar idarə edirdilər. Telinqana və Xoysallar dövləti Dehlinin vassalları idi və müntəzəm şəkildə xərac verirdi.

Özünü uğurlu sərkərdə kimi göstərən, öz silahdaşlarını qızıl və var-dövlət ilə zənginləşdirən Əlaəddin qiyamçı əmirlərə qarşı qəddar və amansız idi, onların üsyanlarını qan içində boğurdu. Onun daxili siyasətinin əsasında vergilərdən azad olan feodal və məbəd mülklərinin dövlət hesabına müsadirəsi, hədiyyə torpaqlar

sisteminin ləğvi dururdu.

Əlaəddinin daxili və xarici siyasəti Dehli sultanlığının möhkəmlənməsinə gətirsə də, həm də əhalinin müxtəlif təbəqələrini ona qarşı çevirdi. «İkinci İskəndər» ləqəbli sultan Əlaəddin 1316-cı ilin əvvəlində Dehlidə vəfat etdi. Onun ölümündən sonra baş vermiş qısa və qanlı mübarizədə oğullarından biri Qütbəddin Mübarək şah (1316-1320) taxta çıxdı. Atasının idarəçilik prinsiplərindən imtina etməsi onun üçün taxtı saxlamağın yeganə yolu idi. O, Əlaəddinin bütün islahatlarını ləğv etdi.

Mübarək şahın hakimiyyəti uzun sürmədi. O, 1320-ci ildə Xosrov xanın başçılıq etdiyi sui-qəsdçilər tərəfindən qətlə yetirildi. Xosrov xan sultan elan olundu. Lakin o, taxtda yalnız bir neçə ay qala bildi. Başçıları Malik Qazi olan türk əyanları Sultan Xosrovun ordularını məğlubiyyətə uğratdılar, özünü isə ələ keçirdilər və edam etdilər.

Qiyasəddin Tuğlaq adı altında taxta çıxan Malik Qazi XV əsrə qədər hakimiyyətdə olacaq Tuğlaqilər sülaləsinin əsasını qoydu. Onun atası olan Cağatay sultan Balabanın qulamlarından, anası isə Pəncabda yaşayan əkinçi catlar kastasından idi.

Qiyasəddin (1320-1325) öz sələflərinin fəal xarici siyasətini davam etdirirdi. Sultan qoşunlarının başçısı olan şahzadə Caunaxan Telinqandakı Kakatyaların paytaxtı Varanqalı tutdu və adını Sultanpur qoydu. Qiyasəddin özü isə Şərqi Benqaliyanı tabe etdi, Qərbi Benqaliyanın hakimini isə 1324-cü ildə vassala çevirdi. Şahzadə Caunaxan yürüşdən qayıdan sultan üçün Dehli yaxınlığında təmtəraqlı görüş təşkil etdi. Mərasim zamanı taxtadan qurulmuş meydança uçdu və Qiyasəddin onun qalıqları altında qalaraq öldü. O zaman Hindistanda olan İbn Batuta iddia edir ki, sultanın ölümü onun oğlu tərəfindən təşkil olunmuş sui-qəsd idi. Şahzadə Caunaxan Məhəmməd şah Tuğlaq (1325-1351) adı altında taxta çıxdı.

Məhəmməd şah böyük bir imperiyanı miras aldı. İmperiyanın genişliyi sultandan böyük ordu və şaxələnmiş mərkəzi və əyalət qurumlarının saxlanılmasını tələb edirdi. Vəsait çatışmaması səbəbindən sultan torpağa əlavə vergi («*əbvab*») qoymağa və döv-

lətin iqtisadi vəziyyətini kəskin ağırlaşdıran mis pulların buraxılmasına məcbur oldu.

Məhəmməd şah hakimiyyətinin son 15 ilini feodal üsyanlarına və şəhərlərdəki təriqətçi hərəkatlara qarşı mübarizədə keçirdi. 1351-ci ildə qiyamçı əmirləri təqib edən sultan Txattuya (Aşağı Sind) gəldi, amma burada gözlənilmədən kəskin qızdırmadan öldü.

Sinddə yerləşən hərbi düşərgədə əyanlar vəfat etmiş sultanın qardaşı oğlu olan Firuzu taxta çıxartdılar. Özünün qırx ilə yaxın davam edən hakimiyyəti dövründə (1351-1388) Firuz şah, demək olar ki, nüfuzlu feodalların əlində oyuncağa çevrilmişdi.

Firuz şah 1388-ci ildə vəfat etdi. Hakimiyyət uğrunda mübarizə yenidən kəskinləşdi. Taxt-taca iddia edən hər kəsi və oyuncaq sultanları müxtəlif qüdrətli feodal qrupları dəstəkləyirdilər. 1394-cü ildə Dehlidə Nəsrəddin Mahmud şah taxta gətirildi. İkicayın və Pəncabın iri feodalları onu sultan kimi tanımadılar və ona qarşı Nüsrət şahı taxta iddiaçı qismində irəli sürdülər.

1398-ci ilin sentyabrında Hind çayının sahillərində Əmir Teymurun böyük qoşunu peyda oldu. Bundan bir qədər öncə Əmir Teymurun qoşunları Multanı ələ keçirmişdilər. Əmir Teymur paytaxt Dehliyə doğru irəlilədi. 17 dekabr 1398-ci ildə baş vermiş döyüşdə sultan Nəsrəddin Mahmud şahın 10 minlik qoşunu məğlub edildi, sultan isə Qucarata qaçdı. Sonrakı gün Əmir Teymurun ordularının yalnız kiçik hissəsini təşkil edən 15 minlik dəstə Dehliyə girdi. Lakin Əmir Teymur burada çox qalmadı və 1399-cu il yanvarın 1-də Dehlini tərk etdi.

Əmir Teymur Dehlidən gedəndən sonra əhalinin tərk etmiş olduğu şəhər Tuğlaqlar sülaləsinin varisləri arasında mübarizə meydanına çevrildi.

1413-cu ildə sülalənin son nümayəndəsi olan Nəsrəddin Mahmud şah vəfat etdi. Onun vəliəhdi yox idi. Növbəti, 1414-cü ildə Xizr xan Dehlini mühasirəyə aldı və ələ keçirdi. Hələ XIV əsrin 90-cı illərinin əvvəlində Multanın hakimi olmuş Xizr xan ona qarşı çıxan feodal qruplaşması tərəfindən oradan qovulmuşdu. 1399-cu ilin əvvəlində o, Hindistandan çəkilən Əmir Teymurun

ordularına qoşuldu və Əmir Teymuru Kəşmirə qədər yola saldı. Nəticədə, Əmir Teymur tərəfindən tutulmuş Lahor və Multan Xizr xanın əlinə keçdi. O, Əmir Teymurun oğlu və vəliəhdi olan Şahruhun bu bölgədəki canişini oldu.

1414-cü ildə Dehlinin Xizr xan tərəfindən tutulması ilə Dehli sultanlığında növbəti – Seyidilər sülaləsinin hakimiyyəti (sülalənin adı rəvayətə görə Xizr xanın Seyidilər nəslinə mənsub olması ilə bağlı idi) başlanır (1414-1451). Xizr xan rəsmən sultan titulunu qəbul etmədi. Onun hakimiyyəti Pəncab, Dehli ətrafındakı bölgəyə və Qanq-Camna cayları vadisinə qədər yayıldı.

Xizr xan (1414-1434) ölümünə yaxın oğlu Mübarək xanı vəliəhd təyin etdi. Mübarək şah hakimiyyətinin 19-cu ilinə qədər öz adına pul kəsdirmədi və Kabilin Teymuri hakiminə bac verdi.

1434-cü ildə Mübarək şah sui-qəsdçilər tərəfindən öldürüldü. Onun xələfi olan Məhəmməd şahın (1434-1445) dövründə əfqan əsilli lodi tayfasına mənsub sərkərdə Bəhlul xan önə çıxdı. 1451-ci ildə o, Seyidilər sülaləsinin sonuncu nümayəndəsi və heç bir real hakimiyyətə sahib olmayan Əlaəddin Aləm şahı (1445-1451) taxtdan saldı.

Bəhlul şah (1451-1489) şöhrətpərəst və istedadlı bir insan idi. O, yaxınları arasında səxavəti ilə tanınırdı, münasibətdə sadə idi, sarayda dəbdəbəni sevmirdi, qəbullar vaxtı isə taxtda deyil, xalçada əyləşirdi. Bəhlul şahın təxminən 40 il davam edən hakimiyyəti dövründə sultanlığının sərhədlərinin genişlənməsi uğrunda aramsız müharibələr aparıldı. 1479-cu ildə o, Caunpuru ələ keçirdi, bir sıra qiyamçı racələri və əmirləri itaətə məcbur etdi.

Bəhlul şahın oğlu İskəndər şah (1489-1517) dəqiq işləyən məlumat xidməti yaratdı, canişinləri və vassal racələri itaətdə saxlamaq üçün əlindən gələn hər şeyi etdi.

1517-ci ildə Dehli taxtına İskəndərin oğlu İbrahim şah əyləşdi. Onun təmtəraqlı tacqoyma mərasimi Hindistanın yeni hökmdarının əfqan tayfa ənənələrindən nə qədər uzaq olduğunu göstərdi.

Sultan yaxınları arasında əfqan əyanlarına öncəki sultanlar kimi üstünlük vermirdi və hesab edirdi ki, hökmdarın qohum və soydaşları ola bilməz, yalnız təbəələri, xidmətçiləri və nökərləri

ola bilər. Bundan əvvəl sultanın hüzurunda otura bilən əfqan əmirləri taxtın yanında əllər sinədə çarpazlaşmış şəkildə durmalı idilər.

İbrahim şahın ən iri hərbi yürüşləri Qvaliur və Mevara qarşı təşkil olunmuşdu.

İbrahim şahın hakimiyyətinin son illərində davamlı feodal üsyanları baş verdi. Amma üsyanlara qarşı aparılan tədbirlər uğur qazanmadı. İbrahim şah rəqiblərini ram edə bilmədi. Onlar isə dəfələrlə Teymurun nəslindən olan Babura müraciət edərək, onu Hindistana çağırır, burada onun asan qələbə qazanacağını vəd edirdilər. 1526-cı ildə Panipat döyüşündə Babur İbrahim-şahı məğlub etdi və Hindistanda Böyük Moğollar sülaləsinin hakimiyyətinin əsasını qoydu.

Dehli sultanlığı dağılandan sonra Aqra-Dehli bölgəsində ölkənin bütün ərazilərini (Hindistan yarımadasının ən cənub hissəsindən başqa) birləşdirən yeni qüdrətli imperiya yarandı. Bu imperiya Hindistanın iqtisadi baxımdan az inkişaf etmiş bölgəsində yaranmışdı. O dövrdə ölkənin iqtisadi cəhətdən ən çox inkişaf etmiş bölgələri qədimlərdən bəri ərəb ölkələri, İran, Malayya, Molukka adaları ilə ədviyyat və parça ticarəti ilə məşğul olan Cənubi Hindistanın sahilboyu əraziləri, Malabar, Qucarat, Koromandel sahilləri və Benqaliya idi. Amma bu sahilboyu bölgələr daxili çəkişmələr nəticəsində parçalanmış vəziyyətdə idilər və hindliləri xarici dəniz ticarətindən sıxışdırıb çıxardan Avropa ticarət şirkətlərinin müdaxiləsi səbəbindən tədricən zəifləyirdilər. Buna görə də, Böyük Moğol imperiyası onların müqavimətini sındıra bildi və özünə tabe etdi.

**Böyük Moğol dövlətinin yaranması**

Böyük Moğol dövlətinin banisi Əmir Teymurun nəslindən olan Zahirəddin Məhəmməd Babur idi. O, öncə Fərqanənin hakimi olmuş, lakin Sibirdən gələn özbəklər tərəfindən oradan qovulmuşdu. Əmir Teymur nəslindən və onun qohumu olan Herat hökmdarı Babura yardım etdi. O, əfqan torpaqlarını ələ keçirdi və Kabildə möhkəmləndi. Babur hesab edirdi ki, yalnız Hindistanı fəth etsə böyük və qüdrətli dövlətin hökmdarı ola bilər. 1518-ci və 1524-cu

illərdə Babur Pəncaba hücum etdi, 1525-ci ilin dekabrında isə Mərkəzi Asiya türklərindən və əfqanlardan yaradılmış güclü qoşunla Hindistana bir daha basqın etdi. Monqollardan əxz edilmiş ildırımsürətli süvari orlusundan və qoşunları bir-birinə bağlı arabaların arxasına yerləşdirmək taktikasından istifadə edən Babur Panipat döyüşündə Dehli hökmdarı İbrahim şah Lodini məğlubiyyətə uğratdı. Bir il sonra Sikri döyüşündə Çitorun hakimi, təcrübəli sərkərdə olan Rana Sanqı və onun racputlardan ibarət qoşununu darmadağın etdi. Bu iki qələbə Şimali Hindistanda Baburun hakimiyyətinin qurulmasını təmin etdi. Bundan sonra o, faktiki olaraq bütün Qanq vadisini ələ keçirdi.

Əfqan dəstələrinin bir hissəsi qənimətləri ilə evlərinə döndü. Hindistanda qalan döyüşçülərə Babur sonradan «*cəgir*» adını almış xidməti torpaq verdi. Yeni sahibkarların bütün təsərrüfat işlərinə əsasən, hindlilərdən təşkil olunmuş yerli adətlərə bələd olan və kəndlilərin verə biləcəyi vergilərin miqdarını təyin edə bilən müdirlər baxırdılar.

Babur 3 il hakimiyyətdə oldu. Ölümündən bir qədər öncə – 1530-cu ildə o, bütün əraziləri oğulları arasında böldü. Böyük oğlu Humayun Şimali Hindistanın hakimi oldu, digərləri Pəncab, Kabil və Qəndəhara sahib oldular. Babur onlara Humayuna tabe olmağı əmr etdi.

Humayun öz torpaqlarını genişləndirmək üçün Qucaratı, Biharı və Racputanın bir hissəsini fəth etməyə cəhd etdi. İlkin uğurlara baxmayaraq, Humayunun mövqeləri möhkəm deyildi. Belə ki, qardaşları ondan asılılıqlarını azaltmağa, müstəqil olmağa və Dehlini fəth etməyə çalışırdılar. Humayunun əsas rəqibi Biharın və Benqaliyanın əfqan feodallarının başçısı Şer xan Sur idi. Biharda baş verən iki döyüşdə Humayun Şer xana məğlub oldu və Hindistandan qaçmağa məcbur qaldı. O, əvvəl Sində qaçdı, sonra isə qardaşları tərəfindən Səfəvilər dövlətinə qədər təqib olundu. Onun tərk etdiyi oğlu Əkbəri isə qardaşı Kabilə – öz yanına apardı.

Şer xan Dehlini ələ keçirdi və şah elan olundu. Onun hakimiyyəti 1540-1545-ci illər arasında davam etmişdir. Bu dövrdə Şer-xanın əsas məqsədi hakimiyyətə gələrkən onu dəstəkləyən

Bihar və Benqaliyanın əfqan feodallarını cilovlamaq oldu. Bu məqsədlə o, cəgirdarlardan (cəgir sahibləri) cəgirin ölçüləri ilə müəyyən edilən sayda muzdlu atlı saxlamağı tələb etdi. Bu döyüşçülər dövlət ordusunun əsas hissəsini təşkil edirdilər. Nəzarət məqsədi ilə Şer-şah cəgirdarların atlarını damğalatdırır və qoşunların mütəmadi baxışını keçirirdi. Şer-şah çalışırdı ki, məhsul vergisinin toplanmasında normaların həddi müəyyən edilsin, kəndlilərin torpaq sahələrinin ölçülməsində və oradan alınacaq məhsulun hesablanmasında vergi toplayanların özbaşınalığına son qoyulsun. Öz muzdlu döyüşçülərinə yalnız pul ilə maaş verən Şer-şah natural vergini pul vergisi ilə əvəz etməyə çalışırdı. O, kəndlilərin müqavimətini və çıxışlarını, feodalların separatçı hərəkətlərini (məsələn, Aqra bölgəsində yaşayan əfqan əsilli niyazilər tayfasının çıxışını) qəddarcasına susdurmuşdu.

Dövlətin ərazilərini genişləndirmək məqsədi ilə Şer şah, öncə Humayun kimi, racput hakimiyyətini özünə tabe edib, Hindistanın zəngin ticarət bölgəsi sayılan qərb sahillərinə çıxmağa can atırdı. Amma 1545-ci ildə racput qalalarından biri olan Kələncərin mühasirəsi zamanı Şer şah öz topundan çıxan mərminin qumbara silah-sursat ambarına düşməsi nəticəsində baş vermiş partlayışda həlak oldu.

Əfqan feodalları arasında hakimiyyət uğrunda mübarizə yenidən gücləndi. Şer şahın kiçik oğlu hakimiyyəti 1554-cü ilə qədər əldə saxlaya bildi. Onun ölümündən sonra taxta iddia edən dörd rəqib arasında amansız mübarizə başladı. Xorasandan türklər, farslar, əfqanlar, türkmənlər və özbəklərdən ibarət çoxmillətli qoşunla gələn Humayun bundan istifadə etdi. O, 1555-ci ildə taxta iddiaçıların qoşunlarını məğlub edərək Dehlini tutdu. Lakin onun hakimiyyəti uzun sürmədi. Bir neçə aydan sonra mərmər pilləkənlərdən yıxılaraq öldü. Oğlu Əkbərin mürəbbisi olan türkmən Bayram xan onu taxta oturtdu, özü isə qəyyum oldu. Moğolların əraziləri bu dövrdə Qanq-Camna çaylarının hüdudlarından uzağa çıxmırdı. Onların əsas rəqibi Surların ordusunun ali baş komandanı Hemu idi. «Aşağı» hindli tacir mənşəyinə baxmayaraq, Hemu istedadlı sərkərdə kimi önə çıxmışdı. O, Dehlini ələ keçirdi və

özünü «Vikramaditya racəsi» adı ilə hökmdar elan etdi. Moğollar ilə 1556-cı ildə baş vermiş həlledici Panipat döyüşündən öncə o, toplarının hamısını itirmişdi və əsas ümidini 5 min döyüş filinə bağlamışdı. Hemu Əkbərin daha çoxsaylı qoşununun cinahlarını əzə bildi, amma o, ox ilə gözündən yaralandı və oturduğu fildən yıxıldı. Sərkərdələrinin öldüyünü düşünən döyüşçülər meydandan qaçdılar və Əkbər şah döyüşün qalibi oldu. Elə döyüş meydanında o, öz sərkərdələrinə torpaq sahələri və şərəfli rütbələr hədiyyə etməyə başladı. Əkbər şahın təqribən yarım əsr davam edən hakimiyyəti dövründə (1556-1605) Böyük Moğollar Şimali Hindistanda möhkəmləndilər.

**Əkbər şahın daxili və xarici siyasəti, imperiyanın zəifləməsi**

İlk illərdə dövlətin faktiki başçısı Əkbərin qəyyumu Bayram xan idi. O, racputlardan Acmiri və Qvaliur qalasını aldı. Böyük Moğolların hakimiyyətini Pəncabda möhkəmləndirdi. Amma Bayram-xan özü şiə olduğundan dövlət vəzifələrini bu məsləkin tərəfdarlarına verir və bununla da sünni saray əyanlarını özünə qarşı qoyurdu. 1560-cı ildə hakimiyyət daxili qruplaşmalardan biri saray çevrilişi etdi. Bayram xan şərəfli sürgünə – Məkkəyə göndərildi, lakin yolda Qucaratda bir əfqan əyanı tərəfindən qətlə yetirildi. Az sonra Əkbər müxtəlif feodal qruplaşmalarını hakimiyyətdən uzaqlaşdırdı, ölkəni özü təkbaşına idarə etməyə başladı. İlk olaraq o, racput racələrinin dəstəyini qazandı, onların qızları ilə nigaha girərək ittifaq bağladı. Amber hakiminin oğulluğu, istedadlı sərkərdə Man Sinqhin başçılığı altında racput süvariləri Böyük Moğolların ordusuna qoşuldu.

Müttəfiq racputların köməyi ilə Əkbər şah müqavimət göstərən digər racput hakimlərini məğlub etdi. 1568-ci ildə Çitoroyi, 1569-cu ildə isə Ranxambxoru və beləliklə, Racputanın əksər ərzailərini ələ keçirdi. Yalnız Mevarın racəsi Partab Sinqh bir qrup silahdaşı ilə dağlara çəkildi və Əkbərə qarşı 20 ildən artıq mübarizə apardı. Əkbərin ordu başçısı Asəf xan öncə Durqavatilərin hakim olduğu iri Qondvana şahlığını tutdu.

Sonra isə hakimlərin iri torpaq sahələrini və xəzinəsini ələ keçirən Asəf xan özünü müstəqil hökmdar elan etdi. O, 1563-cü

ildə Pəncabda Əkbər şaha qarşı separatçı sərkərdələrin qaldırdığı üsyana qoşuldu. Üsyançılar Lahoru ələ keçirdilər və Əkbər şahın Kabildə yaşayan azyaşlı qardaşını hökmdar elan etdilər. Tezliklə onlara nüfuzlu ordu başçıları və mirzə adlanan Sambxal özbəkləri də qoşuldular. Əyanların Əkbər şaha qarşı çıxışlarının və narazılıqlarının əsasında onun hindli racputları önə çəkməsi dururdu. Lakin, üsyançı əyanlar bir-birilə əlaqələr qura bilmədilər və 1567-ci ildə bu üsyan yatırıldı. «Mirzələr» isə feodal çəkişmələrin getdiyi Qucarata qaçdılar. Əkbər şahın qoşunları onları təqib etdi və 1572-ci ildə Qucarat dövləti Böyük Moğollar tərəfindən fəth olundu. Əkbər şah Benqaliyanı iki il ərzində (1574-1576) ələ keçirdi. XVI əsrin 80-ci illərindən XVII əsrin əvvəllərinə kimi Əkbər şah Kəşmiri, Txattunu, Xandeşi, Orissa və Ahmadnaqara ərazilərini öz dövlətinə qatdı.

Böyük Moğol dövləti böyük və qüdrətli imperiyaya çevrildi. Burada mürəkkəb inzibati idarəçilik sistemi yarandı.

Böyük Moğol dövlətinin əsas qurumlarından biri maliyyə idarəsi idi, onun başında divan dururdu, vergi toplayan məmurlar isə əsasən hind əsilli idilər. Orduda baş *intendant*[1] («*mir*») və xəzinədar («*baxşi*») döyüşçülər və onların təchizatı ilə məşğul idilər. Qalan məsələləri öz dəstələrinə başçılıq edən sərkərdələr həll edirdilər. Baş sədrin idarəsi dini məsələlərə baxırdı. Sədr müsəlmanların cinayət və vətəndaş iddialarına baxan hakimləri təyin edir, soyurqalların paylanmasına nəzarət edirdi. Bölgələrdə və mahallarda biri digərini nəzarətdə saxlayan və istənilən separatçılığın yaranmasını önləyən iki paralel hakimiyyət – mülki və hərbi hakimiyyət fəaliyyət göstərirdi.

**Böyük Moğol imperiyasında sosial-iqtisadi münasibətlər**

Böyük Moğol imperiyasının əhalisi müxtəlif xalqlar və tayfalardan ibarət idi. Onlar fərqli dillərdə danışır, fərqli ictimai inkişaf səviyyələrində durur, kasta sədləri və dini baxışlara görə bir-birindən ayrılırdılar. Amma əhalinin böyük qismi kənd icmasının dar çərçivəsində yaşayırdı və hansı

[1] *İntendant* – orduda və qoşun hissələrində təsərrüfat işləri ilə məşğul olan şəxs

dövlətin təbəələri olması onları maraqlandırmırdı. Kəndlilər dövlətə torpaq vergisi formasında renta verirdilər. Hökumətin bu vergilərin davamlı gəlməsinə maraqlı olmasına baxmayaraq, nə dövlət, nə də feodallar əkinçilərin təsərrüfat məsələlərinə müdaxilə etmirdilər. Torpaqdan toplanan vergi o qədər ağır idi ki, kəndlilər bəzən onu ödəməkdən imtina edir və müqavimət göstərirdilər. Ona görə də, bəzən vergini ordu toplamalı olurdu. Məhsulun 1/3-i dövlətin payı elan olunmuşdu.

Torpağın becərilməsi dövlət mükəlləfiyyəti idi və vergi yığanlara tapşırılmışdı ki, bütün yararlı torpaqların əkilməsinə nəzarət etsinlər. Vergi toplanmasının tənzimlənməsi üçün Əkbər şah bütün şumlanmış torpaqların ölçülməsini təşkil etmişdi, həmin ölçmələr sıxılan və dartılıb uzanan iplə deyil, bambuq şüvülü ilə edilirdi.

Kənd icmasına torpaqda çalışanlar (tamhüquqlu icma üzvləri və gəlmələr), vəzifəlilər (rəis və katib), habelə, icma məhsulundan pay və ya xırda, vergi alınmayan torpaq sahəsi alan icma sənətkarları və xidmətçilər daxil idilər. Dövlət kəndin vəzifəli şəxslərinə öz icmalarında vergilərin yığılıb toplanmasını tapşırırdı. Kənd vergiləri tam verirdisə, onun kəndxudası əkinə yararlı torpaqların 1/40 hissəsinin vergi verməyən sahibkarına çevrilirdi. Beləliklə, kəndxuda həm icmanın üzvü, həm də dövlət xidmətində olan şəxs olurdu.

Əkbər şahın göstərişi ilə mərkəzi bölgələrdən toplanan vergilərin pulla yığılması kəndlilərin durumuna ciddi təsir etmişdi. Hindistan kəndlisi öz mallarını satmaq üçün daha tez-tez bazara müraciət etməli olur və bununla da tacir və sələmçilərdən daha asılı vəziyyətə düşürdü. Əkbər şahın bir sıra kiçik vergiləri ləğv etməsinə baxmayaraq, feodallar bu vergiləri öz xeyirlərinə toplamağa davam edirdilər.

Vergi ödənilməsindən əlavə, kəndli lazım gəldikdə dövlət hesabına pulsuz işləməli idi. Bu mükəlləfiyyət *«began»* adlanırdı və əsasən, şəhərlərin, qalaların və yolların inşası məqsədi daşıyırdı.

Feodalizm dövründə Hindistanda yeni yaranmış hər bir dövlət ilk növbədə, özünün torpaq üzərindəki mülkiyyətinin möhkəm-

lənməsini təsbit etməyə çalışırdı. Dövlət torpaqlarının olması xəzinəyə vergi-rentanın yığılmasını və bu torpaqların ordunun əsas hissəsini öz hesabına saxlayan əyanlara şərti torpaq şəklində verilməsini mümkün edirdi. Güclü ordu daxili çaxnaşmaların yatırılması, xarici düşmənlərdən qorunması və yeni torpaqların işğalı üçün lazım idi. Qeyd edək ki, feodallar gücləndikcə onlara şərti verilən torpaqları xüsusi mülkiyyətə çevirməyə çalışırdılar. Dövlət və feodalların xüsusi mülkiyyəti arasında mübarizə bütün feodalizm dövrü ərzində davam edirdi.

Böyük Moğol imperiyasında torpağın iki dövlət mülkiyyəti forması mövcud idi: *xalisə* və *cəgir*.

Bütün fəth olunmuş torpaqlar xalisə adlanan dövlət torpaq fonduna keçirdi. Hökmdar həmin fonddan cəgirlər paylayır, müxtəlif din xadimləri və ruhanilərə pay verirdi. Xalisə fondunun bu şəkildə dəyişməsi və sabit olmaması onun real ölçüsünü müəyyənləşdirməyə imkan vermirdi. Xalisə – tam olaraq dövlətin ixtiyarında olan bir torpaq mülkiyyəti forması idi.

Cəgir şərti torpaq mülkiyyəti forması idi. Cəgir alan torpağın ölçüsünə müvafiq olaraq müəyyən döyüşçü dəstəsi saxlamalı idi. Bu dəstələrdən hökmdarın ordularının əsas hissəsi təşkil olunurdu. Cəgir kimi verilən torpaq dövlətin mülkiyyəti sayılmaqda davam edirdi. Cəgirdən toplanan torpaq vergisinin ölçüsü, forması və üsulu cəgirdar tərəfindən deyil, dövlət tərəfindən müəyyən olunurdu. Cagirdarın şərti mülkiyyəti adətən irsi deyildi və onun ölümündən sonra yenidən xəzinəyə keçirdi. Cəgirdardan bir torpaq sahəsi alınıb, ölkənin başqa hissəsində yerləşən digər torpaq sahəsi ona cagir kimi yenidən verilə bilərdi. Əkbər şahın dövründə separatçılığın qarşısını almaq məqsədi ilə belə yerdəyişmələr həmişə baş verirdi və cəgirdar bir torpaq payına 10 ildən çox sahib olmurdu.

Eyni zamanda, cəgir torpaq payları bəzi xüsusiyyətləri ilə də seçilirdi. Belə ki, iri cəgirdar dövlət xidmətinə (yəni, qoşunların saxlanmasına) yığdıqları torpaq vergisinin 1/3-ni, xırda cəgirdarlar isə yarısından az hissəsini xərcləyirdilər. Əkbər şahın dövründə tabe olmuş racələrə öz torpaqlarını cəgir formasında geri qayta-

nırdılar və belə cəgir adətən irsən keçirdi. XVII əsrdə hətta «irsi cəgir» termini geniş yayılmışdı.

Adətən cəgir 10 minlərlə hektarı əhatə edən iri mülkiyyət idi. Əkbər şahın hakimiyyəti dövründə cəgirdarlar öz mövqelərindən çox sui-istifadə edirdilər. Odur ki, XVI əsrin 70-ci illərinin sonu – 80-ci illərinin əvvəllərində Əkbər şah cəgir sistemini ləğv edib, xidmət müqabilində məvacibi pul ilə verməyə cəhd göstərdi. Nəticədə, Pəncab cəgirdarları üsyan qaldırdılar və Əkbər şahın ordu komandanı Şahbaz xan bu bölgədə olan bütün xalisə torpaqlarını cəgir torpaqlarına çevirdi. O, Əkbər şaha deyirdi: «Mən döyüşçüləri bu yolla sakitləşdirməsəydim, onlar birləşib üsyan edərdilər. İndi isə həm dövlət, həm də ordu bizim arxamızdadır».

Böyük Moğol imperiyasında həm də feodalların xüsusi torpaq mülkiyyəti – zəmindarlıq mövcud idi. Zəmindarlar Böyük Moğol imperiyasının vassal asılılığını qəbul edən və müvafiq olaraq xərac verən racə və xırda hakimlər idilər. Moğolların vergi idarəsi zəmindar və onun kəndliləri arasındakı münasibətlərə müdaxilə etmirdi. Zəmindar kəndlidən torpaq vergisi almırdı. O, kəndlilərdən məhsul rentası toplayırdı və ənənələrə uyğun olaraq, onun ölçüsü və toplama vasitəsini seçirdi. Bihar, Orissa və bəzi başqa bölgələrdə zəmindarlar biyar əməyinə əsaslanan malikanə təsərrüfatı yaradırdılar. Zəmindarların mülkləri rəsmən irsi idi. Böyük Moğol imperiyasında zəmindarlığın olmadığı yeganə yer imperiyanın mərkəzi bölgəsi olan Doab idi.

Böyük Moğol imperiyasında mülk, vəqf və ya inam, soyurqal torpaq mülkiyyəti növləri də mövcud idi. Soyurqallar adətən sufi şeyxlərinə və müsəlman ilahiyyatçılarına, bəzi hallarda isə dünyəvi şəxslərə verilirdi. Əkbər şah dövründə onun dini siyasəti ilə bağlı olaraq, soyurqallar digər dinlərin nümayəndələrinə də verilirdi. Soyurqal adətən, irsən keçən kiçik torpaq sahəsi idi. Onun sahibi heç bir vergi ödəmir və mükəlləfiyyət daşımırdı, yalnız hökmdarın adına dualar oxumalı idi. Dövlət torpaqları ilə nisbətdə soyurqal torpaqları cəmi 3%-ə yaxın idi.

Kənd icmasında sənətkarlar da vardı və onlar tələb olunan əşyaları düzəldir, əvəzində isə icmadan məhsulun bir hissəsini və

ya vergi ödəməyən kiçik torpaq sahəsi alırdı. Amma şəhərlərdə və sənətkarlıq qəsəbələrində yaşayan sənətkarların böyük qismi ya feodal sifarişçiyə, ya da bazara işləyirdi.

Hindistanda sənətkarlığın ən inkişaf etmiş sahəsi parça istehsalı idi. Ölkədə pambıq və ipək, naxışlı və güllü, rəngli və rəngsiz parçalar istehsal olunurdu.

Aqrada müxtəlif peşələr üzrə inşaatçılar, Qucaratda – *inkrustasiya*[1] ustaları, Benqaliyada – gəmi inşaatçıları məşhur idi. Bundan başqa, Hindistanda dəmir, qiymətli daşlar, tikinti üçün daş, duz və selitra hasil olunur, kağız, zərgərlik əşyaları istehsal olunur, bitki yağları və şirniyyatlar hazırlanırdı. Hind sənətkarlarının ən yaxşı məhsulları qədimdən bəri incəliyi və mükəmməlliyi ilə seçilirdi. Eyni zamanda, Hind sənətkarları ləng işləyirdilər. Belə ki, onların əmək alətləri sadə idi və özləri tərəfindən düzəldilirdi. Amma o da məlumdur ki, toxucu dəzgahının ən mürəkkəb hissəsi – *berdo* (toxumanın ilk sapları onun vasitəsi ilə keçirilirdi) satış üçün istehsal olunurdu. Bu, sənətkarlıq istehsalatının inkişafının göstəricisi idi.

Kastalarda birləşən sənətkarlar kasta başçısını və sənətkarlıq məhsullarını bazarda satan makleri («dəllal») təyin edən feodal hakimiyyətindən asılı idilər. Dövlət emalatxanalarında («karxana») işləyən, ordu üçün təchizat, habelə hökmdar və onun yaxınları üçün məhsullar istehsal edən sənətkarlar daha asılı halda idilər.

İmperiyada ən fəal xarici ticarət Benqaliya və Qucaratda aparılırdı. Qucarat tacirlərinin Ərəbistan və Fars körfəzi ilə qədimdən bəri mövcud olan əlaqələri XVI əsrin əvvəlində Hindistanla dəniz ticarətində öz inhisarını yaratmağa can atan portuqallar tərəfindən pozulmuş, amma tam qırılmamışdı. Portuqallar Hind tacirlərinin işgüzar səriştələrindən və əlaqələrindən istifadə etməyə çalışırdılar. Bunun üçün onlar XVI əsrin ortalarından hindli tacirlərlə ticari tərəfdaş qismində əməkdaşlıq etməyə başladılar. Benqaliyalılar əsasən, şərqlə, o cümlədən Pequ və Molukka adaları, Seylon, Malabar və Koromandellə dəniz ticarəti aparırdılar.

---

[1] *İnkrustasiya* – başqa bir material üzərinə qaxılan sədəf, sümük, qiymətli daş və s.-dən ibarət bəzək.

Moğolların portuqalları Qucarat və Damanadakı istehkam şəklinə salınmış limanlardan çıxarmaq cəhdləri puça çıxdı. Amma, Böyük Moğol dövləti ticarət rüsumlarından xeyli mənfəət alırdı və buna görə də, avropalı tacirlərə ikili münasibət göstərirdi. Bir tərəfdən xarici tacirlərin təsirini azaltmağa çalışılır, o biri tərəfdən isə onlara müstəsna imtiyazlar verirdi.

Portuqalların dənizdə hind tacirlərinə yaratdığı maneələr qonşu ölkələrlə karvan ticarətini dirçəltdi. Karvan yolları daxili ticarətə də xidmət edirdi. Onlar Benqaliyadan Lahora, Qucaratdan Kəşmirə qədər bütün ölkə ərazisindən keçirdi.

Ölkənin mərkəzi bölgələrindəki tacirlər sahilyanı bölgələrin tacirləri qədər zəngin deyildilər.

**Xalq hərəkatları**

XVI əsrdə «bidətçi» dini təlimlərin pərdəsi altında anti feodal xalq çıxışları baş verirdi və bu çıxışlar-vahid bir hərəkatda birləşməyərək, lokal xarakter daşıyırdı.

Pəncabda tacir və sənətkar təbəqələrinin içində bhakti ideyalarından bəhrələnən sikhizm geniş vüsət almışdı. Sikhizmin banisi Nanak (1469-1538) idi. Sikhlər kasta ayrıseçkiliyinə və dini adətlərə (həm hinduist, həm də müsəlman) qarşı çıxır, dünyəvi fəaliyyətdən imtina edilməsini tələb etmir və təriqətin daxilindəki kasıblara yardım edirdilər. Təriqətin başçısı – «quru»ya qeyd-şərtsiz itaət sikhlərin əsas vəzifəsi sayılırdı. Sikhlərin dördüncü qurusu olan Ramdas dövründə (1574-1581) onlar Amritsar ətrafında torpaq sahəsinə yiyələndilər, burada məbəd tikdilər və müqəddəs nohur qazdılar. Ramdas müvəkkilləri vasitəsilə mütəmadi olaraq ianələri toplayırdı. Ondan sonrakı quru Arcan (1581-1606) isə bu könüllü ianələri sikhlərə məxsus torpaqlarda yaşayan bütün əhalidən toplanan evbaşı vergisi halına gətirdi.

Benqaliyada vaiz bhakti Caytanya (1468-1534) tərəfdarları böyük nüfuza malik idilər. O, tərkdünyalığa və Krişna simasında Tanrıya fövqəladə pərəstişə çağırırdı. Caytanyanın ölümündən sonra onun tərəfdarlarının feodal cəmiyyətinə qarşı etirazları mistik-şəhvani ayinlər halına keçdi.

Racputanda bhakti Dadu (1544-1603) Racput əyalətlərini do-

laşır, insanları təvazökarlıq, həlimlik və məhəbbətə çağırırdı. Şimali Hindistanda hind dilində danışan bütün əhali tərəfindən tanınan «Ramayana» poemasının (1575) müəllifi Tulsi Das da böyük şöhrət qazanmışdı. Tulsi Das kasta ayrıseçkiliyinə qarşı çıxır, onu əhatə edən dünyanın yalanlarını və zülmünü tənqid edirdi. Amma o, çıxış yolunu Ramanın timsalında tanrı ilə mistik vəhdətdə görürdü.

Müsəlmanlar arasında bəzən Şer şahın oğlu İslam şahın dövründə mehdiçilik hərəkatları baş verirdi. O zaman mehdiçilər Doabdakı Biana və Hindiya mahallarını ələ keçirmişdilər. Şəhər əhalisi, kəndlilər və müxalif mövqeli feodallar mehdiçilərə qoşuldular. Bu hərəkat, çətinliklə olsa da, 1549-cu ildə yatırıldı. 1573-cü ildə Dehli və Pəncabda yenidən başlayan hərəkat isə üsyana çevrilə bilmədi.

Əfqan tayfaları və ilk növbədə, yusufzailər müsəlman təriqəti olan rövşanilərə qoşuldular. Onun banisi olan Bəyəzit Ənsəri həm feodallaşan əfqan əyanlarına qarşı, həm də Böyük Moğol imperiyasının zülmünə qarşı çıxırdı. 1585-1600-cu illərdə Əkbər şah Hindistan və Kabil arasındakı dağ keçidlərini ələ keçirən rövşanilərə qarşı bir neçə cəza dəstəsi göndərdi, amma ağır məğlubiyyətə uğradı. Sonda o, əfqan-rövşanilərin müqavimətini qırdı, lakin onun ölümündən sonra rövşanilər yenidən üsyan qaldırdılar.

Əkbər şahın tədbirlərinin əsas məqsədi hakimiyyətin sosial bazasının genişlənməsi və dini zülmün azaldılması vasitəsi ilə öz sülaləsinin və müsəlman feodalların hakimiyyətini möhkəmləndirmək idi.

Əkbər şah 1574-cü ildə feodal zümrələri daxilində münasibətləri nizamlamaq üçün vəzifə (mənsəb) iyerarxiyasını tətbiq etdi. O, ordu başçılarına cəgirləri onların rütbəsinə (zat) əsasən verməyə başladı. Amma cəgirdarlar qaydalardan yan keçmək üçün vasitələr tapırdılar və döyüşçü dəstələri saxlamaq üçün tələb olunandan az vəsait sərf edirdilər. Əkbər şah bunu qanuniləşdirdi və yeni təsnifat (savar) sistemini tətbiq etdi. Zat rütbə olaraq qalırdı, savar isə rütbə sahibinin nə qədər süvari saxlamalı olduğunu göstərirdi. Cəgirin ölçüsü həm zatdan, həm də savardan asılı olurdu.

Nəticədə, pay verilən torpaqların sayı artdı, dövlət torpaq fondu olan xalisə isə azaldı. Onda Əkbər şah cəgirlərin ləğvi fikrinə gəldi. Salnamələrin məlumatına görə, 1574-cü ildə o, 3 sınaq ili ərzində «bütün dövlət torpaqlarının xalisəyə keçməsi, ordu komandanlarına isə maaş verilməsi»ni qərara aldı. Torpaq vergisinin yığılması, öncədən böyük məbləğdə girov pul verən məmurların – «kururilərin» öhdəsinə buraxılırdı. Bu tədbir torpaq sahələrini itirmiş cəgirdarların ciddi müqavimətinə səbəb oldu, kəndlilər isə müflisləşdilər. 3 il müddətində işləyəcəklərini bilən kururilər girovu ödəmək və gəlir əldə etmək üçün kəndlilərin əlindən hər şeyi alırdılar. Bu zəmində vəziyyət çox ağırlaşdı. Nəticədə, həmin sistem ləğv olundu.

Sərhəd məntəqələrində və çay keçidlərində alınan rüsumlar 1,5% qədər endirildi və bütövlükdə, Moğol imperiyasında vahid çəki və pul sistemi tətbiq olunmağa başladı.

Əkbər şahın dini islahatlarının məqsədi digər islahatlarının məqsədləri ilə üst-üstə düşürdü – o, hakimiyyətinin sosial bazasını genişləndirmək istəyirdi. O, hindliləri digər dinlərin nümayəndələrinin əzilməsi hesabına deyil, onların özlərinin dini adətlərinə hörmətlə yanaşmaqla özünə cəlb etmək istəyirdi. Buna görə də 1563-cü ildə hindli zəvvarlardan toplanan vergi, bir il sonra isə cizyə ləğv edildi. Doğrudur, bu vergilər müsəlman cəgirdarların təzyiqi altında bərpa olundu. Lakin XVI əsrin 80-ci illərində yenidən ləğv edildi.

Mömin müsəlman əyanların yeni dini siyasətə qarşı müqavimət göstərməsi Əkbər şahı ortodoksal islamın ehkamlarının doğruluğuna şübhə ilə yanaşmağa vadar etdi. 1575-ci ildə o, Fathpur-Sikridə müzakirələr üçün Dua Evi tikdirdi. Nəticədə, Əkbər şah ortodoksal islamdan daha da uzaqlaşdı, hindlilərin, parsların, caynların və xristianların etiqadları ilə maraqlanmağa başladı. Onun xahişi ilə Goadan üç yezuit missiyası göndərildi. Əkbər şah sarayda hindlilərin və parsların adətlərini tətbiq etməyə başladı. 1580-ci ildə müsəlman ordu sərkərdələri və ruhanilər iri-miqyaslı və təhlükəli üsyana qalxdılar. Üsyan çətinliklə yatırıldı. Aqraya qalib kimi qayıdan Əkbər şah 1582-ci ildə yeni dini tətbiq

etməyə başladı. Bu din «din-i ilahi» («ilahi inam») adlanırdı və Hindistanda olan bütün dinlərin «məntiqə uyğun» elementlərini birləşdirməli idi. Əkbər şah saray nümayəndələrini bu dinə cəlb etməyə çalışırdı. Ancaq süni yaradılmış bu din yalnız xalq kütlələrinin arasında tərəfdarlarını tapdı. Əkbər şahın ölümündən sonra «din-i ilahi» yalnız kiçik bir təriqət şəklində yarım əsrə yaxın bir müddətdə yaşadı.

XVI əsrin 60-cı illərində Əkbər şah öz xarici yürüşlərini bərpa etdi. 1563-cü ildən 1599-cu ilə qədər ən yaxşı sərkərdələrinin və Əkbər şahın iki oğlunun başçılığı altında Böyük Moğol orduları Ahmadnaqarı mühasirəyə aldılar. Oranın hakimi özünü moğolların vassalı elan etməyə məcbur oldu. Onun ərazilərinin böyük hissəsi, o cümlədən Dövlətabad Böyük Moğol imperiyasının tərkibinə qatıldı. Bundan sonra, Əkbər şahın başçılığı altında moğol qoşunları iki il ərzində Xandeş mahalının paytaxtı Asirqarxı mühasirədə saxladılar. Asirqarx 1601-ci ilin yanvarında təslim oldu. Bu müharibələrdə Böyük Moğol imperiyasının zəifləməsi özünü göstərdi. Zəifləmənin səbəbinə gəlincə, o, bir tərəfdən feodal qruplaşmalarının törətdikləri iğtişaşlarla bağlı olsa da, o biri tərəfdən orduda nizam-intizamın pozulmasında, ordu başçılarının eyş-işrətə qurşanmasında idi.

Əkbər şahın üç oğlundan ikisi müharibə vaxtı Dekanda alkoqol zəhərlənməsindən öldü, böyük oğlu Səlim isə Allahabadda məskunlaşaraq özünü müstəqil hakim elan edib, burada əxlaqsız həyat tərzi sürürdü. 1602-ci ildə Əkbər şah öz məsləkdaşı və tarixçisi Abu-u-Fəzli Dekana çağırdı. Fəzl yolda öldürüldü.

Ən yaxın dostunun öldürülməsi Əkbər şahı sarsıtdı. O, ciddi xəstəliyə düçar oldu və 1605-ci ildə vəfat etdi. Oğlu Səlim Cahangir adı ilə taxta çıxdı.

**Avropalıların Hindistana müdaxiləsinin başlanması**

Hindistan və Avropa arasındakı ticarət əlaqələri hələ qədim zamanlardan bəri mövcud idi. Hindistanda istehsal olunmuş məhsullar Qırmızı dəniz və karvan yolları vasitəsilə Genuya və Venesiyaya çatdırılırdı. Amma XV əsrin sonunda yüksəliş dövrünü yaşayan Portuqaliya dövləti Hindistana dəniz yo-

lu axtarmağa başladı və 1498-ci ildə Vasko da Qamanın gəmiləri Afrikanı dolanıb Kəlkutə gəldilər.

Məlum oldu ki, Avropanın təklif edə biləcəyi mallar Hindistan üçün cəlbedici deyil. Məsələn, mahud parçalar Hindistan istisində yararsız idi və yaxud sənətkarlıq məhsulları hindlilər üçün çox sadə və kobud görünürdü. Portuqallar şərq malları ilə ticarəti ələ keçirmək istəyirdilər. Lakin bunun üçün həmin işlə qədimdən məşğul olan şərq tacirlərini sıxışdırıb aradan çıxartmaq lazım idi. Portuqallar bütün yad gəmiləri dənizdə zəbt etməyə, malları ələ keçirməyə, gəmi heyətini isə dənizdə batırmağa başladılar. Onlar düşmən saydıqları limanlara hücum edir, şəhərləri talan edir və əhalini yaşa və cinsə baxmadan qırırdılar.

Qoanın 1510-cu ildə işğalı portuqalların siyasətində yeni dövr açdı. Onlar Hörmüzdən Makaoya qədər məskənlər yaratmağa başladılar. Qoa isə onların şərqdəki ərazilərinin mərkəzinə çevrildi. Portuqallar Hindistanın qərb sahillərində Diu, Daman, Basseyn və Salsettanı, şərq sahillərində San Tome və Neqapatamı, Benqaliyada isə Satqaonu və Xuqlini zəbt etdilər. Quruda bir-birindən uzaqda yerləşən bu məskənlər arasında əlaqə dəniz vasitəsi ilə təşkil olunurdu. Portuqalların fəaliyyəti nəticəsində hind mallarının satış bazarları xeyli genişləndi. Hindli tacirlər isə bu ticarətdən əhəmiyyətli dərəcədə uzaqlaşdırıldılar.

XVI əsrin sonlarında Hind okeanına ingilis və holland gəmiləri gəlməyə başladılar. Bu iki gənc kapitalist dövləti Portuqaliyanın bölgədəki qüdrətini sarsıtdı. Hindlilər də öz növbəsində, portuqal işğalçılarını sıxışdırmağa başladılar. XVIII əsrin 30-cu illərində portuqallar Hindistan ərazisində yalnız Qoa, Diu və Damanda qala bildilər.

Portuqal tacirlərindən fərqli olaraq, ingilis və holland tacirləri Hindistanın içərilərinə girməyə çalışırdılar. Onlar Aqrada, Dakkada, Patnədə və daxildə yerləşən digər mərkəzlərdə öz ticarət faktoriyalarını yaratdılar. XVIII əsrin sonlarına doğru Hindistandakı Avropa şirkətlərinin rəqabətində ingilislər qalib gəldilər, hollandlar isə İndoneziyada möhkəmləndilər.

# MONQOLUSTAN ORTA ƏSRLƏRDƏ

**XIII əsrin əvvəllərində monqol cəmiyyətinin inkişafı və vəziyyəti**

XIII əsrin əvvəllərində Mərkəzi Asiyadan gəlmiş köçəri tayfalar silah gücü ilə o dövrün mədəni dünyasının böyük hissəsini zəbt edərək, Sakit okeandan Qara və Aralıq dənizlərinə qədər olan böyük ərazidə öz hakimiyyətlərini yaratdılar. Monqol və ya tatar işğalı adı ilə tanınan köçərilərin bu hərəkəti dünya miqyaslı tarixi əhəmiyyət kəsb edən hadisə sayılır.

Asiyada XIII əsrin birinci rübündə mövcud beynəlxalq vəziyyəti və yeni yaranmış Monqol imperiyasının apardığı uğurlu işğalların səbəblərini anlamaq üçün monqol cəmiyyətinin həmin dövrdə vəziyyətinə nəzər salaq.

XI-XII əsrlərdə qərbdə İrtış çayının yuxarı axarından Amur çayının yuxarı axarı və Böyük Xinqan dağ silsiləsinə qədər uzanan geniş ərazilərdə eyni dilin fərqli ləhcələrində danışan tayfalar yaşayırdılar. Bu tayfaların ümumi adı yox idi. Ən böyük uluslar, yəni tayfa birlikləri aşağıdakılar idi: İrtış çayının yuxarı axarlarında və Altay dağlarında köç edən naymanlar, Orxon və Tola cayları arasında köç edən kereitlər, Selenga çayı və Baykal gölünün arasındakı meşəlik bölgələrdə köç edən merkitlər, Onon və Kerulen cayları arasında köç edən taycuitlər, Qobi səhrasından cənub-qərbdə, Çinin sərhədlərinə qədər uzanan ərazidə məskunlaşan tatarlar və Böyük Çin səddi boyu yaşayan onqutlar.

Ən güclü tayfa olan tatarların adı ilə qonşular bu tayfaları, o cümlədən sonralar monqol kimi tanınacaq tayfaları tatar və yaxud əsil tatarlardan fərqləndirmək üçün «qara tatarlar» adlandırırdılar. «Monqol» sözü o zamanlar hələ məlum deyildi.

Monqol tayfalarına gəlinjə, onlar iki hissəyə bölünürdülər: *meşələrdə yaşayanlar* – ovçuluq və balıqcılıqla məşğul olanlar və *köçərilər* – heyvandarlıqla məşğul olanlar. Köçərilər mal-qaraları ilə qışda çöllərə, yayda yaylaqlara köç edirdilər. Onlar iri buynuzlu mal-qara, qoyun, keçi, at bəsləyirdilər. Çarxlar üzərində qurulan, öküzlər qoşulmuş, böyük, keçədən düzəlmiş çevrə formalı yurtalarda, çadırlarda insanlar ildə bir necə dəfə otlaqdan-otlağa

köçürdülər. Həyat üçün lazım olan hər şeyi onlara maldarlıq və ovçuluq verirdi.

Keçmişdə bu tayfalar icma quruluşunda yaşayırdılar. Qəbilə bir yerdə köç edirdi, dayanacaqda çadırlar çevrə formasında quraşdırılırdı, başçının çadırı isə çevrənin mərkəzi rolunu oynayırdı. Bu cur köç həlqə mənası daşıyan «kürən» adlandırılırdı.

XI və XII əsrlərdə qəbilələr daxilində böyük sürü sahibləri olan varlı və adlı-sanlı ailələr meydana çıxmağa başladı. Onlar ailə icmalarında – aillərdə birləşirdilər. Bu zəmində kürən köç sistemi ail sistemi ilə əvəzləndi. Qəbilələrdə fərqlənmə halları getgedə artırdı və kasıb qəbilə üzvlərinin varlı və adlı-sanlılardan asılılığı güclənirdi. Bunun nəticəsi kimi, XIII əsrin əvvəllərində Monqol Çölündə erkən feodal cəmiyyəti formalaşırdı. Qəbilə quruluşunun bütün atributlarının saxlanılmasına baxmayaraq, indi bu patriarxal pərdə altında yeni ictimai münasibətlər – feodal münasibətləri meydana gəlirdi.

Köçərilərin böyük qisminin mal-qarası var idi. Onlar bu və digər formada ail təsərrüfatında iştirak edirdilər. Sıravi köçərilər isə patriarxal qəbilədaxili yardım pərdəsi altında ail daxilində müəyyən mükəlləfiyyətlər yerinə yetirirdilər. Arat adlanan bu insanların əsas məşğuliyyəti *noyon* adlanan feodalların sürülərini otarmaq idi. Bundan əlavə, aratlar sahiblərinə kəsilmək üçün xırda mal-qara verir, feodalların qərargahına müəyyən sayda sağmal madyan göndərir və sürək ovlarında sürəkçi rolunu oynayırdılar.

İcma sisteminin dağılması qəbilə və tayfalar arasında otlaqlar, qullar, mal-qara və digər hərbi qənimət uğrunda mübarizəni aramsız edirdi. Məğlub qəbilə və tayfalar qaliblərdən asılı vəziyyətə düşürdülər.

Bu cəmiyyətdə əsirlər – qullar var idi, lakin quldarlıq istehsalın əsasını təşkil etmirdi.

Uğurlu köçəri feodalların – xanların, noyonların, bahadurların ətrafında əvvəlcə döyüşçü funksiyasını yerinə yetirən nökərlər (sadiq dost) cəmləşirdi. Sonradan onlar vassallara çevrilir və feodalın – xanın ordusunda xidmət edirdilər. Nökərlər öz xanları ilə

bir yerdə ova gedir, basqınlarda və hərbi qənimətin bölünməsində iştirak edir, xanın mühafizəsini təşkil edir, ziyafətlərində iştirak edir, sülh dövründə onun mal-qarasına baxır, vacib qərarların qəbulunda məsləhət verirdilər.

Öncədən formalaşan tayfa birlikləri – uluslar bu dövrdə dövlət qurumlarına çevrildilər. «Ağ» tatarların, kereitlərin, taycuitlərin, merkitlərin, naymanların böyük tayfa birliklərindən başqa, kifayət qədər kiçik tayfa birlikləri də mövcud idi. Bu uluslar arasında daima müharibələr gedirdi.

Yuxarıda deyilənləri belə yekunlaşdırmaq olar ki, XIII əsrin başlanğıcında sözügedən bölgədə feodal münasibətləri özünün erkən dövründə idi. Feodalizmin tam qələbəsi və asılı aratların təhkimlilərə çevrilməsi Monqol imperiyası yaranandan sonra baş verdi.

Bölgə tayfalarının mədəni inkişaf səviyyələri də eyni deyildi. Meşələrdə yaşayan tayfalar geridə qalmışdılar. Onların əlifbaları belə yox idi. Mədəni cəhətdən ən inkişaf etmiş olan tayfa – naymanlar uyğur əlifbasından istifadə edirdilər. Naymanların qonşuları olan, Şərqi Türküstanda (indiki Sincan) yaşayan uyğurlar o dövr üçün kifayət qədər yüksək mədəniyyətə sahib idilər və onların özlərinə məxsus yazıları var idi.

Tayfaların böyük əksəriyyətinin dini *şamanizm* idi. Əsas tanrı olaraq «əbədi mavi səma» qəbul olunurdu, yer tanrısına və müxtəlif ruhlara da ibadət olunurdu. Onlar inanırdılar ki, şamanlar ruhlarla münasibətə girir, onları ovsunlayır, təhlükəli anlarda onlardan kömək ala bilirlər. Lakin, naymanların bir qismi uyğurlar vasitəsi ilə buddizmi və xristianlığın nestorianlıq qolunu qəbul etdilər. Bu iki dini axın uyğurlar arasında çox yayılmışdı. Kereitlərin zadəganları da hələ XI əsrin əvvəlində uyğurlar vasitəsi ilə xristianlığın nestorianlıq qolunu qəbul etmişdilər.

**Dövlətin formalaşması və Çingiz xanın rolu**

XIII əsrin əvvəlində tatarlar-monqollar (həmin dövrdə tatar və monqol terminləri sinonim sözlər idi) arasındakı daxili mübarizə Çöl feodalı Temuçinin rəhbərlik etdiyi müxtəlif tayfalardan ibarət feodallaşmış köçəri zadəganların qələbəsi ilə başa

çatdı. Onlar köhnə mövcud qəbilə-tayfa uluslarını bir-birinin ardınca öz hakimiyyətləri altına aldılar və tarixin məşhur tatar-monqol dövlətinin əsasını qoydular.

Temuçin təqribən, 1155-ci ildə taycuit tayfasının Borciqin qəbiləsindən olan köçəri feodal Yesugey-bahadırın ailəsində doğulmuşdu. O, 10 yaşında yetim qalmış və qardaşları ilə birlikdə ağır vəziyyətə düşmüşdü. Belə ki, Yesugeyin nökərləri onun anasını və bacı-qardaşlarını tərk etmişdilər. Gənc yaşlarında Temuçin kereit xanı Van xanın himayədarlığı və eyni zamanda, öz şəxsi bacarığı sayəsində gücləndi və ətrafına nökərlər yığmağa başladı. Onun yaratdığı ulus tədricən böyük siyasi qüvvəyə çevrildi. O, Van xanla müttəfiq olub, əvvəl «ağ tatarları» və merkitləri darmadağın etdi. Daha sonra, köhnə müttəfiqi Van xana qarşı çıxdı və kereit ulusunu özünə tabe etdi. Bunun ardınca isə, nayman ulusu dağıdıldı. Dağılmış ulusların qalıqları Temuçinin ulusuna birləşdilər. Temuçinin son rəqibi Camuxa kiçik tayfaları öz ətrafında birləşdirsə də, sonda məğlub oldu, əsir götürüldü və edam edildi.

1206-cı ildə Onon çayı yaxınlığında köçəri tatar-monqol feodallarının qurultayında 50 yaşlı Temuçin böyük xan elan olundu və Çingiz xan titulunu aldı. Titulun mənası indiyədək bəlli deyil.

Beləliklə, erkən tatar-monqol feodal dövləti yarandı. Bunun sayəsində feodal münasibətlərinin inkişafı sürətləndi. Vahid dövlətin meydana gəlməsi həm də monqolların bir xalq kimi formalaşması prosesinin əsasını qoydu. Tatar termini öz yerini monqol termininə verdi.

Yaranmış dövlətin başında Böyük Xan dururdu. Onu həm də Kaan adlandırırdılar (bu da türk sözü olan xaqan, kaqandan yaranıb). Əvvəllər monqollar və türklər Çin imperatorunu belə adlandırırdılar. Çingiz və onun nəslinin davamçıları Böyük Xan ola bilərdilər. Ayrı-ayrı uluslar hələ Çingiz xanın həyatda olduğu dövrdə xan nəslinin nümayəndələri arasında bölünmüşdü və onlar xanın vassalı idilər. Ulusun ərazisində köç edən bütün nökərlər və təhkimli aratlar ulus sahibinin vassalları idilər. Çingiz xan 1206-cı ildən 1227-ci ilə qədər dövləti idarə etdi.

Bütün bu feodal-iyerarxik cəmiyyət həm də hərbi təşkilat ro-

lunu oynayırdı. Belə ki, qədim türk və monqol ənənəsinə uyğun olaraq tümənlərə, minliklərə, yüzlüklərə, onluqlara, yəni orduya 10 min, min, yüz, on əsgər göndərən hərbi-inzibati vahidlərə bölünürdü. Tümən, minlik və s. adları altında qədim qəbilələr, nəsillər və tayfalar yaşamağa davam edirdilər, onların irsi başçıları həm də tümənlərin, minliklərin və s. inzibati-hərbi strukturların başçıları idilər.

Çingiz xan monqol cəmiyyətində şüurlu şəkildə köçəri əyanları və zadəgan ənənələrini dəstəkləyərək, sıravi köçəri və sahibi arasındakı bağlılığı dəyişməz statusa çevirmişdi. Bu sahib sıravi köçərinin həm feodalı, həm də hərbi rəhbəri idi.

Çingiz xan ondan əvvəl cəmiyyətdə mövcud olmuş feodal qayda-qanunlarını çox nizamlı hala saldı. Yığma qoşunla yanaşı Çingiz xan məşhur 10 minlik keşik adlanan alay yaratdı. Bu alay əyanların övladlarından təşkil olunurdu və imtiyazlı statusa malik idi, gələcəkdə onun sırasından yüksək ordu başçıları və işğal olunmuş əyalətlər üçün inzibati rəhbərlər çıxırdılar. Dövlətin ali qanunu Böyük Yasa idi. Yasa zadəganların maraqları əsasında tərtib olunmuşdu və patriarxal qaydalar pərdəsi altında təhkimçilik münasibətlərini və sərt hərbi nizam-intizamı qanuniləşdirmişdi.

Monqolların siyasi cəhətdən birləşməsi qüdrətli hərbi qüvvənin yaradılmasına təkan verdi və bu hərbi qüvvə Çingiz xan tərəfindən genişmiqyaslı istilalar üçün istifadə edildi. Çingiz xanın işğalçılıq siyasəti feodallaşmış köçəri əyanların maraqlarına uyğun müəyyənləşirdi. Qədimlərdən bu əyanların əsas gəliri aratların istismarından və qonşu uluslarla aparılan müharibələrdən gələn qənimətlərdən ibarət idi. Monqolların birləşməsindən sonra daxili müharibələr bitdi və köçəri əyanlar hərbi qənimətlərin azalması ilə barışmaq istəmirdi. Buna görə də xarici istilalara can atırdılar. Belə müharibələrin mümkün olması üçün güclü xan hakimiyyəti və dəmir hərbi nizam-intizam mövcud olmalı idi. Məhz buna görə də monqol zadəganları Çingiz xana sədaqətlə xidmət edirdilər. Belə əyanların içindən istedadlı sərkərdələr çıxmışdı: Cəbə, Subutay, Muxali, Şiki-Xutuku və digərləri.

Monqol istilalarının uğurlarını çox vaxt güclü və dəqiq təşkilat-

lanma və atlı ordunun son dərəcə yüksək və sürətli hərəkətliliyi ilə bağlayırlar. Bunlar intizamsız və çevik olmayan qonşu ölkələrin oturaq feodallarının yığma qoşunlarının qarşısında monqolların üstün olmasına gətirirdi. Amma əsas səbəb istilaya məruz qalan ölkələrdə siyasi hərc-mərcliyin hakim olması, bu ölkələrdə vahid mərkəzləşmiş dövlət hakimiyyətinin olmaması idi. Çox vaxt bu ölkələrin hökmdarları xalq kütlələrini silahlandırıb monqollara qarşı göndərməkdən qorxurdular.

1209-1210-cu illərdə Çingiz xan tanqutların Si-Sya (Çinin indiki Qansyu əyaləti) və Uyğur dövlətlərini özünə tabe etdi. Onlar xərac verməyə məcbur edildilər.

1211-1215-ci illər arasında Şimali Çinin böyük hissəsi (Tszin İmperatorluğu) monqol orduları tərəfindən fəth edildi. Şimali Çinin bütövlüklə istilası və daha sonra Cənubi Çinin (Sun İmperatorluğu) fəthi artıq Çingiz xanın varisləri dövründə baş verdi. Çində həlledici müvəffəqiyyətə imza atan Çingiz xan əsas hərbi qüvvələrini qərbə yönləndirdi. 1218-ci ildə Şərqi Türküstan və Yeddisu torpaqlarını işğal edib, 1219-cu ildə tərkibində Mərkəzi Asiyanı və demək olar ki, bütün Xorasanı birləşdirən Xarəzmşahlar dövlətinə hücum etdi. Mədəni bölgələrin işğalı geniş maddi vəsait və ən müasir hərbi texnikanı monqolların sərəncamına verdi.

Monqol ordusuna Çindən silah ustaları, katapultaçılar, hərbi mühəndislər qoşuldular. Eyni zamanda, Çindən və müsəlman ölkələrindən tacirlər monqollarla əlaqələr qururdular: ticarət karvanları ilə müxtəlif sənətkarlar gəlir və monqol feodallarının qərargahlarında məskunlaşırdılar. Onlar köçəri cəmiyyətinin yuxarı təbəqələrinə Çinin və Mərkəzi Asiya dövlətlərinin mədəni nailiyyətlərini aşılayırdılar.

**Qərbə hücum ərəfəsində Monqol dövlətindəki vəziyyət**

Çingiz xan qərbə hücuma əsaslı şəkildə hazırlaşırdı. Hərbi əməliyyatdan öncə Çingiz xanın xidmətində olan müsəlman tacirlər düşmən torpaqlarında dərin kəşfiyyat aparır, hətta monqol orduları üçün bələdçi olurdular. 1219-cu ilin payızında Çingiz xan öz ordularını İrtış çayı sahilindən Xarəzmşah Məhəmməd üzərinə yürüşə yolladı.

Çingiz xan Xarəzmşahlar dövlətinin əsas mərkəzlərinə eyni vaxtda hücum etmək üçün ordunu hissələrə böldü. O, qoşunlarının bir hissəsini Otrarı mühasirəyə almaq üçün saxladı, Sır-Dəryanın Seyhun çayının yuxarı və aşağı axarlarına dəstələr göndərdi, özü isə əsas qüvvələrlə Buxaraya doğru irəlilədi. Buxara 12 günlük mühasirədən sonra 1220-cu ilin fevralında Çingiz xan tərəfindən alındı. Şəhər dağıdıldı, əhalinin bir qismi qırıldı, digəri isə qullara çevrildi. Martda Çingiz xan Səmərqəndə yaxınlaşdı və şəhər Buxaranın aqibətinə məruz qaldı. 1220-ci ilin mayına qədər bütün Mavərənnəhr işğal olundu.

Qüvvələrinin sayı monqollardan xeyli çox olmasına baxmayaraq rəğmən Xarəzmşah Məhəmməd onlara müqavimət göstərə bilmədi. Xarəzmşah Məhəmmədin 1220-cı ilin dekabrında Xəzər dənizindəki bir adada ölümündən sonra oğlu Cəlaləddin monqollara qarşı mübarizəni davam etdirdi.

Səmərqəndi aldıqdan sonra Çingiz xan öz ordularını yenə bir neçə dəstəyə böldü, onları Xorasının və Mərkəzi Asiyanın böyük şəhərlərinin istilasına göndərdi. 3 ən böyük şahzadə – Cuci, Caqatay və Ugedey Urgəncə göndərildilər. 6 ay sürən mühasirə və qanlı döyüşlərindən sonra 1221-ci ilin aprelində şəhər fəth edildi.

Xorasana Çingiz xanın kiçik oğlu Tuluy göndərildi. Çingiz xan özü isə 1220-ci ilin sonunda Tərməzə tərəf getdi və şəhər təslim oldu. Bunun ardınca Bəlx tutuldu və Xorasan tamamilə fəth edildi.

Köçərilərin oturaq əkinçilik bölgələrinə basqınları viranedici idi. Çingiz xan və onun sərkərdələri əkinçilik bölgələrinin və şəhərlərin mütəşəkkil şəkildə dağıdılmasını və onların əhalisinin qırılmasını ənənəyə çevirdi. Bu sistemin müəllifi Çingiz xan özü idi. Belə bir sistemin istifadəsi üçün səbəb isə monqolların cəmi 200 min əsgərə yaxın olan ordusunun fəth edilmiş geniş ərazilərin nəzarət altında saxlamaq üçün yetərli olmaması idi. Müqavimət göstərə biləcək əhalinin kütləvi qırğını və terror sistemi vasitəsi ilə Çingiz xan işğal edilmiş xalqları qorxutmaq, zəiflətmək və yerlərdə işğalçılara qarşı üsyanların qarşısını almaq istəyirdi. Çingiz xanın yaxınlarının bir qismi bu sistemlə razı deyildilər. Mənbələr qeyd edir ki, bu sistemin əleyhdarları da olmuşdur. Onların arasında Çingiz

xanın iki oğlu – Cuci və Ugedey də var idi. Amma köçəri monqol feodallarının böyük qismi bu sistemi təqdir edirdi.

**Dövlət quruluşu** Böyük Yasaya görə, bütün fəth edilmiş torpaqlar və xalqlar xan nəslinin mülkiyyəti sayılırdı, ona görə Çingiz xan onları oğulları arasında böldü. Böyük oğul – Cucinin payına Dəşt-i-Qipcaq və Xarəzm düşdü. Gələcəkdə fəthi planlaşdırılan bütün qərb torpaqları da onun mülkü hesab olunurdu. İkinci oğul – Caqatay Mavarən nəhrə, üçüncü oğul Uğedey isə Yeddisu və Cunqariyaya sahib oldu. Kiçik oğul Tuluya monqol ənənəsinə uyğun olaraq atanın doğma yurdu Mərkəzi Monqolustan və Şimali Çin çatdı. İmperiyanın ümumi başçısı – böyük xan olmaq üçün Çingiz xan Ugedeyi seçmişdi. Bu ona görə idi ki, Ugedey səbri, yumşaqlığı və nəzakəti ilə seçilirdi. Ugedey əkinçiliyin və şəhərlərin bərpa olunması, fəth olunmuş ölkələrin əyanları ilə yaxınlaşma siyasətinin tərəfdarı idi.

Çingiz xan 1127-ci ildə 72 yaşında vəfat etdi. 1229-cu ildə Kerulen çayı sahilində keçirilən qurultayda Ugedey Böyük xan elan edildi.

Ugedey xanın hakimiyyəti dövründə (1229-1241) işğallar davam etdi. 1231-1234-cü illərdə Tszin imperiyasının (Şimali Çin) fəthi bərpa olundu və Cənubi Çinin Sun imperiyası ilə 1279-cu ilə qədər davam edən uzunsürən mübarizə başladı. 1241-ci ildə Koreya tutuldu.

Ugedeyin dövründə ən böyük hərbi yürüşlər rus torpaqlarına və Avropaya qarşı oldu. 1235-ci ildə Curcenlər üzərindəki qələbədən sonra, Çingiz xan tərəfindən inşa olunmuş paytaxt Qaraqorumda keçirilən qurultayda qıpçaqlar, volqa bulqarları və onlara dəstək verənlər ruslara qarşı müharibəni sona çatdırmağı qərara aldılar. «Qərbə yürüş» üçün Monqol imperiyasının bütün 4 ulusundan ordular göndərildi. Baş komandanlıq Batı xana məxsus idi, lakin əməliyyata faktiki olaraq ən istedadlı monqol sərkərdəsi Subutay rəhbərlik edirdi. Hərbi dəstələrə həmçinin, Ugedeyin oğlu – Göyük, Caqatayın oğlu – Buri və Tuluyun oğlu – Münke başçılıq edirdilər. Nizami ordunun əsas hissələrinə Mərkəzi Asiya türklərindən ibarət dəstələr də qoşulmuşdu.

1236-cı ildə monqol orduları Volqanı keçdilər və Böyük Bulqarı (indiki Qazanın ətrafı) ələ keçirdilər. Daha sonra Münke Volqanın aşağı axarlarında qıpçaqlara hücum etdi və onları məğlub etdi. 1237-40-cı illərdə monqollar Novqorod və Pskovdan başqa şimali rus torpaqlarının fəthini başa çatdırdılar.

1234-40-cı illərdə monqollar Cənubi Rus torpaqlarına girdilər, Çerniqov və Kiyevi tutdular. Volın və Leqnitsada polyak-alman cəngavər qoşunu məğlub edildi (1241).

Elə bu zaman digər monqol qoşunu Karpat dağlarındakı keçidlər vasitəsilə Macarıstana daxil oldu və Şayava çayı sahillərində macar ordusunu darmadağın etdi. Bundan sonra monqollar Peşti zəbt etdilər və macar kralını təqib edərək Adriatik dənizin sahillərinə çıxdılar. Amma Moraviyada çexlər monqol ordularından birini məğlub etdilər və onlar Macarıstandakı əsas qüvvələrlə birləşmək üçün geri çəkilməyə məcbur oldular. Burada Batı Ugedey xanın ölüm xəbərini eşitdi və öz ordusu ilə Qıpçaq çöllərindən keçərək şərqə doğru irəlilədi. Çünki, monqol imperiyası daxilindəki çəkişmələr onun məsələyə birbaşa müdaxiləsini tələb edirdi.

Belə ki, bir tərəfdən monqol ordusunun daxilində qruplaşmalar yaranırdı və bu qruplaşmaların toqquşması labüd idi. O biri tərəfdən, monqol ordusu sıralarında fəth olunmuş xalqlardan olan əsgərlərin sayı artırdı. Onlar böyük qüvvəyə çevrilməyə başlamışdılar və onların maraqları da nəzərə alınmalı idi. Yeri gəlmişkən, Çingiz xanın ölümü ərəfəsində onun qarşısındakı ən böyük problem – məğlublarla münasibətlər idi. Monqol veteranlarının və Çingiz xanın ilk silahdaşlarının dəstəklədiyi ənənə fəth olunmuşların silah gücü ilə itaətdə saxlanması idi. İkinci ənənə isə Cuci və Batı tərəfindən dəstəklənirdi və onlar yerlilərlə əməkdaşlığın və birgə olmağın tərəfdarı sayılırdılar.

1220-1241-ci illərdə Batının öz qardaşı uşaqları olan Göyük və Buri ilə münasibətləri korlandı və Batı onları ordudan qovdu və bu barədə atalarına şikayət etdi. Xan və Yasanın keşikçisi olan Ugedey oğullarını sürgünlə cəzalandırdı. Amma onun ölümündən sonra dul arvadı, Göyükün anası Turakina regent oldu və kimin xan olacağı, kimin edam ediləcəyi sualı meydana çıxdı. Hər iki

rəqib – Göyük və Batı dəstək tapmağa çalışdılar, nəticədə Caqatayın övladları Göyükün, Tuluyun övladları Batının tərəfinə keçdilər. Amma ölkənin faktiki hakimiyyəti xan və şahzadələrin əlində yox, Ugedey tərəfindən «böyük imperator katibliyinin rəhbəri» (dövlət idarəçiliyi aparatının rəhbəri) təyin olunmuş məmur Yelyuy Çusayın əlində idi.

Yelyuy Çusay Curcenlər tərəfindən devrilmiş kidani xanları nəslindən idi. O, konfusi fəlsəfəsi ruhunda təhsil almışdı və Curcen hökumətində məmur idi. Sonradan monqolların tərəfinə keçən Yelyuy Çusay Çingiz xanın ən yaxın məsləhətçilərindən birinə çevrilmişdi. Əslində xanın da təhsilli adamlara ehtiyacı vardı.

Çingiz xanın hakimiyyətinin sonlarında keçirilən qurultayda Şimali Çin əhalisi ilə necə rəftar ediləcəyi ilə bağlı məsələ meydana çıxdı. Əhali monqollardan qorxaraq dağlara və meşələrə çəkilir, burada quldur dəstələri formalaşdırırdı ki, bu da vergi yığmağa imkan vermirdi. Monqol sərkərdələri çinlilərin qırılmasını, torpaqların isə otlaqlara çevrilməsini təklif etdilər, amma Yelyuy Çusay buna qarşı çıxdı. O, Çin xalqının rahat şəkildə yaşayıb işləməsi şəraitində nə qədər vergi yığılacağını riyazi üsullarla sübut etdi. Gəlirlər xanı şirnikləndirdi və Çin əhalisi təhlükədən qurtuldu.

Ugedey tamamilə Yelyuy Çusayın təsiri altına düşdü və o, 1229-cu ildən hərbi monarxiyanı bürokratik monarxiyaya çevirəcək islahatlara başladı. Məhkəmə islahatına görə, mühakimə üsulu təsis edildi və bu, hakimiyyətdəkilərin özbaşınalığını məhdudlaşdırdı. Maliyyə islahatına görə monqollar bir faizlik vergi verməli oldular. 1230-cu ildə Yelyuy Çusay Ugedeyə dedi: «İmperiya at belində qazanıldı, amma onu yəhər üstündə oturub idarə etmək mümkün deyil». Ugedey xan onunla razılaşdı və 1231-ci ildə onu katibliyin başçısı təyin etdi, ona öz siyasi xəttini yürütməyə icazə verdi. Bu siyasət uğurlu oldu. Vergilər xanı heyrətləndirən ölçüdə gəlir gətirdi. Yelyuy Çusay xanın tam etimadını qazandı və maliyyə, məhkəmə və icraedici hakimiyyəti də öz əlində birləşdirib, faktiki olaraq imperiyanın daxili siyasətinin başçısına çevrildi.

Amma bu sistem orduda müqavimətlə qarşılaşdı: birinci toqquşma 1233-cü ildə baş verdi. Uzun və ağır mühasirədən sonra

Subutay curcenlərin paytaxtı Byanstsını (Kayfın) ələ keçirdi. Monqol qanunlarına görə, şəhər mühasirə texnikasının işə salınmasından öncə təslim olmasa, son nəfərə qədər onun bütün əhalisi qırılmalı idi. Bu aqibət Byanstsının əhalisini də gözləyirdi. Amma Yelyuy Çusay sübut etdi ki, şəhər əhalisinin qırılması xəzinəyə böyük ziyan verəcək, onlara aman verildiyi halda isə böyük gəlir gələcək və Ugedey bununla razılaşdı.

Byanstsın əhalisindən alınan vergilər hesabına Yelyuy Çusay 1220-ci ildə Çingiz xan tərəfindən əsası qoyulmuş Qaraqorumun inşasını sona çatdırdı. Xan üçün təmtəraqlı saray tikildi. Buna baxmayaraq, Ugedey yurta-çadırda yaşamağa üstünlük verirdi.

1234-cü ildə Monqolustanın insan ehtiyatlarının işğalları davam etdirmək üçün yetərli olmaması üzə çıxdı. Müsəlman əsgərlərin Çində, çinli əsgərlərin isə qərbdə istifadəsi üçün layihə meydana gəldi. Yelyuy Çusay bu planın da ləğvinə müvəffəq oldu. Onun arqumentlərinə görə, yad şəraitdə bu əsgərlər az fayda verəcəklər, əksinə çoxlu itkilər olacaq, onların göndərilməsi üçün isə çox vəsait tələb olunacaqdır.

Cinin işğalından sonra, Ugedey öz sərkərdələrinə söz vermişdi ki, fəth olunmuş torpaqlar onların arasında bölünəcək. Yelyuy Çusay təklif etdi ki, mərkəzi hakimiyyətə ziyan dəyməsin deyə onlara torpaq payı yox, pul, cavahirat və ipək verilsin. Noyonların, minbaşıların, yüzbaşıların böyük qisminin ona qarşı olmasına baxmayaraq, kompromis qərar qəbul olundu və əyalətlərə monqol hakimləri ilə yanaşı, xanın vergi məmurları da təyin edildilər.

Vergi təyinatı sisteminin təşkili məsələsində də ziddiyyətlər yarandı. Yuxarıda göstərildiyi kimi, 1220-ci ildə Yelyuy Çusay monqolları bir faizlik birbaşa vergi verməyə məcbur etdi. 1236-cı ildə idxal olunan mallara (qiymətin 1/30) və şəraba (qiymətin 1/10) vergi qoyuldu. Bu, yerli mallarla rəqabətdə itki verən uyğur tacirlərinin və idxal mallarının əsas istehlakçıları olan monqol əyanlarının maraqlarına toxunurdu.

Monqolları daha da hiddətləndirən Yelyuy Çusayın Çində əvvəlki vergi siyasətinin – oddan və evdən alınan verginin bərpası oldu. Halbuki, monqollar və müsəlmanlar daha ağır olan can ver-

gisi verirdilər. Yelyuy Çusayın fikrincə, daha ağır vergilərdən əhali qıcıqlana bilər. Onun rəyi qalib gəldi. Yelyuy Çusay 1236-cı ildə mədəni inkişaf naminə Tarix Cəmiyyəti yaratdı. 1237-ci ildə o, dövlət qulluğuna təhsili olan çinlilərin qəbul olunması üçün razılığa nail oldu. Onların biliklərinin yoxlanılması üçün imtahan kollegiyaları təşkil olundu. Qullar da imtahandan keçə bilərdilər. Sahibləri onlara bunu qadağan edərdilərsə, onları edam gözləyirdi. Nəticədə, 4030 nəfər təhsilli qul aşkar olundu və onların 1/4-i azad olundu.

Hərbi monarxiyanın bürokratik monarxiyaya çevrilmə prosesi, təbii ki, monqol cəmiyyətinin ən yuxarı təbəqəsi tərəfindən birmənalı qarşılana bilməzdi. Onlar öz qanları və canları bahasına əldə etdikləri imtiyazları əldən vermək istəmirdilər.

İdxal malları üzərində qurulan sistem və Çin istehsalının dirçəlişi tranzit ticarəti ilə məşğul olan və bazarı yalnız özlərinin ixtiyarında saxlamaq istəyən tacirlərin xoşuna gələ bilməzdi. Onlar əsasən monqolların tərəfinə keçmiş müsəlman uyğurlar idilər. Çin əhalisinin siyahıya alınması üzrə müvəkkil təyin edilmiş Kadak və Yelyuy Çusayın çunşulun (katib) vəzifəsində varisi Çinkay – xristian, multəzimlər Əbdür-Rəhman və Mahmud Yalavac – müsəlman idilər. Artıq 1239-1240-cı illərdə Əbdür-Rəhman Çindən gələn vergilərə iltizamını əldə etdi.

Ugedey xanın 1241-ci ilin 11 yanvarında vəfat etməsi Yelyuy Çusayın düşmənlərinin ona qarşı çıxmasına imkan verdi. Çinkay onun icraedici hakimiyyətdəki, Əbdür-Rəhman isə maliyyə sahəsindəki yerini tutdular.

1246-cı ildə monqol əyanlarının qurultayında Ugedeyin oğlu Göyük Böyük xan elan olundu (1246-1248).

Monqol istilalarının Asiya və Avropa ölkələrində törətdiyi böyük dağıntılara baxmayaraq, bu ölkələr arasındakı ticarət əlaqələri kəsilməmişdi. Monqollar hərbi-strateji məqsədlərlə geniş dayanacaqlar şəbəkəsi olan rahat yollar tikirdilər. Monqol xanları özlərini ortak (*türkcə*: kompanyon) adlandıran müsəlman ticarət şirkətlərini və topdan satış xarakterli karvan ticarətini himayə edirdilər. Böyük xanlar və əsasən Ugedey xan öz vəsaitlərini hə-

vəslə ortaklara qoyurdular və onları himayə edirdilər.

Monqol fəthləri Asiya və Avropa ölkələri ilə diplomatik münasibətlərin genişlənməsinə də təkan verdi. Monqol xanları ilə əlaqə qurmağa ən çox Roma papaları can atırdılar. Onlar Qərbi Avropa dövlətlərini dəhşətə gətirən monqollar haqqında informasiya toplamağa, monqollardan Suriya və Fələstində müsəlman dövlətlərinə və əsasən, Misirə qarşı müharibə aparan səlibçilərə yardım almağa çalışırdılar. Nəhayət, Roma papaları monqol xanlarının katolik ehkamlarına söykənən xristianlığı qəbul edəcəklərinə ümid edirdilər. Bu məqsədlə, 1246-cı ildə monqol xanının Qaraqorumdakı qərargahına papa tərəfindən rahib İoann de Plano Karpini, 1253-cü ildə isə rahib Vilhelm Rubruk göndərilmişdilər. Onların yol qeydləri monqol tarixi haqqında çox qiymətli mənbələr sayılır.

Bütün dinlərin ruhanilərinin fövqəltəbii qüvvələrə malik olmasına inanan və şamanlığa etiqad edən monqol xanları papanın səfirlərinə xeyirxah münasibət göstərirdilər. Qaraqorumdan ayrılan Plano Karpiniyə Göyük xanın papaya ünvanlanan cavab məktubu verilmişdi. Bu məktubda Göyük xan papanın və Avropa krallarının onun vassalı olmasını tələb edirdi.

Böyük xanın ölümündən sonra monqol əyanları arasında Böyük xan taxtı uğrunda mübarizə başladı. Yalnız 1251-ci ildə Qızıl Orda ulusunun xanı Batının dəstəyi sayəsində Tuluyun oğlu Münke xan taxta-taca sahib oldu (1251-1259).

Çin əlyazmaları Münke xanın hakimiyyəti dövrünə çox yüksək qiymət verirlər. O, əkinçiliyin və sənətkarlığın dirçəldilməsinə çalışır və iri topdansatış ticarətə himayədarlıq edirdi. Bu məqsədlə Münke kəndlilərin və şəhər əhalisinin vəziyyətini bir qədər yüngülləşdirmək və vergi sistemini nizama salmaq üçün fərman vermişdi. Çinə və qərbə hərbi yürüşlər onun hakimiyyəti dövründə də davam etdirildi.

Monqollar Çinə böyük qoşun göndərdilər və bir neçə qələbə qazandılar. Lakin müharibə uzandı. Fəth edilmiş torpaqlarda monqol hakimiyyətini möhkəmlətmək üçün xanın qardaşı Hülakünün başçılığı altında 30 min seçmə qoşun Ön Asiyaya göndərildi. Hülakü ismaillilərin qalalarını dağıtdı, Bağdadı tutub Abbasilər Xi-

lafətini süquta uğratdı və Suriyaya yeridi. Amma burada o, Misir məmlüklərinin müqaviməti ilə qarşılaşdı və məğlub oldu (1260). Bu hadisə monqolların cənub-qərbə yürüşünü dayandırdı. Buna baxmayaraq, monqollar bu bölgədə möhkəmləndilər və Böyük xana yalnız nominal tabe olan müstəqil dövlət yaratdılar. Hülakü «elxan» titulunu aldı.

1255-ci ildə vəfat edən Batı xanın ulusu da mərkəzi hakimiyyətdən ayrıldı. Batı xanın qardaşı Bərkə xan elan olundu və islam dinini qəbul etdi. O, Aleksandr Nevski ilə dostluq münasibətləri qurmuşdu. Böyük xanın məmurları rus torpaqlarının əhalisini siyahıya alıb, onlardan vergi toplamağa gələndə Bərkə rus knyazına imkan verdi ki, həmin məmurların qətlini təşkil etsin və bundan sonra Monqolustana vergi göndərməsin. Bu, faktiki olaraq doğma yurdla əlaqələrin kəsilməsi demək idi.

Qərb torpaqlarının itkisini Münke xan zəngin Cənubi Cin torpaqlarına yiyələnməklə kompensasiya etdi. Burada onun qardaşı Xubilayın monqollardan deyil, əsasən fəth olunmuş xalqların əsgərlərindən ibarət muzdlu ordusu uğurlu hərəkət edirdi.

1259-cu ildə Münke xan öləndə Monqol dövləti öz hərbi və siyasi gücünün zirvəsində idi.

**Dövlətin zəifləməsi və süqutu**

Münkenin ölümündən sonra onun iki qardaşı – Xubilay və Arıq Buğa böyük xan taxtına iddia edirdilər. 1260-cı ildə Xubilayın tərəfdarları Çoxərdə qurultay çağırdılar və onu böyük xan elan etdilər. Buna cavab olaraq, Monqolustanda yaşayan monqollar da Qaraqorumda qurultay çağıraraq, Arıq Buğanı taxta çıxardılar. 1262-ci ildə bütün monqol xanları arasında ədavət yarandı. Xubilayın müttəfiqləri Hülakü və Mərkəzi Asiya uluslarının xanları, Arıq Buğanın müttəfiqi isə Qızıl Orda xanı oldu. Sonuncunun Cənubi Qafqaza soxulması Hülakülərin əl-qolunu bağlasa da, o, Arıq Buğaya yardım edə bilmədi. 1264-cü ildə Xubilay güclü dəstə ilə Qərbi Monqolustana girdi və Qaraqorumu tutdu. Arıq Buğa təslim oldu və Çinə – ömürlük sürgünə göndərildi. Onu dəstəkləyənlər isə edam olundular.

Xubilay 1264-cü ildə paytaxtı Qaraqorumdan Pekinə (*mon-*

*qolca* Xanbalıq) köçürdü, 1271-ci ildə isə özünü Çin imperatoru elan etdi və Yuan sülaləsinin əsasını qoydu.

Xubilaya qarşı müqavimətə Ugedeyin nəvəsi Xaydu başçılıq edirdi. Xaydunun ətrafında Arıq Buğanın sağ qalan bütün tərəfdarları toplandı və 1275-ci ildə Pekin hökumətinə qarşı mübarizə yenidən başladı.

Xubilay 1294-cü ildə öldü və nəvəsi Teymura qərbi monqollara qarşı müharibəni miras qoydu. Müharibə Xaydunun ölümünə qədər davam etdi (1301) və 1303-cü il sülhü ilə tamamlandı. Sülhə görə, Teymur monqolların əlində olan bütün torpaqların hakimi kimi tanındı. Ancaq bu tanınma simvolik xarakter daşıyırdı və Pekin xanının hakimiyyəti yalnız Şərqi Cunqariyanın sərhədlərinə qədər uzanırdı. Monqol birliyinin bu son əlaməti 1307-ci ildə Teymurun ölümü ilə yox oldu. Qafqazı, Krımı, Cənubi Rus çöllərini, Aşağı Volqaboyunu Cuci nəslinin hakimiyyəti altında birləşdirən Qızıl Orda, Mərkəzi Asiya və Yeddisu ərazilərindəki Caqatay dövləti, Hülakü tərəfindən yaradılan Hülakülər (Elxanilər) dövləti islamı qəbul etdi. Xubilayın nəsli isə çinləşdi. Çin xalqının əsarət altında olması sonradan geniş antimonqol hərəkatına çevrilən üsyanlara səbəb oldu. 1368-cı ildə kəndli ordusunun rəhbəri – çinli Çju-Yuan Çanın orduları Pekini ələ keçirtdilər və sərkərdə özünü yeni Min sülaləsinin imperatoru elan etdi.

1370-ci ildə Yuan sülaləsinin son nümayəndəsi Biliktu ordularının qalıqları ilə Qaraqoruma çəkildi. Beləliklə, Çingiz xan tərəfindən yaradılmış Monqol imperiyası süqut etdi.

# ÖN ASİYA ÖLKƏLƏRİ ORTA ƏSRLƏRDƏ

## Sasanilər dövləti

**III-V əsrlərdə bölgənin siyasi tarixi**

III-VII əsrlər Ön Asiya xalqlarının tarixi hakimiyyətdə olan sülalənin adı ilə Sasanilər dövrü olaraq tanınır. Sasanilər (224-651) sülaləsi də mənşə etibarilə qədim Əhəmənilər (b.e.ə. 550-330) kimi Pars əyalətindən idi.

Yeni eranın III əsrinin əvvəllərində bölgədəki Parfiya dövləti Ərşaqi sülaləsinin hakimiyyəti altında nominal birləşmiş bir dövlət olsa da, o, əslində bir sıra yarı, bəzən isə tam müstəqil siyasi birliklərdən ibarət idi. Bu birliklərin başında yerli nüfuzlu əyanların və qüdrətli zadəgan nəsillərinin nümayəndələri olan xırda şahlar dururdu.

Arası kəsilməyən daxili çəkişmələr, müharibələr və Roma ilə toqquşmalar Ərşaqiləri xeyli zəiflətmişdi. Hətta Roma imperiyasının hərbi qüdrəti və onun şərqdəki fəal siyasəti qarşısında tab gətirə bilməyən Ərşaqilər Mesopotamiyanın şimal hissəsindəki bəzi şəhərləri romalılara güzəştə getməyə məcbur olmuşdular. Dövlətin paytaxtı dəfələrlə Roma imperiyasının qoşunları tərəfindən hücumlara məruz qalmışdı. Bu zəmində, bölgə yenidən birləşmək zərurəti qarşısında qalmışdı.

Həmin proses digər mərkəzdən – Əhəmənilərin vətəni olan Parsdan başladı. Ona Sasani nəslindən olan Ərdəşir rəhbərlik edirdi. Ərdəşirin babası Sasan Anahit məbədinin maqı olmuşdur, Parsın şah nəslindən olmaqla yüksək nüfuz sahibi idi. Onun oğlu Papak İstəxrin hakimi idi və şah titulu daşıyırdı. Sasanın nəvəsi, Papakın oğlu olan Ərdəşir kahinlərin və nəsli əyanların dəstəyi nəticəsində yüksəldi. İlk əvvəl Darabqerd qalasının hakimi olmuş Ərdəşir nəinki Parsda möhkəmləndi, həm də İsfahanı, Kermanı ələ keçirdi və Mesopotamiya ilə bilavasitə həmsərhəd olan Xuzistana soxulandan sonra şimala yürüş etdi. Dövlət ona qarşı hərbi əməliyyatlara başladı. Nəhayət, 224-cü il aprelinin 20-də Parfiyanın sonuncu şahı V Atraban və Ərdəşir arasında Suzian yaxın-

lığında həlledici döyüş baş verdi. Ərdəşir qalib gəldi. O, daha sonra bölgədə tam hakimiyyətə yiyələnmək üçün 80 xırda şahlığı məğlub etdi və öz hakimiyyəti altına aldı.

226-cı ildə Ərdəşirə təntənəli tacqoyma mərasimi keçirildi və o, şahlar şahı (şahənşah) titulunu aldı. O, ardıcıl sürətdə özünün fəthlərini davam etdirdi, Həmədan şəhəri ilə birlikdə Midiyanı, Sakastan və Xorasan bölgələrini tutdu. Adərbayqan (Azərbaycan) və Ərməniyyənin böyük bir qismi də işğal olundu. Marqiana (Mərv), Sistan və Məkran ondan asılı vəziyyətə düşdü. Beləliklə, yeni yaranan dövlətin sərhədləri Xarəzm bölgələrinin yerləşdiyi Amu-Dəryanın (Seyhun çayının) aşağı axarına qədər çatır, şərqdə isə dövlətin hüdudları Kabil çayı vadisinə qədər uzanırdı.

Əhəmənilərin dövründə olduğu kimi, Sasanilərin dövründə də farsdilli bölgələrin bir dövlətdə birləşməsi baş verdi. Sasani imperiyasının dövlət dili cənub-şərq pəhləvi ləhcəsi oldu.

Yeni şahlığın bərqərar olması bölgədə feodalizmin rüşeymlərinin meydana gəlməsi ilə eyni dövrdə baş vermişdir: yeni eranın III əsrində Aralıq dənizi hövzəsini, Ön Asiyanı və Cənubi Qafqazı bürüyən quldarlıq sisteminin böhranı, feodalizm ünsürlərinin üzə çıxması və ellinizmə qarşı olan mədəni reaksiya Sasanilərin asanlıqla qələbə qazanmasının səbəbləri oldu.

Yarandığı ilk gündən Sasani dövləti fəal xarici siyasət yürüdürdü. Roma və onun xələfi olan Bizans ilə toqquşmalar baş verirdi və onların dərin səbəbləri mövcud idi. İmperiya dövründə Romanın şərqlə ilə ticarəti xeyli genişlənmişdi. Qərbdən gələn mallar Şimali Mesopotamiya və yaxud Cənubi Qafqaz vasitəsi ilə Ön və Mərkəzi Asiyaya gətirilir, buradan isə Çinə və Şimali Hindistana daşınırdı. Eyni yollarla mallar şərqdən qərbə də gedirdi. Şərqdən gələn mallar arasında birinci yerdə ipək dururdu. Məhz buna görə də, Şərqin əsas quru nəqliyyat yolu «ipək yolu» adını almışdı. Şimali Mesopotamiyadan Cənubi Qafqaza gedən yollar da ticarət üçün böyük əhəmiyyət daşıyırdı. Bu yolları ələ keçirmək və gömrük rüsumu verməmək üçün Roma imperiyası Parfiyanı sıxışdıraraq, sərhədlərini şərqə tərəf genişləndirmişdi. Eyni səbəblər Sasanilər və Bizans arasında münaqişələrə də gətirib çı-

xarırdı.

Daxili möhkəmlənmə və birləşmə nəticəsində Sasanilər dövləti yeni geosiyasi mövqe əldə etməyə çalışırdı. Onun fəal xarici siyasəti həm qərbə, həm şimala, həm də şimal-şərqə yönəlmişdi. Ərdəşirin dövründə başlayan Romaya qarşı hərbi əməliyyatlar, yalnız onun oğlu I Şapurun (241-272) hakimiyyəti dövründə sona çatdı. Şapur 244-cü ildə Romaya qarşı müharibəni qələbə ilə bitirdi və iki dövlət arasında imzalanmış müqavilənin şərtlərinə görə, Ərməniyyə Sasanilərə verilirdi. Şapur Xəzəryani bölgələrin bir sıra xalqları ilə də müharibələr aparmışdı. Xorasanda o, «Turan şahını» məğlub etdi, onu öldürdü və döyüşün baş verdiyi yerdə Nişapur şəhərinin əsasını qoydu.

Sasanilərin Roma imperiyası ilə yeni müharibəsi imperiya ordularının tam məğlubiyyəti ilə başa çatdı. 260-cı ildə imperator Valerian əsir alındı. O, digər əsirlərlə birlikdə Karun çayı üzərində tikilən bəndin inşasındakı ağır işlərdə çalışırdı. Bu bəndə «bandeqeysər», yəni «qeysərin (sezarın) bəndi» deyirdilər.

I Şapur 272-ci ildə vəfat etdi. Onun iki oğlu – I Hörmüz və I Bəhram ardıcıl olaraq hakimiyyətə gəldilər. I Bəhramın dövründə (276-293) Roma ilə yeni müharibə başladı. İmperator Karin öz orduları ilə Sasanilərin paytaxtı Ktesifona qədər gəldi. Lakin onun qəfil ölümü yürüşü dayandırdı. 283-cu ildə bağlanmış sülh müqaviləsinin şərtlərinə görə, Mesopotamiya və Ərməniyyənin bir hissəsi Romanın ərazilərinə daxil edildi.

III əsrin son onilliyində Sasanilər dövləti və Roma arasındakı müharibələr yenidən başladı. Nəhayət, 298-cu ildə Nizbində bağlanmış sülh müqaviləsinə görə, bir sıra ərazilər Romaya qaytarılmalı oldu.

II Hörmüzün (302-309) hakimiyyəti illərində ölkədə daxili çəkişmələr başladı. 309-cu ildə əyanlar Hörmüzün körpə oğlu II Şapuru hakimiyyətə gətirdilər. Onun yetkinliyinə qədər dövləti anası idarə etmişdi. II Şapur 379-cu ilə qədər hakimiyyətdə qaldı. Sasani-Roma müharibələrinin yeni mərhələsi onun hakimiyyəti illərinə təsadüf edir. IV əsrin əvvəllərində Ermənistan, Gürcüstan və Albaniyada (Şimali Azərbaycan), 30-cu illərində isə Romada xri-

stianlıq rəsmi dövlət dini elan olundu. Ermənistan, Gürcüstan və Albaniyanın xristianlaşması onları istər-istəməz xristian Romasına bağlayırdı. Bu zaman Ermənistanın hakim zümrəsində parçalanma baş verdi; bir qrup imperiyanın tərəfdarlarına qoşuldu, digəri isə Sasanilərə üz tutdu. Əyanlar arasındakı nifaqdan istifadə edən III Şapur Ermənistanı fəth etdi və Mesopotamiyaya soxuldu. Amma o, bir necə qələbə qazanandan sonra, qərbdəki hərbi əməliyyatları bitirdi. Bu vaxt dövlətin şimal-şərq sərhədləri də diqqət tələb edirdi. Belə ki, hun tayfaları sərhədboyu vilayətlərə hücumlar edirdilər. II Şapurun orduları hunları darmadağın etdi. Bağlanmış sülhə görə, hunlar farslarla ittifaqa girdilər. Şimal-şərq sərhədləri möhkəmləndiriləndən sonra, Sasanilər yenidən qərb siyasətinə qayıtdılar.

356-cı ildə Konstantinopoldan sülh təklifi gəldi. II Şapur imperator Konstansiyə cavab olaraq, hədiyyələr göndərdisə də, onun qarşısına bir neçə tələb qoydu: onun babasından hiyləgərlik ilə alınan Ərməniyyə və Mesopotamiya geri qaytarılmalı idi. Əks təqdirdə yazda Sasani orduları hücuma keçəcəkdi. İmperator razı olmadı. Beləliklə, müharibə başladı. Konstansinin xələfi Yulian 361-ci ildə hakimiyyətə gəldi. O da müharibəni davam etdirdi. 363-cü ildə Yulian Sasanilərə qarşı uğursuz yürüş etdi və nəticədə həlak oldu. Onun yerinə seçilən İovian Sasanilərə sərf edən şərtlərlə sülh müqaviləsi bağlamalı oldu.

II Şapurun ölümündən (379) sonra taxt-tac əyanların və zərdüşt kahinlərinin iyirmi il ərzində apardığı mübarizə nəticəsində əldən-ələ keçdi. Yalnız 399-cu ildə əyanların hakimiyyətini xeyli dərəcədə zəiflətməyə müvəffəq olan I Yezdəgerd (399-421) taxta çıxdı. Roma və Sasani imperiyaları arasında əldə edilmiş sülh, iki qısamüddətli müharibəni nəzərə almasaq, V əsr boyu saxlanıldı. I Yezdəgerd ölkədə xristianların təqibini dayandırdı. Bununla o, əhalinin xristianlığı qəbul etmiş təbəqələrində dayaq qazanmaq istəyirdi. Amma belə bir vəziyyət uzun davam edə bilməzdi. Əyanlar və kahinlər xristianları özünə yaxınlaşdıran şaha etirazlarını bildirdilər. Hakimiyyətinin son illərində I Yezdəgerd siyasətini bir qədər dəyişdirdi. Belə ki, o, kahinlərin artan nifrətin-

dən və Bizans ilə əlaqə saxlayaraq güclənən xristian dairəsindən qorxurdu. Onun ölümündən sonra V Bəhram Gurun hakimiyyəti illərində (421-438) xristianların təqibi yenidən başladı. Həmin dövrdə Sasanilər dövlətinin şimalından və şimal-şərqindən köçərilərin hücumları yenidən genişlənməyə başladı. Mərv döyüşündə V Bəhram eftalit tayfalarını darmadağın etdi və Sasani imperiyasının sərhədləri qısa müddət ərzində Amudərya çayına qədər genişləndi. Sasani-Bizans müharibələrində isə sonuncular qalib gəldi.

V Bəhramın oğlu II Yezdəgerd (438-457) atasının siyasətinə sadiq qaldı. O, Ermənistana məktub göndərdi. Məktubda əyanlara və ruhanilərə təklif olunurdu ki, xristianlıqdan imtina etsinlər. Beləliklə, cəmiyyətin üst qatlarını parçalamağa cəhd göstərilirdi. Ermənistan asılı hala düşəndən sonra Gürcüstan, Kartli və Albaniyanın Sasani dövlətinə müqavimət göstərə bilməsi xeyli çətinləşmişdi. Buna baxmayaraq, erməni əyanları və ruhaniləri rədd cavabı verdilər. Sasani ordularının başının müharibəyə qatışmasından istifadə edən naxararlar (erməni feodalları) Bizansdan dəstək istədilər və üsyan qaldırdılar. Bizans onlara yardım etmək iqtidarında deyildi.

II Yezdəgerd 451-ci ildə Ermənistana iri qoşun göndərdi və naxararların üsyanını darmadağın etdi.

II Yezdəgerd ölkənin şimal-şərqində – Talakan və Bəlx bölgələrində də türklərə qarşı müharibələr aparmalı oldu. Hətta təhlükənin ciddi olduğunu nəzərə alan şahənşah 442-449-cu illərdə öz iqamətgahını bu şimal bölgələrinə köçürdü. II Yezdəgerd türk xaqanını və xırda hökmdarları məğlub etdi, onların torpaqlarında Şahrastan-Yezdəgerd və digər istehkamlar tikdirdi.

II Yezdəgerdin 457-ci ildə ölümündən sonra onun oğulları arasında daxili çəkişmələr başladı. Onun ikinci oğlu Peroz (Firuz) şərqdə müttəfiq qoşunları toplayaraq qalib gəldi və 459-cu ildə şahənşah elan edildi.

Firuzun hakimiyyətinin ilk illərində ölkədə vəziyyət ağır idi. Bunun səbəbi quraqlıq və daxili gərginliklə bağlı idi. Vəziyyət xarici düşmənlərin ölkəyə soxulması təhlükəsi nəticəsində daha da ağırlaşdı. Şahənşah Mərv vahəsini tutub, Herata qədər çatan ef-

talitlərə qarşı davamlı müharibə aparmağı əmr etdi. Lakin onun ordusu məğlub oldu. Sülh müqaviləsinin son dərəcə ağır şərtlərinə görə Xorasanın yarısı eftalitlərin ixtiyarına keçdi. Şərqə təkrar yürüş zamanı 484-cü ildə şahın qoşunları yenidən darmadağın edildi, özü isə öldürüldü.

Firuzun başı imperiyanın şimal-şərqində müharibəyə qarışdığı dövrdə Şərqi Gürcüstanda (Kartli), Ermənistanda və Albaniyada əyanların üsyanı başladı. Kartli çarı Vaxtanq Qorqasal bu üsyanın başçısı oldu və 483-484-cü illərdə şah qoşunlarına bir neçə ağır zərbə endirdi. Bu üsyan şah hakimiyyətini Cənubi Qafqazın əyanları ilə hesablaşmağa məcbur etdi. Bundan sonra şahənşahlar bu bölgələrə mərzbanları yerli əyanların içindən seçməyə başladılar.

Firuzdan sonra şahənşah taxtına qardaşı Balaş (484-488) çıxdı. Onun vəziyyəti çox ağır idi və əyanların əlində oyuncağa çevrilmişdi. Balaşın dövründə Kartli, Albaniya və Ermənistan əyanları ilə sülh bağlandı. Konstantinopol ilə qonşuluq münasibətlərini saxlamağa çalışan Balaş Bizansa səfirlik göndərdi. Sasanı şahı əhalinin nestorian olan təbəqəsində dayaq axtarırdı, bu isə fars əyanlarının xoşuna gəlmədi. Şahənşah taxtdan salındı və kor edildi, onun yerinə şah Firuzun oğlu I Qubad gəldi.

**III-V əsrlərdə Sasanilər dövlətinin ictimai quruluşu və dinlər**

Sasani dövlətinin əsasında inkişaf etmiş silk bölgüsü dururdu: bu bölgü din tərəfindən təqdis olunurdu və onun qorunub saxlanmasını dövlət aparatı təmin edirdi. Ümumiyyətlə, qədimdən burada azad insanlarin 3 silki mövcud idi: kahinlər, döyüşçülər və əkinçilər. IV əsrdə bu silklərin sayı dörd oldu: kahinlər, döyüşçülər, mirzələr və vergi verən əhali. Onların başında şahənşah dururdu. Onun ən yaxın məsləhətçiləri və köməkçiləri zərdüşt ruhanilərinin başçısı («*mobedan-mobed*»), ali baş komandan («*eran-spahbed*»), mirzələrin başçısı («*dabirbed*») və vergi verən silkin başçısı («*vastrioşan-salar*») idilər.

Silkin daxilində mürəkkəb iyerarxik bölgü mövcud idi. Kahinlərin üst təbəqəsini mobedlər təşkil edirdilər. Onlar maqların (zər-

düşt ruhaniləri) mahal və əyalətlərdəki fəaliyyətlərinə nəzarət edirdilər. Mobedan-mobed şahdan sonra dövlətin ikinci adamı idi. Hərbi silkdə eran-spahbeddən sonra *şəhrdarlar* – bölgələrin yarım-müstəqil hakimləri gəlirdilər. Onlar şah nəslinin üzvlərindən və yerli xırda hakimlərin arasından seçilirdilər. Onlardan aşağı pillədə «vispurxalar» dururdular. Vispurxalar qədim fars nəsillərinin nümayəndələri idilər, mühüm hərbi və inzibati vəzifələri tutmaq üçün irsi hüquqlara malik idilər. Bir pillə aşağıda isə vazurqlar («böyüklər») dururdular. Onlar da mühüm hərbi və inzibati vəzifələri tuturdular. Hərbi silkin ən çoxsaylı qrupunu «azadlar» təşkil edirdi. Onlardan ordunun özəyi olan süvarilər formalaşırdı. Mirzə silkinə dövlət məmurları, o cümlədən katiblər, diplomatik sənədlərin və məktubların tərtibatçıları, şahların bioqrafları, həkimlər, astroloqlar, tərcüməçilər və s. daxil idilər. Dördüncü – vergi verən silkə əkinçilər, sənətkarlar və tacirlər daxil idilər.

Bölgənin III-IV əsrlərə aid sosial-iqtisadi quruluşu tam olaraq tədqiq olunmayıb. Sasani dövlətinin III-V əsrlərdəki tarixi isə erkən feodal cəmiyyətinə məxsus olan xüsusiyyətlərin yaranmasını göstərir. Feodallaşma prosesi özünü hər şeydən əvvəl torpaq mülkiyyəti formalarının dəyişməsində göstərir. Bəzən bütöv bir kənd kəndlilərlə birlikdə əyanlara şərti torpaq mülkiyyəti kimi verilirdi. İcmanın istismarı və zəifləməsi nəticəsində feodal tipli torpaq sahibkarları təbəqəsi formalaşdı. Digər tərəfdən, zadəganların (qədim kübar nəsillərin nümayəndələri) iri təsərrüfatlarında qul əməyinin aparıcı rolu azalırdı. O dövrün hüquqi sənədlərində quldarlığın keçid formalarından, qulların qismən azad edilib, onlara torpaq verilməsindən danışılır. Qulların qismən azad edilməsi öz əməyinin nəticəsində maraqlı olan yeni işçi zümrəsinin yaranması tələbatına tam cavab verirdi. Sosial mənada qismən azad edilmiş qul asılı hala salınmış icma üzvünə yaxın idi.

Sasanilər dövründə Parfiyanın dini sinkretizminin yerini dövlət dini kimi zərdüştlük tutdu. Yeni sülalənin ilk şahənşahları zərdüştlüyün müqəddəs kitabı olan Avestanın yenidən yığılması və mətninin redaktə olunmasını əmr etdilər. Bu iş yalnız II Şapurun hakimiyyəti dövründə tamamlandı. Avesta bir növ ensiklope-

diya idi. Onun içinə dini mətnlərlə yanaşı, astronomik, kosmoqonik, hüquqi, mənəvi və digər mətnlər də daxil idi. Avestanın qədim dili Sasanilər dövründə çoxlarına aydın deyildi. Buna görə də, sonralar o, pəhləvi ləhcəsinə tərcümə edildi. Tərcüməsi çətin olan söz və cümlələrə isə Zənd adını almış şərhlər yazılmışdır.

Zərdüştlüyün səciyyəvi xüsusiyyəti dualizm – dünyada iki qüvvənin: Hörmüzün başçılığı ilə xeyir qüvvənin, Əhrimanın başçılığı altında şər qüvvənin daimi mübarizəsi dayanır. Xeyir ilahələri (günəş, ay, məhsuldarlıq ilahəsi) və mələkləri Hörmüzə, şər dünyasının ruhları isə Əhrimana tabe idilər. Xeyir və şərin mübarizəsində sonda xeyir qələbə çalacaqdı. Hər bir insan bu mübarizədə Hörmüzün tərəfində çıxış etməli idi. Bir çox ayinlərin və xüsusi mərasimin icra edilməsi insanın həyatda rast gəldiyi şər və qaranlıqdan qoruyacaqdı. Zərdüştlüyün tərəfdarları həm də ikinci dərəcəli tanrılara etiqad edirdilər: onlar müqəddəs təbiət qüvvələri sayılan oda, torpağa, suya sitayiş edirdilər. Dini ayinlərin yerinə yetirildiyi yer hər bir kənddə, mahalda və əyalətdə yerləşən od məbədləri idi. Kahinlər nəinki ayinləri yerinə yetirirdilər, məhkəmə icraatı və təhsil də onların əlində cəmləşmişdi. Onlar həm də varislik məsələlərində həlledici rola malik idilər. Onlar hər bir insanın həyatına müdaxilə edirdilər. Buna görə də, III-V əsrlərdə baş verən xalq hərəkatları təriqətçilik və yeni dinə can atılması formalarını alırdı.

III əsrin ortalarında yeni dini təlim – maniçilik meydana gəldi. Bu təlimin banisi Mani *qnostik*[1] təriqətlərin birində tərbiyə edilmişdi və zərdüştlük və xristianlıq ilə yaxından tanış idi. O, bütün köhnə dinləri əvəzləyəcək yeni dinin yaranmasını elan etdi. Amma zərdüştlükdəki dualizm onun dini konsepsiyasında əsas yerlərdən birini tuturdu. Dünyanın əsas iki elementi – xeyir və şər daimi olacaqlar və daima mübarizə aparacaqlar. Xeyir qüvvələri birinci insanı yaratdı. Şər qüvvələri ilk insanı ələ keçirdi. Xeyir qüvvələri birinci insanı əsarətdən azad etdi, lakin onun daxilində şər dünyasından çox şey qaldı. Şərdən qurtulmaq üçün insan dünya-

---

[1] Xristianlığın ilk dövrlərində xristian dini, yunan idealist fəlsəfəsi və şərq dinləri əsasında qurulan dini-fəlsəfi cərəyan

nın maddi naz-nemətlərindən uzaq olmalı və özünü daxilən təkmilləşdirməlidir. Mani öz çıxışlarında asketizmə (tərkidünyalığa) nikahsızlığa, qan tökməməyə çağırırdı. Əslində bu çağırışlar istismar edilənlərin istismarçılara qarşı passiv etirazı idi. Mani öz təlimini 241-242-cı illərdə – şahənşah I Şapurun hakimiyyəti illərində təbliğ etməyə başladı və təqiblərlə üzləşdi.

Nəticədə o, vətənini tərk etməyə məcbur oldu. Geriyə dönən Mani 276-cı ildə ələ keçirildi və zərdüşt kahinlərinin təkidi ilə edam edildi. Lakin maniçi icmalar XI əsrə qədər mövcud oldu.

III-IV əsrlərdə Mesopotamiyada, Xuzistanda və bəzi başqa bölgələrdə xristianlıq geniş yayıldı. Xristianlıq Roma imperiyasının dövlət dininə çevriləndən sonra Sasani şahənşahı və zərdüşt ruhaniləri yerli xristianları Romanın siyasi müttəfiqləri kimi görməyə başladılar. Yaddinliyə qarşı qanlı təqiblər fasilələrlə IV əsrin 30-cu illərindən 80-ci illərinə qədər davam etmişdir. Suriya kilsəsi 484-cü ildə nestorianlığı qəbul etdi və Bizans kilsəsi ilə əlaqələri kəsdi. Bundan sonra xristianları təqib etmək üçün siyasi bəhanələr bitdi, nestorianlıq və monofizitliyin mövcud olması qanun tərəfindən təsbit olundu. Xristianların böyük qismi Mesopotamiyada yaşayan suriyalılar və Qafqaz xalqlarından idilər. Xristianlığın şərqə – Mərv bölgəsinə sızması ilə farsdilli əhali də xristian icmalarına girməyə başladı.

Sasani imperiyasının daxilində bir çox yəhudi məskənləri mövcud idi. Yəhudilər Mesopotamiya və İsfahanın yaşayış məntəqələrində yaşayırdılar. Onlar dini etiqadlarını azad şəkildə ifadə edə bilirdilər. Şərqdə – Bəlxdə buddizm yayılmışdı.

**Məzdəkilər hərəkatı**

V-VI əsrlərin qovşağında ölkədə Məzdəkin ideoloji təsiri altında geniş xalq hərəkatı başladı. Mənbələr Məzdəkin bidətçi mobed olduğunu deyirlər. Məzdəkin təlimində həm dini, həm də sosial konsepsiya var idi. Dini konsepsiya olaraq məzdəkçiliyin əsasında sinkretiklik dururdu. Burada zərdüştlüyün, maniçiliyin, ellinizm fəlsəfəsi və xristian dini icmaları təlimlərinin elementləri birləşmişdi. Zərdüştlükdən məzdəkilər dualizmi götürmüşdülər. Maniçilərdən fərqli olaraq, onlar xeyir dünyasını ağıl və idrak, şər dünyasını isə kortəbiilik və dü-

şüncəsizlik daşıyıcısı hesab edirdilər. Bu da, daha fəal siyasi fəaliyyət üçün əsas verirdi. Məzdəkiliyin sosial konsepsiyasına görə, dünyada mövcud olan qeyri-bərabərlik və ədalətsizlik şər əməlin nəticəsidir. İdrak və ədalət dünyasının qurulması üçün isə hamı bərabər olmalı, bütün maddi nemətlər bərabər bölünməli idi. Qan tökmək əgər şər dünyasına qarşı deyilsə, günahdır. Son tezis zülmkarlara və istismarçılara qarşı geniş xalq üsyanına haqq qazandırırdı və onu labüd edirdi.

Feodallaşma prosesinin sürətlənməsi və təsərrüfat çətinlikləri kütləvi xalq hərəkatı üçün münbit şərait yaratdı. V əsrin ikinci yarısında azad icma üzvlərinin böyük hissəsi artıq asılı vəziyyətə düşmüşdülər. Onların yeni dinin bayrağı altında çıxışları azad icmanın bərpası üçün edilən cəhdlərdən biri idi. Üsyanın aparıcı qüvvəsini təşkil edən kəndlilərlə yanaşı, hərəkatda silki ayrıseçkilikdən əziyyət çəkən digər sosial qruplar da iştirak edirdi: qullar, sənətkarlar və s. Geniş kütlələr arasında ciddi narazılıqlar əsasən, V əsrin sonuna doğru gücləndi. Təbii fəlakətlər – quraqlıq, qıtlıq, çəyirtkələrin basqını aclığa gətirdi və bu, 481-ci ilin üsyanı üçün əsas səbəb oldu. Üsyançılar dövlətə məxsus taxıl anbarlarının açılmasını tələb etdilər. Hökumət güzəştə getdi, lakin münaqişənin genişlənməsinin qarşısını almaq artıq mümkün deyildi. Xalq varlı adamların evlərinə basqın edir, onların var-dövlətini talayırdı. Hərəmxanalardan çoxsaylı arvadları və kənizləri qaçırdırdılar.

Bu hərəkatın inkişafını iki mərhələyə bölmək olar: 496-cı ilə qədər bu hərəkat şahın dəstəyinə malik idi. 499-529-cu illərdə isə şah məzdəkiləri dəstəkləməkdən imtina etdi. 486-cı ildə taxta çıxan Qubad Məzdəki öz müşaviri təyin etmişdi. Məzdəkilərin vasitəsi ilə o, dövlət işlərinə həddindən artıq müdaxilə edən əyanları və kahinləri zəiflətməyi düşünürdü. Amma onun rəqibləri qələbə çaldılar və 496-ci ildə şah qaçaraq eftalitlərin başçısı Ağşuvar xanın himayəsinə sığınmağa məcbur oldu. Onunla qohumluq əlaqələrinə girəndən sonra Qubad 499-cu ildə yadelli qoşunla geriyə döndü və taxtı ələ keçirdi. Eftalitlərdən başqa, şahı əyanların bir qismi və şah nəsli də dəstəkləyirdi. Ən təhlükəli rəqiblər edam edildilər, digərləri ilə isə saziş bağlandı. Hərbi əməliyyatlarda

uğurlar ordunu zənginləşdirdi, xəzinəyə pul gətirdi və Qubadın şəxsi nüfuzunu möhkəmləndirdi. Artıq o, məzdəkilərin dəstəyinə ehtiyac duymurdu və buna görə də onları zəiflətməyə başladı. Məzdəkilərə son zərbəni 529-cu ildə Qubadın oğlu Xosrov vurdu. Məzdəkin bir çox tərəfdarı edam edildi, digərləri ölkənin ucqarlarına və xaricə qaçdılar.

Məzdəkilər hərəkatının uzunmüddətli nəticələri oldu. Əyanların zəifləməsi nəticəsində şah mütləq ali hakimiyyətə qovuşdu. Təhlükəli bidətin aradan qaldırılmasına baxmayaraq, kahinlərin hakimiyyətinə ağır zərbə endirildi. Artıq iyerarxik cədvəldə mobedan-mobed titulu bir sıra dünyəvi titullardan aşağı sayılırdı.

**I Xosrovun islahatları**

Məzdəki hərəkatının ciddi nəticələrindən biri – vergi islahatı idi. Bu islahat Qubad tərəfindən başlanıldı və I Xosrov Ənuşirəvanın (531-579) dövründə sona çatdırıldı. Vergi toplanmasının əvvəlki sistemi köhnəlmişdi və xəzinənin tələbatını ödəmirdi. İslahatdan öncə torpaq vergisi (xaraq) natura ilə ödənirdi və məhsulun 1/8-dən 1/3-ə qədərini təşkil edirdi. Verginin ölçüsü vergi toplayanlar tərəfindən təyin olunurdu və bu, sui-istifadələr üçün münbit zəmin yaradırdı. Vergi sistemi bütün yararlı torpaqların ölçülməsi, əhalinin siyahıya alınması və məhsuldar ağacların sayılmasından sonra yazılan kadastrlara əsaslanırdı. Becərilən bitki növünə, suvarma şəraitinə və şəhərlə yaxınlığa görə vergi tarifləri təyin olunurdu. Yeni şəraitdə vergi məhsul, həm də pul ilə alınırdı. Torpaq vergisinin tarifi sahənin bir vahidinə görə toplanırdı. Dənli bitkilər, yem bitkiləri və üzümlüklərdən olan vergi 1 *qərib* (1/4 hektardan 1/3 hektara qədər) ilə hesablanırdı. Xurma, zeytun və digər meyvə ağaclarından onların sayına əsasən vergi toplanırdı. Can vergisi («*qezit*») pul ilə alınırdı. Bu vergini 20 yaşdan 50 yaşa qədər vergi mükəlləfiyyətli bütün əhali verirdi və o, əmlak vəziyyətindən asılı olaraq 4, 6, 8, 12 dirhəm arasında dəyişirdi. İslahatlar nəticəsində xəzinəyə daimi vəsait gəlməsi təmin olundu.

I Xosrovun Məzdəkilər hərəkatı gedişində zərər çəkmiş və kasıblamış varlı əyanlar nəsillərinin bərpasına çalışdığına baxmayaraq, o, əslində yeni – özündən asılı bir əyan təbəqəsi ya-

ratmağa çalışırdı. O, əsilzadə ailələrinə yardımlar göstərir, eyni zamanda tələb edirdi ki, onlar sarayda qalsınlar və ya xidmət göstərsinlər. Şah məmurları onların sırasından təyin edirdi. Sosial təbəqələrin daxilində baş verən yeni qruplaşma hərbi silkin orta təbəqəsini və mirzə silkinin nümayəndələrini aparıcı mövqeyə çıxardı. Xırda və orta torpaq sahibləri («dehqanlar», sonralar isə «azad»lar) feodal sinfinin ən çoxsaylı hissəsi oldular, azad icma üzvləri isə müstəqilliklərini tam itirdilər və asılı vəziyyətə düşdülər. Formalaşmış erkən feodal cəmiyyətində quldarlıq və patriarxal quruluşa məxsus üsullar uzun müddət ərzində davam etdi.

Hərbi-inzibati islahatların keçirilməsi də I Xosrov Ənuşirəvanın adı ilə bağlıdır. Əvvəllər mövcud olan könüllü süvari dəstələrlə yanaşı, xırda və orta torpaq sahibkarlarından təşkil olunmuş nizami süvari qoşun yaradıldı. Piyada dəstələri əvvəlki kimi köməkçi rol oynayırdılar. Bundan başqa, köçəri tayfaların bir hissəsi sərhəd xidmətinə cəlb olundu. Şahənşahın da iştirak etdiyi hərbi baxışlar nizami qoşunlar üçün məcburi edildi. I Xosrov ali baş komandan vəzifəsini ləğv edərək, onu 4 patkospan arasında bölüşdürdü. Onlar idarə etdiyi ərazidə həm inzibati, həm də hərbi hakimiyyətə malik idilər. Hərbi rəhbər olan hər bir patkospan spahbed (ordu başçısı) titulunu daşıyırdı.

Ölkənin daxilindəki əhəmiyyətli islahatlarla yanaşı, I Xosrov fəal xarici siyasət aparırdı. Taxta çıxanda o, Bizansla sülh bağlamağa məcbur idi, lakin 540-cı ildə yenidən hərbi əməliyyatlara başladı. Şahənşahın qoşunları Suriyadan keçərək, Oront çayı üzərində yerləşən Əntakiyə şəhərini dağıtdılar. Bundan sonra hərbi əməliyyatlar Cənubi Qafqaza keçirildi və bir neçə il ərzində Lazika uğrunda mübarizə getdi. 561-ci ildə I Xosrov və imperator Yustinian arasında hər iki imperiyanın öz sərhədləri çərçivəsində qalması şərti ilə «əbədi sülh» imzalandı. Lakin bir neçə on il sonra sülh yenidən pozuldu.

Sasani – Bizans rəqabəti yalnız Cənubi Qafqaz və Qara dəniz hövzəsi ilə məhdudlaşmırdı. Onların maraqları Cənubi Ərəbistanda – Yəməni Aralıq dənizi ilə birləşdirən «ətir yolu»nda da toqquşurdu. Bu ticarət yolu vasitəsi ilə Bizansa Hindistandan əd-

viyyatlar, fil sümüyü, boyalar və parçalar, Yəməndən büxur – ətirli qətran, qızıl filizi və külçə, afrikalı qullar gətirilirdi. Həmin ticarət yolu uğrunda mübarizədə həm Sasanilər, həm də Bizans Yəməndəki yəhudi və xristian icmaları arasındakı ədavətdən istifadə edirdilər. Xristian icması Bizansa, yəhudi icması isə Sasanilərə meyl edirdilər. 517-ci ildə taxta çıxan Himyari padşahı Yusif Zu-Nuvas iudaizmi qəbul etdi və Bizansa qarşı düşmənçilik siyasəti aparmağa başladı. Bizans öz mövqelərini həbəş qoşunlarının köməyi ilə bərpa etməyə cəhd etdi. Həbəş qoşunlarının Yəmənə ilk hücumu uğursuz alındı, lakin 525-ci ildə onlar Cənubi Ərəbistanda möhkəmləndilər və xristianlıq burada qələbə çaldı. Həbəşlərin Yəməndəki hökmranlığı 50 ildən artıq davam etdi. 577-cü ildə Sayf ibn zu-Yazanın başçılığı altında Himyari əyanları I Xosrov Ənuşirəvanın dənizlə göndərdiyi dəstənin köməyi ilə çevriliş etdilər və ölkəni həbəşlərdən azad etdilər. Bundan sonra Yəmən şahənşaha bac verməli oldu. 589-599-cu illərdə ölkənin Sasanilər dövlətinə birləşdirilməsi baş verdi və 628-ci ilə qədər onu şahənşah tərəfindən təyin edilmiş mərzban idarə edirdi. Suriyaya gedən karvan ticarəti yolunun əsas hissəsi Sasanilər dövlətinin əlinə keçdi.

563-567-ci illərdə I Xosrov şimal-şərqdə eftalitləri məğlub etdi və itirilmiş torpaqları qaytarmağa nail oldu. VI əsrdə Göytürk hökmdarı İstəmi xaqan tərəfindən birləşdirilmiş türk tayfaları şərqdən eftalitlərə hücumlar edirdilər və bu da Sasanilərin vəziyyətini asanlaşdırırdı. Eftalitlərin darmadağın edilməsindən sonra türklər Sasani dövlətinin bilavasitə qonşuları oldular. Cavan türk dövləti Bizansın diqqətini çəkirdi və o, bu dövlətlə birbaşa əlaqələrin qurulmasında və qiymətli Çin məhsulu – ipəyi onun ərazisi vasitəsilə çatdırılmasında maraqlı idi.

Əsas ticarət yolları üzərində nəzarət uğrunda mübarizə 571-ci ildə yeni Sasani-Bizans müharibəsinə səbəb oldu. Cənubi Qafqaz yenidən müharibə meydanına çevrildi. I Xosrovun hakimiyyəti illərində başlamış müharibə, yalnız onun nəvəsi II Xosrovun dövründə bitdi.

579-cu ildə I Xosrov Ənuşirəvan vəfat etdi və onun oğlu IV

Hörmüz (579-590) şahənşah oldu. IV Hörmüzün şahlığı dövründə Bizans ilə mübarizə davam etdirildi. Eyni zamanda, türklərə qarşı da hərbi müdaxilələr başladı. IV Hörmüz həm də əyanlar və zərdüşt ruhaniləri ilə mübarizə aparırdı. Onun dövründə şəhərlərin xristian əhalisinə bir sıra güzəştlər edildi. Mənbələrdə IV Hörmüzün asılı torpaq sahiblərinin vəziyyətini yüngülləşdirməsi haqqında heç bir bilgi yoxdur. IV Hörmüz də atası kimi xırda və orta mülkədarlara arxalanırdı. Amma I Xosrov Ənuşirəvanının dövlət aparatında verdiyi əsas vəzifələrin sahibi olan xırda əyanlar, hələ onun hakimiyyəti dövründə iri torpaq sahibkarlarına çevrildilər və feodal sinfinin üst təbəqəsini təşkil etdilər. Faktiki olaraq, mərzbanlar (əyalət hakimləri) və patkospanlar öz torpaqlarının tam sahibinə çevrildilər. Əgər I Xosrovun dövründə mərkəzi hakimiyyətə itaətsizlik halları tək-tək müşahidə olunurdusa, IV Hörmüzün dövründə bu adi hala çevrildi. Mənbələrin verdiyi məlumatlara görə, onun hökmü ilə edam olunanların sayı 13 min nəfəri keçmişdi.

**Sasanilər dövləti VI əsrin sonu-VII əsrin I yarısında**

Aparılan müharibələr ölkə təsərrüfatının tam gücdə işləməsini tələb edirdi. Şimali Qafqazdan xəzərlərin, şərqdən – Amudəryanın, cənubdan – Suriya səhrasından ərəblərin hücumu Sasani dövlətinə olan təhlükəni daha da artırdı. Ərəblərə fidyə verildi, xəzərlər isə darmadağın edildilər. Ən təhlükəli rəqib olan türklərlə 589-cu ilin payız-qış aylarında baş verən müharibədə də qələbə qazanıldı. Sərkərdə Bəhram Çubin böyük qənimət əldə etdi, lakin bu qənimətin yalnız az bir hissəsini paytaxt Ktesifona göndərdi. Hörmüz onu ali baş komandan vəzifəsindən uzaqlaşdırmağa məcbur oldu. Etiraz əlaməti olaraq Bəhram üsyan qaldırdı və Ktesifona doğru irəliləməyə başladı. Üsyanı yatırmaq üçün göndərilmiş hökumət qüvvələrinin böyük hissəsi də onun ordusuna qoşuldu.

Paytaxtın özündə şahın qohumları olan Bindoy və Bistamın başçılığı ilə əyanların sui-qəsdi təşkil olundu. Onlar IV Hörmüzü taxtdan saldılar və kor etdilər, oğlu Xosrovu taxta oturtdular. II Xosrov Pərviz (590-628) hələ gənc idi və nüfuzlu qohumlarının

dediklərini edirdi. O, hərbi qüvvə yaratdı və Bəhram Cubinə qarşı çıxdı, lakin məğlub oldu və paytaxtı tərk edib Bizansa qaçdı. Onun razılığı ilə Bindoy və Bistam IV Hörmüzü öldürdülər.

Bu zaman Bəhram Cubin Ktesifona daxil oldu və taxtı ələ keçirdi. O, ölkəni bir il ərzində idarə etdi. Bizans II Xosrova ərazi güzəştləri şərti ilə hərbi yardım etdi. O, Tiflisə qədər Kartlinin bir hissəsini, Van gölünə qədər əraziləri və ya Meyyafariqin şəhərinə qədər Mesopotamiyanı Bizansa güzəştə getməli idi. Xosrovun başçılıq etdiyi birləşmiş Sasani-Bizans qoşunları və Bəhram Çubinin dəstələri arasındakı döyüşdə sonuncular məğlub oldular. 591-ci ildə paytaxt Ktesifona geri dönən III Xosrov Bizansla sülh müqaviləsi bağladı. Bəhram Çubin türk xaqanının yanına qaçdı, lakin burada Sasani diplomatiyasının fitnələri nəticəsində öldürüldü.

Bizansla sülh dövründə (591-604) ölkədə gərgin daxili mübarizə gedirdi. Qohumların nəzarəti II Xosrovu darıxdırırdı və o, onlardan yaxa qurtarmağa çalışırdı. Sarayda xidmət edən Bindoy edam edildi, Xorasanda mərzban olan qardaşı Bistam isə üsyan qaldırdı. Bu üsyan 595-ci ilin sonunda tam yatırıldı. Amma bununla ölkə daxilindəki çıxışlar bitmədi: Qurqan və Təbəristan tayfaları qiyam etdilər, Nizbində üsyan başladı.

Bizansla sülh müqaviləsinin son dərəcə ağır şərtləri şahın xristianlara münasibətdə siyasətinin müəyyənləşməsinə təsir göstərdi. Onlara kilsə və monastırlarını bərpa etməyə, dini ayinlərini və bayramlarını keçirməyə icazə verildi. Xristianlar saraya buraxılır və burada həkim və tərcüməçi vəzifəsində çalışırdılar. Bir müddət vastrioşan-salar – vergi idarəsinin müdiri vəzifəsini xristian Yezid yerinə yetirmişdi. II Xosrovun hakimiyyəti dövrü rəsmi dairələrin dini məsələlərdə tolerantlığı ilə səciyyələnirdi.

602-ci ildə II Xosrov onun vassalı olan ərəblərin xırda əmrliyi Hiranın muxtariyyətini ləğv etdi. Edam edilmiş əmir Numanın yerinə şahənşahın mühafizəçilərindən olan bir ərəb mərzban təyin edildi. Bu hadisənin nəticəsində Zu-Kar döyüşü (604-cü və ya 605-ci il) baş verdi. Bədəvi ərəblər şahın qoşunlarını ağır məğlubiyyətə uğratdılar.

603-cü ildə ən möhtəşəm Sasani-Bizans müharibəsi başladı. Onun birinci mərhələsində (622-ci ilə qədər) uğur sasanilərin tərəfində idi: onlar Mesopotamiyanı, Suriyanı, Ermənistanı, Misiri tutdular, 3 dəfə Konstantinopola yaxınlaşdılar. Müharibənin aparılması qaydaları tam dəyişmişdi. Əvvəllər ordular əraziləri tutub, onları viran qoymağa çalışırdılar. Bu müharibədə isə Sasani ordusu bölgələrin tədricən tutulması və birləşdirilməsinə çalışırdı. Bu əyalətlərdə II Xosrov monofizitlərə himayədarlıq edirdi. Müharibənin ikinci mərhələsində (622-628-ci illər) Bizans itirdiyi əraziləri geri qaytarmağa nail oldu. 628-cu ildə Sasani paytaxtı Ktesifonda əyanlar xristianların bir hissəsinin dəstəyi ilə sui-qəsd təşkil etdilər və II Xosrov Pərvizi taxtdan saldılar.

I Xosrov Ənuşirəvanın islahatları nəticəsində dövlətin idarə edilməsi üçün mürəkkəb bürokratik aparat qurulmuşdu. II Xosrov Pərvizin hakimiyyəti dövründə bu aparat böyüdü və təkmilləşdi. Fəth olunmuş ölkələrdən gətirilmiş var-dövlət nəinki xəzinəni doldurmağa, həm də geniş məmur heyəti və saysız-hesabsız saray əyanların saxlamağa imkan verirdi. O dövrdə mövcud olan idarəetmə sahələri və təsisatları haqqında müxtəlif sənədlər üçün düzəldilmiş möhürlər yetərincə məlumatlar verir. Şahənşahın gizli işlər, məktublar üçün möhürü, torpağın şərti və yaxud qeyri-şərti istifadəyə verilməsi sənədləri üçün xüsusi möhürü və s. var idi. Maliyyə idarəsi öz möhürünə – «xaraq möhürünə» malik idi. Arxivlərin, şahənşah xəzinəsinin və qarderobunun möhürlənməsi üçün, şahənşahın yeməkləri, dərmanları və hamamı üçün də möhürlər var idi. Ölümə məhkum olunmuş cinayətkarların da boyunlarına xüsusi möhür vurulurdu.

Şaxələnmiş bürokratik aparat və saray həyatının təmtərağı dövlətin iqtisadi vəziyyətini əks etdirmirdi. Müharibədə dönüş yaranandan sonra hərbi qənimətin axını dayandı və əhalidən alınan vergi artırıldı. II Xosrovun əmri ilə 20 və 30 il əvvəlin vergi borclarının yığılması başladı. Bu toplamalar əmlakın müsadirəsi və yeni vergilərin təsbit olunması ilə eyni vaxtda baş verirdi. Vergilərdən yayınmaq üçün kəndlilər ölkədən qaçır, müharibənin ölkə ərazisinə keçməsi ilə minlərlə kəndli və dehqan müflisləşirdi. Şimal-şərq

bölgələrinə türklərin mütəmadi basqınlarından əhali xeyli əziyyət çəkirdi. Müharibənin fəsadları təbii fəlakətlərlə müşayiət olunurdu. II Xosrovun hakimiyyətinin son ilində Dəclə və Fərat çayları axarlarından çıxdı və nəticədə münbit torpaqlar su altında qaldı, əkinlər məhv oldu. II Xosrov öz varislərinə uduzulmuş müharibə və viran qoyulmuş təsərrüfat miras qoydu.

II Xosrov Sasani dövlətinin son qüdrətli şahənşahı idi. Onun ölümü ilə taxt-tac mübarizə aparan əyan qruplaşmalarının əlində oyuncağa çevrildi. Növbəti dörd ildə şah nəslinə aid ona yaxın şəxs taxta çıxdı. Mübarizə aparan qruplaşmalar öz istəyi ilə onları taxta çıxardıb devirirdilər. Müxtəlif bölgələr mərkəzi hökumət ilə bütün əlaqələri kəsdi. III Yezdəgerdin (632-651) dövründə dövləti yenidən birləşdirmək cəhdi edildi. Amma o, çox zəifləmişdi və müsəlman ərəblərin həmlələrinə tab gətirə bilmədi, təslim oldu və ərazisi yeni yaranmış ərəb xilafətinin tərkibinə qatıldı.

## ƏRƏB-MÜSƏLMAN DÖVLƏTİNİN YARANMASI

### İslamaqədərki ərəblərin sosial-siyasi, iqtisadi və dini vəziyyəti

Müasir ərəb ölkələrinin əraziləri orta əsrlər dövrünün əvvəllərində o zamankı dünyanın iki ən böyük dövlətinin – Bizans imperiyasının və Sasanilər dövlətinin tərkibində idi.

Bizans və yaxud Şərqi Roma imperiyası 395-ci ildə Roma imperiyasının parçalanması nəticəsində yaranmışdı. Roma imperiyasının 14 əyalətindən (diosezdən) 8-i Bizans imperiyasının tərkibinə daxil idi. Bunlar Balkan yarımadası, Kiçik Asiya və Ərəb Şərqinin gələcək dövlətlərinin əraziləri, Cənubi Qafqazın bir hissəsi və müasir Cənubi Ukrayna idi. Belə ki, Suriya, Livan və Fələstin romalılar tərəfindən hələ eradan əvvəl I əsrdə işğal edilmişdi. Misir isə Roma imperiyasına y.e.ə. 30-cu ildə qatılmışdı. VI əsrdə Şimali Afrikanın şərq hissələri (Tunis, Əlcəzairin bir hissəsi) Bizansın tərkibinə daxil edilmişdi.

Məlumdur ki, Bizansın Ön Asiya və Hind okeanında ağalıq uğrunda mübarizədə ən böyük rəqibi Sasanilər dövləti olmuşdur.

Sasanilər (224-651) ilk vaxtlardan romalılarla mübarizəyə girmiş, sonra isə Bizansla müharibələr aparmışlar.

Ərəblərin ilkin vətəni Ərəbistan yarımadası sayılır. Qədim dövrə aid tarixi mənbələr ərəblər haqqında məhz Ərəbistan yarımadasının sakinləri kimi məlumat verirlər. Erkən orta əsrlərdə yarımadanın əksər əhalisini köçəri maldarlar təşkil edirdi. Onlar Ərəbistanın səhra və yarımsəhralarında məskunlaşır və ümumən «bədv» («səhrada yaşayan») adı ilə tanınırdılar. Buradan da Ərəbistan köçərilərinin adı «bədəvilər» meydana gəlmişdi. Bədəvilər maldarlıqla (əsasən dəvəçiliklə) məşğul olurdular və təbiətdən çox asılı idilər. Qış yağışlarından sonra yaz gəlirdi və bu da bolluq və əmin-amanlıq dövrü idi. Sonra qızmar yay otlaqları və su mənbələrini qurudur, bədəviləri yeni yaylaqlar axtarmağa vadar edirdi. Onlar böyük məsafələr keçərək, mərkəzdən Suriya səhrasına qədər gəlib çatırdılar.

Beləliklə, coğrafi mühit Ərəbistanın köçəri sakinlərinə – ərəblərə yalnız köçəri maldarlıqla məşğul olmağa imkan verirdi. Köçəri maldarlıq Ərəbistan yarımadası əhalisinin əsas yaşayış mənbəyi, istehsalın əsas növü sayılırdı.

Həmin coğrafi mühit bədəvini dəvədən böyük asılılığa salmışdı. Az tələbatı olan dəvə bədəvi üçün yemək, geyim, ev, yanacaq və digər lazımi şeylərin mənbəyi olmuşdu.

V-VI əsrlərdə Ərəbistanın oturaq əhalisi bədəvilərlə müqayisədə azlıq təşkil edirdi. Oturaq əhali əkinçiliklə məşğul olurdu ki, bu da əsasən, süni suvarma sistemləri olan yerdə mümkün idi. Ənənəvi əkinçilik əyaləti Yəmən idi. Məlumdur ki, Cənub-Şərqi Ərəbistan Afrikadan Bab əl-Məndəb boğazı ilə ayrılır və Yəmən adı ilə tanınır. Bu dağlıq ölkə olduqca zəngin torpaq sahələrinə və yüksək mədəniyyətə malik idi. Uzaq keçmişdə ərəblər bütün qədim xalqlar kimi, günəşə sitayiş etmiş və ibadət zamanı üzlərini Şərqə (gün doğan yerə) tutmuşdular. Ona görə də cənub – sağ tərəf – Yəmən, şimal isə sol tərəf – Şam adlanırdı. İbtidai inama görə sağ tərəf xoşbəxtlik, sol tərəf isə bədbəxtlik rəmzi idi. Yəmən qədimdən əkinçiliyin, mədəniyyətin, ticarətin yüksək inkişaf həddinə çatdığı bir ölkə kimi tanınırdı.

Qədim Yəmən əhalisi özünəməxsus mədəniyyət və hətta yazı da yaratmışdılar. Onun həkk edilmiş daş və metal üzərində nümunələri bizim günlərə qədər gəlib çıxmışdır. Gözəl sarayların, məbədlərin və nəhəng suvarma sistemlərinin də xarabalıqları qalmışdır. Bunlardan ən böyüyü VI əsrin ortalarına aid Mərib bəndi idi.

Bu yüksəliş Himyarilər (300-525) padşahlığının hakimiyyəti illərinə təsadüf edir. Yəməndən başqa, Hadramaut da Himyarilər dövlətinə daxil idi. Ancaq yəmənlilərin şimala köçməsi və həbəş Aksum dövləti tərəfindən edilən hücumlar Himyarilər dövlətini zəiflətdi və ərazisinin həbəşlər tərəfindən tam tutulması ilə nəticələndi. 575-ci ildə isə Sasani şahənşahı I Xosrovun hərbi-dəniz ekspedisiyası Yəmən sahillərinə gəlmiş və həmin ildə bu ərazi üzərində Sasanilərin hökmranlığı bərqərar edilmişdi.

Geniş əkinçilik əraziləri ilə yanaşı, Ərəbistanın iqtisadiyyatında vahələr də az yer tutmurdu. Vahə ərazi etibarı ilə geniş bir sahə idi. Burada tarlalar, bağlar var idi. Qurumayan su quyularından istifadə edən əhali isə bazarları, karvansaraları, məbədləri olan kəndlərdə yaşayırdı. Bu kəndlərin bəziləri böyüyüb sonradan şəhərlərə çevrilirdi. Ən böyük vahələrdən biri Yasrib (gələcək Mədinə) sayılırdı. Onun yaxınlığında Taif kimi iri yaşayış məntəqəsi var idi. Taif əhalisi Məkkə sakinlərini kənd təsərrüfatı məhsulları ilə təmin edirdi.

V-VI əsrlərdə Ərəbistanın iqtisadi vəziyyətindən bəhs edərkən yarımoturaq, yarımköçəri əhalinin də varlığı və fəaliyyətini nəzərdən qaçırmaq olmaz. Şübhəsiz ki, min illər ərzində Ərəbistanda köçərilərin oturaq həyata keçmə prosesi gedirdi. Belə qəbilələr vahə və yaxud əkinçilik rayonlarında məskunlaşır və müəyyən torpaq sahələrini becərirdilər. Sonra qəbilələrin böyük hissəsi mal-qara ilə otlaqlara gedir, bir qismi isə torpağı qorumağa qalırdı.

Beləliklə, V-VI əsrlərdə Ərəbistan həm köçəri maldarlığa, həm də əkinçiliyin varlığına rast gəlmək olurdu. Ərəblər V-VI əsrlərdə (Yəmənin oturaq əhalisi istisna olmaqla) ibtidai-icma münasibətlərində qalırdılar. Bu cəmiyyətdə dövlət və ona məxsus təsi-

satlar hələ formalaşmamışdı. Ərəblər ayrı-ayrı qəbilələr şəklində yaşayır və bu halda insanları bir-birinə bağlayan yeganə amil qan qohumluğu olurdu.

VII-VIII əsr ərəb müəlliflərinə görə, bütün ərəblər öz kökləri etibarılə İbrahim peyğəmbərə bağlıdırlar. Şimal ərəblərinin əcdadı bu peyğəmbərin oğlu İsmail, cənub ərəblərinin isə Kahtan hesab olunurdu (özü də ki, cənub ərəbləri – əsil, şimallılar isə ərəbləşmiş ərəb sayılırlar).

Hər iki əsas qrup (yəni cənub və şimal) bir çox qəbilələrdən ibarət idi. Onların hər biri isə öz adı ilə tanınırdı. I əsrin ikinci yarısından başlayaraq qəbilələrin cənubdan şimala – Mesopotamiiyaya, Suriyaya, Misirə keçməsi müşahidə olunurdu. Artıq V-VI əsrlərdə müasir Urdun ərazisində ərəblərin Sassanilər (Bizansdan asılı olan) dövləti yaranır və onlar xristianlığı qəbul edirlər. Suriya səhrasının və Mesopotamiyanın sərhədlərində digər ərəb dövləti – Sasanilərdən asılı olan Ləhmilər dövləti (paytaxtı – Hira) meydana gəlmişdir.

V əsrdə Ərəbistanın mərkəzində – Nəcddə Kinda dövləti meydana gəldi. O, Yəmən Himyariləri ilə sıx əlaqədə olmuşdur. VI əsrin əvvəllərində bu dövlət Ləhmilərin çarı II Münzir tərəfindən tutulmuşdu. Bu dövlətlər demək olar ki, qəbilə ittifaqları idi. Bunların hakimləri, əsasən, hərbi başçılar idi və onlar xalq toplantıları əsasında öz işlərini qururdular.

Cənub və Şimal ərəb tayfalarının qədim dini animizm, yəni təbiət qüvvələrinə itaət, qəbilə bütlərinə, günə və aya inam idi. Onların adları isə müxtəlif idi. Şimali Ərəbistanda və Məkkədə üç ilahi qüvvə daha çox sayılırdı: Lat, Uzza və Manat. Bu qədim ərəb «bütpərəstliyini» ərəblər sonralar «cahiliyyə» dövrü adlandırmışlar. Bir çox ilahi qüvvəyə inamla yanaşı şimal ərəbləri arasında böyük bir qüvvənin – İlahın mövcudluğu da qəbul olunurdu. Onun haqqında təsəvvür çox ümumi və qaranlıq idi.

İbtidai icmanın dağılması, torpaq üzərində xüsusi mülkiyyətin meydana gəlməsi, əyanlar və adi qəbilə üzvləri arasında ziddiyyətlərin artması Şimali Ərəbistan cəmiyyətini sarsıtmış və burada dəyişikliklərə gətirib çıxartmışdı. Bu böhrandan çıxmaq üçün

ümumərəb dövlətinin yaranması zərurəti yaranmışdı. Qəbilələrarası düşmənçilik və ayrıseçkiliyi aradan götürmək üçün yeni bir ideologiya lazım idi və bu rolu yeni dini sistem öz üzərinə götürmüş oldu.

İbtidai icma münasibətlərinin dağılma prosesi, bu quruluşa mənsub olan dini ideologiyanın – poleteizmin də dağılmasına gətirib çıxarmalı idi. Bu dövrdə samilər, o cümlədən ərəblər arasında (həm cənubda, həm şimalda) monoteist dinlərin birincisi – iudaizm yayılmışdı. Ərəbistanda iudaizmin mərkəzi əsasən, Yəmən şəhərləri, Şimali Hicazın vahələri (xüsusilə Yasrib) olmuşdur.

Onun ardınca regiona ikinci monoteist din – xristianlıq da gəlmişdir. Bu din Suriya Sassanilərindən Ərəbistana keçmiş, həmçinin qonşu Həbəşistan vasitəsilə yayılmışdır. İslamaqədərki Ərəbistanda adı çəkilən təkallahlı dinlərlə yanaşı sırf ərəb mədəniyyətinin monoteist təriqəti – hənifilik də yayılmışdı. Hənifilər iudaizm və xristianlığın bəzi müddəalarını qəbul etmiş, bununla yanaşı, dini sadə, sıravi ərəbin anlayışına yaxın etməyə çalışmışdılar.

**Məkkə**

İslamın vətəni Hicazda yerləşən Məkkə şəhəri sayılır. Burada Zəm-zəm quyusu, Kəbə məbədi və Qara daş yerləşir ki, bunlar qədim dövrlərdən bədəvi tayfa və qəbilələrin ziyarətgahı olmuşlar. Qədim məbəd ətrafında yerləşən şəhəri hələ islamaqədərki vaxtlarda «İlahın evi» kimi tanıyırdılar və məkkəlilər özlərini «İlahın qonşuları» adlandırırdılar. Məkkə sakinlərinin əsas məşğuliyyəti ticarət idi. Orta əsrlər ərəb tarixçisi Yaqubi bir varlı Məkkə sakininin dili ilə deyir: «Bizim şəhərin həyatı, varlığı və gələcəyi ticarətdən asılıdır».

Məkkədə ticarətlə yanaşı, sələmçilik də geniş yayılmışdı. Bu iki amil burada bütün regiona nisbətən ibtidai-icma quruluşunun dağılma prosesini xeyli sürətləndirmişdi. Şəhərdə müxtəlif qəbilələr məskunlaşmışdı. Onların da arasında «qureyş» qəbiləsi xeyli fərqlənirdi. Onun əyan dairələri, xüsusilə Həşimilər nəsli öz iqtisadi və sosial inkişafı baxımından o biri nəsillərdən irəlidə idi. Məhz bu nəslin nümayəndəsi Məhəmməd peyğəmbər islam dininin banisi olmuşdur.

## İslamın meydana gəlməsi

Ənənəvi təsəvvürlərə görə Məhəmməd peyğəmbər 570-ci ildə Həşimilər nəslinin nümayəndəsi Abdullahın ailəsində anadan olmuş, lap erkən atasını, altı yaşında isə anasını itirmişdir. O, əmisi Əbu Talibin himayəsində böyümüş və sonra Xədicə adlı varlı bir qadınla evlənmiş, bu da ona öz dini axtarışları ilə azad məşğul olmaq üçün müəyyən maddi imkanlar vermişdir.

Məhəmməd peyğəmbərin ilk çıxışları 610-cu ilə təsadüf edir. O, ilk əvvəl yeni dinin təbliğatçısı kimi yox, hənifilərin təkallahlıq ideyasının təşviqatçısı kimi fəaliyyətə başlamışdı. O, «islam» (dinin adı «Allaha itaət»), «müsəlman» terminlərini öz ardıcıllarına, həm də hənifilərə şamil edirdi. Məhəmməd peyğəmbər öz təlimini dinləyicilərinə Allah tərəfindən ona verilən vəhy kimi təqdim edirdi. Gələcəkdə onun çıxışları yığılıb və redaktə olunandan sonra müsəlmanların müqəddəs kitabı – Quranın əsasını təşkil etdi.

Məkkədə Məhəmməd peyğəmbər nə şəhər sakinləri, nə də ətraf bölgələrin bədəviləri arasında özünə sosial dayaq tapa bilmədisə də, ardıcılları oldu. Bunlardan Əbu Bəkri, Osmanı, əmisi oğlu Əlini, gənc Öməri göstərmək olar. İlk vaxtlar Məkkədə müsəlmanların sayı çox deyildi. Məkkə əyanları Əbu Sufyan başda olmaqla Məhəmməd peyğəmbərə qarşı çıxış edirdilər. Onlar qorxurdular ki, təkallahlığın təbliği Kəbənin tənəzzülünə gətirib çıxara bilər və bu da nəinki zəvvarların buraya axınını azaldar, həm də ticarətin zəifləməsinə gətirər və Məkkənin siyasi nüfuzunu heçə endirər.

Bir müddətdən sonra Məkkə müsəlmanları böyük problemlərlə rastlaşdılar. Məhəmməd peyğəmbərin əmisi (Haşimilər arasında onu dəstəkləyən adam) Abu Talibin və arvadı Xədicənin vəfatından sonra, onun Məkkədə vəziyyəti daha da ağırlaşdı. Şəhərdə qalmaq təhlükəli oldu. Peyğəmbərin qonşu Taifdə dayaq tapmaq cəhdləri puça çıxdıqdan sonra müsəlmanlar çıxış yolunu Yasrib şəhərinə köçməkdə gördülər. Bu hadisə 622-ci ilin 20 sentyabrında baş vermiş və «hicrə» («köçmə») adını almışdır. Bu il müsəlman təqviminin birinci ili sayılır. Peyğəmbərlə Məkkədən gələn ilk müsəlmanlar «mühacir» və Mədinədə islamı qəbul edənlər «an-

sar» adı ilə tanınırdılar. Yasrib şəhəri bundan sonra «Mədinət ər-rasul», yəni «peyğəmbərin şəhəri» adlandırıldı.

**İslam Mədinədə**

Mədinədə müsəlman icması daha mütəşəkkil forma aldı, əsas adət və ənənələr bərqərar edildi, ilk məscid quruldu.

Mədinədə öz həmkarları ilə məskunlaşmış Məhəmməd peyğəmbər heç də Məkkənin çoxallahlığa sitayiş edən əyanları ilə mübarizədən əl çəkmədi. Müsəlmanlar bütpərəst Məkkənin ticarət fəaliyyətinə mane olmağa çalışırdılar və buna Məkkədən Suriyaya gedən yolu kəsməklə nail oldular. İlk dəfə 623-cü ildə müsəlman dəstələri Məkkə karvanına hücum etdi. 624-cü ildə məşhur Bədr döyüşündə əldə edilən hərbi qənimətı Məhəmməd peyğəmbər tərəfindən müsəlmanlar arasında bölüşdürülmüş (burada atlı piyadanın payından 3 dəfə çox almışdı), 1/5 hissəsi (xüms) isə peyğəmbərin, onun ailəsinin, yetim və kasıbların hesabına verilmişdi.

625-ci ildə yenidən Məkkə karvanına basqın edilmişdi. Buna cavab olaraq Əbu Sufyan böyük qoşunla Mədinəyə hücum etmiş, ancaq şəhəri tuta bilməmişdi.

627-ci ildə məkkəlilər 10 minə yaxın ordu ilə Mədinəni tutmaq üçün yeni cəhd göstərmiş, lakin bu da onların məğlubiyyəti ilə başa çatmışdı.

628-ci ildə isə Məhəmməd peyğəmbər 1500-ə yaxın adamla Məkkəyə yaxınlaşdı. Uzun danışıqlardan sonra qureyşilərin tayfa başçıları Xudaybiyyə adlı yerdə müqavilə bağladılar və onun şərtləri belə idi:

1. 10 il müddətinə barış bərqərar olur;
2. Müsəlmanların Kəbəyə ziyarətinə icazə verilir;
3. Məhəmməd peyğəmbər Məkkə karvanlarına hücum etməyəcəkdir.

Bu müqavilə müsəlmanların ilk diplomatik uğuru oldu. Peyğəmbərin siyasi nüfuzu artdı və o, hətta Əbu Sufyanın qızı ilə evlənməklə, qureyşilər arasında özünə yeni müttəfiq qazandı. Məkkənin özündə də müsəlmanların sayı artdı və bütün bunlar 630-cu ildə müsəlmanların Məkkəyə səfəri və şəhərin «tutulması» ilə ba-

şa çatdı. Müsəlmanlar müqavimətsiz Məkkəyə girdilər. Şəhər əhalisi onları ehtiramla qarşıladı.

Bu hadisədən sonra Məkkə-Mədinə müsəlman icmasının hakimiyyəti qonşu qəbilələrə, sonra isə Taifə, onun ətrafına yayıldı və Ərəbistan sakinləri müsəlmanlarla müqavilə bağlayıb islamı qəbul etdilər.

Beləliklə də, müsəlman icması qüvvətləndi və böyüyüb gələcək dövlətin təməli oldu. Onun əsasında ərəb müsəlman dövləti təşəkkül tapdı. Məkkənin təslim olmasından sonra da Məhəmməd peyğəmbər Mədinədə qalmış və burada 632-ci il iyunun 8-də vəfat etmişdi. Məhz bu səbəbdən də, bu şəhər Kəbədən sonra müsəlmanların ikinci müqəddəs ziyarətgahıdır.

## Ərəb xilafətinin yaranması

### «Xülafə ər-Raşidin» dövrü və ərəb işğalları

Peyğəmbərin ölümündən sonra hakimiyyətə kimin gəlməsi uğrunda qalxan mübahisələr Ömərin vasitəçiliyi ilə həll edildi. Əbu Bəkr (632-634) icmanın başçısı oldu və Peyğəmbərin davamçısı kimi xəlifə titulunu qəbul etdi. Ondan sonra icmaya Ömər (634-644), Osman (644-656) və Əli (656-661) rəhbərlik etmişlər. Bu xəlifələr «xülafə ər-raşidin» («dürüst-doğru xəlifə»lər) adlanırlar.

Onların dövründə, Ərəbistanın tam tutulmasına qədər, ərəblər qonşu dövlətlərə – Sasani və Bizans ərazilərinə soxulmağa başladılar. Bütövlükdə, ərəb işğalları 633-751-ci illəri əhatə edir. Bu işğalların birinci mərhələsi isə üç xəlifə – Əbu Bəkr, Ömər və Osmanın hakimiyyəti dövrünə təsadüf edir.

633-cü ilin payızında üç ərəb dəstəsi (hərəsində 7500 nəfər olmaqla) Suriya səhrasını keçərək Fələstin və Suriyaya daxil oldular. Bizans qüvvələri ərəb dəstələrinə lazımi müqavimət göstərə bilmədi və bir il müddətində ərəblər Bizansın Suriyadakı ərazilərinin çox hissəsini tutdular.

Ərəb müdaxiləsinin böyük işğala çevrilməsini anlayan Bizans hərbi rəhbərliyi imperator İrakli başda olmaqla Şimali Suriyaya

böyük hərbi qüvvə cəmləşdirdi. Yunanlardan başqa onun tərkibində suriyalılar, əl-Cəzirə (Mesopotamiya) əhalisinin və ermənilərin dəstələri də daxil idi. Bu ordunun sayı ərəb tarixçilərinin verdiyi məlumata görə 200 minə, ərəblərin dəstələrində olan döyüşçülərin sayı isə 24 minə çatırdı. Ərəblər, bizanslılar yaxınlaşdıqca Dəməşq və bir sıra şəhərləri tərk edib Yarmuk çayına qədər geri çəkildilər. Burada 636-cı ilin 20 avqustunda ərəb və Bizans ordularının həlledici döyüşləri baş verdi. Bu zaman Bizans 70 min döyüşçü itirdi. Döyüşün nəticəsinə bu fakt da təsir etdi ki, yunan və erməni hissələri arasında silahlı mübahisələr olmuş, Suriya ərəbləri isə ərəblərin tərəfinə keçmişdilər. Bu hadisədən sonra ərəblər Suriyanın tam sahibi oldular.

Ərəblərin Cənubi İraqa, Hira padşahlığına müdaxilələri də əvvəl yürüş xarakteri daşımış, Yəmamə hənifilərinin müqavimətini qırandan sonra ərəb sərkərdəsi Xalid ibn Valid 633-cü ildə Hiranı tutmuş, ancaq sonra Sasanilərlə toqquşmalarda uduzub geri çəkilməyə məcbur olmuşdu. Lakin 635-ci ildən ərəblər yenidən qələbələrə nail oldular və yenidən Hiranı alıb, 638-ci ildə Sasanilərin paytaxtı Ktesifona daxil oldular. Şahənşah III Yezdəgerdin şəhərdən qaçmasından sonra onun sakinləri ərəblərə təslim oldular.

Ərəb hərbi rəhbərliyi və Sasanilər arasında bağlanan barışıq ərəblərin iddia etmələrinə görə, tezliklə pozulmuş və ərəblər yenidən hücuma keçmişdilər. 641-ci ildə onlar Mosulu, 644-645-ci illərdə Bəlucistanı işğal edərək Hind sərhədlərinə çıxmışlar. 649-cu ildə İstəxr ələ keçirilmiş, 651-ci ildə isə Mərv şəhəri yaxınlığında III Yezdəgerd öldürülmüşdü. Bu tarix ərəblərin Sasani torpaqlarını tutmalarının sona çatması tarixi sayılır. Həmin il onlar Amu-Dərya çayına çatmışdılar.

640-cı ildə ərəblər Dvin şəhərini almış, 654-cü ildə isə Tbilisini tutmuşlar.

Afrikada işğallar isə ərəblərin Suriyanı tam fəth etməsindən sonra başlandı. Misirə ilk müdaxilə 639-cu ildə Əmr ibn Asin rəhbərlik etdiyi kiçik ərəb dəstəsi tərəfindən olmuşdur.

640-cı ilin yanvarında Əmr ibn Asin dəstəsi Fərama şəhərini tutaraq, oradan Fəyyuma hücum etmişdir. Qısa müddətdə Misirin

iri şəhərləri ərəblər tərəfindən tutulmuş və onlar Libiya ərazisinə basqınlara başlamışlar. 643-cü ildə Trablis şəhəri işğal edilmişdi, 647-ci ilə qədər ərəblər Şimali Afrikada öz əməliyyatlarını davam etdirmişdilər.

Beləliklə, iki onillik müddət ərzində ərəblər Bizans imperiyasının tərkibində olan Asiya və Afrikanın geniş ərazilərini və bütün Sasanilər dövlətini fəth etmiş, onun siyasi varlığına son qoymuşdular. Ərəblərin belə asanlıqla və tezliklə hərbi uğurlar qazanmalarının əsas səbəblərini Bizans və Sasani dövlətlərinin iqtisadi zəifləməsində və bu dövlətlərdə sosial ziddiyyətlərin son dərəcə kəskinləşməsində görmək lazımdır. Daha da artan zülm və istismar şəraitində ərəb işğalçıları ilə rastlaşan ölkələrin və əyalətlərin əhalisi ərəblərin simasında onları hökmdarlarının ağalığından qurtaran bir qüvvə görürdülər.

Bu baxımdan ərəblər onlara tabe olanlar üçün daha münasib yaşayış şəraiti təklif edirdilər. Həmin səbəbdən də işğal olunmuş ölkələrin əksər əhalisi nəinki ərəblərə müqavimət göstərmir, hətta bir çox hallarda onların müttəfiqi kimi çıxış edirdilər.

Ərəblər işğal olunmuş ölkələrdə elə bir sosial-iqtisadi münasibətlər və mülkiyyət formalarına rast gəlmişdilər ki, onlar Ərəbistanda hələ məlum deyildi. Erkən feodal münasibətlərinin hakim olduğu ölkələrdə ərəblər torpağa istehsal vasitəsi kimi maraq göstərmirdilər. Onların tabeçiliyinə keçən becərilən torpaqlara müsəlman icmasının ümumi malı kimi baxırdılar. Ərəblər əsasən qənimət və vergi yığmaqla məşğul idilər. Ona görə də onlar işğal edilmiş ölkələrdə olan ictimai münasibətlərə nə müdaxilə edir, nə də onu dəyişməyə cəhd göstərirdilər. Torpaqlar yerli feodalların, ruhanilərin və digərlərin sahibliyində qalırdı. Yerli feodal və əyanlar öz hüquqları və imtiyazlarını qoruyub saxlayırdılar. Bunun müqabilində onlar müsəlman icmasının xəzinəsinə ancaq torpaq vergisi verməli idilər.

Bizans imperatorunun, yunan əyanlarının, Sasani şahənşahlarının və şah nəslindən olanların, müharibədə həlak olan və qaçan feodalların malikanələri müsəlman icmasının mülkiyyəti olurdu və bilavasitə xəzinənin nəzarəti altına keçirdi.

Ümumiyyətlə, işğal edilmiş ölkə xalqlarının səviyyəsindən aşağıda duran ərəblər mürəkkəb istismar və idarəetmə üsullarını birdən-birə mənimsəyə bilmədilər və buna heç ehtiyac da duymurdular. Çünki onlar öz tələbatlarını əhalidən yığdıqları qənimət və töycülər hesabına ödəyirdilər. İşğalçılar tutulmuş ölkələrdə mövcud olan sosial-iqtisadi, inzibati münasibətləri toxunulmaz saxladılar, lakin ən yüksək hakim təbəqə kimi yerli feodallardan üstün oldular. Bütün işğal edilmiş ölkələrdə əhali can vergisi – cizyə və torpaq vergisi – xərac ödəyirdi. Qadınlar, həddi-buluğa çatmayanlar, dilənçilər, ruhi xəstələr və öz əməyi hesabına yaşayan rahiblər vergidən azad olunurdu. İlk vaxtlar vergilər kişi əhalisinin sayı nisbətində yığılırdı, çünki becərilən torpaq sahələrinin həcmi dəqiqləşdirilməmişdi. Verginin yığımı ilə yerli torpaq sahibləri, yerli inzibati hakimiyyət orqanları və ruhanilər məşğul idilər. Onlar vaxtında verginin ödənilməsinə və əhali üzərinə qoyulan mükəlləfiyyətlərin yerinə yetirilməsinə təminat verirdilər.

İctimai istehsala müdaxilə etməyən ərəblər yerli idarəetmə orqanlarını, o cümlədən məhkəmə və polis təsisatlarını da toxunulmaz saxladılar. Onlar yaşayış məntəqələrinin abadlığını, yolların, su quyularının və körpülərin səhmanlı vəziyyətdə saxlanılmasını yerli əhaliyə həvalə etmişdilər.

Vergi verənlərin siyahısının tərtibi və vergilərə nəzarət keçmiş yerli məmurlara tapşırılmışdı. Onlar nəinki alınan vergiləri qeydiyyatdan keçirir, hətta onları ərəblər arasında paylaşdırırdılar. Bütün dəftərxana işləri işğallara qədərki kimi İraqda və keçmiş Sasani ərazilərində fars dilində, Suriyada yunan dilində, Misirdə qibti və yunan dilində aparılırdı.

Ərəb işğalları və inkişaf etmiş ölkələrdə ərəb hakimiyyətinin bərqərar olması ərəb cəmiyyətində gedən iqtisadi və siyasi proseslərə təkan verdi və həm də onu bir qədər mürəkkəbləşdirdi. Bu cəmiyyətin hərbi və siyasi hakimiyyətə malik olan yuxarı təbəqəsi hərbi qənimətin və vergilərin böyük hissəsini mənimsəyir və zənginləşir, sıravi döyüşçülərə isə ancaq çətinliklər və yürüşlərin əziyyəti qalırdı. Ərəb zadəganlarının varlanmağının bir vasitəsi də əsirlərin qullara çevrilməsi olmuşdu.

644-cü ildə fars qulun əli ilə xəlifə Ömər qətlə yetirildi. Bundan sonra Əməvi nəslindən olan xəlifə Osman ibn Əffan hakimiyyətə gəldi. Onun dövründə (644-656) qohumları, Məkkə zadəganlarının nümayəndələri işğal olunmuş ölkələrdə dövlət vəzifələrini və torpaqları ələ keçirməyə başladılar. Bu da öz növbəsində ölkədə getdikcə artan narazılığa səbəb oldu. Narazılıq açıq etiraza çevrildi və Kufə, Bəsrə və Misirdən Məkkəyə zəvvar kimi gəlmiş nümayəndələr onu büruzə verdilər. Mədinə əhalisinin dəstəklədiyi bu etiraz qısa müddətdə üsyana çevrildi. Üsyançılar xəlifənin evini mühasirəyə aldılar, sonra isə onu öldürdülər.

Bundan sonra xəlifəliyə Əli keçdi (656-661). O, müsəlman icmasında Peyğəmbərin əmisi oğlu və kürəkəni kimi də tanınırdı. Ancaq üsyançıların dəstəklədiyi bu xəlifə, artıq xeyli varlanmış və nüfuz sahibi olmuş həmkarları və əlbəttə, öldürülmüş xəlifənin qohumları tərəfindən güclü müqavimətə rast gəldi. Osman dövründə hakimiyyətə yiyələnmiş və zəngin varlanma mənbələrinə malik olan Əməvilər ailəsinin müqaviməti də güclü olmuşdur. Onların başında böyük imkanları və maddi vəsaiti olan Suriya canişini Müaviyə dayanmışdı.

Ərəbistanda lazımi qədər qüvvə və vəsait tapmayan xəlifə Əli İraqda özünə yeni hərbi və sosial baza tapmaq üçün iqamətgahını Kufə şəhərinə köçürdü. 657-ci ildə Fəratın sahilində Siffin yaxınlığında (Mesopotamiyada) Müaviyə və Əlinin qüvvələri arasında mühüm döyüş oldu. Burada heç bir tərəf üstünlük qazana bilmədi. Ərəb tarixçiləri göstərir ki, Müaviyənin dəstəsində olan Əmr ibn əl-Asın fəndgirliyi Əli ordusnu tam qələbə çalmaqdan məhrum etdi. Belə ki, «Misir fatehi» görəndə ki, Suriya ordusu məğlub olmaqdadır, Müaviyənin əsgərlərinə Quran vərəqələrini öz silahları üstündə qaldırmağı təklif etmiş və rəqibləri qardaş qanı tökməməyə çağırmışdı. Mübahisəni dinc yolla, müqəddəs kitabın əsasında həll etmək təklif olunmuşdu. Xəlifə Əli nüfuzlu həmkarlarının təkidləri ilə bu təklifi qəbul etmişdi. Bundan sonra Əlinin düşərgəsindən, onun siyasəti ilə razı olmayan bir dəstə çıxmışdır ki, bunlar xaricilər adı ilə tanınan (*xəracə* – ərəbcə «çıxmaq», xaric olmaq» deməkdir) və müsəlman dünyasında meydana gələn

ilk təriqətin nümayəndələri olmuşlar.

Xaricilər hərəkatı ərəb cəmiyyətində inkişaf etməkdə olan ziddiyyətlərin təzahürü idi. Bu hərəkat meydana gələrkən xəlifə Osmanın ölümünə gətirib çıxaran üsyanın davamı olsa da, indi o, bilavasitə xəlifə Əliyə qarşı yönəlmişdi. Xaricilərin təhdidləri xəlifə Əliyə Müaviyəyə qarşı hərbi əməliyyatlara başlamaq imkanı vermirdi. 658-ci ilə qədər davam edən mübahisə heç bir nəticə vermədi. Həmin ildə xəlifə Əli ordu ilə xaricilər məskunlaşan əyalətlərə daxil oldu, onların dəstələrini dağıdıb təhlükəni aradan götürdü. Ancaq xaricilərə qalib gələn xəlifə Əli, 661-ci ildə Kufə məscidində onların bir nümayəndəsi tərəfindən qətlə yetirildi. Suriya və Misirdə məskunlaşan ərəb əyanları Müaviyəni (661-680) xəlifə elan etdilər. Əlinin tərəfdarları bunu qəbul etməyib, bir dəstədə birləşmiş və «Şiət Əli» – «Əli tərəfdarı» adlı ilə islamın ən böyük məsləkini yaratmışlar.

## Əməvilər xilafəti (661-750)

Əməvilərin hakimiyyəti dövründə Xilafətin paytaxtı Dəməşq, mərkəzi əyaləti isə zəngin Suriya oldu. Burada Əməvilərin dayağı olan ərəb qəbilələri yerləşir, Suriya ərəblərin Bizans, Kiçik Asiya və Cənubi Qafqaz ölkələrinə qarşı hərbi yürüşləri üçün əlverişli meydan idi.

Əməvilərin 90 illik hakimiyyətini xüsusi tarixi mərhələyə ayırmaq olar. Belə bir fikir təkcə ona əsaslanmır ki, Əməvilər işğal olunmuş ölkələrdə ərəblərin ali ağalığının rəmzi olmuş və bu sülalənin süqutu ilə onların Asiya, Afrika və Avropanın zəbt edilmiş xalqları üzərində ağalığına son qoyulmuşdu. Daha əhəmiyyətli fakt odur ki, Əməvilərin hakimiyyəti dövründə Xilafətin bütün ərazilərində, o cümlədən mərkəzi əyalətlərdə feodal münasibətlərinin qələbəsinə gətirib çıxaran sosial-iqtisadi dəyişikliklər olmuşdur. Bütün bu dövr müddətində feodal münasibətlərinin təsiri altında ərəb qəbilə-tayfa əyanlarının Xilafətdə hakim feodal təbəqəsinə çevrilməsi prosesi getmişdir.

Əməvi xəlifələrini adətən iki qohum qollara bölürlər: bunlar-

dan biri – Sufyanilərdir (I Müaviyənin atası Əbu Sufyanın adı ilə). Buraya I Müaviyə (661-680), onun oğlu Yəzid (680-683), nəvəsi II Müaviyə (683-cü ildə vəbadan ölmüşdür) aiddirlər. İkinci qol isə Mərvanilərdir (Əməvilər sülaləsinin IV xəlifəsi Mərvanın adı ilə).

**Ərəb işğallarının davamı və II vətəndaş müharibəsi.** Süfyanilər dövründə ərəblər Cənubi Qafqaza, Orta Asiyaya, ümumiyyətlə, Şərqə doğru yenidən hücumlarını bərpa etdilər. Xüsusilə, Kiçik Asiya ərəblərin daimi hücumları obyektinə çevrilmişdi. Ərəblər Bosfora və Mərmərə dənizinə qədər gedib çıxsalar da, ancaq Kiçik Asiyaya sahib ola bilmədilər. Hətta Konstantinopol bir neçə dəfə (637-677 illərdə) ərəblərin mühasirəsində qaldı, lakin təslim olmadı.

Ərəb yürüşləri tez-tez baş verən vətəndaş müharibələri ilə dayandırılırdı. Müaviyə dövründə Xilafət heç də mərkəzi idarəçiliyə malik olan vahid dövlət deyildi. Ayrı-ayrı sərkərdələr tamamilə nəzarətsiz hərəkət edirdilər. Doğrudur, bu ərəb qəbilə-tayfa aristokratiyasının nümayəndələri xəlifə tərəfindən vəzifəyə qoyulmuşdular və Dəməşqə qənimətin və töycülərin 1/5 hissəsini vaxtlı-vaxtında göndərirdilər. Qalan 4/5 hissəsinin çoxunu onlar əlbəttə ki, özləri mənimsəyirdilər. Misal üçün, Misir ibn əl-Asın tam səlahiyyəti altına verilmişdi. İraqla isə xəlifə sözün əsl mənasında müharibə etməyə məcbur olmuşdu. Burada fəaliyyət göstərən şiələr və xaricilər onun hakimiyyətini tanımırdılar. Əlini dəstəkləyən ərəb qəbilələrinə güvənən şiələr özlərinə ali rəhbər – imam kimi Əlinin oğlu Həsəni qəbul etmişdilər. Müaviyəni isə ali hakimiyyəti cinayət yolu ilə ələ keçirən bir şəxsiyyət sayırdılar.

Müqəddəs müsəlman şəhərləri Məkkə və Mədinədə də Müaviyəyə qarşı gizli müxalifət mövcud idi. Bu da onun hakimiyyəti irsi yolla öz ailə üzvlərinə verməklə müsəlman icmasının mötəbər şəxslərini dövlətin başına gəlməkdən məhrum etməsi ilə əlaqədar idi.

680-ci ildə Müaviyə vəfat etdi və hələ sağlığında vəliəhd təyin edilən oğlu Yəzid xəlifə seçildi.

Yəzidin (680-683) xəlifə taxt-tacına sahib olması müqəddəs şəhərlərin müsəlmanları tərəfindən narazılıqla qarşılandı. Bunun

əsas səbəbi ondan ibarət idi ki, Əməvilərin nəsli hakimiyyətinin yaradılması Peyğəmbərin yaxın silahdaşlarını və onların çoxsaylı nəsillərini yüksək vəzifələrdən məhrum edirdi. İllər boyu məhz bu təbəqənin içindən ali hakimiyyətə namizədlər çıxırdı və bu imtiyazı əldən verməmək üçün onlar üsyanlara və silahlı mübarizəyə əl atırdılar.

Böyük qardaş Həsənin siyasi mübarizədən uzaqlaşma qərarından sonra Əlinin ikinci oğlu Hüseyn xəlifəyə qarşı çıxış etdi. Qeyd etmək lazımdır ki, bu vaxt Kufə şiələri Məkkəyə öz nümayəndələrini göndərib, Hüseynə onların şəhərinə gəlməyi təklif etmiş və bu halda onun xeyrinə üsyan qaldırmağa vəd vermişdilər. Hüseyn 300 nəfərlik bir dəstə ilə Kufəyə yola düşdü. Lakin bundan xəbər tutan Əməvi xəlifəsi ona qarşı çoxsaylı hərbi qüvvə göndərdi. Kərbala adlı kiçik yaşayış məntəqəsi yaxınlığında onlar Hüseynin dəstəsini mühasirəyə alıb, məhv etdilər (680-cı ildə).

Qeyd etmək lazımdır ki, vətəndaş müharibəsi sonrakı Əməvi xəlifələri – II Müaviyə (683) və Mərvanın (683-685) dövründə də davam etmişdi. Mərvandan sonra xəlifə Əbd əl-Məlik (685-705) və I Vəlid (705-715) xilafətə rəhbərlik etmişlər. Onların vaxtında iri işğallar baş vermiş, islahatlar keçirilmişdi. Vətəndaş müharibəsi dayandırılmış, xilafətin bütün əyalətləri Əməvi xəlifəsinə tabe olmuşdu.

Xilafətdə aparılan islahatları adətən Əbd əl-Məlikin adı ilə bağlayırlar. Bu islahatlar kargüzarlıqda ərəb dilinin tətbiq olunmağında və üstündə ərəbcə yazılar olan pulların zərb olunmasında öz ifadəsini tapdı. İnzibati və maliyyə idarəçiliyində ərəb dilinin tətbiq edilməsi ərəb zadəganlarının dövlət idarəetmə aparatının başında durmaq cəhdlərinin təzahürü idi. Kargüzarlığın və hesabatın ərəblərin doğma dilində olması onlara maliyyə işlərini tam nəzarət altına almağa imkan verdi.

İslahatların biri də vahid pul sisteminin bütün Xilafət ərazisinə tətbiq edilməsi (qızıl – dinar, gümüş – dirhəm) idi. Yeni pul sisteminin həyata keçirilməsi Xilafətin ayrı-ayrı ölkələri arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına dəlalət edirdi.

Əbd əl-Məlikin hakimiyyəti illərində ərəb işğallarının ikinci

böyük mərhələsi başlandı. VII əsrin əvvəllərində ərəb qoşunları Afrikada göründülər. 709-cu ildə isə Atlantik okeanın sahillərinə çıxdılar. 711-ci ilin yazında Piriney yarımadasına ərəb sərkərdəsi Tariqin rəhbərliyi altında 300 ərəb və 7 min bərbərdən ibarət ordu yollandı.

Eyni zamanda, ərəblər Orta Şərqdə və Orta Asiyada fəal hərbi əməliyyatlar aparırdılar. Amu-Dərya arxası torpaqlar (Məvaraən-nəhr) və həmçinin, Xarəzm və Fərqanə 705-715-ci illər arasında ərəblər tərəfindən tutuldu. Bu zəmində bir çox Orta Asiya torpaq sahibləri – dehqanlar ərəblərə tabe olub, xəlifəyə töycülər verməyə boyun oldular. Qeyd etmək lazımdır ki, Orta Asiya torpaqlarını əldə etmək üçün ərəblər köçəri türklər və bu ərazini fəth etmək istəyən çinlilərlə mübarizə aparmalı oldular. Çinlilər üzərində qəti qələbəni ərəblər 751-ci ildə çaldılar (Talas çayı yanında döyüş) və bu dövr-dən Xilafətin Orta Asiyada ağalığı tam möhkəmləndi.

712-ci ildə ərəblər Hindistana müdaxilə edib, Sind əyalətini, Hind çayı vadisini, şimalda isə Multanı tutdular.

Fəthlərdən sonra bir çox oturaq və köçəri ərəblər yeni tor-paqlara köçdülər. Yeni şəhərlər – düşərgələr salındı: Farsda – Şiraz, İraqda Kufə və Bəsrə, Fələstində – Rəmlə, Misirdə – Fus-tat, Afrikada – Kayravan buna nümunədirlər. İraq və Suriya ərazi-sinin əsas əhalisi arameylər (suriyalılar) – sami xalqlarına aid olan bir qrup idi və onlar ərəb dilinə yaxın və qohum dildə danı-şırdılar. Burada ərəblər də çoxluq təşkil edirdilər. Ona görə də bu regionda ərəbləşmə çox sürətlə getdi. Şimali Afrika və İspaniya bir qədər gec ərəbləşdi. Cənubi Qafqaz və Orta Asiya isə ərəb-ləşmədi.

İşğal olunmuş ölkələrə ərəblər rəsmi, dini və ədəbi dil kimi öz dillərini gətirdilər. Bu zəmində ümummüsəlman mədəniyyəti tə-şəkkül tapmağa başladı. Ancaq bu o demək deyildi ki, yerli mə-dəniyyətlər məhv oldu, əksinə onlar ərəblərin özlərinə böyük təsir göstərdi.

Ərəb işğallarının mühüm nəticələrindən biri də, Xilafət ölkələ-rində ərəblərin dininin – islamın yayılması idi. Doğrudur, tam müsəlmanlaşan ancaq Ərəbistan olmuş, o biri əyalətlərdə isə

çoxsaylı xristian, yəhudi, zərdüştlüyə itaət edənlər qalmışdı. Xilafətin demək olar ki, hər şəhərində xristian-yəhudi icmaları saxlanılırdı. Qeyri dinlərdən olanlar Xilafətdə əhalinin xüsusi bir təbəqəsini təşkil edirdilər və «zimmilər» adlanırdılar. Onlar şəxsən azad, lakin siyasi cəhətdən məhdud, bir sıra vətəndaş hüquqlarından məhrum olunmuş insanlar idi. Zimmilər öz dinlərinə məxsus olan adət-ənənələri saxlayır, dini icmalar daxilində müəyyən özünüidarəetməyə malik idilər. Buna görə də, onlar xüsusi can vergisi – cizyə verməyə məcbur idilər. Ümumiyyətlə, Xilafətin vergi sistemi aşağıdakı tərkib hissələrdən ibarət idi: ticarətdən, maldarlıqdan, sənətkarlıqdan – zəkat alınırdı (onu ancaq müsəlmanlar verirdi). Torpaqdan ərəblər və islamı qəbul edən qeyri xalqların nümayəndələri *uşr* (gəlirin 1/10 hissəsini) vergisi ödəyirdilər. Daha ağır torpaq vergisi olan – xərac əvvəlki dövrlərdə qeyri müsəlmanlardan ya natura ilə, ya da pulla alınırdı (məhsulun 10%-dən 50%-nə qədər). İlk vaxtlar cizyə ilə xərac arasında olan fərq qarışdırılırdı və qeyri-dinlərdən olan şəxslərin vahid vergisi kimi qəbul olunurdu. Xəlifə Əbd əl-Məlikin dövründən, 700-cü ildən sonra qeyri müsəlmanların can vergisi olan cizyəni torpaq vergisi – xəracdan ayırdılar. Ancaq bundan sonra islamın qəbulu torpaq sahibini xərac verməkdən azad etmir və bu vergi qoyulmuş torpaqlar həmişəlik xəraclıq qalırdı, onun sahibinin isə hansı dindən olması öz əhəmiyyətini itirirdi.

Əvəmilərin sosial bazası çox məhdud idi. Onlar bütün ərəb zadəganlarını yox, onların Suriya və Misirlə bağlı hissəsinə əsaslanırdılar. Müxtəlif sosial qruplar bu sülalənin hakimiyyətindən narazı idi. Dövlət aparatının və maliyyə orqanlarının möhkəmlənməsinə baxmayaraq, Əməvilərin hakimiyyəti qeyri-sabit idi. Xəlifə II Ömər (717-720) onu möhkəmlətmək üçün şiələrin və xaricilərin rəhbərləri ilə danışıqlara cəhd göstərdi, ancaq bu bir fayda vermədi. O, yenidən islamı yeni qəbul etmiş müsəlmanları xərac vergisindən azad etdi, ancaq onun ölümündən sonra bu imtiyaz ləğv olundu. Xəlifə Hişam (725-743) dövründə vergilər xeyli artdı və buna qarşı etirazlar böyük qəddarlıqla yığılırdı. Vergi verməyənlərə qarşı işgəncələr və həbs cəzası da tətbiq olunurdu.

Vergi istismarının güclənməsi əhalinin fəal müqavimətinə gətirib çıxardı və çoxsaylı üsyanlarla nəticələndi. Onların ən güclüləri Orta Asiyada və Şimali Afrikada baş verdi. Sonuncu xəlifə II Mərvan (744-750) dövründə hətta Suriyanın şəhər və kənd əhalisi ona qarşı üsyanlar qaldırırdı. Mesopotamiyada və İraqda II Mərvan xaricilərlə gərgin mübarizə aparmağa məcbur oldu. Bu dövrdə şiələr də fəallaşıb çox geniş təbliğata başladılar. VII əsrin birinci rübündə Əməvilərə qarşı yeni bir dəstə – Məhəmməd peyğəmbərin əmisi Abbasın nəslinin nümayəndələri və onların tərəfdarları siyasi meydana çıxdı. Gizli Abbasi təşkilatları əhali arasında belə bir ideya yayırdı ki, xilafətə sahiblik hüququ ancaq peyğəmbər ailəsinə mənsub şəxslərə məxsus olmalıdır. Təbliğatçılar bütün narazıları – ərəbləri, qeyri-ərəbləri, xariciləri, şiələri, hətta qeyri-müsəlmanları, torpaq sahiblərini və kəndliləri Abbasilərin tərəfinə cəlb etmək istəyirdilər. Onlar bəyan edirdilər ki, Xilafət Abbasilərə keçsə, bütün müsəlmanlar xəracdan azad olacaq, qeyri-müsəlmanlardan isə bu vergi ədalətlə alınacaq, bütün kəndlilər icbari işlərdən azad olacaqlar. Bu təbliğat ən əlverişli mühiti Xorasanda və Mərvdə tapdı. Mərv vadisi üsyanın mərkəzi oldu. Buraya Abbasilərin təmsilçisi olan Əbu Müslim adlı bir şəxs göndərilmişdi. Onun çağırışı ilə Mərv vadisində əhali 747-ci ildə üsyana qalxdı. Əbu Müslimə yerli torpaq sahibləri və kəndlilər kömək edirdi. Üsyan tədricən vətəndaş müharibəsinə çevrildi və bütün Xorasanı və İraqı bürüdü. Üsyançılar II Mərvanın ordularını məğlub etdilər. Xəlifə Misirə qaçmağa məcbur oldu. Əbul-Abbas əs-Səffah Kufədə xəlifə elan olundu (28.XI.749-cu ildə).

## Abbasilər xilafəti (750-1258)

**Xilafətin yaranması**

Əbu Müslim üsyanı nəticəsində Əməvilər sülaləsi devrildi və 750-ci ildən xilafətdə hakimiyyətə yeni sülalə – Abbasilər sülaləsi gəldi (750-1258). (945-1132-ci illərdə xəlifələr faktiki olaraq siyasi hakimiyyəti itirmiş, ancaq dini hakimiyyəti saxlaya bilmişdilər).

Abbasilər sülaləsindən olan xəlifələrin ali hakimiyyəti altında

olan nəhəng dövlət paytaxt şəhəri olan Bağdadın adı ilə Bağdad xilafəti də adlanır. Rəsmi adı «Mədinət əs-salam» (sülh şəhəri) olan bu şəhər 762-ci ildə Abbasilərin ikinci xəlifəsi Mənsur tərəfindən «suq Bağdad» (Bağdad bazarı) adlı kiçik bir yaşayış məntəqəsinin yerində salınmışdı.

Qeyd olunduğu kimi, yeni sülalənin xəlifələri öz kökünü Məhəmməd Peyğəmbərin əmisi Abbasdan götürürdülər. Sülalənin hakimiyyətinin əsasını hələ Əbu Müslimin üsyanı davam etdiyi dövrdə, Kufədə 28 sentyabr 749-cu ildə xəlifə elan olunmuş Əbu-l-Abbas əs-Səffah (750-754) qoymuşdu. O, əhali qarşısında bəyanatla çıxış edib, müxtəlif imtiyazlar və xoş əməllər vəd etmiş, onları vergilərdən və məcburi işlərdən azad edəcəyinə söz vermişdi.

Kufə əhalisi Əbul-Abbasa beyət etdikdən sonra o, Ənbər şəhərinə köçdü və burada Həşimiyyə adlı xəlifə sarayı inşa etdirdi.

Əməvilər sülaləsinin bütün nümayəndələri (80 nəfərə qədər) yeni xəlifəyə tabe olmağa razılıqlarını bildirməklərinə baxmayaraq, məhv edildilər. Bu nəslin ancaq bir neçə nümayəndəsi qaça bilmiş və Əndəlüsdə (İspaniyada) özlərinə sığınacaq tapmışdı. Burada, Piriney yarımadasında 756-cı ildə əməvi əmiri Əbdürrəhman hakimiyyəti ələ alıb, Kordova – Əməvi əmirliyini yaratmışdı.

Təbiidir ki, Abbasilərin qələbəsi yalnız xalq kütlələrinin köməyi nəticəsində mümkün olmuşdu. Abbasilər isə xalqa tam yad ünsürlər idilər. Onlar əsasən, İraq və fars feodallarının – iri torpaq sahiblərinin marağını təmsil edirdilər. Çox keçmədi ki, qəddar və amansız hakimlərə çevrildilər. Bu baxımdan, elə Əməvilərin başına gətirdiklərini yada salmaq kifayətdir.

Əməvilərin süqutunun əsas nəticəsi nə oldu?

Əməvilər dövründə xilafətdə hakimiyyət tamamən ərəb zadəganlarının əlində idi. Təbii ki, islamın ilk yüz ilində qəbilə əyanları xeyli dəyişikliklərə məruz qalmış, onlar iri torpaq sahiblərinə çevrilmiş, bəziləri isə hətta ticarətdə iştirakdan da çəkinməmişdi. Bir çox qəbilə başçıları da işğallar zamanı iri torpaq sahibləri olur, nəhəng Əməvilər dövlətinin müxtəlif yerlərində torpaqlar əldə edirdilər. Onların həm də şəhərlərdə böyük əmlakları var idi. Bu da onunla səciyyəvidir ki, onlar çox vaxt atalarına xas olan köçəri

həyat tərzindən tam əl çəkmirdilər. Hələ VIII əsrin birinci yarısında ərəb aristokratiyası arasında xeyli nəsillər var idi ki, onlar yarı köçəri, yarı oturaq həyat tərzi keçirirdilər. Bu çoxsaylı ərəb aristokratiyası isə xəlifə hakimiyyətinin əsas dayağı idi. Bəzi əyanların təsərrüfatında qul əməyindən geniş miqyasda istifadə olunurdu. Dövlət və hakimiyyət aparatı isə bu imkanlı sosial qrupun marağı istiqamətində işləyirdi.

Abbasilər özləri ərəb cəmiyyətinə nə gətirdilər?

Onların hakimiyyətinin ilk on ili göstərdi ki, bu cəmiyyətin sosial əsası dəyişməz qalır və Əməvilər dövründən heç nə ilə fərqlənmir. Xalq kütlələri edilmiş vədlərdən heç nə əldə etməmişdi. Əksinə, getdikcə torpaq vergisinin (xəracın), natural vergilərin, icbari işlərin miqdarı artmış və əvvəlkindən xeyli yüksək olmuşdu.

Dəyişikliklər yalnız dövlət idarəetməsində iştirak edən hakim elitanın etnik tərkibində baş verdi. Abbasilərin hakimiyyətə gəlməsindən sonra dövlətdə ali vəzifələri yalnız ərəblər deyil, fars aristokratiyasının nümayəndələri də tutmağa başladılar və tədricən dövlət idarəetməsində onlar ərəblər qədər yer aldılar. Yeni təsis edilmiş vəzir vəzifəsinə Bəlxli iri torpaq sahibi (dehqan) Xalid ibn Bərmək təyin olundu.

Fars əyanlarına güvənmək istəyən ilk Abbasi xəlifələri əs-Səffah (750-754) və Əbu Cəfər əl-Mənsur (754-775) öz paytaxtlarını onlara yaxın yerdə salmaq istəyirdi. Çünki köhnə paytaxt Dəməşqdə Əməvi ənənələri hələ də güclü idi. Öz ilk çıxışında əs-Səffah Kufəni paytaxt etməyə söz vermiş, ancaq bu sözə də əməl etməmişdi. O, demokratik ünsürlər və müxalifət qüvvələri çox olan Kufədən qorxmuş və buradan getmişdi. 762-ci ildə Bağdadı tikməyə başlamış ikinci Abbasi xəlifəsi əl-Mənsur, demək olar, xilafətin həqiqi yaradıcısı olmuşdur.

Xilafət taxt-tacına yiyələnən Abbasilər artıq xalq kütlələri ilə ittifaqdan imtina etmişdilər. Hakimiyyəti əldə etmək üçün xalq üsyanından istifadə edən Abbasilər sonra sırf aristokratik siyasi kurs götürdülər. Əbu Müslimin və üsyanının digər başçılarının demokratik meyllərindən xəbərdar olan Abbasilər artıq «lazımsız» müttəfiqlərdən yaxa qurtarmaq qərarına gəldilər.

Xalq kütlələri sakitləşmirdi və onların arasında ilk Abbasi xəlifələrinin siyasəti ilə əlaqədar narazılıq yaranırdı. Kəndlilər açıq elan edirdilər ki, onlar ona görə qan tökməyiblər ki, heç nəyi dəyişməyən Abbasilər hakimiyyətə gəlsin. Abbasilər hakimiyyətinin bir ili tamamlanmamış, 751-ci ildə Buxara vadisində onlara qarşı üsyan qalxdı. Bu üsyanda sənətkarlar, xırda tacirlər, kənd əhalisi iştirak etmişdi.

755-ci ildə Əbu Müslim Məkkəyə Həccə yola düşdü. Onun yolu İraqdan keçirdi və o, Xorasan valisi kimi, Kufə yaxınlığında yaşayan xəlifəyə öz ehtiramını göstərməyə bilməzdi. Xəlifə Mənsur Əbu Müslimi böyük hörmətlə qəbul edib, ona bahalı hədiyyələr bağışladı. Görüş Əbu Müslimə yaxşı təsir etdiyindən o, sabahısı gün xəlifənin yeni təklifi ilə saraya tək, mühafizəsiz getdi və burada xəlifə silahsız Xorasan valisini öldürmək əmri verdi. Beləliklə, Abbasiləri öz əlləri ilə hakimiyyətə gətirən adam qətlə yetirildi.

Əbu Müslimin öldürülməsi xəbəri tez bir zamanda Xorasana və Orta Asiyaya çatdı və burada öz təsirini göstərdi. Xorasanda, Sistanda, Məvarənnəhrdə üsyanlar qalxdı. Belə şayiələr yayılırdı ki, xəlifə Əbu Müslimi ona görə öldürüb ki, o, xalq kütlələrinin vəziyyətini yaxşılaşdırmağı tələb etmiş, vergiləri, mükəlləfiyyətləri azaltmağı istəmişdir. Xürrəmilər onu hətta öz məzhəblərinin nümayəndəsi elan etdilər, halbuki Əbu Müslim heç vaxt xürrəmi olmamışdı.

Ancaq ayrı-ayrı yerlərdə və müxtəlif vaxtlarda baş verən bu xalq üsyanları, adətən yerli xarakter daşıyırdı və xəlifənin yeni yaratdığı muzdlu ordu tərəfindən yatırılırdı.

Məhəlli də olsa, tez-tez təkrar olunan üsyanlar şəraitində bürokratik aparatın genişlənməsi nəticəsində siyasi vəziyyət də xeyli çətinləşmişdi. Bu, xəlifə Mehdi (775-785) dövründə və xüsusən, sonrakı zamanlarda özünü göstərmişdi. Saray əyanlarının mübarizəsi xəlifə Hadinin (785-786) ölümü və Mehdinin o biri oğlu Harunun hakimiyyətə gəlməsi ilə nəticələnmişdi.

Xəlifə Harun ər-Rəşid (786-809) Şərqdə və Qərbdə məşhur olan bir şəxsiyyətdir. Bu xəlifənin çox ədalətli, ağıllı, müdrik hökm-

dar kimi tanınması onun «Min bir gecə» nağıllarının əsas qəhrəmanlarından biri olmasıdır. Avropaya XVIII əsrdə fransız tərcüməsində gəlib çıxan bu nağıllarda Harun ər-Rəşid həqiqətdən xeyli uzaq olan cazibədar bir şəkildə təsvir edilmişdir. Həqiqətdə isə o, çox qəddar, qətiyyətli, əhali tərəfindən o qədər də sevilməyən bir şəxsiyyət olmuşdur.

Harun ər-Rəşidin oğlu və varisi xəlifə Əminin dövründə (809-813) mübarizə yeni qüvvə ilə qalxmış və ara müharibəsi şəklini almışdır. Xorasanda Harunun o biri oğlu Məmun tərəfindən təşkil edilmiş ordu Bağdadı mühasirəyə almış və buraya daxil olmuşdur.

Xəlifə Məmun (813-833) elmi, ədəbiyyatı, mədəniyyəti himayə edən bir şəxsiyyət kimi tanınmışdır. Onun dövründə tərcüməçilik geniş yayılmış, yunan və hind fəlsəfəsinə aid əsərlər ərəb alimlərinə çatdırılmışdır. Məmun dövründə Bağdadda «Dar əl-Hikmə» (Hikmət evi) açılmış, zəngin əlyazmaları olan kitabxana və rəsədxana tikilmişdi. Məmunun mədəniyyət sahəsindəki nailiyyətləri gələcək nəslin yaddaşında, onun üsyanların yatırılmasında nümayiş etdirdiyi qəddarlığın və repressiyaların təsirini azaltmamışdır. Ən çətin və mürəkkəb mübarizəni o, xürrəmilərlə aparmış, 21 il davam edən Babək üsyanının (816-837) yatırılmasına bütün qüvvəsini sərf etmişdi. Xilafətin hərbi imkanlarının tam səfərbər edilməsinə baxmayaraq, Məmunun hakimiyyəti dövründə bu üsyan yatırılmamışdır. Həmin vaxt 829-832-ci illərdə Misirdə də çox güclü hərəkatlar olmuş və xəlifə özü bu ölkəyə gəlib, üsyançılar üzərində qələbə çalmışdı.

Məmunun varisləri dövründə dövlətin siyasi həyatında mühüm rolu xəlifələrin türk ordusu oynamağa başladı. Bu ordu əsasən Ceyhun (Amu-Dərya) və Seyhun (Sır-Dərya) çayları arxasında yerləşən sərhəd məntəqələri ilə toqquşmalarda əsir düşmüş türklərdən təşkil olunurdu. Bu əsirləri hərbi qənimət kimi Orta Asiya və Xorasanın qul bazarlarında satırdılar. Onları xəlifənin xüsusi adamları axtarıb alır və Bağdadda xəlifə ordusunun xüsusi qapalı hərbi hissələrində yerləşdirirdilər. Çox qısa müddətdə bu qüvvələr paytaxt əhalisinin tez-tez coşan narazılığını yatırtmaq üçün gözəl bir vasitə oldu. Türklərin üstünlükləri ondan ibarət idi

ki, onlar Bağdad əhalisi ilə heç cür bağlı deyildilər və buna görə də, onlarla heç bir ortaq maraqları ola bilməzdi. Buna görə də, onlar xəlifə üçün etibarlı mühafizə təşkil edə bilirdilər.

### Xilafətdə sosial-iqtisadi münasibətlər və feodalizmin inkişafı

Abbasilər və onları dəstəkləyən müxtəlif feodal qruplaşmalarının qələbəsindən sonra xilafətdə feodal meylləri artmışdı. İstehsalda külli miqdarda qulların olmasına baxmayaraq, quldarlıq əsas vasitəyə çevrilməmiş, erkən feodal cəmiyyətinin bir ukladı kimi qalmışdı. Ancaq onu da qeyd etmək lazımdır ki, bu, dövlətin sosial-iqtisadi həyatına müəyyən təsir göstərmişdi. Qul əməyi böyük sayda iri torpaq sahələrində, süni suvarma sisteminin yaradılmasında, başqa sahələrdə istifadə olunurdu.

VIII-X əsr ərəb müəlliflərinin məlumatlarına görə xilafətin hər bir iri şəhərində xüsusi qul bazarları mövcud idi. Burada hər cür qul almaq mümkün idi: adi işçidən tutmuş yaxşı sənətkaradək, əsgər, musiqiçi, müğənni və s.

Xilafətdə feodal münasibətləri, hər şeydən əvvəl torpağa, suya sahiblik formalarının inkişafında öz təzahürünü tapmışdı. VIII əsrin ikinci yarısı – IX əsrdə, Əməvilər dövründə olduğu kimi, torpağa və suvarma sisteminə münasibətdə feodal dövləti mülkiyyətçi kimi çıxış edirdi. Bununla yanaşı, şəxsən Abbasi xəlifələrinə məxsus torpaqlar var idi və onlar «safavi» adlanırdı. İcma torpaqlarına gəldikdə, onlar da dövlət torpaqları kateqoriyasına daxil idi.

Əməvilər dövründə meydana gəlmiş, ancaq Abbasilərin hakimiyyəti vaxtı geniş yayılmış yeni növ torpaq sahibliyi – *iqta* mövcud idi. Əvvəllər iqta dövlət xidmətində olan adamlara xidmət müddətinə və yaxud ömürlük xidmət haqqı kimi müəyyən dövlət torpaqlarından xərac və digər vergilərin bir hissəsinin verilməsindən ibarət idi. İqtanın bir neçə növü var idi: bunlardan ancaq biri – iqta tamlık – renta-verginin alınmasını torpaqla istifadə ilə birgə icazə verirdi. İqta qərbi Avropada mövcud olan şərti torpaq mülkiyyəti – benefisi ilə üst-üstə düşür. İqta torpaqları tədricən dövlət torpaqları hesabına genişlənirdi.

Kənd əhalisi icmalarda birləşirdi. Bir qayda olaraq, az torpaq-

lıq ucbatından, kənd icması öz üzvlərinin hamısını torpaqla təmin edə bilmirdi və onlardan bir qismi kənarda özünə iş axtarmağa məcbur olurdu.

Orta əsrlər ərəb Şərqində kəndlilərin feodal istismarının əsas forması icarədarlıq idi. Onun mahiyyəti bundan ibarət idi ki, kəndli ona verilən torpaqdan əldə etdiyi məhsulun 1/2, 1/3, 1/4 və 1/6 hissəsinin renta-vergi kimi ödəməli idi. Renta-verginin miqdarı torpaqdan başqa onun sahibinin icarədarlara verdiyi əmək alətlərindən, qoşqu heyvanlarından, toxumdan və s. asılı idi. Torpaqdan başqa icarədar toxum, istehsal vasitələri, iş heyvanı alırdısa, onun payı müvafiq olaraq azalırdı. Ancaq torpağa olan ehtiyac kəndlini belə şərtlərə razı olmağa vadar edirdi.

Vergi alınma baxımından torpaqlar aşağıdakı kateqoriyalara bölünürdü: 1) Xərac alınan torpaqlara: bu əsasən dövlət torpaqları idi, 2) uşr alınan torpaqlara (1/10) – bu, xüsusi mülkiyyətdən alınan vergi idi. 3) vergidən ya tamam, ya da qismən azad olunan torpaqlara, bu da ali ruhanilərə məxsus vəqf, seyidlərin (Məhəmməd peyğəmbərin nəslindən olan şəxslərin) mülkiyyəti.

Xəracın iki növü yayılmışdı: *xərac-müqasəmə* və *xərac-misaha*. Müqasəmə – məhsulun müəyyən hissəsinin natural vergi kimi alınan xərac növü idi. Abbasilər dövründə kəndlilər dövlətə xərac-müqasəmə şəklində əldə edilən kənd təsərrüfatı məhsulunun 1/5-dən 1/2-dək hissəsini verirdilər. Xərac-misaha isə xüsusi siyahıya düşmüş, ölçülmüş torpaqlardan yığılırdı. O, torpağın keyfiyyətindən, burada becərilən bitkinin növündən asılı olurdu və qarışıq şəkildə (həm pulla, həm də məhsulla) hər *cərib*[1] torpaqdan yığılırdı. Xərac-misahanın miqdarı məhsuldarlıqdan asılı olaraq dəyişmirdi.

Xəracın yığılmasında çoxlu əyintilərə yol verilir, yerli inzibati orqanlar böyük məbləğdə vergi yığan məmurlardan rüşvət alırdılar. Bunun nəticəsində torpaq sahibləri, faktiki olaraq öz torpaqlarından tələb olunandan çox vergi verməyə məcbur olurdular.

Kənd icmasının ağır vəziyyəti hər əyalət üçün xəracın müəyyən məbləği qoyulması ilə daha da ağırlaşırdı. Bu o demək idi ki,

[1] 1 cərib – təqribən 1 ha

kəndlilərin qaçması və yaxud əyalət torpaqlarının bir qisminin boşalması ilə əlaqədar, müəyyən olunmuş məbləğin yığımı mümkün olmurdusa, çatmayan hissə qalan kəndlilərin üzərinə əlavə vergi şəklində bölüşdürülürdü. Kəndli hərəkatlarının təsiri altında hökumət xəlifə Mehdi (775-785) dövründə bu sistemi ləğv etdi, xəlifə Məmun dövründə isə xərac-müqasəmənin yuxarı miqdarı məhsulun 1/5-dən 2/5 hissəsinə qədər azaldıldı. Ancaq bu yarımçıq tədbirlər kəndlilərin ümumi ağır vəziyyətinə o qədər də dəyişiklik gətirmədi.

VIII-IX əsrlərdə, xüsusilə X əsrdə xilafətdə şəhər həyatının böyük yüksəlişi də nəzərə çarpır. Xilafətdə məhsuldar qüvvələrin inkişafı nəticəsi kimi şəhərlər də böyüyürdü. Buna səbəb olan əsas amillərdən biri də, daxili və xarici ticarətin artması idi. Şəhərlər nəinki hərbi-inzibati xarakter daşıyır, həm də ölkənin və ayrı-ayrı əyalətlərin mühüm iqtisadi və mədəni mərkəzlərinə çevrilirdilər. Xarici ölkələrlə – Bizans, Hindistan, Çin və s. karvan və dəniz ticarəti inkişaf edirdi.

**Abbasilər dövründə dövlət quruluşu**

Öz strukturu və rəsmi ideologiyasına görə Abbasilər xilafəti teokratik mütləqiyyət monarxiyası olmuşdur. Sünni dövlət hüquq normalarına əsasən, xəlifə öz şəxsində ali imam və ali əmir vəzifələrini cəmləşdirmişdi, yəni dini və dünyəvi hakimiyyət məhz ona məxsus idi. Müsəlman icmasının başçısı kimi və Allah rəsulunun təmsilçisi kimi, hətta Allahın özünün nümayəndəsi kimi, xəlifə dövlətdə olan bütün torpaqların və suyun sahibi sayılırdı. O, mütləq hakimiyyətə yiyələnmiş şəxsiyyət idi və bu da heç nə ilə məhdudlaşmırdı.

İlk Abbasilər dövründə, yəni təxminən 50 il ərzində xilafət güclü və nisbətən mərkəzləşmiş dövlət idi. Dövlət ənənələri müəyyənləşmiş, Birinci nazir və dövlət möhürünü saxlayan vəzir vəzifəsi təsis olunmuş və bir sıra nazirliklər (divanlar) təşkil edilmişdi. Onlar arasında ən vacibləri – dövlət aktlarının hazırlanması, maliyyə, rabitə (poçt əlaqəsi) üzrə divanlar xüsusi seçilirdilər. Əyalət başçıları və hərbçilər yalnız xəlifəyə tabe olurdular. Vergilər birbaşa Bağdada daxil olur və dövlət xəzinəsinin dolmasına kö-

mək edirdi. Valilər və qeyri vəzifəli şəxslər tərəfindən vergilərin mənimsənilməsi cinayət xarakterli hərəkət sayılırdı və cəzalandırılırdı.

Müsəlmanlar üçün məhkəmə müsəlman hakimlərin – qazıların əlində idi, onlar işləri şəriət əsasında aparırdılar. Qeyri-müsəlmanlar (zimmilər) öz dini başçılarına müraciət etməli idilər.

Xilafətin hərbi qüvvələri üç növ qoşundan ibarət idi: xəlifənin şəxsi qvardiyası (paytaxtda və iri şəhərlərdə yerləşir və yüksək məvacib alırdı), nizami ordu (onlar da məvacib alırdı), hərb bölgələrində məskunlaşmış ərəb tayfalarının könüllülərindən təşkil edilmiş dəstələr. Sırf könüllülər («din uğrunda döyüşənlər») ancaq hərbi qənimətin bir qisminə yiyələnmək hüququna malik idilər. Hərbi qəniməti, məvacibdən savayı ilk iki növün nümayəndələri də alırdı (Atlının payı piyadanın payından iki dəfə artıq idi).

Abbasilər dövründə ərəblər əlavə torpaqlar işğal etməmişlər (Siciliya, Malta və Krit adalarından başqa), ancaq Bizansla olan hərbi əməliyyatların arası kəsilmirdi. Xilafət orduları hər il yeni hərbi qənimət, əsirlər əldə etmək üçün Kiçik Asiyaya soxulurdular. VIII əsri sonu – IX əsrin əvvəllərində Bizans xilafətə xərac verməyə məcbur olmuşdu. Cənubi Qafqazda və Orta Asiyada xəzərlər və digər türklərlə də daimi müharibələr gedirdi.

**Xilafətdə xalq hərəkatları**

VIII əsrin II yarısı və bütün IX əsr güclü xalq hərəkatlarının baş verməsi ilə xarakterikdir. Bunlar əsasən, kəndli hərəkatları olmuş və xilafətin Şərq əyalətində baş vermişdi. Bağdad xilafəti tarixinin əsas məzmununu məhz sosial ziddiyyətlərin və mübarizənin əksi olan xalq hərəkatları təşkil etmişdir. Bu hərəkatların kütləvi iştirakçıları kimi kəndlilər, şəhərin yoxsul əhalisi, bəzən də çoxsaylı qullar çıxış edirdilər. Abbasilərin hakimiyyəti ilə razı olmayan hakim sinfin ayrı-ayrı qrupları da, hərdən müəyyən dövrlərdə bu hərəkatlara qoşulurdular. Güclü üsyanlar şəklini alan xalq hərəkatlarının əsas səbəbi xalqın istismarı və feodallar tərəfindən (başda xəlifələr olmaqla) onlara edilən zülm idi. Qeyri-qanuni vergi yığımı, əyintilər xalq kütlələrinin ağır vəziyyətini daha da dözülməz edir, Xilafətin inzibati orqanlarına qarşı narazılıq yaradırdı.

Mübarizə ilk növbədə ərəb, sonra isə Abbasilərlə bağlı yerli feodallara qarşı yönəlmişdi. VIII əsrin II yarısında bu mübarizə daha aydın görünən sosial xarakter aldı.

755-ci ildə Nişapur və Rey şəhərlərində Sunbadın başçılığı altında böyük kəndli üsyanı başladı və sonradan Azərbaycana da yayıldı. 767-ci ildə Xorasanda ustad Sisin rəhbər olduğu bir yeni üsyan baş verdi. 778-779-cu illərdə Qurqanda «qırmızı bayraqlılar» adlanan kəndli hərəkatı vüsət aldı. Bu dövrdə ən güclü hərəkat 776-783-cü illərdə Məvarannəhri sarsıdan, görkəmli bir şəxsiyyətin rəhbərliyi altında keçən «ağ paltarlılar» üsyanı olmuşdur. Bu, Haşim ibn Hakim adlı şəxsdir ki, onu Muğanna ləqəbi ilə (yəni, «örtük ilə bağlı») daha yaxşı tanıyırdılar.

Bu üsyanların ideoloji əsası xürrəmizm fəlsəfəsi olmuşdur ki, burada məzdəkilərin, müsəlman təriqətlərinin, xüsusən də şiələrin ideyaları birləşmişdi. Xürrəmilər Allahın təcəssümü kimi Əbu Müslimi və Muğannanı qəbul edirdilər. Xürrəmilər məzdəkilərin sosial ideyalarının varisləri idi, onlar sosial bərabərliyin və bütün insanların torpağa və hər bir əmlaka bərabər hüququ olmasının carçıları kimi çıxış edirdilər. Ərəb mənbələri bu təriqətin nümayəndələrini məzdəkilər və xürrəmilər adlandırır və xəbər verirlər ki, onların təlimi əsasən Cənubi Azərbaycan, Xorasan və Orta Asiyanın kənd əhalisi arasında yayılmışdı. Xürrəmilər bir neçə qrupa ayrılırdı və bunların içərisində «ağ paltarlılar» və «qırmızı paltarlılar» da var idi.

«Qırmızıpaltarlı» xürrəmilərin ən böyük üsyanı Cənubi Azərbaycanda Babəkin rəhbərliyi ilə başlamış və İsfahan və Kermana qədər yayılmış böyük kəndli müharibəsi olmuşdur (816-837). Xürrəmilərin dəstələri xəlifə ordusunu dəfələrlə məğlub etmişlər. Bu kəndli müharibəsinin zəif tərəfi ondan ibarət idi ki, Babək bəzi iri alban (xristian) və fars (zərdüşt) feodalları ilə ittifaq bağlamışdı. Bu ittifaq Babəkin qüvvələrini gücləndirmiş, lakin xürrəmilərin sosial proqramının geniş miqyasda həyata keçməsinə mane olmuşdur.

Üsyan Xilafəti güclü şəkildə sarsıtmışdı. Xəlifə əl-Məmun (813-833) ölərkən öz qardaşı və varisi olan əl-Mütəsimə (833-843) əsas vəzifə kimi «xürrəmilərlə mübarizəni qətiyyətlə və qəddarlıqla»

aparmağı vəsiyyət etmişdi. Mütəsim orduda müəyyən islahatlar aparıb və onun başına Orta Asiyadan olan Afşin adlı feodalı qoymaqla, müharibədə köklü dönüşə nail oldu. Babəkin müttəfiqləri – feodallar bu halda ona xəyanət etmiş, yeni torpaqlar tutmuş və özləri üçün əlverişli şərtlərlə xəlifə ilə danışıqlara girmişdilər. Onda Babək Bizans imperatoru Feofillə ittifaq bağlamışdı və o da öz növbəsində Xilafət ərazisinə yürüş edib, öz müttəfiqini dəstəkləməyə çalışmışdı. Ancaq üsyan artıq iflasa uğrayırdı. Bir illik mühasirədən sonra 837-ci ilin avqustunda xürrəmilərin son istinadgahı olan Bəzz qalası təslim olmuşdu. Bir alban feodalının yanında sığınacaq tapmış Babək onun tərəfindən xəlifəyə satılmış, Samarraya gətirilmiş və burada qətlə yetirilmişdi.

Şərqdəki kimi geniş miqyaslı olmasa da, Xilafətin qərbində də xalq üsyanları baş verirdi. Xüsusilə də, Hicazda və Yəməndə şiələrin üsyanlarını qeyd etmək olar (ən böyüyü 786-cı ildə baş vermişdi). 814-815-ci illərdə Əbu Sarayyanın başçılığı altında şiələr İraqda üsyana qalxmışdılar. Aşağı İraqda zutt qəbiləsinin üsyanı 18 il davam etmişdi (820-838). Suriya və Fələstində kəndlilərin 759-760-cı illərdə güclü çıxışları olmuşdu. Əbu Harbin rəhbərliyi ilə 840-842-ci illər hərəkatı daha irimiqyaslı idi, burada 100 minə qədər kəndli iştirak edirdi. Misirdə ardı kəsilməyən üsyanlar baş verirdi. 831-ci ildə Misirdə xristian-qibtilərin böyük çıxışı oldu. Bu üsyan yatırıldı, onun iştirakçılarının çoxu məhv edildi, ailələri qul bazarında satıldı. Misirin ən məhsuldar rayonu Delta tam boşaldı.

IX əsrin ən geniş miqyaslı, əhəmiyyətli üsyanlarından biri də Zəncilər üsyanı olmuşdur. Afrikadan gətirilən qara qullara «zənci» deyirdilər. Bu qullar külli miqdarda Aşağı İraqda, Bəsrə yaxınlığında şoran torpaqların təmizlənməsində işləyirdilər. 869-cu ildə zəncilər Əli ibn Məhəmməd adlı ərəbin başçılığı altında üsyana qalxdılar. Kəndlilər və bədəvilərin da iştirak etdiyi zəncilər üsyanı (869-884) Xilafətə sarsıdıcı zərbə vurmuş oldu. Əli ibn Məhəmməd özünü Əli nəslindən olan bir şəxs kimi təqdim edir və şiəlik ideyalarını təbliğ edirdi. Zəncilər qısa müddətdə Bəsrə şəhərini və onun limanı Obollanı, Vasit, Əhvaz, Aşağı İraq və Xuzistanaın

digər şəhərlərini ələ keçirdilər. Zəncilərin rəhbərləri üsyan iştirakçılarını qulluqdan azad etsələr də, ümumiyyətlə quldarlığı ləğv etmədilər, əksinə, azad əhalidən əsir düşənləri qullara çevirir, malikanələri mənimsəyir və orada yaşayan kəndliləri xəracdan azad etmirdilər. Zəncilər öz başçılarını xəlifə elan etdilər. Bütün bu hərəkətlər kəndliləri və üsyana qoşulmuş bədəviləri üsyançılardan uzaqlaşdırdı. Zəncilər təkləndilər, müdafiəyə keçməyə məcbur oldular və uzun sürən mübarizədən sonra Xilafət qoşunları tərəfindən darmadağın edildilər.

**İsmaililər və qərmətilər**

VIII əsrin ortalarında altıncı şiə imamı Cəfər as-Sadiq öz böyük oğlu İsmayılı varislikdən məhrum edib, o biri oğlu Musa Kazımı varis müəyyənləşdirdi. İmamın ölümündən sonra 7-ci imam Musa Kazımı qəbul edən şiələrin bir qismi *imamilər* adlandı. İsmayılın tərəfdarları isə yeddinci imam kimi onu tanıdılar və hakimiyyətdən İsmayılın uzaqlaşdırılmasını qeyri-qanuni saydılar. Bunlar *ismaililər* adı ilə tanındılar.

Həqiqətdə isə, görünür ki, şiələr arasında bu parçalanmada əsas səbəb Cəfər as-Sadiqin Abbasilərə qarşı passiv mövqeyinin fəal ünsürlər tərəfindən qəbul edilməməsi olmuşdur. Həm də, yuxarıda qeyd etdiyimiz kimi, Xilafəti bu dövrdə xalq hərəkatları bürümüşdü. Bütün bunların müqabilində şiələrin yeni qolu – ismaililər meydana gəldi. Onlar sonralar iki yerə böləndü. Bunlardan biri fatimi ismaililəri idi ki, onlar İsmayılın oğlu Məhəmmədin bütün sonrakı övladlarını imam sayırdılar (onların adları ancaq çox az adama məlum idi – gizli imamlar). Digər bir qrup isə hesab edirdi ki, cəmi yeddi imam olmalıdır, ona görə də Məhəmməd ibn İsmayıl (İsmayıl oğlundan əvvəl vəfat etmişdir, ona görə də Məhəmməd yeddinci imam sayılırdı) sonuncu imamdır. Beləliklə, bu qrupun tərəfdarları qərmətilər adı ilə məşhurlaşdılar.

İsmaili qrupları arasında olan fərqlər uzun müddət kəskin olmamışdır: onlar ümumi üsyanlarda birgə iştirak etmişlər. Qərmətilər dəstəsi adlanan bir dəstə zəncilər üsyanında fəal iştirak etmişdir. 890-cı ildə İraqda qərmətilərin böyük üsyanı baş verdi.

Onun rəhbəri Hamdan Qərmatə bədəvilər, kəndlilər, sənətkarlar arasında təbliğat aparırdı. Kufə yaxınlığında təriqət üzvləri gəlirlərinin 1/5 hissəsi hesabına təşkil edilən mərkəz yaratdılar. Burada ümumi yemək mərasimi keçirilirdi. Qərmətilər bütün insanların (qullardan başqa) sosial bərabərliyinin təbliği ilə çıxış edirdilər. İdeal bir təsəvvürdə, onlar bütün əmlakın ümumiləşdirilməsini və maddi sərvətlərin tam bərabər bölüşdürülməsini nəzərdə tuturdular. İraqda qərmətilər üsyanı 906-cı ildə yatırılmışdı. 900-902-ci illərdə Suriyada da qərmətilər üsyanı baş vermişdi və bu üsyan da qan içində boğulmuşdu.

Əbu Səid əl-Cənəbi adlı bir qərməti Bəhreyndə baş vermiş üsyanın başında dayandı. Burada qərmətilər hətta özlərinə məxsus bir dövlət də yarada bilmişdilər (899-cu ildə). Onun mərkəzi əl-Aksa (Laxsa) şəhəri olmuşdur və burada onlar azad kəndli-sənətkar, lakin ümumi icma quldarlığı əsasında qurulmuş arzuladıqları cəmiyyət yaratmağa çalışmışdılar. Bu dövlət XI əsrin ortalarında da mövcud olmuşdur və onu bu dövrdə Laxsaya səfər etmiş böyük alim – ismaili Nasir Xosrov çox gözəl təsvir etmişdir. Laxsa sakinlərindən heç biri vergi vermirdi. Dövlət pula alınmış 30 min qara qulun sahibi kimi onları kəndlilərə pulsuz olaraq tarlada və bağlarda işləməyə verirdi. Dövlət dəyirmanı yenə də camaat üçün pulsuz buğda üyüdürdü. Ehtiyacı olan kəndlilərə və sənətkarlara dövlət borc pul da verirdi. Dövlətin başında 6 ağsaqqal və onların 6 nəfər müavinlərindən ibarət kollegiya dayanırdı. Hərbi qüvvələrdə 20 minə yaxın adam var idi. Xəzinə vəsaitləri Xilafət əyalətlərinə hücumlar zamanı əldə edilmiş hərbi qənimətlərdən təşkil edilirdi: yürüşlər zamanı qərmətilər tutulmuş əsirləri qula çevirirdilər. Laxsada məscidlər yox idi, qərmətilər islam adət-ənənələrinə riayət etmirdilər. Bəhreyn qərmətiləri iri torpaq sahibliyini və feodal istismarını ləğv edib, öz icmalarının rifahının əsası kimi kollektiv quldarlığı qoruyub saxlamışdılar.

Suriyada üsyan zamanı onun başında Ubeydallah adlı bir şəxs dururdu ki, o özünü Əli nəslindən 7-ci imam Məhəmmədin ailəsindən olan bir şəxs kimi qələmə verirdi. Üsyanın məğlubiyyətindən sonra o, Tunisə qaçdı. Orada hələ bundan əvvəl yerli hakim sülalə

Əğləbilərə qarşı Abdulla əş-Şiinin rəhbərliyi ilə ismaili hərəkatı genişlənmişdi. 909-cu ildə üsyançılar Əğləbilərin hakimiyyətini yıxmış və Ubeydallah burada imam-xəlifə «əmir əl`muminin» və Mehdi elan edilmişdi. Yeni sülalə Fatimilər adını qəbul etmişdi ki, bu da onun Əli və peyğəmbərin qızı Fatimə nəslindən olmasına dəlalət edirdi. Beləliklə, Fatimilərin ismaili xilafətinin əsası qurulmuşdu (910-1171).

X əsrin sonlarında Fatimilərin hakimiyyəti altında Əlcəzair, Tunis, Libiya, Siciliya, Misir, Fələstin və Suriyanın böyük hissəsi cəmləşmişdi.

Fatimilər xilafətinin qurulması Fatimi ismaililəri və qərmətilər arasında ayrılıqları daha da genişləndirdi. Qərmətilər Fatimiləri imam-xəlifə kimi tanımaq istəmirdilər. Qərmətilərdən fərqli olaraq, fatimi-ismaililəri aydın sosial proqrama malik deyildilər, onlar yalnız «ədalət məmləkəti» yaratmaq şüarları ilə çıxış edirdilər.

X-XI əsrin bütün gedişi boyu Suriyada, İraqda, İranda və Orta Asiyada qərmətilərin üsyanları baş verirdi. Qərmətilər hərəkatının zəif tərəfi onların dini fanatizmi idi: onlar nəinki sünni Abbasilər xilafəti ilə, o cümlədən onların dini təlimini qəbul etməyən hər bir kəslə mübarizə aparır, silahlı toqquşmalar zamanı dinc əhalini öldürür, əsir aparıb qula çevirirdilər.

**Abbasilər xilafətinin dağılması**

Qeyd edildiyi kimi, xilafətin siyasi tənəzzülü artıq xəlifə əl-Məmunun dövründən nəzərə çarpmağa başlayır. O, bütün hakimiyyəti dövrü, demək olar ki, daxili üsyanların, xüsusilə Babək üsyanının yatırılması ilə məşğul idi. Ərəb əhalisi arasında nüfuza malik olmayan əl-Məmun əsasən qardaşı Əminlə hakimiyyət uğrunda apardığı mübarizədə onu dəstəkləyən Türk-Xorasan feodallarına arxalanırdı və minnətdarlıq əlaməti kimi onlara dövlətdə yüksək vəzifələr və iri torpaq sahələri vermişdi.

Xorsan, faktiki olaraq, Tahirilər sülaləsinin irsi canişinliyinə (əmirliyinə) çevrilmişdi (821-873). 821-ci ildə Samanilər nəslindən olan dörd qardaş Məvarənnəhrdə böyük əyalətlər almışdılar ki, bunlar sonradan Samanilər əmirliyinin əsasını təşkil etmişdi. Bundan əvvəl, müasir Tunis və Əlcəzair ərazisində Əğləbilər

sülaləsinin başçılıq etdiyi yarımmüstəqil əmirlik yaranmışdı (800-909). 868-ci ildə bu cür əmirlik Misirdə də yarandı (türk Tulunilər sülaləsi). Başqa xırda əmirliklər meydana gəldi. Yarımmüstəqil əmirlər xütbələrdə xəlifənin adını çəkir, onun adı birinci olmaq şərti ilə pullar buraxır (sikkə), öz əyalətindən yığılan vergilərin bir qismini ona göndərir (sonralar bu məbləğin də göndərilməsini dayandırdılar), ancaq mərkəzi hakimiyyətin nümayəndələrini öz əyalətlərinin işlərinə qarışmağa qoymurdular.

Xəlifə tərəfindən tanınmış belə yarımmüstəqil feodal əmirliklərindən başqa, yerlərdə hakimiyyəti silah gücünə ələ keçirmiş, xəlifə tərəfindən tanınmayan feodal hakimlər də meydana gəlmişdilər. Bunlara mütaqəlliblər adı verilmişdi (*ər.* «işğalçılar»). Beləliklə, IX əsrin birinci rübündən xilafətin siyasi tənəzzülü prosesi başladı və bu proses X əsrin II yarısınadək davam etdi. Bu, bir sıra səbəblərlə bağlı idi. Bunlar aşağıdakılardan ibarətdir: xilafət əyalətlərinin iqtisadi inkişafının müxtəlif səviyyəli olması, etnik tərkibin, dinin, mədəniyyətin müxtəlifliyi, iri torpaq sahibliyinin – xüsusi mülklərin və ələlxüsus şərti iqtanın (dövlət torpaq mülkiyyəti hesabına) artması, kəndli və xalq üsyanları (yatırılmış olsalar da, tədricən Xilafətin hərbi qüdrətini zəiflətmişlər).

Artıq xəlifə əl-Məmun görürdü ki, ərəb tayfalarının hərbi birləşmələri iri xalq hərəkatı, məsələn, Babək hərəkatı kimi çıxışlarla bacarmaq imkanında deyil və taxt-tacın o qədər də sabit dayağı ola bilməzlər. Xəlifə əl-Mütəsim dövründə ordu yenidən təşkil olundu. İndi o, Şərqi Avropadan, Orta Asiyadan gətirilmiş qulların – türklərin və qismən də slavyanların, zəncilərin hesabına çoxaldılırdı. Bu gənclər («qulamlar» – *ər.* oğlan, hərbi xidmətçi) xəlifənin atlı qvardiyasına daxil olur, burada xidmət keçib çox vaxt yüksək rütbələrə çatırdılar. Piyada hissələri əsasən, muzdlulardan – *dəyləmilərdən* təşkil olunurdu. Bu islahatın əsas mahiyyəti əhaliyə yad olan və bütünlüklə xəlifəyə bağlı hərbi qüvvələrin yaranması idi ki, bu qüvvələr xalq azadlıq üsyanlarını və yerlərdə feodal çıxışlarını dəf etməyə hazır olmalı idilər. Qulamlar qvardiyası böyük imtiyazlara malik, xəlifə tərəfindən yüksək məvacib alan bir qrup kimi vaxt keçdikcə o qədər gücləndi ki,

artıq xəlifəyə öz iradəsini diktə etməyə başladı. 861-ci ildə qulamlar narazı olduqları xəlifə əl-Mütəvəkkili qətlə yetirdilər. Bundan sonra 870-ci ilə qədər dörd Abbasi xəlifəsi onların gücü ilə taxta gətirilmiş, sonra isə devrilmişdilər. Xəlifələr türk qvardiyası sərkərdələrinin əlində bir növ oyuncağa çevrilirdilər.

X əsrin əvvəli üçün Abbasilər xilafətinin bilavasitə hakimiyyəti altında ancaq İraq və onun ətrafı qalmışdı. 945-ci il də bu əyalətlər də Deyləmi sülaləsi Buveyhilər (935-1055) tərəfindən tutuldu. O dövrdən başlayaraq, Abbasi xəlifələri siyasi hakimiyyətdən məhrum edilib, özlərində ancaq dini hakimiyyəti saxlaya bildilər.

## Böyük Səlcuq dövləti

**Səlcuq dövlətinin yaranması**

Oğuz adlanan köçəri türk tayfaları qədim zamanlardan bəri Altay dağlarından Dunay çayının axarlarına qədər geniş çöllük ərazilərdə məskunlaşmışdılar. Onlar haqqında məlumatlara VIII əsrə aid Çin mənbələrində rast gəlinir. Oğuzları sonradan həm də türkmən adlandırmağa başladılar. Ərəb müəllifləri isə onlara *ğuzz* deyirdilər. Mənbələrin verdikləri məlumatlara görə, X əsrdən etibarən oğuzlar arasında ibtidai icma quruluşunun sürətli dağılması və feodal cəmiyyətin formalaşması prosesləri müşahidə olunur.

Bu proses əsasən, digər köçəri türk birliklərində olduğu kimi gedirdi. Əvvəl məhsuldar qüvvələrin inkişafının nəticəsi olaraq köçəri qəbilə icması köçəri aul icması ilə əvəzlənirdi. Aul yalnız torpağın sahibi olur, mal-qara isə müxtəlif ailələrin xüsusi mülkiyyətinə keçirdi. Məhsuldar qüvvələrin inkişafı, müharibələr və hərbi qənimətlər nəticəsində varlı köçərilərin mal-qarası çoxalır, bu zəmində qəbilə daxilində əmlak bərabərsizliyi artır və köçəri hərbi-əyanların meydana gəlməsi ilə nəticələnirdi. Hərbi əyanlar köçərilərin və onların sürülərinin köçlərinə nəzarət edir, mal-qaranı qonşuların basqınlarından qoruyur, habelə qonşu qəbilələrə və ya əkinçilik vahələrinə qarətçi basqınlar təşkil edirdilər. Bütün bunlar onların nüfuzunun artmasına səbəb olurdu. Nəticə-

də, sosial təbəqələşmə və feodal iyerarxiyasının formalaşması üçün münbit şərait yaranırdı.

X əsrin ikinci yarısında oğuzlar, qarluqlar və digər köçəri türk tayfalarının dövlət birlikləri yaranmağa başladı. Bunların arasında ən böyük tarixi əhəmiyyətə malik olanı oğuzların Səlcuq dövləti idi. Bu dövlətin adı oğuzların qınıq tayfasının başçısı Səlcuqla bağlıdır. O, Səlcuqlar sülaləsinin banisi idi və bu sülalənin hakimiyyətini tanıyan bütün oğuzları *səlcuq* adlandırmağa başladılar. X əsrin ikinci yarısında Mərkəzi Asiyanın digər türk tayfaları kimi oğuzlar da islam dinini qəbul etdilər. Bu feodallaşan hərbi-köçəri əyanların şamanlıq əvəzinə yeni bir ideologiyaya ehtiyacları olması ilə bağlı idi. Buna görə də, türk tayfalarının xanları və əyanları inkişaf etmiş qonşu feodal cəmiyyətlərinin dinini – islamı qəbul etdilər.

Çox böyük sürülərin sahibləri olan feodallaşan köçəri əyanlar geniş otlaqlara ehtiyac duyurdular. Bu və əsasən onların hərbi qənimətlər əldə etmək istəyi türk tayfalarının Mərkəzi-Ön Asiyanın əkinçilik bölgələrinə köç etməsinə və yürüşlərinə təkan verdi.

Əvvəlcə səlcuqlar Sırdəryanın aşağı axarlarına köç edirlər. X əsrin sonlarına yaxın isə onlar Məvarannəhrə-Nuratin dağları bölgəsinə yeridilər. Oğuzların başında Səlcuqun nəvələri olan Məhəmməd Toğrul bəy və Davud Cağrı bəy qardaşları dururdular.

Məvarannəhrin 999-cu ildə qaraxanlı türklərinin əlinə keçməsi səlcuq oğuzları ilə toqquşmaya səbəb oldu. Qaraxanlılar və səlcuqlar arasında münasibətlər o qədər kəskinləşdi ki, XI əsrin 20-ci illərində səlcuqlar yenidən köç etməli oldular. Onların başçıları Mahmud Qəznəviyə (998-1030) müraciət etdilər və Xorasan ərazisində məskunlaşmaq üçün icazə istədilər. Əvəzində onlar hərbi xidmət göstərməyə söz verirdilər. Mahmud Qəznəvi oğuzlara Xorasının şimalında Səraks və Abiverd arasındakı ərazidə məskunlaşmağa icazə verdi. Həm də söhbət 4000 ailədən ibarət kiçik bir oğuz qrupundan gedirdi. Lakin ilk dəstənin arxasınca bir neçə qrup bu bölgəyə köç etdi. Bu hərəkat Mahmud Qəznəvinin ölümündən sonra daha geniş miqyas aldı. Onun oğlu Məsud Qəznəvinin (1030-1041) hakimiyyətinin ilk illərində Xorasanın şimalında xeyli sayda türk (oğuz) əhalisi yaşayırdı. Bütün bunlar

onunla nəticələndi ki, döyüşkən köçərilər və dinc əkinçi əhali arasında toqquşmalar başladı. İldən ilə səlcuqların hərbi-feodal əyanları Məsud Qəznəvidən daha çox torpaq tələb edirdilər.

1035-ci ildə Xorasanda vəziyyət çox gərginləşdi və sultan Məsud Qəznəvi nizami bir dəstə ilə səlcuq türklərinə qarşı yürüş etdi. Amma bu dəstə səlcuqlar tərəfindən darmadağın edildi və Məsud Nes, Ferav və Dexistan bölgələrində səlcuqların məskunlaşmasına icazə verməli oldu. Edilən güzəştlər səlcuq əyanlarını yalnız qısa müddətə razı saldı. Tezliklə onlar Mərv bölgəsini də tələb etdilər. Cavab olaraq Məsud onlara qarşı yeni ordu göndərdi. Lakin bu ordu da tam məğlubiyyətə uğradı. Nəticədə, səlcuqlar döyüşsüz Nişapuru tutdular. Burada onların başçısı Məhəmməd Toğrul bəyin adına məscidlərdə xütbə oxundu.

Qəznəvilərlə mübarizənin hələ tam bitməməsinə baxmayaraq, 1038-ci il – Nişapurun tutulması Səlcuq dövlətinin yaranması ili sayılır. Bir qədər sonra Məsud Qəznəvi səlcuqları Nişapurdan çıxartdı. Bundan sonra o, döyüş filləri də daxil olan böyük ordunun başında səlcuqlara qarşı yürüşə çıxdı. Lakin yığma feodal qoşununda daxili birlik və lazımı nizam-intizam yox idi. Bu ordu hələ səlcuqlar ilə döyüşdən öncə bərbad bir vəziyyətə düşmüşdü. 1040-cı ilin mayında Dəndənəkan yaxınlığında bir gün davam edən döyüşdə qəznəvilərin böyük ordusu səlcuq qoşunları tərəfindən darmadağın edildi. Məsud Qəznəvi canını qurtarmaq üçün qaçmalı oldu.

Bu hərbi uğursuzluqlar Qəznəvi dövlətinin daxili zəifliyi ilə izah edilə bilər. Xalq kütlələrinin Məsud Qəznəvinin hakimiyyətinə qarşı nifrəti onun vəziyyətini daha da zəiflədirdi. Dəndənəkan döyüşündən sonra Xorasan tam olaraq Səlcuq döyüşçülərinə tabe edildi. Toğrul bəy Nişapurda, onun qardaşı Cağrı bəy isə Mərvdə taxta çıxdılar. Qəznəvilərin hakimiyyəti altında yalnız indiki Əfqanıstanın bir hissəsi və Pəncab qaldı.

Xorasan uğrunda Qəznəvi dövləti və səlcuqlar arasındakı mübarizənin aqibəti hələ tam bəlli olmadığı dövrdə, daha konkret desək, 1021-ci ildən etibarən oğuzların ayrı-ayrı dəstələri qərbə doğru hərəkət etməyə başlamışdılar. Bu hərəkət ilk əvvəllər kor-

təbii tərzdə baş verirdi. Köçərilərin hər qrupunun başında bir əyan dururdu və o, heç kimin qarşısında cavabdehlik daşımırdı. Xorasan səlcuqların əlinə keçəndən sonra qərbə doğru hərəkət sistemli və mütəşəkkil xarakter aldı. Səlcuqların könüllü qoşunlarının başında Toğrul bəy və onun əmisi İbrahim Yınal dururdu. Toğrul bəyin qardaşı Cağrı bəy isə «Şərqin sahibi» kimi Xorasanın hökmdarı olaraq qaldı.

Səlcuqların qərbə yürüşləri zamanı onların qarşısını ala biləcək hərbi və yaxud siyasi bir qüvvə yox idi. Bu səbəbdən də, 1040-1050-ci illərdə Səlcuq qoşunları bölgənin Rey, İsfahan, Həmədan və digər əyalətlərini zəbt etməyə nail oldular. Rey 1043-cü ildə Toğrul bəyin müvəqqəti paytaxtına çevrildi.

Eyni zamanda, şimalda Xarəzm, şərqdə Herat, cənubda Sistan və Kerman səlcuqların hakimiyyəti altına keçdi. Oğuzların ən çoxsaylı qrupları Azərbaycana doğru hərəkət edərək, Yuxarı Mesopotamiya və Cənubi Qafqaza daxil oldular. Burada onları geniş dağlıq otlaqlar cəlb edirdi. Səlcuq hakimiyyətinin genişlənməsinin əhəmiyyətli mərhələsi 1055-ci ildə Toğrul bəyin Bağdadı ələ keçirməsindən sonra başladı. Buveyhi sülaləsinin son istehkamının alınması Səlcuqlar üçün Xuzistana yol acdı. Ön Asiya bütövlüklə səlcuqların hakimiyyəti altına keçdi. Toğrul bəy Bağdadı fəth edəndən sonra onun adına xəlifə tərəfindən xütbə oxundu. Toğrul bəy xəlifə Qaimi ona sultan titulunu verməyə məcbur etdi və xəlifənin nəvəsi ilə evləndi. Xəlifənin əlində yalnız dini hakimiyyət qaldı.

Bağdadın alınması ilə səlcuqların qərbə doğru hərəkəti dayanmadı. Yuxarı Mesopotamiya səlcuqlara tabe oldu. Səlcuqlar Bizansın ərazisi olan Kiçik Asiyaya basqınlar edirdilər və burada bəzi əraziləri ələ keçirmişdilər.

1052-ci ildə Cağrı bəy vəfat etdi və Toğrul bəy həyatının sonuna qədər (1063-cu il) sərhədləri Amudərya çayından Fərat çayına qədər uzanan Səlcuq dövlətinin tək hökmdarına çevrildi. Toğrul bəyin oğul varisi olmadığından onun vəfatından sonra hakimiyyət Cagrı bəyin oğlu Alp Arslana (1063-1072) keçdi. Alp Arslanın hakimiyyəti dövrünün əsas hadisəsi Bizans qoşunlarının

1071-ci ildə Kiçik Asiyadakı Malazgird (Manzikert) yaxınlığında darmadağın edilməsi oldu. Bundan sonra, növbəti on ildə səlcuqlar demək olar ki, bütün Kiçik Asiyanı tutdular. Onlar bundan başqa, Azərbaycanı Rəvvadilər, Şəddadilər və Şirvanşahlar, Şərqi Gürcüstanı, Suriya və Fələstini də ələ keçirdilər.

Alp Arslan Məvarannəhrdəki Qaraxani torpaqlarına qarşı da istilaçı siyasət yeridirdi. 1072-ci ildə Alp Arslan Mərvdən böyük bir ordu ilə çıxdı və Buxaraya doğru irəliləməyə başladı. Amma bu yürüş Alp Arslanın Amudəryanın o tayına keçəndə Qaraxani qalalarının birinin əsir komendantı tərəfindən qətlə yetirilməsi səbəbindən başa çatmadı. Qoşunlar Mərvə geri dönməyə məcbur oldular.

**Daxili vəziyyət**

Səlcuqlar dövlətinin siyasi qüdrətinin çiçəklənməsi dövrü Alp Arslanın oğlu Məlik şahın (1072-1092) iyirmi illik hakimiyyəti dövrünə təsadüf edir. O, Məvarənnəhrdə Qaraxaniləri asılı vəziyyətə saldı və onlardan xərac alınmasına nail oldu. Onun hakimiyyətinin son illərinə doğru Səlcuqlar dövlətinin sərhədləri qərbdə Aralıq və Mərmərə dənizlərindən, şərqdə Aral dənizinin yaxınlığındakı Qaşqardan, şimalda Qafqaz sıra dağlarından və Qara dənizdən, cənubda isə ərəb körfəzindən və Suriya səhrasından keçirdi.

Səlcuq sultanlarının böyük və yüksək mədəniyyətə malik dövlətləri idarə etmək üçün lazımı təcrübəsi yox idi. Buna görə də onlar inzibati və maliyyə aparatını təşkil etmək üçün bu ərazilərdə öncə mövcud olmuş – Qəznəvi və Buveyhi dövlətlərinin əsasən fars əsilli məmurlarından istifadə edirdilər. Onlar da, öz növbəsində, Səlcuq sultanlarının hökmranlığı ilə tez bir zamanda barışdılar. Oğuz hərbi əyanları iqta torpaqlarına sahib olandan sonra mərkəzi hakimiyyətdən müstəqil olmağa can atırdılar, buna görə də sultanlar mərkəzi dövlət aparatı ilə bağlı və güclü hakimiyyətdə maraqlı olan yerli məmur əyanlarına arxalanmağa başladılar.

Onların da arasında ən nüfuzlu şəxs və ideoloq Alp Arslanın və Məlik şahın məşhur vəziri, fəxri «Nizam-ül-mülk» («dövlətin nizamçısı») titulunu daşıyan Əbu Əli Həsən Tusi idi. O, həm Alp Arslanın və Məlik şahın xarici siyasətinin formalaşdıran şəxs, həm

də dövlətin inzibati və maliyyə idarəçiliyinin təşkilatçısı idi.

Onun daxili siyasətinin xarakteri haqqında ən mükəmməl bilgini müəllifliyi Nizam-ül-Mülkə aid edilən məşhur «Siyasətnamə» («İdarəetmə haqqında kitab») siyasi traktatı xəbər verir.

Bu traktatda Nizam-ül-Mülk mərkəzləşdirilmiş dövlətin Sasani ənənəsi üzərində qurulmasının tərəfdarı kimi çıxış edir, Samani, Qəznəvi və Buveyhi dövlətlərini bu ənənənin nümunəsi sayır. O, bu dövlətlərin daxili siyasətini ideallaşdırır və feodal hərcmərcliyinə qarşı sərt tənqidlər yağdırırdı. Amma Nizam-ül-Mülkün mərkəzləşdirmə siyasəti feodal inkişaf prosesinin qanunauyğunluğuna zidd olduğundan uğursuzluğa məhkum idi.

Nizam-ül-Mülkün Alp Arslan və Məlik şahın hakimiyyəti illərində idarə etdiyi dövlətdə həm Səlcuq sülaləsinin ayrı-ayrı üzvlərinin, həm də nüfuzlu sərkərdələrin və bəzi oğuz tayfaları başçılarının separatçı cəhdlərinə qarşı kəskin mübarizə aparılırdı. Oğuz hərbi əyanlarının ən yüksək təbəqəsi iqta torpaqlarını müstəqil əmirliklərə çevirməyə çalışırdılar. Məhz bu təbəqələrin təzyiqi nəticəsində Nizam-ül-Mülk ölümündən bir qədər öncə hakimiyyətdən uzaqlaşdırıldı.

Səlcuqlar etnik cəhətdən mürəkkəb və iqtisadi əlaqələri zəif olan ölkələri çox qısa müddət ərzində vahid dövlət şəklində birləşdirməyə nail oldular. Lakin onlar feodal pərakəndəliyi kimi qanunauyğun prosesi dayandıra bilmədilər. Artıq Toğrul bəyin hakimiyyəti illərində, Kaverdin varisləri – Toğrul bəyin qardaşının övladlarının hakimi olduqları Kerman Səlcuq Sultanlığı (1041-1187) yarandı. Kiçik Asiyada xüsusi Rum Səlcuq Sultanlığı (1077-1307) meydana gəldi. Burada Toğrulun əmisi oğulları – Qutulmuşun varisləri hakimiyyəti əldə saxlayırdılar.

Məlik şahın 1091-ci ildə vəfat etməsi sülalənin nümayəndələri arasında hakimiyyət uğrunda kəskin daxili mübarizəyə təkan verdi. Daxili çəkişmələr iyirimi ildən çox davam etdi. 1118-ci ildə taxt-taca əsas iddiaçılar olan Məlik şahın oğulları Mahmud və Börküyarığın ölümündən sonra, onun həyatda qalan oğulları – Səncər və Məhəmməd dövləti bölməyə razılaşdılar. Dövlətin şərq bölgələrində hakimiyyətə Səncər yiyələndi və onun idarə etdiyi

dövlət tarixə Böyük Səlcuq sultanlığı adı ilə düşdü. Məhəmməd isə Qərbdə – İraq və ətrafında hökmranlıq edirdi. 1118-1194-cü illərdə burada mövcud olan dövlət İraq Səlcuq sultanlığı adlandı.

Hər iki sultanlıqda mərkəzdənqaçma meylləri çox güclü idi. Qərb bir sıra əmrliklərə parçalandı və onların bəzilərində Səlcuq sülaləsinə heç bir aidiyyəti olmayan əyanlar hakimiyyətdə idilər.

Səncər öz sultanlığında (Xorasan, Sistan, Xarəzm, Mərv vahəsi) 1118-ci ildən 1157-ci ilə qədər hakim oldu. Səncərin ali hakimiyyətini Mavarənnəhrdə də qəbul edirdilər. Burada Səncərin vassalı olan Qaraxanlılar hakimiyyətdə idilər. Bu səbəbdən də Səncər Mavarənnəhr bölgəsinin və Qaraxanlılar sülaləsinin daxili işlərinə mütəmadi olaraq müdaxilə edə bilirdi. Bu müdaxilələrin birinin nəticəsi Səncərin dövləti üçün faciəli oldu. Səlcuqlar Mərkəzi Asiyaya yeni gəlmiş köçəri xalq – qarakitaylar və yaxud kidanilər adlanan xalqla toqquşmalı oldular. Tunqus və yaxud monqol əsilli olan qarakitaylar X əsrin əvvəlindən XII əsrin əvvəlinə qədər Şimali Çində hakimiyyətdə idilər. Lakin buradan sıxışdırılıb çıxarılandan sonra onlar Mərkəzi Asiyaya köç etdilər. 1128-ci ildə onlar Qaraxanlılardan Şərqi Türküstanı (indiki Sincan) və Yeddisuyu aldılar, bu bölgələrdə iri bir dövlət yaratdılar. Səmərqəndin Qaraxanlı xanı Səncərdən kömək üçün ordu istədi. Səmərqəndin yaxınlığında olan Katvan çölündəki həlledici döyüşdə Qaraxanlı və Səlcuq qoşunları qarakitaylar tərəfindən məğlub edildi. Onlar 30 minə yaxın döyüşçü itirdilər. Səncər qaçaraq canını qurtardı. Səlcuqlar Məvarənnəhri tərk etməyə məcbur oldular. Sultan Səncərin məğlubiyyəti onu müsəlman təbəələrinin gözündən saldı. Belə ki, qalib tərəf – qarakitaylar qeyri-müsəlman, yəni «kafir» idilər.

Səlcuq dövlətinin daxilindəki vassal hakimlər dərhal bu məğlubiyyətdən istifadə etməyə cəhd göstərdilər. Katvan döyüşündən bir qədər sonra 1141-ci ildə Xarəzmin (bu bölgə əvvəllər Səlcuq dövləti daxilində iri iqta idi) irsi hakimi xarəzmşah Atsız Mərv və Nişapura hücum etdi, oranı ələ keçirdi. Sultan Səncər böyük çətinliklə Atsızı Səlcuq sultanlığının ali hakimiyyətini tanımağa məcbur etdi. Amma faktiki olaraq, Xarəzm artıq Səlcuqların

əlindən çıxmışdı.

XII əsrin 50-ci illərində oğuz köçəri tayfalarının böyük bir qismi Xorasanın şərq sərhədlərində, əsasən Amudəryanın yuxarı axarına yaxın olan bölgələrdə cəmləşmişdilər. Onlar Səncərin adından Bəlxi idarə edən canişinin tabeçiliyində idilər.

Bəlx canişininin məmur aparatı oturaq əhali yaşayan bölgələrdə istifadə edilən vergi sistemini bir neçə dəfə oğuzlara da şamil etməyə çalışdı. Lakin bu cəhdlər köçəri oğuzların silahlı müqavimətinə səbəb oldu. Bəlxdə yaşayan oğuzlara sultan mətbəxi üçün hər il 24 min qoyun göndərmək tapşırıldı. Məmurların özbaşınalığı 1153-cü ildə Bəlx bölgəsində yaşayan bütün oğuz tayfalarının mərkəzi hakimiyyətə qarşı üsyan etməsi ilə nəticələndi.

Sultan qoşunu baş verən döyüşdə oğuzlar tərəfindən darmadağın edildi və sultan Səncər əsir alındı. Oğuzlar Xorasanda dəhşətli qarət törətdilər. Ən çox Mərv və Nişapur şəhərləri zərər çəkdi. Şəhərlərdəki binalar yandırıldı, əhalinin böyük bir hissəsi qətlə yetirildi.

Xarəzmşah Atsız dərhal yaranmış vəziyyətdən istifadə etməyə çalışdı və özünün müstəqilliyini elan etdi. Üsyan qaldırmış oğuz tayfalarının başçıları arasındakı daxili çəkişmələr 1153-cü ildə sultan Səncərə əsirlikdən qaçmağa imkan yaratdı. Amma Səncər yenidən qazandığı hakimiyyətdən çox az istifadə edə bildi. 1157-ci ildə o, vəfat etdi. Onun ölümü ilə Xorasanda Böyük Səlcuq sultanlığı süqut etdi və feodal ara müharibələri başladı. Oğuz tayfalarının başçıları, Xarəzmşahlar, Əfqanıstandan gələn Quri sülaləsi və digər feodal hakimlərin Xorasan uğrunda apardıqları otuz illik mübarizənin nəticəsində Xarəzmşah Təkəş qalib gəldi.

**Səlcuq dövlətinin dağılması**

Səlcuq dövlətinin zəifləməsi Xarəzmin siyasi cəhətdən güclənməsi üçün zəmin yaratdı. Bununla yanaşı, Xarəzmin coğrafi mövqeyi də çox əlverişli idi. Xarəzm Mərkəzi Asiyanı, Qara dəniz çöllərini, Volqaboyunu, Rus torpaqlarını bir-birinə bağlayan və böyük əhəmiyyətə malik karvan yollarının üzərində idi. Bu karvan yollarında yenidən canlanan ticarət Xarəzmin zənginləşməsi üçün zəmin yaradırdı.

Xarəzmşah Təkəş 1187-ci ildə Mərv vahəsini və Xorasanı Xarəzmşahların ərazisinə qatdı. Bir qədər sonra o, İraq Səlcuq sultanlığını darmadağın etdi və beləliklə, bu bölgə də onun əlində cəmləşdi.

Təkəşin varisi Xarəzmşah Məhəmməd (1200-1220) dövlətin hüdudlarını daha da genişləndirdi. 1210-cu ildə o, Talas çayı üzərindəki döyüşdə qarakitayları darmadağın etdi və onları şərqə sıxışdırdı, Səmərqənd, Buxara şəhərlərini və bütün Buxaranı ələ keçirdi. 1215-ci ildə isə Əfqanıstan əraziləri də onun dövlətinin tərkibinə qatıldı. Xarəzmşah Məhəmmədin hakimiyyəti dövründə dövlətin şərqdəki sərhədi Hind çayı, qərbdəki Zaqros dağları, şimal sərhədləri Aral və Xəzər dənizləri və cənub sərhədi isə Ərəb körfəzindən keçirdi. Xarəzmşahlar dövləti bu dövrdə Yaxın Şərqin ən böyük dövlətinə çevrilmişdi.

XII-XIII əsrlərin qovşağında Xarəzmşahlar dövləti iqtisadi çiçəklənmə dövrünü yaşayırdı. Genişmiqyaslı suvarma işləri aparılmışdı, böyük ərazilər münbit torpaqlara çevrilmişdi. Şəhər həyatı çox sürətlə inkişaf edirdi. Sənətkarların, tikinti və dekorasiya sahələrində çalışanların bacarığı çox yüksək səviyyəyə qalxmışdı.

Xarəzmşahlar dövlətinin sürətli inkişafı, apardığı uğurlu müharibələr onun hüdudlarının genişlənməsinə, ticarətin inkişafına və bilavasitə Xarəzm vahəsində yaşayan əhalinin nisbətən varlanmasına gətirib çıxarmışdı. Amma ucqar bölgələrdəki vəziyyət dəyişməmişdi. Əksinə, uzunsürən müharibələr, Xarəzmşahların silahdaşlarına və müttəfiqlərinə iqta torpaqları paylaması, yerli əkinçilərin və sənətkarların Xarəzm orduları tərəfindən qarət edilməsi bu bölgələrdə iqtisadi cəhətdən geriliyə səbəb oldu. Yerli əyanlar özlərinə dəyən zərəri ödəmək üçün xalq kütlələrini daha ağır istismar etməyə çalışırdılar. Bu isə nəticədə münasibətlərin kəskinləşməsinə gətirirdi. Xəracın və digər vergilərin artırılması əkinçilər arasında narazılığı artırırdı. Şəhərlərdə narazılıq daha kəskin xarakter almışdı. 1231-ci ildə Gəncədə və Buxarada üsyan baş verdi.

Xarəzmşahlar məmur və bəzən də ruhani əyanlara arxalanaraq mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışırdılar. Bu siya-

sət müstəqilliyə can atan hərbi və qismən köçəri əyanların kəskin etirazına səbəb oldu. Dövlətin hərbi qüdrətinin əsasında öz qəbilə başçıları tərəfindən idarə olunan, əsasən türk kanqlar və türkmənlərdən təşkil olunmuş muzdlu və müttəfiq türk qoşunları dururdular.

Xarəzmşah Məhəmmədin dövründə hakim təbəqə daxilindəki ziddiyyətlər ifrat dərəcədə kəskinləşdi. Sultanın öz siyasətində hərbi xidmətdə olan əyanlara və ticarətlə məşğul olan şəhərlilərə arxalanması kəskin etiraza səbəb oldu. Məhəmmədə qarşı olan qruplaşmanın başında kanqlı tayfasından olan anası Türkan xatun dururdu. Onu soydaşlarından ibarət və dövlətin ən görkəmli sərkərdələrini birləşdirən «hərbi qruplaşma» dəstəkləyirdi. XII əsrin 20-ci illərində artıq Məhəmməd öz sərkərdələrinə inamı itirmişdi və ordusundan ehtiyatlanırdı.

Monqol istilasından bir qədər öncə Xarəzmşahlar dövləti ərazisinə görə çox böyük, iqtisadi cəhətdən inkişaf etmiş, lakin kəskin daxili mübarizə və hakim təbəqə daxilindəki ciddi ziddiyyətlər nəticəsində zəifləmiş bir dövlət idi.

## Kiçik Asiya Səlcuq sultanlığı

### Kiçik Asiyada Səlcuq dövlətinin yaranması və inkişafı

Kiçik Asiya ərazisində türk dövləti XI əsrin 70-ci illərində yarandı. Bu dövlətin əsası köçəri oğuz – türk tayfaları tərəfindən qoyulmuşdur.

Belə ki, XI əsrin qırxıncı illərində Mərvdə və Nişapurda özlərini sultan elan etmiş oğuz tayfa birliyinin başçısı Səlçuqun nəvələri Məhəmməd Toğrul bəy və Davud Çağrı bəy qardaşları qısa bir zaman kəsiyində qonşu torpaqları da öz hakimiyyətləri altına aldılar.

Qınıq tayfasından olan oğuzlar 1055-ci ildə Bağdadı tutdular və Xorasandan Bağdada qədər uzanan ərazidə Səlcuq dövlətini qurdular.

Beləliklə də Səlcuqlar Kiçik Asiyanın hüdudlarına qədər gəlib çatdılar. Az sonra onlar Kiçik Asiya torpaqlarına doğru yeriməyə

başladılar.

Bu dövrdə Kiçik Asiya Bizans imperiyasının tərkibində idi. Bu imperiyanın sərhədləri qərbdə Dunay çayından şərqdə Fərat çayına qədər uzanırdı.

Səlcuqların Kiçik Asiyanı tutmasında həlledici dönüş 1071-ci ildə Malazgird (Manzikert) yaxınlığındakı döyüşdə baş verdi. İmperator IV Roman Diogenin başçılıq etdiyi Bizans ordusu Səlcuqlar tərəfindən darmadağın edildi. İmperator özü əsir alındı (tezliklə azadlığa buraxıldı). Bu hadisə, demək olar ki, Bizansın müqavimətini tamamilə qırdı. Növbəti bir neçə il ərzində Kiçik Asiyada hərbi əməliyyatlara rəhbərlik edən Süleyman İbn Qutulmuşun başçılığı altında Səlcuqlar Kiçik Asiyanın böyük hissəsini ələ keçirdilər, Qara və Mərmərə dənizlərinin sahillərinə gəlib çatdılar. 1080-ci ildə Nikeyanı (İzniki) ələ keçirəndən sonra paytaxtlarını bu şəhərə köçürdülər. 1085-ci ildə onlar İzmiri və Egey dənizi sahilində yerləşən digər şəhərləri də fəth etdilər. Bununla da, tutulmuş ərazilərdə Kiçik Asiya Səlcuq dövlətinin yaranması prosesi başa çatmış oldu.

Kiçik Asiya Səlcuq dövlətinin 200 ildən artıq tarixi (1077-1299) bir neçə dövrə bölünür.

Birinci dövr 1077-1092-ci illəri əhatə edir. Bu illərdə Kiçik Asiyanı fəth edən Səlcuqlar türkmən-oğuz tayfalarının əksəriyyətini öz hakimiyyətləri altında birləşdirərək mərkəzi Nikeya (İznik) olan əmirlik yaratdılar. Bu dövrdə İznik əmirliyi Məlikşahın (1072-1092) başçılıq etdiyi Böyük Səlcuq dövlətinin tərkib hissəsi sayılırdı. Məlikşahın ölümündən sonra onun qərbdə Egey və Aralıq dənizlərindən şərqdə Aral dənizi və Hindistana qədər uzanan böyük dövləti bir neçə müstəqil əmirliklərə parçalandı.

İznik əmirliyi yarananda onun başında Səlcuqun nəslindən olan Kutulmuşun oğlu Süleyman (1077-1086) dururdu. Növbəti illərdə Süleyman həmsərhəd Bizans ərazilərinə basqınlar təşkil etdi. 1080-ci ilə qədər o, Kiçik Asiyanın demək olar ki, bütün ərazilərinə yiyələndi. Bizansın hakimiyyəti altında yalnız Propontida (Mərmərə dənizinin sahilində kiçik bir ərazi), Vifin yarımadası (indiki Kocaeli yarımadası) və Egey dənizindəki adalar qalmışdı.

Süleymanın hakimiyyəti dövründə İznik əmirliyinin daxili quruluşu haqqında tarixdə çox az məlumatlar olsa da, onun ümumi cəhətləri bəlli idi. Səlcuqlar Kiçik Asiyaya gələndə erkən feodalizm quruluşunda yaşayırdılar.

Oğuz-türkmən tayfaları əvvəlki kimi köçəri maldarlıqla məşğul olur, amma get-gedə daha çox oturaq həyata üstünlük verir və ölkədə özlərindən öncə mövcud olan istehsal münasibətlərini qavramağa çalışırdılar. Bizanslı-yunanlar adətən torpaqlarından qovulmurdular. Belə ki, Səlcuqlar onların istehsal etdiyi əkinçilik məhsullarını itirmək istəmirdilər. Bundan əlavə, işğal zamanı müqavimət göstərənləri çıxmaq şərti ilə, bütün qullar və təhkimlilər azad elan olundular. Səlcuqlar yerli kəndlilərdən yalnız can və torpaq vergisi toplayırdılar və bu da faktiki olaraq Bizans dövründə toplanan vergilərdən qat-qat az idi. Bu səbəbdən, yerli yunan-xristian əkinçiləri nəinki müsəlman-səlcuqlara qarşı mübarizə aparmırdılar, əksinə, onların tərəfinə keçirdilər.

İznik əmirliyində yaranan üstqurumlar əsasən Məlik şahın hakimiyyəti dövründə Böyük Səlcuq dövlətində mövcud olan təsisatları, demək olar ki, təkrarlayırdı.

Süleyman İbn Kutulmuşun 1086-cı ildə vəfatından sonra İznik əmirliyində daxili mübarizə başladı. Amma onun oğlu I Davud Qılınc Arslan dövründə ara müharibələri başa çatdı.

I Davud Qılınc Arslanın (1092-1107) hakimiyyətə gəlməsi ilə Kiçik Asiya Səlcuq sultanlığının tarixində ikinci dövr başladı. Bu dövrün xarakterik xüsusiyyəti feodal münasibətlərinin möhkəmlənməsindən və xarici basqın və işğalların davam etməsindən ibarət idi. İkinci dövr XII əsrin sonuna qədər, yəni 100 ilə yaxın davam etdi.

Birinci xaçlı yürüşü zamanı (1096-1099) İznik əmirliyi xaçlıların hücumlarına məruz qaldı. Səlcuqlar və xaçlılar arasında ilk döyüş İznik yaxınlığında baş verdi. Xaçlılar qalib gəldilər və asanlıqla şəhəri ələ keirdilər. İkinci döyüş Dorileyum (indiki Eskişehir) yaxınlığında baş verdi və xaçlılar yenə də qələbə çaldılar. Qeyd etmək lazımdır ki, bu müharibədə Səlcuqların tərəfində türkmən Danişmənd əmirliyi də iştirak edirdi. Bu əmrliyin ərazisi Qızıl İr-

maq və Fərat caylarının yuxarı axarlarınadək çatırdı, onlar həmçinin Sevastiyas (indiki Sivas), Kesareya (indiki Kayseri) və Meliten (indiki Malatya) şəhərlərinə sahib idilər və bəzi vaxtlarda onların əraziləri Qara dəniz sahillərinə qədər uzanırdı. Danişməndlər Bizans və Gürcüstanla daima müharibədə idilər.

İznikin xaçlıların əlinə keçməsi (Səlcuqlar bu şəhərə bir daha yiyələnə bilmədilər) və Dorileum yaxınlığındakı məğlubiyyət Səlcuqlara Mərmərə dənizinə çıxışı bağladı və dövləti çox zəiflətdi. Xaçlıların Kiçik Asiyanın mərkəzi bölgələrinə hücum etməsi üçün yol açılmışdı.

Mərkəzi Tavr dağlarını aşan xaçlılar əvvəlcə Kilikiya ovalığına endilər, sonra Suriyaya soxuldular və buranı işğal etdilər. Xaçlılar Kilikiyada yerləşən erməni əmrliyinin köməyi ilə bu bölgədə yerləşən səlcuq və digər türk tayfalarının müqavimətini asanlıqla qıra bildilər.

Birinci xaçlı yürüşü zamanı Kiçik Asiya o qədər də çox dağıntıya məruz qalmadı. Müharibə hər iki tərəfdən qəddarlıqla aparılırdı, amma xaçlılar yalnız irəlilədikləri yollar boyu yerləşən bölgələri qarət edirdilər. Onlar Kiçik Asiyanı tezliklə tərk etdilər və onun tarixinə nisbətən az təsir göstərdilər.

Buna baxmayaraq, xaçlılarla mübarizə Səlcuq dövlətini çox zəiflətdi. Bu, Bizansın maraqlarına cavab verirdi və o, Səlcuqların Mərmərə dəniz sahilində yerləşən əraziləri hesabına öz ərazilərini genişləndirdi. Lakin sonrakı illərdə Bizans Səlcuqların Egey dənizinə doğru irəliləməsinə imkan vermədi. Buna baxmayaraq, Smirna (indiki İzmir), Sard (indiki Salihli), Filadelfiya (indiki Alaşehir) və Efes (indiki Ayasuluk) şəhərləri Bizansın ərazisi daxilində qalırdı. 1117-ci ildə Bizans və Səlcuqlar arasında bağlanmış sülhə görə, Səlcuqlar Bizansın I xaçlı yürüşündən sonra tutduğu bütün torpaqları tanımağa məcbur oldu.

Səlcuqlar Suriya və Fələstində məskunlaşan xaçlılarla da düşmən münasibətlərində idilər. Onlar arasında daima hərbi toqquşmalar baş verirdi. 1114-cü ildə Səlcuqlar Efessanı (indiki Urfa) xaçlıların əlindən almağa nail oldular. Efessanın tutulması 1147-1149-cu illərdə baş vermiş II xaçlı yürüşü üçün təkan oldu.

Xaçlıların əsas məqsədi, Dəməşq şəhərini tutmaq idi. Amma onların bu şəhər uğrunda mübarizəsi uğursuzluqla nəticələndi. Xaçlılar məğlub oldular və tezliklə Avropaya döndülər. Uğursuzluğuna baxmayaraq, II xaçlı yürüşü Səlcuqları, qismən də olsa, zəiflətdi. Bundan istifadə edən Bizans Səlcuq sultanlığının Kiçik Asiyanın şimal-qərbində olan ərazilərini, habelə Meandrdan (Böyük-Menderes), Attaliya (Antalya) ərazilərini və Anadolunun mərkəzi hissəsinin qərbində yerləşən bir sıra şəhərləri ələ keçirdi.

XII əsrin ortalarında Səlcuqlar Bizansın hücumunun qarşısını kəsməyə nail oldular. Hətta XII əsrin 70-ci illərində əks-hücuma keçdilər, Bizans imperiyasını qərbə doğru sıxışdırdılar və Dorileuma qədər irəlilədilər. Bizans Səlcuqların hərbi uğurlarına son qoymaq üçün müharibə etməyə qərar verdi. Lakin 1176-cı ildə Miriokefalonda (Meandr çayının yuxarı axarında) Səlcuqlar bizanslıları ağır məğlubiyyətə uğratdılar. Bundan sonra Səlcuqlar Bizans torpaqlarını tutaraq, qərbə doğru öz ərazilərini genişləndirdilər.

XII əsrin sonuna doğru Səlcuqların qərb və cənub sərhədlərində sabitlik yarandı. Kiçik Asiyanın çox böyük hissəsi onların hakimiyyəti altında qaldı. Amma Səlcuqlar bu torpaqların tam ağası deyildilər və bir sıra əmirliklərlə rəqabət aparırdılar. Bu əmirliklərdən ən böyüyü türkmən Danişmənd əmirliyi idi. XII əsrdə Danişmənd əmirliyi o qədər güclənmişdi ki, 1077-ci ildən bəri Səlcuqların hakimiyyəti altında olan İkoniy (indiki Konya) şəhərini 1102-ci ildə ələ keçirdilər. Yalnız XII əsrdə Səlcuqlar Kiçik Asiyadakı bütün daxili rəqiblərini, onların ərazilərini əhatə edən xristian dövlətlərinin və müsəlman Artukid və Danişmənd əmirliklərini məğlubiyyətə uğratdılar.

XII əsrdə Kiçik Asiya Səlcuq sultanlığı inkişafının yeni dövrünə qədəm qoydu. Yunan-Bizans feodalizmi ilə mürəkkəb qarşılıqlı təsir prosesində Səlcuq sultanlığının özünəməxsus feodal quruluşu yarandı. XII əsrin sonlarına doğru Kiçik Asiya Səlcuq sultanlığı inkişaf etmiş feodalizm quruluşunun mövcud olduğu dövlətə çevrildi. Onun hakimləri Rum (Yunan) sultanları titulunu daşıyırdılar və bu-

nunla özlərini Şərqi Roma İmperiyasının varisləri elan edirdilər. 1116-cı ildən etibarən bu dövlətin paytaxtı İkoniy (Konya) şəhəri oldu. Bu şəhərin adı ilə Kiçik Asiya Səlcuq sultanlığını tarixçilər bəzən İkoniy və ya Konya sultanlığı adlandırmağa başladılar.

Hakimiyyətə gələndə Bizans imperatoru Manuilin (1143-1180) vassalı olan II Qılınc Arslanın hakimiyyəti illərində (1156-1188) dövlətin daxili vəziyyəti xüsusilə möhkəmləndi. Onun ölümündən sonra aramsız daxili mübarizə başladı və sultanlıqda bir neçə il ərzində tam anarxiya hökm sürdü. Yalnız 1192-ci ildə II Qılınc Arslanın oğullarından biri I Qiyasəddin Xosrov daxili çəkişmələrə son qoydu və sultanlığın ərazilərini öz hakimiyyəti altında birləşdirdi. Bununla Kiçik Asiya Səlcuq dövlətinin tarixində ikinci dövr bitir və XIII əsrin 40-cı illərində baş vermiş monqolların basqınına qədər davam edəcək üçüncü dövr başlayır.

Bu dövrdə Səlcuq sultanlığı öz qüdrətinin ən yüksək nöqtəsinə çatdı. 1204-cü ildə Konstantinopolun xaçlılar tərəfindən tutulması və Bizans imperiyasının parçalanması da buna münbit şərait yaratdı. XII əsrin sonu – XIII əsrin əvvəllərində Səlcuqlar müasir Bodrum bölgəsində Egey dənizinə çıxış əldə etdilər və 1207-ci ildə Aralıq dənizinin sahilində yerləşən Attaliya (indiki Antalya) şəhərini tutdular. 1214-cü ildə isə Səlcuqlar Sinop bölgəsində Qara dənizə çıxış əldə etdilər.

Səlcuqların bu hərbi yürüşləri o qədər uğurlu oldu ki, bir neçə il ərzində Krım yarımadasının Sudak bölgəsində bir neçə məntəqə də onların hakimiyyəti altına keçdi. Krım yarımadasının Səlcuqlar üçün çox böyük strateji əhəmiyyəti var idi. Çünki onlar Krım vasitəsi ilə Volqa çayı hövzəsi, Mərkəzi Asiya və hətta Şərqi Asiya dövlətləri ilə ticarət edirdilər.

Səlcuqların Şərqdəki əraziləri, demək olar ki, Cənubi Qafqaza qədər uzanırdı. XIII əsrin əvvəlində onlar hətta türkmən Soltuklər sülaləsi ərazilərinə daxil olan Ərzurumu tutdular. Ərzurum Səlcuq sülaləsinin nümayəndəsi Toğrula verildi. Toğrul 1235-ci ilə qədər bu şəhəri müstəqil idarə etdi və hətta öz adından pul da kəsdirdi. Bəzi hallarda Səlcuqlar Suriyadakı Artuki və Əyyubi sülalələrinə məxsus bir çox ərazilərə də nəzarət edirdilər. Nikeya

və Trabzon imperatorları, habelə Kilikiyadakı erməni əmirliliyinin hakimi Səlcuq sultanlarına bac verirdi.

XIII əsrin birinci yarısı və xüsusən də, I Əlaəddin Keyqubadın (1219-1236) hakimiyyəti illəri Səlcuq sultanlığının çiçəklənməsi dövrü sayılır. Məhz bu zaman müasirləri oranı dünyanın ən zəngin ölkəsi sayırdılar. Lakin bir sıra səbəblərdən, xüsusilə də, bir tərəfdən tutulmuş torpaqlardan gələn qənimətlərin azalması, o biri tərəfdən əhalidən alınan vergilərin artırılması nəticəsində ölkədə sosial ziddiyyətlər kəskinləşdi.

**Baba İshaq üsyanı**

Monqolların hücumlarından bir qədər əvvəl, 1239-cu ildə ölkədə Baba İshaqın başçılığı altında əkinçi kəndlilərin və köçəri maldarların güclü bir üsyanı baş verdi.

Üsyan qəddarcasına yatırılsa da, kəndlilərin narazılığı azalmır, daha da artırdı. Baba İshaqın təbliğatı gizli şəkildə bütün ölkəyə yayılırdı. Eyni zamanda, feodal düşərgəsində də ciddi ziddiyyətlər yaranmağa başlamışdı. Bütün bunlar Səlcuq dövlətini zəiflətdi və onun monqollara müqavimət göstərməsinə imkan vermədi.

1243-cü ildə sərkərdə Baycunun başçılığı altında monqol qoşunları ölkənin sərhədlərini keçdilər və o dövrdə Səlcuq sultanlığının hakimiyyəti altında olan Karini (Ərzuruma yaxın) mühasirəyə aldılar. Elə həmin ildə də Səlcuq qoşunları say çoxluğuna baxmayaraq, Ərzincan yaxınlığındakı Kəsədağ düzənliyində monqollar tərəfindən ağır məğlubiyyətə uğradıldı. Sultanlığın daxili zəifliyi, onun ictimai-siyasi quruluşunun dayanıqsız olması onun bu müharibədə məğlub olmasına gətirdi. Sultan II Qiyasəddin Keyxosrov (1236-1245) öz həyatını qurtarmaq üçün monqollara təslim oldu və onların vassallığını qəbul etdi. Bundan sonra Kiçik Asiya Səlcuq sultanlığının tarixində XIII əsrin sonunda sultanlığını dağılmasına qədər davam edən tənəzzül dövrü başladı.

Kəsədağ düzənliyində baş vermiş döyüşdən sonra bir neçə vassal əmirlik, monqollara sığınmaq üçün Səlcuqlardan ayrıldı. İş o yerə çatdı ki, özünü son sultan II Əlaəddin Keyqubadın (1219-1236) oğlu elan edən Koterin adlı birisi 20 minlik qoşun toplayaraq Konyanın ətrafını viran qoydu və bundan sonra Kilikiya əmir-

liyinə basqın etdi. Lakin burada müqavimətlə qarşılaşdı, əsir alındı və edam edildi. Monqollar isə asanlıqla sultanlığın bir neçə iri şəhərini, o cümlədən Kayserini, Sivası və digərlərini işğal etdilər. İnkişaf etmiş, münbit, yüksək əkinçilik mədəniyyətinə malik Sivas və Kayseri bölgələri tərəfindən viran edildi, kəndlilərin və şəhər əhalisinin böyük hissəsi qətlə yetirildi, sənətkarlar isə Mərkəzi Asiyaya göndərildilər.

1244-cü ildə Səlcuq sultanlığının torpaqlarını ələ keçirən monqollar ölkəni xırda hissələrə parçaladılar, bəylər və əmirlər arasında nifaq salmağa çalışdılar. Torpaqlarının 2/3-ni itirən Səlcuq sultanlığı 1248-ci ildə iki hissəyə bölündü. 1249-cü ildə Kiçik Asiyada II Qiyasəddin Keyxosrovun oğulları olan üç sultan eyni zamanda hakimiyyətdə idilər.

**Elxanilərin Səlcuq sultanlığını tutması**

1256-cı ildə Elxanilər dövləti yaranana qədər Səlcuq dövlətində monqolların ağalığı o qədər də güclü hiss olunmurdu. Lakin Hülakü xan (1256-1265) hakimiyyətə gələndən sonra Kiçik Asiya Səlcuq dövləti onların ağalığını bütün ağırlığı ilə hiss etməyə başladı.

Elxan bölgədə ali hökmdara çevrildi və ona baş əyən sultanları, əmirləri və vəzirləri öz istədiyi kimi ya yüksək məqama ucaldırdı, ya da ki, hakimiyyətdən kənarlaşdırırdı. Səlcuq sultanlığı iqamətgahı Qars yaxınlığında yerləşən canişin tərəfindən idarə olunurdu. Ölkədəki faktiki hakimiyyət canişinə məxsus idi, sultanlar isə onların əlində oyuncağa çevrilmişdilər. Eyni zamanda, əvvəllər Səlcuqların vassalı olan əmirlər gücləndilər və nəticədə Kiçik Asiya ərazisində bilavasitə Elxanilərdən asılı olan çoxlu yarımmüstəqil əmirlik yarandı.

Sultanlığın özündə isə bəzən əmrləri və göstərişləri sultanlardan deyil, canişinlərdən və hətta bilavasitə Elxanilərdən alan vəzirlərin nüfuzu və təsiri artmaqda idi. Belə bir şəraitdə qeyri-məhdud hakimiyyətə malik, insanlar üzərində tamhüquqlu hakimə çevrilən və yalnız canişin və yaxud elxan qarşısında məsuliyyət daşıyan yeni vəzir tipi yarandı. Vəzirlər geniş malikanələrin sahibi idilər. Hətta böyük var-dövlətə malik vəzir sülalələri yaranmağa

başladı.

Səlcuq sultanlığında Elxanilər öz qaydalarını tətbiq edirdilər. Onlar vergi verən əhalidən daha çox pul toplamaq üçün vergi sistemini nizama saldılar. Əhali və vergi toplayanlar siyahıya alındılar, əvvəlkilərdən qat-qat ağır yeni vergilər tətbiq edildi. Vergiləri əvvəlki kimi hakimlər yığmırdı, onların əvəzinə bunu bütün bölgələrdə əhalini soyan iltizamçılar edirdilər. Vergilərin 1/3-i elxana, 1/3-i sultanlara və bəylərə, yerdə qalan 1/3-i isə feodallara gedirdi. Kəndlilərin böyük hissəsi vergini bilavasitə xəzinəyə ödəyirdilər və bu, bəzi feodal evlərin kasıblaşmasına səbəb olurdu.

Elxanilər vahid pul sistemini tətbiq etməyə çalışdılar. Yolların təhlükəsizliyinin artması ticarətin inkişafına müsbət təsir etdi.

**Cimri üsyanı**

Səlcuq sultanlığı get-gedə daha da zəifləyirdi. 1261-ci ildə Qaraman bəyliyi sultan hakimiyyətinə itaətsizlik göstərdi. 1275-ci ildə isə Cimrinin başçılığı altında üsyan etmiş kəndlilər Konyanı tutdular və dağıtdılar. Üsyan Konyadan Ağsaraya keçdi. Bundan sonra Elxanilərdən müstəqillik istəyən bir sıra türkmən tayfa başçıları özlərinin müstəqilliyini elan etdilər. Oturaq əhali və feodallar arasında narazılıq artmaqda idi. 1277-ci ildə bir qrup əyanın başçılığı ilə Məhəmməd ibn Qaraman sultana qarşı çıxdı, Konyanı fəth etdi və özünü sultan elan etdi. O, Misirin məmlük sultanı Bəybars ilə əlaqəyə girdi və elə eyni ildə də Bəybars Fələstinə soxuldu. Suriyanı tutan Bəybars Kiçik Asiyaya daxil oldu, lakin elxani əmirləri onun ordusunu məğlubiyyətə uğratdılar. Sultanlığın qərb sərhədlərində də vəziyyət gərginləşmişdi. 1261-ci ilin 15 avqustunda Nikeya çarı XIII Mixail Paleoloq Konstantinopolu latınlardan aldı və Bizans imperiyasını bərpa etdi. O, əvvəllər imperiyanın tərkibində olan əraziləri də ələ keçirməyə başladı.

Eyni zamanda, Səlcuq sultanlığında mərkəzdənqaçma meylləri də artmaqda idi və 1299-cu ildə sultanlıq 10 bəyliyə parçalandı. Bu bəyliklər Elxanilər dövlətinin zəifləməsi şəraitində müstəqillik əldə etdilər. Yaranmış şəraitdən oğuz-türk kayı tayfasından olan Osman bəy istifadə etdi və Kiçik Asiyada türk-Osmanlı dövlətini yaratdı.

## Elxanilər dövləti

### Bölgənin monqollar tərəfindən tutulması

1251-ci ildə Qaraqorumda keçirilən qurultayda Münke (1251-1259) böyük xan taxtına çıxandan sonra qərara alındı ki, Yaxın və Uzaq Şərqdə fəth olunmayan ərazilərin istilası mümkün qədər sürətlənsin. Bu məqsədlə Münke xanın qardaşları Xubilay xanın və Hülakü xanın başçılığı altında iki böyük qoşun hazırlandı. Xubilay xan Uzaq Şərqdə Çini, Hülakü xan isə Yaxın Şərq ölkələrini işğal etməyə göndərildi. Hülakü xanın qarşısında müəyyən edilmiş bir hərəkət planı var idi: o, ismaililərin müqavimətini qırmalı, Bağdad xəlifəsini itaətə gətirməli və Yaxın Şərqdə hələ işğal olunmamış əraziləri fəth etməli idi.

1252-ci ildə imperiya miqyası almış bu yürüşə hazırlığa başlanıldı. Bütün ulusların hər birinin ordusundan (hər onluqdan iki döyüşçü olmaqla) əhalinin 1/5 hissəsi (məlumdur ki, köçərilərdə yetkinlik yaşına çatmış hər bir kişi döyüşçü sayılırdı) ailələri və əmlakları ilə birlikdə Hülakü xanın sərəncamına verilirdi. Çindən min nəfərə yaxın daşatan, odsaçan silahlardan və arbaletlərdən istifadə edən minə yaxın döyüşçü bu yürüşdə iştirak etmək üçün çağırıldı. Ümumilikdə isə, Hülakü xanın sərəncamında olan orduda döyüşçülərin sayı yetmiş min nəfərdən artıq idi.

Hülakü xanın qoşunlarının hərəkət edəcəyi ərazilərdən buraya köç edən tayfalar çıxardılır, qoşunun çayları rahat keçməsi üçün körpülər salınır, yollar təmir edilir, yol boyunca olan əhali ordu üçün ərzaq və atlar üçün yem hazırlayırdı. 1253-cı ildə Hülakü Qaraqorumdan İraqa yürüşə çıxdı. Amma o, çox ləng hərəkət edirdi və yalnız 1256-cı ildə Yeddisudan çıxaraq Mərkəzi Asiyaya çatdı və Amudərya çayını keçdi.

1256-cı ildə Hulakü xanın orduları ismaililərin qalasını mühasirəyə aldı. Həmin ildə onlar ismaililərin paytaxtı Əlmut qalasını tutdular və dağıtdılar. Növbəti il Hülakü xan ordusu ilə Bağdad istiqamətində yürüşə çıxdı. Bağdad xilafəti o dövrdə nisbətən kiçik bir dövlət idi, amma xəlifə hələ də müsəlmanların başçısı kimi dini nüfuzunu tam olaraq saxlamışdı. Xəlifə əl-Müstəsim (1242-

1258) öz torpaqlarının idarəçiliyini saray əyanlarının ixtiyarına vermişdi. Onların arasında hakimiyyət uğrunda kəskin mübarizə gedirdi.

Hülakünün hücumu təhlükəsi qarşısında belə bu əyanlar daxili mübarizəni dayandırmadılar və hər qruplaşma xəlifəyə Hülaküya qarşı müxtəlif taktiki gedişlər etməyi məsləhət görürdülər. Xəlifə tərəddüd etdi, lakin ordunun səfərbər edilməsi əmrini verdi. Ordu toplanandan sonra o, acgözlük edərək onlara maaş vermək istəmədi, ordunu buraxmaq əmrini verdi. Xəlifə Hülakü xanın təklif etdiyi təslimə də rədd cavabı verdi.

**Hülakü dövləti**

1257-ci ilin dekabrında Hülakü xanın orduları Bağdada dörd istiqamətdən hücuma keçdilər. Qısa sürən həmlədən sonra onlar şəhərə soxuldular. Bağdadın qarəti 20 gün davam etdi. Əhali yaşından və cinsindən asılı olmayaraq, qırıldı. Bununla belə, yəhudilərə və xristianlara müttəfiq kimi baxan Hülakü xan onlara dəyməməyi əmr etdi. Kitabxanalar, sənət və mədəniyyət əsərləri məhv edildi. 10 dekabr 1258-ci ildə xəlifə əl-Müstəsim təslim oldu. Bir neçə gün sonra şəhərə daxil olan Hülakü xan xəlifədən tələb etdi ki, Abbasilərin gizli xəzinələrinin saxlandığı yerləri ona göstərsin. Qorxudan əsən xəlifə çətinliklə bu anbarların açarlarını tapdı. Hülakü onu məcbur etdi ki, qızıl və zinət əşyaları ilə dolu gizli anbarların mövcud olduğunu boynuna alsın.

Abbasi xəlifələrinin bir neçə əsr ərzində topladıqları var-dövlət xəlifənin iqamətgahı qarşısında təpələr şəklində toplanmışdı. Xanın əmri ilə xəlifə edam edildi. Onunla bir yerdə Abbasi sülaləsinin bütün kişi nümayəndələri də edam olundular, qadınlar isə qul edildilər. Beləliklə, beş əsrdən çox müddətdə mövcud olmuş Abbasilər xilafətinin varlığına son qoyuldu.

Növbəti zərbə Suriyaya vuruldu. 1260-cı ildə Hələb, Dəməşq və digər şəhərlər ələ keçirildi Bundan sonra, Hülakü ordusunun irəliləməsi dayandı. Belə ki, Münke xanın ölümü haqqında xəbər orduya çatdı. Hülakü xan geriyə dönməyə tələsirdi. Hərbi əməliyyatların müvəqqəti dayanması Misirə imkan verdi ki, özünün müdafiəsini təşkil edə bilsin. Bir qədər sonra isə Hülakü xanın

orduları misirlilər tərəfindən darmadağın edildi və Suriyadan çıxmalı oldu. 1260-cı ildə Qahirədə Abbasi xilafətinin təntənəli surətdə bərpası mərasimi keçirildi. Belə ki, Bağdaddan qaçmağa müvəffəq olan bir nəfər özünü Abbasi sülaləsinin nümayəndəsi kimi qələmə verdi və xəlifə kimi tanındı.

Bağdadın dağıdılması və xəlifənin edamı bütün müsəlman aləmində qəm və qəzəb doğurdu. İslamı qəbul etmiş Qızıl Orda xanı Bərkə (1256-1265) yaranmış vəziyyətdən istifadə etdi və islamı qorumaq bəhanəsi ilə Hülakü xana qarşı Qafqaza otuz minlik qoşun göndərdi. Bu ordunun göndərilməsinin həqiqi səbəbi Qızıl Ordanın öz ərazilərini cənuba doğru genişləndirmək cəhdi ilə bağlı idi. Qızıl Orda ən azı Azərbaycanı və Gürcüstanı ələ keçirmək istəyirdi. Çünki, bu uluslar (ölkələr) Çingiz xanın vəsiyyətinə əsasən Qızıl Ordanın tərkib hissəsi hesab edilirdi. 1263-cü ildə Bərkə xanın və Hülakü xanın qoşunları Dərbənd yaxınlığında toqquşdular. Bir neçə döyüşdə və əsasən, Terek çayı üzərindəki döyüşdə Hülakü qoşunlarının məğlub olmasına baxmayaraq, Qızıl Orda qoşunları Böyük Qafqaz dağlarını aşıb öz ərazilərinə döndülər. 1263-cü il yürüşü Qızıl Orda və Cənubi və Şimali (Aran, Şirvan) Azərbaycanı öz əlində saxlayan Hülakü dövləti arasında illərlə davam edən müharibələrdən birincisi idi.

Hülakü xan bütün qoşunları ilə tutduqları ərazidə qaldı. O, özü və varisləri üçün yeni bir ulus yaratdı. 1261-ci ildə böyük xan seçilmiş Xubilay xan ona zəbt olunmuş ərazilərdə «elxan» titulunu daşıyan hökmdar olmağa icazə verən fərman göndərdi.

**Elxanilərin xarici siyasəti və daxili quruluşu**

Yaranma tarixi 1256-cı il qəbul olunan Elxanilər dövləti geniş bir ərazidə yerləşmişdi. Şimalda Böyük Qafqaz dağları Qızıl Orda ilə sabit bir sərhəd formalaşdırırdı. Cənubi Qafqazda Gürcüstan və Şirvanşahlar dövləti Elxanilərin vassalı idilər. Qara dəniz sahillərində, 1204-cü ildə yaradılmış Trabzon padşahlığı Hülakü dövlətinə xərac ödəyirdi. Qərbdə – Kiçik Asiyada yerləşən Rum Səlcuq Sultanlığı da Elxanilərdən vassal asılılığında idi. Kiçik Asiyanın cənub-şərqində yerləşən Kilikiya çarlığı da (1080-1375) Elxanilərdən asılılığını elan etdi. Fərat çayı Suriya ilə təbii

sərhəd təşkil edir, Ərəb körfəzi isə cənub hüdudu idi. Cənub-şərqdə Elxanilərin hind mahalları ilə quru sərhədləri dənizdən Amudərya çayına qədər uzanırdı. Şərqdə indiki Əfqanıstanda mərkəzi Herat olan Qurdlar dövləti Elxanilərin vassalı idi. Amudərya çayı Cağatay dövləti ilə sərhəd təşkil edirdi. Ürgəncdən cənuba və Xəzər dənizinin şərq sahillərinə qədər Qızıl Orda ilə şərq sərhədləri uzanırdı. Xəzər dənizi Elxanilər dövlətinin şimaldakı təbii sərhədi idi. Bu bölgədə yalnız kiçik, çətinliklə qət edilə bilən sahilyanı Gilan uzun müddət ərzində öz müstəqilliyini qoruyub saxlaya bilmişdi.

Qızıl Orda, Cağatay dövləti, Misir və Suriyanın məmlük sultanlığı Elxanilər dövlətinin düşmənləri hesab olunurdular. Nəmlük döyüşçülərinin yuxarı təbəqələrindən çıxmış Misir sultanları o dövrdə Yaxın Şərqin iqtisadi cəhətdən ən inkişaf etmiş və nisbətən mərkəzləşdirilmiş feodal dövləti qura bilmişdilər.

1261-ci ildə məmlüklər Suriyanı ələ keçirdilər. 1291-ci ildə isə onlar xaçlıları Fələstindən qovub oranı ələ keçirdikdən sonra Qahirə və İsgəndəriyyə Şərq və Qərb arasındakı ticarətin əsas vasitəçiləri oldular. Bu hal Misir üçün iki yüz il ərzində davam edən tükənməz gəlir mənbəyi olaraq qaldı.

Misirin məmlük sultanları Suriyanı ələ keçirməyə cəhd edən Elxanilər dövlətinə qarşı müttəfiqlər axtarışında idilər və buna görə də onlar Qızıl Orda ilə münasibətlər yaratdılar. Məmlük sultanları üzərilərinə götürdükləri «kafirlərə» qarşı «islamın qoruyucuları» rolundan məharətlə istifadə edirdilər.

Misirlə davam edən mübarizə Elxanilərin Suriyadakı xaçlılarla və Avropanın xristian dövlətləri, əsasən Fransa və Genuya ilə uzun sürən münasibətlərə girməsinə səbəb oldu. Artıq ilk elxanilər dövründə Roma papası, İngiltərə və Fransa ilə səfirliklər mübadiləsi baş tutdu. Bu səfirliklərin əsas məqsədi məmlüklərə qarşı ittifaq yaradılmasından, Elxani və avropalı müttəfiqlərin «müqəddəs torpaqları», yəni Suriya və Fələstini birlikdə azad etməsindən ibarət idi. Bundan sonra həmin torpaqların Elxanilərin vassallığını qəbul edən Avropalı cəngavərlərə veriləcəyini nəzərdə tutulurdu.

Elxanilər dövləti belə mürəkkəb beynəlxalq vəziyyətdə yarandı və yaşamağa məcbur oldu. Demək olar ki, bütün sərhədlər boyu aparılan aramsız və baha başa gələn müharibələr Elxanilər dövlətinin daxili siyasətinə ciddi təsir etdi.

Elxanilər dövləti Monqol imperiyasının qurulduğu nümunə üzərində formalaşmışdı. Dövlətdə ali hakimiyyət elxana məxsus idi. Şahzadələr, noyonlar və əmirlər elxanın vassalları idilər. Onlar hakim təbəqənin nümayəndələri kimi xandan torpaq payları – iri ərazilər və yaxud şəhərlər alırdılar, oranın bütün gəlirləri isə tam olaraq onların ixtiyarına verilirdi. Bu payların sahibləri öz torpaqlarında yaşamırdılar və onu idarə etmirdilər. Onların idarə edilməsi dövlət məmurlarının əlində idi. Türk və monqol köçəri feodalları hələ də qəbilə və tayfalara görə bölünən elxani ordularının sərkərdələri idi. Bu sərkərdələr xanın tələbi ilə əsgərləri ilə birlikdə hərbi xidmət göstərmək üçün gəlməli idilər.

Elxan və onun ətrafı bütün köçəri həyat tərzini davam etdirirdilər. Ovlar və ziyafətlər, hərbi yürüşlər bir-birini əvəz edirdi. Elxan bir məntəqədə yaşamırdı; ilin bir hissəsini o, Bağdad və Təbrizdə keçirir, qalan vaxtlarda isə köç edirdi – yay fəslində dağlara, qışda isə çöllərə. Gözəl otlaqlarla bol olan Azərbaycan elxanilərin ən çox qiymət verdiyi köç bölgəsinə çevrildi.

Gürcüstan, Rum, Luristan, Fars, Kerman, Əfqanıstan və digər yerlərin sülalələri Hülakü xanın vassallığını qəbul etdilər. Onlar öz ərazilərini elxanın nümayəndəsinin («*baskak*») nəzarəti altında idarə edirdilər.

İqtisadi quruluşuna, dininə, dilinə və mədəniyyətinə görə köçərilərdən kəskin fərqlənən oturaq əhalinin məskunlaşdığı geniş əraziləri idarə etmək üçün elxan hakimiyyəti inzibati və ilk növbədə, vergi aparatı yaratmalı idi. Yetərincə imkanlara malik olmayan Elxanilər dövlət idarəçiliyinə yerli əyanları cəlb etməyə məcbur oldular. Bu əyanlar əvvəl Səlcuqların və Xarəzmşahların xidmətində idilər, indi isə böyük həvəslə Elxanilərə xidmət etməyə hazır idilər.

Beləliklə, Hülakülər dövründə öz həyat tərzinə, dininə, dilinə və etnik mənşəyinə görə bir-birindən fərqlənən dörd feodal təbəqəsi yarandı:

1. Türk-monqol hərbi əyanlar;
2. Əsasən farslardan təşkil olunmuş mülki bürokratiya;
3. Ali ruhanilər – əsasən müsəlman ruhanilər, Cənubi Qafqazda, Kiçik Asiyada isə xristian ruhanilər;
4. Mərkəzi dövlət aparatı ilə sıx bağlı olan yerli əyalət əyanları.

Hülakü xanın ilk varislərinin dövründə siyasi hakimiyyət hələ də türk-monqol hərbi-köçəri əyanlarının əlində cəmləşmişdi.

Hülakü xanın ölümündən sonra onun oğlu Abaqa xan (1265-1282) qurultay tərəfindən taxta çıxarıldı. Abaqa xanın hakimiyyəti dövründə də Elxanilərin xarici siyasətinin istiqamətləri dəyişmədi. Qızıl Orda ilə Qafqaz ərazisində hərbi əməliyyatlar davam edirdi. Mərkəzi Asiyadakı Cağatay ulusu və Misirin məmlük sultanları ilə ədavət aradan qalxmamışdı.

Abaqa xanın ölümündən sonra türk-monqol köçəri əyanlarının müxtəlif qruplaşmaları elxan mənsəbinə iki namizəd irəli sürdülər – Abaqa xanın qardaşı Tokudarı və oğlu Arqunu. Tokudar (1282-1284) qısa müddət ərzində hakimiyyətə yiyələnə bildi.

Tokudar islamı qəbul edən ilk elxan oldu və onun müsəlman adı Əhməd idi. O, dövləti islamlaşdırmağa çalışır, xarici siyasətdə isə məmlüklərlə normal münasibətlərin qurulması kursu götürmüşdü. Əhməd tərəfindən aparılan islamlaşdırma siyasəti öz qədim ənənələri ilə yaşayan və islama qarşı düşmən mövqedə olan köçəri monqol feodallarının qəti etirazına səbəb oldu. Onlar tədricən Arqunun tərəfinə keçməyə başladılar. Daxili müharibədə məğlubiyyətə düçar olan Əhməd qaçmağa cəhd etdi. Lakin onu yaxaladılar və edam etdilər.

Arqun xanın hakimiyyəti illərində (1284-1291) isə artıq köçəri əyanların çıxış və üsyanları baş verirdi. Bu feodallar onlara tabe olan tayfa qoşunlarına arxalanır, mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırır və hətta özlərini mərkəzi hakimiyyətə qarşı qoyurdular.

Feodal qruplaşmalarının dövlətdə nüfuz və hakimiyyət uğrunda mübarizəsi bəzən dini pərdə altında gedirdi. Arqun xan etibar etmədiyi müsəlman məmurların təsirini azaltmaq üçün dövlət aparatında onları yəhudilər və xristianlarla əvəz etmək istədi.

1289-cu ildə Arqun xan yəhudi tacir Saad əd-dövləni vəzir təyin etdi.

Elxanilərin Qərbi Avropa dövlətləri ilə sıx diplomatik münasibətləri Arqun xanın dövründə də davam etdi. Bu baxımdan, əsasən, Venesiya və Genuya ilə ticarət əlaqələrinin genişlənməsi üçün çox şey edildi.

1291-ci ildə Arqun xan iflic oldu. Hələ onun xəstəliyi dövründə müxtəlif feodal qruplaşmaları arasında taxt-tac uğrunda mübarizə başladı. Köçəri əyanlar arasında gedən uzunmüddətli mübarizədən sonra Abaqa xanın oğlu Keyxatu (1291-1295) xan seçildi. Keyxatu xan ilk olaraq dini qruplaşmalar arasında sülh yaratmağa çalışdı. O, müsəlman Sədrəddin Əhməd Xalidini vəzir təyin etdi. Bu vəzir tarixdə kağız pulların dövriyyəyə buraxılması ilə məşhurlaşdı.

Bir qədər sonra Keyxatu xanın əmisi oğlu, Kiçik Asiyanın keçmiş canişini Baydu ona qarşı üsyan qaldırdı. Baydu müsəlmanların düşməni və xristianların gizli tərəfdarı idi. Monqol əyanlarının böyük qismi onun tərəfinə keçdi. Keyxatu xan tərəfdarlarını itirdikdən sonra qaçmağa cəhd etdi. Lakin onu tutdular və kəməndlə boğdular.

Baydu xan taxta çıxdı. Lakin onun hakimiyyəti cəmi yarım il davam etdi (1295-ci ilin mayından oktyabrına qədər). O, Xorasanın hakimi, Arqunun oğlu olan Qazanla mübarizədə öldürüldü.

**Qazan xanın islahatları**

Dövlətin ağır vəziyyəti yeni elxan olmuş Qazan xanı (1295-1304) daxili siyasəti kəskin dəyişməyə məcbur etdi. O, yenidən müsəlman məmur və ruhani əyanlara arxalanmağa çalışdı. Bunun üçün o, müsəlmanlığı qəbul etdi və islam yenidən dövlət dini elan olundu. Qazan xan bəzi islahatlar həyata keçirdi. Xərac və kupcurun (*kupcur – köçərilərdən hər 100 baş müxtəlif növ mal-qaradan alınan 1 başdan ibarət idi*) dəqiq miqdarı və alınma vaxtları müəyyən edildi. Bütün özbaşına vergi toplanmaları qadağan edildi. Hərbi və inzibati vəzifə sahiblərinin və qasidlərin rəiyyətin evlərində yerləşməsinə qadağa qoyuldu. Xaraba və baxımsız torpaqlar güzətli şərtlərlə torpaq sahiblərinə verildi, bunun müqabilində onlar bu torpaqları

suvarmalı və becərməli idilər. Mülki və hərbi əyanlar tərəfindən kəndlilərə qarşı özbaşınalıq və zorakılıq hallarının azaldılması üçün tədbirlər görüldü. Sələmcilərə ödəmələr sistemi ləğv olundu. Bəzi şəhərlərdə tamğa vergisi (hər bir topdan və ya pərakəndə satışın 10%-ni təşkil edirdi) tam aradan qaldırıldı. Əvvəllər dövlət müəssisələrində (karxana) işləyən qullar biyar işlərinə keçirildilər. Onlara daha çox ərzaq verməyə başladılar. Gümüş sikkə kəsilməsi bərpa edildi. Altı dirhəmə bərabər olan 1 dinarın tərkibində 13 qram gümüş var idi. Ölkənin münbit ərazilərində genişmiqyaslı suvarma işləri aparıldı.

Ordunun birbaşa tələbi ilə 1303-cü ildə Qazan xan hərbi xidmətdə olanlara qeyd-şərtsiz *iqta* torpaqları paylanması haqda yarlıq (fərman) verdi.

Qazan xanın islahatları Elxanilər dövlətinin tənəzzülünü bir qədər ləngitdi, amma tam dayandıra bilmədi. Qazan xan vəfat edəndən sonra onun qardaşı Olcaytu xan (1304-1316) müsəlman Məhəmməd Xudabəndə adı ilə taxta çıxdı. Onun oğlu Əbu Səid Bahadur xanın hakimiyyəti illərində (1316-1335) və xüsusilə də, onun ölümündən sonra Hülakülər dövləti bir neçə qruplaşmanın daxili müharibə meydanına çevrildi. Onlar müxtəlif bölgələrdə Çingiz xanın nəslindən olan müxtəlif əlaltılarını elxan taxtına çıxarmağa və onların adından ölkəni idarə etməyə çalışırdılar.

Dövlətin siyasi tənəzzülü 1353-cü ildə Qurqanda hakimiyyəti əldə saxlamağa çalışan son elxani Tuqa Teymur xanın vəfatı ilə başa çatdı. Lakin Elxanilərin mövcudluğuna 1357-ci ildə Qızıl Orda xanı Canı bəy tamamilə son qoydu.

Elxanilər dövləti ərazilərində bir neçə müstəqil dövlət yarandı. Onlardan ən əhəmiyyətlisi Ərəb İraqını, Fars İraqını, Azərbaycanı və Ermənistanı tərkibində birləşdirən Cəlairilər dövləti idi (1340-1410-cü illər). Onun paytaxtları Bağdad və Təbriz idi. 1313-1393-cü illərdə mövcud olmuş Müzəffəridlər dövləti Kerman, Fars və Xuzistanı əhatə edirdi.

Hülakü dövlətinin süqutu daxildə baş verən xalq üsyanları ilə də bağlı idi. Onların aparıcı qüvvəsi kimi kəndlilər və şəhərin aşağı təbəqələri çıxış edirdilər. Bu sırada Xorasanda şeyx Xəlifə

və onun yaxın silahdaşı Həsən Curinin başçılığı altında sərbedarlar üsyanını xüsusi qeyd etmək olar.

Bölgədəki siyasi pərakəndəlik uzun müddət, ən azı Səfəvilər dövlətinin yaranmasınadək davam etdi.

## İRAQ, SURİYA VƏ MİSİR XI-XV ƏSRLƏRDƏ

### İraq

**Sonuncu Abbasilər**

Buveyhi sülaləsinin nümayəndəsi Muizz əd-daulə Əhmədin ordularının 945-ci ildə Bağdada daxil olmasından sonra İraq faktiki olaraq Buveyhilər dövlətinin tərkibinə daxil oldu. Buveyhilər xəlifədən «əmir əl-ümara» (əmirlər əmiri) titulunu alıb, bütün siyasi hakimiyyətə yiyələndilər. Formal olaraq onlar xəlifənin canişinləri sayılırdılar. Ancaq bu həqiqətə uyğun deyildi. Xəlifənin ali hakimiyyəti, o dövrdən etibarən, ancaq məsciddə cümə namazında qeyd edilməkdə və adının sikkələrdə birinci yazılmasında öz təzahürünü tapırdı (Buveyhilər, Samanilər və Qəznəvilər ərazilərində). Xəlifələr tamamilə siyasi hakimiyyətdən və maliyyə vəsaitlərindən uzaqlaşdırılmışdılar. Doğrudur, onlar sünni islam ölkələrində (ərəb İspaniyası və Fatimi xilafətindən başqa) öz dini rəhbər nüfuzunu saxlamışdılar, ancaq bu halda da şiələrə himayəlik edən Buveyhilər onlarla az hesablaşırdılar. Uzun müddət (XI əsrin əvvəllərinədək) xəlifələr şiələrə, hətta Bağdadın özündə də onların sünnilərlə ixtilaflarına dözməli olmuşdular.

1055-ci ildə Toğrul bəyin rəhbərliyi altında səlcuqlar Buveyhilər dövlətinə və onların İraqda ağalığına son qoydular. Səlcuq sultanlarının hökmranlığı dövründə Abbasi xəlifələrinin vəziyyəti mahiyyəti etibarilə dəyişmədi. Qeyd etmək olar ki, səlcuqlar – sünnilər xəlifələrə artıq zahiri hörmət göstərir və onları Buveyhilərdən xeyli yaxşı saxlayıb, təmin edirdilər. Toğrul bəy şəxsən Bağdada investitura və sultan titulunu almaq üçün gələndə o, xəlifə Qaim (1031-1075) qarşısında diz çöküb yeri öpmüş, ancaq öz hakimiyyətinin bir zərrəsindən də keçməmişdi.

1059-cu ildə Səlcuqların keçmiş düşməni Buveyhi sərkərdəsi Arslan əl-Basasari İraqı tutmaq fikrinə düşür və bu işdə Fatimi xəlifələrinin köməyinə arxalanır. Toğrul bəyin və ordunun Bağdaddan müvəqqəti uzaqlaşmasından istifadə edərək, Basasiri paytaxtı tutub, Fatimi xəlifəsi Müstənsirin adına xütbə oxutmuşdu.

Lakin tezliklə Toğrul bəy qayıtmış, Basasirini döyüşdə məğlub etmiş və öldürmüş, Abbasi xəlifəsinin dini hakimiyyətini bərpa etmişdi. Lakin xəlifələr XI əsrin II yarısı və XII əsrin əvvəllərində də dünyəvi hakimiyyətdən məhrum olunmuş, ancaq məscid, mədrəsə tikməklə və s. abadlıq işlərilə məşğul olmuşdular.

I Məlikşahın (1072-1092) ölümündən sonra Səlcuq dövlətindəki hərc-mərclik və onun siyasi tənəzzülü XII əsrin birinci rübündən etibarən Abbasi xəlifələrinə imkan verdi ki, onlar idarəetməyə təsir göstərməyə imkan qazansınlar. Onlar 1132-ci ildə Aşağı İraqda öz dünyəvi hakimiyyətlərini tam bərpa edə bilmişdilər. 1157-ci ildə əcəm İraqının hakimi səlcuq sultanı Məhəmməd ərəb İraqını yenidən tutmaq istəmiş və Bağdadı mühasirəyə almış, ancaq şəhəri ala bilməmiş və mühasirəni götürmüşdü. Abbasi xəlifələrinin beynəlxalq mövqeyi də bu dövrdə bir qədər artrmışdı. Belə ki, Suriyanın müsəlman hakimləri onlara xaçlılara qarşı apardığı mübarizədə kömək etmək xahişi ilə müraciət etməyə başlamışdı. Fatimilər xilafətinin süqutu və Qahirədə (1171-ci ildə) Səlahədinin sultan elan edilməsi burada sünnilıyin bərpasına və Misirdə oxunan xütbələrdə Abbasi xəlifəsi Mustadinin adının birinci çəkilməsinə gətirib çıxartdı.

Xəlifə ən-Nasir (1180-1225) yalnız Ərəb İraqından və Xuzistandan ibarət olan torpaqlarını genişləndirməkdə və xilafətin beynəlxalq təsirini gücləndirməkdə xüsusi fəallıq göstərirdi. O, Xarəzmşah Təkəşə əcəm İraqının səlcuq sultanı ilə müharibəyə girməyi məsləhət görürdü. Ancaq bu ərazi Xarəzmşah qoşunları tərəfindən 1194-cü ildə fəth ediləndə məlum oldu ki, sultan titulunu özbaşına qəbul etmiş və İraqın demək olar ki, hamısını tutmuş Təkəş işğal olunmuş ərazilərin heç bir qismini də xəlifəyə vermək niyyətində deyildir. O da, onun varisi olan Xarəzmşah Məhəmməd də (1200-1220) artıq ərəb İraqı ərazisini tutmaq arzusunda

olmuş, xəlifəni siyasi hakimiyyətdən məhrum etmək və onu yenə də dini hakimiyyətdə saxlamaq qərarını almışdılar. Xəlifə Bağdadda xarəzmşahın adını xütbədə özününkündən sonra ikinci yerdə qeyd etməkdən, xarəzmşah isə ən-Nasiri imam xəlifə saymaqdan imtina etmiş və bu vəzifəyə əslən Termezdən olan Ələvilərdən birini elan etmişdi.

Xarəzmşah xəlifəyə qarşı 1217-ci ildə hətta ordu göndərmiş ancaq ağır qış şəraiti ona dağlardan keçməyə imkan verməmişdi.

Xəlifə ən-Nasir özünü o dövrdə təşkil olunan hərbi-dini qardaşlığın (əxilərin – *ər.* «əxi» – qardaş) himayəçisi elan etmiş və «kafirlərlə müqəddəs müharibə» aparan bu təşkilatdan Yaxın Şərqdə öz nüfuzunu möhkəmlətmək üçün istifadə etməyə çalışmışdı.

**XI-XII əsrlərdə İraq iqtisadiyyatı**

Bir sıra mənbələrin məlumatına əsasən, XI-XII əsrlərdə İraq hələ də yüksək inkişafa malik olan bir əyalət idi. Ancaq vergilərin artması, son xəlifələr dövründə mövcud olan maliyyə əyintiləri kəndlilərin bir qisminin tam yoxsullaşmasına gətirib çıxartmışdı. Onlar artıq suvarma sistemlərini normal vəziyyətdə saxlaya bilmir, təbii fəlakətlər, xəstəliklərlə üz-üzə dayanmaq imkanında deyildilər. Bir çox torpaqlar boşalırdı. Lakin Bağdad, Kufə, Hilla, Vasit, Bəsrə kimi şəhərlər çox əhalili və əhəmiyyətli iqtisadi həyat mərkəzləri idi ki, buradan Asiyanın tranzit ticarət karvan yolları keçirdi. Kufə və Bağdad öz məktəb və kitabxanaları ilə şöhrət qazanmışdı. Xəlifə Müstənsir 1232-ci ildə Bağdadda Universitet tipli məşhur «əl-Müstənsiriyyə» mədrəsəsini təsis etmiş və «Xəlifələr məscidi»ni tikdirmişdi. Son Abbasilər dövründə İraqın başqa şəhərlərində də qiymətli memarlıq abidələri inşa edilmişdi.

**İraqın monqollar tərəfindən işğal edilməsi**

Çingiz xanın ordularının İrana soxulmasından sonra (1220 və sonrakı illər) monqol təhlükəsi Ərəb İraqı sərhədlərinə də yaxınlaşdı. Monqollar dəfələrlə Bağdada yaxınlaşsalar da, onu ələ keçirə bilməmişdilər. Hər dəfə təhlükə sovuşduqdan sonra şəhər hakimləri onu müdafiə etmək tədbirləri haqqında düşünmək əvəzinə, fəaliyyətsizlik göstərirdilər. Sonuncu xəlifə

Mustasim (1242-1258) özünün iki məsləhətçisi – vəzir İbn Alkami və sərkərdə Aybəy və hərbçilərin arasında qalmışdı. Vəzir məsləhət bilirdi ki, xəlifə Hülakü xana zəngin təzminat göndərməklə, onun ali hakimliyini qəbul etsin, hərbçilər isə döyüş təklif edirdilər. 1256-cı ilin yayında Bağdadda şəhər əhalisinin, yoxsulların iğtişaşları baş verdi. Aybəy bu vəziyyətdən istifadə edib qətiyyətsiz xəlifəni devirmək və onun yerinə Abbasi ailəsinin ayrı nümayəndəsini oturtmaq niyyətinə düşür. Bu haqda məlumat alan xəlifə Müstasim Aybəy ilə barışmağa çalışır və onun məsləhətini – yəni monqollara silahlı müqavimət göstərməyi qəbul edir. 1258-ci ilin yanvarında Hülakü xan və onun ordusu Bağdada yaxınlaşaraq, xilafət ordusunu dağıtmış və şəhəri mühasirəyə almış, fevralın 4-də monqollar şəhərin şərq divarlarını ələ keçirmişdilər. Vəzir ibn Alkami və nestorian (xristian) patriarxının vasitəçilik cəhdləri boşa çıxmışdı. Fevralın 10-da monqollar şəhərə girmiş və xəlifə Müstasim qeyd-şərtsiz təslim olmuşdu. Onu gizli xəlifə xəzinəsinin yerini göstərməyə məcbur etdişdilər. Sonra isə o, bütün Abbasilər sülaləsinin kişiləri ilə birgə edam olunmuşdu. Aybəyi və xəlifəyə müqavimət məsləhət bilən digər əmir və məmurları da qətlə yetirmişdilər. Vəzir ibn al-Alkami, nestorion patriarxı və monqollara tabe olmağın başqa tərəfdarları Hülakü xan tərəfindən mükafatlandırılmışdılar.

Bağdadla bərabər monqollar Vasit şəhərini də tutdular. Bəsrə könüllü təslim olmuş, Hilla şəhərinin şiə əhalisi isə monqolların gəlişinə açıq sevindiklərini nümayiş etdirmişdilər. Beləliklə, Ərəb İraqı Bağdadla birgə Elxani Hülakülər (1256-1357) dövlətinin tərkibinə daxil olmuşdu.

**İraq monqol işğallarından sonra**

Hülakü xan Ərəb İraqına məşhur fars tarixçisi Əlaəddin Cüveynini canişin təyin etdi. 20 ildən artıq Bağdadı idarə edən Cüveyni şəhəri bacardığı qədər yenidən tikdi, abadlaşdırdı, yeni suvarma sistemləri qurdu, Fəratdan Kufəyə su kanalı çəkdirdi. Yuxarı Mesopotamiyanın və İraqın boş qalmış torpaqlarının suvarılmasında Qazan xanın (1295-1304) da böyük xidmətləri olmuşdur. Bu işlər və Qazan xanın islahatları, şəhər həyatını və məhsuldar

əyalətləri müəyyən səviyyədə saxlamaq imkanı verdi.

Hülakülər dövlətinin dağılmasından sonra Ərəb İraqı Cəlairi dövlətinin (1340-1410) tərkibinə daxil idi. Bağdad bu sultanların qış iqamətgahı olmuşdu. Cəlairlərin Əmir Teymurla mübarizəsində əyalət çox zərər çəkmiş, Bağdad isə düşmən tərəfindən iki dəfə (1393 və 1401-ci illərdə) alınmışdı. 1401-ci ildə əhalinin böyük hissəsi (mənbələrə əsasən 90 min) məhv edilmiş, şəhər isə dağıdılmışdı. Cəlairilərin süqutundan sonra Ərəb İraqı Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1503) dövlətlərinin tərkibində olmuş və onun tarixi bu dövlətlərin tarixi ilə bağlı olmuşdur.

XV əsrdə İraq iqtisadi tənəzzül keçirirdi: Bağdad və digər şəhərlər əvvəlki mədəni əhəmiyyətlərini itirmişdilər. Monqol işğalından əvvəl yüz minlərlə sakini olan Bağdad, XV əsrin I yarısında cəmi 50 min əhalisi olan bir şəhər idi. 1508-ci ildə ərəb İraqı Bağdadla birgə Səfəvilər dövlətinə birləşdirilmiş, 1534-cü ildə isə türk sultanı Süleyman Qanuni tərəfindən fəth edilmişdi.

## Fatimilər dövləti (910-1171)

Misir türk Tulunilər sülaləsinin hakimiyyəti dövründən (868-905) demək olar ki, Abbasilər xilafətindən ayrılmış müstəqil dövlət oldu. Sonralar, qısa müddətə Abbasilər Misirdə öz hakimiyyətlərini bərpa etsələr də, ancaq son nəticədə onların buradakı *ixşid* titulunu daşıyan (bu titul Misirə canişin təyin edilən Fərqanə feodal hakiminə məxsus idi) valisi müstəqil İxşidilər dövlətini yaratmışdı (935-969). Bu dövrdə Məğribdə ismaililərin yaratmış olduğu Fatimilər xilafəti (910-1171) zəngin Misirə yiyələnmək arzusunda idilər. 969-cu ildə Fatimi xəlifəsi Muizz (953-975) buna nail oldu. 973-cü ildə Misirin keçmiş paytaxtı Fustatın yaxınlığında Qahirə adlı yeni şəhər salındı (*ər.* əl-Qahirə – fəth edən, qalib gələn). Fatimilərin mərkəzi bura köçürüldü və tezliklə o, Yaxın Şərqin ən iri şəhərlərindən biri oldu. X əsrin sonu üçün fatimi orduları Fələstini və Suriyanın böyük hissəsini (Dəməşqlə birgə), Trablis şəhəri və şimalda Oront çayına qədər olan əraziləri işğal etdilər.

Fatimilər xilafətinin torpaqları qərbdə Mərakeş sərhədlərin-

dən, şərqdə Suriya səhrasına qədər olan ərazini əhatə edirdi. Zəngin və varlı Misir və Suriyanın dövlətin tərkibində olmaları Fatimilərə iqtisadi cəhətdən çox geniş imkanlar verir və böyük ordu saxlamağa şərait yaradırdı. İsmaililərin təlimi Fatimilər xilafətində rəsmiləşdi, amma onu nə sünnilərə, nə başqa şiə təriqəti nümayəndələrinə, nə də xristian və yəhudilərə zorla tətbiq etmirdilər; onlar özlərinin dini adətlərini saxlaya bilərdilər. Fatimilərin maliyyə məmurları əsasən, xristian – qibtilər, bəzən isə yəhudilər olurdular. Bu, xəlifələrə sərfəli idi. Çünki xalq üsyanları dövründə bütün vergi əyintilərini qeyri-müsəlmanların hərəkətləri ilə bağlamaq olurdu.

Bu dini siyasəti fatimi xəlifəsi əl-Hakim (986-1021) pozdu. Öz vergi sisteminə qarşı müsəlman əhalisinin etirazını azaltmaq üçün o, xristian və yəhudiləri təqib etməyə başladı: xilafətdə olan bütün kilsələri dağıtmağı əmr etdi. Bu, sinaqoqlara da aid oldu, həmçinin xristian monastırlarının torpaqları müsadirə edildi. Hakimiyyətinin sonunda o, sünnilərə qarşı da çıxış etmək niyyətinə düşdü, lakin özü sui-qəsdin qurbanı oldu. Onun varisi xəlifə Zahir dini azadlıq haqqında fərman verərək, bütün kilsələrin və sinaqoqların bərpasını əmr etdi və onların əmlakını qaytardı.

**XI əsrdə Suriya iqtisadiyyatı**

Abbasilər xilafətinin tənəzzülü dövründə – 969-cu ildə Suriyanın şimal hissəsi, Əntakiyə şəhəri ilə birgə Bizans tərəfindən işğal edilmişdi. Qalan Suriya ərazilərini, Lubnan və Fələstini isə Fatimilər xilafətinin orduları tutmuşdular. Suriya ilə Fələstin XI əsrin 70-ci illərinədək, yəni səlcuqların işğalınadək onların hakimiyyəti altında qalmışdı.

X-XI əsrlərdə Suriya və Fələstin iqtisadi yüksəliş dövrünü keçirirdi. Burada buğda, pambıq, üzüm, xurma, müxtəlif meyvələr, tərəvəz yetişdirilirdi. Fələstində və Suriyanın sahilyanı ərazilərində xurma, sitrus meyvələri, indiqo və s. bitkilər yayılmışdı. İpək istehsalı genişlənir, zeytun yağı istehsalı Ön Asiyada birinci yer tuturdu.

Suriya və Fələstin şəhərləri sənətkarlıq və ticarət mərkəzləri olmuşdular. Bu şəhərlərdən birincisi isə Dəməşq idi ki, buradan

zeytun yağı, ipək və pambıq parçalar, kağız, meyvə, Hələbdən isə parçalar, pambıq, Qüdsdən meyvə, güzgü, lampa, iynə və s. ixrac olunurdu.

XI əsrdə Suriyanın Trablis, Beyrut, Sayda, Askalon, Qəzza şəhərləri Misir və Şimali Afrika, Bizans, İtaliya limanları ilə faydalı dəniz ticarəti aparırdı. Burada gəmilər inşa olunur, qul ticarəti aparılırdı.

Feodal torpaq sahibliyi formaları Suriya və Fələstində Ön və Orta Asiyanın digər ölkələrindəkilərdən fərqlənmirdi. Feodal rentası kəndlilərdən qarışıq növdə ərzaqla və pulla yığılırdı.

Etnik cəhətdən Suriya və Fələstin əhalisi ərəb və suriyalılardan ibarət idi. Bundan başqa, qismən yəhudilər və samarityanlar da mövcud idilər ki, bunlar da ərəb və Suriya dillərində danışırdılar. Müsəlmanlardan başqa, xeyli əhali xristianlığa, iudaizmə sitayiş edirdi. Səlcuq işğallarından sonra – XI əsrin 70-ci illərində Suriya və Fələstin müsəlmanları və xristianları arasında münasibətlər kəskinləşdi. Bundan əlavə, tez-tez üsyanlar və feodal ara müharibələri baş verirdi.

XI əsrin 90-cı illərində Misir (Fatimi) qoşunları Səlcuq imperiyasının zəifləməsindən istifadə edərək, Suriyanın sahilyanı ərazisini və Qüdsü tutdular. Səlcuq imperiyasının dağılması, Suriya Səlcuqlarının və Fatimilər Misirinin arasında olan müharibə, Suriya və Fələstində gedən feodal toqquşmaları xaçlıların işğallarını xeyli yüngülləşdirirdi.

**Suriya və xaçlı yürüşləri**

XI əsrin sonlarında Şərqi Aralıq dənizi ölkələrinin siyasi həyatına yeni bir amil – XIII əsrin sonunadək davam edən xaçlı yürüşləri daxil oldu. Xaçlı yürüşləri adı altında Suriya və Fələstinə, sonra isə başqa Şərqi Aralıq dənizi ölkələrinə yönəldilmiş Qərbi Avropa feodallarının hərbi-müstəmləkəçi hərəkatı dini-ideoloji pərdə altında getmiş və əvvəl məhz «xristian məbədlərini» (Qüds və s.) müsəlmanların hakimiyyətindən qurtarmaq şüarı ilə başlamışdı. Ancaq dinin rolu bu hərəkatda ikinci dərəcəli amil idi: xaçlı yürüşlərinin əsas səbəbləri iqtisadiyyatla və siyasətlə sıx bağlı idi.

Birinci xaçlı yürüşündən sonra (1096-1099) Suriya və Fələ-

stində dörd xaçlı dövləti yarandı: Qüds krallığı, Trablıs qraflığı, Antakiya knyazlığı və Edessa qraflığı. Bu dövlətlərdə qərb mənşəli (əksərən fransız) sülalələr və feodallar hakimiyyəti ələ keçirmişdilər. Dövlətlər xırda torpaq sahibliklərinə (feodal, yaxud lenə) bölünürdü və buranın sahibləri hərbi xidmət daşıyan baronlar və cəngavərlər olmuşlar. Şəhərlərdə xeyli tacirlər, qərb mənşəli əhali, xüsusilə də italyanlar məskunlaşıb, iri məhəllələr təşkil etmişdılər.

Xaçlı dövlətlərində Qərbi Avropa feodal hüququ növləri bərqərar olmuşdu ki, bunların da əsasında Qüds krallığı idarə edilirdi.

I xaçlı yürüşündən sonra Bizans xaçlıların köməyi ilə səlcuqlardan Kiçik Asiyanın sahilyanı ərazilərini ala bildi. Cənub-şərqdə – Kilikiyada isə erməni Kilikiya knyazlığı yaranmışdı (1080-1375). O, adətən xaçlılarla ittifaqda olmuş və qərb feodalizminin çox cəhətlərini qavramışdı. III xaçlı yürüşü zamanı xaçlılar Kipr adasını tutmuş və burada Kipr krallığı (1191-1489), basda fransız sülaləsi olan bir dövlət yaratmışdılar. Xaçlılar bütün Suriyaya sahib ola bilmədilər; onun şərq hissəsi Hələb, Həma, Hums, Dəməşq şəhərləri müsəlman hakimlərin hakimiyyəti altında qaldı. Ancaq Fatimilər üçün Suriya artıq itirilmiş oldu.

**Fatimilər dövlətinin tənəzzülü**

Misir hakim feodal sinfi Fatimilər dövründə hərbiçilərdən və dövlət bürokratiyası nümayəndələrindən, müsəlman və xristian din xadimlərindən ibarət olmuşdur. X əsrin axırına qədər hərbi zadəganların arasında rəhbər rolu bərbər köçəri əyanlar (xüsusən, ketamə tayfası) oynayırdılar. Onlar Fatimilərə hakimiyyətə gəlməkdə kömək etmişdilər. Sonralar bərbər tayfa dəstələrinin əhəmiyyəti dəyərdən düşmüş və sarayda birinci yeri muzdlular və qismən cavan qullar-qulamlar, yaxud məmlüklərdən təşkil edilmiş qvardiya tutmuşdu. Nasiri Xosrovun məlumatlarına görə, məmlüklərin sayı 60 minə çatmışdı. Onlar əsasən, türklər və sudanlılardan ibarət idi. Ümumiyyətlə isə, Fatimi ordusunun sayı 135 minə çatırdı (buraya bərbər və ərəblər daxil idi). Qvardiya başçılarından yeni hərbi zadəganlar formalaşırdı. XI əsrin ortalarından etibarən onlara iqta torpaqları verilməyə başlandı, xəlifə əl-Müstənsirin hakimiyyəti illərində (1036-1094) hərbçilər ən nüfuzlu qüvvəyə çevrildilər.

Xəlifə qvardiya başçılarının oyuncağına çevrildi. Tez-tez üsyanlar qalxır, bərbər, türk və sudan məmlüklərinin arasında qanlı toqquşmalar baş verirdi. Son nəticədə 1062-ci ildə türklər qalib gəldilər və onlar dövlət xəzinəsini mənimsədilər və xəlifə sarayını talan etdilər. Bu hadisələr zamanı 200 min kitab saxlanan kitabxana zərər çəkdi. «Əmir əl-möminin»lə tamamilə hesablaşmayan türklər dövlət əmlakını idarə edirdilər. Xəlifə xəzinəsi boş idi, yeddi illik məhsul yetişməməsi, onu müşayiət edən aclıq və xəstəliklər kəndlilərin yoxsullaşmasına gətirib çıxarmışdı. Fatimilərin hərbi qüdrətinin zəifləməsindən normanlar 1071-ci ildə Siciliyanın tutulması üçün istifadə etdilər. Əlcəzair və Tunis əldən çıxdı, Suriyaya isə səlcuqlar soxuldular. Bütün bunlar ona dəlalət edirdi ki, Fatimilər xilafəti dağılmaq astanasındadır.

Belə çətin şəraitdə xəlifə əl-Müstansir Suriyadan nüfuzlu sərkərdə olan Bədr əl-Camalini köməyə çağırdı. 1073-cü ildə Bədr əl-Cəmali özünə sadiq olan dəstələrlə Qahirəyə gəlmiş və vəziyyətin tam sahibi ola bilmişdi: bütün türk qvardiyalarını bir gecə içində tələyə salaraq məhv etmişdi. Bədr əl-Camali dağıdılmış mərkəzi dövlət aparatını və maliyyə sistemini bərpa etdi, ordunu möhkəmləndirdi və bunun nəticəsində illik vergilərin məbləği 2 mln.-dan 3 mln. qızıl dinara qədər yüksəldi. Səlcuqların mümkün müdaxiləsinə qarşı o, Qahirəni güclü divarlarla əhatə etdi.

Ali komandan təyin edilən Bədr, eyni vaxtda vəzir və baş katib, yəni müsəlman din xadimləri arasında birinci şəxs vəzifələrini yerinə yetirirdi və bütün hakimiyyəti öz əlində cəmləşdirmişdi. Xəlifə əl-Müstənsirə isə ancaq zahiri hörmət əlamətləri göstərirdi. 20 illik hakimiyyətdən sonra o, qoca yaşında ölərkən, xəlifənin razılığı ilə bütün vəzifələrini oğlu Şahənşaha həvalə etdi və «ən mükəmməl əmir» titulu aldı.

Fatimi xəlifələri – imamlar – nəinki Misirdə, o cümlədən digər əyalətlərdə də ismaililərin arasında böyük nüfuza malik idilər. Onlar geniş təbliğat aparan gizli ismaili təşkilatının başında dayanırdılar. Lakin əl-Müstansirin hakimiyyətinin son illərində Bədr əl-Camali ona nail oldu ki, xəlifə xilafət-imamət varisliyindən böyük oğlu Nizarı uzaqlaşdırıb kiçik oğlu Müstəlini özünün varisi təyin

etdi. Bu, Fatimi ismaillilәri arasında parçalanmaya sәbәb oldu vә nәticәdә, iki cәrәyan yarandı: *müstәlilәr* vә *nizarilәr*. Sonuncular Suriya, İraq vә islamın şәrq ölkәlәrindәki ismaililәr, arasında çoxluq tәşkil edirdilәr. Bu parçalanma Fatimi xәlifәlәrinin dini nüfuzuna güclü zәrbә vurdu.

**Fatimilәr dövründә Misirin iqtisadi hәyatı**

Misirin kәnd tәsәrrüfatı әvvәllәr olduğu kimi Nil çayının daşmasından asılı idi. İnkişaf etmiş vә mürәkkәb süni suvarma sistemi üzәrindә nәzarәt dövlәtin әlindә idi vә bu da Fatimi xәlifәsinin hakimiyyәtini möhkәmlәndirirdi. Bir çox torpaqlarda mәhsul iki dәfә – qış (әsasәn buğda, küncüt, soğan vә s.) vә yay (meyvә, tәrәvәz) mәhsulları yığılırdı. Misirdә üzüm, xurma, apelsin, limon vә s. bitkilәr geniş yayılmışdı. Geniş sayda kәnd tәsәrrüfatı mәhsulları Misirdәn Bizans әyalәtlәrinә ixrac olunurdu.

Zәngin, mәhsuldar torpağa, çoxsaylı suvarma sisteminә malik olan, vasitәçi tranzit ticarәtindәn vә sәnәtkarlıqdan böyük gәlir әldә edәn Misirә yiyәlәnmәk Fatimilәrә çox geniş maddi vәsait gәtirir vә imkan verirdi ki, onlar öz hakimiyyәtlәrini vә mәrkәzi idarәetmәni Şәrqin digәr feodal dövlәtlәrindә olduğundan qüvvәtli etsinlәr. XI әsrin ortalarına qәdәr Fatımi xәlifәlәrinin hakimiyyәti çox güclü olmuşdur.

Misirdә mövcud olan torpaq sahibkarlığının böyük hissәsini XI әsrin I yarısına qәdәr dövlәt torpaqları tәşkil edirdi. Dövlәt ya onları özü istismar edir, ya da 30 il müddәtinә icarәdarlara verirdi vә onlar da torpaq vergisi ödәyirdilәr. Әrәb hakimiyyәtinin ilk yüz illiyindә qorunub saxlanan bizans torpaq sahiblәri, Fatimilәr dövründә artıq yoxa çıxmışdı. Lakin XI әsrin әvvәllәrindә xristian monastırlarının geniş torpaq sahibliyi qalmışdı.

Әsas vergilәr qeyri dinlәrdәn olanlardan alınan vә pulla ödәnilәn cizyә vә torpaq vergisi – xәrac idi. Bilavasitә istehsalçıların – kәndlilәrin (xristian-qibtilәr vә müsәlmanların) vәziyyәti ağır olaraq qalırdı. Doğrudur, xәlifә Muizz dövründә vergilәr dәqiq müәyyәnlәşmişdi vә vergi yığan mәmurların qeyri-qanuni hәrәkәtlәri cәzalandırılırdı. Bu kәnd tәsәrrüfatının bir qәdәr inkişafına gәtirib çıxartdı. Ancaq X әsrin sonu vә XI әsrdә vergi yığımında

özbaşınalıq adi hal aldı. XI əsrin ortalarında isə kəndlilər nəinki maliyyə məmurlarının, həm də iqta sahiblərinin zülmünü hiss edirdilər.

Aralıq dənizinin başqa ölkələrindən bir qədər fərqli olaraq, Misirdə şəhər həyatı və sənətkarlıq daha çox inkişaf etmişdi. Qahirə haqqında Nasiri Xosrovun dediklərindən aydın olur ki, burada yalnız xəlifəyə 8 min ev məxsus idi ki, o, bunları emalatxanalara, ticarət məntəqələrinə kirayə və yaxud yaşayış evi kimi icarəyə verirdi.

Sənətkarlıq növlərindən parça istehsalı geniş inkişaf etmişdi. Bu sahədə fərdi ustalarla yanaşı, Dəbiq, Dumyat, Asyut kimi şəhərlərdə olan dövlət emalatxanalarında muzdlu ustalar və qullar işləyirdi. Bu emalatxanalar iki növ idi: «xassa» – (*ər.* məxsus olan) ancaq xəlifə və onun sarayı üçün parça istehsal edən, «amma» (*ər.* ümumi) – bunun məhsulu daxili və xarici bazara gedirdi. Misir şəhərlərində şüşə, çini qablar, metal məmulatı, kağız, sabun və s. də istehsal edirdilər. İsgəndəriyyə vasitəsilə Misir şəhərləri Bizansla, İtaliya şəhərləri Amalfı, Piza, Florensiya, Genuya və xüsusən də, Venesiya ilə fəal ticarət aparırdılar. XII əsrdən etibarən Hindistanla da tranzit ticarət artmağa başladı.

**Fatimilər Xilafətinin süqutu**

Bədr əl-Camalinin fəaliyyəti nəticəsində dövlətin və onun maliyyə vəziyyətinin sabitləşməsi müvəqqəti xarakter daşıdı. Kiçik yaşlı oyuncaq xəlifələri taxta oturdan feodal qrupların rəqabəti dövlət aparatını iflic etmişdi. Qvardiya tərəfindən daimi pul tələbləri maliyyə divanını vergilərin həcmini artırmağa məcbur edirdi.

XII əsrin ortalarında xaçlılar Qəzza və Askalonu tutmaqla Misirin yolunu tutdular. 1163-cü ildə Qüds kralı Amalrix Suveyşi keçərək Misirə soxuldu. Ona vəd etdilər ki, hər il vergi verəcəklər. Ancaq vaxtında verginin verilməməsindən 1167-ci ildə Amalrıx yenidən Misirə daxil olub, Qahirəyədək gəldi. O, sülhə ancaq o vaxt razı olmuşdu ki, ona 400 min *bezant* ödəməyə vəd verilmişdi.

Məmlük qvardiyasının siyasi təsirinin artması Misirdə (Abbasilər, Samanilər və s. dövlətlərdə olduğu kimi) də ciddi nəticələrə gətirdi: xəlifə qvardiya başçılarının əlində adi oyuncağa çevrildi.

Ancaq mərkəzi hakimiyyətin zəifləməsinin əsas səbəbi, dövlət torpaqları hesabına daim artan və inkişaf edən iqta sistemi olmuşdur. Əvvəllər iqta hərbi feodallara müvəqqəti istifadəyə verilirdi. Lakin Fatimilərin hakimiyyətinin son dövrlərində o, faktiki olaraq irsi mülkiyyətə çevrildi və torpaq fondunun əksər hissəsi, orada olan kəndlilərlə birgə iqta sahiblərinin əlinə keçdi. Suriyanın dənizkənarı məntəqələrində Fatimilərin XII əsrdə ağır mübarizə apardığı xaçlıların möhkəmlənməsi, Siciliyanın normanlar tərəfindən tutulması Misir xəlifələrini Aralıq dənizində əvvəlki üstünlükdən məhrum etdi; bu regionda ticarət tədricən İtaliya tacirlərinin əlinə keçdi.

Fatimilərin siyasi nüfuzu azalmaqda idi. 1171-ci ildə nüfuzlu sərkərdə Səlahəddin ibn Əyyub qvardiyanın və feodal dəstələrinin köməyi ilə hərbi çevriliş edib, sonuncu Fatimi xəlifəsi Adidi devirdi və özünü sultan elan etdi. Dini başçı kimi o, Bağdaddakı sünni Abbasi xəlifəsini tanıdı. Beləliklə, Misirdə yeni sülalə – Əyyubilər sülaləsi bərqərar oldu.

## Əyyubilər dövləti (1171-1250)

### Suriya və xaçlılar. Səlahəddinin hakimiyyətə gəlməsi və fəaliyyəti

Birinci xaçlı yürüşü və Suriya və Fələstində xaçlı dövlətlərinin meydana gəlməsi Ön Asiyanın müsəlman dövlətlərini az sarsıtmışdı. Xaçlılarla silahlı mübarizə aparmaq haqqında yalnız torpaqları işğal təhlükəsi altına düşən müsəlman hökmdarları düşünürdü. Qalan əmirlər və atabəylər öz daxili məsələləri ilə məşğul idilər, səlcuqlara məxsus ərazilərdə isə davamlı ara müharibələri baş verirdi. Bəzən elə olurdu ki, müsəlman hakimləri bir-biri ilə apardıqları mübarizədə xaçlılarla ittifaqa girməkdən belə çəkinmirdilər. Xristian feodalları isə öz növbələrində müsəlmanlardan dayaq axtarır və belə hallarda dinin (islamın və ya xristianlığın) mənafeyi haqqında hər şeydən az düşünürdülər.

Birinci xaçlı yürüşündən sonra (1096-1099) müsəlman aləmi parçalanmış olaraq qalırdı. Məhz bu, Qüds krallığının yüz ilə qədər öz hakimiyyətini saxlaya bilməsinə kömək edən əsas amil olmuşdu.

Xaçlı dövlətlərinin daxilində daim feodal çəkişmələri mövcud olmuşdu. Hərbi qüvvələr çoxsaylı deyildi (yürüş iştirakçılarının əksəriyyəti hər səfərdən sonra Avropaya qayıtmağa tələsirdi), ümumiyyətlə isə demək olar ki, bu dövlətlər çox zəif idi.

Şimali Suriyadakı xaçlılarla Mosul atabəyi İmadəddin Zəngi (1127-1146) uğurla mübarizə aparırdı. O, dini yox, sırf siyasi məqsədləri rəhbər tuturdu. Nəticədə, Edessa qraflığı dağıdılmış, Edessa alınmış (1144-1146) və talan edilmişdi. Zənginin varisi, onun oğlu Nurəddin artıq Suriyanın böyük hissəsinin sahibi olmuş, Hələbin, sonralar isə Dəməşqin kafirlərə qarşı «müqəddəs müharibə»sini elan etmiş və xaçlılarla uğurla döyüşmüşdü. Onun səyləri nəticəsində bir sıra müsəlman hökmdarları xaçlılara qarşı birləşməyə hazırlaşırdılar. Nurəddinin mahir sərkərdələri arasında Şirkux və qardaşı oğlu Səlahəddin ibn Əyyub da var idi. Nurəddin onları Misirə, Fatimilər xəlifəsinin apardığı daxili çəkişmələrdə köməyə və Qüds kralı Amalrixlə döyüşlər aparmağa göndərmişdi. Bu vəzifəni yerinə yetirən «köməkçilər» vəziyyətin sahibinə çevrilmişdilər.

1169-cu ildə Şirkuxun ölümündən sonra Səlahəddin Misirdə hakimiyyəti ələ keçirdi və heç bir müqavimətlə qarşılaşmadan 1171-ci ildə Fatimilər xilafətini ləğv etdi. Nurəddinin ölümündən sonra isə o, Dəməşqi tutdu və Zəngilərin Hələb, Mosul və s. kimi o biri əyalətlərini də özünə tabe etdi.

Beləliklə, Suriya və Misiri birləşdirən sultan Səlahəddin (1171-1193) xaçlılara qarşı «müqəddəs müharibə»ni davam etdirdi. 1187-ci ilin yayında Hittin yaxınlığında Səlahəddin xaçlıların ordusunu darmadağın etdi və Qüds kralı Qvido Luzinyan başda olmaqla onların başçılarını əsir aldı, Askalon, Əkka, Sayda və bir aylıq mühasirədən sonra Qüdsü (1187, 2 sentyabr) aldı. 1099-cu ildəki xaçlılardan fərqli olaraq, Səlahəddin Qüds sakinləri ilə çox mülayim rəftar etdi. Şəhər sakinlərinə (xristian və yəhudilərə) 40 gün ərzində öz azadlıqlarını satın almaq təklif olundu (10 dinar kişi üçün, 5 dinar qadın üçün, 1 dinar uşaq üçün). Kim buna qadir deyildisə, qula çevrilirdi. 50 min əhalidən 20 mini pulu ödəyə bilmədi. Onlardan 4 min qocanı sultan azad etdi, 6 minini öz əmirlərinə verdi, 5

mini Qüdsdə tikintidə qaldı və 5 mini Misirə göndərildi.

1187-ci ilin sonu üçün Səlahəddinin əlində Tirdən başqa, bütün Qüds krallığının ərazisi cəmləşdi. Trablis qraflığı və Əntakiya knyazlıqları isə hələ də mövcud idi. Ancaq Qüdsün süqutu Avropaya böyük təsir etmiş və III xaçlı yürüşünə (1189-1192) səbəb olmuşdu. Baxmayaraq ki, bu yürüşə İngiltərə kralı I Riçard, müqəddəs Roma imperatoru I Fridrix Barbarossa (yolda Kiçik Asiya ərazisində dağ çayında boğulmuşdu) və Fransa kralı II Filipp Avqust başçılıq edirdilər, bu yürüş zamanı qarşıya qoyulmuş məqsədə nail olunmadı: xaçlılar yalnız Fələstinin Əkkə, Sayda, Beyrut şəhərləri və dəniz boyu ərazisini geri qaytardılar. Fələstinin qalan hissəsi isə, Qüdslə birlikdə, müsəlmanların əlində qaldı. Ərazinin bu cür bölünməsi şərtilə I Riçard Səlahəddinlə barışıq bağlayıb, ondan Qərbi Avropa ziyarətçilərinin Qüdsə və Vifliyemə –müqəddəs xristian yerlərinə gəlmələrinə icazə ala bildi.

Səlahəddin orta əsrlər müsəlman Şərqi tarixində ən görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Mahir sərkərdə, qorxmaz əsgər olmaqla yanaşı o, dindar müsəlman – sünni kimi məscidlər və mədrəsələr də tikdirmişdi. Ancaq ona heç də fanatik demək olmaz, çünki o, xaçlıların (yəni katoliklərin) düşməni ola-ola, şərq xristianlarına (suriyalılara, ermənilərə və s.) çox mərhəmətlə yanaşırdı. Səlahəddin şəxsi sadəliyi ilə seçilir, varlanmağa can atmırdı.

Fatimilər xəzinəsinə yiyələnəndən sonra o, xəzinəni əsgərlərinə paylamış, özünə heç nə götürməmişdi. Ölümündən sonra şəxsi xəzinəsində 47 gümüş dirhəm və 1 qızıl pul tapılmışdı. Səlahəddin düşmənlərinə qarşı həmişə rəhimli olmuş və lazımsız qəddarlıq etməmişdi. O, çox ədalətli bir hökmdar hesab olunurdu və bütün bu keyfiyyətlər ona müsəlman aləmində böyük hörmət və ehtiram qazandırmışdı. Hətta xaçlılar da Səlahəddinə hörmət edir, onu alqışlayırdılar.

1193-cü ildə Səlahəddin vəfat etdi və onun Misir, Hicaz, Fələstin, Suriya və Yuxarı Mesopotamiya ərazilərini əhatə edən dövləti övladları arasında bölündü. Onu da qeyd etmək lazımdır ki, 1173-cü ildə Səlahəddin Məkkə və Mədinə şəhərlərində də

Əyyubilərin hakimiyyətini bərqərar etmişdi.

**Sonuncu Əyyubilər və Misir**

XIII əsrin əvvəli üçün Misirin iqtisadi həyatında müəyyən yüksəliş gözə çarpırdı. Süni suvarma sisteminin yaxşılaşması üçün işlər görülür, kənd təsərrüfatına xüsusi diqqət yetirilirdi. Xarici ticarət artırdı. Əyyubi sultanları Qərbi Avropa, xüsusilə də Venesiya və Genuya ilə ticarət müqavilələri bağlamışdılar.

*Səlahəddinin ölümündən sonra Misir yenidən digər əyalətlərdən* təcrid olundu. Əyyubilərin Misir qolu güclü olduğundan ölkələrini xaçlıların işğallarından qoruya bildilər və sultan Malik əl-Kamil (1218-1238) dövründə onlarla sülh bağlaya bildilər. Ancaq 1229-cu ildə xaçlılar yenidən Qüdsü tuta bilmişdilər. Sonralar onlar Misirə də hücumlara başlamış, lakin 1250-ci ildə fransız dəstələri Dumyat yaxınlığında tam darmadağın edilmişdi. Onu da qeyd edək ki, Suriya Əyyubiləri 1244-cü ildə Qüdsü birdəfəlik müsəlmanlara qaytardılar.

**Dövlətin süqutu**

Əyyubilər dövlətinin siyasi həyatına Abbasi xəlifələri də müəyyən təsir göstərə bilirdi və formal olsa da, onların ali hakimiyyəti burada tanınırdı. Hətta 1175-ci ildə xəlifə Səlahəddinə sultan titulu verilməsi haqqında fərman göndərmişdi.

Onu da qeyd etməliyik ki, Əyyubilər hakimiyyəti tədricən türkləşmiş və dövlətin hakim strukturunda onlar türklərə həlledici yer vermişdilər. 1238-ci ildə Malik əl-Kamilin ölümündən sonra onun oğlu Salih Əyyubi dövlətini dağılmaqdan xilas etmək üçün orduya daha geniş səlahiyyət verməyə başlamış, Orta Asiyadan, monqollar tərəfindən dağıdılmış Xarəzmşah ordusundan Əyyubilər ərazisinə gəlmiş türk muzdlu əsgərlərini öz ordusuna götürmüşdü.

Ordu dövlətin idarəetmə strukturlarına müdaxilə etməkdən çəkinmirdi. Onun daxilində türklərdən ibarət «səlahiyyə» adlanan xüsusi qruplarla o biri əsgərlərin geniş rəqabəti başlanmışdı. Ümumiyyətlə, sonralar ordu türkləşmiş, onun əsasını məmlüklər təşkil etmişdi. (Ərəbcə məmlük-malikə yəni hökmdara məxsus olan deməkdir). Onların başçıları – əmirlər hərbi lenin (iqtaların)

əsas sahibləri idilər. 1249-cu ildə Salih vəfat etdi və bundan istifadə edən xaçlılar Dumyatı tutdular. Lakin, qeyd edildiyi kimi, 1250-ci ıldə onların orduları Misirdən qovulmuş və IX Lüdoviq (Fransa kralı, xaçlıların başçısı) əsir düşmüş, sonra pul alıb, onu buraxmışdılar. Salihin arvadı Şəcərəddür bu vaxt Suriyada olan sonuncu Əyyubi sultanı oğlu Turan şaha xəbər göndərmiş və təcili Misirə qayıtmasını istəmişdi. Lakin xəbər gecikmiş və o, ordu tərəfindən öldürülmüşdü.

Türk-məmlüklər Misirdə Şəcərəddürü hökmdar elan etdilər və o, Aybək adlı bir türk əmiri ilə izdivaca girdi. Aybək atabəy titulunu qəbul etdi. 1250-ci ildə onlar ikisi də qətlə yetirildi və hakimiyyətə hərbiçilər – məmlüklər yiyələndilər.

## Məmlük dövləti (1250-1517)

**Dövlətin yaranması**

Məmlüklərə Əyyubilərdən zəngin irs qalmışdı. Onlar həm Misirə, həm də Suriyaya sahib olmuşdular. Əyyubilər kimi onlar da orduya arxalanırdılar. Məmlüklərin təxminən 250 il sürmüş hakimiyyəti dövründə onların sultanları iki məmlük qolunun əmirlərindən seçilirdi: 1250-1390-cı illərdə *bəhri* məmlüklərindən (bəhri – yəni, çay boyu) – bunların adı oradan irəli gəlirdi ki, əsas hərbi kazarmaları ər-Rauda adasında, Nil çayında yerləşirdi və 1390-1517-ci illərdə *burci* məmlüklərindən (qalalı) – Qahirə qalasının adı ilə, Sultan Kalaun öz ordusunu vaxtilə bu qalada yerləşdirmişdi.

Bəhrilər hakimiyyət məsələsində nəsli varislik prinsipinə üstünlük verirdilər, burcilərdə isə qədim türklərə məxsus olan senyorat sistemi qəbul edilmişdi, yəni hakimiyyət sultandan onun ən qabiliyyətli silahdaşına keçirdi.

**Məmlük sultanlığı və monqollar**

Şərqi Aralıq dənizi ölkələri – Misir, Suriya və s. XIII əsrdə iki işğalçı qüvvənin: şərqdən – monqol feodallarının, qərbdən isə Qərbi Avropa feodallarının apardığı hərbi əməliyyatların mərkəzində olduğu üçün, bu ölkələr o dövrün beynəlxalq siyasətinin də mərkəzində idilər.

Belə ki, Hülakülər dövlətinin yaranması, 1258-ci ildə Bağdadın alınması Suriya və Fələstini, sonra isə Misiri monqol işğalı təhlükəsi qarşısında qoydu. Xaçlıların və erməni Kilikiya çarlığının köməyi ilə monqollar dəfələrlə Suriyanı tuta bilmişdilər. Misir sultanlığının hərbi qüvvəsindən qorxan xaçlılar monqolları dəstəkləyirdilər.

1260-cı ildə sultan Kutuzun (1259-1260) rəhbərlik etdiyi məmlük ordusu Fələstində monqolları darmadağın etmişdi. Görkəmli sərkərdə mənşəcə qıpçaq olan Sultan Bəybars (1260-1277) 1268-ci ildə zəngin Əntakiyanı tutmuş və xaçlı knyazlığının mövcudluğuna son qoymuşdu. Şəhər dağıdılmış və sonra bərpa oluna bilməmişdi. 1277-ci ildə monqol qüvvələri Albistan döyüşündə Bəybars ordusu tərəfindən yenidən əzildi. 1289-cu ildə məmlük sultanı Kalaun Suriyada Trablis şəhərini tutdu. 1291-ci ildə isə məmlüklər Şərqi Aralıq dənizi sahili şəhərlərini – Əkkə, Sayda, Tir və Beyrutu tutub, xaçlıları Suriyadan çıxartdılar.

1287-ci ildə Hülakü hökmdarı Arqun-xan nestorian monarxı uyğur Rabbon Sauma başda olmaqla Fransa, İngiltərə, Genuya və Roma papası ilə danışıq aparmaq üçün oraya nümayəndəlik göndərmişdi. O, Suriya və Fələstinin birgə işğalı üçün yeni xaçlı yürüşünü təşkil etməyi təklif etmişdi. Lakin Fransa və İngiltərə vədlərdən o tərəfə getmədilər. Arqun xanın oğlu, Hülakü hökmdarı Qazan xan Suriyaya yürüş etmiş, Hələb və Dəməşqi ələ keçirmiş, lakin 1303-cü ildə, Mərc əs-Suffar adlı yerdə yenidən məmlüklər tərəfindən məğlub edilmişdi. XIV əsrin ikinci onilliyindən sonra Hülakülər artıq Suriya və Fələstini fəth etməyə çalışmırdı. Uzun sürən müharibələrə məruz qalmış bu ölkələr XVI əsrin əvvəllərinədək Misir məmlük sultanlarının hakimiyyəti altında qaldılar.

Misirin Məmlük sultanlığı birinci dövlət idi ki, nəinki monqol ordularının irəliləyişini dayandırmış, hətta onları geri çəkilməyə məcbur edə bilmişdi. Bunun əsas səbəbi, Misirin XIII əsrdə hələ də böyük sosial-iqtisadi imkanlara, möhkəm hərbi qüvvəyə və nisbətən güclü sultan hakimiyyətinə malik olması idi.

Misir sultanları Qızıl Orda xanları ilə müqavilə bağlamışdılar.

Onlar Qafqazda Hülakülərə hücumlar edirdilər. Məmlük sultanlarının Hülakü hakimləri ilə mübarizəsi «islamın müdafiəsi» ideoloji pərdə altında aparılırdı. Bağdadın monqollar tərəfindən alınması və Abbasi xilafətinin məhvindən sonra (1258) islam vahid dini başçıdan – xəlifədən məhrum oldu. Qahirəyə özünü sonuncu Abbasi xəlifəsinin qohumu adlandıran bir şəxs gəldi və xəlifə elan edildi. Bu vaxtdan məmlük sultanları Qahirədə, öz saraylarında Abbasi xəlifələrini əsas dini şəxslər kimi saxlayırdılar. Öz dini nüfuzu ilə xəlifə sultan hakimiyyətini möhkəmləndirirdi.

Bəybars dövründə qonşu Bərqə ərazisi Misir sultanlığına qatılmışdı, o vaxt hələ xristian olan Nubiya da tutulmuşdu. Məmlük sultanları Məkkə və Mədinə yerləşən Hicaz üzərində də öz hakimiyyətlərini saxlayırdılar.

1375-ci ildə Məmlüklər Kilikiya çarlığının mövcudluğuna son qoyub, onun dağ qalası Sisi ələ keçirdilər. Xaçlılar tərəfindən yaradılan Kipr krallığı da (1191-1489) Misiri narahat edirdi. Buranın əhalisi yunanlardan, hakim feodal sinfi isə fransızlardan ibarət idi. 1365-ci ildə Kipr donanması İsgəndəriyyəni tutub talan etmişdi. 1426-cı ildə məmlük sultanı Barsbəy Kiprə güclü qüvvələr göndərib, Kipr kralını əsir aldı, onu Misir sultanının vassallığını qəbul etməyə məcbur etdi və Kipr Misirə vergi verməyə vadar olundu. Nəhayət, 1489-cu ildə Kipr venesiyalılar tərəfindən tutuldu.

**XIII-XV əsrlərdə Misirdə feodal torpaq mülkiyyəti**

Sözügedən dövrdə Misirdə feodal torpaq mülkiyyətinin müxtəlif növləri mövcud idi: sultanın şəxsi mülkləri (xass), əmirlərin və sıravi əsgərlərin torpaqları – cunda (*iqta*), dini müəssisələrin torpaqları (*vəqf*), şəxsi torpaqlar (mülk), dövlətə məxsus olan istifadəsiz, suvarılmayan torpaqlar (*məvat*). Əvvəlki dövrlərlə müqayisədə, Misirin torpaq nizamında nəzərə çarpan cəhət, əmirlərin əlində olan hərbi lenlərin (iqtanın) genişlənməsi olmuşdu. Güclü vassalların meydana gəlməsindən qorxan mərkəzi hakimiyyət çalışırdı ki, bir sahibkarın iqtası vahid torpaq sahəsindən yox, ayrı-ayrı yerlərdə verilmiş ərazilərdən ibarət olsun.

XIII əsrin sonlarında əmirlər sıravi əsgərlərə məxsus iqtaların böyük hissəsini tutdular. Sultan Mənsur Lacin (1296-1299) həmin

torpaqları qaytarmağa cəhd göstərdi və keçmiş dövlət torpaqlarının yeni bölgüsünü keçirdi. Lakin qəzəblənmiş əmirlər sultanı öldürdülər. XV əsrin əvvəlində torpağın əsas hissəsini sultan mülkləri və əmirlərin iqtaları təşkil edirdi. Suvarma sistemi dövlətin ixtiyarında saxlanılırdı. XI əsrdə iqtanın irsi keçməsi, hər halda hüquqi cəhətdən qeyri-qanuni hesab edilirdi. XII əsrdə iqta torpaqları, bir qayda olaraq, artıq irsən verilirdi. XIII-XV əsrlərdə iqtanın varisliyi artıq toxunulmaz şərt kimi qəbul edilirdi. Suriyada iqta torpaqları daha böyük əhəmiyyətə malik idi: burada onlar iri torpaq sahələrini təşkil edirdilər.

Məmlüklərin hakimiyyəti dövründə kəndlilər (fəllahlar) torpağa təhkim edilmişdilər və onların iqta sahiblərindən asılılığı o qədər güclü olmuşdu ki, onlar öz vəziyyətləri etibarilə qullardan az fərqlənirdilər. Doğrudur, onlar satıla bilməzdilər, lakin azad da ola bilməzdilər. Misir kəndilərinin yoxsulluğunun artmasına səbəb olan digər bir amil onunla bağlı idi ki, onlar nəinki öz torpaqları üçün, hətta boş olan torpaqlara da qoyulmuş vergiləri ödəməyə məcbur olurdular. Feodal rentasının artması həm Misir, həm də Suriyanın kənd təsərrüfatında məhsuldar qüvvələrin əsasını zəiflədirdi. XIII-XIV əsrlərdə Misirdə kənd təsərrüfatı nisbətən yüksək səviyyədə olsa da, XV əsrdə kəskin tənəzzül müşahidə olunurdu.

Məmlüklər dövründə tez-tez fəllahların üsyanları baş verirdi. Yoxsul bədəvilər 1253-cü ildə üsyan etmiş, XIV əsrin ortalarında Yuxarı Misirdə böyük xalq üsyanı qeydə alınmışdı. Suriya, Nubiya və digər ölkələrdən gətirilmiş qulların sayı da onu göstərir ki, qul əməyindən nəinki ev işlərində, hətta sənətkarlıqda da istifadə edirdilər. Hərbi əsirlərlə kifayətlənməyən məmlük sultanları Afrikadan, Qafqazdan, Qızıl Ordadan böyük sayda qul alırdılar.

**XIII-XV əsrdə Misirdə şəhərlər və ticarət**

Monqol işğallarından əvvəl Aralıq dənizi ölkələrinin Hindistanla apardıqları karvan-dəniz ticarətinin mərkəzi Bağdad olmuşdu. Bağdadın monqollar tərəfindən dağıdılmasından sonra yollar Misirdən, Qırmızı dənizdən, Hind okeanından keçməyə başladı. XIII-XV əsrlərdə Misirin Hindistanla tranzit ticarətində əsas rolu kəramilərin ticarət korporasiyası oynamışdı. Onların

Qahirə və Kusda (Yuxarı Misirdə) yerləşən mərkəzləri, italyan və s. ticarət kompaniyaları ilə iri məbləğdə müqavilələr bağlayan bankları da var idi.

Venesiyadan, Genuyadan, Pizadan olan italyan tacirlərinin mərkəzləri Qahirə və Kusda yerləşirdi. İsgəndəriyyə, Dumyat və Qahirədə onları öz məhəllələri, xəstəxanaları, kilsələri var idi. İsgəndəriyyədəki Venesiya konsulu məmlük sultanlarının xarici siyasətinə təsir göstərir, Aralıq dənizi dövlətləri ilə bağlanan müqavilələrdə vasitəçi kimi çıxış edirdi. Genuya tacirlərindən biri sultan Bəybarsın şəxsi dostu idi və onun adından Krım, Konstantinopol və s. ilə ticarət aparırdı. Misirin özündə istehsal olunmayan malların alınmasına (xüsusən taxta, dəmir) məmlük sultanları dövlət inhisarı qoymuşdular. Misirdən ipək məmulatları, xam ipək, kətan parçalar ixrac olunurdu. Bunlar Tinnis, Dumyat və s. şəhərlərdə yerləşən dövlət emalatxanalarında istehsal olunurdu.

XIII əsrin əvvəllərində Misirdən keçən tranzit mallara qoyulan gömrük vergisinin məbləği malların qiymətinin 15 %-nə qədər idi. 10% məbləğ güzəştli sayılırdı. Bunu, məsələn, Pizadan Misirə ağac və dəmir gətirən tacirlər verirdi. Onlar bu malları birinci növbədə dövlətə təklif etməli idilər və dövlət tacirlərə malın dəyərinin 1/3 hissəsini pulla, 2/3-ni isə Misir malları ilə ödəyirdilər. Feodal dövlətinin bu cür ticarət siyasəti Misir tacirlərini var-yoxdan çıxarırdı. Böyük gömrük vergiləri və dəyərsiz pulların buraxılması XV əsrin II yarısında öncəki əsrlərdə Hindistanla aparılan fəal tranzit ticarətinə də zərbə vurdu. Böyük coğrafi kəşflərdən sonra avropalıların Şərqdə fəallaşması isə Misirin Uzaq Şərq ticarətinə son zərbə oldu.

**Məmlüklər dövründə Misirin dövlət quruluşu**

Məmlük sultanları dövründə məmlük qvardiyası imtiyazlı, hakim hərbi bir quruma çevrilmişdi və onun sayı, əsasən, gənc qulların – qıpçaqların, çərkəzlərin, kürdlərin alınması hesabına çoxalırdı. Məmlüklərin mənşəcə yadelli olmaları, onları Misirin əhalisi üçün tamamilə yad, məmlük hərbi başçılarının marağı üçün isə tamamilə sədaqətli edirdi. Torpaq və imtiyazları heç kimlə bölüşdürməmək üçün, məmlük başçıları öz qurum üzvləri-

nin sayını azaltmağa başladılar. XV əsrin əvvəllərində bürci məmlüklərinin sayı 4 mindən çox deyildi. Ordu yuxarı hərbi vəzifələrə qalxa bilən məmlüklərdən – əmir və yaxud bəylərdən sultanlığa namizəd irəli sürür, hərbçilər qiyam və yaxud saray çevrilişləri nəticəsində tez-tez hakimiyyəti ələ keçirirdilər.

XV əsrin ortalarına qədər mərkəzi hakimiyyət qüvvətli idi. Sultan geniş bürokratik aparata arxalanırdı. Məmlük rejiminin əsas xüsusiyyəti – onun dövlət aparatının hərbiləşməsində idi; bütün rəhbər vəzifələri hərbçilər tuturdular. Bürokratik aparatın başında sultanın müavini – naib (əmirlər içərisindən seçilən) dayanırdı. O, həm də xarici əlaqələrə nəzarət edirdi. Divanlar arasında hərbi, xərac və sultan torpaqlarını idarə divanları mühüm rol oynayırdı.

Kənd təsərrüfatının tənəzzülü, vergi immunitetinə malik olan hərbi lenlərin artması əvvəlki dövrlərdən fərqli olaraq ona gətirib çıxartdı ki, xəzinəyə daxil olan əsas vergilər torpaq vergisi hesabına yox, yerli, xarici və tranzit ticarətindən alınan gömrük vergilərinin hesabına yığılırdı. Bütün gömrük vergiləri, evlərdən, ticarətdən, sənətkarlıqdan gələn gəlirlər bir tərəfdən dövlət başçılarına böyük maddi vəsait verir, digər tərəfdən ticarət və sənətkarlığın əsaslarını sarsıdırdı. Bu, XV əsrin sonlarında özünü çox açıq büruzə verdi. XV əsrin əvvəllərində Misirin bir illik vergilərinin ümumi məbləği 4257 min qızıl dinar təşkil edirdi. Sultanlar və əmirlər bu pulu orduya, donanmaya, müharibələrin təşkilinə, saray həyatına, yeni tikintilərə sərf edirdilər.

Məmlük dövrü hakimiyyəti üçün müsəlman din xadimlərinin, dərviş məbədlərinin təsirinin artması, kəndlilərin, şəhər əhalisinin aşağı və orta təbəqəsinin tam hüquqsuz olması xarakterik hal idi.

Misirin iqtisadı cəhətdən zəifləməsi, dövlət gəlirinin azalması iri feodalların mərkəzdənqaçma meylləri Misir sultanlığının siyasi tənəzzülünə gətirib çıxartdı. XV əsrin ikinci yarısında Misir sultanları əmirlərin Suriyada tez-tez baş verən qiyamlarını yatırmaq məcburiyyətində qalmışdılar. Osmanlı dövlətinin güclənməsi Misirin dəniz qüdrətinə və Aralıq dənizi ticarətinə böyük təhlükə yaradırdı. XV əsrin son rübündən başlayaraq məmlük sultanları Vene-

siya ilə ittifaqda Osmanlı dövlətinə qarşı müharibə aparırdılar. Venesiya Misirə top, odlu silah satırdı. Misirin siyasi və iqtisadi zəifliyinin artması, xalq kütlələrinin məmlüklərə qarşı nifrəti 1516-1517-ci illərdə Suriya və Misirin Osmanlı ordusu tərəfindən işğalını xeyli yüngülləşdirdi.

## Osmanlı dövləti XIV əsr – XVII əsrin birinci yarısında

**Osmanlı dövlətinin yaranması**

Səlcuq sultanlığının parçalanması prosesi onun ərazisində irili-xırdalı bir neçə bəyliyin yaranması ilə başa çatdı. Amma bəzi amillər nəticəsində, o cümlədən coğrafi mövqe, Bizansa yaxınlıq, Kiçik Asiyadakı elxani hegemonluğundan kənarda qalmaq, yaxından və uzaqdan türk köçərilərinin böyük axını və digər səbəblərdən yeni türk dövlətinin özəyini sultanlılığın şimal-qərbində, Bizansla sərhəddə yerləşən və mərkəzi Söyüt şəhəri olan nisbətən kiçik və zəif Osmanlı bəyliyi təşkil etdi.

Osmanlı bəyliyinin yaranma tarixi belə olmuşdur: 1219-1221-ci illərdə Çingiz xanın Orta Asiyaya yürüşü zamanı başçısı Ərtoğrul bəy olan türkmən qayı tayfası türkmən çöllərindən qərbə doğru hərəkət etdi və XIII əsrin 30-cu illərində Kiçik Asiyaya gəldi. Ərtoğrul bəy Bizansla həmsərhəd ərazini Səlcuq sultanından iqta kimi aldı və onu qorumağı boynuna götürdü. 1281-ci ildə Ərtoğrulun vəfatından sonra tayfaya onun oğlu Osman başçılıq etməyə başladı. Faktiki olaraq, bəyliyin əsası Ərtoğrul tərəfindən qoyulsa da, o, Osmanın adı ilə tanınmağa başladı. Osman isə sülalə hakimiyyətinin əsasını qoydu və bu sülalə 1923-cü ildə Türkiyədə sultanlığın ləğvinə qədər hakimiyyətdə qaldı.

Bəylik artıq Ərtoğrulun dövründə Bizans torpaqlarını ələ keçirməyə başlamışdı və sərhədlərini genişləndirirdi. Osman da atasının siyasətini davam etdirirdi. 1299-cu ildə bəyliyin tarixində ən əhəmiyyətli hadisələrdən biri baş verdi. Həmin ildə Elxanilər tərəfindən hakimiyyətə gətirilmiş sultan II Qiyasəddin Məsuda qarşı üsyan qalxdı və o, paytaxt Konyanı tərk etdi. Bundan istifa-

də edən Osman bəy özünün müstəqilliyini elan etdi. Bu il müstəqil Osmanlı dövlətinin yaranması tarixi hesab olunur.

Osmanın oğlu və xələfi Orxan bəy Bizansın geniş ərazilərini ələ keçirə bildi. 1326-cı ildə o, Kiçik Asiyanın şimal-qərb hissəsində yerləşən ən böyük şəhəri – Bursanı ələ keçirdi və onu Osmanlı dövlətinin ilk paytaxtı elan etdi. Orxan bəy Bursadan sonra Mərmərə və Qara dənizləri sahillərinə qədər Kiçik Asiyanın şimal-qərbini və Dardanel boğazının şərq sahillərindəki əraziləri də fəth etdi.

Bununla da, türklər yeni işğallar üçün əməliyyat meydanı əldə etdilər və Bizansın Balkan yarımadasında yerləşən torpaqlarını ələ keçirmək imkanı qazandılar.

Bu istila 1352-ci ildə başladı. Bizans taxtına iddiaçılardan biri I Kantakuzin türkləri köməyə çağırdı və Osmanın oğlu Süleyman paşanın başçılığı altında olan qoşunlar Dardanel boğazını keçdilər və Tsımpa qalasında yerləşdilər. Artıq 1362-ci ildə türklər Adrianopolu (Ədirnə) ələ keçirdilər. Sultan I Murad (1359-1389) paytaxtını bu şəhərə köçürdü.

XIV əsrin 60-cı illərində türklər Serbiyaya yürüş etdilər. 1389-cu ilin 15 iyununda onlar serblərin və bosniyalıların birləşmiş qoşunlarını Kosovo düzənliyində baş verən döyüşdə ağır məğlubiyyətə uğratdılar. Döyüşdən sonra serblərin sərkərdələrindən biri Miloş Obiliç sultan I Muradı qətlə yetirdi. Taxta onun oğlu İldırım Bəyazid (1389-1403) çıxdı.

Kosovo düzənliyindəki qələbədən sonra türklər Albaniyaya girdilər. Lakin buranın əhalisi onlara ciddi müqavimət göstərdi. XIV əsrin sonuna doğru türklər öz hakimiyyətlərini Bosniyanın böyük hissəsinə şamil edə bildilər.

Serbiya və Bolqarıstandan sonra türklər Macarıstan sərhədlərinə yaxınlaşdılar. Balkan yarımadasından başqa Dunay çayı sahilində yerləşən digər dövlətlər də türk istilası təhlükəsi altına düşdü. Böyük təhlükə ilə üzləşən Macarıstan kralı Sigizmund türklərə qarşı xaçlı yürüşü təşkil etdi. Bu yürüşdə macar döyüşçülərindən başqa fransız, ingilis, alman və çex cəngavərləri də iştirak edirdilər. 1396-cı ilin 25 sentyabrında Dunay üzərində yerlə-

şən bolqar şəhəri Nikopolun yaxınlığında xaçlılar (müxtəlif mənbələrdə 60 mindən 100 minə qədər rəqəm göstərilir) və türklər (sayları xaçlılardan iki dəfə çox idi) arasında həlledici döyüş baş verdi. Döyüşdə türklər qalib gəldilər. XIV əsrin son onilliklərində osmanlılar Kiçik Asiyada yerləşən və hələ də müstəqilliyini qoruyan bəylikləri də öz ərazilərinə qata bildilər.

**Əmir Teymurun yürüşü**

Nikopol yaxınlığında xaçlıları darmadağın edən I Bəyazid Balkan yarımadasında yürüşlərini sürdürdü və Bizansın paytaxtı Konstantinopolu tutmaq üçün hazırlıqlara başladı. Bu dövrdə Bizans artıq Osmanlı sultanlarından vassal asılılığında idi. 1400-cü ildə I Bəyazid Konstantinopolu mühasirəyə aldı. Bizansın paytaxtı üçün gözlənilməz qurtuluş Osmanlıların şərq sərhədlərindən gəldi.

Belə ki, həmin ərəfədə Orta Asiya hökmdarı Əmir Teymur çoxsaylı qoşunları ilə Kiçik Asiyaya yeridi və Bəyaziddən itaət göstərməyi tələb etdi. Sultan bu tələbə təhqiramiz formada rədd cavabı verdi və ordusu ilə Teymura qarşı hərəkətə başladı. Ancaq o, Teymurun sərkərdəlik istedadını və qoşunlarının gücünü lazımınca qiymətləndirə bilməmişdi. Bəyazid həm də itaət altında olan Anadolu bəylərindən gələn daxili təhlükəni də görmürdü. Bu bəylər Teymura sığındılar və ondan müstəqilliklərini bərpa etməyi xahiş etdilər.

1402-ci ildə Ankara yaxınlığındakı məşhur döyüş baş verdi. Bəyazidin ordusu darmadağın edildi. Sultan Bəyazid və onun iki oğlu əsir alındılar. Səmərqəndə aparacağından xəbər tutan Bəyazıd 1403-cü ilin yazında özünü zəhərləyərək öldü.

Teymurun hücumu Osmanlı dövləti üçün ağır fəsadlarla nəticələndi. Bu dövləti zəiflətməyə çalışan Teymur onu bir neçə yerə parçaladı, Osmanlılar tərəfindən fəth edilmiş bəylərə müstəqilliklərini qaytardı, qalan torpaqları isə Bəyazidin dörd oğlu arasında bölüşdürdü. Üç oğul Kiçik Asiyada torpaq aldı, dördüncü – Süleyman isə paytaxtı Ədirnə olan Avropadakı ərazilərə sahib oldu.

Teymurun hücumu, daxili çəkişmələr və 1416-cı il üsyanı nəticəsində aldıqları sarsıdıcı zərbələrə baxmayaraq, türk feodalları

də edən Osman bəy özünün müstəqilliyini elan etdi. Bu il müstəqil Osmanlı dövlətinin yaranması tarixi hesab olunur.

Osmanın oğlu və xələfi Orxan bəy Bizansın geniş ərazilərini ələ keçirə bildi. 1326-cı ildə o, Kiçik Asiyanın şimal-qərb hissəsində yerləşən ən böyük şəhəri – Bursanı ələ keçirdi və onu Osmanlı dövlətinin ilk paytaxtı elan etdi. Orxan bəy Bursadan sonra Mərmərə və Qara dənizləri sahillərinə qədər Kiçik Asiyanın şimal-qərbini və Dardanel boğazının şərq sahillərindəki əraziləri də fəth etdi.

Bununla da, türklər yeni işğallar üçün əməliyyat meydanı əldə etdilər və Bizansın Balkan yarımadasında yerləşən torpaqlarını ələ keçirmək imkanı qazandılar.

Bu istila 1352-ci ildə başladı. Bizans taxtına iddiaçılardan biri I Kantakuzin türkləri köməyə çağırdı və Osmanın oğlu Süleyman paşanın başçılığı altında olan qoşunlar Dardanel boğazını keçdilər və Tsımpa qalasında yerləşdilər. Artıq 1362-ci ildə türklər Adrianopolu (Ədirnə) ələ keçirdilər. Sultan I Murad (1359-1389) paytaxtını bu şəhərə köçürdü.

XIV əsrin 60-cı illərində türklər Serbiyaya yürüş etdilər. 1389-cu ilin 15 iyununda onlar serblərin və bosniyalıların birləşmiş qoşunlarını Kosovo düzənliyində baş verən döyüşdə ağır məğlubiyyətə uğratdılar. Döyüşdən sonra serblərin sərkərdələrindən biri Miloş Obiliç sultan I Muradı qətlə yetirdi. Taxta onun oğlu İldırım Bəyazid (1389-1403) çıxdı.

Kosovo düzənliyindəki qələbədən sonra türklər Albaniyaya girdilər. Lakin buranın əhalisi onlara ciddi müqavimət göstərdi. XIV əsrin sonuna doğru türklər öz hakimiyyətlərini Bosniyanın böyük hissəsinə şamil edə bildilər.

Serbiya və Bolqarıstandan sonra türklər Macarıstan sərhədlərinə yaxınlaşdılar. Balkan yarımadasından başqa Dunay çayı sahilində yerləşən digər dövlətlər də türk istilası təhlükəsi altına düşdü. Böyük təhlükə ilə üzləşən Macarıstan kralı Sigizmund türklərə qarşı xaçlı yürüşü təşkil etdi. Bu yürüşdə macar döyüşçülərindən başqa fransız, ingilis, alman və çex cəngavərləri də iştirak edirdilər. 1396-cı ilin 25 sentyabrında Dunay üzərində yerlə-

şən bolqar şəhəri Nikopolun yaxınlığında xaçlılar (müxtəlif mənbələrdə 60 mindən 100 minə qədər rəqəm göstərilir) və türklər (sayları xaçlılardan iki dəfə çox idi) arasında həlledici döyüş baş verdi. Döyüşdə türklər qalib gəldilər. XIV əsrin son onilliklərində osmanlılar Kiçik Asiyada yerləşən və hələ də müstəqilliyini qoruyan bəylikləri də öz ərazilərinə qata bildilər.

**Əmir Teymurun yürüşü**

Nikopol yaxınlığında xaçlıları darmadağın edən I Bəyazid Balkan yarımadasında yürüşlərini sürdürdü və Bizansın paytaxtı Konstantinopolu tutmaq üçün hazırlıqlara başladı. Bu dövrdə Bizans artıq Osmanlı sultanlarından vassal asılılığında idi. 1400-cü ildə I Bəyazid Konstantinopolu mühasirəyə aldı. Bizansın paytaxtı üçün gözlənilməz qurtuluş Osmanlıların şərq sərhədlərindən gəldi.

Belə ki, həmin ərəfədə Orta Asiya hökmdarı Əmir Teymur çoxsaylı qoşunları ilə Kiçik Asiyaya yeridi və Bəyaziddən itaət göstərməyi tələb etdi. Sultan bu tələbə təhqiramiz formada rədd cavabı verdi və ordusu ilə Teymura qarşı hərəkətə başladı. Ancaq o, Teymurun sərkərdəlik istedadını və qoşunlarının gücünü lazımınca qiymətləndirə bilməmişdi. Bəyazid həm də itaət altında olan Anadolu bəylərindən gələn daxili təhlükəni də görmürdü. Bu bəylər Teymura sığındılar və ondan müstəqilliklərini bərpa etməyi xahiş etdilər.

1402-ci ildə Ankara yaxınlığındakı məşhur döyüş baş verdi. Bəyazidin ordusu darmadağın edildi. Sultan Bəyazid və onun iki oğlu əsir alındılar. Səmərqəndə aparacağından xəbər tutan Bəyazıd 1403-cü ilin yazında özünü zəhərləyərək öldü.

Teymurun hücumu Osmanlı dövləti üçün ağır fəsadlarla nəticələndi. Bu dövləti zəiflətməyə çalışan Teymur onu bir neçə yerə parçaladı, Osmanlılar tərəfindən fəth edilmiş bəylərə müstəqilliklərini qaytardı, qalan torpaqları isə Bəyazidin dörd oğlu arasında bölüşdürdü. Üç oğul Kiçik Asiyada torpaq aldı, dördüncü – Süleyman isə paytaxtı Ədirnə olan Avropadakı ərazilərə sahib oldu.

Teymurun hücumu, daxili çəkişmələr və 1416-cı il üsyanı nəticəsində aldıqları sarsıdıcı zərbələrə baxmayaraq, türk feodalları

öz hakimiyyətlərini qorumağa nail oldular. Sultan I Muradın (1421-1451) hakimiyyəti dövründə türklər istilalarını davam etdirdilər. I Murad Kiçik Asiyada yerləşən bəylikləri yenidən tabe etməyə və Balkan yarımadasının işğalını tamamlamağa can atırdı. Dunayətrafı ölkələr türklərə qarşı müqavimət təşkil etməyə çalışırdılar. 1444-cü ildə birləşmiş macar və Transilvaniyanın voyevodası Yanoş Hunyadinin başçılığı altında olan çex qoşunları türklərə qarşı yürüşə çıxdılar. Lakin 10 noyabrda Varna yaxınlığındakı döyüşdə məğlub oldular. Yenə də Yanoş Hunyadi tərəfindən təşkil olunmuş ikinci yürüş 1448-ci ilin oktyabrında başladı və bu dəfə də məşhur Kosovo düzənliyində türklər qalib gəldilər. Bu qələbələr Osmanlı dövlətinin Cənub-Şərqi Avropada mövqeyini möhkəmləndirdi və sultanları ən böyük arzusuna (I Bəyaziddən etibarən) – Konstantinopolun alınmasına yaxınlaşdırdı.

**İstanbulun fəthi**

Sultan II Mehmet (1451-1481) sələflərinin edə bilmədiklərini – Konstantinopolu tutmağa qərar verdi. Bizans imperatorunun qonşularından və Qərb dövlətlərindən kömək istəməsi nəticəsiz qaldı. 1453-cü ildə şəhərin türklər tərəfindən mühasirəsi başladı və 53 gün davam etdi. Doğrudur, şəhərin müdafiəçiləri müəyyən qədər müqavimət göstərdilər. Lakin 1453-cü ilin 29 mayında türklər həlledici hücuma keçdilər və şəhəri aldılar. Konstantinopolu müdafiə edənlərin böyük hissəsi döyüş vaxtı həlak oldu. Onların arasında Bizansın son imperatoru XI Konstantin Paleoloq da var idi. Konstantinopolu (türklər onu İstanbul adlandırmağa başladılar) ələ keçirən II Mehmet Osmanlı dövlətinin paytaxtını bura köçürdi. Konstantinopolu və digər torpaqları fəth etdiyinə görə türk salnaməçiləri II Mehmeti Fateh adlandırmağa başladılar.

Avropadan Asiyaya, Aralıq dənizindən Qara dənizə olan yolların kəsişməsində yerləşən bu iri hərbi-strateji mərkəzin türklərin əlinə keçməsi Avropanın sonrakı tarixinə çox böyük təsir göstərdi. Avropa dövlətlərinin Şərqlə ticarətinə ziyan dəydi, türklər qərbə yürüş etmək üçün əməliyyat meydanına sahib oldular, hələ də müstəqilliklərini qorumağa nail olan Dunayyanı ölkələr və hətta Qərbi Avropa dövlətlərinin tutulması təhlükəsi yarandı. Sultan

Macarıstanı, İtaliyanı və digər qərb dövlətlərini ələ keçirmək niyyətini gizlətmirdi.

1459-cu ildə II Mehmet serblərin müqavimətini qıra bildi və Serbiyanı işğal etdi. 1458-1463-cü illərdə Sultan Balkanlardakı bütün Bizans ərazilərini ələ keçirdi. 1460-cı ildə Moreya, 1463-cü ildə isə Bosniya təslim oldu.

Qeyd edək ki, bəzi hallarda türklər ciddi müqavimətlə rastlaşırdılar. Ən inadlı müqavimət Albaniyada təşkil olundu. Onun başında istedadlı sərkərdə Georgi Kastriot (Skəndərbəy) dururdu. 1443-cü ildə o, türklərə qarşı üsyan qaldırdı. Onun başçılığı altında olan alban qoşunları 24 il ərzində türklərlə mübarizə apardılar. Skəndərbəyin 1467-ci ildə ölümündən sonra feodallar və tayfa başçıları arasında çəkişmələr albanları zəiflətdi, bir neçə iri feodalın sultanın tərəfinə keçməsi isə türklərə Albaniyanı tutmağa imkan verdi.

1479-cü ildə Osmanlılar Egey dənizindəki bir neçə adanı Venesiyadan aldılar, 1484-cü ildə isə Herseqovinanı ələ keçirdilər. Beləliklə, XV əsrin ikinci yarısında baş vermiş hərbi yürüşlər nəticəsində osmanlılar Balkan yarımadasını tamamilə ələ keçirdilər.

XV əsrin ikinci yarısında osmanlılar türk dövlətinin əsas mərkəzi olan Kiçik Asiyanı tam olaraq öz ərazilərinə qatdılar. 1461-ci ildə Trabzon imperatorluğu, 12 il davam edən mübarizədən sonra isə iri Qaraman bəyliyi (paytaxtı Konya şəhəri) sultanın hakimiyyəti altına alındı. 1475-ci ildə Osmanlılar Kiçik Asiyanın şərq hissəsindəki digər türk dövlətinə – Ağqoyunlulara məxsus torpaqların bir hissəsini tutdular. Qeyd edək ki, Ağqoyunlu sultanı Uzun Həsən şərqdə sultan II Mehmetın ən böyük rəqibi idi. Uzun Həsən həm də osmanlıların qərbdəki düşmənləri (Venesiya və digər dövlətlər) ilə müttəfiq idi. Teymurun basqını zamanı olduğu kimi, bu dəfə də Anadolu bəyləri Uzun Həsənin sarayına sığınmışdılar və bu osmanlı dövləti üçün daha bir təhlükə mənbəyi idi.

1475-ci ildə Osmanlılar Krımı ələ keçirdilər. Krım xanı sultanın vassalı oldu. Bundan sonra Osmanlı sultanları bütün Qara dəniz hövzəsinə yiyələndilər.

Balkanlarda, Kiçik Asiyada və Qara dənizin şimal sərhədlə-

rində aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində Osmanlı dövləti güclü, böyük bir imperiyaya çevrildi və demək olar ki, həm ayrı-ayrı dövlətləri, həm də Avropa və Asiya dövlətlərindən ibarət geniş koalisiyaları təşvişə saldı.

**Aqrar münasibətlər** Osmanlı dövlətində hələ Səlcuq sultanlığı dövründə yaranmış aqrar münasibətlər olduğu kimi saxlanılırdı. Bu münasibətlər yalnız XIV əsrin 60-70-ci illərində öz hüquqi təsdiqini tapdı. 1368-ci ildə təsbit edildi ki, fəth edilmiş ərazilər dövlət mülkiyyəti sayılsın. 1375-ci ildə isə hərbi lenlərin paylanması haqqında fərman verildi. Hərbi lenlərin kiçikləri – *timar*, iriləri isə *zaimat* adlanırdı. Döyüşçü (sipahi – «süvari») leni şərti mülkiyyət kimi alırdı və eyni zamanda, onun torpağına ən yaxın olan sancağın komandanının rəhbərliyi altında yürüşlərə çıxmağı öhdəsinə götürürdü.

II Muradın və II Mehmetin hakimiyyətləri dövründə hərbi len sistemi və onun şərti mülkiyyət formaları – timar və zaimət bütövlüklə, Osmanlı imperiyasının əsas aqrar dayağı kimi bərqərar oldu. XV əsrin ikinci yarısında lenlərin irsən atadan oğula, oğul olmadıqda isə qardaşa keçməsi qaydası tətbiq edildi. II Mehmet mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədiylə mülk və vəqf torpaqlarının miqyasını məhdudlaşdırmağa çalışırdı. O, bu torpaqları dövlət torpaqlarına çevirib onları arxalandığı sipahilərə şərti torpaq kimi vermək istəyirdi. Mülklər geniş torpaqları əhatə edirdi və əsasən, keçmiş bəylərin, vəzirlərin, əyanların, şeyxlərin varislərinə məxsus idi. Osmanlı sülaləsinin nümayəndələrinin əlində olan mülklər də geniş ərazilərdə yerləşirdi. Mülklərin sahiblərinin gəlirləri timar və zaimət sahiblərinin gəlirlərindən bir neçə dəfə çox idi. Becərilən torpaqların böyük hissəsində vəqf torpaqları yerləşirdi. Yalnız mülk torpaqları, yəni sahibkarın şəxsi və tam mülkiyyəti olan torpaqlar vəqfə çevrilə bilərdilər. Bu torpaqların sahibləri öz mülklərini savab işlər üçün vəsiyyət edirdilər və bu yolla torpaqların müsadirə olunmasının qarşısına almaq istəyirdilər.

Amma artıq II Mehmetin oğlu II Bəyazidin (1481-1512) hakimiyyəti dövründə vəqflərə və mülklərə qarşı görülmüş bütün tədbirlər ləğv edildi, müsadirə edilmiş vəqf və mülklər isə sahiblərinə

geri qaytarıldı.

Qərb dövlətlərindən fərqli olaraq, Osmanlı imperiyasında biyar geniş yayılmamışdı. Daima yeni torpaqların zəbt olunması ilə məşğul olan türk feodalları iri malikanə təsərrüfatları yaratmırdılar və öz torpaqlarını becərmək üçün xırda pay şəklində kəndlilərə verirdilər.

Rus və Avropa feodal təsərrüfatlarından fərqli olaraq, Osmanlı dövlətində hərbi lenlər ərazi və təhkimli kəndlilərin sayı ilə deyil, qanun tərəfindən təsbit edilmiş və xüsusi siyahılarda qeyd olunan gəlirlərə görə bir-birindən fərqlənirdi. Bu gəlir əsasən kəndlilərdən yığılan vergilərdən – məhsul və yaxud pul ilə verilən feodal rentasından ibarət idi. Timarın gəliri üç min *akcadan* (xırda gümüş pul) iyirimi min akcaya qədər, zaimətin gəlirləri isə 20 min akcadan 100 min akcaya qədər təyin olunmuşdu. 1475-ci ildə Osmanlı dövlətində 40 min timar və zaimat sahibi var idi. Ən iri feodal torpaq mülkiyyəti forması xass sayılırdı və onun gəlirləri formal olaraq 100 min akcadan yuxarı idi. Xasslar vəzifəlilərlə bağlı idi. Onlar, əsasən vəzirlərə, bəylərbəylərə və s. verirdilər. Vəzifəsini itirən əyan xass torpağını da itirirdi. Sultan sülaləsinin üzvlərinə aid olan xasslar istisna təşkil edirdi, belə ki, onlar sahibkarlarının tam mülkiyyətində idi.

XV əsrin ikinci yarısında torpaqların iri feodalların əlində cəmlənməsi prosesi güclənirdi. İri feodallar arasında hakim mövqeyə hərbiçilər və vəzifəli əyanlar, eləcə də ali ruhanilər malik idilər. Onlar tərəfindən kəndli əməyinin müəyyən hissəsinin mənimsənilməsi, forma və vasitələri torpaq mülkiyyətinin növündən asılı idi.

Asılı, yəni müəyyən feodal mülkiyyətinə təhkim olunmuş kəndliləri ərəb termini olan «*rəiyyə*» sözü ilə adlandırırdılar. Bu kəndlilər torpaq sahiblərindən qanun tərəfindən təsbit edilmiş həcmdə torpaq payı alırdılar. Torpağın keyfiyyətindən asılı olaraq bu payın ölçüsü 6 hektardan 16 hektara qədər dəyişirdi. Kəndlilər həm də becərdikləri torpaq üzərində müəyyən haqlara malik idilər. Feodal yalnız o halda torpaq payını kəndlidən geri ala bilərdi ki, bu pay qanunla göstərilmiş müddət ərzində (adətən üç il) becərilməsin.

Kəndlilər faktiki olaraq, təhkimli və feodaldan şəxsən asılı deyildilər və torpaqla yalnız iqtisadi cəhətdən bağlı idilər. Feodal-kəndli münasibətləri əsasən, yardarlığa əsaslanırdı. Müsəlman kəndlilər adətən feodala məhsul şəklində aşar vergisi ödəməli idilər. Formal olaraq bu len sahibinin dövlət adından aldığı vergi idi. Beləliklə, kəndlinin feodala verdiyi pay həm feodal rentası, həm də vergi hesab olunurdu. Aşar müxtəlif kənd təsərrüfatı məhsullarından, o cümlədən pambıq, dənli bitkilər, üzüm, meyvə, tərəvəz, bal və s. toplanırdı.

Qeyri-müsəlman kəndlilər len sahibinə xərac və *mükasimə* adlanan vergi-renta ödəyirdilər və bu, formal olaraq aşar ilə eyni idi. İş qabiliyyəti olan bütün qeyri-müsəlman kişilər (qanuna görə 15 yaşdan 75 yaşa qədər) dövlət xəzinəsinə daxil olan və pul ilə ödənilən can vergisi – cizyə ödəməli idilər. Bütün kəndlilər – müsəlmanlar və qeyri-müsəlmanlar – məhsul və pulla ödənən bir çox digər vergi və ödənişlər verirdilər. Bunların arasında mal-qara, toylar və s. üçün alınan vergilər var idi. Çoxsaylı fövqəladə vergilər (*avariz*) əvvəl yalnız müharibə vaxtı alınırdısa, sonradan sülh dönəmində də alınmağa başlandı.

*Uğurlu istilalar zamanı əldə olunan hərbi qənimətin feodallara böyük var-dövlət gətirməsinə baxmayaraq, onların gəlirlərinin əsas hissəsini kəndli əməyinin nəticəsini mənimsəmək təşkil edirdi.* Bütövlükdə, türk feodal dövlətinin və ayrı-ayrılıqda feodalların mövcud olması türk kəndlisi və fəth edilmiş xalqların istismarı ilə sıx bağlı idi.

Osmanlı işğalına məruz qalmış Kiçik Asiyada və Balkanlarda yerləşən şəhərlər itkilərə məruz qalmışdı. Onların böyük hissəsi dağıdılmış, qalan şəhərlər isə bir qədər sonra tənəzzülə uğramışdı. XV əsrin ikinci yarısında şəhərlərin vəziyyəti yaxşılaşmağa başladı. Sənətkarlıq və ticarət sürətlə inkişaf edirdi. Sultanlar əhalinin və ordunun təmin edilməsi üçün sənətkarlara və tacirlərə ehtiyac duyurdular. Sultan II Mehmet işğal olunmuş şəhərlərdən paytaxt İstanbula çoxlu sənətkar köçürmüşdü.

Osmanlı dövlətində parça, xalca və saxsıdan düzəldilmiş məhsulların istehsalı çox inkişaf etmişdi. Türk xalçalarına və du-

lusçuluq məmulatlarına digər ölkələrdə də tələbat var idi. Bahalı parçalar, silahlar, məişət məhsulları, metaldan düzəldilən əşyalar xaricdən ixrac olunurdu. Fəth prosesində çox varlanan və Bizans əyanlarının təmtəraqlı həyat tərzini mənimsəyən Osmanlı sultanları, iri feodallar və əyanların bu məhsullara tələbatı get-gedə artırdı. Onlar həmçinin saraylar, məscidlər, mədrəsələr, karvansaralar tikirdilər.

Sənətkarlıq və ticarətin ən yüksək inkişafı iri şəhərlərdə müşahidə olunurdu. Xırda və hətta orta səviyyəli şəhərlərdə əhalinin böyük hissəsi kənd təsərrüfatı ilə məşğul olurdu. Bu şəhərlərdə yaşayan tacirlər və sənətkarlar adətən çox kiçik bazarı təmin edirdilər.

XV əsrin ikinci yarısında türk feodalizmi özünün inkişaf etmiş dövrünə qədəm qoydu. Bu dövrdə türk dövlət quruluşunun əsas formaları müəyyənləşdi və XIX əsrin 30-40-cı illərinə, digərləri isə sultanlığın ləğvinə qədər qorunub saxlanıldı.

Dövlətin başında sultan, ona adətən «padşah» deyirdilər, dururdu. O, imperiyanın təbəələri üzərində mütləq hakimiyyətə malik idi. Bundan başqa, sultan sünni təbəələrinin dini başçısı sayılırdı və «möminlərin əmiri» titulunu daşıyırdı. Sultan həm də bütün silah daşıya bilən kişi-müsəlmanların daxil olduğu ordunun ali baş komandanı idi.

XVII əsrin əvvəllərinə qədər sultan taxtı atadan oğula keçirdi. XVII əsrdə yeni qayda təsbit edildi: sultan taxtı Osmanlı sülaləsinin yaşca ən böyük nümayəndəsinə keçməli idi.

Osmanlı imperiyasında sultandan sonra dövlətin ikinci adamı hökumətin başçısı olan böyük vəzir idi. İdarəetmənin müxtəlif sahələrinə faktiki olaraq nazir vəzifəsi daşıyan vəzirlər başçılıq edirdilər. Vəzirlərdən ibarət məşvərətçi Ali Məclis təşkil olunurdu («Divan-i humayun»). Bu məclis tərəfindən qəbul edilmiş qanunlar («qanunnamələr») əyanların dərəcələrini və iyerarxiyasını, onların vəzifələrini, feodalların rolları və haqlarını, kəndlilərin mükəlləfiyyətlərini və digər dövlət məsələlərini təsbit edirdi.

Sultanlığın dayağını üç təbəqə – hərbi, xidməti və dini feodallardan ibarət olan feodal zümrəsi təşkil edirdi. Bu təbəqə arasın-

da əsas rolu «qılınc ərənləri», əhl əs seyf – hərbi feodallar oynayırdılar. Əllərində bütün mərkəzi idarəetmə aparatı olan vəzifəli feodallar da böyük siyasi qüvvəyə çevrilmişdilər. Ruhanilərin ali nümayəndələri – üləmalar da geniş nüfuza malik idilər. Müsəlman ruhanilərinin başçısı müfti idi. XV əsrin 70-ci illərindən etibarən o, şeyxülislam adlandırılmağa başlandı. Dini iyerarxiyada ondan sonra Rumeli və Anadolu qadiəsgərləri və ya qazıəsgərləri (tərcümədə «ordu hakimi») gəlirdilər. XVI əsrin əvvəllərindən – I Səlimin hakimiyyəti dövründən etibarən ali ruhanilər o qədər güclənmişdilər ki, sultan şeyxülislamın fitva adlanan icazəsi olmadan heç bir qanunu qəbul edə bilməzdi.

Osmanlı imperiyasının dövlət quruluşunda dini icmaların da rolu çox böyük rolu idi. İnzibati cəhətdən həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar Osmanlı hökumətinə tabe idilər. Amma qeyri-müsəlmanlar hakimiyyət orqanlarının özbaşınalığına daha çox düçar olurdular, çünki onlar hökumətin işində iştirak etmək hüququna malik deyildilər. Eyni zamanda, II Mehmetin hakimiyyəti dövründə qeyri-müsəlman dini icmaları sistemi yaradıldı. Osmanlılar bu sistemi dini icma başçılarının təyin olunması yolu ilə idarə edirdilər. Yunan-pravoslav, erməni-qriqoryan, yəhudi və digər dini icmalar yaradıldı.

İcmaların başçıları həm dini, həm də dünyəvi hakimiyyətə malik idilər. Onlar öz soydaşlarının dini ayinlərinə aid bütün məsələlərini (evlənmək, boşanmaq, mülki və məişət mübahisələri və s.) həll edirdilər. İcmanın daxilində həm dövlət xəzinəsinin hesabına, həm də icmanın təminatı üçün bir sıra ödəmələr toplanırdı. Yunanları və digər pravoslav təbəələri – bolqarları, serbləri, moldavanları, valaxları və gürcüləri də birləşdirən yunan-pravoslav icması xüsusi çəkiyə malik idi. Amma icmaya həm mərkəzdə, həm də əyalətlərdə ümumi rəhbərlik yunan patriarxı və yepiskopların əlində idi.

### XVI əsrdə osmanlıların xarici siyasəti

XVI əsrin əvvəllərində Osmanlılar yeni qələbələr qazandılar və Yaxın Şərqdə geniş ərazilərə sahib oldular. Osmanlı imperiyası dünyanın bu hissəsində ən böyük dövlətə çevrildi.

Bütün bunlar Osmanlılarla Səfəvilər arasında uzunmüddətli rəqabətə və müharibələrə səbəb oldu.

1514-cü ildə sultan I Səlim Yavuz (Zəhmli) (1512-1520) Urmiya gölündən şərqdə yerləşən Çaldıran düzənliyində Səfəvi şahı I İsmayılın qoşunlarını darmadağın etdi və qısa müddət ərzində Səfəvilərin paytaxtı Təbrizi öz əlində saxlamağa nail oldu. Şah I İsmayılın məğlub edilməsi I Səlimə Səfəvilərin müttəfiqi olan Misir məmlük sultanına qarşı yürüşə başlamağa imkan yaratdı. Əvvəlcə I Səlim öz donanmasını gücləndirdi (bu, ona Aralıq dənizində hərbi əməliyyatlar aparmağa imkan verdi), daha sonra isə Cənub-Şərqi Anadolunu tutdu. O, bu bölgələrdən Misirə qarşı yürüş təşkil etmək üçün istifadə etdi. 1516-cı ilin 24 avqustunda Hələb yaxınlığındakı döyüşdə I Səlim Misir sultanının qoşunlarını ağır məğlubiyyətə uğratdı. Əvvəlcə Hələb şəhəri, daha sonra bütün Suriya və Fələstin Osmanlılar tərəfindən fəth edildi. 1516-cı ilin 20 noyabrında Osmanlı qoşunları Qahirəyə yaxınlaşdı. 1517-ci ilin 31 yanvarında bu şəhər də təslim oldu.

Beləliklə, Osmanlı imperiyası Suriyanı, Fələstini, Lübnanı və Misiri ələ keçirdi. Misirə məxsus Ərəbistan yarımadasında yerləşən və müsəlmanların müqəddəs şəhərləri olan Məkkə və Mədinə ilə birlikdə Hicaz da Osmanlıların hakimiyyəti altına keçdi.

Sultan həm də islam dünyasının xəlifəsi oldu.

Sonradan bu hadisənin rəsmi versiyası yarandı. Bu versiyaya görə, Misirin istilası zamanı Qahirədəki Abbasi xəlifəsi özünün xəlifəlik hüquqlarını türk sultanına və onun xələflərinə verdi. Beləliklə də, sultan və onun xələfləri nəinki Osmanlı imperiyasının daxilindəki, həm də dünyadakı bütün müsəlmanların ali dini rəhbərinə çevrildi.

Osmanlı dövlətinin Yaxın Şərqdə və Balkan yarımadasında fəthləri ciddi beynəlxalq nəticələrə gətirdi. I Səlimin zəbt etdiyi torpaqlar Osmanlıların ərazisini ikiqat böyütdü. Osmanlı imperiyası nəinki Avropa və Asiyada, həm də Afrikada da ərazilərə malik oldu. İmperiyanın Yaxın Şərqdə ən güclü rəqibi – Misir sultanlığı müstəqil dövlət kimi mövcudluğunu itirdi, digər rəqib olan Səfəvilər dövləti isə zəiflədi. Sultanların hakimiyyəti altında olan ərazi-

lərdə Adriatik dənizi sahillərindən və Macarıstandan Bəsrə körfəzi sahillərinə qədər uzanan ticarət yolu da var idi.

Osmanlı imperiyası tərəfindən Macarıstanın böyük bir hissəsinin işğalı nəinki Osmanlı tarixinin, ümumiyyətlə, bütün Avropa orta əsrlər tarixinin ən mühüm hadisələrindən biri oldu.

Macarıstanın türklər tərəfindən işğalı tədricən baş verdi. Bu istilanın başlanğıcı Süleyman Qanuninin (1520-1566) 1521-ci ildə etdiyi yürüş zamanı qoyulmuşdu. Türk qoşunlarının basqını o zamanlar Macarıstanın ərazilərinə daxil olan Belqradın fəthi ilə başa çatdı. Cənub-Şərqi Avropanın ən vacib istehkamlarından biri Osmanlıların əlinə keçdi.

1526-cı ilin aprelində sultanın başçılığı altında 100 minlik qoşun Macarıstana yürüşə çıxdı. 1526-cı ilin 29 avqustunda osmanlıların ordusu Dunay çayı üzərində yerləşən Moxac şəhərinin yaxınlığında çex-macar ordusunu məğlubiyyətə uğratdı. Sentyabrın ortasında sultan Süleyman Qanuni heç bir müqavimət görmədən Macarıstanın paytaxtı Buda şəhərinə daxil oldu. Sultan öz tərəfdarı olan Transilvaniya voyevodu Yan Zapolyeni Macarıstan taxtına çıxartdı. Sonra isə zəngin hərbi qənimət, o cümlədən Macarıstan krallarının sarayındakı zinət əşyaları ilə birlikdə İstanbula qayıtdı.

Bunun ardınca avstriyalı ekshersoq Ferdinand Macarıstan taxtına iddiaçı kimi çıxış etdi. Beləliklə, Macarıstan uğrunda 170 il davam edən Avstriya-Osmanlı mübarizəsi başladı.

1533-cü ildə sülh bağlandı: Macarıstan ekshersoq Ferdinand və Yan Zapolye arasında bölüşdürüldü. 1541-ci ildə Yan Zapolyenin ölümündən sonra Macarıstanın mərkəzi hissəsi (mərkəzi Buda şəhəri olmaqla) bilavasitə olaraq Osmanlı imperiyasına birləşdirildi və Buda paşalığı adlanan əyalətə çevrildi. Transilvaniya isə Osmanlı sultanlarına vassal olan voyevodalıq kimi mövcudluğunu davam etdirdi.

Macarıstanın bölüşdürülməsindən sonra şərqdə yürüşləri davam etdirmək üçün imkanı yarandı. 1533-cü ildə sultan Səfəvilərə qarşı böyük ordu göndərdi. Bu ordu 1534-cü ildə Təbrizi, həmən ilin dekabrında isə Bağdadı ələ keçirdi. Səfəvilər dövlətinə qarşı

növbəti 1535, 1548 və 1554-cü illər yürüşlərində də Süleyman Qanuninin orduları qələbə qazandı. Səfəvi şahının xahişi ilə 1535-ci ildə Kiçik Asiyada yerləşən Amasya şəhərində sülh müqaviləsi bağlandı. Müqavilənin şərtlərinə görə, Ərəb İraqı və Bağdad osmanlılara verildi, Azərbaycan və Təbriz isə Səfəvilərin hakimiyyəti altında qaldı. Cənubi Qafqazın qərb bölgələri Osmanlılara, şərq bölgələri isə Səfəvilərə verildi.

1551-ci ildə Osmanlı imperiyası Afrika qitəsində yeni ərazilərə sahib oldu: Trablis şəhəri və onun əhatəsindəki ərazilər fəth olundu. 1564-cü ildə Tunis də Osmanlı dövlətinin tərkibinə qatıldı. Beləliklə, Osmanlı sultanları Aralıq dənizinin şərq sahillərindən Mərakeş sərhədlərinə qədər bütün Şimali Afrikanın sahibinə çevrildilər.

1569-cu ildə sultan II Səlim Aşağı Volqaboyunu tutmaq üçün Azovdan Həştərxana yürüş təşkil etdi. Amma Həştərxan yürüşü tam məğlubiyyətlə nəticələndi.

Qüdrətli Osmanlı imperiyası böyük beynəlxalq nüfuza malik idi. Avropa dövlətləri sultanla müttəfiq olmaq və yaxud ən azından onun bitərəfliyini təmin etmək üçün İstanbula səfirliklər göndərirdi. Sultan Süleyman Qanuni rasional düşünən bir siyasətçi idi, onun və dövlətin maraqlarına xidmət etdiyi hallarda digər dövlətlərlə sülh və hətta müttəfiqlik münasibətləri yaratmaqdan çəkinmirdi.

Avstriyaya və onu idarə edən Habsburqlara qarşı birgə mübarizənin həm Fransaya, həm də Osmanlılara sərfəli olması səbəbindən 1535-ci ildə sultan Süleyman Qanuni kral I Fransisklə «ticarət, dostluq və sülh haqqında» müqavilə imzaladı. Bu müqaviləyə görə, müsəlmanların başçısı olan sultan bir katolik kralına qarşı digər katolik kralından istifadə edə bilərdi. Türk-fransız müqaviləsi Osmanlı imperiyasında fəaliyyət göstərən fransız tacirlərinə veriləcək imtiyaz və güzəştlər tanıyırdı. Venesiyalılar kimi, fransızlar da eksterritoriallıq hüququna malik oldular – onların öz aralarında olan münaqişələr səfirləri və konsulları tərəfindən və vətəndaşı olduqları ölkənin qanunlarına görə həll olunurdu. Müqavilə maddələrə – kapitullara bölünmüşdü. Bu sözə

görə xarici vətəndaşların əldə etdikləri güzəştlər və imtiyazlar *«kapitulasiyalar» adlanmağa başladı.*

Həm şərqdə, həm də qərbdə müharibələr edən sultan Süleyman Rusiya ilə sülh münasibətləri yaratmağa çalışırdı. Rusiyanın bütün diqqəti qərb hüdudlarına yönəlmişdi. Buna görə ruslar da Türkiyə ilə sülhdə maraqlı idilər. Ruslar öz sərhədlərini həm sultanın vassalı Krım xanının basqınlarından, həm də Osmanlı ordularından qorumaq istəyirdilər.

*Sultan Süleyman Qanuninin dövründə Osmanlı imperiyası öz* qüdrətinin zirvəsinə çatdı. İmperiyanın hüdudlarından xaricdə osmanlıların saysız var-dövləti haqqında nağıllar yayılır, onların hərbi qüdrətindən qorxu ilə danışırdılar. Sultanın və onun hökumətinin ölkə daxilindəki nüfuzuna isə şəkk-şübhə yox idi.

**Kəndli üsyanları**

Lakin artıq XVI əsrin birinci yarısında imperiya daxilində iri kəndli üsyanları baş verdi. Çoxlu vergi və *töycülərdən əziyyət çəkən türk kəndliləri yerlərini və* torpaqlarını tərk edib, şəhərlərə və dağlara qaçırdılar. Kəndlilərin qaçmağının qarşısını almaq üçün XVI əsrin 20-ci illərində yeni qanun qəbil edildi. Qanuna görə, feodallar yeni torpaqda 15 ildən az, şəhərlərdə isə 20 ildən az yaşayan qaçaq kəndliləri torpaqlarına zorla qaytarmaq hüququna malik idilər. Bu qanun İstanbul şəhərinə qaçmış kəndlilərə şamil olunmurdu.

Kəndlilərin vəziyyəti get-gedə daha da pisləşirdi. Onların torpaqdan getməsinə və şəhərlərə köçməsinə qadağa şəxsi azadlığın məhdudlaşması demək idi. Amma bu məhdudlaşdırma Şərqi Avropa təhkimçiliyinə nisbətən aşağı səviyyədə idi. Kəndliləri uzun müddətə təsərrüfatlarından ayrı salan başlıca səbəblərdən biri də Osmanlı dövlətinin apardığı davamlı müharibələr olmuşdu. XVI əsrin ikinci yarısında məhsul və ya pulla ödənilən fövqəladə mükəlləfiyyətlərin tətbiqi geniş vüsət aldı. Bütün bunlar kəndlilərin etirazlarına səbəb olurdu. Bu etiraz özünü müxtəlif formalarda göstərirdi. Şiə məsləkinin geniş yayılması, kəndlilərin kütləvi şəkildə başqa torpaqlara qaçması, üsyanlar və digər hadisələr bu qəbildən idi.

İlk üsyanlardan biri 1508-ci ildə Tokat bölgəsində baş verdi.

Ona qızılbaş Nurəddin (Nur Əli xəlifə) başçılıq edirdi. Üsyan bir necə il davam etdi və yalnız 1512-ci ildə taxta çıxmış I Səlim tərəfindən yatırıldı.

1511-ci ildə Antalya və onunla qonşu olan cənub-qərbi Anadolu bölgələrində daha bir iri üsyan baş verdi. Onun başında təkəli tayfasından olan qızılbaş Karabıyık oğlu dururdu. Onun ləqəbi Şahqulu (Şah İsmayılın qulu) Baba Təkəli idi. Türk mənbələrində Şahqulunu Şeytanqulu adlandırırdılar. Üsyanın ilk mərhələsində Şahqulunun 10 mindən artıq döyüşçüsü var idi. Bu rəqəm tədricən iki dəfə artdı. Üsyançılar yerli feodalların yığma qoşunlarına bir neçə döyüşdə qalib gəldilər. Amma üsyan elə həmin ildə sultanın göndərdiyi nizami qoşun tərəfindən yatırıldı.

8 il sonra türk feodallarına qarşı yeni və daha da böyük üsyan baş verdi. 1519-cu ildə başlanan və Şeyx Cəlalın başçılıq etdiyi üsyan Turxalı, Tokat və Amasya bölgələrini əhatə edirdi. Üsyançıların sayı 20 mini keçmişdi və onların qoşunlarında həm piyadalar, həm də süvarilər var idi. Üsyan zamanı Cəlal özünə Şahvəli (müqəddəs şah) ləqəbini aldı. Bu o demək idi ki, o özünü müsəlmanların həm dini, həm də dünyəvi hökmdarı hesab edir. O, dünya müsəlman sultanlığı yaratmaq haqqında niyyətlərini də gizlətmirdi.

Sultan I Səlim Cəlala qarşı böyük bir ordu göndərdi və üsyanı yatırmağa nail oldu.

Ən böyük üsyan isə Qələndərin başçılığı altında 1526-cı ildə Kilikiya bölgəsində baş verdi. Qeyd edək ki, hakim dairələr düşünürdülər ki, artıq Anadoluda tam sabitlik yaradılıb və əhali sakitləşibdir. Amma üsyanın tədricən genişlənməsi və hətta şimala – Amasya və Tokat bölgələrinə yayılması göstərdi ki, hakimiyyətin bu qənaəti yanlışdır. Tez bir zamanda üsyan, demək olar ki, bütün Mərkəzi Anadolunu əhatə etdi. Qələndər sultan qoşunlarını bir neçə döyüşlərdə məğlub etsə də, lakin 1527-ci ildə üsyan yatırıldı.

Növbəti onilliklərdə iri üsyanlar baş vermirdi, amma Kiçik Asiyada vaxtaşırı iğtişaşlar müşahidə olunurdu. Onların əsas səbəbi, vergilərin artması idi. Yunanıstanda, Serbiyada və Albaniy-

ada baş verən üsyanlar bu qəbildən idi. XVI əsrin sonunda – XVII əsrin əvvəllərində Kiçik Asiyada yeni üsyanlar dalğası baş qaldırdı.

1588-ci ildən etibarən Anadolu çoxsaylı üsyanlar meydanına çevrildi. 1595-ci ildə əsasən kəndlilərin iştirak etdiyi və türk mənbələrində «cəlali qıyamı» adlandırılan güclü bir üsyan baş verdi. Üsyan qərbdə Bursaya qədər Kiçik Asiyanın böyük hissəsini əhatə etdi. Bu üsyanda ən fəal rolu ləvəndlər oynayırdılar.

1598-ci ildə üsyanda iştirak edən xalqın aşağı təbəqələrinə Qara Yazıcı (Qara Mirzə) ləqəbi ilə tanınan Əbdulhəlimin başçılığı altında xırda feodallar və onların döyüşçüləri də qoşuldular.

Qara Yazıcının başçılığı altındakı üsyan çox tez yayıldı və yeni bölgələri əhatə etməyə başladı. 1599-cu ildə Qara Yazıcı Urfanı ələ keçirdi. Burada o, elan etdi ki, yuxuda peyğəmbəri görüb və peyğəmbər deyib ki, «ədalət və dövlət» Qara Yazıcıya məxsusdur. 1601-ci ildə hökumət qoşunları Qara Yazıcıya ağır zərbə vura bildilər və o, dağlara çəkilməyə məcbur oldu. 1602-ci ildə onun vəfatından sonra üsyanın başçısı onun qardaşı Dəli Həsən oldu.

1603-cü ildə Dəli Həsən ona söz verilən Bosniya bəylərbəyliyini əldə etdi, üsyançılara xəyanət edərək öz tərəfdarları ilə Balkanlara getdi.

Əvvəlcə Qara Yazıcı, sonra isə Dəli Həsən tərəfindən idarə olunan iri dəstələrin dağılmasına baxmayaraq, Anadoluda baş verən üsyanlar nəinki zəiflədi, hətta gücləndi. 1603-cü ildə üsyanın ikinci – daha güclü dövrü başladı. 15 il davam edən «Cəlali qiyamının» ən güclü və türk feodalları üçün ən təhlükəli üsyanı Qələndəroğlunun başçılığı altında baş vermişdir. Bu üsyan Qara Yazıcının və Dəli Həsənin üsyanlarına nisbətən hökuməti daha çox narahat etmişdi. Üsyançıların sayı 30 mini keçmişdi. Bu dəstələrlə Qələndəroğlu Bursaya tərəf irəlilədi və onu tutdu. Faktiki olaraq, Qələndəroğlu Egey və Mərmərə dənizinin sahilyanı bölgələrinə qədər bütün Kiçik Asiyanın ağasına çevrilmişdi. Heç bir üsyan başçısı bu qədər gücə və nüfuza malik deyildi. Qələndəroğlunun məqsədi Osmanlı sülaləsinin Kiçik Asiyadakı hakimiyyətini tam ləğv etmək idi. Amma 1609-cu ildə Qələndəroğlu sultan qoşunları tərəfindən məğlub edildi və o, 2 minə yaxın silahdaşı ilə

İrana qaçmalı oldu.

1610-cu ildən etibarən Kiçik Asiyada etirazlar azalmağa başladı. Amma Osmanlı dövləti «cəlali qiyamının» iqtisadi və siyasi nəticələrini hələ çox illər boyu hiss etdi. Kənd təsərrüfatına ağır ziyan dəymişdi. Yerlərinə qayıdan kəndlilər bu və ya digər səbəbdən tərk etdikləri torpaqları geri istəyirdilər. Bu zəmində bir çox mübahisələr baş verirdi. Osmanlı hökuməti bu mübahisələrin həllini öz üzərinə götürməli oldu.

XVI əsrin sonuncu otuzilliyində türk hakimiyyətinə qarşı Balkan xalqlarının üsyanları baş verdi. 1572-ci ildə qospodar İon «Rəhmsizin» başçılığı altında Moldovada, 1594-cü ildə qospodar «Cəsur» Mixailin başçılığı altında Valaxiyada üsyanlar baş verdi. 1596 və 1598-ci illərdə Bolqarıstan, XVI əsrin sonu – XVII əsrin əvvəlində isə Cənubi Serbiya, Çernoqoriya, Hersoqovina, Moreya, Dalmasiya və Albaniya üsyanlarla əhatə olunmuşdu. Bütün üsyanların sultan qoşunları tərəfindən yatırılmasına baxmayaraq, onlar Osmanlı imperiyasının qüdrətini get-gedə sarsıdır və zəiflədirdi.

**XVI əsr-XVII əsrin birinci yarısında şəhərlərin vəziyyəti**

XVI əsrdə Osmanlı imperiyasında sənətkarlığın əsas sahələri bunlar idi: hərbi, ləvazimat, metal emalı, ağac emalı, tikinti, dulusçuluq, saxsı emalı, gön-dəri, toxuculuq və xalça istehsalı.

Şəhərlərdə əhalinin artması onların istehlakçı bazarları kimi əhəmiyyətlərinin artmasına gətirdi. Vahid daxili bazar hələ formalaşmamışdı. Şəhər əhalisinin sənətkarlıq məhsullarına olan tələbatı əsasən yerli ustalar tərəfindən təmin olunurdu. Şəhər əhalisinin məhsullarla təminatı yerli sexlərin inhisarında idi və onlar bu inhisarı hər vəchlə qorumağa çalışırdılar.

Daxili ticarət də inkişaf etmişdi. Lakin o, əsasən yerli bazarların sərhədləri çərçivəsində mövcud idi. Ticarətin və istehsalatın mərkəzləri bazarlar idi. Məsələn, İstanbulda onlarla bazar mövcud idi və onlar bir çox sahələrə görə ayrılırdı: un, balıq, ədviyyat bazarları və s.

Müxtəlif sexlər bu və ya digər məhsulun alqı-satqısı üzərində

tam inhisar hüququna malik idilər. Ayrı-ayrı tacirlər bu inhisarı pozmağa çalışanda, sexlər sultan hökumətindən kömək istəyirdilər. Qul ticarəti çox inkişaf etmişdi və əsasən də İstanbulda geniş yayılmışdı. İri, əsasən Dunay və ya dənizsahili şəhərlər xarici ticarətdə fəal iştirak edirdilər. Məhz xarici ticarət sahəsində geniş kapitallar cəmləşmişdi.

Amma nə sənətkarlıq, nə də ki ticarət o qədər yüksək inkişaf səviyyəsinə çatmamışdı ki, feodal quruluşu üçün ciddi təhlükəyə çevrilsin.

Feodalizm mövcudluğunu qoruyub saxlayırdı. Amma bu quruluş ölkənin istehsal qüvvələrinin inkişafını təmin edə bilmir, əksinə onu ləngidirdi.

**Osmanlı imperiyasının zəifləməsinin səbəbləri**

XVI əsrdə kənd təsərrüfatının tənəzzülü, güclü xalq üsyanları, şəhərlərin inkişafında durğunluq Osmanlı imperiyasının daxilindəki problemlərin yeganə təzahürü deyildi və bu əsrin sonuna doğru özünü daha da acıq şəkildə göstərdi. Hakim feodal sinfi üçün hərbi-len sisteminin dağılması çox təhlükəli idi. Bu prosesin əlamətləri atıq XVI əsrin birinci yarısında özünü göstərməyə başladı və əsrin ikinci yarısında daha da gücləndi.

Sultanın XVI əsrin 70-ci illərində verdiyi fərmanlardan birində hərbi-len sisteminin tənəzzülünün üç əsas səbəbi göstərilmişdir. Bunlardan birincisi – döyüş meydanında heç bir şücaət göstərməyən feodallara məxsus lenlərin həcmlərinin əyalətləri idarə edənlər (bəylərbəylər) tərəfindən özbaşına artırılması, ikincisi lenlərin bölünməsi idi. Timar və zaimətlər daha kiçik torpaq sahələrinə parçalanırdı. Torpağın sahəsi azaldığından sipahilər rəiyyəti daha çox istismar edir və nəticədə rəiyyətin çiyninə daha çox yük düşürdü. Bu hərbi-len sisteminin tam pozulmasına gətirirdi. Fərman bəylərbəylərdən lenlərin parçalanmasına heç bir halda icazə verməmələrini tələb edirdi. Üçüncü səbəb kimi bəylərbəylərin özbaşınalığı göstərilirdi. Onlar sultanın müstəsna hüquqlarını mənimsəyərək timar torpaqlarının paylanması haqqında özbaşına fərmanlar verirdilər.

Hərbi-len sisteminin tənəzzülü prosesi 250 il ərzində davam etdi. Sultanlar bu prosesi dayandırmaqda gücsüz idilər. Belə ki, əslində sistemin öz daxilində olan ziddiyyətlər onu dağıdırdı.

Daxili problemlər Osmanlı imperiyasının hərbi qüdrətinin zəifləməsinə və tənəzzülünə gətirirdi. Halbuki, Osmanlıların müharibə apardığı Avropa dövlətlərində iqtisadi və mədəni inkişaf müşahidə olunurdu, onlar güclü mərkəzləşdirilmiş dövlətlər yaratmağa nail olmuşdular. Artıq Osmanlı dövləti davamlı apardığı müharibələrdə məğlub olmağa başlayırdı.

XVI əsrin sonu – XVII əsrin əvvəllərində Osmanlı imperiyası artıq hücum etmə qüdrətini itirmişdi. Həmin dövrdə hərbi-len sisteminin tənəzzülünün daha ciddi əlamətləri özünü göstərməyə başladı.

Osmanlı imperiyasının daxili və beynəlxalq vəziyyətinin ağırlaşması feodal qruplaşmaları arasındakı mübarizənin güclənməsinə səbəb oldu. Tez-tez saray çevrilişləri, yeniçəri və nizami sipahi süvarilərinin üsyanları baş verirdi. Sultan hakimiyyətinə qarşı iri feodalların çıxışları başladı. Əyalət bəylərbəylərinin mərkəzdənqaçma meyllərinin də güclənməsi müşahidə olunurdu.

## Ərəb ölkələri Osmanlı imperiyasının tərkibində

### Misir Osmanlı imperiyasının tərkibində

Qeyd edildiyi kimi, 1517-ci illərdə Misir Osmanlı ordusu tərəfindən tutulmuşdu. Misirdə Osmanlı idarəetmə sistemi 1525-ci ildə verilmiş «Qanunnamə Mısr» məcəlləsi əsasında qurulmuşdu. Ölkənin başında sultan tərəfindən təyin olunmuş vali (paşa) dayanırdı. Burada yerləşən Osmanlı orduları paşanın arxalandığı qüvvə idi. Ordu yeddi yerə bölünürdü və bunlardan ən vacibi – yeniçərilər idi. XVI əsrin I yarısında Misirdəki türk döyüşçülərinin sayı 12-15 minə çatmışdı. Zaman keçdikcə onlar Misir əhalisi ilə güclü şəkildə qaynayıb qarışmış, sənətkar sexləri ilə yaxın təmasa girmişdilər. Türk ordusunda xidmət irsi olmuşdu.

Türk ordularına cəlb olunan məmlüklərin də hərbi təşkilatları

saxlanılırdı. Onların başında əmirlər (bəylər) dayanırdı. Sıravi məmlüklərdən bəyin mühafizəsi təşkil olunurdu və onun sıraları yeni alınan gənc qullar hesabına artırdı. Yüz illərlə Misirdə mövcud olan məmlük qvardiyası demək olar ki, təbii yolla az artırdı, çünki məmlüklərin az övladları olurdu. Onların yerli qadınlar ilə izdivacından olan uşaqlar isə qeyri-bərabər hüquqlara malik şəxsiyyətlər kimi məmlüklər sırasına nadir hallarda buraxılırdı. Hər yeni nəsil, demək olar ki, bütövlükdə, xaricdən gətirilirdi.

Məmlüklərdə nəsli aristokratiya yox idi: onların bəyləri irəli gedə bilən sıravilər içərisindən çıxırdı. Bəyin nüfuzu və qüvvəti onun keşiyinin sayından asılı idi. Hərdən bu dəstə bir neçə yüz adamdan ibarət olurdu. Baxmayaraq ki, məmlüklərin əksər hissəsi qullar içindən çıxmışdı, onlar böyük imtiyazlara malik olur və daha çox muzdlu əsgərlər kimi fəaliyyət göstərir, öz sahiblərini dəyişə də bilirdilər. Çox vaxt onlar heç qul da deyildi və Misirə könüllü gəlib xidmətə girirdilər.

Misir İstanbula hər il pulla və natura ilə vergi göndərirdi. Misir maliyyəsinə başda dəftərdar olmaqla «divan əd-dəfətəri əs-sultani» rəhbərlik edirdi. XVI əsrdə dəftərdar İstanbuldan göndərilirdi. Lakin sonralar bu vəzifə məmlük bəylərinə keçdi. XVII əsrin əvvəlindən idarəetmədə bir məmurun səlahiyyəti genişlənirdi ki, bu da ruznamçi idi (*ruznamə* – bütün gəlir və xərclərin qeydiyyat kitabının başçısı). Maliyyə idarəsində hesabatla məşğul olan və öz uşaqlarını da bu sənətə öyrədən xüsusi məmurlar fəaliyyət göstərirdi.

Ölkə əyalətlərə bölünür və onların başında hakimlər dayanırdı. Bu vəzifəyə əsasən məmlük bəyləri təyin olunurdu. Əslində əyalətlərə bəylərin köməkçiləri – kaşiflər rəhbərlik edir, bəylər isə Qahirədə yaşayırdılar. Əyalət başçıları vergilərin vaxtında daxil olmasına, dövlət malikanələri idarəsinə nəzarət edir, polis funksiyalarını yerinə yetirirdilər. «Qanunnamə Mısr»a əsasən, onlar suyun ədalətli paylanmasına, suvarma sisteminin vəziyyətinə, kanal, bəndlər və yolların təmirinə məsuliyyət daşıyırdılar.

XVI-XVII əsrlərdə Misirdə özünün son mərhələsinə çatmış feodal cəmiyyəti mövcud idi. Belə hesab olunurdu ki, bütün tor-

paq sultanın ali mülkiyyətidir və o, bu torpağı şəxsi mülkiyyət (mülk) kimi, dini idarə mülkiyyəti kimi (vəqf), yaxud özünün mülkiyyəti kimi (xass) paylamağa səlahiyyətlidir. Dörd sahilyanı şəhər – İsgəndəriyyə, Dumyat, Rovda və Süveyş xüsusi vəziyyətdə idilər. İstanbul hökuməti onları timar kimi rəislərin – kapitanların ixtiyarına vermişdi və onlar şəhər gəliri hesabına hərbi gəmiləri saxlamalı idilər.

Xass torpaqlarının əsas qismi birbaşa yox, vasitəçilərin köməyi ilə istifadə olunurdu. Bu da *muqataa* (yəni, əvvəlki iqta) kimi paylanan torpaqların hesabına baş verirdi. Muqataa sahiblərinin hüquq və vəzifələri müxtəlif idi. Adı çəkilmiş sahilyanı şəhərlər istisna olmaqla, Misirdə timar paylanmırdı. XVI əsrdə muqataa əmanət şəklində verilirdi, dövlət özü inandığı adamlara – əmirlərə torpaq verir və xəzinəyə göndərmək üçün vergilərin yığılması və torpağın becərilməsinə nəzarəti ona həvalə edirdi. Əmir yığdığı vəsaitlərin məbləğindən asılı olmayaraq, dövlət xəzinəsindən məvacib alırdı. XVI əsrdə türk valiləri bu sistemdən istifadə edərək, işğal zamanı böyük zərər çəkən Misirin kənd təsərrüfatını bərpa etməyə cəhd göstərirdilər. Öz kəndlərindən qaçan əhali məcburi şəkildə geri qaytarılırdı. Cəzalanmaq qorxusu qarşısında onlar torpağı becərməli idilər. Eyni zamanda, onlar torpaqdan istifadə hüququna malik idilər və onun məhsulunun bir qisminə yiyələnə bilərdilər. Valilər və onların nümayəndələri əmirlərin fəaliyyətini izləyirdi.

XVI əsrdə sonrakı əsrlərdən fərqli olaraq, feodal istismarı daha nizamlı olmuşdur. Lakin sonralar Osmanlı imperiyasının hakimiyyətinin mərkəzdə və yerlərdə zəifləməsi nəticəsində əmanət sistemi iltizam sistemi ilə əvəz olunur. Bu sistemə əsasən, vergilərin yığımı iltizama verilir və muqataanın gəliri xəzinə və iltizamı almış adam – mültəzim arasında bölüşdürülürdü. XVI əsrin sonlarında iltizam geniş yayılmış və artıq XVII əsrin birinci rübündə üstünlük təşkil etmişdi. İltizam sahibləri əvvəl torpaqları bir illik alırdılar. XVII əsrin sonlarında iltizam ömürlük, sonra isə irsi oldu. Mültəzimin varisi iltizamın verilməsi üçün müəyyən haqq verib müvafiq sənəd alırdı.

Məmlük bəyləri iri feodal-torpaq sahiblərinə çevrilmişdilər. Onlar öz iltizamları ilə yanaşı, otlaqlara da sahib idilər (otlaqlar bütün vergilərdən azad idi). XVII əsrdə mültəzimlər arasında türk məmurları üstünlük təşkil edir, onlardan sonra isə məmlüklər, bədəvi şeyxləri və yerli misirlilər gəlirdi. Mültəzimlərin öz inzibati aparatı, dəftərdarları, vergi yığan məmurları, himayəçiləri var idi: tədricən onlar feodal ağalarına, iltizam torpaqlarına daxil olan sahələrdə işləyən kəndlilərin sahiblərinə çevrilirdilər. Vergi yığımı işgəncələrlə, döyməklə, zülmlə müşayiət olunurdu. Mültəzim fəllahları döyə, həbs etdirə, bəzi hallarda edam da edə bilərdi. Vergi verməsdiyi halda, mültəzim onun əmlakını müsadirə edirdi. Mültəzimin icazəsi olmadan fəllah kəndi tərk edə bilməzdi, qaçanda isə onu kaşiflər tapıb geri qaytarırdı. Lakin mültəzim fəllahı torpaqdan ayrı sata bilməzdi və o, təyin olunan vergiləri ödəyirdisə, torpağı ondan almaq mümkün deyildi.

Aşağı Misirdə mültəzim «vasiya» adlanan xüsusi mülkə malik idi. Bu torpaq vergilərdən azad olunurdu və kəndlilərin məcburi əməyi hesabına becərilirdi. İltizama daxil olan qalan torpaqlar fəllahlara icarəyə verilirdi. Bu fəllah torpaqları (ard əl-fəllah) kəndin torpaqlarının 9/10-nu təşkil edirdi.

Xüsusi siyahıya daxil olan vəqflər (məscidlərə və başqa dini təşkilatlara məxsus olan torpaqlar) öz ənənəvi imtiyazlarını qoruyub saxlayırdılar. Torpaqlardan başqa, vəqfə dükanlar, dəyirmanlar, emalatxanalar da daxil idi. Vəqflər nazirlər – nəzarətçilər tərəfindən idarə olunurdu, onların başında nazir ən-nuzzar – baş nəzarətçi dayanırdı. O, Misirin baş qazisinə tabe olurdu. Rizq torpaqları da mövcud idi ki, bunları sultan adından hörmətli hərbiçilərə və məmurlara təqaüd şəklində verirdilər. Adətən, rizq sahibləri onları vergilər və müsadirələrdən qurtarmaq üçün vəqfə çevirir, özlərindən sonra varislərinə verirdilər. Tez-tez mülk sahibləri də bu cür hərəkət edirdilər. Qanuna görə, vəqfi satmaq, kimə isə vermək olmazdı, ona görə də bu torpaqların uzun müddətli icarəyə verilməsi geniş yayılmışdı.

Torpaqdan gələn gəlir feodal dövlətinin və bütün feodal sinfinin əsas gəlir mənbəyi idi. Daxili və xarici ticarətdən yığılan vergi-

lər də mühüm rol oynayırdı. Bundan başqa, sənətkarlardan, ticarət müəssisələrindən, gəmilərdən, bazarlardan, qeyri-müsəlmanlardan alınan vergilər də var idi.

Misir kəndliləri cəmiyyətin ən çoxsaylı və hüquqsuz hissəsini təşkil edirdilər. Fəllah şəxsən azad idi və hətta onun vergi mükəlləfiyyətlərini öz üzərinə götürən tapılsa, kənddən gedə də bilərdi. «Qanunnamə Mısr»a əsasən, kənddən özbaşına qaçan kəndlini tutub geri qaytarmaq lazım idi. Qanun kəndlinin torpaq sahibliyini tanıyırdı; o müəyyən edilmiş vergini ödəyirdisə, onu torpaqdan qovmaq olmazdı. Kəndli məhsulun bir qisminə yiyələnə bilərdi, Lakin onun qanunla təmin olunmuş payı yox idi.

Fəllahlara müəyyən himayəni icma təşkilatı edirdi. İcmanın başında şeyx dayanırdı, onu kaşif təyin edirdi (adətən nəsli olaraq). Şeyx inzibati hüquqlara malik idi, icma üzvlərindən kollektiv verginin yığılmasını təşkil edirdi. Öz xidmətinə görə şeyxin şəxsi mülkiyyəti sayılan və vergilərdən azad olunan torpaq sahəsi var idi. Şeyx həmçinin, fəllahlar arasında torpaq sahələrini bölüşdürürdü.

Bütün Yuxarı Misirdə və Aşağı Misirin çox yerlərində hər il yazda torpaqların yenidən bölüşdürülməsi, bəzi hallarda bərabərlik əsasında keçirilirdi. Torpaqların il boyu suvarıldığı bölgələrdə onun təkrar bölüşdürülməsi keçirilmirdi. Hər ailə öz nəsli sahəsinə malik idi. Bütün bu qaydalar adət-ənənə əsasında qurulurdu. Torpağın becərilməsi əsasən, kütləvi idi, kəndlilər sudan birgə istifadə edir, suvarma kanalları və bəndlərinin inşası və təmiri ilə məşğul olurdular. Kənd qapalı bir dünya idi, o, xarici aləmlə ancaq vergi vermək və icbari işlər yerinə yetirmək borcu ilə bağlı idi. Gündəlik həyatda isə icma öz daxili problemləri ilə bağlı olurdu. İcmalar arasında olan qapalılıq münasibətlərin kəskinləşməsinə, onlar arasında canlı toqquşmalara gətirib çıxarırdı.

Fəllahlara nisbətən daha müstəqil olan bədəvilər Nil vadisində yaşayırdılar. Bədəvi qəbilələri güclü hərbi qüvvə təşkil edir və türk məmlük hakimiyyətinə, demək olar ki, tabe olmurdular. Hərdən bədəvi şeyxləri fəllahların istismarçıları kimi çıxış edir, kəndlərə quldur yürüşləri təşkil edirdilər. Lakin bir sıra hallarda bədəvilər və fəllahlar məmlük feodallarına birgə müqavimət göstərirdilər.

Şəhər əhalisi kəndlilərə nisbətən bır qədər yaxşı vəziyyətdə idi. Şəhər sənətkarları sexlərdə (sinf-asnaf) və korporasiyalarda birləşirdi (tayfa). Asnafların başında şeyxlər dayanırdı. Şeyx vəzifəsi nəsli keçirdi, lakin sex üzvlərinin narazılığı olan halda, onu yenisi ilə əvəz etmək mümkün idi. Şeyxin hüquqları qanunla və adətlə müəyyən edilirdi. Şeyx hazır məhsula qiymət təyin edir, sex üzvlərindən vergi yığır, sifarişləri bölüşdürürdü. Dükan açmaq imkanını ancaq ustalar əldə edirdilər: hər sexin dükanlarının sayı dəqiq müəyyənləşdirilirdi. Məs: toxucu sexindən kənarda heç kim toxuculuqla məşğul ola bilməzdi. Sexə qəbul olunmaqdan əvvəl, sənətkar şagirdlik dövrü keçirdi, sonra isə qəbul vaxtı sex üzvləri üçün qonaqlıq təşkil etməli idi. Sexlər dini qardaşlıqlarla (təriqə) və türk ordusunun ocaqları ilə sıx bağlı idilər. Bir çox sənətkar orduda xidmət edir və silahlanırdı.

Tacirlər də öz təşkilatlarına malik idilər. Misir tacirləri ölkə daxilində, Osmanlı imperiyasının müxtəlif əyalətlərində, Ərəbistan, Sudan və Şimali Afrikada ticarət aparırdılar; Avropa ilə ticarət əsasən, xristianların (Avropa və Aralıq dənizi ölkələri tacirləri) və ya yəhudilərin əlində cəmləşirdi.

Sexlər və korporasiyalar şəhər həyatının bütün sahələrini əhatə edirdi. Bundan başqa, şəhərdə məhəllə təşkilatı da böyük rol oynayırdı. Qahirədə 53-ə yaxın məhəllə mövcud idi, onların da başında şeyx dayanırdı. Məhəllə sakinləri ümumi cəhətlərə – peşə, dini mənsubiyyət və s. görə birləşirdi. Bütün məhəllələrin baş şeyxi də seçilirdi. Lakin şəhərlərin özünüidarəetmə sistemi yox idi. Şəhərdə hakimiyyət türk məmurlarına və məmlük feodallarına məxsus idi.

Misir əhalisinin ən nüfuzlu qrupu – müsəlman din xadimləri idi ki, bunlar da Qahirədəki əl-Əzhər məscidi ətrafında birləşirdilər. Əl-Əzhərin nəzdində islam dünyasının elmi mərkəzi olan məşhur dini universitet yerləşirdi. Misir din xadimləri məhkəmədə də əhəmiyyətli rol oynayırdı. Ölkədə 80-ə yaxın yerli məhkəmə vardı ki, burada hakimlər (qazi) və onların müavinləri (naiblər) fəaliyyət göstərirdilər. Qazilər adətən mərkəzi İstanbul hökuməti tərəfindən göndərilirdi, naiblər isə Qahirə üləmalarından təyin edilirdi. Müsəlman

ülәmaları vәqf әmlakının gәlirindәn istifadә edirdilәr: dükanlardan, emalatxanalardan, torpaq sahәlәrindәn. Adәt-әnәnәyә әsasәn, ülәmalar tam toxunulmazlıq statusuna malik idilәr vә onlar hәbs, edam vә s. tәhlükәdәn uzaq şәxslәr hesab edilirdilәr. Bundan әlavә, onların maliyyә imtiyazı da var idi: vergi vә töycülәrdәn azad olunmuşdular.

Onların gәlir mәnbәyi olan vәqf әmlakı da vergidәn azad idi. Misir әhalisi müsәlman ülәmalarına, xüsusәn dә әl-Әzhәr şeyxlәrinә öz tәbii rәhbәrlәri vә müdafiәçilәri kimi baxırdılar.

Misir iqtisadiyyatının әsasını kәnd tәsәrrüfatı tәşkil edirdi. Suvarma sisteminin tәnәzzülü ilә әlaqәdar onun da mәhsuldarlığı aşağı düşürdü. XVII әsrdә suvarma sisteminin nizamda saxlanmasına türk-mәmlük hakimiyyәti az diqqәt yetirirdi. Bir çox torpaqlar yararsız şәklә düşürdü. Qış bitkilәrindәn buğda, noxud, soğan vә s. istehsal olunurdu. Su olan yerdә yay bitkilәri dә yetişdirilirdi. Fayyumda xurma, başqa meyvә ağacları geniş yayılmışdı.

XVI-XVII әsrlәrdә Misirdәn keçәrәk Hindistana gedәn Avropa ticarәt yolu kәsildi. Buna baxmayaraq, xarici ticarәt Misir iqtisadiyyatında vacib rol oynayırdı. Misir Yәmәnlә, Şәrqi Afrika ilә, Suriya vә Osmanlı imperiyasının başqa әyalәtlәri ilә, Mәğriblә, Avropa ilә ticarәt aparır, düyü, buğda, qәnd, xurma, dәri, parça, bitki otları ixrac edirdi. Misirә isә Yәmәndәn qәhvә, Afrikadan fil sümüyü, qul vә s. gәtirilir. Fransadan metal mәmulatı, parçalar, kağız; İngiltәrәdәn silah, parça; İtaliyadan qab, şüşә, güzgü; Suriyadan ipәk, pambıq, tütün, meyvә idxal olunurdu.

XVI әsrdә Misirdә yaranmış idarәetmә sistemi tәxminәn iki yüz il mövcud oldu. XVII әsrdәn o, sürәtlә tәnәzzülә uğramağa başladı. Türk paşasının hakimiyyәti zәiflәyir, mәmlüklәrin siyasi nüfuzu isә artırdı.

**Suriya Osmanlı dövlәtinin tәrkibindә**

1516-cı ildә Suriyanın türklәr tәrәfindәn işğalından sonra, Dağlıq Lübnan özünün idarә etmәsini vә feodal hakimlәrini saxlamışdı. Onların başçısı kimi Türkiyә Maan (1516-1697) sülalәsindәn olan I Fәxrәddini tanıdı. Suriyanın qalan әrazisi üç

vilayətə – Dəməşq, Hələb və Trablisə ayrıldı. Bunları türk paşaları idarə edirdi. 1660-cı ildə Sayda da xüsusi əyalət oldu.

Suriya ərəbləri dəfələrlə türklərə qarşı üsyanlar qaldırmışdı. Türklər əleyhinə mübarizəsinin mərkəzi Lübnan idi. I Fəxrəddin 1544-cü ildə türklər tərəfindən öldürüldü. Onun oğlu Kurkumaz da uzun illər türklərə müqavimət göstərmiş və bu mübarizədə həlak olmuşdu. I Kurkumazın oğlu II Fəxrəddin (1585-1635) tədricən bütün Lübnanı öz hakimiyyəti altında birləşdirdi. 1608-ci ildə II Fəxrəddin Florensıya ilə ticarət müqaviləsi bağladı. O, daimi ordu yaratdı və bunun üçün Toskanadan silah alındı. 1613-cü ildə əmir Lübnanı tərk etdi, çünki onun müvəffəqiyyətləri mərkəzi hökuməti şübhəyə salırdı. O, beş il İtaliyada yaşadı. Əmirliyə isə oğlu və qardaşı rəhbərlik edirdilər. 1618-ci ildə II Fəxrəddin yenidən Lübnana qayıtdı və sayı 40 minə çatmış ordusunu möhkəmlətməyə başladı. 1624-cü ildə Osmanlı dövləti onu «Ərəbistan əmiri» kimi tanıdı. Onun torpaqları Əntakiyədən Misir sərhədlərinə qədər uzanırdı.

II Fəxrəddin bütün dinlərə hörmət siyasəti yeridirdi. O özü druz idi. Yaxın köməkçisi isə maroni icmasından çıxmışdı. Xristianlar və müsəlmanlar bərabər səviyyədə onun himayəsi altında idilər. Lübnan İtaliya və Fransa ilə daimi əlaqə saxlayırdı. Əmir İtaliyadan memarlar, mühəndislər, aqronomlar dəvət etmişdi. Onun paytaxtı gözəl tikililərin bəzədiyi Beyrut idi. Onun dövründə ölkəyə Avropadan ən yaxşı mal-qara cinsləri gətirilmiş, ipəkçilik inkişaf etdirilmiş, torpaq becərilməsi təkmilləşmiş, meşə sahələri genişləndirilmişdi. II Fəxrəddin qüdrətinin çiçəklənmə dövründə onun illik gəliri 900 min qızıl funt təşkil edirdi.

II Fəxrəddinin vətənpərvər mövqeyi, qabaqcıl ideyaları ona çoxsaylı tərəfdarlar cəlb edirdi.

II Fəxrəddin Sultan hökuməti ilə müharibə istəmirdi. Ona görə də sultan xəzinəsinə vergi verirdi. Buna baxmayaraq, 1633-cü ildə sultan IV Murad Fəxrəddinlə birdəfəlik hesablaşmaq qərarına gəldi. Türklər onun torpaqlarına dənizdən və qurudan hücum etdilər. Onlar əmirin mərkəzləşdirmə siyasətindən narazı olan bir sıra nüfuzlu feodal tayfalarını da öz tərəflərinə çəkə bildilər. İki illik

döyüşlərdən sonra II Fəxrəddin əsir alındı və 1635-ci ildə edam olundu. Bundan sonra Maan sülaləsi öz nüfuzunu itirdi və 1697-ci ildə Lübnan əmiri vəzifəsi Şihab sülaləsinə keçdi (1697-1841).

Suriya və Lübnanda feodal münasibətləri Misirdəkindən daha mürəkkəb olmuşdu. Sultanın torpağa ali hakimiyyəti vassal əmirlərin ali sahibliyi ilə birləşirdi. Feodal sinfinin əsas hissəsini muqataa sahibləri təşkil edirdi (muqataaci). Onlar öz müqataa torpağından xəzinəyə vergi verirdilər və özlərinə yığılmış ümumi məbləğin 8%-ni saxlaya bilərdilər. Muqataaci imperiyaya hərbi xidmət göstərməli idi; vassal əmirliklərdə, məsələn, Lübnanda bu şərəf ancaq əmirə göstərilirdi. Suriya və Lübnanda muqataacilər imtiyazlı qapalı bir sinif təşkil edirdilər, onların mülkiyyəti irsi keçirdi. Bu irsi prinsip XVI-XVII əsrlər boyu mövcud olmuşdu. Feodal sinfinin yuxarı təbəqəsini əmirlər və şeyxlər təşkil edirdi.

Fəllahlar, adətən icarədar sifətində çıxış edirdilər, lakin onların bir qismi xüsusi kiçik torpaq sahələrinə malik idi (mülk). Suriya və Livanda təhkimçilik yox idi, ancaq kəndlilərin qeyri-bərabərlik sinfı statusu mövcud olmuşdu. Nisbətən yaxşı vəziyyətdə Dağlıq Livanın kəndliləri idi ki, onların güclü icma təşkilatı var idi. Onlar silahlı idilər və daim feodal müharibələrində iştirak edirdilər.

**İraq və Ərəbistan yarımadası**

1516-1538-ci illərdə türklər İraqı işğal etdilər. Sonra İraq sərhədlərində uzun müddət Osmanlı-Səfəvi müharibələri davam etdi. 1623-cü ildə şah I Abbas Bağdad və Mosulu tutdu. Lakin 1625-ci ildə Osmanlı dövləti Şimali İraqı Mosul ilə birlikdə geri qaytardı. Bağdad isə 1638-ci ilədək Səfəvilərin hakimiyyəti altında qaldı. 1638-ci ildə türk sultanı IV Murad Bağdadı tutdu və o, Osmanlı imperiyasının tərkibinə daxil edildi.

Müharibələr və onlarla əlaqədar dağıntılar İraq iqtisadiyyatına çox ağır zərbə vurdu. XVII əsrdə İraq əhalisi azsaylı idi. Həmin əsrin ortalarında Bağdadda cəmi 15 min nəfər adam yaşayırdı. Suvarma sistemi və onunla bağlı əkinçilik dərin tənəzzül keçirirdi. Bu zəmində ibtidai təsərrüfata malik olan köçəri və yarımköçəri ərəb tayfalarının rolu nisbətən artdı.

1517-ci ildə Həşimilər sülaləsindən olan Məkkə hökmdarı

(şərifi) könüllü olaraq özünü Osmanlı dövlətinin vassalı elan etdi. İslamın müqəddəs şəhərləri ilə birgə Hicaz imperiyanın tərkibinə daxil oldu, ancaq şərif daxili işlərdə müstəqil idi. Türklər Yəmənə də girdilər, lakin 1565-ci ildə yəmənlilər onları geri oturtdular. 1570-ci ildə daha böyük qüvvə ilə Yəmənə gələn Sinan paşa onun çox hissəsini fəth etdi. Osmanlı dövlətinin ali hakimiyyətini Şimali və Şərqi Ərəbistanın tayfa birlikləri də tanıdı. Uzun sürən və çətin müdaxiləyə məruz qalan Ərəbistanda Osmanlı imperiyasının hərbi qüdrətinin zəifləməsi hər yerdən tez özünü büruzə verdi. Yəməndə türklərlə mübarizənin başçıları ölkənin şimalında paytaxtları Sana şəhəri olan zeydi imamları oldu.

1635 və 1642-ci illərdə türk qarnizonları Yəməni tərk etdilər. XVII əsrin 70-ci illərində Şərqi Ərəbistanda bütün Hasanı ələ keçirən Bənu Xalid qəbilələrinin birliyi yarandı. Azsaylı türk qoşunları bu əyalətdən çıxmalı oldu.

Şərqi və Cənub-Şərqi Ərəbistanın bəzi rayonları (Bəhreyn, Maskat və s.) XVII əsrdən XVIII əsrin əvvəllərinədək Səfəvilərin hakimiyyəti altında olmuşlar.

## Səfəvilər dövləti

### Səfəvilər dövlətinin yaranması

Səfəvilər dövlətinin yaranması ilə bölgənin tarixində yeni bir mərhələ başladı. Onun mahiyyətini, hər şeydən öncə, buradakı dağınıq siyasi birliklərin yenidən mərkəzləşdirilməsi və güclü bir hakimiyyət altında birləşdirilməsi təşkil edirdi. Belə ki, həmin ərəfədə bölgə siyasi cəhətdən vahid və bütöv deyildi. Burada müxtəlif miqyaslı feodal dövlətləri mövcud idi. Xorasan, Əfqanıstan və Türkmənistan Teymurilər sultanı Huseyn Bayqaranın (1469-1507) dövlətinə daxil idi. 1500-ci ildə Ağqoyunlu dövləti iki hissəyə parçalandı: Diyarbəkir, Azərbaycanın Kür çayından cənubdakı torpaqlarıda sultan Əlvənd hakimiyyətdə idi, Əcəm İraqında isə sultan Murad. Farsda, Kermanda, Yəzddə və Ərəb İraqında Ağqoyunlu süləsindən olan şahzadələr hökmranlıq edirdilər. Azərbaycanın şimalında Şirvanşahlar dövləti mövcud idi. Ərdəbil bölgəsində isə Səfə-

vilər nəslindən olan şeyxlərin irsi hakimiyyəti vardı. Onlar XIV əsrdə şeyx Səfiəddin tərəfindən yaradılmış Səfəviyyə dərviş cəmiyyətinə başçılıq edirdilər.

İlk əvvəl Səfəviyyə cəmiyyəti sənətkar birlikləri və aşağı xalq təbəqələri ilə bağlı idi. Amma bir müddət sonra Səfəvi şeyxlərinin müridləri arasında feodal ünsürlər görünməyə başladılar. Cəmiyyətin banisi şeyx Səfiəddin isə kifayət qədər iri torpaq sahibinə çevrildi. XV əsrdə Səfəvilər Ərdəbil şəhərini ələ keçirməyə nail oldular. Xalq arasında nüfuz və təsirlərini qorumağa çalışan Səfəvilər şiə imamilər təriqətinə qoşuldular. Onların təsiri Azərbaycanın hüdudlarından kənarda da hiss olunurdu.

XV əsrdə türk köçəri tayfalarından şamlu və rumlu öz əyanları ilə birlikdə Səfəvilərə qoşulduqdan sonra onlar böyük hərbi qüvvəyə sahib oldular. Qeyd edək ki, şamlu və rumlu tayfaları tamamilə, ustaclu, təkəli, əfşar, qacar və zulqədər tayfalarının isə böyük bir hissəsi Səfəvilərlə birləşdilər. Onların ümumi adı qızılbaşlar idi (azərbaycan dilində bu qırmızısarıqlılar deməkdir). Fərqli əlamət kimi onlar başlarında 12 şiə imamının şərəfinə üzərində 12 qırmızı xətt olan çalmalar gəzdirirdilər. Qızılbaşlar Səfəviyyə cəmiyyətinin başçısını öz dini lideri hesab edir, özləri isə onun qoşun dəstələrini təşkil edirdilər.

XV əsrin ikinci yarısından etibarən Səfəviyyə cəmiyyəti dinc dərviş qardaşlığından döyüşkən dini-cəngavər cəmiyyətinə çevrildi. Səfəvi şeyxləri «din uğrunda müharibə» pərdəsi altında qeyri-müsəlman dövlətlərə basqınlar etməyə başladılar. Onlar Gürcüstana, çərkəzlərin yerləşdiyi ərazilərə, Trabzon çarlığına və digər ərazilərə hücumlar təşkil edirdilər.

XV əsrin sonlarında Səfəvilərin hərbi yürüşləri üçün daha münbit şərait yarandı. Bir tərəfdən şah hakimiyyətini istəyən yerli feodalların bir qismi onları dəstəkləyir, digər tərəfdən, bölgədə Osmanlı təhlükəsi hiss olunurdu və bu amil də güclü dövlətin yaranması zərurətini ortaya çıxarırdı. Şiə məsləkli Səfəvilər şiə təriqətinə olan dərin rəğbətdən öz maraqları naminə istifadə etməyə çalışırdılar. Mövcud siyasi pərakəndəlik də Səfəvilər dövlətinin yaranmasını asanlaşdırırdı.

XV əsrin sonlarında Səfəvilərin başına 14 yaşı İsmayıl keçdi. Tezliklə o, özünü cəsarətli döyüşçü və məharətli siyasətçi kimi göstərdi. 1500-1501-ci illərdə İsmayıl Səfəvilərin əski düşməni sayılan Şirvanşah ordularını darmadağın etdi. O, Bakı və Şamaxını ələ keçirdi. Lakin Şirvanşahlar dövlətini uzun müddətə tabe edə bilmədi. Daha sonra İsmayıl cənuba doğru yeridi. O, sultan Əlvənd Ağqoyunlunun ordularını məğlub etdi və 1501-ci ildə Cənubi Azərbaycanı və Təbrizi ələ keçirdi. Burada İsmail (1501-1524) özünü şah elan etdi və Səfəvilərin sülalə hakimiyyətinin əsasını qoydu (1501-1736). O, islamın şiə təriqətini dövlət dini elan etdi. Səfəvilərin fəthləri davam etdirildi. 1503-cü ildə Həmədan yaxınlığında şah I İsmayıl sultan Murad Ağqoyunlunun ordularını məğlub etdi, sultanı isə qaçmağa məcbur etdi. Bütün Əcəm İraqı Səfəvilərin əlinə keçdi. Bir qədər sonra Ağqoyunlu dövlətinin mövcudluğuna son qoyuldu. 1501-1509-cu illər arasında şah I İsmayıl Fars, Xuzistan, Kürdüstan, Gilan və Mazandaran əyalətlərini ələ keçirdi.

**Səfəvilər dövləti XVI əsrdə**

Güclü Azərbaycan Səfəvilər dövlətinin yaranması onun qonşuları tərəfindən düşmənçiliklə qarşılandı. Şərqdə Məhəmməd Şeybani xanın özbək dövləti, qərbdə isə Osmanlı dövləti narahat idi. 1507-ci ilə qədər Şeybani xan Xorasanın böyük hissəsini ələ keçirmişdi və yeni istilalara hazırlaşırdı. Onun Səfəvilərlə toqquşması artıq labüd idi. 1510-cu ildə Mərv yaxınlığında həlledici döyüş baş verdi. Şeybani xanın qoşunları ağır məğlubiyyətə uğradı. Şeybanı xan qaçdı, lakin onu yaxaladılar və qətlə yetirdilər. Amudəryaya qədər bütün Xorasan Səfəvilərin əlinə keçdi.

Səfəvilərin Osmanlı dövləti ilə mübarizəsi daha çətin və uzunmüddətli oldu. 1507-ci ildə Səfəvilər Diyarbəkir də daxil olmaqla bir sıra qonşu əraziləri ələ keçirdilər. 1508-ci ildə Bağdad və Əcəm İraqı tutuldu. Kiçik Asiyanın türk əhalisi arasında da şah I İsmayılın tərəfdarları olan şiələr çox idi və onlar bu hökmdara ümidlə baxırdılar. 1511-ci ildə Kiçik Asiyada köçərilərin və kəndlilərin şiə şüarları altında üsyanı baş verdi. Osmanlı hakim dairələri bu şüarlardan və sosial bərabərlik tələblərindən qorxdular və

üsyanı qan içində boğdular.

Osmanlı dövlətində hakimiyyətə gələn I Səlim Yavuz (1512-1520) Osmanlıların istilaçı siyasətini davam etdirmək fikrində idi. O, Ön Asiyanı fəth etmək istəyirdi. Onun Səfəvilərlə mübarizəsi sünni islamın «bidətçi» – şiələrə qarşı müdafiəsi şüarı altında gedirdi. Öz dövlətində sultan qırx min şiəni qətlə yetirdi və bundan sonra şah I İsmayılla müharibəyə başladı. Türk qoşunları güclü artilleriyaya malik idilər və bu onların qələbəsini təmin etdi. 1514-cü ildə Cənubi Azərbaycanda, Caldıran çölündə qızılbaşlar məğlub edildilər. 1516-cı ildə Qochisarda Osmanlılar daha bir döyüşdə qələbə çaldılar və Şimali İraq və Mosulu Səfəvilərdən aldılar. Amma I Səlim Cənubi Azərbaycanda və Əcəm İraqında möhkəmlənə bilmədi və bu torpaqlar yenidən Səfəvilərin əlinə keçdi.

1517-ci ildə şah I İsmayıl Şərqi Gürcüstanı ələ keçirdi. XVI əsrin birinci rübünün sonuna doğru Azərbaycan Səfəvilər dövləti artıq geniş bir əraziyə malik idi.

Səfəvilər dövlətində aparıcı etnos türklər idi. Hələ Sasanilər dövründə istifadə olunan şahənşah tituluna müraciət edilməsi də «ümumdünya monarxiyasının» başçısı kimi anlaşılırdı. Səfəvilər dövlətinin tərkibinə qeyri-fars əhalisi olan Azərbaycan, Cənubi Türkmənistan və Qərbi Əfqanıstanla yanaşı, fars əhalinin yaşadığı ərazilər də daxil idi.

Səfəvilər dövləti əsasən, Azərbaycanın köçəri türk tayfaları tərəfindən yaradılmışdı. Sarayda və orduda əsas danışıq dili Azərbaycan türkcəsi idi. Məhz köçəri azərbaycanlı feodallar (qızılbaşlar) Səfəvilər dövlətində aparıcı mövqeyə malik idilər. Onların arasından ordu başçıları, bölgə canişinləri və əsas saray əyanları təyin olunurdular. XVI əsrin ortalarında ən mühüm vəzifələri 114 qızılbaş feodal ailəsinin nümayəndələri tuturdular.

Şiəliyin dövlət dini elan edilməsinin çox mühüm nəticələri oldu. Şiəlik xalqın böyük qismi arasında çox populyar idi. Onlar bu təriqətin sünni islamına müxalif olmasını görürdülər və Səfəvi sülaləsinin hakimiyyətə gəlməsi ilə öz sosial tələblərinin təmin olunmasını düşünürdülər. Şiəliyin sünniliyə qarşı qoyulması, həm də sonuncunun Osmanlı dövlətinin rəsmi dövlət dini olması do-

layısı ilə bu dövlətə qarşı yönəlmişdi. Səfəvilər dövlətinin islam dininə etiqad edən, amma öz etnik rəngarəngliyi ilə fərqlənən əhalisini birləşdirmək üçün I İsmayıl şiəliyi geniş tətbiq edir və əhalini «şiəlik, ya da ölüm» seçimi qarşısında qoyurdu. Xristianlar – gürcülər və ermənilər öz dinlərini saxlamışdılar. Yeni şiə ruhaniləri Səfəvi sülaləsinin arxalandığı böyük qüvvəyə çevrildilər.

Azərbaycan Səfəvilər dövlətinin hakim dairələrinin arasında qızılbaş əmirləri, köçəri tayfaların hərbi əyanları, ali müsəlman (şiə) ruhaniləri və yerli oturaq feodallar aparıcı rol oynayırdılar. Əyalətlərin hakimləri, Gilan xanı, Gürcüstandakı Kartli və Kaxetiya çarları da bu qrupa daxil idilər. Əvvəlki sülalələrin dövründə güclü mövqelərə malik fars məmurlar Səfəvilərin dövründə aparıcı mövqedən kənarda qalmışdılar.

Yeni sülalənin hakimiyyətə gəlməsi ilə bağlı olaraq, torpaq fondu yeni sahibkarlar arasında yenidən bölüşdürüldü, müxtəlif torpaq mülkiyyəti formalarının nisbəti dəyişdi. Dövlət torpaqları olan divani torpaqları, şah ailəsinə aid olan xassə torpaqları və köçəri tayfalara məxsus yurd torpaqlarının nisbəti artdı. İri torpaq massivləri dövlətin sərəncamında qalırdı. Onların gəliri ordunun və inzibati-vergi aparatının təminatına xərclənirdi. Xassə torpaqları bəzən bütöv əyalətləri və mahalları əhatə edirdi. Bu torpaqların gəlirləri sarayın və şah ailəsinin təminatı üçün nəzərdə tutulmuşdu. Köçəri tayfaların torpaqları formal olaraq tayfaların sərəncamında idi, əslində isə onları əmirlər – xanlar və sultanlar idarə edirdilər. Amma əmirlər bu torpaqları sata və yaxud öz mülklərinə çevirə bilməzdilər.

Müsəlman (şiə) və xristian (Cənubi Qafqaz ölkələrində) dini təsisatları iri feodal torpaq sahibləri idilər. Məscid, mədrəsə və digər dini müəssisələrə verilən torpaqlar əvvəlki kimi vəqf torpaqları adlandırılırdılar. Bu torpaqlardan vergi toplanmırdı və əldə olunan bütün gəlirlər tamamilə dini müəssisələrin təminatına gedirdi.

Soyurqalların sayı xeyli azaldıldı. Səfəvi şahları dövlətin möhkəmləndirilməsi siyasətini tətbiq edərək soyurqalların paylanmasını tamamilə dayandırdılar. XVI əsrdə feodal torpaq payı-

nın yeni tipi – tiyul torpaqları geniş yayıldı. Tiyul dövlət torpaq fondundan müxtəlif vəzifə sahiblərinə və yaxud şəxsi xidmətə görə ömürlük və ya müvəqqəti verilirdi. Bu torpaqlar irsən keçmirdi və onun sahibinə kəndlilərdən vergi toplamağa ixtiyar verilmirdi. Tiyul torpaqlarının tətbiqi Səfəvilər dövlətinin iqta sisteminin ilkin formasında bərpasına cəhd idi.

Səfəvilər hakimiyyətinin həyata keçirdiyi bu tədbirlər feodal separatçılığını tam aradan qaldıra bilmədi. Əyalət hakimlərinin üsyan etməsi və nəticədə mərkəzdən ayrılması adi hala çevrilmişdi.

Səfəvilər dövlətinin hərbi qüvvəsini təşkil edən köçərilərin (elatlar) vəziyyəti o qədər də ağır deyildi. Sıravi köçərilərin öz əyanları ilə münasibətləri və onlara olan mükəlləfiyyətləri «qəbilə daxili yardım» pərdəsi altında həyata keçirildi. Oturaq kəndlilərin-əkinçilərin (rəiyyət) vəziyyəti qat-qat daha ağır idi. Şah I İsmayıl kəndlilərin rəğbətini qazanmaq üçün xərac vergisini məhsulun 1/6 hissəsinə qədər azaltdı. Amma bu güzəşt uzun müddət davam etmədi. Kəndlilərin ən böyük qismini şahın, dövlətin, feodalların və vəqflərin torpaqlarını becərən torpaqsız əkinçilər-icarədarlar təşkil edirdilər.

XVI əsrin ikinci yarısı üçün şəhər həyatının tənəzzülü xarakterikdir. Buna görə də, Səfəvilər hökuməti şəhər əhalisinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırılmasına cəhd etdi. Bu məqsədlə 1565-ci ildə ticarətdən, sənətkarlıqdan və şəhərdəki digər iş sahələrindən toplanan ağır tamğa vergisi ləğv edildi. Tamğanın yerinə sənətkarlardan nisbətən yüngül vergi alınmağa başlandı. Bununla yanaşı daxili, xarici və tranzit ticarət rüsumları da saxlanılırdı.

Şah I İsmayılın oğlu I Təhmasib (1524-1576) 10 yaşında taxta çıxdı. Onun dövründə qızılbaş əmirləri arasında çəkişmələr və yerli fars feodalların üsyanları başladı. İlk dövrlərdə hakimiyyət narazı feodalları bəzən torpaq və yüksək vəzifələrlə şirnikdirə bilirdi və ya zor hesabına onların üsyanlarını yatırmağa nail olurdu.

Səfəvilər zəngin və münbit torpaqları olan Xorasan uğrunda özbəklərlə arasıkəsilməyən müharibələr aparırdı. Bu bölgə tez-tez

əldən-ələ keçirdi. XVI əsrin sonuna doğru özbəklər Xorasanın ən böyük şəhərləri olan Mərv, Nişapur və Məşhədi ələ keçirdilər. XVI əsrdə Səfəvilər və Osmanlı dövləti, demək olar ki, fasiləsiz müharibə aparırdılar. Osmanlılar hücumda idilər, geridə qalmış ordu quruluşuna və primitiv hərbi texnikaya malik Səfəvilər isə müdafiə olunmağa məcbur edilmişdilər. 1514-1555-ci illərdə davam edən müharibə Amasya şəhərində bağlanan sülh müqaviləsi ilə bitdi. Müqaviləyə görə, Cənubi Qafqaz iki imperiya arasında bölüşdürüldü, – onun qərb hissəsi isə Səfəvilərdə qaldı. Osmanlılar tərəfindən daimi təhlükənin olması Səfəvi şahlarını paytaxtı Təbrizdən Qəzvinə keçirməyə məcbur etdi.

1578-ci ildə Osmanlı-Səfəvi müharibəsi yenidən başladı və bu dəfə müharibə 1590-cı ilə qədər davam etdi. Osmanlıların məqsədi Cənubi Qafqazı tutmaqdan və Volqa-Xəzər ticarət yoluna yiyələnməkdən ibarət idi. Müharibə Səfəvilər üçün uğursuz başa çatdı və onlar əlverişsiz İstanbul sülhünü bağlamalı oldular. Sülhün şərtlərinə görə, Şərqi Gürcüstan, Azərbaycan və Luristanın bir hissəsi Osmanlılara keçdi.

**XVI əsrdə xalq hərəkatları**

Şah I Təhmasib bacarıqlı hökmdar deyildi və əyanlar arasında nüfuzu yox idi. Qızılbaş əmirləri ona olan bütün hörməti itirmişdilər. Hakimiyyətinin sonuncu onilliklərində o, bir dəfə də olsa ata minməmişdi və sarayı 11 il ərzində tərk etməmişdi. Tamahkar, xəyanətkar, xırdaçı və xəsis olan şah gələn şikayətçiləri qəbul etmirdi və insanlar arasına çıxmağı sevmirdi. XVI əsrin əvvəllərində Səfəvi sülaləsinə rəğbətlə yanaşan insanlar çoxdan məyus olmuşdular. Mərkəzi hakimiyyətin zəifliyini hiss edən məmurlar qanunsuzluqlar və özbaşınalıqlar törədirdilər. Feodallar və əsasən qızılbaş əyanları kəndlilərin və şəhər kasıblarının həyatlarının və əmlaklarının əsl sahibləri idilər. 1571-ci ildə İranda vəba və aclıq başladı. Dözülməz həyata etiraz əlaməti olaraq kəndlilər və sənətkarlar üsyana qalxdılar.

1569-cu ildə Gilanda kəndlilərin üsyanı başladı. Üsyançıların sayı 18 min nəfərə çatmışdı. Onlar şah məmurlarını və qızılbaş əmirlərini qətlə yetirirdilər və ya qovurdular. Yalnız uzun və inadlı

döyüşlərdən sonra şah tərəfindən göndərilmiş nizami qoşun 1572-ci ildə bu üsyanı yatırmağa nail oldu.

1571-1573-cü illərdə 300 minlik əhaliyə malik olan Təbriz şəhərində əhali üsyana qalxdı. Bu üsyana səbəb Təbriz hakiminin əhalini sıxışdırması olmuşdu. Etiraz edənlərin başında sənətkarlar və xırda tacirlər dururdular. Pəhləvan Yari üsyanın əsas başçısına çevrildi. Hökmdarın, əsilzadələrin, seyidlərin, ruhanilərin, varlıların evləri dağıdıldı, onların ailələrinə qarşı zor işlədildi. Təbrizdə hakimiyyət iki il ərzində tamamilə üsyançıların əlində idi. Şəhər əyanları I Təhmasibdən kömək istəyirdilər. Lakin o, uzun illər məvacib almayan döyüşçülərinə inanmırdı və buna görə də danışıqlara getməyə üstünlük verdi. Şah Yusif bəy Ustaclını Təbrizin hakimi təyin etdi və ona üsyançılarla danışıqlara başlamağı tapşırdı. Yusif bəy şəhər məhəllələrinin başçıları ilə andlı müqavilə bağladı və onları şəhər əyanları ilə mübarizəni dayandırmağa nail oldu. Amma şəhərin ən kasıb təbəqələri bu müqavilədən heç də razı deyildilər və bir qədər sonra üsyanın yeni dalğası başladı.

Dövlətin yığma qoşunları evləri və məhəllələri mühasirəyə aldılar, orada gizlənən üsyançılar tutuldular. Şah I Təhmasib onlardan 150-nin edam edilməsini əmr etdi.

Təbriz əhalisini sakitləşdirmək üçün şah şəhərə geniş güzəştlər etdi. Əhali əvvəllər xəzinəyə verdiyi bütün vergi və ödənişlərdən azad edildi.

XVI əsrin 80-ci illərinin sonuna yaxın Səfəvi şahlarının hakimiyyəti yalnız formal olaraq qalırdı. Ölkədə xalq üsyanları və müxtəlif feodal qruplarının mübarizəsi gedirdi. Geniş ərazilər yadelli qoşunlar tərəfindən zəbt edilmişdi. Şimal-qərbdə Osmanlılar, Şimal-şərqdə isə özbəklər Səfəvi torpaqlarını işğal etdilər. Kənd təsərrüfatı tənəzzülə uğradı, şəhərlər tərk edildi, əkinçiliklə məşğul olan əhali var-yoxdan çıxdı. Feodal rentası və dövlət vergiləri isə yenə artırıldı.

**I Şah Abbasın daxili və xarici siyasəti**

Səfəvilər üçün ağır olan bu dövrdə iki qızılbaş əyanı taxta 17 yaşlı Abbası gətirdi. Onlar düşünürdülər ki, şahın adından özləri ölkəni istədikləri kimi idarə edəcəklər. Amma onların bütün

niyyətləri puça çıxdı. Şah I Abbas (1587-1629) bir qədər sonra qəyyumluqdan azad oldu.

1590-cı ildə şah I Abbas Osmanlı dövləti ilə əlverişsiz İstanbul sülhünü bağladı. Eyni zamanda, ölkə ərazisində feodal üsyanları səngimirdi. Bütün bunlar şah I Abbası ordunu yenidən qurmaq məcburiyyəti qarşısında qoydu. Bu vaxta kimi Səfəvi hərbi qüvvələrinin əsasını təşkil edən qəbilə qoşunlarının yerinə daimi nizami ordu yaradıldı. Bu ordunun tərkibində odlu silahla təchiz olunmuş bölmələr və artilleriya hissələri də var idi. Şah Abbasın qoşunlarının sayı 120 minə yaxın idi, bunlardan 44 mini daimi qoşun idi (ölkə əhalisindən yığılmış 12 minlik tüfəngçilər müşketyor korpusu, 10 minlik qulam-süvari qoşunu, oxatan korpusu və topçular), qalanları isə feodal hərbi birləşmələrindən ibarət idi. Bunların sırasında qızılbaşların sayı 60-80 mindən 30 minə qədər azaldıldı. Bu islahat böyük hərbi-texniki və siyasi əhəmiyyət daşıyırdı. Daimi nizami ordu kadrlarının yaradılması feodal hərbi birləşmələrinin əhəmiyyətini və qızılbaş əyanlarının hərbi-siyasi nüfuzunu azaltdı.

Nizami ordunun yaradılması şah I Abbasın xarici siyasətinə də ciddi təsir göstərdi. Osmanlılara qarşı 1603-1612 və 1616-1618-ci illərdə aparılan müharibələrdə Səfəvilər ilk dəfə hücum edir, Osmanlılar isə müdafiə olunurdular. 1612 və 1618-ci illərdə bağlanmış Sərab və Mərəng müqavilələrinə görə, Səfəvilər 1590-cı ildə itirilmiş bütün torpaqları geri aldılar. 1599-cu ildə özbəkləri məğlub edən şah I Abbas hələ 1581-ci ildə itirilmiş Xorasanın bir hissəsini və Əfqanıstanı yenidən geri qaytardı.

Şah I Abbas hələ XVI əsrin əvvəlində Hörmüz adasını ələ keçirən portuqallara qarşı uğurlu mübarizə apardı. Fars körfəzinin sahillərində yerləşən bu mühüm liman ölkəyə Avropaya ipək idxal etmək üçün lazım idi. Səfəvilər dövlətinin maraqları 1600-cü ildə ticarət məqsədləri ilə yaradılmış ingilis Ost-Hind şirkəti ilə üst-üstə düşürdü. İngilislər ipəyin alınmasında maraqlı idilər. 1620-ci ildə ingilislərin hərbi gəmiləri Portuqaliya donanmasını Cask yaxınlığında darmadağın etdi. 1623-cü ildə Ost-Hind şirkəti öz donanmasını Hörmüzü tutmaq üçün şah I Abbasın sərəncamına verdi.

Allahverdi xanın başçılığı altında olan Səfəvi qoşunları Hörmüzü ələ keçirdilər. Portuqallarla müharibədə köməyə görə Ost-Hind şirkəti Səfəvilərdən bir sıra imtiyazlar əldə etdi. Onlar gömrük rüsumu vermirdilər, gömrükdən alınan gəlirlərə şərik idilər, İsfahan, Şiraz və Bəndər Abbasda öz ticarət evlərini aca bilərdilər. İngilis Ost-Hind şirkətinin ölkəyə girməsi belə başladı.

Şah I Abbasın dövründə 1588-ci ildən etibarən Rusiya ilə mütəmadi səfirlik mübadiləsi başladı. Bu iki dövlətin dostluq münasibətləri əsasən, Osmanlı dövlətinə qarşı olan düşmənçilikdən irəli gəlirdi. Osmanlı dövləti ilə müharibəyə hazırlaşan şah I Abbas Avropa dövlətləri ilə də diplomatik münasibətlər qurmağa can atırdı. O, Fransa, Hollandiya, İspaniya krallıqları, Alman imperiyası və Roma papalığı ilə səfirlik mübadiləsi edirdi. Bir çox Avropa dövlətlərinin tacirləri, əsasən də holland tacirləri ölkədə imtiyazlara sahib oldular. Amma hələ ki, Səfəvilər dövləti Avropa dövlətlərindən asılı vəziyyətə düşməmişdi.

Şah I Abbasın hakimiyyəti illərində Səfəvilər dövləti özünün siyasi qüdrətinin və iqtisadi çiçəklənməsinin ən yüksək zirvəsinə çatdı. Onun dövründə tacir silkinin üst təbəqəsi ilə sıx bağlı olan fars mülki məmurları da qızılbaş-türklərlə bərabər dövlətdə əsas rol oynamağa başladılar. Fars feodallarının da nüfuzu artdı. XVI əsrdə əsas rola malik olan qızılbaş hərbi-köçəri əyanların nüfuzu nisbətən zəiflədi. XVI əsrin ortalarında mövcud olan 114 qızılbaş əmiri yerinə 35-i qalmışdı. Hərbi əyanların içində fars köçəri tayfalarından və əsasən, erməni və gürcülərdən təşkil olunmuş və xidmət göstərmiş qulamlardan (ən görkəmli sərkərdələrdən biri erməni Allahverdi xan idi) yeni simalar ön plana gəldilər. Şah Abbas mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışırdı. O, itaət göstərməyən bir neçə xanı və üsyan edən qızılbaş təkəli tayfasını tamamilə məhv etmək əmrini verdi. Amma o, feodal pərakəndəliyini və bundan doğan mərkəzi hakimiyyətin zəifləməsini tam aradan qaldıra bilmədi.

Oturaq farsdilli ünsürlərə arxalanması şah Abbasın daxili siyasətinin əsasını təşkil edirdi. Bu siyasətin əsasında fars dilli əhalinin yaşadığı bölgələr hesabına inkişaf etdirilməsi dururdu. Belə ki,

1612-ci ildə Osmanlı dövləti ilə uğurlu müharibədən sonra o, İsfahanı üç il ərzində vergilərdən azad etdi, XVI əsrin 70-80-ci illərdə artırılmış vergilərin ölçülərini əvvəlki səviyyəyə saldı, mal-qaraya qoyulan ağır vergini tam ləğv etdi. Vergilərin azaldılması əkinçilərin vəziyyətini yaxşılaşdırdı, dövlətin suvarmanın inkişafına olan diqqəti isə ümumilikdə, kənd təsərrüfatının inkişafına zəmin yaratdı. Eyni zamanda, ucqar bölgələrdən alınan ağır vergilər onların iqtisadi vəziyyətini daha da pisləşdirirdi.

Şah I Abbas ticarətin və sənətkarlığın inkişafına çox diqqət yetirirdi. Karvan yollarında olan qarətçi dəstələr məhv edildi, karvansaralar tikildi və yeni yollar çəkildi. Xəzər dənizi sahili boyunca 270 km uzunluğunda salınmış döşəmə yol indiyə kimi qalıbdır. Ticarətin inkişafı üçün yeni pul sistemi tətbiq edildi.

Səfəvilərin beynəlxalq ticarətdə də iştirakı artdı. İpək ticarətini tam ələ keçirmək üçün şah I Abbas Osmanlı dövlətinə gedən karvan yolları üzərində olan Culfa şəhərini tamam dağıtdı və onun əhalisini İsfahanın Yeni Culfa adlanan bölgəsinə köçürdü. Şah I Abbas nəinki ölkənin ən böyük feodalı idi, o, həm də Səfəvilər dövlətində ən böyük tacir idi.

Şah I Abbasın dövründə tikinti və inşaat işləri də geniş vüsət aldı. O, 1598-ci ildə paytaxtı Qəzvindən İsfahana köçürdü və bu şəhərdə rəngli kaşı ilə bəzədilmiş monumental binalar tikilməsini əmr etdi. Zində-rud çayı üzərində Allahverdi xanın adını daşıyan körpü inşa edildi. İsfahanın əhalisi tezliklə 600 min nəfərə çatdı.

XVII əsrdə feodal sinfinin müxtəlif qrupları arasında torpaq fondunun yenidən bölüşdürülməsi baş verdi. Şah I Abbasın mərkəzləşdirmə siyasətinin nəticəsində dövlət torpaqlarının (divani) və şah ailəsinə məxsus torpaqların (xassə) miqyası artdı. Şahın torpaqları olan xassə torpaqlarına bəzən bütöv bölgələr və mahallar, məsələn, İsfahan, Ərdəbil və bütün Gilan daxil idi. Dövlət torpaqlarından gələn gəlir ordunun və inzibati-vergi aparatının təminatı üçün, şah torpaqlarının gəliri isə sarayın və şah ailəsinin təminatı üçün istifadə olunurdu. Müsəlman dini qurumlarına aid olan torpaqların xüsusi çəkisi də artdı. Vəqf torpaqlarına kəndlərdəki torpaqlardan başqa şəhərlərin daxilində olan daşınmaz əm-

lak – evlər, dükanlar, hamamlar, karvansaralar, bazarlar da daxil idi. Onlardan gələn gəlirlər tam olaraq vergi toxunulmazlığı hüququna malik olan dini qurumların hesabına daxil olurdu.

Feodallara şərti olaraq verilən torpaqların xüsusi çəkisi azaldı. Bu şərti torpaqların ən geniş yayılmış forması, əvvəlki kimi tiyul torpaqları idi. Tiyullar nəinki köçəri əyanlara, həm də oturaq feodallara və şiə ruhanilərinə də verilirdi. Tiyulun verilməsi müəyyən vəzifə ilə bağlı idi və bu vəzifənin icrası zamanına verilirdi. Ən aşağı səviyyəli məmurlara xaməsalə verilirdi. Xaməsalə xidmət əvəzinə müəyyən bölgənin xəzinəsindən verilirdi (pul və yaxud məhsul ilə), amma həmin məmurlar bu bölgənin əhalisini idarə etmək hüququna malik deyildilər.

Bütün bu tədbirləri həyata keçirən dövlət feodalların mərkəzi hakimiyyətə tabe olmamaq meyllərinin qarşısını almağa çalışırdı. Amma köçəri tayfaların əlində hələ də geniş ərazilər cəmləşmişdi. Dövlətə aid olan torpaqların və şah ailəsinin torpaqlarının idarə edilməsi fars məmurların əlində idi. Bu, feodal qrupları daxilində onların aparıcı rola malik olmasını müəyyən etdi.

Kəndlilər icarə əsasında dövlətin, şah ailəsinin, vəqflərin və feodalların torpaqlarını becərirdilər. Məhsulun 1/2-dən 1/8-nə qədəri onlara qalırdı. Bundan başqa, kəndli özünə qalan məhsuldan dövlətə vergi verməli idi.

XVI əsrdə vergilərin ölçüləri dəyişdirildi. Şah I Abbasın hakimiyyəti illərində mərkəzi bölgələrdə bəzi vergilər ləğv olunmuş, digərləri isə azaldılmışdı. Onun xələfləri dövründə isə vergilərin ölçüləri və sayları yenidən artmağa başladı. Əsas vergi növü xərac idi və məhsulun 15-20%-ni təşkil edirdi. Bağlardan alınan vergi məhsulun 10%-ni təşkil edirdi, pambıq tarlalarından və tut ağacları əkilən bağlardan isə məhsulun 30%-i vergi olaraq alınırdı. Kəndlilər məmurların təminatı üçün töycü və fövqəladə vergilər ödəyir, ağır biyarda iştirak edirdilər. Səfəvilər dövlətinin müxtəlif bölgələrində əkinçilərin vəziyyəti fərqli idi. Mərkəzi əyalətlərdə onların durumu nisbətən yaxşı idi, ucqarlarda – qeyri-farsdilli əhalinin yaşadığı bölgələrdə (Gürcüstan, Dağıstan və s.) isə çox ağır idi. Ümumilikdə, kəndlilər dövlətin hər yerində feodal özbaşına-

lığından və istismarından əziyyət çəkirdilər.

Əmtəə-pul münasibətlərinin inkişafı kəndlilərin vəziyyətinə mənfi təsir edirdi. Vergilərin bir hissəsi pul ilə alınmağa başladı. Bu, kəndliləri sələmçilərə müraciət etməyə vadar etdi və son nəticədə onları sələmçilərdən asılı vəziyyətə saldı.

Ölkənin sosial-iqtisadi həyatında əhalinin 1/3-ni təşkil edən köçəri maldarlar çox əhəmiyyətli rol oynayırdılar. Oturaq kəndlilərə nisbətən onların vəziyyəti daha yaxşı hesab oluna bilərdi. Köçərilərdən alınan vergilərin miqdarı az idi. Belə ki, qoyunçuluqla məşğul olanlardan mal artımının və yunun 1/7-i vergi şəklində alınırdı. Tayfa quruluşu köçərilərin nisbi müdafiəsini təmin edirdi. Feodal hərbi birləşmələrində xidmət edən köçərilər hərbi qəniməttin bir hissəsini alırdılar, onların silaha malik olması isə kəndlilərdən fərqli olaraq, dövlət məmurlarının, feodalların döyüşçüləri və nökərlərindən özlərini müdafiə etməyə imkan verirdi.

Ölkədə qul ticarəti hələ də qalırdı. Qulları əsasən, Qafqazdan gətirirdilər və qonşu ölkələrə satırdılar. Əkinçilikdə, maldarlıqda və sənətkarlıqda qul əməyindən az istifadə olunurdu. XVII əsrdə quldarlıq, demək olar kı, aradan qalxdı.

Şah I Abbasın daxili və xarici siyasəti – fars məmurların da dövlət idarəçiliyinə cəlb edilməsi, vergilərin azaldılması, xarici düşmənlərlə uzunmüddətli sülh ölkədə məhsuldar qüvvələrin əhəmiyyətli şəkildə artmasına gətirdi. Genişmiqyaslı suvarma işləri aparılırdı. Yeni suvarma kanalları və quyular inşa olunur, köhnələr bərpa edilirdi. Məhz XVII əsrdə ölkədə pambıq, xaşxaş və tütün yetişdirilməsi genişləndi. Qida məhsullarına olan qiymətlər aşağı endi. İpək istehsalı ən yüksək səviyyəyə qalxdı. Qoyunların, keçilərin, atların və dəvələrin sayı artdı. Kənd təsərrüfatı məhsulları – ipək, xurma, sitrus bitkiləri, pambıq və boya ölkənin sərhədlərindən çox uzaqlara ixrac olunmağa başladı.

Təsərrüfatda dirçəlmə şəhər həyatına, sənətkarlığa və ticarətə də müsbət təsir etdi. Şəhərlərin əhalisi sürətlə artırdı. Sənətkarlığın və ticarətin əsas mərkəzləri İsfahan, Qəzvin, Şiraz, Qum, Kaşan, Yəzd, Təbriz, Ərdəbil, İrəvan və Şamaxı idi. Əvvəlki dövrlərdə də olduğu kimi ölkədə şəhər özünüidarəsi mövcud deyildi.

Amma sənətkar sexləri, tacir və ruhani korporasiyaları və şəhər məhəllələri şəhərin kələntəri tərəfindən təsdiq olunan ağsaqqallarını seçə bilərdilər. Sənətkar sexlərinin və onların başçılarının əhəmiyyəti mühüm dərəcədə artdı. Sex sənətkarın məharəti və bacarığını təsdiq edirdi, kələntər və sex ağsaqqalları sənətkarların verdiyi vergiləri və onların müəyyən mükəlləfiyyətlərin yerinə yetirilməsində iştirakını təyin edirdilər. Eyni fəaliyyət sahəsinə görə birləşən sexlər xəzinəyə öz məhsullarının bir hissəsini və yaxud onun əvəzinə pul vergisi verirdilər. Saray emalatxanalarında işləyən sənətkarlar daha imtiyazlı vəziyyətdə idilər. Onlar sifarişlə işləyirdilər və məvacib alırdılar. Şah emalatxanalarında qul əməyindən artıq istifadə olunmurdu.

Sənətkarlıq məhsulları yüksək keyfiyyəti ilə seçilirdi. Bahalı parçalar, xalçalar, dəridən, saxsıdan, çinidən hazırlanmış məmulatlar və zəngin bəzədilmiş silahlar ixrac olunurdu və ölkədən çox-çox uzaqlarda məşhur idi.

XVII əsrdə xarici ticarət də yüksək sürətlə inkişaf edirdi. Onunla yalnız farslar yox, digər xalqların nümayəndələri, o cümlədən əcnəbilər də – hollandlar, ingilislər və fransızlar məşğul olurdular. Rusiyaya müxtəlif növlü ipək parçalar (atlas, məxmər, zərxara), qoyun dərisindən kürklər, dərilər, saxsı qablar, zərgərlik məhsulları, quru meyvələr, rənglər ixrac olunurdu. Avropa dövlətlərinə ipək, dəri, çini qablar, zinət əşyaları və s. ixrac edilirdi. Hindistana qullar, tütün, şərab və atlar, Osmanlı dövlətinə isə tütün, dəmir, polad və xalçalar ixrac olunurdu. Eyni zamanda, Qərbi Avropa dövlətlərindən və Rusiyadan ölkəyə bir çox məhsullar gətirilirdi: İngiltərə, Hollandiya və Fransadan mahud, Venesiyadan güzgü, şüşə, zinət əşyaları, şərab və kağız, Rusiyadan dəmir, mis, şüşə, kağız, mum, xəzlər, araq, balıq və s.

Qərbi Avropadan gətirilən məhsullar yerli istehsal üçün hələ rəqabət yaratmırdı və onlar ölkə daxilində istehsal olunmayan məhsullar idi.

Səfəvilər dövləti feodal monarxiyası idi. Onun başında qeyri-məhdud hakimiyyətə malik olan şahənşah dururdu. Şahın yanında Ali məclis mövcud idi. Onun tərkibinə ən yüksək vəzifəli yeddi

ali əyan daxil idi: Səfəvi inzibati aparatının rəhbəri və şah möhürünün daşıyıcısı, onun müavini, ali mülki hakim, baş təşrifat məmuru, qulamların, tüfəngçilərin və topçuların komandanları.

Şah sarayının ştatı çox böyük idi. Ona ovçuların, mehtərlərin, şahin ovçularının, şirniyyatçıların, saqilərin başçıları, saray münəccimləri, saray emalatxanalarının rəhbərləri və digərləri daxil idi. Mülki, hərbi, dini və saray əyanlarının öz ştatları və dəftərxanaları mövcud idi. Bütün bu məmurlar mərkəzi dövlət aparatı sisteminə daxil idi.

Səfəvilər dövləti iki qeyri-bərabər hissəyə bölünürdü: dövlət torpaqlarının çoxluq təşkil etdiyi *divani bölgələri* və şah torpaqlarının yerləşdiyi xassə torpaqları. Divan torpaqlarının başında bəylərbəyləri dururdular. Onların vəzifələri çox zaman irsən keçirdi və həm inzibati, həm də hərbi hakimiyyəti birləşdirirdi. Şah I Abbas bəylərbəylərinin müavinləri vəzifəsinə öz adamlarını qoyurdu. Bu müavinlər paytaxta bəylərbəylərinin bütün hərəkətlərindən xəbər verirdilər. Mahalların başında bəylərbəylərindən asılı olan hakimlər dururdular. Feodal hərbi birləşmələri bölgənin başlıca hərbi qüvvələri idi.

Xassə torpaqlarına aid olan bölgələri şah tərəfindən təyin edilmiş vəzirlər və amillər idarə edirdilər. Onlar yalnız mülki hakimiyyətə malik idilər. Müsəlman şiə ruhanilərinin başında iki böyük sədr dayanırdı - bir sədr divan bölgələrinin, digəri isə xassə bölgələrinin dini başçısı idi. Onlar dini məhkəmələri və vəqf əmlakını idarə edirdilər. Böyük və kiçik rütbəli ruhanilər və yerli qazilər (dini hakimlər) onlara tabe idilər. Şahənşahlar ali ruhanilərin mövqeyi ilə hesablaşmalı idilər.

Səfəvilərin dövlət aparatı iri, şişirdilmiş, təminatı baha başa gələn bir sistem idi. Rüşvət, korrupsiya və xəzinə oğurluğu onun səciyyəvi xüsusiyyətlərindən idi. XVII əsr Səfəvilər dövlətinin tarixində ayrı-ayrı bölgələrdə müxtəlif xarakterli hərəkatların baş verməsi ilə xarakterik olmuşdur.

1624-1625-ci illərdə Qarabağda və Çuxursəd bəylərbəyliyində kəndli hərəkatı başladı. Bu hərəkat iri feodal sahibkara çevrilmiş xristian monastırlarına qarşı yönəlmişdi. Hərəkata qaçaq ra-

hib olan Məhlu baba başçılıq edirdi. O, əmlak bərəbərliyinin yaranmasına çağırırdı və bu ideyalar həm xristian, həm də müsəlman əhali tərəfindən dəstəklənirdi. Hakimiyyət üsyanı yatırmağa nail oldu. Məhlu baba həbs edildi, işgəncəyə məruz qaldı və sürgün edildi. Onun tərəfdarlarına isə divan tutuldu.

XVII əsrin əvvəlində Gürcüstan dəfələrlə Osmanlı-Səfəvi mübarizəsi meydanına çevrilmişdi. 1615-ci ildə burada Kaxetiya çarı Teymurazın başçılığı altında üsyan baş verdi. Şah I Abbas üsyanı tar-mar etdi.

1623-cü ildə Kartli bölgəsində yeni üsyan başladı. Onun başında «böyük mouravi» olan Georgi Saakadze dururdu. Georgi Saakadze kəndlilərdən və xırda feodallardan əla ordu hissələri təşkil etdi və bir neçə döyüşdə şah qoşunlarına qalib gəldi. 1624-cü ilin iyun ayında şah I Abbas böyük çətinliklə üsyançılara qalib gəldi. Gürcüstan Səfəvilərin vassalı olaraq qaldı.

Daxili bölgələrdə də üsyanlar baş verirdi. Onların ən böyüyü ölkənin əsas ipək istehsalçısı olan bölgəsində – Gilanda 1629-cu ildə baş verdi. Şah məmurları tərəfindən törədilən zorakılıq və özbaşınalıq ipək istehsal edən kəndlilərin və şəhər yoxsullarının üsyanına təkan verdi. Səfəvilərin mərkəzləşdirmə siyasətinə etiraz edən bəzi Gilan feodalları da bu üsyana qoşuldular. Üsyançıların tutduqları ərazilərdə Səfəvilər tərəfindən taxtdan salınmış yerli sülalənin xələfinin başçılığı altında hakimiyyət yarandı. O, Adil şah (Ədalətli şah) adını aldı. Adil şahın komandanlığı altında otuz min üsyançı toplanmışdı. Onlar Lahican və Rəşt şəhərlərini tutdular və xəzinəyə aid ambarları darmadağın etdilər. Bu anbarlarda aşkar olunan 60 ton taxıl kasıblar arasında bölüşdürüldü. Hər iki şəhərdə rus və avropa tacirlərinin malları da üsyançıların əlinə keçdi. Üsyanın genişlənməsindən və onun get-gedə antifeodal xarakteri almasından qorxan feodallar Adil şahı Səfəvilərə satdılar və bu da sonuncuların qələbəsini təmin etdi.

Gilanda və Cənubi Qafqazda baş verən üsyanlar Səfəvilər imperiyasının qüdrətini sarsıdırdı və bu dövlətin tərkibində olan xalqların azadlıq uğrunda mübarizəsini asanlaşdırdı.

## ƏFQANISTAN ORTA ƏSRLƏRDƏ

**Əfqanların mənşəyi**

Əfqan xalqının formalaşdığı əsas ərazilər Süleyman dağları, Qəznə-Qəndəhar və Kvetto-Pişin yaylaları sayılır. Qədimlərdə bu bölgənin əhalisi şərqi iran qrupuna aid dildə danışırdılar. Əfqanıstanın müasir dili – puştu (paşto) dili də bu qrupa daxildir. Qədim şərqi iran layı əfqanların etnogenezinin mənbəyi sayılmalıdır. Erkən mərhələlərdə baktriyalılar, saklar, sonradan isə eftalitlər bu xalqın tərkibinə daxil oldular.

Əfqanlar və Əfqanıstan haqqında Çin və Hind mənbələrində VI-VII əsrlərdən gec olmayaraq, məlumatlara rast gəlmək mümkündür. Ərəb və fars mənbələrində əfqanlar haqqında ilk məlumatlar X-XI əsrlərə aiddir. Bu mənbələrə görə Qəznədən Hindistana qədər dağlıq bölgələrin əhalisi əfqan xalqına aid edilir. Əfqan xalqının tam olaraq formalaşdığı dövrü aydınlaşdırmaq mümkün olmayıb. Əfqanların etnogenezi baxımından XI-XII əsrlər çox vacib rol oynamışlar. Belə ki, əfqan tayfalarının böyük hissəsinin genealogiyası bu dövrə aiddir və əfqan qilzay (qilci) tayfasına daxil olan xələc (xilci) türklərinin böyük hissəsinin assimilasiyası bu dövrdə baş vermişdir. Sonradan, XV-XVIII əsrlərdə əfqanlar Hind çayına qonşu olan bölgələrdə yaşayan hind tayfaları və xalqlarını assimilyasiya ediblər.

Əfqanlar özlərini puştun (və ya paxtun) adlandırırlar və Hindistanda əfqanları məhz buna görə «patan» adlandırırlar. Orta əsrlər fars və Mərkəzi Asiya mənbələrində isə bu xalqı yalnız «əfqan» (və ya «avqan») adlandırırlar.

**Əfqan tayfaları və orta əsrlərdə onların əraziləri**

Yazılı mənbələrdə «Əfqanıstan» termini etno-coğrafi mənada istifadə olunurdu və əfqan tayfalarının məskunlaşdığı əraziləri nəzərdə tuturdu. Orta əsrlərdə mövcud olmuş Əfqanıstan əraziləri müasir Əfqanıstanın əraziləri ilə üst-üstə düşmür. Əsrlər boyu əfqanların və qonşu xalqların məskunlaşma sərhədləri də dəyişirdi. XIII-XV əsrlərdə Əfqanıstanın əraziləri Süleyman dağları və onlara bitişik Qilmənd çayından Hind çayına

qədər, həmçinin Qəndəhar və Hind arasındakı bölgələri də ehtiva edirdi. XIV əsrdən etibarən əfqanların Kabil əyalətində yaşaması haqqında mənbələrdə məlumat var. Ayrı-ayrı əfqan tayfaları cənuba doğru irəliləyərək Hindistanın müxtəlif bölgələrində məskunlaşırdılar. Bəzi tayfalar isə qərbə – Kerman istiqamətində köç edirdilər.

Tayfa və qəbilələrə bölünmənin saxlanılması əfqan tarixinin vacib xüsusiyyətlərindən biridir. XVI-XVII əsrlərə aid mənbələrdə irili-xırdalı 400 əfqan tayfasının və «xelinin» (qəbilə) adı çəkilir. Bunlardan hər biri müstəqil vahid şəkildə əfqan xalqının dörd qolundan birinə daxil idilər: *sarbani, batani, qarquşti* və *karlani*. Sarbani qolu 105 tayfa və xeldən ibarət idi və onların arasında abdallar, *momandlar* və *yusufzaylar* var idi. Qarquşti qolundakı tayfalardan ən məşhuru və böyüyü *kakarlar* idi, batani qoluna isə *gilzaylar, lodilər* və *surlar* daxil idi. Karlanı qoluna Süleyman dağlarının əsasən mərkəzi və şimal hissəsində məskunlaşan 105 tayfa və xel daxil idi. Onların arasında ən məşhurları *afridilər, xattaklar, vəzirlər, orakzaylar* və digərləri idilər.

Əfqanların torpaqları Asiya qitəsinin ən əhəmiyyətli hüdudlarından birində yerləşirdi. Onlar Süleyman dağlarında mövcud olan keçidlər vasitəsilə qədimlərdən bəri Hindistan, Mərkəzi Asiya və digər dövlətlərlə ticarət aparırdılar. Türk, qur, monqol işğalçılarının dəstələri məhz bu keçidlərdən istifadə edir və əfqanları da hərbi əməliyyatlara cəlb edirdilər. Kabil və Qəndəhardan Hindistana keçən yol çox vacib ticari və strateji rola malik idi və tez-tez qonşu ölkələrin hakimləri arasında müharibələrə səbəb olurdu.

Müharibə və ticarət geniş ərazilərdə məskunlaşmış əfqan tayfalarına eyni cür təsir etmirdi. Ticarət yollarından uzaq olan tayfalar dağlıq bölgənin təbii coğrafi şəraitinə uyğun olaraq təcrid olunmuş halda yaşayırdılar. Ticarət yollarını nəzarətdə saxlayan tayfalar isə öz ərazilərindən keçən karvanlardan rüsum, bu yolların qorunması və s.-yə görə qonşu dövlətlərin hakimlərindən maddi yardım alırdılar. Hind çayının sağ axarında qışlaqlara sahib olan bəzi əfqan tayfaları Hindistan, Xorasan və Mərkəzi Asiya arasında karvan ticarətində vasitəçi rolunu oynayırdılar. Bu köçəri

tacirləri «povinda» adlandırırdılar.

**Əfqan qəbilə və tayfalarının hərbi təşkilatı və onun sosial mahiyyəti**

Süleyman dağlarının sərt iqlimi kənd təsərrüfatının inkişafını məhdudlaşdırırdı və məhz buna görə bir çox əfqan tayfasının həyatında Hindistanın feodal dövlətlərində və digər qonşu dövlətlərdə muzdlu hərbi xidmət çox böyük rol oynayırdı. Feodal hakimlər eyni qəbilə və tayfadan olan, qohumluq və ənənə ilə bir-birinə bağlı əfqanları böyük həvəslə hərbi xidmətə götürürdülər. Orta əsrlərdə əfqan köçərilərindən və dağlı əkinçilərindən ibarət dəstələr ictimai-iqtisadi cəhətdən daha yaxşı inkişaf etmiş ölkələrin feodal yığma qoşunları ilə müqayisədə bir sıra üstünlüklərə malik idilər. Onlar bu üstünlüyü ləng hərəkət edən feodal qoşunlarına qarşı döyüşlərdə dəfələrlə sübut etmişdilər.

Muzdlu xidmət, qohum tayfalarla torpaqlar və otlaqlar uğrunda müharibələr, qüdrətli qonşu dövlətlərdən qorunmaq üçün daimi hərbi hazırlıq – bütün bunlar əfqanlarda patriarxal ənənələr əsasında yaranmış hərbi quruluşun saxlanmasına xidmət edir, tayfa və xellərə bölgünü daha da möhkəmləndirirdi. Orta əsrlərdə əfqan xeli (qəbiləsi) digər bölgələrdə ibtidai icma quruluşu dövründə mövcud olmuş qəbilə quruluşundan fərqli idi. Burada kollektiv əmək və kollektiv əməyin məhsullarının icmanın ayrı-ayrı üzvləri arasında bölgüsü mövcud deyildi. Mənbələrə görə, əfqanlarda nə əkinçilikdə, nə də maldarlıqda ümumi əmək mövcud deyildi. Orta əsrlərdə əfqan tayfalarında feodal asılılığın və yadellilərin qula çevrilməsinin, məlum olan yazılı mənbələrə əsaslanaraq, müxtəlif formalarının olmasını deyə bilərik. Amma əfqanlarda torpaq üzərində kollektiv mülkiyyət mövcud idi və bu, yeni dövrdə yalnız bəzi tayfalarda dəyişikliyə uğradı. Bəzi hallarda becərilən torpaqların, malikanə sahələrinin və yaşayış məntəqələrin püşk yolu ilə dəyişdirilməsi kimi arxaik qayda nəinki ayrı-ayrı ailələr arasında, ayrı-ayrı tayfalar, xellər və hətta əfqan xalqlarının qolları arasında torpaqların, tarlaların və qəsəbələrin dəyişdirilməsi təcrübəsi mövcud idi. Amma bu qaydalarla da əldə edilmiş torpaq paylarında təsərrüfat ayrı-ayrı ailələr tərəfindən həyata keçirilirdi,

tarlaların becərilməsi isə tez-tez yadelli icarəçilərə tapşırılırdı.

Əfqan xeli orta əsrlərdə, bəzi tayfalarda isə hətta yeni dövrdə heç də keçmişin qalığı deyildi. Yəni ki, ictimai münasibətlərin sinfi mahiyyətini pərdələməyə xidmət etmirdi. Əksinə, bu, feodal quruluşu daxilində mövcud olan və erkən sinfi cəmiyyətdə yaranmış bir sosial-iqtisadi forma idi. Tarixşünaslıqda belə quruluşu patriarxal və yaxud qəbilə-patriarxal adlandırırlar.

Əfqanların təsərrüfatının qapalılığını qoruyan və yerli siyasi maraqlar çərçivəsi ilə məhdudlaşan bir çox tayfa və xelə parçalanması onlarda iri və sabit bir dövlətin yaranmasının qarşısını alırdı. Belə bir dövlət yalnız XVIII əsrdə yarandı. Tayfalar böyük və kiçik hissələrə bölünürdülər. İri abdal və gilzay tayfalarına daxil olan hissələr bəzən o qədər böyük idi ki, əslində genealoqiya, dialekt, tarixi tale və ənənələrlə bir-birinə bağlı müstəqil tayfalar təşkil edirdilər.

**Əfqanlarda feodal münasibətləri**

XVI-XVIII əsrlərdə tayfalar və onların hissələri arasındakı çoxlu fərqlərə baxmayaraq, əfqan xalqının ictimai quruluşu iki əsas istiqamətlə xarakterizə olunur. Bunlardan biri patriarxal quruluşun qorunub saxlanılması, digəri isə feodal münasibətlərin inkişafı idi. Əfqan tayfaları bir-birindən təsərrüfat fəaliyyətinin xarakterinə, coğrafi mövqelərinə, tarixi talelərinə və feodal münasibətlərinin inkişaf səviyyəsinə görə fərqlənirdilər. Onlardan bəziləri qədimlərdən bəri əkinçiliklə məşğul olur, bəziləri yalnız XVIII ikinci yarısından etibarən əkinçiliyə keçdilər, bəzi tayfalar isə hələ də köçəri-maldar olaraq qalırdılar. Dağda məskunlaşan tayfalar arasında yarımköçəri həyat tərzi sürənlər də vardı. Onlar həm əkinçilik, həm də otlaq maldarlığı ilə məşğul idilər. Bəzi tayfalar yalnız suvarma əkinçiliyi mümkün olan və qədim zamandan suvarma sistemi mövcud olan bölgələrə köçüb əkinçi olurdular, bəziləri isə süni suvarmaya ehtiyac olmayan bölgələrdə əkinçiliklə məşğul olmağa başlayırdılar.

Əfqan tayfaları arasında vassal və müttəfiq-vassal münasibətləri də mövcud idi. Bir çox hallarda daha zəif tayfalar daha güclü tayfalardan asılı idi və onların himayə və müdafiəsindən

istifadə edirdi. Vassal olan tayfalar hərbi əməliyyatlar zamanı öz himayədarlarına hərbi yardım göstərməli idilər. Bəzi hallarda vassal tayfalara ağanın sərhəd istehkamlarının və ya torpaqlarının qorunması tapşırılırdı. XVIII əsrdə əfqan tayfalarında hərbi xidmət və sərhədlərin müdafiəsi müqabilində daha zəif tayfaların daha güclü tayfalardan torpaq alması təcrübəsi saxlanılırdı. Bu torpaq mülkiyyəti forması «*mlatar*» (kömək, yardım və s.) adlanırdı və ona görə ödəmə alınmırdı. Orta əsrlərdə əfqan cəmiyyətində müharibələr zamanı tez-tez bir çox tayfalarının daxil olduğu hərbi ittifaqlar yaranırdı. Bu ittifaqlara güclü tayfalar rəhbərlik edir, zəif tayfalar isə asılı, tabe vəziyyətdə olurdular. Asılı vəziyyətdə olan müttəfiq-vassal tayfaları «xəmsəyə» adlandırırdılar və bu termin asılılığın müxtəlif səviyyələrini ifadə edirdi. Hərbi əməliyyatlar bitdikdən sonra, bir qayda olaraq, bu ittifaqlar parçalanırdı, amma bəzi hallarda yaranmış vassal-ağa münasibətləri daimi saxlanılırdı.

Əfqanlar yeni əraziləri fəth edəndə, bu torpaqlarda yaşayan əhalinin bir hissəsini sıxışdırıb çıxardırdılar, digər hissəsini isə asılı hala salırdılar. Şərqdə fəth edilmiş, əsasən hind tayfa və xalqlarından, qərbdə isə irandillilərdən (əsasən taciklərdən) ibarət olan əhaliyə həmcinin «xəmsəyə» və ya «rəiyyəti-xəmsə» (xəmsətəbəə) deyirdilər. Fəth edilmişlərin nəsilləri və əfqan torpaqlarında öz istəkləri ilə məskunlaşmış və «xəmsəyə» olmaqlarını qəbul edən digər yadellilər kənd təsərrüfatı və ya sənətkarlıqla məşğul olurdular. Maldar xəmsəyələr əsasən, coban, əkinçi xəmsəyələr isə əfqanların onlara verdikləri torpaqlarda icarəçi idilər. Xəmsəyə yaşadıqları xel və bu xelin xanları və məlikləri üçün müxtəlif mükəlləfiyyətləri həyata keçirirdilər, bundan başqa xəmsəyələrdən vergilər də alınırdı.

Xəmsəyələrdən başqa əfqan tayfalarında əsir alınmış düşmənlərdən ibarət qullar da var idi. XVIII əsrin sonunda qullar yalnız bəzi əfqan tayfalarında qalırdılar və əsasən, xanların və məliklərin mülkiyyəti idilər. Qulların sayı xəmsəyələrdən qat-qat az idi. Orta əsrlərə aid mənbələrdə əfqanların əsirləri qula çevirmələri və qul ticarətində iştirak etməsi haqqında verilən məlumatlar onların tarixinin ilk dövrlərində quldarlığın daha geniş yayılmasına

dəlalət edir.

Əfqanlarda XVI-XVII əsrlərdə mövcud olan sosial-iqtisadi münasibətlər haqqında məlumat azdır. Orta əsrlərin və yeni dövrün kəsişməsində əfqan cəmiyyətində mövcud olan sosial-iqtisadi münasibətlər haqqında bilgilərimizi aşağıdakı kimi təsvir edə bilərik.

XVII-XVIII əsrlərdə əfqan tayfalarının böyük hissəsində patriarxal-qəbilə icması tənəzzülə uğrayırdı – əvvəl mövcud olan və qan qohumluğuna əsaslanan münasibətlər öz yerini ərazi prinsipinə görə qurulmuş münasibətlərə verirdi. Kollektiv torpaq sahibkarlığı sistemi də tənəzzülə uğrayırdı və torpaq üzərində xüsusi mülkiyyət forması bərqərar olmaqda idi. Mənbələrin məlumatına görə, XVIII əsrin ikinci yarısında böyük tayfalarda (əsasən, abdali tayfasında) iri feodal torpaq mülkiyyəti yaranmağa başladı. Hind çayının sağ axarında məskunlaşmış əfqan tayfalarında xüsusi mülkiyyətin yaranmasında müsəlman ruhanilərin və «müqəddəs insanların» (seyidlər, axundzadələr) nəsillərinin təsiri çox böyük idi. «Müqəddəs insanlar»ın yararlandıqları imtiyazlar çox geniş idi (qan intiqamı ənənəsi onlara şamil edilmirdi, onların yaşadığı qəsəbələr insanların sitayiş etdikləri «məzarların» yaxınlığında idi və burada hər bir şəxs sığınacaq ala bilərdi; bu yerlərə çoxlu sayda zəvvarlar gəlirdi və s.). «Müqəddəs insanlar» əfqan tayfalarının onlara peşkəş verdiyi torpaqların («seri») tam sahibləri idilər. «Müqəddəs insanlar»ın əlində zəvvarlardan, habelə ticarətdən və sələmçilikdən gələn gəlirlər toplanırdı və onlar bu pullardan torpaqlarını genişləndirmək üçün istifadə edirdilər.

Feodalizm inkişaf etdikcə əfqan tayfalarından olan əyanların torpaq mülkiyyətləri böyüməsi və əvvəl işğal olunmuş əhalinin, daha sonra isə sadə icma üzvlərinin ağır istismarı sayəsində qüdrəti və var-dövləti artırdı. Əfqan tayfalarının ərazisində yaşayan və istismar olunan asılı əhalinin (rəiyyəti-xəmsəyə) sayı artırdı. Bununla yanaşı, bir sıra hallarda (məsələn, yusufzaylarda) əfqan tayfalarının əyanları öz tayfa üzvləri üzərində heç bir hakimiyyətə malik deyildilər və onlardan vergi yığmırdılar, amma xəmsəyələrlə bağlı (yusufzaylarda «fakir» adlandırırdılar) geniş hüquqlara malik

idilər. Xanlar və məliklər fakirlərdən vergi toplayırdılar və onları, biyarda iştirak etməyə məcbur edirdilər, hər bir xəmsəyə döyüşçüsünün hərbi qənimətindən bir hissəyə sahib idilər.

Abdali və qilzaylar kimi iri tayfalarda tayfadaxili hakimiyyət xan nəslinin («xan-el») nümayəndələri arasında irsən ötürülürdü. Amma əfqan tayfalarının böyük hissəsində xan hakimiyyətinin irsən keçməsi qaydası təsis edilməmişdi. XVI əsrdə və XVII əsrin əvvəlində yaşamış Axund Dərvəzin verdiyi məlumata görə, onun dövründə əfqan tayfaları qədim əcdadlarının ənənələrini saxlayırdılar və əfqanlarda «varlı olmasa da, böyük gücə və hərbi istedada malik» hər bir kəs padşah və yaxud xan ola bilərdi. Bu, əsasən Axund Dərvəzin aralarında yaşadığı şərqi əfqanlara aid idi və onların daxilində də bütün tayfalara şamil edilə bilməzdi. Məsələn, xattak tayfasında o dövrdə zadəgan sülaləsi tərəfindən idarə olunan feodal əmirlik mövcud idi. Amma şərqi əfqanların bir çox tayfasında ənənəvi özünüidarə forması – çorgə (ağsaqqallar şurası, tayfa və yaxud qəbilə şurası, yığıncaq və s. mənaları ifadə edir) hələ də saxlanılırdı. Çorgə məhkəmə hakimiyyətinə malik idi, xanlar isə müvəqqəti baş komandan vəzifəsini daşıyırdılar. Xanların bu vəzifəni əldə etməsi onların nüfuzundan, bacarığından və hərbi işdə uğurlarından asılı idi.

Feodallaşmanın növbəti mərhələlərində çorgənin xarakteri dəyişdi və bu orqanın rolu əfqan tayfalarının böyük hissəsində zəiflədi. XVIII əsrdə abdali tayfasında çorgələr xanların yanında Məşvərət Şurasına çevrildilər. Bundan başqa, çorgə məhkəmə funksiyalarını, demək olar ki, tam şəkildə xana təhvil verdi və ikinci dərəcəli cinayət işləri ilə məşğul olmağa başladı. Əfqanların digər qanunları, adətləri və ənənələri də dəyişikliyə uğradı: ictimai xərclər üçün tayfanın sıravi üzvündən alınan töycülər xanlar və məliklərin xeyrinə yığılan vergilərə çevrildi.

**Rövşənilərin xalq hərəkatı**

Feodalizmin inkişafı ilə əfqan tayfalarında sosial ziddiyyətlər artır, həm yadelli işğalçılara qarşı, həm də əfqan əyanlarına və ruhanilərə qarşı hərəkatlar yaranırdı. Orta əsrlərdə digər yerlərdə olduğu kimi əfqanlarda da bu hərəkatlar müxtəlif təriqətlərin dini bayraqları altında

baş verirdi.

Orta əsrlərdə əfqanların yaşadığı dağlıq ərazilərdə dəfələrlə təriqətçi hərəkatlar olmuşdu. Bu əvvəlcə xaricilər hərəkatı, daha sonra isə ismayillilər hərəkatı formasında baş vermişdi. Sonralar əfqan tayfalarının mütləq əksəriyyəti arasında sünni məzhəbi yayıldı. Amma ismayillilər və digər «şiə» hərəkatları son dövrlərə qədər əfqan tayfaları arasında mövcud olmuşdu.

XVI əsrdə Hindistanda, Xorasanda və Mərkəzi Asiyada mövcud olan müxtəlif təriqətlərin, o cümlədən ismayillilərin təsiri altında banisi Bəyazid Ənsari olan rövşənilər təriqəti yarandı. Bu təriqət XVI əsrin 60-cı illərindən – XVII əsrin 30-cu illərinə qədər Hindistan padşahlarının hakimiyyətinə, habelə əfqan əyanlarına və sünni ruhanilərə qarşı olan kütləvi xalq hərəkatına başçılıq edirdi. Bəyazid Ənsarinin (1525-1572/73) tərcümeyi-halından məlum olur ki, o, cavan yaşlarında ismayili olan molla Süleymanla görüşürdü və bu molla rövşənilər təriqətinin yaradıcısının dini baxışlarına çox ciddi təsir etmişdi. Onun baxışları haqqında əsasən rövşənilərin rəqiblərinin yazdıqlarından məlumat almaq olurdu. Buna səbəb, Bəyazid Ənsarinin son vaxtlar aşkar olunmuş əsərlərinin elmi dövriyyəyə yenicə girməsidir. Bəyazid Ənsari puştun dilində qafiyəli nəsrlə «Xeyr əl-bəyan» («İlahi xəbər») dini traktatını yazmışdır. Bu əsər müəllifin Allahla dialoqu şəklində yazılıbdır.

Ortodoksal islamı müdafiə edənlər Bəyazid Ənsarini və onun tərəfdarlarını kafir elan edirdilər. Onları nəinki islam ayinlərini yerinə yetirməməkdə, həm də moizələrini «qara camaata» oxumaqla, heç bir əsil-nəcabətə hörmət etməməkdə və şeyxlərin hakimiyyətinin irsən keçməsinə qarşı olmaqda ittiham edirdilər. Bəyazid Ənsarinin Allah haqqında təsəvvüründə panteist cizgilər özünü göstərirdi. O, öz təlimində ilahi başlanğıcın hər yerdə olmasını, Allahın insanlara yaxın olmasını, insanların sinif və digər mənsubiyyətindən asılı olmayaraq, Allahın qarşısında bərabər olmasını, rövşənilərə qoşulanların nicata qovuşacağını bəyan edirdi. Tədqiqatçılar hesab edirlər ki, Bəyazid Ənsarinin təliminə xas olan sufi mövzuları induizmdən aldıqları ruhların köçməsi haqda inam ilə birləşirdi. O, elan edirdi ki, «kamil rəhbərlər» («pirlər»),

ilk növbədə, özü Allahın yerdə mücəssəməsidir. Rövşənilər təriqətinin adı «pir-i rövşən» («işıq ağsaqqalı» və ya «işıq rəhbəri») sözündən əmələ gəlmişdi. Rövşəni tərəfdarları Bəyazid Ənsarini məhz belə adlandırırdılar.

Rövşənilərin başçılıq etdiyi xalq hərəkatında icma torpaqlarını ələ keçirməyə çalışan *feodallaşmaqda olan əfqan tayfa əyanlarına* qarşı əfqanların mübarizəsi və Baburun dövründən bəri əfqan torpaqlarının böyük hissəsinə yiyələnmiş hind padşahlarına qarşı mübarizə çulğalanmışdı. XVI əsrin 60-cı illərində Bəyazid Ənsarinin başçılığı altında əfqan xalqı hind padşahlarına qarşı mübarizəyə başladılar. Onun ölümündən sonra oğulları və nəvələri bu hərəkata başçılıq edirdilər. Bəzən rövşənilər bir çox əfqan tayfasını öz arxalarınca apara bilirdilər. Lakin tayfalar arasında mövcud olan ziddiyyətlər, bir qayda olaraq, onların tam və möhkəm birliyinin yaranmasına mane olurdu.

XVI əsrin 80-90-cı illərində Bəyazid Ənsarinin kiçik oğlu Cəlaləddin (1600-cü və ya 1601-ci ildə Qəznə yaxınlığında öldürülmüşdür) rövşənilərin başçısı oldu. Rövşənilərin başçılıq etdiyi hərəkatı yatırmağa çalışan Əkbər şahın sərkərdələri buna nail ola bilmədilər. Sonradan rövşənilərin başçılığına Bəyazid Ənsarinin nəvəsi Əhdad keçdi. Onun gözəlliyi və güclü xasiyyəti ilə seçilən arvadı Bibi Alayi də hərəkatda fəal iştirak edirdi.

1630-cu ildə əfqan tayfalarının böyük hissəsinin üsyana qoşulması rövşənilərin padşah hakimiyyətinə qarşı silahlı mübarizəsini daha da genişləndirdi. Amma XVII əsrin 30-cu illərinin sonuna doğru Böyük Moğol hökuməti üsyanı yatıra bildi və hərəkatı zəiflətdi. Hökumət üsyan rəhbərlərini satın almağa başladı, üsyandan imtina edənləri xidmətə alıb, onlara əfqan ərazilərindən uzaqda yerləşən cəgirlər verdi. XVII əsrin 30-cu illərinin sonlarından etibarən 70 ildən çox davam edən rövşənilər hərəkatı səngiməyə başladı.

Rövşənilər hərəkatı əfqan xalqı tarixinin ən parlaq və dramatik *səhifələrindən biridir. Bəyazid Ənsarinin və onun tərəfdarlarının* əsərlərinin ortodaksal müsəlman ruhaniləri tərəfindən bidətçi elan edilməsinə və qadağan olunmasına baxmayaraq, bu hərəkat

əfqan cəmiyyətinin və mədəniyyətinin sonrakı inkişafına böyük təsir göstərmişdir. İstedadlı yazıçı olan Bəyazid Ənsari əfqan xalqının mədəniyyətinə böyük töhfələr vermişdir. İlahiyyata aid əsərlərdən başqa o, fars və puştu dilində şerlərdən ibarət böyük avtobioqrafik əsərin müəllifidir. Bəyazid Ənsari əfqanların arasında yazının yayılmasına çalışırdı. O, istedadlı bir musiqiçi idi və əfqan musiqisinin inkişafına da ciddi təsir göstərmişdir.

Bəyazid Ənsarinin, onun şagirdləri və tərəfdarlarının əsərləri əfqan ədəbiyyatı tarixində böyük iz qoymuşdur. Bəyazid Ənsarinin şagirdi molla Ərzani rövşənilərin rəhbərlərindən biri idi və öz mürşüdinin fikirlərini təbliğ edirdi. XVII əsrdə Bəyazid Ənsarinin nəvəsi şair Mirzə xan Ənsari məşhurlaşdı. Onun yaradıcılığı XVII əsr əfqan nəzminin klassik irsinə daxildir, indi də Əfqanıstanda qiymətləndirilir və sevilir.

**Əfqan əmirlikləri**

Əfqan əmirlikləri haqqında yazılı mənbələrdə ilk məlumat XIII əsrə aiddir (Seyfinin Herat əmiri I Şəmsəddin Kurtun Əfqanıstana yürüşü haqqında məlumatından). Bu dövrdə Əfqanıstanın böyük hissəsində hakimiyyət «böyük məliklərin» əlində idi. Onlar Mastunq və Kvetto-Pişin dağlığında yerləşən bir sıra bölgələrin və qalaların sahibləri idilər. XVIII əsrin ortalarında bu əmirliyin başında monqollara boyun əyməyən Şahənşah dururdu. Seyfi iddia edirdi ki, Şahənşahın və onun sələflərinin hakimiyyəti dövründə «Əfqanıstanın bütün bölgələri» bu əmirlik tərəfindən idarə olunur, bütün əfqan tayfa başçıları – məliklər, pəhləvanlar və muxtarlar ondan asılı idilər. Seyfinin məlumatlarına görə, bu dövrdə məliklərin hakimiyyəti altında olan torpaqlardan başqa azad icmalar («camahir») da mövcud olmuşdur. Tiraxda yerləşən qalalar isə heç bir padşaha vergi vermirdi. Eyni mənbə öz çorgələri tərəfindən idarə olunan azad əfqan tayfaları haqqında da məlumat verir.

XVI əsrdə Əkbər şahın himayəsi nəticəsində xattak ərazilərində yerləşən əmirliklər gücləndi. 1586-cı ildə Attokdan Peşəvara qədər olan yolu qorumağı Əkbər şah məlik Akkoraya tapşırdı, ticarət rüsumlarını öz xeyrinə yığmağa icazə verdi. Əkbər şah Attokdan Nauşerə qədər olan ərazini çəgir olaraq bu məlikə verdi.

Xattak tayfalarına başçılar təyin etmək üçün investituranı əldə edən Akkoray soydaşları üzərində hakimiyyəti ələ aldı və onlardan vergi toplamağa başladı. Məlik Akkorayın oğlu Yəhya xan və nəvəsi Şahbaz xan Attokdan Nauşerə qədər olan ticarət yolunun müdafiəsinə görə Böyük Moğol padşahlarından investitura və torpaq payları alırdılar. Şahbaz xanın 1641-ci ildə vəfatından sonra padşah olan Şah Cahan onun oğlu Xuşxal xanı (1613-1689) xattakların hakimi kimi tanıdı. Xuşxal xanın hakimiyyəti dövründə torpaq kadastrı tərtib olundu: torpaq sahələri ölçüldü, hər bir ailəyə üzvlərinin sayına uyğun olaraq əkin sahəsi verildi, bütün ailələr dövlət qeydiyyatına daxil edildilər.

Padşah Övrəngzəbin hakimiyyətə gəlməsindən sonra Xuşxal xan qeyri-loyallıqda ittiham olundu, 1664-cü ildə Peşavarın canişini tərəfindən əsir alındı və qandallanaraq Qvaliur qalasına aparıldı. Yalnız 1668-cü ildə o, vətəninə qayıda bidi. Əfqan tayfaları artıq padşah Övrəngzəbin istilaçı siyasətinə qarşı mübarizəyə qalxmışdılar.

1672-1675-ci illərdə üsyana əfqan tayfalarının böyük bir hissəsi qoşuldu. Üsyana Xuşxal xan və afridilərin hakimləri Aymal xan və Dariyyə xan başçılıq edirdilər. 1674-cü ildə əfqanlar Nauşera qalasını ələ keçirdilər. Böyük Moğol padşahı Övrəngzəb hərbi əməliyyatlara bilavasitə başçılıq etmək üçün döyüşlərin keçdiyi bölgəyə gəldi. O, Ravalpindi mahalında yerləşən Həsən-Abdalı özünün müvəqqəti iqamətgahı seçdi və iki il ərzində paytaxtına qayıtmadı. Amma nə padşahın döyüş bölgəsinə gəlməsi, nə də ki, orada çox sayda qoşunun toplanması Böyük Moğollara hərbi uğur gətirmədi. Hərbi gücünün zəifliyini görən padşah Övrəngzəb qiymətli hədiyyələr vasitəsi ilə 1675-ci ilin sonuna doğru öz dövlətinin şimal-qərb sərhədlərində mövcud olan vəziyyəti bir qədər düzəldə bildi. O, bəxşişlər sistemindən istifadə etdi. Əfqan tayfalarının başçılarına hədiyyələr və çəgirlər paylayır, ona tabe olanlara isə öz ordusunda vəzifələr verirdi. Padşah tərəfindən 1677-ci ildə Kabilin hakimi təyin olunmuş Əmir xan əfqan tayfalarının başçıları arasında nifaq salır və tayfalar arasında olan ziddiyətləri qızışdırırdı. Bu yolla o, üsyançıların sıralarını parçaladı,

bir-birinin ardınca əfqan tayfaları və onların başçıları mübazidən əl çəkdilər. Yalnız 1689-cu ildə vəfat edən Xuşxal xan həyatının sonuna qədər tabe olmaqdan imtina edirdi. O, bir əfqan tayfasının ərazisindən digərinin ərazisinə gələrək onları birliyə və birgə hərəkətə çağırırdı. Xuşxal xan öz xalqının müstəqilliyi uğrunda həm qılınc, həm də qələm vasitəsi ilə mübarizə aparırdı. O, dövrünün ən məşhur şairlərindən biri idi.

Xuşxal xandan sonra xattak əmirliyini idarə edən xələfləri özlərini Böyük Moğol padşahlarından vassallıqlarını qəbul etdilər. Amma artıq padşah Övrəngzəb dövründə tənəzzül etməyə başlayan Böyük Moğol dövləti onun vəfatından sonra zəifləməkdə idi və əfqanların müstəqilliyi üçün təhlükə yaratmaq iqtidarında deyildi. XVI əsr – XVII əsrin əvvəllərində rövşəni təriqətinin başçılıq etdiyi xalq hərəkatı və XVII əsrin 70-ci illərində baş verən üsyanın nəticəsində əfqanlar Böyük Moğolların hakimiyyətindən tam qurtulmasalar da, bu hadisələr əfqan xalqının gələcəkdə vahid bir dövlətdə birləşməsi üçün zəmin yaratdı. Hind çayının axarı boyunca yaşayan əfqan tayfaları hələ də pərakəndə idilər. Əfqan dövlətçiliyinin yarandığı bölgə əfqan tayfalarının məskunlaşdığı şərq torpaqları deyil, qərbdə yerləşən torpaqlar oldu. Burada XVII əsrin ikinci yarısında abdali və qilzay tayfaları xeyli güclənmişdilər.

Gilzay və abdali tayfa birliklərinə daxil olan tayfaların böyük bir qisminin XVI-XVII əsrlərdəki siyasi tarixi Qəndəhar şəhəri ilə bağlıdır. XVI əsrdə Heratı ələ keçirən Səfəvilər, uzun onilliklər boyu Qəndəhar uğrunda Böyük Moğollarla mübarizə aparırdılar. Bu bölgə tez-tez əldən-ələ keçirdi. Ancaq XVII əsrin ortalarında Səfəvilər buranı tutdular və uzun müddət öz əllərində saxladılar. Moğollar və Səfəvilər arasında Qəndəhar uğrunda mübarizədə gilzay və abdali tayfalarının başçıları gah bu, gah da digər tərəfə kömək edirdilər. XVI əsrin sonunda abdalların Qəndəhar ətrafında yaşayan popolzay tayfasının başçısı məlik Sado oldu. O, Səfəvilərin tərəfində idi və şah I Abbasın xüsusi rəğbətini qazanmışdı. Şah I Abbas məlik Sadoya «mir-i afaqani» («əfqanların hakimi») titulunu verdi və Heratdan Qəndəhara qədər uzanan yolun müdafiəsini ona tapşırdı. Sonradan Sadonun əsasını qoyduğu

Sadozaylar nəsli abdalların xan-xeli oldu. Bu nəslin nümayəndələri bir sıra imtiyazlara malik idilər, məsələn, qan qisası ənənəsi onlara aid edilə bilməzdi.

XVII əsrin ortalarından etibarən abdali və gilzay tayfaları torpaqlarının böyük bir qismi uzun müddətə Səfəvilərin maraq dairəsinə daxil oldu. Səfəvi canişinləri Qəndəharda yaşayırdılar və bölgənin müxtəlif şəhərlərində yerləşdirilmiş Səfəvi qarnizonlarının gücünə arxalanaraq, buranı idarə edirdilər. Əfqanlar üzərində hakimiyyəti gücləndirmək üçün onlar gilzay və abdali tayfaları arasında olan ziddiyyətləri qızışdırırdılar. Bəzi əfqan əyanlarını isə rütbələr, torpaq və bəxşiş müqabilində hərbi xidmətə cəlb edirdilər. Bütün bunlara rəğmən, Səfəvilərin əfqanlar üzərindəki ağalığı çox da möhkəm deyildi. XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvilərin şərq əyalətlərində əfqanların da iştirak etdiyi bir sıra xalq çıxışları baş verdi. Sünni çoxluğun yaşadığı ərazilərdə şiə olan Səfəvi feodallarının istismarı daha güclü idi. 1704-cü ildə Qəndəharın canişini təyin edilmiş Qurqen xanın (bundan əvvəl XI Qeorqi adı altında Kartli çarı) hərəkətləri əfqanların etirazına, daha sonra isə üsyana səbəb oldu. Üsyanın başında Mir Veys dururdu. Mir Veys gilzayların xan-xelindən olub, çox nüfuzlu bir şəxs idi, Qəndəharın kələntəri vəzifəsini tuturdu və Hindistanla ticarətdən böyük var-dövlət qazanmışdı. O, üsyana əsaslı sürətdə hazırlaşırdı və bir neçə dəfə corgəni çağırmışdı. Corgədə nəinki gilzay tayfalarının başçıları, abdalların, digər əfqan tayfalarının və hətta belucilərin də tayfa başçıları iştirak edirdilər. Corgə Səfəvi canişini Qurqen xanın öldürülməsi və Qəndəharın ələ keçirilməsi ilə bağlı qərar verdi.

1709-cu ilin aprelində üsyançılar Qurqen xanın düşərgəsinə hücum etdilər, döyüşçülərini və özünü qətlə yetirdilər. Qəndəharda Mir Veysin başçılığı altında qilzay əmirliyinin əsası qoyuldu. 1711-ci ildə Səfəvi qoşunun hücumunu dəf edəndən sonra Mir Veys daha bir neçə il (o, 1715-ci ildə vəfat etdi) müstəqil bir hakim kimi bu əmirliyi idarə etdi. Tarixdə və xalq əsatirlərində Mir Veys əfqan xalqının müstəqilliyi uğrunda mübarizə aparan bir başçı kimi yaddaşlarda qaldı. Onun və xələflərinin dövründə

Qəndəhar əfqan mədəniyyətinin mərkəzinə çevrildi. Xələfi Hüseynin (1725-1738) sarayında alimlər və şairlər yaşayıb yaradırdılar. Şərqdə yaşayan əfqan tayfaları ilə münasibətlər yaradıldı və şair Əbdürrəhmanın (Rəhman baba) şer divanının köçürülməsi üçün Pişəvara xüsusi heyət göndərildi.

Gilzaylardan sonra 1716-cı ildə Heratda üsyan qaldırmış abdali tayfaları da müstəqilliklərinə qovuşdular. Bu şəhər Sadozay nəslindən olan abdali xanlarının müstəqil ərazilərinin mərkəzinə çevrildi. Dövlət qurumunun ilk hakimi Abdullah xan idi. O, 1719-cu ildə Səfəvi hücumlarını dəf etdi, lakin qilzay tayfaları ilə Farax şəhəri uğrunda baş vermiş qanlı müharibədə məğlub oldu.

Lakin gilzay və abdali tayfaları arasında bitməyən nifaq Nadir şaha qarşı əfqan əmirliklərinin birgə mübarizəsi üçün imkan vermədi. 1729-cu ildə Nadir şah Herat abdallarını məğlub etdi və şəhəri mühasirəyə aldı. Şəhər tezliklə Səfəvilərin əlinə keçdi. 1737-ci ildə Nadir şah Hindistana qarşı yürüşə çıxdı və Qəndəharı mühasirəyə aldı. Uzun müddətli mühasirədən sonra 1738-ci ilin martında şəhər ələ keçirildi və dağıdıldı. 29 il mövcud olmuş qilzay əmirliyinin varlığına son qoyuldu.

**Dürrani dövlətinin yaranması**

Feodal əmirliklərinin yaranması onu göstərirdi ki, ölkədə vahid dövlətin yaranması üçün münbit sosial-iqtisadi şərait artıq formalaşmışdır. Amma gilzay və abdalilərin əmirliyi uzun yaşamadı. Qəndəharın alınmasından sonra Qəznə, Kabil, Cəlilabad və Pişəvarı tutan Nadir şah əfqanların yaşadıqları torpaqların böyük hissəsini öz dövlətinə qatdı. O, əfqan tayfalarına qarşı fərqli siyasət yürüdürdü. Nadir şah ancaq arxalana biləcəyi tayfaların döyüşçülərini öz ordusunun sıralarına alırdı, özünə təhlükə hesab etdiyi tayfalara (söhbət əsasən qərbi gilzaylardan gedir) qarşı isə sərt tədbirlər həyata keçirirdi. O, Qəndəhardakı müstəqil hakimlərin tərəfdarları olan xottak tayfasını Xorasana köçürmüş, onların ərazilərini isə daha çox güvəndiyi abdali tayfalarına vermişdi.

Əfqanıstanın zəbt olunmuş əyalətlərinə Nadir şah tez-tez əfqan xanlarını təyin edirdi. Bunlar bir qayda olaraq, onun himayə etdiyi və gilzayların hesabına güclənmələrinə çalışdığı abdali tay-

falarından olurdular. Nadir şah onlara Qəndəhar vahəsində tacik kəndliləri tərəfindən becərilən münbit torpaqlar vermişdi. Kadastrlar tərtib olunmuş, ölçülmüş torpaqlar sahələrə bölünərək çəgir kimi abdali tayfalarına verilmişdi. Bunun müqabilində onlar hər sahədən iki süvarinin şah ordusuna göndərilməsini təmin etməli idilər. Ümumilikdə isə, bu torpaqlardan şah ordusuna 6 min suvari dəstəsi göndərilməli idi.

Əfqan dövləti Nadir şahın ölümündən sonra dağılmış dövlətin xarabalığında meydana gəldi. Əfqan tayfaları faktiki müstəqil oldular. Onların siyasi birliyə can atması və müstəqillik uğrunda mübarizəsi abdali tayfa əyanlarının başçılığı altında dövlət birliyinin yaranmasına gətirdi. Hadisələrin bu məcrada inkişaf etməsinə hələ Nadir şahın hakimiyyəti illərində gilzayların hesabına abdali tayfalarının güclənməsi xeyli dərəcədə təsir göstərmişdi.

Nadir şahın öldürülməsindən sonra onun düşərgəsindəki çaxnaşmalar zamanı əfqan dəstələrinin başında Nadirə xidmət edən Sadozay nəslindən olan abdali sərkərdələrindən biri Əhməd şah dururdu. Onun diribaşlığı və çevikliyi sayəsində əfqan dəstələri, demək olar ki, itkisiz vətənə döndülər. Nadir şahın artilleriyasını və xəzinəsinin bir hissəsini ələ keçirmiş Əhməd şah 1747-ci ilin payızında gələcək əfqan dövlətinin hərbi gücünün özəyini təşkil edən dəstələri Qəndəhara gətirdi. Həmin ilin oktyabrında əsasən nüfuzlu abdali xanlarından təşkil olunan corgənin toplantısında Əhməd xan Əfqanıstanın şahı (1747-1773) elan olundu.

Əfqan dövlətində əsas yeri önəmli saray və hərbi vəzifələrə yiyələnən və onları ailə üzvlərinə irsən ötürən abdali xanları tutdular. Əhməd şah abdali tayfalarının hamısına indiyə kimi də istifadə olunan «dürrani» («*dürr*» – «mirvari») fəxri adı verdi. «Abdali» adı isə tədricən istifadədən çıxdı və yalnız tarixi ad kimi qaldı. Ölkənin siyasi həyatında dürrani xanlarının rolu, onların arxalandığı dürrani tayfalarının imtiyazlı mövqeyi, sülalənin təməlinin qoyulması şərtləri və s. – bütün bunlar Əhməd şahın və onun varislərinin dövlətini Dürrani dövləti adlandırmağa əsas verirdi.

# SƏHRAALTI AFRİKA ORTA ƏSRLƏRDƏ

**Xarici təsirlər və daxili miqrasiya**

Səhraaltı Afrika xalqlarının orta əsrlər tarixi qitənin Şimalından fərqli tərzdə formalaşmışdır. Hələ qədim zamanlardan Afrikanın şimal bölgəsini Aralıq dənizi və Yaxın Şərq xalqları ilə iqtisadi, siyasi, dini və mədəni tellər bağlayırdı. Onlardan fərqli olaraq, səhra zolağından cənubda yerləşən ərazilər xarici təsirə az məruz qalmışdılar. Bunu xüsusən də qitənin digərlərindən daha çox təcrid olunmuş mərkəzi bölgələrinə aid etmək olar.

Orta əsrlərdə Səhraaltı Afrika ərəb istilasına məruz qalmış Şimaldan fərqli olaraq, genişmiqyaslı xarici müdaxilə ilə üzləşməmişdir. Lakin orada böyük daxili miqrasiya prosesləri baş verirdi ki, bunların iştirakçıları həm maldarlıq, həm də əkinçiliklə məşğul olan xalqlar idilər. Bura indiki Cənubi Nigeriya və Kamerun ərazilərində əvvəllər məskunlaşan bantudilli xalqların bütövlükdə Mərkəzi, Şərqi və Cənubi Afrikada kütləvi şəkildə yerləşməsini, Şərqi Afrikadakı maldarlıqla məşğul olan nilot xalqının cənuba köçünü, şimal-şərqdən gələn köçəri fulbe xalqının Qərbi Afrikada məskunlaşmasını aid etmək olar.

Bundan başqa, regionun etnik xəritəsinə Asiyanın müxtəlif bölgələrindən dinc məqsədlərlə köç edənlər də müəyyən təsir göstərmişlər. Belə ki, Şərqi Afrikanın sahil rayonlarına Ərəbistan, Körfəz və Hindistan əsillilərin, Qərbi Afrikaya isə ticarət yolları vasitəsi ilə ərəb dilini və islamı gətirən ərəblərin gəlməsi baş vermişdir.

Səhraalti Afrikanın taleyində Böyük coğrafi kəşflərin müstəsna təsiri olmuşdur. Bu, avropalıların qitənin sahilboyu bölgələrinə müdaxiləsi və Afrikanın tədricən Avropanın ticarət sisteminə cəlb edilməsi ilə müşayiət olunurdu. Buna Osmanlı imperiyasının tərkibinə daxil olan Şimali Afrika ilə ənənəvi ticarət əlaqələrinin kəsilməsi də səbəb oldu. Çünki, Osmanlı dövləti transsəhra ticarətinin inkişafına çox maraq göstərmirdi.

**Afrika cəmiyyətlərinin sosial-iqtisadi və siyasi strukturları**

Afrikada Səhradan cənubda müxtəlif etnik və dil qruplarına daxil olan xalqlar yaşayırdılar. Onlar həmçinin öz təsərrüfat-mədəni tipinə görə də fərqlənirdilər: onların bir qismi köçəri maldarlıq, digərləri isə əkinçiliklə məşğul olurdu. Bu xalqların çoxu orta əsrlər boyu öz dövlətlərinə malik olmamış, bəziləri isə tayfa-qəbilə quruluşunu qoruyub saxlamışdılar. Lakin *Afrika cəmiyyətlərinin bütün lokal xüsusiyyətlərinə baxmayaraq*, onları birləşdirən bir çox ümumi cəhətlər var idi.

Əkinçilər və köçəri maldarlar arasında təsərrüfat və sosial münasibətlərin özəyində icmalarda birləşən böyük ailə kollektivləri dururdu. İcmanın üzvləri həm sağ olanlar, həm də onların ölmüş əcdadları sayılırdı. Onlarla əlaqə icmanın başçıları vasitəsilə qurulurdu. Torpaq və əmlak kollektiv mülkiyyətdə idi. Təkcə yoruba, bakonqo, sonqai xalqları timsalında hökmdara məxsus torpaq fondunun formalaşmasını müşahidə etmək olardı.

Sosial münasibətlər sistemində qan qohumluğu əlaqələrinin üstünlük təşkil etməsi nəinki icma səviyyəsində, habelə erkən dövlət quruluşlarında da gözə çarpırdı. Dövlət məmurlarının titulları qohumluq əlaqələri ilə pərdələnirdi – məsələn, «hökmdarın oğlu (qardaşı, əmisi, bacısı, arvadı)» və s. Bir sıra Afrika cəmiyyətinin (Mərkəzi və Qərbi Afrika, Göllərarası, Konqo çayı hövzəsi) siyasi həyatında qadın-hökmdar institutu mühüm rol oynayırdı. Bu funksiyanı, bir qayda olaraq, hökmdarın anası daşıyırdı. Onun adı hökmdarın adının tərkib hissəsi olurdu.

Qəbilə münasibətləri ilə yanaşı, inisiasiya ritualını (ayinini) keçən gənclərin yaş qruplarına bölünməsi ictimai həyatda böyük əhəmiyyət daşıyırdı. Eyni zamanda, qapalı dini cəmiyyətlər formasında birləşən və asayişin qorunması funksiyasını öz üzərinə götürən kişilərdən ibarət qruplar da mövcud idi.

*Qərarları qəbul edərkən ali hakimiyyətin istinad etdiyi Xalq* Şurasının müəyyən rolu qalmaqda idi. Ali hökmdarın hakimiyyəti əyanlar şurası tərəfindən xeyli məhdudlaşırdı. Ordu rolunu, bir qayda olaraq, könüllülər həyata keçirirdilər. Çox nadir hallarda hökmdarın yaş qrupları sistemi çərçivəsində, yaxud qullardan

formalaşan muzdlu ordusu olurdu.

Bizə çatan tarixi abidələrdən bəlli olur ki, yazılı hüquq ancaq Həbəşistanda və Sennarda (indiki Sudan ərazisi) mövcud idi. Məhkəmə hakimiyyəti adi hüquq əsasında fəaliyyət göstərirdi.

Səhradan cənubda islam və xristianlığın yayılmasına qədər Afrika cəmiyyətlərinin ideoloji əsaslarını əcdadlarına sitayiş kultu təşkil edirdi. Kahin rolunu icmaların başçıları və erkən dövlətlərin ali hökmdarları icra edirdilər. Sonralar Qərbi və Şərqi Afrikanın bir sıra dövlətlərinin rəsmi dini islam oldu. Burada ərəb dili də yayılmağa başladı. Ərəb mədəniyyətinin təsiri, bir qayda olaraq, şəhər əhalisinin təhsilli təbəqəsi ilə məhdudlaşırdı. İslam dini ənənəvi etiqadları əvəz edə bilmədi, hətta islam rəsmi din elan olunduğu dövlətlərdə də o, yerli adət-ənənələri özündə birləşdirirdi. XV-XVI əsrlərdə portuqallar tərəfindən gətirilən katoliklik təkcə Konqoda yayılaraq dövlət dini statusunu qazandı.

## Şimal-Şərqi Afrika

Şimal-şərqi Afrikada hələ e.ə. I minillikdə meydana gələn dövlətçilik Ərəbistan və Misirlə sıx bağlı idi. Bu əlaqələrin sayəsində yeni eranın ilk illərində Həbəşistan və Nubiyada xristianlığın monofizit məzhəbi, VII əsrdə isə islamın yayılması başladı. Məhz bu iki din Şimali-Şərqi Afrikada orta əsrlərdə dövlətçiliyin inkişafına böyük təsir etmişdir.

**Aksum padşahlığı**

Həbəşistan yaylasında maldarlıqla məşğul olan kuşan tayfaları yaşayırdı. E.ə. V əsrdə buraya Cənubi Ərəbistandan köçkünlər gəlməyə başladı. Onlar Həbəşistana cüt – kotan əkinçiliyini gətirdilər, Cənubi Ərəbistanın ləhcələrindən biri isə həbəş dilinin formalaşmasının əsasını qoydu.

Yeni eranın I əsrində Həbəşistanın şimalında Aksum padşahlığı yarandı. Bu məsələdə ölkənin Hindistanı, Şimal-Şərqi Afrikanı və Aralıq dənizi ölkələrini birləşdirən ticarət yolu üzərində yerləşməsi və əlverişli coğrafi mövqeyi başlıca rol oynamışdı. III əsrdə Aksum hökmdarları fəal xarici siyasət yürüdərək, öz hakimiyyətlə-

rini IV əsrin əvvəllərində Nubiyaya qədər genişləndirdilər. IV əsrin 30-cu illərində isə Aksum hökmdarı Ezana xristianlığın monofizit məzhəbini dövlət dini elan etdi.

Aksum padşahlığının çiçəklənməsi dövrü IV-VI əsrlərə təsadüf edirdi. Bu zaman o, Cənubi Ərəbistanda nüfuz uğrunda Himyarilər dövləti ilə müharibə aparırdı. 517-572-ci illərdə Cənubi Yəmən Aksuma məxsus oldu. Lakin sonradan Sasanilər oranı ələ keçirdi. Aksumun siyasi və iqtisadi həyatında xristian monastırları böyük nüfuza malik idilər.

Ərəbistanda islamın qələbəsi və Misirdə Bizansa məxsus torpaqların müsəlmanlar tərəfindən ələ keçirilməsi Aksumu Aralıq və Qırmızı dənizlərə çıxışdan məhrum etdi. Dəniz ticarətindən gələn gəlirləri itirən Aksum padşahlığı zəifləməyə başladı. Onun qonşuları – bəccə köçəriləri, Qırmızı dənizin sahillərində yerləşən müsəlman şəhər-dövlətləri və Ezatonun (Yudif) hakimiyyəti illərində güclənən yəhudi-falaşa (Tan gölünün şimalı) Aksumun zəifləmiş durumundan istifadə etdilər və gücləndilər. XI əsrdə isə Aksum padşahlığı birdəfəlik süquta uğradı.

**Həbəşistan XI-XVI əsrlərdə**

Zaqvey sülaləsinin hakimiyyəti dövrü (X əsr – 1270-ci il) Həbəşistanın tənəzzül illəri idi və həmin tarix mənbələrdə zəif əks edilmişdir. Aksum padşahlığının süqutundan sonra şəhərlər öz əhəmiyyətini itirdi. Paytaxt şəhərinin funksiyaları hökmdarın səhra düşərgəsinə keçdi. Sənətkarlıq daha primitiv xarakter aldı, ticarət isə tədricən müsəlman tacirlərinin əlində cəmləşdi. Zaqvey padşahlarından iri torpaq sahələri alan xristian kilsəsi dövlətin formalaşdırıcısı rolunu oynayırdı.

Yaranmış şəraitdə siyasi və mədəni mərkəz cənuba keçdi. Dövlətdə aparıcı rolu əmhər xalqı oynamağa başladı. 1270-ci ildə Zaqvey sülaləsini padşah Solomon və Sav məlaikəsinin oğlu Menelikin nəslindən olan və 1974-cü ilə kimi taxtda qalan yeni sülalə əvəz etdi. Bu sülalənin ilk imperatoru (*nequs*) Yekuno-Amlakın dövründə (1270-1285) onun hakimiyyətə gəlməsində yardımçı olan kilsənin rolu xeyli artmışdı. Kilsə əyanları imperatordan sonra dövlətin ali şəxsləri statusunu qazandılar, kilsə isə torpaq fondu-

nun 1/3-nə yiyələndi. Padşah torpaqlarında olduğu kimi, kilsə torpaqlarında da öz sosial-iqtisadi statusuna görə təhkimli kəndlilərə bənzəyən icma üzvləri – «qebbar»lar çalışırdılar. Dövlət xidmətinə (*qult*) görə irsi olmayan torpaq sahələrinin verilməsi sistemi mövcud idi. Bundan başqa üzərində təhkimli kəndlilər olmayan torpaqların (*rıst*) verilməsi təcrübəsi də tətbiq olunurdu; onların əkilib-becərilməsi sahibkarın öz üzərinə düşürdü. Torpaq onun varisinə keçə bilərdi.

XIV əsrin birinci yarısında imperator Amda Siyonun dövründə isə Həbəşistan mədəni yüksəliş mərhələsini yaşayırdı. Bu həm ölkənin daxili inkişafı, həm də Şərqin xristian dövlətləri – Bizans, Suriya və s. ilə sıx ticarət əlaqələri ilə bağlı idi. Məhz bu dövrdə Solomon sülaləsinin tarixindən bəhs edən «Kıbre Neqest» («Padşahların şöhrəti») adlı tarixi əsər yazılmışdır.

**XV-XVII əsrlərdə ticarət yolları uğrunda mübarizə**

Xristian Aksum padşahlığı ilə yanaşı Şimal-Şərqi Afrikada müsəlman sultanlıqları da mövcud idi. Müsəlmanların bu regiona gəlişinin əsası VII əsrin ikinci onilliyində Məhəmməd peyğəmbərin Məkkədəki tərəfdarlarının bir qrupunun Həbəşistana mühacirəti ilə qoyulmuşdur. Sonralar yerli əhali, əsasən də Qırmızı dəniz sahilində yaşayanlar arasında islamın yayılması başladı. Beləliklə, Qırmızı dəniz hövzəsində beynəlxalq ticarət sayəsində yüksələn Yafət və Adal müsəlman sultanlıqları yarandı. Regionda islamın digər mərkəzi Həbəşistanın cənub-şərqində yerləşən və əhalisi «malasai» müsəlmanları olan Xərər idi.

Müsəlman dövlətləri tərəfindən dünya ticarət yollarından təcrid olunan Həbəş nequsları Qırmızı dənizə çıxmaq üçün ağır müharibələr aparırdılar. Öz növbəsində Qırmızı dənizin liman şəhərlərini nəzarət altında saxlayan müsəlman sultanları ölkənin daxili bazarlarında da üstün mövqe qazanılmasına çalışırdılar. Avropanın katolik dövlətlərinin (Həbəşistan tərəfində) və Osmanlı sultanlarının (Qırmızı dəniz sultanları tərəfində) qoşulduğu mübarizə XVI əsrdə dini müharibələr formasını aldı.

Nequsun müsəlmanlarla müharibələri 1331-ci ildən 1445-ci ilə qədər aramsız davam etmişdir və Yafət sultanlığının məğlu-

biyyəti ilə bitmişdir. Onun süqutundan sonra Şərqi Həbəşistanın müsəlman şəhər-dövlətləri arasında hərbi-siyasi hakimiyyət əvvəl Adal, sonra isə Xərər sultanlığına keçdi. XVI əsrin əvvəllərində bu dövlətlərdə sultanların hakimiyyəti zəifləməyə başladı və hərbi başçı – əmirin əlində cəmləşdi.

XVI əsrin 20-ci illərində müsəlmanların başında Xərərin faktiki hökmdarı, Adal sultanı Məhfuzun kürəkəni Qran («solaxay») ləqəbli Əhməd ibn İbrahim əl-Qazi dayandı. O, güclü nizami ordu yaratdı, Osmanlı imperiyasının dəstəyini qazandı, özünü imam elan etməklə həbəş nequsu ilə mübarizəyə dini xarakter verdi. 1529-cu ildə başlayan müharibə 30 il davam etdi və hər iki tərəfin qüvvəsini tükəndirdi.

*Əhməd Qranın qoşunları Həbəşistanın daxili rayonlarına girmiş* və oraları dağıtmışdılar. Həbəş imperatoru Lebna Dengel (1508-1540) Portuqaliyanın dəstəyini ala bildi və sonuncunun donanması 1541-ci ildə Qırmızı dənizin sahillərinə daxil oldu. Müttəfiqlər müsəlmanlar üzərində bir neçə qələbə qazandılar. 1543-cü ildə döyüşlərin birində isə Əhməd Qran həlak oldu. Onun qoşunları pərən-pərən oldu, amma hərbi əməliyyatlar 1559-cu ilə kimi davam etdi. Sultantıqda baş verən güclü aclıq müharibəyə son qoydu. 1548-ci ildə Adala qələbə yürüşü edən Lebna Degelin oğlu və varisi Klavdi (1540-1559) müsəlmanların müqavimətini tamamilə sındırdı.

Portuqaliya həbəş imperatorlarına yardım etməklə burada öz mövqelərinin möhkəmlənməsinə çalışırdı. Onlar həmçinin fəal missioner fəaliyyəti göstərirdilər və XVII əsrin əvvəllərində imperator sarayında böyük təsir imkanları əldə etdilər. 1621-1622-ci illərdə imperator Suseynos (1607-1632) katolikliyi dövlət dini elan etdi. Bu qərar 10 il sürən vətəndaş müharibəsinə gətirib çıxardı. Nəticədə, *nequs rəsmən taxt-tacdan imtina* etdi və hakimiyyəti oğlu monofizit Fasilidasa (1632-1667) verdi. Onun hakimiyyəti altında Həbəşistan öz çiçəklənmə dövrünü yaşadı. Bu illərdə ölkənin daimi paytaxtı – dəbdəbəli saray kompleksləri və monastırları ilə seçilən Qondera şəhəri inşa olundu.

## Qərbi Afrika

Hələ qədim zamanlardan Qərbi Afrika qitənin Şimalı ilə karvan yolları vasitəsi ilə birləşirdi. Regionun əsas ixrac məhsulunu Seneqal və Niger çaylarının yuxarı axarında çıxarılan qızıl təşkil edirdi. Qızıl ticarəti Afrikanın qərbində dövlətçiliyin formalaşması üçün əlverişli şərait yaratdı. Karvan ticarəti zəminində bu regionda bir çox şəhərlər, o cümlədən Audaqost, Qana, Tombuktu, Cenne, Qao, Kasina, Kano və s. inkişaf etmişdi. Afrikanın qızıl ticarəti Avropa dövlətləri üçün də böyük əhəmiyyət kəsb edirdi. Məlumdur ki, Amerikanın kəşfinə qədər Avropa bazarlarına bu qiymətli metalın əsas ixracçısı məhz Afrika olmuşdur.

**Qana**

Qananın etnik əsasını mande dil ailəsinin şimal qrupuna aid soninke əkinçilik xalqı təşkil edirdi. Qana haqqında ilk məlumatlar IV əsrə, dövlətin çiçəklənməsi isə IX-XI əsrlərə təsadüf edir. Onun iqtisadi əsasını ticarət və Yuxarı Niger və Seneqal çayının hövzəsində yaşayan qəbilələrdən əldə olunan gəlirlər və bac təşkil edirdi. Qananın paytaxtı Şimali Afrika ilə karvan ticarətinin mərkəzi olan Kumbi-Sale şəhəri idi. Qana ticarətinin əsas məhsullarını qızıl, duz və qullar təşkil edirdi. Ticarətlə, bir qayda olaraq, yerli tacirlər deyil, gəlmələr – ərəblər, bərbərlər və yəhudilər məşğul olurdular. Qananın həyatında ticarətin əhəmiyyətindən Kumbi-Sale şəhərində aparılan qazıntılar da xəbər verir. Burada ticarətlə bağlı bir çox əşyalar, o cümlədən tərəzi, tərəzi daşları və onlar üçün qəliblər və s. aşkar olunmuşdur. Onu da qeyd edək ki, bu qazıntılar zamanı yerli sənətkarlıq nümunəsinin heç bir izi tapılmamışdır.

Şimali Afrikadakı müsəlman dövlətləri ilə əlaqələrin olması Qana əhalisinin üst təbəqəsi arasında islamın yayılmasına təkan verdi. Bu sırada 1076-cı ildə bərbərlərin Qanaya yürüşünün böyük rolu oldu. Əlmora əmiri Əbu Bəkr ibn Ömər tərəfindən Kumbi-Salenin istilası Qananın inkişafına son qoydu və ondan asılı ərazilərin itirilməsinə gətirdi. Bərbərlərin hakimiyyətinin qısamüddətli (1087-ci ilə qədər) olmasına baxmayaraq, ara müharibələri ölkənin tam zəifləməsinə səbəb oldu. Qana ərazisində bir neçə müs-

təqil əmirlik yarandı. Onların arasında ən güclüsü Soso əmirliyi idi. 1203-cü ildə onun hökmdarı Kumbi-Saleni tutdu və əcnəbi tacirlərin çoxunu şəhərdən çıxmağa məcbur etdi.

**Mali** Mali dövlətinin etnik əsasını mande dil qrupuna daxil olan malinke xalqı təşkil edirdi. Malinke Qanadan cənubda yerləşən ərazilərdə yaşayırdı və əkinçilik və sənətkarlıqla məşğul olurdu. Onların yaşadığı ərazilərə müsəlman tacirləri çox erkən gəlmişdilər. Rəvayətlərə görə, malinkenin ən nüfuzlu klanı – Keytanın banisi VIII əsrdə Maliyə köçmüş müsəlman Bilali idi. XI əsrin ortalarında malinkenin üst təbəqəsi islamı qəbul etdi və müsəlman tacirləri ilə sıx əlaqələrə malik oldu.

1235-ci ildə Keyta klanının üzvü Sundiata o dövrdə Malini tabe edən Soso əmirliyi üzərində qələbə çaldı. Bunun nəticəsində *Sundiata Qana ərazilərini Maliyə birləşdirməklə «mansa» titulu ilə* hökmdar oldu. Dövlətin paytaxtı VIII əsrin sonunda təməli qoyulmuş Niani şəhəri idi.

XIV əsrin birinci yarısında I Musanın (1312-1337) və onun qardaşı Süleymanın (1341-1360) hakimiyyəti illərində Mali çiçəklənmə dövrünü yaşayırdı. Mansanın hakimiyyəti qərbdə Atlantik okeandan şərqdə Niger çayının orta axarına qədər uzanırdı. Malinin şimal sərhədi səhra, cənub isə Qvineya körfəzi sahillərindəki tropik meşələrlə əhatə olunurdu.

Mansalar Misir, Şimali Afrika və Yaxın Şərqin digər dövlətləri ilə sıx ticarət əlaqələri saxlayırdılar. Taxıl, parça, silah və digər sənətkarlıq məhsullarının müqabilində Malidən duz, qullar, mis və qızıl ixrac olunurdu. Mali Aralıq dənizi ölkələrinə qızılın əsas ixracatçılarından olmuşdu. I Musanın 1324-cü ildə Məkkəyə həcc ziyarətindən sonra müsəlman dünyasında mansaları tanıdılar. O, qızılı elə səxavətlə (hesablamalara görə, təqribən 10-12 ton) paylayırdı ki, Yaxın Şərq bazarlarında onun qiyməti düşdü.

Malinin iri şəhərləri – Tombuktu, Qao, Cenne həm ticarət, *həm də mədəni mərkəzlər idi.* Misir və Mərakeşlə sıx əlaqələrin olması ölkəyə müsəlman alimləri və din xadimlərini, inşaatçıları və sənətkarları cəlb etmək imkanı verirdi. Gəlmə sənətkarların köməyi ilə Tombuktu, Cenne və Qao şəhərlərində məscidlər inşa

olunmuş, orada tədris mərkəzləri açılmışdı.

Mali hökmdarları tərəfindən aparılan uğurlu müharibələr nəticəsində çoxlu sayda əsir ələ keçirildi. Onların bir qismi vəzifəli şəxslərə verilmiş torpaqlara təhkim oldu, digərləri isə mansaların qvardiyasında və dövlət aparatında çalışmağa başladı. Bir müddət sonra qvardiyaçılar sarayda nüfuzlu siyasi qüvvəyə çevrildi, bu da öz növbəsində Keyta sülaləsinin hakimiyyətini zəiflətdi. XV əsrin birinci yarısında mansalar Tombuktu və Cenne şəhərləri üzərində nəzarəti itirdilər, sonralar isə Sonqay hökmdarlarının vassalına çevrildilər.

**Sonqay**

Sonqay dövləti Niger çayının vadisində, IX əsrin sonlarında sonqaylar tərəfindən əsası qoyulduğu Qao şəhərinin yaxınlığında formalaşmışdı. Sonqay iqtisadiyyatının əsasını əkinçilik, maldarlıq, balıqçılıq və ovçuluq təşkil edirdi. «Dya», XIII əsrdən isə «şi», «sonni» titulunu daşıyan Sonqay hökmdarları XI əsrin sonlarında islamı qəbul etdilər.

Sonqay uzun müddət Malinin hakimiyyəti altında olmuşdur. Lakin sonuncunun tənəzzülündən sonra Sonqay Qərbi Sudanda yeni güc mərkəzinə çevrildi. Sonni Böyük Əli Ber (1464-1492) qonşuları – Volta hövzəsində yaşayan mosi, qərbdə – fulbe üzərində hərbi qələbə qazandı. O, bədəvi tuareqlərdən Tombuktunu geri aldı, Qərbi Sudanın bütün iri ticarət mərkəzlərini özünə tabe etdi. Qızıl hasilatı bölgələrini və Qərbi Sudanı Şimali Afrika ilə birləşdirən karvan yolları üzərindəki nəzarət Sonqay dövlətinin inkişafı üçün zəmin yaratdı.

Əlinin oğlu və varisi Bubakar Dao hakimiyyəti saxlaya bilmədi. 1493-cü ildə atasının Məhəmməd Ture adlı sərkərdəsi onu hakimiyyətdən uzaqlaşdırdı və «askiyə» titulu ilə özünü yeni hökmdar elan etdi. Məhəmməd Turenin uzunmüddətli hakimiyyəti illərində (1493-1529) Sonqay çiçəklənmə dövrünü yaşayırdı. Onun sərhədləri Atlantik okeanın sahillərindən Çad gölünə qədər uzanırdı. Məhəmməd Ture dövlətin bütün sahələrini əhatə edən daxili islahatlar həyata keçirdi. İşğal olunmuş ərazilərdə yeni valilərin nəzarəti altında yerli başçıların hakimiyyətləri davam edirdi. Valilər askiyənin qohumlarından deyil, nüfuzlu sərkərdələrdən təyin

edilirdi. Şəhərlərdən və köçəri tayfalardan toplanan vergilərə nəzarət edən xüsusi məmurlar yerlərə göndərilirdi. Könüllü hərbi dəstələr nizami ordu ilə əvəz olundu. Becərilən torpaq sahələrinin genişləndirilməsi məqsədi ilə Niger çayında suvarma sistemləri inşa olundu. Əsirlər torpağa təhkim olunurdular. Onların məhsulunun bir hissəsi sarayın ehtiyacları üçün toplanırdı, özləri isə tikinti işlərində geniş istifadə olunurdu.

Sonqay şəhərləri – Qao, Tombuktu, Cenne müsəlman şəhəri görkəmi aldı və bölgənin səviyyəsindən də kənara çıxan mədəni mərkəzlərə çevrildi. İspaniyada Rekonkistanın qələbəsindən sonra bir çox müsəlman alimi, din xadimi və memarları Sonqay şəhərlərinə üz tutdular. Tombuktu, Cenne və Kano məscidlərində fəaliyyət göstərən mədrəsələrə Qərbi Sudanın bir çox bölgələrindən tələbələr gəlirdilər. Müəllimlər arasında isə Şimali Afrikadan gələnlər üstünlük təşkil edirdilər. Fəqihlər, imamlar, qazilərin yerli silkləri yarandı. Tobuktuda Sonqay dövlətinin və onun sələflərinin tarixinə dair Məhəmməd Qatinin «Tarix əl-Fattaş» (XVI əsrin əvvəlləri), Əbdür-Rəhman əs-Sadinin (XVII əsrin birinci yarısı) ərəb dilində yazılmış tarixi salnamələri tərtib olundu.

XVI əsrin sonlarında əsasən odlu silahla təchiz olunmuş və ispan muzdlularından ibarət Mərakeş ordusu Sonqaya soxuldu. Onların məqsədi Sonqay hökmdarlarına məxsus Teqazza duz mədənlərini ələ keçirmək idi. Bəhanə isə Sonqaydan Mərakeşə qaçmış və özünü askiyanın qardaşı kimi qələmə verən birisinin müdafiəsi üçün ora qoşun göndərilməsi oldu. Məğlubiyyətə uğrayan Sonqay hökmdarları şərqə – xausa və Kenem-Boru dövlətinə tərəf sıxışdırıldılar və burada tez bir zamanda öz nüfuzlarını tamamilə itirdilər.

**Hausa dövləti**

Orta əsrlərdə hausa xalqı indiki Nigeriyanın şimal və Niger respublikasının cənub hissəsində yaşayırdı. Hausa əkinçilik və maldarlıqla məşğul idi, şəhərlərin meydana gəlməsi mərhələsində isə sənətkarlıq da inkişafı etməyə başladı. Sənətkarlıqda qul əməyindən geniş istifadə olunan dəri emalı və toxuculuq xüsusi yer tuturdu.

Rəvayətə görə, Hausanın əcdadı Ərəbistan əsilli olmuşdur. O,

yerli məlaikə ilə evlənmiş və onların 7 oğlu olmuşdur. Onlar «əsil hausa»nın 7 şəhərinin əsasını qoymuşlar. «Qeyri-hausa» isə hausa ilə iqtisadi və siyasi tellərlə bağlı qonşu xalqlar idi. Hausa heç vaxt siyasi cəhətdən vahid olmamışdı. Hökmdarlar daimi rəqabət aparır, bir-biri və qonşuları ilə müvəqqəti ittifaqlara girirdilər. Hausanın ən erkən siyasi dövlət qurumu VIII-X əsrlərdə yaranmışdır. Onlar Transafrika ticarət yolları boyu yaranmış Kano, Kasina, Qobir, Daura, Zariya və s. şəhər-dövlətlər idilər. Müsəlman tacirləri Hausa dövlətinə islamı gətirdi və artıq XIV əsrdə islam hakimiyyətin üst təbəqəsinin dininə çevrildi. Hausa şəhərlərindən Kano, Kasina və s. islam elminin mərkəzlərinə çevrildilər. Burada ərəb və xausa dillərində yerli şəhər salnamələri tərtib olunmuşdur.

XVI-XVIII əsrlərdə Sonqay dövlətinin süqutu və Transsəhra yollarının Hausa ərazilərinə keçməsi Hausa şəhərlərinin çiçəklənməsinə səbəb oldu.

**Kanem-Bornu**

VIII-IX əsrlərdə Çad gölünün şimal-şərqində Kanem dövləti yarandı. Onun etnik əsasını kanuri və kanembu xalqları təşkil edirdi. Onların üst təbəqəsi Libiya, Tunis, Misir və Orta Nil vadisi vasitəsilə Transsəhra ticarətinə cəlb olunmuşdu. Dövlətini paytaxtı Ncimi şəhəri idi.

XI əsrin sonlarında Kanemin hökmdarı Xyume yeni Sefuva sülaləsinin əsasını qoydu və islamı qəbul etdi. İslamın yayılması dövlətin inzibati-siyasi təşkilinə və mədəni inkişafına təsir göstərdi. Sultanın ali hakimiyyətini 12 əyandan ibarət şura məhdudlaşdırırdı. Tabe edilən ərazilərdə yerli hökmdarlar hakimiyyətdən kənarlaşdırılmırdı, lakin sultanın göstərişi ilə mərkəzdən göndərilən valilər bac yığılmasına nəzarət edirdi. Kanem sultanlarının tabeçiliyində güclü ordu və onun vuran əli – suvari qoşunlar var idi. XIII əsrdə Kanem qərb, şimal və şərq sərhədlərini xeyli genişləndirdi və Afrikanın o dövrdəki ən iri müsəlman dövlətlərindən birinə çevrildi.

XIV əsrin sonlarında Kanemin paytaxtı bulala qəbiləsi tərəfindən tutuldu. Bunun nəticəsində, Kanemin mərkəzi qərbə – Bornu tərəfə yönəldi və dövlətin yeni adı – Kanem-Bornu oldu. «Mai» titulu daşıyan hökmdarların qonşuları ilə uğurlu müharibələri dövlətin sərhədlərini və nüfuzunu möhkəmləndirdi.

İdris Alumun hakimiyyəti illərində (1581-1603) Bornu özünün ən qüdrətli dövrünü yaşayırdı. Ordunun osmanlılardan alınmış odlu silahla təchiz edilməsi Hausa şəhər-dövlətlərinə qarşı uğurlu hücumların təşkil edilməsinə imkan verirdi. Onların bəziləri Kanem-Bornu hökmdarına bac verməyə məcbur oldular. İdris Aluma Osmanlı imperiyasının tərkibində olan ərəb dövlətləri ilə ticarət və diplomatik əlaqələr saxlayırdı və hətta Məkkəyə həcc ziyarətinə getmişdi. Nqazarqamo, Tombuktu, Kano şəhərləri sənətkarlıq və müsəlman elminin mərkəzlərinə çevrilmişdilər.

XVII əsrin sonlarında Kanem-Bornu tənəzzül dövrünə qədəm qoydu. Buna səbəb, şimaldan tuareqlərin, cənubdan cukun, şərqdən isə bulalanın hücumları oldu.

## Qvineya körfəzi sahili

Qvineya körfəzi sahillərində yerləşən ərazilərdə yoruba, edo, vayi, mende və digər xalqlar yaşayırdılar. Bu xalqların bəzilərində piktoqrafik və heca tipli yazı sistemi mövcud idi. Amma onların vasitəsilə edilən yazılar qorunub saxlanılmamışdır. Ona görə də, Qvineya körfəzi xalqlarının müstəmləkəçilik dövrünə qədərki tarixi haqqında məlumatlar zəmanəmizə yalnız şifahi ənənələr əsasında çatmışdır.

**Yoruba dövləti**

Qvineya körfəzinin şərq hissəsində tropik meşələr və savanna zonasında yoruba etnik vahidinə aid olan oyo, ife, iceşa, eqba və s. xalqlar yaşayırdılar. Yoruba toxa əkinçiliyi və sənətkarlıqla məşğul idi. Sonralar onlar şəhər-dövlətlərin əsasını qoyan böyük icma şəklində yaşamağa başladılar. İfe şəhəri (indiki Nigeriya) yorubanın sakral (mərasim) mərkəzi olmuşdur.

Yorubanın maddi mədəniyyəti X-XIII əsrlərdə inkişaf dövrünü yaşamışdır. Orada istehsal olunan sənətkarlıq nümunələri, o cümlədən metaldan, ağacdan, daşdan və s. düzəldilən heykəllər öz yüksək səviyyəsi ilə seçilirdilər və e.ə. I minillikdə yaranan daha qədim Nok mədəniyyəti ilə bağlılıq təşkil edirdilər.

XVII əsrdə ticarət və etno-mədəni əlaqələrlə və bac asılılığı

ilə bağlı olan yoruba şəhərləri konfederasiya şəklində birləşdilər. Onun adı ali hökmdarın (alafina) oturduğu Oyo şəhərinin adı kimi oldu. XVII əsrin ikinci yarısında Oyo Avropa qul ticarətinə xidmət edən ticarət yollarını ələ keçirilməsi üçün uğurlu müharibələr aparırdı. Belə ki, o, Qvineya körfəzi sahillərində yerləşən və XVI əsrin sonlarından avropalıların ticarət tərəfdaşı olan aca xalqının siyasi birliyi – Ardrunu (Alladu) özünə tabe etdi.

**Benin**

Qvineya körfəzinin sahillərində yaranan dövlətlərdən biri indiki Nigeriyanın cənubunda yerləşən Benin padşahlığı olmuşdur. Onun yaranması yorubaya qohum edo xalqı ilə bağlı idi. Yerli deyimlərə görə, Beninin təməlini qoyan XIII əsrdə ölkəyə başçılıq etmiş Eveka olmuşdur.

«Oba» titulunu daşıyan Benin hökmdarı ilahi varlıq olan mərasim (sakral) fiquru hesab olunurdu. Ölən hökmdarların tuncdan düzəldilmiş başları onların ruhlarının qorunduğu yer olaraq ibadət obyekti idi və padşah sarayının əsas məbədində saxlanılırdı. Hökmdarların gəlirlərinin başlıca mənbəyini xarici müharibələr təşkil edirdi. Onların nəticəsində XIV-XV əsrlərdə Beninin 200-dən çox qonşusu bac verməyə məcbur edildi. XV əsrin sonlarından Benin Avropa qul ticarətinə qoşuldu.

Beninin paytaxt şəhəri qalın divarlar və xəndəklərlə əhatə olunan və yaxşı möhkəmlənən məntəqə idi. XVI-XVII əsrlərdə dövlətin çiçəklənməsi dövründə burada 15 minə yaxın insan yaşayırdı. Onların çoxu dəri işləmə, toxuculuq, metaltökmə, dulusçuluq, zərgərlik, taxta və fil sümüyü üzərində oyma və s. peşələrlə məşğul olurdular. Şəhərdəki sənətkarlıq birlikləri qan qohumluğu əlaqələrinə əsaslanan qapalı korporasiyalar şəklində fəaliyyət göstərirdi.

**Aşanti konfederasiyası**

XVII əsrin sonlarında qul, qızıl və kola cevizi ticarəti zəminində indiki Qananın ərazisində akan dil qrupuna daxil olan aşanti və digər xalqların şəhər-dövlət konfederasiyası yarandı. Onların başında Kumasi şəhəri dururdu. Qızıl ticarətinin ən iri mərkəzi isə Bono-Mansu sayılırdı. Yerli tarixi ənənəyə görə, konfederasiyanın ilk hökmdarı Osey Tutu olmuşdur. O, aşanti siyasi qurumunu vahid

dövlətdə birləşdirə bilmişdir. Aşanti konfederasiyasının varlığı Qvineya körfəzi sahillərini Səhraətrafı ərazilərlə birləşdirən ticarət yolları üzərində nəzarətlə bilavasitə bağlı idi. Aşantinin yüksəlişinə həmçinin, XVII əsrin sonlarında Sonqay dövlətinin süqutu da təsir göstərmişdir.

## Şərqi Afrika sahilləri

Afrikanın şərq sahillərində Afrika Buynuzundan Mozambikədək Hind okeanı dövlətləri ilə sıx bağlı olan suahili xalqının siyasi birlikləri meydana gəldi. Bu regionda dövlətçiliyin formalaşmasına həmçinin, VIII-IX əsrlərdə başlayan islamlaşma prosesi də böyük təsir göstərmişdir.

**Suahili şəhər-dövlətləri**

Orta əsrlərdə Şərqi Afrikanın sahilləri yerli bantudilli zənci (ərəb orta əsrlər mənbələrində – «zinci») əhalisi ilə Ərəbistan, Hindistan, Çin, İndoneziya və Malayyadan gəlmələr arasında yaranan fəal etnomədəni və iqtisadi əlaqələrin məskəninə çevrilmişdi. Bu bölgədə fil sümüyü, bağa qını, qızıl, dəmir və qul ticarəti geniş vüsət almışdı. İxrac malları arasında həmçinin müxtəlif növ parçalar, dulusçuluq məmulatları, çini qablar, ədviyyatlar və şəkər qamışı var idi. VIII əsrdə Şərqi Afrika ilə Cənubi Çin arasında mütəmadi əlaqələr qurulmuşdu, ticarət vasitəçiləri qismində isə ərəb tacirləri çıxış edirdilər.

Ərəblər bu bölgəyə hələ islamaqədərki dövrlərdə gəlmiş, VII əsrdə isə ağsaqqalları başda olmaqla bütün tayfalarla bura köç etmişdilər. IX-X əsrlərdə ərəblərin ticarət faktoriyaları iri şəhərlərə çevrilməyə başladı. Onların arasında Mombasa, Pemba, Pate, Malindi, Lamu və s. xüsusilə seçilirdi. Bu faktoriyaların əksəriyyəti dəniz ticarəti sayəsində yüksəldi. Şərqi Afrika sahillərindəki ərəb yaşayış məntəqələrinin mərkəzi Zanzibardan cənubda yerləşən və eyniadlı sultanlığın (957-1513) paytaxtı olan Kilva şəhəri idi. Bu şəhərə həmçinin Şirazdan çoxlu sayda fars köçmüşdü.

Şərqi Afrikanın şəhər-dövlətlərinin etno-sosial strukturunun üst qatını azad doğulanlar, yaxud azad və qullardan doğulan

uşaqlar, həmçinin, ərəblər və farslar təşkil edirdi. Ev qulları ailənin və klanın kiçik üzvləri hesab olunurdular. Sosial nərdivanın aşağı pilləsində hərbi əsirlər və alınmış qullar dayanırdılar.

Etnoslararası əlaqələr nəticəsində Şimalı Afrika sahillərində yeni etnik birlik – suahili (hərfi tərcümədə – «sahil əhli») meydana gəldi. Onlar ərəb leksikası ilə zəngin olan bantu dilində danışırdı, yazısı isə ərəb qrafikası əsasında tərtib olunmuşdu. Ərəblərin təsiri altında yerli əhalinin bir qismi islamı qəbul etsə də, özlərinin ənənəvi mədəniyyətini qoruyub saxlaya bilmişdi.

Suahili şəhər-dövlətlərin çiçəklənmə dövrü XII-XV əsrlərə təsədüf edir. Məhz bu zaman Şərqi Afrika xalqlarının Hind okeanı dövlətləri ilə ticarət və mədəni mübadiləsi öz intensivliyi ilə səciyyələnirdi. 1415-ci ildə məşhur Çin dənizçisi Çjen Xe Kilvaya gəlmişdi. Sonrakı illərdə Malindi, Moqadişo, Cuba və Brava hökmdarları Çinə səfirliklər göndərmişdilər.

Suahili şəhər-dövlətlərinin inkişafını XV əsrin sonunda portuqalların bura gəlməsi dayandırdı. Onlar qısa zaman ərzində şimalda Malindi və Mombasi şəhərlərindən cənubda Mozambikədək ərazini zəbt etdilər və burada öz hərbi qarnizonlarını yerləşdirdilər. Portuqaliyanın regiona daxil olması ərəb-afrika ticarətini çökdürdü. Bu həm yerli tacirlərin, həm də əyanların narazılığına səbəb oldu. XVI əsrin əvvəllərində müxtəlif şəhərlərdə Portuqaliyaya qarşı üsyanlar başladı. Belə üsyanlardan birindən sonra portuqallar Mombasi şəhərini yerlə yeksan etdilər və yerində İisus istehkamını tikdilər.

Yerli əhalinin Portuqaliya əleyhinə ən böyük çıxışı sultan Yusuf ibn-Həsənin başçılığı ilə 1631-1632-ci illərdə Mombasidə baş verdi. Dini qarşıdurma xarakteri alan bu hərəkata Malindi və Pemba şəhərlərinin əhalisi də qoşuldu. Üsyanın yatırılması üçün portuqaliyalılara bir neçə il lazım gəldi. Sonrakı illərdə eyni çıxışlar Pembe və Pate şəhərlərində baş vermişdi və fasilələrlə XVII əsr boyu davam etmişdi. Suahilini bu mübarizədə dəstəkləyənlər arasında Oman sultanları da olmuşdu. XVII əsrin sonunda onlar portuqaliyalıları Mombasa, Kilva və Pembadan çıxara bilmişdilər.

**Madaqaskar** Madaqaskar xalqlarının etnogenezi və mədəniyyəti Cənub-Şərqi Asiya ilə sıx bağlıdır. Hələ eramızdan əvvəl avstroneziya dil qrupuna aid malqaşlar adaya köç etdilər. Sonralar Şərqi Afrikada yaşayan xalqlardan bəziləri və ərəblər buraya gəlməyə başladılar. Madaqaskarda müsəlman tacirlərinin faktoriyaları yarandı və bunun sayəsində adada islam yayıldı, ərəb qrafikası isə «sura be» yerli yazı sisteminin əsasını qoydu.

Təsərrüfat fəaliyyəti növünə görə (düyü becərənlər, maldarlar və balıqçılar) seçilən müxtəlif etnik qruplar qəbilələrarası siyasi birliklərlə yanaşı, XV əsrdə Madaqaskarın mərkəzində İmerina dövləti yaratdılar. Onun hökmdarının iqamətgahı Analamanqa şəhəri (sonralar Antananarivu adlandı) oldu.

XV-XVI əsrlərdə Madaqasqara avropalılar gəlməyə başladılar – əvvəl portuqallar, XVII əsrdən başlayaraq isə hollandlar, ingilislər və fransızlar. Ada dəniz quldurlarının məskəninə çevrildi; onun şərq sahilində Libertaliya adlı respublika mövcud olmuşdur.

## Mərkəzi Afrika

Qitənin digər regionlarından fərqli olaraq Mərkəzi Afrikanın uzun müddət xarici aləmlə əlaqələri olmamışdır. Bu fakt yerli xalqlar arasında dövlətçiliyin formalaşmasını ləngitdi. XV-XVI əsrlərdə Konqo çayının hövzəsində Konqo, Lunda, Kuba, Luba, Böyük Afrika göllərinin ətrafında isə Kitara, Bunyoro və Buqanda dövlətləri yarandı.

**Konqo** Konqo çayının aşağı axarının sol sahillərindəki ərazilərdə bantu dilli makonqo xalqı məskunlaşmışdı. XVI əsrdə 6 yerli əmirlik Konqo adlı vahid dövlətdə birləşdi. Rəvayətə görə, makonqonu birləşdirən şəxs Kvanqo çayı bölgəsindən öz dəstələri ilə Konqonun cənub sahillərinə gələn Ntinu Vene adlı qəbilə başçısı olmuşdur. XV əsrin ortalarında Konqo hökmdarları («mani-konqo» titulunu daşıyırdılar) yaxınlıqda yerləşən Loanqo, Kakonqo, Nqoyo və İdonqo əmirliklərini özlərinə tabe etdilər. Dövlətin paytaxtı iri sənətkarlıq mərkəzi sayılan Mbanza-Konqo şəhəri idi. Digər şəhərlərdə də toxuculuq, dulusçuluq, dəmirçilik və s.

inkişaf etmişdi. Daxili ticarətdə mübadilə vahidi kimi «nzimbu» adlanan balıqqulağı istifadə olunurdu. Onun yığılması dövlətin inhisarında idi.

XV əsrin 80-cı illərindən Konqo ərazisinə portuqallar gəlməyə başladılar və bu da öz növbəsində dövlətin gələcək inkişafına ciddi şəkildə təsir göstərdi. İlkin mərhələlərdə onlar ölkə hökmdarlarını nəzarətə götürməyə çalışırdılar. Bu məqsədlə diplomatlar, katolik missionerlər və inşaatçılar ora göndərilirdi. XV əsrin sonlarında portuqallar Mpindo limanında kilsə, paytaxtda isə müqəddəs Salvador məbədi inşa etdilər. Kilsələrin tikintisi yerli əyanlar tərəfindən xristianlığın təntənəli şəkildə qəbul edilməsi ilə müşayiət olunurdu. Xristianlığı qəbul edənlər arasında mani-konqo Nzinqa a Nkuvu (I Joau), onun birinci arvadı və vəliəhd (gələcək mani-konqo I Affonsu), həmçinin əyanların bir qismi olmuşdur. I Affonsunun (1506-1543) oğlu Enrike Lissabonda təhsil almışdı və papa X Lev tərəfindən ona yepiskop rütbəsi verilmişdi. 1521-1526-cı illərdə o, Konqoda çalışmışdı. Qeyd edək ki, o, afrikalılar arasında ilk yepiskop rütbəsi alan şəxs olmuşdur.

Konqonun xristianlaşdırılması ilə yanaşı, portuqallar bu regionda qul alveri ilə də məşğul idilər. Onun həcmi elə səviyyəyə çatmışdı ki, artıq mani-konqo onun qarşısını almaq, yaxud nəzarət etmək iqtidarında deyildi. I Affonsu dəfələrlə Portuqaliya kralına müraciət edərək, ondan qul alverçilərinə qarşı yardım istəmişdi. Nəticədə, ona nəinki lazımı köməklik göstərilməmişdi, əksinə bir neçə dəfə ona qarşı sui-qəsdlər də təşkil olunmuşdu. Onun xələfi I Affonsu Dioqu (1545-1561) Konqodan bütün portuqalları çıxarmışdı. Onun ölümündən sonra onlar yenidən Konqoya dönmüşdülər. Ona görə ki, mani-konqo Bernardu (1561-1567) jaqa qəbiləsinin hücumlarını dəf etmək üçün Portuqaliyanın köməyinə ehtiyac duyurdu. I və II Alvaru (1568-1587; 1587-1614) portuqallara qarşı duruş gətirməyə cəhd göstərdilər və kömək üçün dəfələrlə papaya müraciət etdilər.

Sonralar Konqo hökmdarları portuqallara qarşı mübarizədə Portuqaliya ilə Anqola uğrunda müharibə edən hollandların köməyinə arxalana bildilər. Lakin portuqalların əldə etdikləri uğurlar

hollandları Luandadan çıxmağa, mani-konqo II Qarsiyanı isə qeyri-bərabər müqavilə imzalamağa məcbur etdi. 1665-ci ildə portuqallar Konqo ordusu üzərində Ambuil döyüşündə qələbə çaldılar. Bu, Konqo dövlətinin tənəzzülü prosesinə təkan verdi.

## Savannanın daxili rayonlarının dövlətləri

**Lunda** Bantu dilli lunda (balunda) xalqı Mərkəzi Afrikanın bir çox bölgələrində (indiki Anqola, Zair, Zambiya) yerləşirdi və tabe olan digər xalqlar onlara bac ödəyirdilər. XVI əsrin sonlarında lunda eyniadlı erkən dövlət qurumu yaratdı. Onun hökmdarının tituluna uyğun bu dövlət də Mvato-Yamvo adlandı.

Lundada təsərrüfatın əsasını əkinçilik və ovçuluq təşkil edirdi. Lunda dövlətinin ictimai-siyasi quruluşunda bir çox arxaik cəhətlər qalırdı. «Mvato-yamvo» ali hakimiyyətini öz əmisi qızı və ya ögey bacısı olan həmhökmdarla (lukokeşa) bölüşürdü. Hökmdarın şəxsiyyəti müqəddəs sayılırdı. Paytaxt şəhəri Musambanın (hərfi mənası – «düşərgə») hər yeni hökmdarın hakimiyyətə gəlişindən sonra yeri dəyişirdi.

Bacla yanaşı Lunda hökmdarının əsas gəlir mənbəyini mvata-yamvonun inhisarında olan ticarət təşkil edirdi. XVII əsrin sonlarından Lunda Avropa qul ticarətində vasitəçi kimi iştirak etməyə başladı.

**Kuba** XVI əsrin sonlarında Kuba erkən dövlət qurumu çərçivəsində bantudilli kuba xalqı formalaşdı. Onun etnik əsasını buşonqo xalqı və onun asılılığında olan monqo, balubakasai, meşə və oturaq piqmey-batva, mbala, kele, byenqa, pyaanq və s. qəbilələr təşkil edirdi. Kuba xalqının yaşayış yerləri Sankuru və Kasayi çayları arasındakı ərazilər idi.

Kubanın ənənəvi məşğuliyyəti qarğıdalı, manioka[1], tütün, şəkər qamışı və araxis becərilməsindən, həmçinin ovçuluq və balıqçılıqdan ibarət idi. Geniş yayılan sənətkarlıq sahələrindən palmarafiya lifindən toxuculuq, ağac üzərində oyma (Kuba hökmdarları-

---

[1]Monioka bitkisinin kökündən hazırlanan un

nın heykəlləri – «ndop»), dəmirçilik («şonqo» atıcı bıçaqları), qamışdan və palma lifindən hörücülük və s. göstərmək olar. Sənətkarların bir qismi hökmdarın sarayında çalışırdı ki, onların arasında qapalı peşəkar kastalar formalaşmışdı.

Kuba hökmdarları «nyimi» titulunu daşıyır, fövqəlilahi mənşəli şəxsiyyət sayılır və müqəddəs padşah-kahin xüsusiyyətlərinə malik idilər. Kubanın çiçəklənməsi Şyanma a Mbul a Nqoonqanın hakimiyyəti (1630-1640) ilə bağlı idi. Onun dövründə dövlətin sərhədləri müəyyənləşmiş, mərkəzləşmiş idarəçilik və vergi sistemi formalaşmışdı. Onun xələfi Mboonq a Leenqin dövründə (1640-1650) isə hakim təbəqəyə xidmət edən təhkimli qəsəbələr yaranmışdı. Kuba hökmdarları bürünc ticarətini inhisara almışdılar. Onlar həmçinin, digər faydalı qazıntılar (mis, duz) və qul ticarətindən də gəlir əldə edirdilər.

**Luba** Savannanın daxili bölgələrinin xalqlarından biri də Lualaba və Lomami çaylarının arasında məskunlaşan bantudilli luba (baluba) xalqı sayılırdı. Lubanın ənənəvi məşğuliyyəti əkinçilik, ovçuluq, faydalı qazıntıların (mis və dəmir filiz) hasilatı idi. Mis və dəmirdən düzəldilən xaçvari tökmələr («xanda») qiymət mübadiləsi kimi istifadə olunurdu. Sənətkarlıq məmulatları arasında «baluba» üslubunda ağac üzərində oyma öz peşəkarlığı ilə seçilirdi.

Öz sosial quruluşuna görə luba digər qonşu xalqlardan fərqlənmirdi. Onlar ana xətti ilə qohumluq zəminində kənd icmasında yaşayırdılar. Lubanın ənənəvi etiqadı – əcdadlarına, ali ilahi və dövlətin banisi əfsanəvi Konqoloya sitayiş hesab olunurdu.

Luba dövləti XVI əsrdə əfsanəvi hökmdar Konqolonun işğalçı yürüşləri nəticəsində formalaşmışdı. Kisale gölünün sahillərində xemba xalqının Kikonci ərazilərinin işğalından sonra Luba dövləti daha da gücləndi. 1585-ci ildə Konqolonun qardaşı oğlu Kalala Ilunqa hakimiyyəti ələ keçirdi və XIX əsrin sonlarına qədər Lubanın başında duran yeni sülalənin əsasını qoydu.

## Göllərarası dövlətlər

Böyük Afrika gölləri (Viktoriya, Tanqanika, Nyasa) ətrafında

XIII-XIV əsrlərdə Kitarada (indiki Uqanda ərazisi) erkən dövlət qurumları yaranmışdı. Onun əsasını qoyanlar yerli bantudilli əkinçi əhali – xutu xalqı olmuşdu. XIV-XV əsrlərdə bu bölgəyə maldarlıqla məşğul olan tutsidilli nilot tayfaları köç etdilər. Tədricən onlar yerli cəmiyyətdə üstün mövqeyə yiyələndilər, mal-qaranın və torpağın inhisarçı sahibinə çevrildilər.

XV əsrin sonlarında Kitara dövləti tənəzzülə uğradı və ərazisinin bir hissəsini itirdi. Onun hüquqi varisi Bunyoro dövləti oldu. İtirilmiş torpaqlarda isə Ruanda, Burundi və Buqanda adı ilə tanınan siyasi qurumlar yarandı. Onlar analoji ictimai quruluşa malik idilər və qapalı etno-sosial qrupların olması ilə səciyyələnirdilər. Məsələn, Ruandada tutsilər hakim mövqelərə malik idilər, onların əlində hərbi işlər və idarəetmə cəmləşmişdi. Onlardan aşağıda əkinçilik, ticarət, sənətkarlıq və tutsiyə məxsus mal-qaranın otarılması ilə məşğul olan xutu xalqı dayanırdı. Ən aşağı pilləni isə ovçuluq və meşə nemətlərini toplamaqla məşğul olan piqmeylər tuturdular.

## Cənubi Afrika

Cənubi Afrikanın mərkəzi və qərb hissəsinin (Kalaxari və Namib səhraları) yerli əhalisini yığıcılıqla – meşə nemətlərini toplamaqla məşğul olan buşmenlər və əsas məşğuliyyət sahəsi maldarlıq olan qottentotlar təşkil edirdi. Faydalı qazıntılar – qızıl, qalay, mis və dəmir filizi ilə zəngin cənub-şərq bölgəsində əkinçilik və sənətkarlıqla məşğul olan şona, karanqa, mazimba və s. tayfaları məskunlaşmışdı.

**Monomotapa**

Xarici aləmlə az bağlı olan Cənubi Afrikanın səhra ərazilərindən fərqli olaraq, Zambezi və Limpopo çayları arasında yaşayan xalqlar Mərkəzi Afrika və Hind okeanının şərq sahillərində yerləşən Afrika xalqları ilə hələ qədimlərdən ticarət əlaqələri saxlayırdılar. Onlar Ofir ölkəsi və Süleyman padşahın mədənləri haqda rəvayətlər yaradan özünəməxsus və orijinal mədəniyyət meydana gətirdilər. İndiki Zimbabve, Mozambik, CAR və Malavi ərazilərində VIII-XVI əsrlərdə dairəvi

və ellips şəklində olan 200-ə yaxın monumental tikililər aşkar edilmişdir. Bunlardan ən irisi «Böyük Zimbabve» – «Zimba oçe» (hərfi mənada, «böyük saray») adlı hündür konusvari qala kompleksidir. Onu yaradan xalqın adı ilə bağlı mədəniyyət isə elmdə «Zimbabve mədəniyyəti» adlanır.

Ərəb və portuqalların orta əsr mənbələrində şona xalqının dövlət qurumu «Mvene Mutapa» və ya Monomotapa adı altında verilir. Yerli rəvayətlərə görə, dövlətin qurucusu Soko-Çironqo adlı karanqa qəbiləsinin başçısı sayılırdı və şifahi ənənə onun dövründə dövlət sərhədlərinin cənuba tərəf genişlənməsini deyir. Dövlətin adı onun hökmdarının titulundan – «mvene mutapa» (hərfi məna – «birləşdirilən ərazilərin hakimi, mədənlərin sahibi») yaranmışdır. Hökmdarın şəxsiyyəti onun təbəələri tərəfindən ilahiləşdirilirdi.

XVI əsrin əvvəllərində bölgədən metalların daşınmasında maraqlı olan portuqallar Monomotapaya gəldilər. Onlar ərəb ölkələrinə və Hindistana metalların ixracı ilə məşğul olan müsəlman tacirlərini buradan sıxışdırıb çıxardılar. 1501-ci ildə onlar Mozambik istehkamını qurdular və mədənlərin istismarı ilə bağlı monomotapadan razılıq aldılar. Qeyd etməliyik ki, yerli əhalinin gəlmələrə qarşı müqaviməti davamlı olmuşdur və vəziyyətdən asılı olaraq gah fəal, gah da passiv xarakter almışdır. Çıxışların yatırılmasında monomotapaya etdikləri köməyə görə portuqallar XVII əsrin əvvəllərində bir sıra imtiyazlar, o cümlədən silah gəzdirmək və bütün ərazilərdə azad hərəkət etmək hüququ əldə etdilər. 1607-ci ildə monomotapa Qatsi Rusere bütün mədənlərin İspaniya və Portuqaliya krallarının ixtiyarına verilməsi haqqında müqavilə imzaladı. Mədənlərin istismarı hüququna görə Portuqaliyanın pul ödəməkdən imtina etməsi tərəflər arasında 20 il sürən müharibəyə səbəb oldu. Müəyyən müddət kəsiyində portuqallar uğur qazana bildilər və hakimiyyəti öz əlaltıları Manuza (xristian adı Filipp) və onun oğlu Dominquşa verdilər.

XVII əsrin sonlarında Portuqaliyaya qarşı mübarizə yenidən qızışdı. Onun başında Monomotapın vassalı, rozvi xalqının hakim sülaləsinin təmsilçisi Çinqamire Dombo dururdu. O, 1684-cü ildə

Maunqva yaxınlığında portuqallar üzərində hərbi qələbə qazandıqdan sonra monomotapa ilə ittifaqa girdi. Onların birgə səyləri nəticəsində portuqallar Mozambik istehkamını tərk etməyə məcbur oldular və birdəfəlik ölkədən qovuldular. Lakin çoxillik müharibələr monomotapanı zəiflətdi. Imperiya dağıldı və onun qalıqları üzərində rozvi hökmdarlarının hakimiyyəti gücləndi.

## Afrikada qul ticarəti

Müstəmləkə dövrünün başlanğıcını qoyan Böyük coğrafi kəşflərdən çox-çox əvvəllər Afrikada qul ticarəti ilə məşğul olurdular. Hələ yeni eranın əvvəllərində Ərəbistan, Fars və Hindistan bazarlarında qaradərili qulların alqı-satqısı geniş yayılmışdı. Xilafətin yaranmasından sonra qul ticarətinə müsəlman tacirləri də qoşuldular. Onlar Şimal-Şərqi, Şərqi və Qərbi Afrikadan çoxlu sayda qul gətirirdilər. Hind okeanında qul alverinin sayəsində Afrikadan olan qullar Çin və Cənub-Şərqi Asiyanın adalarında peyda oldular.

XV əsrdə Tropik Afrikanın qərb sahillərinə portuqallar gəlməyə başladılar. Həmin əsrin sonlarında onlar Afrikadan Hindistana gedən dəniz yollarını kəşf etdilər. İlk vaxtlarda avropalıların Afrikadan idxal etdikləri əsas mallar arasında ədviyyat, fil sümüyü, palma yağı, spirt və parça, taxıl, odlu silah və zinət əşyalarına dəyişdirilən qullar idi. Portuqaliyanın ilk ticarət faktoriyaları Qvineya körfəzinin ada və sahillərində yerləşirdi. Onlardan ən iriləri XV əsrin 80-90-cı illərində yaranmış Elmina, Fernando-Po və San-Tome idi. Qvineya körfəzinin sahillərini portuqallar dörd yerə bölmüşdülər. Onların adlarında avropalıları ən çox maraqlandıran malların adları əks olunurdu: İstiot Sahili, Fil Sümüyü Sahili, Qızıl Sahili, Qul Sahili. Sonralar portuqallar Konqo çayının mənsəbində və Şərqi Afrika sahillərində möhkəmləndilər.

Avropalı tacirlər nadir hallarda qitənin daxili rayonlarına girirdilər. Belə ki, bütün XV əsrdə yalnız bir avropalının Tombuktuda olması məlumdur. Bir qayda olaraq, bütün ticarət əməliyyatları vasitəçilərin köməyi ilə həyata keçirilirdi. Bu funksiyanı Avropa mallarını, ilk növbədə odlu silah növlərini əldə etməkdə maraqlı

olan yerli hökmdarlar yerinə yetirirdilər.

Amerikanın kəşfindən sonra avropalıların Afrika ilə ticarətində qul alveri ön plana keçdi. Qul daşınmasının əsas bölgələri Qvineya körfəzinin sahillərində yerləşən Qul Sahili (indiki Nigeriya və Beninin sahilyanı əraziləri) və Qızıl Sahil (indiki Qana), həmçinin müasir Konqo və Anqolanın sahilyanı bölgələri olmuşdur. Afrikada müstəmləkə işğalının əsasını qoyan Portuqaliyanı tez bir zamanda digər Avropa dövlətləri – XVI əsrin əvvəllərində İspaniya, XVI əsrin ortalarında İngiltərə, XVI əsrin 70-ci illərində Fransa, XVII əsrdə isə Hollandiya əvəz etdi.

Avropalılar tərəfindən həyata keçirilən genişmiqyaslı qul ticarəti XVI-XVII əsrlərdə Qvineya körfəzinin sahilboyu ərazilərində bir sıra siyasi quruluşların, o cümlədən Oyo, Vida, Ardra, Kalabar dövlətləri və Aşanti konfederasiyasının yaranmasına təkan verdi. Onların hökmdarları və yuxarı təbəqələri qul alverindən əldə olunan gəlir paylarını alırdılar.

Əgər Atlantikada qul ticarəti avropalıların inhisarında idisə, Hind okeandakı qul alverində çox sayda ərəblər, hindistanlılar və Afrikanın suahili iştirak edirdi. Bu bölgənin ən iri qul bazarı Zənzibar adası olmuşdur ki, onun sultanı qul ticarətini dəstəkləmiş və himayə etmişdir.

# ƏDƏBİYYAT

## Mənbələr


*Абу Йусуф Йакуб ибн Ибрахим ал-Куфи.* Китаб ал-харадж / Пер. с араб., коммент. А.Э.Шмидта; коммент. к пер. А.С. Боголюбова. СПб., 2001 (Памятники культуры Востока, XVI).

*Абу-л-Хасан Али ибн ал-Хусайн ибн Али ал-Масуди.* Золотые копи и россыпи самоцветов (История Аббасидской династии: 749–947 гг.) / Сост., пер. с араб., примеч., коммент. и указ. Д.В. Микульского. М., 2002.

*Абу-ль-Фарадж аль-Исфахани.* Книга песен / Пер. с араб. А.Б. Халидова и Б.Я. Шидфар. М., 1980.

Аграрный строй Османской империи XV–XVII вв.: документы и материалы / Сост., пер. и коммент. А.С. Тверитиновой. М., 1963.

Арабо-персидские источники о тюркских народах. Фрунзе, 1973.

Арабские источники VII–X веков по этнографии и истории Африки южнее Сахары / Подг. текстов и пер. В.В. Матвеева и Л.Е. Куббеля. М., Л., 1960.

Арабские источники X–XII веков по этнографии и истории Африки южнее Сахары / Подг. текстов и пер. В.В. Матвеева и Л.Е. Куббеля. М., Л., 1965.

Арабские источники XII–XIII веков по этнографии и истории Африки южнее Сахары / Подг. текстов и пер. В.В. Матвеева и Л.Е. Куббеля. Л., 1985.

Арабские источники XIII–XIV веков по этнографии и истории Африки южнее Сахары / Отв. ред. В.А. Попов. М., 2002.

*Байхаки Абу-л-Фазл.* История Масуда (1030–1041) / Пер. с перс, введ., коммент. и прилож. А.К. Арендса. М., 1969.

Бабур-намэ: Записки Бабура / Пер. М. Салье. Ташкент, 1958.

*Бернье Ф.* История последних политических переворотов в государстве великого Могола. М., Л., 1936.

*Бируни Абу Рейхан.* Индия / А.Б. Халидов, Ю.Н. Завадовский, В.Г. Эрман. М., 1995.

*Бичурин Н.Я.* Собрание сведений о народах Средней Азии в древние времена. М., Л., 1950–1953. Т. 1–3.

*Ал-Газали Абу Хамид.* Воскрешение наук о вере / Пер. с араб., исслед. и коммент. В.В. Наумкина. М., 1980.

*Гийасаддин Али.* Дневник похода Тимура в Индию / Пер. с перс. А.А.Семенова. М., 1958.

*Джувейни.* История завоевателя мира. М., 2004.

*Е Лун-ли.* История государства киданей / Пер. с кит. В.С. Таскина. М., 1979.

Записки янычара: написаны Константином Михайловичем из Островицы / Введ., пер. и коммент. А.И. Рогова. М., 1978.

*Ибн Абд ал-Хакам Абд ар-Рахман.* Завоевание Египта, ал-Магри-ба и ал-Андалуса / Пер. с араб., предисл. и примеч. СБ. Певзнера.М., 1985.

*Ибн ал-Араби.* Мекканские откровения / Введ., пер. с араб., примеч. и библиогр. А.Д. Кныша. СПб., 1995 (Памятники культуры Востока, V).

*Ибн Джубайр.* Путешествие / Пер. с араб. Л.А. Семеновой. М.,1984.

*Ибн Хордадбех.* Книга путей и стран / Пер. с араб., коммент., исслед., указатели и карты Н. Велихановой. Баку, 1986.

Измененный и заново утвержденный кодекс девиза царствования Небесное процветание (1149–1169) / Изд. текста, пер. с тангутского, исслед. и примеч. Е.И. Кычанова. М., 1988. Кн. 1.

*Калинина Т.М.* Сведения ранних ученых Арабского халифата: тексты, перевод, комментарий. М., 1988 («Древнейшие источники по истории народов СССР»).

*Клавихо Руи Гонсалес де.* Дневник путешествия в Самарканд ко двору Тимура (1403–1406) / Пер. со староисп., предисл. и коммент. И.С. Мироковой. М., 1990.

Книга законов султана Селима I / Изд. текста, пер., термином. коммент. и предисл. А.С. Тверитиновой. М., 1969.

Книга путешествий / Сост. В.В. Малявин. М., 2000

Книга Сунны и Шары мавров / Пер., вступит, ст. и коммент. И.И. Варьяш. М., 1995.

*Ковалевский А.П.* Книга Ахмеда Ибн Фадлана о его путешествии на, Волгу в 921–922 гг. Харьков, 1956.

*Коновалова И.Г.* Ал-Идриси о странах и народах Восточной Европы: текст, перевод, комментарий М., 2006 («Древнейшие источники по истории Восточной Европы»).

*[Кюнер Н.В.]* Китайские известия о народах Южной Сибири, Центральной Азии и Дальнего Востока. М., 1961.

Материалы по экономической истории Китая в раннее средневековье / Пер. с кит. А.А. Бокщанина и Лин Кюньи. М., 1980.

Мебде-и канун-и йеничери оджагы тарихи (История происхождения законов янычарского корпуса) / Изд. текста, пер. с тур., введ., коммент. и указ. И.Е. Петросян. М., 1987.

*Медников Н.А.* Палестина от завоевания ее арабами до крестовых походов по арабским источникам. СПб., 1897–1902. Т. I–II.

*Насир-и Хусрау.* Сафар-намэ / Пер. и примеч. Е.Э. Бертельса. М., Л., 1933.

Османская империя в первой четверти XVII века: сборник документов и материалов / Сост. Х.М. Ибрагимбейли, Н.С. Рашба М, 1984.

*Плано Карпини Дж.* История монголов. *Рубрук Г. де.* Путешествие в восточные страны. Книга Марко Поло / Вступ. ст., коммент. М.Б. Горнунга. М, 1997.

*Попов К.А.* Законодательные акты средневековой Японии. М., 1984.

После Марко Поло: путешествия западных чужеземцев в страны трех Индий / Пер. с лат. и староитал. яз., введ. и примеч. Я.М.Света. М., 1968.

*Прозоров СМ.* «Книга о религиях и сектах» Мухаммада аш-Шах-растани. Ч. 1: Ислам / Пер. с араб., введ. и коммент. М., 1984.

Путешествие Абу Хамида ал-Гарнати в Восточную и Центральную Европу (1131—1153 гг.) / Публ. О.Г. Большакова, А.Л. Монгайта. М., 1971.

*Рашид ад-Дин.* Сборник летописей. Т. 1–3. (Разные изд.)

Свод законов «Тайхорё» / Вступит, ст, пер. и коммент. К.А. Попова. М., 1985. Ч. 1-2.

Сиасет-наме: Книга о правлении вазира XI столетия Низам ал-Мулька / Пер., введ. в изучение памятника и примеч. проф. Б.Н. Заходера. М., Л., 1949.

Сокровенное сказание монголов / Пер. С.А. Козина. М., 2002.

*Ат-Табари Мухаммад.* «История» ат-Табари: избранные отрывки/ Пер. с араб., предисл. В.И. Беляева. Ташкент, 1987.

*Тамерлан.* Автобиография. Уложение / Пер. В.А. Панова. М., 2006.

Тан люй шу и: Уголовные установления Тан с разъяснениями / Пер., введ. и коммент. В.М. Рыбакова. СПб., 1999–2005.

*Усама ибн Мункыз.* Книга назидания / Пер. с араб. М.А. Салье. М., 1958.

*Усманов М.А.* Жалованные грамоты Джучиева Улуса XIV–XVI вв. Казань, 1979.

*Хилал ас-Саби.* Установления и обычаи двора халифов (Русум дар ал-хилафа) / Пер. с араб., предисл. и примеч. И.Б. Михайловой. М., 1983.

*Хишам ибн Мухаммад ал-Калби.* Книга об идолах (Китаб ал-аснам) / Пер. с араб., предисл. и примеч. Вл.В. Полосина. М., 1984.

*Ал-Хусайни Садр ад-Дин Али.* Ахбар ад-даулат ас-Сельджукиййа: Сообщение о Сельджукском государстве / Изд. текста, пер., введ.. примеч. и прилож. З.М. Буниятова. М., 1980.

*Аш-Шахрастани Мухаммад ибн Абд ал-Карим.* Книга о религиях и сектах / Пер. с араб., введ. и коммент. СМ. Прозорова. М., 1984. Ч. 1.

*Шихаб ад-Дин Мухаммад ибн Ахмад ан-Насави.* Сират ас-султан Джалал ад-Дин Манкбурны: (Жизнеописание султана Джалал ад-Дина Манкбурны) / Критич. текст, пер. с араб., предисл., коммент., примеч. и указ. З.М. Буниятова. М., 1996.

*Эвлия Челеби.* Книга путешествия (Извлечения из сочинения турецкого путешественника XVII в.) / Пер. с тур. М., 1961-1983. Вып. 1-3.

**Dərsliklər və dərs vəsaitləri**

*Васильев Л.С.* История Востока: 3-е изд. М., 2003. Т. I.

*Васильев Л.С.* История религий Востока: 7-е изд. испр. и доп. М., 2004.

Новая история стран Азии и Африки / Под ред. А.М. Родригеса. М., 2004. Ч. 1-3.

*Aslanov R., Axundova N., Məmmədov A.* Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi XI. B. 1996.

*İsmayılov R., Axundova N.* Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. (Feodalizm dövrünün xüsusiyyətləri). B.: 1996.

История стран Зарубежной Азии в средние веке. М.-Л., 1970.

История стран Азии и Африки в средние века. М., т.1-2. 1996.

**Ümumi ədəbiyyat**

Государство в докапиталистических обществах Азии / Под ред. Г.Ф.Кима, К.З. Ашрафян. М., 1987.

История Востока в шести томах. М., 1995. Т. II: Восток в средние века; М., 1999. Т. III: Восток на рубеже Средневековья и Нового времени: XVI–XVIII вв.

Классы и сословия в докапиталистических обществах Азии / Под ред. Г.Ф. Кима, К.З. Ашрафян. М., 1986.

Типы общественных отношений на Востоке в средние века / Под ред. Л.Б.Алаева. М, 1982.

Частная собственность на Востоке / Под ред. Л.С. Васильева. М., 1998.

Феномен восточного деспотизма: структура общества и власти / Под ред. Н.А. Иванова. М., 1993.

**İslam və ərəb tarixinə dair ədəbiyyat**

*Абдуллаева Ф.И.* Персидская кораническая экзегетика: тексты, переводы, комментарии. СПб., 2000.

*Аликберов А.К.* Эпоха классического ислама на Кавказе: Абу Бакр ад-Дарбанди и его суфийская энциклопедия «Райхан ал-ха-каик» (XI-XII вв.). М, 2003.

Арабская средневековая культура и литература: сб. статей зарубежных ученых. М., 1978.

*Бартольд В.В.* Сочинения. М., 1966. Т. VI: Работы по истории ислама и Арабского Халифата.

*Белл Р., Уотт М.* Коранистика. Введение / Пер. с англ. СПб., 2005.

*Бертельс Е.Э.* Избранные труды. М., 1965. Т. 3: Суфизм и суфийская литература.

*Большаков О.Г.* История Халифата. М., 1989. Т. I: Ислам в Аравии (570-633); М., 1993. Т. II: Эпоха великих завоеваний (633-656); М, 1998. Т. III: Между двух гражданских войн (656–696).

*Большаков О.Г.* Средневековый город Ближнего Востока: VII - середина XIII в. М., 1984.

*Грюнебаум Г.Э.* Классический ислам: очерк истории (600-1258) / Пер. с англ. М., 1988.

*Грюнебаум Г.Э.* Основные черты арабо-мусульманской культуры. М, 1981.

*Дафтари Ф.* Традиции исмаилизма в средние века. М, 2006.

*Заходер Б.Н.* Каспийский свод сведений о Восточной Европе. М., 1962, Т. I; М., 1967. Т. II.

*Ибрагим Т., Ефремова Н.* Мусульманская священная история от Адама до Иисуса: рассказы Корана о посланниках Божьих / Под ред. А.В. Сагадеева. М., 1996.

Ислам: историографические очерки / Под общ. ред. С.М. Прозорова. М., 1991.

Ислам: религия, общество, государство. М., 1984.

*Кныш А.Д.* Мусульманский мистицизм: краткая история / Пер. с англ., сост. указ. М.Г. Романов. М., СПб., 2004.

*Коротаев А.В., Клименко В.В., Прусаков Д.Б.* Возникновение ислама: социально-экологический и политико-антропологический контекст. М., 2007.

*Крачковский И.Ю.* Арабская географическая литература // Крачковский И.Ю. Избранные сочинения. М., Л., 1957. Т. IV.

*Леви-Провансаль Э.* Арабская культура в Испании. М., 1967.

*Мец А.* Мусульманский Ренессанс (Разные изд.).

*Микульский Д.В.* Арабский Геродот. М., 1998.

*Минорский В.Ф.* История Ширвана и Дербенда X – XI вв. М., 1963.

*Михайлова И.Б.* Средневековый Багдад: некоторые аспекты социальной и политической истории города в середине X – середине XIII в. М., 1990.

*Мишин Д.Е.* Сакалиба (славяне) в исламском мире в раннее средневековье. М., 2002.

*Уотт М.* Влияние ислама на средневековую Европу. М., 1976.

Мусульманский мир: 950 – 1150: сб. статей / Пер. с англ. М., 1981.

*Негря Л.В.* Общественный строй Северной и Центральной Аравии в V-VII вв. М., 1981.

*Новосельцев А.П.* Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. М., 1990.

Очерки истории арабской культуры V – XV вв. М., 1982.

Очерки распространения исламской цивилизации. М., 2002. Т. 1: От рождения исламской цивилизации до монгольского завоевания; Т. 2: Эпоха великих мусульманских империй и Каирского Аббасидского халифата (середина XIII – середина XVI в.).

*Пигулевская Н.В.* Арабы у границ Византии и Ирана. М., Л., 1964.

*Пигулевская Н.В.* Культура сирийцев в средние века. М., 1979.

*Пиотровский М.Б.* Коранические сказания. М., 1991.

*Пиотровский М.Б.* Южная Аравия в раннее средневековье: становление средневекового общества. М., 1985.

*Прозоров СМ.* Ислам как идеологическая система. М., 2004.

*Резван Е.А.* Коран и его мир. СПб., 2001.

*Резван Е.А:* Коран и его толкования: тексты, переводы, комментарии. СПб., 2000.

*Родионов М.А.* Ислам классический. СПб., 2004.

*Роузенталь Ф.* Торжество знания: концепция знания в средневековом исламе / Пер. с англ. С.А. Хомутова; предисл. и примеч. А.В. Сагадеева. М., 1978.

*Сурдель Д., Сурдель Ж.* Цивилизация классического ислама / Пер. с фр. В. Бабинцева. Екатеринбург, 2006.

*Тор А.* Исламские мистики. СПб., 2003.

*Тримингем С.* Суфийские ордены в исламе / Пер. с англ.; под ред. и с предисл. О.Ф. Акимушкина. М., 1989.

*Уотт М.* Мусульманская Испания. М, 1976.

*Фадеева И.Л.* Концепция власти на Ближнем Востоке: Средневековье и Новое время. 2-е изд. М, 2001.

*Фильштинский И.М.* История арабов и Халифата (750-1517 гг.): 3-е изд., испр. и доп. М., 2006.

*Халидов А.Б.* Арабские рукописи и арабская рукописная традиция. М, 1985.

*Хисматулин А.А.* Суфизм. СПб., 2003.

*Хузин Ф.Ш.* Волжская Булгария в домонгольское время (X- начало XIII века). Казань, 1997.

*Шиммель А.* Мир исламского мистицизма. М., 1999.

*Заборов М.А.* Крестоносцы на Востоке. М., 1980.

*Лучицкая СИ.* Образ Другого: мусульмане в хрониках крестовых походов. СПб., 2001.

*Семенова Л.А.* Из истории Фатимидского Египта. М., 1974.

*Семенова Л.А.* Салах ад-Дин и мамлюки в Египте. М., 1966.

**Türkiyə I**

*Агаджанов С.Г.* Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. М., 1991.

*Агаджанов С.Г.* Очерки истории огузов и туркмен Средней Азии з IX-XIII вв. Ашхабад. 1969.

*Агаджанов С.Г.* Сельджукиды и Туркмения в XI – XIIвв. Ашхабад, 1973.

*Буниятов З.М.* Государство Хорезмшахов-Ануштегинидов. 097-1231. М., 1986.

*Гордлевский В.А.* Государство Сельджукидов Малой Азии. М., 1., 1941.

*Кляшторный С.Г.* История Центральной Азии и памятники рунического письма. СПб., 2003.

*Кумеков Б.Е.* Государство кимаков IX – XI вв. по арабским источникам. Л., 1986.

*Семенова Л.А.* Из истории средневековой Сирии: Сельджукский период. М., 1990.

*Шукуров Р.М.* Великие Комнины и Восток (1204 – 1461). СПб., 001.

**Monqollar**

*Бартольд В.В.* Сочинения. М., 1968. Т V: Работы по истории и филологии тюркских и монгольских народов.

Дешт-и Кипчак и Золотая Орда в становлении культуры евразийских на-

родов. М., 2003.

*Жуковская Н.Л.* Кочевники Монголии: культура, традиции, символика. М., 2002.

История татар с древнейших времен. В семи томах. Казань, 2006. Т. II: Волжская Булгария и Великая Степь.

*Кляшторный С.Г., Султанов Т.И.* Государства и народы Евразийских степей: древность и средневековье. СПб., 2000.

*Кычаиов Е.И.* Кочевые государства от гуннов до маньчжуров. М., 1997.

*Султанов Т.И.* Чингизхан и Чингизиды: судьба и власть. М., 2006.

Татаро-монголы в Азии и Европе. М., 1977.

*Трепавлов В.В.* Государственный строй Монгольской империи XIII в. М., 1993.

**Türkiyə II**

*Гасратян М.А., Орешкова С.Ф., Петросян Ю.А.* Очерки истории Турции. М., 1983.

*Еремеев Д.Е.* На стыке Азии и Европы: очерки о Турции и турках. М., 1980

*Еремеев Д.Е.* Этногенез турок (Происхождение и основные этапы этнической истории). М., 1971.

*Еремеев Д. Е., Мейер М.С.* История Турции в средние века и новое время. М., 1992.

*Зеленев И.Е.* Государственное управление, судебная система и армия в Египте и Сирии. СПб., 2003.

*Иванов И.А.* Османское завоевание арабских стран. 1516-1574: 2-е изд., доп. М, 2001.

История Османского государства, общества и цивилизации. М. 2006. Т. 1-2.

*Лорд Кинросс.* Расцвет и упадок Османской империи / Под ред. д.и.н. М.С. Мейера. М., 1999.

Османская империя: государственная власть и социально-политическая структура. М., 1990.

Османская империя: система государственного управления, социальные и этнорелигиозные проблемы. М., 1986.

Османская империя и страны Центральной, Восточной и Юго-Восточной Европы в XV–XVI вв.: главные тенденции политических взаимоотношений. М., 1984.

*Петросян Ю.А.* Османская империя: могущество и гибель: исторические

очерки. М., 1990.

*Удалова Г.М.* Йемен в период первого османского завоевания (1538-1635). М., 1988.

*Фрейденберг М.М.* Дубровник и Османская империя. М, 1989.

**İran**

*Акимушкин О.Ф.* Средневековый Иран: культура, история, филология. СПб., 2004.

*Бертельс Е.Э.* Избранные труды: история литературы и культуры Ирана. М., 1988.

*Колесников А.И.* Завоевание Ирана арабами (Иран при «праведных» халифах). М., 1982.

Очерки истории культуры средневекового Ирана: письменность и литература. М., 1984.

*Петрушевский И.П.* Ислам в Иране в VII-XV вв.: курс лекций. Л., 1966.

*Строева Л.В.* Государство исмаилитов в Иране в XI-XIII вв. М., 1978.

**Hindistan**

*Азимджанова С.А.* Государство Бабура в Кабуле и Индии. М., 1977.

*Алаев Л.Б.* Средневековая Индия. СПб., 2003.

*Антонова К.А., Бонгард-Левин Г.М., Котовский Г.Г.* История Индии. М, 1979.

*Ашрафян К.З.* Делийский султанат: к истории экономического строя и общественных отношений (XIII-XIV вв.). М., 1960.

*Ашрафян К.З.* Средневековый город Индии XIII - середины XVIII века. М., 1983.

*Ванина Е.Ю.* Идеи и общество в Индии XVI-XVIII вв. М., 1993.

История Индии в средние века. М., 1968.

*Котин И.Ю.* Ислам в Южной Азии: мечом и молитвой. СПб.,2005.

*Медведев Е.М.* Очерки истории Индии до XIII в. М., 1990.

*Суворова А.А.* Мусульманские святые Южной Азии XI-XV веков. М., 1999.

*Успенская Е.Н.* Раджпуты: рыцари средневековой Индии. СПб., 2000.

**Çin**

*Бокщанин А.А.* Китай и страны Южных морей в XIV-XVI вв. М., 1968.

История Китая. М., 2004.

*Кравцова М.Е.* История культуры Китая. СПб., 1999.

*Крюков М.В., Малявин В.А., Софронов М.В.* Китайский этнос в средние века (VII-XIII вв.). М., 1984.

*Крюков М.В., Малявин В.А., Софронов М.В.* Китайский этнос на пороге средних веков. М., 1979.

*Крюков М.В., Малявин В.А., Софронов М.В.* Этническая история китайцев на рубеже средневековья и нового времени. М., 1987.

*Ломбар Д.* Императорский Китай. М., 2004.

*Малявин В.В.* Китайская цивилизация. М., 2000.

**Yaponiya**

*Воробьев М.В.* Япония в III-VII вв.: этнос, общество, культура и окружающий мир. М., 1980.

*Искендеров А.А.* Феодальный город Японии. М., 1961.

*Конрад Н.И.* Очерки истории культуры средневековой Японии.М., 1980.

*Кузнецов Ю.Д., Навлицкая Г.Б., Сырицын И.М.* История Японии.М., 1988.

*Ласков С.С.* Япония в раннее средневековье VII-XII вв. М.,1987.

*Спеваковский А.Б.* Самураи - военное сословие Японии. М., 1981.

**Koreya**

*Бутин Ю.В.* От Древнего Чосона к Трем государствам. Новосибирск, 1984.

*Ванин Ю.В.* Феодальная Корея в XIII – XIV веках. М., 1962.

*Джарылгасинова Р.Ш.* Древние когурёсцы. М., 1972.

История Кореи (с древнейших времен до наших дней). М., 1974, Т. 1.

*Тихонов В.М.* История Кореи. М., 2003. Т. 1: С древнейших времен до 1876 г.

**Cənub-Şərqi Asiya**

*Бандиленко Г.Г.* Культура и идеология средневековых государств Явы: очерк истории VIII-XV вв. М., 1984.

*Бандиленко ТТ., Гневушева Е.И., Деопик Д.В.* История Индонезии. М., 1992. Ч. 1.

*Берзин Э.О.* Юго-Восточная Азия в XIII-XVI веках. М., 1982.

*Всеволодов И.В.* Бирма: религия и политика: буддийская сангха и Государство. М., 1978.

*Деопик Д.В.* История Вьетнама. М., 1994. Ч. 1.

История Кампучии: краткий очерк. М., 1981.

*Левтонова Ю.О.* История Филиппин. М., 1979.

*Машкина И.И.* Вьетнам и Китай III-XIII вв. М, 1978.

*Можейко И.В.* 5000 храмов на берегу Иравади (Паганское царство). М, 1967.

*Можейко И.В., Узянов А.Н.* История Бирмы (Краткий очерк). М,, 1973.

*Ребрикова Н.В.* Таиланд: социально-экономическая история (XIII–XVIII вв.). М., 1977.

*Сафронова А.Л.* История Шри Ланки в древности и средние века. М., 1987.

*Седов Л.А.* Ангкорская империя. М., 1967.

*Тюрин В.А.* История Малайзии. М., 1980.

**Африка**

*Бондаренко Д.М.* Бенин накануне первых контактов с европейцами: Человек. Общество. Власть. М., 1995.

*Бондаренко Д.М.* Доимперский Бенин: формирование и эволюция системы социально-политических институтов. М., 2001.

*Жюльен Ш.А.* История Северной Африки от арабского завоевания до 1830 года. М., 1961.

*Киселев Г.С.* Доколониальная Африка: формирование классового общества. М., 1985.

*Кобищанов Ю.М.* История распространения ислама в Африке. М., 1987.

*Кочакова Н.Б.* Рождение африканской цивилизации (Ифе, Ойо, Бенин, Дагомея). М., 1986.

*Куббель Л.Е.* Сонгайская держава: опыт исследования социально-политического строя. М., 1974.

*Львова Э.С.* История Африки в лицах: биографические очерки. М., 2002. Вып. 1: Африка в доколониальную эпоху.

*Миллер Дж.* Короли и сородичи: ранние государства мбунду в Анголе. М., 1984.

Традиционные культуры африканских народов: прошлое и настоящее / Под ред. Р.Н. Исмагиловой. М., 2000.

Цивилизации Тропической Африки: общества, культуры, языки / Под ред. И.В. Следзевского. М., 1993.

*Чураков М.В.* Народные движения в Магрибе под знаменем хариджизма. М., 1990.

## MÜNDƏRİCAT


**Giriş** ... 3

**Yaponiya orta əsrlərdə** ... 5

**Çin orta əsrlərdə** ... 29
Çin II-VIII əsrlərdə ... 29
Çin VIII əsrdən-XVII əsrin birinci yarısına qədərki dövrdə ... 40

**Koreya orta əsrlərdə** ... 65

**Cənub-Şərqi Asiya ölkələri orta əsrlərdə** ... 73
Lanka ... 73
Birma ... 75
Kamboca ... 76
Tailand ... 76
Laos ... 77
Vyetnam ... 77
Malayya ... 79
Bruney ... 80
İndoneziya ... 81
Filippin ... 83

**Hindistan orta əsrlərdə** ... 85
Hindistan V-XIII əsrlərdə ... 85
Hindistan XIII-XVII əsrin ortalarında ... 103

**Monqolustan orta əsrlərdə** ... 123

**Ön Asiya ölkələri orta əsrlərdə** ... 138
Sasanilər dövləti ... 138
Ərəb-müsəlman dövlətinin yaranması ... 154
*Ərəb xilafətinin yaranması* ... 161
*Əməvilər xilafəti* (661-750) ... 166
*Abbasilər xilafəti* (750-1258) ... 171

Böyük Səlcuq dövləti ........ 186
Kiçik Asiya Səlcuq Sultanlığı ........ 195
Elxanilər dövləti ........ 204
İraq, Suriya və Misir XI-XV əsrlərdə ........ 212
*İraq* ........ 212
*Fatimilər dövləti* (910-1171) ........ 216
*Əyyubilər dövləti* (1171-1250) ........ 223
*Məmlük dövləti* (1250-1517) ........ 227
Osmanlı dövləti XIV əsr – XVII əsrin birinci yarısında ........ 233
Ərəb ölkələri Osmanlı imperiyasının tərkibində ........ 251
Səfəvilər dövləti ........ 260

**Əfqanıstan orta əsrlərdə ........ 276**

**Səhraaltı Afrika orta əsrlərdə ........ 291**
Şimal-Şərqi Afrika ........ 293
Qərbi Afrika ........ 297
Qvineya körfəzi sahili ........ 302
Şərqi Afrika sahilləri ........ 304
Mərkəzi Afrika ........ 306
Savannanın daxili rayonlarının dövlətləri ........ 308
Göllərarası dövlətlər ........ 309
Cənubi Afrika ........ 310
Afrikada qul ticarəti ........ 312

**Ədəbiyyat** ........ 314

Nərgiz Çingiz qızı AXUNDOVA

# ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİNİN ORTA ƏSRLƏR TARİXİ

*Dərslik*

**Çapa imzalanmışdır:** 21.12.2010
**Kağız formatı:** 60x90 1/16
**H/n həcmi:** 20,5 ç.v.
**Sifariş:** 385
**Sayı:** 300

Kitab «ADİLOĞLU» nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.
*Ünvan:Bakı şəh., Şərifzadə küç., 202*
*Tel.: 418-68-25; 433-00-43; (050) 593 27 77*
*Web: www.adiloglu.az;*
*E-mail: adiloglu2000@gmail.com*